AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2023

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №2

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

DİLÇİLİK

SİMA QULİYEVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TEXNİKİ TERMİNLƏRİN İNKİŞAFINDATERMİNOLOJİ LÜĞƏTLƏRİN ROLU

Xülasə

Məqalədə XX əsrin əvvəllərində texniki terminlərin inkişafında terminoloji lüğətlərin rolundan bəhs olunur. Bu dövrdə terminlər pərakəndə şəkildə idi. Azərbaycan dilində texniki terminlər 20-ci illərdən başlayaraq lüğət şəklində tərtib olunmağa başladı. Bunun üçün "İdarələri milliləşdirmə Komitəsi" və bu Komitənin nəzdində bir neçə nəfərdən ibarət "İstilah Komissiyası" təşkil edilmişdir. Elmi fəaliyyətə başlayan komissiya Azərbaycan ali məktəblərində çalışan elmi işçilərin bir çoxunu işə cəlb edib üç seksiya və bir büro şəklində çalışmağa başlayır. Üç seksiyadan biri də Texniki-riyaziyyat seksiyası idi. Bu dövrdə texnika elmlərinin ayrı-ayrı sahələri kifayət qədər inkişaf etməmişdi. Ona görə texniki terminlər lüğətlərində digər sahələrə aid terminlərlə birlikdə verilirdi. Lüğətlərdə beynəlxalq terminlər olduğu kimi verilmişdir. Əsas terminlər və törəmə terminlər əlifba sırasına uyğun olaraq verilmişdir. İlk terminoloji lüğətlər nöqsandan xali deyildir. Bu illərdə İstilah Komissiyası elmi bir prinsip tərtib etməmiş, ancaq fərdi əsaslara istinadən, ehtiyaclarını ödəməyə çalışmışlar.

Açar sözləri: XX əsrin əvvəlləri, Azərbaycan dili, texniki terminlər, terminoloji lüğətlər.

Azərbaycan dili terminologiyasının tarixi qədim olsa da, elmi terminologiyanın sabitləşməsi tarixi prosesi keçmiş sovet dövlətinin qurulmasından sonra başlayır. Məhz bu dövrdə Azərbaycan dilinin ictimai funksiyası genişlənmiş, sosializm quruculuğu şəraitində həyatın bütün sahələrində terminologiya formalaşmış, ədəbi dilin normalarında tənzimləmə baş vermiş, həmçinin dilimizin elmi terminologiyasında əsaslı kəmiyyət və keyfiyyət dəyişmələri baş vermiş, yeni anlayış və məfhumlar və bu anlayışları ifadə edən yeni termin və terminoloji ifadələr yaranmışdır [1].

Azərbaycan dilində terminlərin işlənməsi tarixi orta yüzilliklərə gedib çıxır və sonrakı dövrlərdə müəyyən inkişaf prosesi keçirir. Lakin buna baxmayaraq, inqilabdan əvvəl, Azərbaycan dilində terminlər bir sistem şəklində sabitləşməmişdir. Həmin dövrdə texniki terminlər də qeyri-bərabər şəkildə inkişaf prosesi keçirmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ictimai həyatın bütün sahələrində olduğu kimi, texniki terminologiyanın da hərtərəfli inkişafı üçün imkanlar açıldı. Texniki terminlərin inkişafında, onun zənginləşməsində sovet dövrü xüsusi mərhələdir və bu özündə bir neçə inkişaf pillələrini birləşdirir.

Azərbaycanda həmin dövrə uyğun istilahların azlığı ehtiyacı ödəmək tələbini ortaya qoymuşdur. Bu ehtiyacı təmin etmək üçün 1922-ci dilə N.Nərimanovun rəhbərliyi ilə "İdarələri milliləşdirmə Komitəsi" və bu Komitənin nəzdində bir neçə nəfərdən ibarət "İstilah Komissiyası" təşkil edilmişdir. Bu Komitə və Komissiyanın Xalq Komissarlar Şurası yanında bir illik fəaliyyəti müddətində gördüyü iş, gələcəklə aparılacaq işlər üçün bir başlanğıc olub bir təşqital dövrü mahiyyətində idi.

1928-ci ildə Baş Elmi Müəssisələr İdarəsi yanında Dövlət İstilah Komitəsi təşkil edilmiş, 1929-cu ildə isə elmi fəaliyyətə başlamışdır. Yeni İstilah Komitəsi təşkilat məsələlərini həll etdikdən sonra, nəhəyət 1930-cu ilin əvvəllərində Azərbaycan Dövləti Elmi Tədqiq İnstitutu yanına köçürülür, olduqca ciddi bir məsələ qarşısında bulunduğunu etiraf edərək həyata gətirəcəyi bir işdə elm bir prinsip üzrə çalışmağı qərara alır və bu məqsədlə Azərbaycan ali məktəblərində çalışan elmi işçilərdən istifadə etmək üçün onlardan bir çoxunu işə cəlb edib üç seksiya və bir büro şəklində fəaliyyətə başlayır. Bu bölmələr: 1) Bioloji təhliyat; 2) Texniki-riyaziyyat; 3) Humanitar seksiyalardan və 4) orfoqrafiya bürosundan ibarət idi [4].

1924-cü ildə texniki sahə ilə bağlı nəşr olunan "Dəmiryol işlənmə istilahları" ilk terminoloji lüğətlərdəndir. Lüğətdə müxtəlif texniki terminlər verilmişdir. Məsələn, *Morzenin aparatı, hamut, yanacaq, xərrat dəzgahı, yük qatarı, qayçı dəzgahı, stasion çəni, sürət qatarı, rabitə, yükləmə rüsumu, saldo, rəqizisyon, şüanı dəlmə aparatı* və s.

Burada beynəlxalq terminlər də verilmişdir, bu sözlər olduğu kimi saxlanılmışdır. Məsələn, *tranzit, dividen, fatura, iştampa, kreans, manometro, rekvizisyon, elevator, qrafit, qalvanoskop, generator, enjektor, transformator* və s.

Lüğətdə bəzi terminlərin qarşılığı həm Avropa dillərinə məxsus sözlər, həm də ərəb mənşəli sözlərlə verilmişdir. Məsələn, *транспор – transpor (nəql), фрахт – fraxt (kirə), эксперт – eksper (əhli xibrə), цилиндр – istivanə (silindr), циркуляр – təmimnamə (sirqulər)* və s.

"Dəmiryol işlənmə istilahları" lüğətində bəzi terminlər ya ərəb sözləri, ya da öz sözlərimiz ilə əvəz olunmuşdur ki, bu terminlər sonradan öz işləkliyini itirdi. Məsələn, *шлагбаум – yol mancanığı, смета – kəşf, диаметр – kütr, диск – dayirə* və s. [2]

1926-cı ildə texniki sahə ilə bağlı nəşr olunan növbəti terminoloji lüğət "*Ruscadan-türkcəyə yollar texniki istilahlar lüğəti*"dir. "Ruscadan-türkcəyə yollar texniki istilahlar lüğəti"nin gürcücə, ermənicə çıxmaları yollar komissarının Z.ɜ.C.I. nəzdində olan müvəkkili Zalva Elijavanın təşəbbüsü ilə əmələ gəlmişdir. Türk lüğəti düzəldən komissiya professor mühəndis X.B. Məlik-Aslanov sədarəti altında olub və

Əli Yusif-zadə, Əbdul-Əbdulzadə, mühəndis M.B.Məhəmmədbəyov və A.B.Bəylərbəyov çalışmışlardır. Komissiya bu əsaslar üzrə çalışmışdır:

1) mümkün olan qədər xalq arasında işlənən sözləri alıb, yeni sözlər yaratmamaq;

2) Ümumi Avropa dillərində qəbul olunan istilahları tərcümə etməyib qəbul etmək;

3) Hər rus istilahına qarşı yalnız bir türk istilahı qoymaq, bəzən ikinci istilaha hacət olursa həmən kəlmələri dırnaq " " arasına almaq.

Lüğəti düzəldərkən altı lisanda texniki lüğət, 3 sami-fransızca-türkcə kamus, fransızcadan türkcəyə istilahlar lüğəti və qeyridən istifadə olunmuşdur [3, s.2].

"*Ruscadan-türkcəyə yollar texniki istilahlar lüğəti*"ndə verilmiş texniki terminlər: *amiral dairəsi, bataqlıq qazı, çatal vidəsi, pirinc, bromj, burğu, nəqliyyat bürosu* və s.

Lüğətdə beynəlxalq texniki terminlər olduğu kimi verilmişdir. Məsələn, *aeroplan, amper, binokl, otomobil, aeromexanik, bandro, aksonometri, akvarel, bufer bataryası, vakuum, vakuumetro* və s.

Burada bir qisim texniki terminlərin törəmələri də verilmişdir. Məsələn, *арка – taq (kəmər)*

арка коробовая – qulpvari taq

арка возвышенная – yüksək taq

арка обратная – tərs taq

арка отрельчатая – sivri taq və yaxud

acanta, stasyon nöbətçi acantası, yüklər arayan acanta, əmr acantası, xüsusi hesab acantası.

Lüğətdə iki terminlə eyni mənanı bildirmək üçün istifadə olunmuşdur. Texniki terminlər həm Avropa dillərində olduğu kimi, həm də ərəb sözləri ilə verilmişdir. Məsələn, *геология – elmil ərz (giologi), гимнастика – ədman (gimnastik) , лубрикатор – yagdan (lubrikator), асимптота – xətti məcanib (asimtot), акцептация – (qəbul) akseptasyon, баркас – barkas (istimbad), босман – dəniz baş çavuşu (bosman)* və s.

Bəzi texniki terminlər isə qəliz ərəb sözləri ilə əvəz olunmuşdur ki, müasir dövrdə bu terminlər işlənmir. Məsələn, *акведук – su yolu, арифметика – hesab elmi, арбитр – həkəm, арбитражный – həkəm üsuli, штрих – cizgi* və s.

Lüğətdə dilin daxili imkanları hesabına yaranan texniki terminlər də işlənmişdir. Məsələn, *burğu, oyuqlu burğu*, *yağlama dəliyi* və s.

"*Ruscadan-türkcəyə yollar texniki istilahlar lüğəti*"ndə türk dilində işlənən sözlərə də rast gəlmək mümkündür. Məsələn, *fazla (absis), авансал – qəbul odası, агрегатный – takım* və s.

1930-cu ildə İstilah Komitəsinin Bulleteni №1 "Nəzəri mexanikdən istilah lüğəti" nəşr olunmuşdur. İstilah Komitəsinin hazırladığı 10000 sözdən artıq istilah materiallarını sıra ilə Komitənin "Bulleteni" içərisində müxtəlif dissiplinlərdən ayrı-

ayrı lüğətlər şəklində nəşr etməyə qərar verdi. Bulletinin birinci nömrəsində nəzəri mexanik istilahlar verilmişdir.

Riyaziyyat-texniki seksiyanın əsas prinsipi, bütün başqa seksiyalarda olduğu kimi, istilah komitəsinin ümumi prinsipləridir ki, bunlar aşağıdakılardan ibarətdir.

1. Teleqraf, telefon, induksiya, diaqonal, deformsiya, dinamo-maşın və buna bənzər beynəlxalq hüquq qazanmış terminlər olduğu kimi qəbul edilmişdir.

2. Lisanımızda qarşılığı olan və xalq arasında yayılan sözlərin indiyə kimi ərəbcəsi, deyil, türkcə qarşılıqları götürülmüşdür; məsələn: cəm yerinə "toplama", təqsim yerinə "bölmə", mühit yerinə "çevrə", zaviyə yerinə "bucaq", müsəlləs qaimə-tüzzaviyə mütəsavissüsaqeyn yerinə "ikizilli musavi düz üçbusaq", sərəyani-mütanavib yerinə "dəyişən cərəyan", hərəkəti-intiqalə yerinə "irəliləmə hərəkəti", qüvveyi-məzdəvcə yerinə "qoşa qüvvətlər" və s.

3. Türkcədə qarşılığı olmayan və ya türkcə tamamilə ifadə olunmayan bynəlxalq hüquq qazanmamış sözlərin indiyə qədər kitablarda işlədilən ərəbcələri götürülmüşdür. Məsələn, zil, qüvvət, hesab, cərəyan, hərəkət, sürət, məsafə, zaman, təcil, qanun kimi terminlər olduğu kimi götürülmüşdür [4, s.9].

"Nəzəri mexanikdən istilah lüğəti"inə 412 termin və termin-söz birləşməsi daxil edilmişdir. Məsələn, *vektor, vint, düşən dalğa, sürət-vektor, ziroskop tərəzisi, rəksi hərəkət, uzanma koefisyenti, qüvvət momenti, Ətalət momenti, mərkəz oxu* və s.

Lüğətdə əsas terminlərlə yanaşı törəmə terminlər də əlifba sırası ilə verilmişdir. Məsələn, *тело – cisim, тело газообразное – qazvari cisim, тело деформивованное – deformasiya etdirilmiş cisim, тело материальное – maddi cisim, тело неупругое – qeyr-elastiki cisim, тело однородное – bircinsli cisim, тело плавающее – üzən cisim, тело потапающее – batan cisim, тело твердое – Sulb cisim, тело тяжелое – ağır cisim, тело упругое – elastiki cisim*.

"Nəzəri mexanikdən istilah lüğəti"ndə Avropa mənşəli terminlər olduğu kimi saxlanılmışdır. Məsələn, *hidrodinamik, kilovatt, konservativ sistem, mikron, meqadin, mobil, vektor proyeksiyası* və s.

Burada bəzi terminlərə qarşılıq olaraq Avropa dillərinə məxsus sözlər, paralel olaraq ərəb sözləri də verilmişdir. Məsələn, *адгезия – yapışma (adgeziya), радиус грационный – qrasyon radiusu, ətalət qolu* və s.

1931-ci ildə texniki terminləri əhatə edən A.Axundovun, S.Kamalın tərtibatçılığı ilə "Elektrotexnika istilahları lüğəti" ikidilli (rusca-türkcə) terminoloji lüğət nəşr olunmuşdur. Lüğətdə 13863 termin və terminoloji birləşmə verilmişdir. Məsələn, *A-şəkilli darağac, cib ampermetrosu, daxili anten, radiotelefon, vulkanlama, qranit, dinamodəmir, elektrodinamik vahidi* və s.

Kitabda əsas termin və törəmələri əlifba sırası ilə düzülmüşdür. Məsələn, *автоматический – avtomatik, а. включатель – avtomatik açar, а. зажигание – avtomatik yandırma, а. измеритель – avtomatik ölçən, а. наматывание – avtomatik sarma, а. прерывание – avtomatik kəsmə, а. регулирование –avtomatik tənzim , а. моталка – avtomatik sarıc* və s.

"Elektrotexnika istilahları lüğəti"nə beynəlxalq texniki terminlər də daxil edilmişdir. Məsələn, *akkumulyator, amfoter, bakelit, bareter, audion, blok-stansiya, viston, depolyarizator, impuls, inklinator, kaskad, kombinator* və s. [5].

Qeyd edək ki, ilk lüğətlər ibtidai və nöqsanlı idi. Bu illərdə İstilah Komissiyası elmi bir prinsip tərtib etməmiş, ancaq fərdi əsaslara istinadən, o zamankı I və II dərəcəli məktəblərin çox kəskin olan ehtiyaclarını ödəməyə çalışmışlar.

Bir tərəfdən məmləktimizdə elmi istilahlara olan böyük ehtiyac, digər tərəfdən də bu ehtiyacı tamamilə təmin edə biləcək bir elm və fənn sahəsində yetişmiş mütəxəssislərimizin azlığı, İstilah Komitəsini, nöqsanlarını bilə-bilə bu lüğətləri nəşr etməyə məcbur etdi.

Bütün bunlara baxmayaraq texniki sahənin inkişafına ilk təkan bu sahə ilə bağlı terminoloji lüğətlərin tərtibi oldu.

Ədəbiyyat

1. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973.
2. "Dəmiryol işlənmə istilahları". Bakı, 1924.
3. "Ruscadan-türkcəyə yollar texniki istilahlar lüğəti". Bakı, 1926.
4. "Nəzəri mexanikdən istilah lüğəti". Bakı, 1930.
5. "Elektrotexnika istilahları lüğəti". Bakı, 1931.

С. М. Гулиева

РОЛЬ ТЕРМИНОЛОГИЧЕСКИХ СЛОВАРЕЙ В РАЗВИТИЕ ТЕХНИЧЕСКИХ ТЕРМИНОВ В НАЧАЛЕ XX ВЕКА

Резюме

В статье рассматривается роль терминологических словарей в развитии технических терминов в начале XX века. В этот период термины были в розничной форме. Технические термины в азербайджанском языке стали составляться в виде словаря, начиная с 20-х годов. Для этого при этом Комитете были организованы «Комитет по национализации администраций» и «Истилахская комиссия» в составе нескольких человек. Комиссия, начавшая свою научную деятельность, привлекла многих научных работников, работающих в азербайджанских вузах, и начала работать в виде трех секций и бюро. Одна из трех секций была технико-математической. В этот период отдельные области технических наук не были достаточно развиты. Поэтому в их словарях технические термины давались вместе с терминами, относящимися к другим областям. Международные термины даются в словарях как есть. Ключевые термины и производные термины перечислены в алфавитном порядке. Первые терминологические словари не лишены ошибок. В эти годы

Повстанческая комиссия не формулировала научного принципа, а пыталась удовлетворить свои потребности, ссылаясь на отдельные основания.

Ключевые слова: Начало XX века, азербайджанский язык, технические термины, терминологические словари.

S.M.Guliyeva

THE ROLE OF TERMINOLOGICAL DICTIONARIES IN THE DEVELOPMENT OF TECHNICAL TERMS AT THE BEGINNING OF THE XX CENTURY

Summary

The article discusses the role of terminological dictionaries in the development of technical terms at the beginning of the 20th century. During this period, the terms were in retail form. Technical terms in the Azerbaijani language began to be compiled in the form of a dictionary, starting from the 20s. To do this, under this Committee, the "Committee for the Nationalization of Administrations" and the "Istilah Komissiyasi" consisting of several people were organized. The commission, which began its scientific activity, attracted many scientists working in Azerbaijani universities, and began to work in the form of three sections and a bureau. One of the three sections was technical and mathematical. During this period, certain areas of technical sciences were not sufficiently developed. Therefore, in their dictionaries, technical terms were given together with terms related to other areas. International terms are given in dictionaries as is. Key terms and derived terms are listed in alphabetical order. The first terminological dictionaries are not without errors. During these years, the Insurrectionary Commission did not formulate a scientific principle, but tried to satisfy its needs, referring to individual grounds.

Keywords: Early 20th century, Azerbaijani language, technical terms, terminological dictionaries.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: fil.ü.f.d., dos. S.Novruzova
tərəfindən çapa tövsiyə olunmuşdur

NAMAZ MANAFOV,
Mingəçevir Dövlət Universitetinin dosenti,
filologiya üzrə fəlsəfə doktoru
manafov49@mail.ru,
ORCID: 0000-0003-1082-1868

CEYHUN HACIBƏYLİNİN ELMİ YARADICILIĞINDA QARABAĞ DİALEKTİ

Xülasə

Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) süqutu dəyərli şəxsiyyətlərin itirilməsi, görkəmli ziyalıların ölkədən getməsi, mühacir həyatı yaşamağa məhkum edilməsi demək idi. Belə görkəmli ziyalılardan biri də Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı-publisist, tərcüməci, naşir və ictimai xadim Ceyhun Əbdülhüseyh oğlu Hacıbəylidir (1891, Şuşa - 1962, Paris).

Ceyhun Hacıbəyli 1919-cu ildən ömrünün sonuna qədər - 43 il Fransada mühacirətdə yaşamışdır. C. Hacıbəylinin mühacirət dövrü yaradıcılığında ən qiymətli elmi əsərlərindən biri "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəridir.

Əsər Parisdə " Asiatik" jurnalının 1933-cü il yanvar-mart tarixli nömrəsində dərc edilmiş, yalnız müstəqillik dövründə Azərbaycan dilinə tərcümə olunmuşdur.

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri bu gün də aktuallığını saxlamaqdadır və Qarabağın dialekt və folklorunu öyrənmək üçün mötəbər mənbədir.

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri "Sözönü", "Giriş", "Əlifba" (Bəzi xüsusiyyətlər) ilə birlikdə otuz üç paraqrafdan ibarətdir.

"Giriş"də müəllif qeyd edir ki, Qafqaz Azərbaycanında işlənən müxtəlif dialektlər arasında Qarabağ dialekti səs baxımından ən zəngin və formaca ən "şəkilli" dialektlərdən biridir .

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsərində ədəbi dildən fərqlənən dialektizmlər çoxdur. Ailə üzvləri və qohumluqla bağlı terminlər daha qədimdir və bu sözlərdən bəzisi qohum türk dillərində indi də müşahidə olunur.

Qarabağ dialektində qədim türk sözlərinin intensivliyi qədimdən bu ərazilərdə türk tayfalarının məskunlaşdığını göstərir.

Ceyhun Hacıbəylinin "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" dilçiliyimizin ən dəyərli əsərləri cərgəsində özünə yer tutan tədqiqatlardandır. Əsər təkcə dilçi-dialektoloqlar üçün deyil, dil tarıxçiləri, türkoloqlar üçün də qiymətli tədqiqat mənbəyidir.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, görkəmli ziyalılar, mühacir həyatı, Qarabağ dialekti, Qarabağ folkloru, tədqiqat mənbəyi, qiymətli əsər

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu dəyərli şəxsiyyətlərin itirilməsi, görkəmli ziyalıların ölkədən getməsi, mühacir həyatı yaşamağa məhkum edilməsi demək idi. Belə görkəmli ziyalılardan biri də Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı-publisist, tərcüməci, naşir və ictimai xadim Ceyhun Əbdülhüseyn oğlu Hacıbəylidir (1891, Şuşa - 1962, Paris).

1919-cu ilin yanvar ayında Parisə Versal sülh konfransına yola düşən nümayəndə heyətinin tərkibində Ceyhun Hacıbəyli də var idi. O, Fransanın Sorbon Universitetində hüquq təhsili almışdı, Paris mühitini, fransız dilini gözəl bilirdi.

AXC-nin süqutundan sonra Ceyhun Hacıbəylinin həyatının mühacirət dövrü başlayır. Böyük qardaşı, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov nə qədər təhrik etsə də, Ceyhun Hacıbəyli canından artıq sevdiyi doğma Azərbaycana qayıtmadı (Sovet Azərbaycanında onu "nələrin gözlədiyini" yaxşı bilirdi).

Ceyhun Hacıbəyli ömrünün sonuna qədər - 43 il mühacirətdə yaşadı. Bir gün də olsun Azərbaycanı unutmadı, ömrünü Azərbaycan həqiqətlərinin təbliğinə həsr etdi, milli ədəbi-ictimai fikir tarixinə töhfələr verdi, Azərbaycan xalqının zəngin mədəni nailiyyətlərinin dünyaya tanıdılması istiqamətində mühüm fəaliyyət göstərdi.

C. Hacıbəylinin mühacirət dövrü yaradıcılığında ən qiymətli elmi əsərlərdən biri " Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəridir.

Əsərdəki "Sözönü"dən aydın olur ki, bu tədqiqat görkəmli türkoloq Vasili Radlovun (1837-1918) türk-tatar dialektləri toplusu üçün nəzərdə tutulmuşdur. Ceyhun bəy bu işə tanınmış türkoloq Aleksandr Samoyloviçin (1880-1938) məsləhəti və köməyi ilə girişmiş, materialları 1915-ci ilə kimi toplamış, transkripsiyasını vermiş, mətnləri rus dilinə tərcümə etmişdir.

Lakin dünyada baş verən siyasi dəyişikliklər, inqilab və müharibələrin gedişi, mühacirat həyatı Ceyhun Hacıbəylini rus şərqşünasları mühitindən uzaqlaşdırdı.

Sonralar Ceyhun Hacıbəyli tədqiqatlarını fransız dilinə çevirdı, əsəri latın qrafikası ilə Parisdə çıxan "Journal Asiatik"in 1933-cü il yanvar-mart tarixli nömrəsində dərc etdirdi.

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri yalnız 1999-cu ildə - müstəqillik dövründə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Bayram Ağayev tərəfindən Azərbaycan dilinə tərcümə olunub nəşr edilmişdir (1). 2017-ci ildə isə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu " Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasından Ceyhun Hacıbəylinin "Seçilmiş əsərləri"ni oxuculara təqdim etdi (2).

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri bu gün də aktuallığını saxlamaqdadır və Qarabağın dialekt və folklorunu öyrənmək üçün mötəbər məxəzdir (4, 283).

Bu qiymətli tədqiqat əsərinin adı diqqəti cəkir: Qarabağ sözü ilə yanaşı mötərəzədə Qafqaz Azərbaycanı xüsusi olaraq diqqətə catdırılır (3,44).

Əsərin adı bir daha sübut edir ki, Garabağ hələ Azərbaycan Xalq Cümhuriyyəti və Sovet Hakimiyyəti illərinə kimi də Azərbaycan torpağı olub, Qarabağ ta əzəldən qədim türk torpağıdır.

Ceyhun Hacıbəyli əsərin "Önsöz"ündə yazır: " Oxucu bu tədqiqatda lap kiçik yaşlarından Azəri türkcəsində danışan bir adamın türk folkloruna töhfəsini görəcəkdir" (5, 32).

Sonra müəllif öz sələfləri Karl Foy, Lüsyen Buva və Nikolay Dmitriyevin adlarını çəkir və onların əməyini qeyd edir ("Önsöz"dəki axırıncı cümlənin dilimizə tərcüməsi həm birinci, həm də ikinci nəşrdə unudulub. N.M.).

Ceyhun Hacıbəyli Qarabağ dialekti və folkloruna dair tədqiqatlarını Asiya cəmiyyətinə təqdim edəndə öz sələflərinin türkologiyadakı xidmətlərini yaxşı bilirdi: Alman alimi, İran türkologiyasının banisi Karl Foy (1856-1907) Azərbaycan dilinin Təbriz dialektinə və Urmiya ləhcəsinə dair xüsusi araşdırmalar aparmış və dialektoloji tədqiqatlarını 1903-1904-cü illərdə Berlində dərc etdirmişdir; Fransız şərqşünası Lüsyen Buva (1872-1942) Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povestini (1903), "Hacı Qara"(1904), "Müsyö Jordan və dərviş Məstəli şah" (1906) komediyalarını fransız dilinə çevirmiş və " Jurnal Aziatik"də dərc etdirmişdir; Rus dilçisi , Türkologiya elminin tanınmış nümayəndəsi Nikolay Dmitriyev (1898-1954) qısa bir vaxtda məşhurlaşmış "Serb və türk dillərinin qarşılıqlı təsirinə dair etüdlər" əsərinin müəllifidir.

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri "Sözönü", "Giriş", "Əlifba" (Bəzi xüsusiyyətlər) ilə birlikdə otuz üç paraqrafdan ibarətdir.

"Giriş"də müəllif qeyd edir ki, Qafqaz Azərbaycanında işlənən müxtəlif dialektlər arasında Qarabağ dialekti səs baxımından ən zəngin və formaca ən "şəkilli" dialektlərdən biridir (5, 32).

Ceyhun Hacıbəyli istedadlı bir dilçi kimi Qarabağ dialektinin mövqeyini düzğün qiymətləndirmiş, dövrün ədəbi dilinin fonetik, leksik, qrammatik normalarının XVIII əsrdə daha çox Qarabağ dialektinə uyğun gəldiyini görmüşdür.

C. Hacıbəyli yazır: "Fransa üçün ləhcə, daha doğrusu "Midi" ləhcəsi nədirsə, Qarabağ ləhcəsi də Azərbaycan üçün odur" (5,32).

Midi (hərfi mənada "günorta") sözü Fransanın cənub hissəsini bildirmək üçün işlədilən ümumi termindir. Midi - həm də Fransanın cənubunda danışılan qədim ləhcədir, özünəməxsus dialektoloji xüsusiyyətləri (vurğusu, burun səslərinin işlədilməsi, " e" (əyri "e") səsinin tələffüzü və s.) var.

Qarabağ dialekti XVIII əsrdə Azərbaycan dili üçün koyne (dialektfövqü) dialekt olduğu kimi, orta əsrlərdə Cənub ləhcəsi (Şimal ləhcəsi ilə birlikdə) fransız dili üçün koyne dialekt idi. Bu isə Fransız dilini mükəmməl bilən Ceyhun Hacıbəylinin (o, Fransada iki universitetdə təhsil almışdır) həm də Fransız dilinin tarıxi və Fransız dilinin dialektologiyası haqqında mükəmməl biliyə malik olduğunu göstərir.

Ceyhun Hacıbəyli Azərbaycan dilində dialekt fərqlərinin yaranmasını düzgün müəyyən etmiş, dialektləri məhəlli əlamətlərinə görə fərqləndirmiş, fransız oxucusuna sanballı əsər təqdim etmişdir. Çəkinmədən demək olar ki, Qarabağ dialekti o zaman nəinki Avropada və Rusiyada, heç Azərbaycanın özündə də bu cür geniş araşdırılmamışdı. Ceyhun bəy yazır : " Bu kiçik ölkədə tələffüz bir rayondan başqasına keçdikcə dəyişir... bir-birindən fərqlənən əyalətlər ölkəsində eyni söz müxtəlif tərzdə tələffüz olunur" (5, 32-33).

Nümunə üçün "gəlmək" feilini götürür, qeyd edir ki, ədəbi dildə nəqli keçmiş zamanın III şəxs təkində "gəlibdir" kimi tələffüz olunan bu feil, Qarabağ dialektində "gəlifdi", Bakı dialektində "gəlibdü", Şamaxı dialektində "gəlübdü", Şəki dialektində "gəlitdi", Quba, Dərbənd dialektlərində "gələtdi" kimi tələffüz olunur. " Gedibdir" sözü də həmin qaydada tələffüz edilir: gedifdi; gedibdü; gedübdü; geditdi; gedətdi (3, 257).

Bu nümunələr sübut edir ki, Ceyhun Hacıbəyli Azərbaycan dialektlərinin fonetik xüsusiyyətlərini yaxşı bilirdi. Qarabağ dialektinin səciyyəvi xüsusiyyətlərini göstərməsi, onlara dair nümunələr verməsi bunu bir daha sübut edir:

1. Səslərin bir-birini əvəzləməsi:

-"b" səsinin "f" və "v" ilə əvəzlənməsi, məs.:- gəlib-gəlif; gəbə-gəvə; qab-qav.

-"c" səsinin "j" ilə əvəzlənməsi, məs.:- gecə-gejə; bic- bij.

-"ç" səsinin "ş" ilə əvəzlənməsi, məs.:- işmək.

-"q" səsinin "x" ilə əvəzlənməsi, məs.:- papaq-papax; qorxaq-qorxax.

-"ə" və ya "e" səsinin "a" ilə əvəzlənməsi:- əhmək-axmax, əql-ağıl və s.

2. "n," (sağır "nun") tələffüzünün xüsusi qeyd olunması, məs.:- man,a; san,a.

3. Birinci sözdəki sonuncu saitin ikinci sözdəki ilk saitlə birləşməsi, məs.:- "onu eliyif- on eliyif" və ya saitin zəifləməsi, hətta itməsi, məs.:-"ora gedib" əvəzinə "oreydif" (3, 257).

"Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsərinin tərcüməsi zamanı "Əlifba. (Bəzi xüsusiyyətlər)" adlı III paraqrafın dilimizə tərcüməsi unudulub (N.M). "Azərbaycan mühacirət ədəbiyyati kitabxanası" seriyasından buraxılmış Ceyhun Hacıbəylinin seçilmış əsərlərinin (Bakı, Elm, 2017) 258-ci səhifəsində qeyd olunur ki, III* - bu rəqəmlə işarələnmış hissə əsərdə yoxdur (3, 258). Halbuki, əsərin fransız variantında (" Le Dialecte et le Folk-lore du Karabagh (Azerbaidjan du Caucase)" Par Djeyhoun Bey Hadjibeyli, "Extrait de Journal Adiatique", 1933) üçüncü paraqraf (səh.34-35) oxuculara təqdim olunmuşdur (5, 34-35). (Jurnalın PDF variantını internetdə tapmaq mümkündür).

Unudulmuş III paraqrafda dialektoloji nümunələri düzğün oxumaq üçün latın qrafikalı Azərbaycan əlifbasına dair 18 xüsusiyyət (transkripsiya işarələri və izahlar) verilib: məs.: - saitlərinin uzun oxunması işarəsi; -sait səs birləşməsinin "main" sözündəki "ai" kimi tələffüzü; bəzi səslərin (dj) ingilis dilindəki "gentliman" sözündəki "g" səsi kimi tələffüzü; "h" səsinin bəzi hallarda alman dilindəki "ich " sözündə olduğu kimi "ch" səsi ilə tələffüzü; "j" səsinin "jeune" (dək) sözündəki (j)

kimi, yaxud “genre” sözündəki (g) kimi tələffüzü ; “s`” səsinin-“tache” (cəhd) sözündəki “ch” kimi tələffüz edilir; -“g” səsinin hər yerdə “gorqe” sözündəki ilk (g) kimi tələffüzü “ğ” –Paris ləhcəsindəki (r) kimi tələffüz olunur; “g`”- qırtlaq sonoru; n’ səsinin “benqal” sözündəki (ng) kimi tələffüzü ; ”`i” səsi- rus əlifbasındakı (ы), “белый” rus sözünün fransız transkripsiyasındakı (ui) səsi kimi oxunur; “l”-səsindən əvvəl qalın sait gəldikdə bütün sozlərdə “l”qalın oxunur (”olmaq” sözündə olduğu kimi), “l”-səsindən əvvəl incə sait olduqda “l” nisbətən incə tələffüz edilir; k`- qırtlaqda deyilən kar səs ... (5, 34-35) .

Bu paraqrafda müəllif Qarabağ dialektinin özünəməxsus danığıq səslərini yeri gəldikcə fransız, alman, ingilis, rus ədəbi dillərində olan oxşar səslərlə müqayisə edir, transkripsiya işarələrini verir, necə deyərlər, Avropa oxucusuna “bələdçi”lik edir.

Həmin xüsusiyyətlər (transkripsiya işarələri, izahlar) müasir Azərbaycan oxucusu, əsərin gələcək tədqiqatçıları üçün də böyük əhəmiyyəti daşiyir. İnanırıq ki, növbəti nəşrlərdə oxucular III paraqrafın tərcüməsi ilə də tam tanış ola biləcəklər.

IV paraqrafdan başlayaraq C. Hacıbəyli Qarabağ dialektində aid mətnləri – folklor nümunələrini (tapmaca (30 tapmaca), alliterasiya (12), qafiyəli xalq deyimləri (11), xalq məzhəkələri (5), uşaq kompozisiyaları (4), qafiyə oyunları (18), beşik nəğmələri (2), ağılar (10), lətifələr (8), zarafatlar (8) və s.) oxuculara təqdim etmişdir.

Ceyhun Hacıbəyli nümunələri əvvəlcə Qarabağ dialektində verir, sonra fransız dilinə tərcümə edir, yeri gəldikcə onlara fransız dilində şərhlər yazır.

C. Hacıbəyli topladığı mətnləri ədəbi dilə uyğunlaşdırmadan, müxtəlif şərti işarələrin köməyi ilə, dialektdə olduğu kimi qələmə almışdır. Qarabağ dialektinin özünəməxsusluğu (onun fonetik, qrammatik, leksik xüsusiyyətləri), orijinallığı, canlı dilin təravəti bütün nümunələrdə qorunub saxlanmışdır.

Fonetik xüsusiyyətlər: -“a” səsinin söz ortasında möhkəmliyi, məs.:- T*a*f t*a*pb*a*ja –gül *yapbaja* – məməli h*a*tın dışdəri yoh.

-“i” səsinin söz əvvəlində möhkəmliyi, məs.: -... *İ*yid ona deyərəm ki, söydüyün ala qaça.

-saitlərin dəyişməsi: “e” –“ə” dəyişməsi, məs.: - Sarıdır, zəfəran d*ə*yil, Yazılıdı, Quran d*ə*yil.

-“ə” –“a” dəyişməsi, məs.:- Oyanı ç*a*p*a*r, buyanı ç*a*p*a*r...; Qarğa m*a*n*a*, Sağsağan s*a*n*a*; Gedin düşm*a*n*a* deyin...

- açıq saitlərin (*a, o, ö, e, ə*) daha çox işlənməsi, məs.:

- Qarabağda talan var,
  Zilfin üzə salan var.
  Mən burda çox əyləndim,
  Gözü yolda qalan var.

Bayatıda işlənmiş 28 saitdən 22-ci açıq (a,o,ö,e,ə) saitdir, 6-sı qapalıdır (i,ı, u.ü).

- “*b*” və “*d*” səslərinin söz əvvəlində, “*y*” səsinin söz ortasında möhkəmliyi, məs.: -*B*ir *b*ardaxda iki su; Qolları *b*udax kimi... *B*əyirir oğlax kimi; ... *D*əydi kotana, *D*əryada balığa; *B*ir öküzüm var, gu*y*ruğunnan tutmu*y*uncan pə*yy*eirməz (pəyəyə girməz).

Əsərdəki nümunələrdə Qarabağ dialektinin qrammatik xüsusiyyətlər də əksini tapmışdır, məs.: - Alça*jıx* damdan qar yağar- *“jıx”, “jix*” şəkiçisinin köməyi ilə sifətin azaltma dərəcəsi düzəlmişdir.

- Üçm*üncü*də gördüm ki, bullarda belə, axırda çıxdım yeddim*minci*yə, gördüm, göy deşik-deşikdi. Bu nümunədə sıra sayları ədəbi dildən fərqli olaraq , “müncü”, “minci” şəkilciləri ilə ifadə olunmuşdur.

- ... quyruğun*nan* tutmuyuncan... “nan” qədim çıxışlıq hal şəkilçisidir.

-Aşıx qarey*nan*,
Xatın qarey*nan*.
Fələyin nə işi var
Mən günü qarey*nan*-

Bu nümunədəki “nan,” müasir ədəbi dilimizdə birgəlik bildirən “ ilə”, “la”,”lə” qoşmasının arxaik variantıdır. “Birlən, birlə, ilən, nan, nən, ilə, la”.

- Qarabağ dialektində sual cümlələri daha çox sual intonasiyası və sual ədatlarları ilə işlənir, məs:-*Səfi bəyin evi budumu? Budu, neynirsən? Ay xala, Səfi bəyi tanıyırsan? Oğlunu tanıyırdın? Külfətini tanıyırdın?*

“Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)” əsərində ədəbi dildən fərqlənən dialektizmlər də çoxdur. Ailə üzvləri və qohumluqla bağlı terminlər daha qədimdir və bu sözlərdən bəzisi qohum türk dillərində də müşahidə olunur. Məsələn, Qarabağ dialektində “ata” sözü ilə birgə, eyni mənada “dədə”, “ağa” sözləri də işlədilir. “Dədə” termini müxtəlif fonetik variantda (dada, dəda, dədə, dədu” və s.) “ata”, “baba”, “qayınata” mənalarında türk dillərinin əksəriyyətində (türkmən, özbək, qazax, noqay, yeni uyğur və bağqa dillərdə) işlədilir. Özbək dilində “dədə” həm də müracıət bildirən sözdür (xitab) (6, 91).

“Ağa” sözü də (“ata”, “böyük”, “böyük qardaş”, “ böyük adam”, “dayı”, “yol göstərən”, “ağıllı” və s. mənalarda) türk dillərinin çoxunda qorunub saxlanılır (6,18). Quba dialektində “ağabacı” (böyük bacı), Ordubadda “ağanənə” ((nənə, atanın anasi), Gəncə dialektində “ ağbajı” (dayı xanımı, dayının həyat yoldaşı) sozləri də işlədilir.

Qarabağ dialektində qədim türk sözlərinin intensivliyi qədimdən bu ərazilərdə türk tayfalarının məskunlaşdığını göstərir.

Ceyhun Hacıbəylinin “Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)” dilçiliyimizin ən dəyərli əsərləri cərgəsində özünə yer tutan tədqiqatlardandır. Əsər təkcə dilçi-dialektoloqlar üçün deyil, dil tarıxçiləri, türkoloqlar üçün də qiymətli tədqiqat mənbəyidir.

NAMAZ MANAFOV,
Assistant Professor of Mingachevir State University,
Ph.D. in Philology
manafov49@mail.ru, +994 55 440 74 76
ORCID NO: 0000-0003-1082-1868

KARABAKH DIALECT IN THE SCIENTIFIC WORK OF JEYHUN HAJIBAYLI

Abstract

The dissolution of Azerbaijan Democratic Republic (1918-1920) meant the loss of valuable personalities, the departure of prominent intellectuals from the country and their condemnation to emigre life. One of such outstanding intellectuals is Hajibayli Jeyhun Abdulhuseyn, a well-known representative of Azerbaijani literature, publicist writer, translator, publisher and public figure (1891, Shusha - 1962, Paris).

Jeyhun Hajibeyli lived in exile in France for 43 years – from 1919 until the end of his life. One of the most valuable scientific works of J. Hajibeyli in the era of emigration is the work "Karabakh dialect and folklore (Caucasian Azerbaijan)".

The work was published in Paris in January-March 1933 edition of the "Asitik" magazine and was translated into Azerbaijani only during the period of independence.

The work "Karabakh dialect and folklore (Caucasian Azerbaijan)" is still relevant today and is a reliable source for studying the dialect and folklore of Karabakh.

The work "Karabakh dialect and folklore (Caucasian Azerbaijan)" consists of thirty-three paragraphs along with "Preface", "Introduction", "Alifba" (Some features).

In the introduction, the author notes that, among the various dialects used in Caucasian Azerbaijan, the Karabakh dialect is one of the richest in sound and the most "imaginative" in form.

There are many dialectisms that are different from the literary language in the work "Karabakh Dialect and Folklore (Caucasian Azerbaijan)". Terms related to family members and kinship are older, and some of these words are still found in related Turkic languages.

The intensity of ancient Turkic words in the Karabakh dialect indicates that Turkic tribes have lived in these areas since ancient times.

"The Karabakh Dialect and Folklore (Caucasian Azerbaijan)" by Jeyhun Hajibayli is one of the most valuable works of our linguistics. The work is a valuable research source not only for linguists-dialectologists, but also for language historians and Turkologists.

Keywords: Azerbaijan Democratic Republik, prominent intellectuals, immigrant life, Karabakh dialect, Karabakh folklore, research source, valuable work

ƏDƏBİYYAT

1. Hacıbəyli C. Qarabağın dialekti və folkloru (Qafqaz Azərbaycanı), Bakı, Ozan, 1999, 48 s.
2. Hacıbəyli C. Seçilmiş əsərləri, Bakı, Elm, 2017, 367 s.
3. Hüseynova A. H. Ceyhun bəy Hacıbəylinin folklorşünaslıq irsi, Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, №4, 2011, s. 39-44
4. Tahirli A. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu, Bakı, Elm və təhsil, 2019, 344 s.
5. Hadjibeyli Djeyhoun bey. Le Dialrcte et le Folk-Lore du Karabagh (Aserbaidjan du Caucase) , Extrait du Journal Asiatique, Janvier-Mars 1933, Paris İmprimerie Nationale
6. Türk dünyası aile ve akrabalik terminleri sözlüğü, Mehmet Ziya Binler, İstanbul, 2007, 504 s.

НАМАЗ МАНАФОВ

КАРАБАХСКИЙ ДИАЛЕКТ В НАУЧНОМ ТВОРЧЕСТВЕ ДЖЕЙХУНА ГАДЖИБЕЙЛИ

РЕЗЮМЕ

Падение Азербайджанской Демократической Республики (1918-1920) означало потерю ценных личностей, отъезд выдающихся интеллектуалов из страны и обреченность на жизнь эмигрантов. Одним из таких видных представителей интеллигенции был известный представитель азербайджанской литературы, писатель-публицист, переводчик, издатель и общественный деятель Джейхун Абдулхусейн оглы Гаджибейли (1891, Шуша - 1962, Париж).

Джейхун Гаджибейли с 1919 года до конца своей жизни 43 года жил в эмиграции во Франции. Одним из наиболее ценных научных трудов в творчестве Дж. Гаджибейли в период эмиграции является «Карабахский диалект и фольклор (Кавказский Азербайджан)».

Произведение было опубликовано в Париже в номере журнала «Асиатик» за январь-март 1933 года и было переведено на азербайджанский язык только в период независимости.

Произведение «Карабахский диалект и фольклор (Кавказский Азербайджан)» и сегодня сохраняет свою актуальность и является надёжным источником для изучения диалектов и фольклора Карабаха.

Произведение «Карабахский диалект и фольклор (Кавказский Азербайджан)» состоит из тридцати трех параграфов, включая «Предисловие», «Введение» и «Алфавит» (Некоторые особенности).

В «Введении» автор отмечает, что среди различных диалектов, используемых в Кавказском Азербайджане, Карабахский диалект является одним из самых богатых по звучанию и наиболее «живописных» по форме.

В произведении «Карабахский диалект и фольклор (Кавказский Азербайджан)» много диалектизмов, отличающихся от литературного языка. Термины, связанные с семьей и родственными отношениями, более древние и некоторые из этих слов все еще наблюдаются в родственных тюркских языках.

Интенсивность древнетюркских слов в Карабахском диалекте свидетельствует о том, что с незапамятных времен на этих территориях селились тюркские племена.

«Карабахский диалект и фольклор (Кавказский Азербайджан)» Джейхуна Гаджибейли-одно из наиболее ценных произведений нашего языкознания. Произведение является ценным источником исследований не только для лингвистов-диалектологов, но и для историков языка и тюркологов.

Redaksiyaya daxil olma tarixi: 02.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filiologiya elmləri doktoru Flora Namazova
tərəfindən çapa tövsiyə olunmuşdur

f.ü.f.d., dos. ESMIRA ALLAHVERDI QIZI QULIYEVA,
f.ü.f.d., dosent DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA
Azərbaycan Tibb Universiteti,
Azərbaycan dili kafedrası
email adresi: esmiraquliyeva123@gmail.com

"KİTABİ-DƏDƏ QORQUD"DA İŞLƏNƏN TƏYİNİ SÖZ BİRLƏŞMƏLƏRİ

Açar sözlər:*təyini söz birləşmələri, müasir ədəbi dili, yanaşma əlaqəsi, qrammatik-morfoloji əlamət*

Ключевые слова: *определяющие словосочетания, современный литературный язык, отношение подхода, грамматико-морфологический признак*

Key words: *defining word combinations, modern literary language, relation of approach, grammatical-morphological sign*

Türk dünyasının ölməz abidəsi olan "Kitabi-Dədə Qorqud" xalqımızın tarixi, adət-ənənəsi, etnoqrafiyası, keçmiş yaşayış tərzi və s. ilə bağlı bir çox məsələləri öyrənmək üçün dəyərli faktlar verən qədim və mötəbər mənbələrdən biridir. Bu abidə eləcə də dilimizin qədim leksik qatlarını, onun seçdiyi tarixi inkişaf yolunu, bir sıra qrammatik kateqoriyaların ilkin formalarını açıqlamaq, həmçinin dilçiliyimizdə mübahisəli olan bəzi məsələləri aydınlaşdırmaq baxımından da çox qiymətlidir.

"Kitabi-Dədə Qorqud"da diqqəti cəlb edən araşdırılması gərəkli olan məsələlərdən biri də təyini söz birləşmələridir. Abidə üzərində aparılan araşdırmalardan aydın olur ki, burada təyini söz birləşmələrinin hər üç növü geniş şəkildə işlənir. Lakin kiçik bir məsələdə həmin birləşmələri tam şəkildə əhatə etmək mümkün olmadığından burada yalnız onlar haqqında müəyyən təsəvvür yaratmağa, əmələ gəlmə yollarını, müasir ədəbi dilimizin fərqli cəhətlərini üzə çıxarmağa səy göstərmişdir. Abidənin dilində işlənən təyini söz birləşmələrini forma və xüsusiyyətlərinə görə üç növə ayırmaq olar:

I növ təyini söz birləşmələri. "Kitabi-Dədə Qorqud"da müşahidə edilən birinci növ təyini söz birləşmələri yanaşma əlaqəsi ilə yaranır və bunların əmələ gəlməsində heç bir qrammatik-morfoloji əlamətdən istifadə olunmur. Bu birləşmələrin ikinci tərəfi bir qayda olaraq isimlə, birin tərəfi isə isim, sifət, say, əvəzlik və feili sifətlə ifadə edilir. Bu cəhəti nəzərə alaraq I növ təyii söz birləşmələrini aşağıdakı kimi vermək olar: a) birinci tərəfi isimlə ifadə olunanlar; məs.: ***qızıl otaq, qızıl dəvə, dəmir zəncir, yad oğul, altun surahılar, yalan söz, şahbaz atlar, altın üzük, ipək xalçalar, qadın ana, bəy yigitlər, qızıl xana və s***. "Kitabi-Dədə Qorqud"da məmunca birinci, formaca ikinci növ təyini söz birləşmələrinə oxşayan birləşməyə də rast gəlinir. Məs.: Min yerdə ipək xalçası döşənmişdi. Bu misaldakı ipək xalçası birləşməsi

əslində müasir dilimizdə ipək xalça şəklində işlənir və eyni mənanı bildirir. Bildirmək istəyirik ki, bu məsələdən ilk dəfə Ə.Dəmirçizadə 1959-cü ildə çapdan çıxmış "Kitabi-Dədə Qorqud dastanlarının dili" əsərində bəhs olunmuşdur. b) birinci tərəfi sifətlə ifadə olunanlar. Birinci tərəfi sifətlə ifadə olunan birləşmələr digərlərindən fərqli olaraq abidənin dilində daha geniş şəkildə işlənir, həm də quruluşuna görə onlardan seçilir. Belə ki, burada işlənən birinci növ təyini söz birləşmələrinin birinci tərəfi həm sadə, həm də düzəltmə sifətlərlə ifadə olunur, birinci tərəfi sadə sifətlə ifadə olunanlar: ***qarı düşmən, qara evlər, qara polad, qara ölüm, əski pambıq, kiçik düyün, yuca tanrı, qadir tanrı, acı ayran, arıq toğlu, ağır yüklər və s***. Birinci tərəfi düzəltmə sifətlə ifadə olunanlar: ***azğın kafir, qulaqsız köpək, dövlətli oğul, dövlətsiz oğul, namərd yigit, dürlü xəbər, qayğılı çoban, gökçə çəmən, sevgili qardaş, alca qan və s. c***) birinci tərəfi sayla ifadə olunanlar: beş yaş, on beş yigit, üç qonaq, iyirmi dörd sancaq, səksən yer, on min qoyun, on iki min kafir və s..d) birinci tərəfi əvəzliklə ifadə olunanlar: ***ölən adam, çıxan can, axan sular, ərə varan qız, asılan zəncir*** və s. Gətirilən nümunələrdən aydın olur ki, abidənin dilində birinci tərəfi sifətlə ifadə olunan I növ təyini söz birləşmələri daha çox işlənir və bu da birinci tərəfin ikinci tərəfi, yəni təyin olunannı müxtəlif cəhətdən təyin etməsindən irəli gəlir.

I növ təyini söz birləşmələri I və III növ təyini söz birləşmələrinə nisbətənabidədə azlıq təşkil edir. Bu birləşmələr yanaşma əlaqəsi ilə əmələ gəlir və onu hər iki tərəfi isimlə ifadə olunur. I növdən fərqli olaraq III növ təyini söz birləşmələrinin ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul edib işlənir. Bu birləşmələrdə diqqəti cəlb edən cəhətlərdən biri də onun tərəflərini təşkil edən sözlərin o dövr üçün səciyyəvi olan sözlərlə ifadə olunmasıdır: ***Kərbala yazısı, Gürcüstan ağzı (sərhədi), Əlincə qələsi, Oğuz qovmu (tayfa), Bayat boyu, Ozan dili, baba malı, ata adı, dağ çiçəyi, ana südü, aş ayağı,sığır (inək) damı, ordu uşağı, güz (payız) alması, sapan daşı və s.***

II növ təyini söz birləşmələrinin tərəflərinin cəm şəkilçisini qəbul edib işlənməsinə də abidədə rast gəlinir. Lakin burada da tərəfləri hər ikisi eyni vaxtda cəm şəkilçisi qəbul etmir. Birləşməni təşkil edən sözlərdəm biri cəmlənəndə digər tərəf tək halda olur, məs.: ***alimlər sərvəri, xanlar xanı, ərənlər ərəni (qəhrəman), Oğuz bəyləri, kafir qızları, peyğəmbər nəvələri, altun evləri və s.***

"Kitabi-Dədə Qorqud"da II növ təyini söz birləşmələrinin ikinci tərəfinin müasir ədəbi dilimizdən fərqli olaraq, ikiqat mənsubiyyət şəkilçisi ilə işlənməsinə də təsadüf edilir. II növ təyini söz birləşmələrində ikinci tərəfin ikiqat mənsubiyyət şəkilçisi ilə işlənməsi dialekt və şivələrimizin bir çoxunda da özünü göstərir, məs.: yol pulusu, əmək günüsü, kükürd iyisi, əmək haqqısı və s.

III növ təyini söz birləşmələrinə "Kitabi-Dədə Qorqud"da geniş şəkildə rast gəlinir. Bu birləşmələrin tərəfləri müxtəlif nitq hissələri ilə ifadə edilir və II növ təyini söz birləşmələrindən fərqli olaraq , konkretlik, müəyyənlik bildirir. Abidədə müşahidə edilən III növ təyini söz birləşmələrinin əmələ gəlməsi əsasən ədəbi

dilimizdə olduğu kimidir. Lakin burada ədəbi dildən fərqlənən cəhətlər də özünü göstərir. Belə tərəf mənsubiyyət şəkilçisi ilə işləndiyi halda müəyyən bir qismində birinci tərəf yiyəlik hal şəkilçisi qəbul etmir, bəzilərində isə ikinci tərəf ikiqat mənsubiyyət şəkilçisi ilə işlənir. Bu cəhəti nəzərə alaraq "Kitabi-Dədə Qorqud"da işlənən III növ təyini söz birləşmələrini üç yerə ayırmaq olar: a) hər iki tərəfi şəkilçi qəbul edib işlənənlər; b) birinci tərəfi yiyəlik hal şəkilçisi qəbul etmədən işlənənlər; c) ikinci tərəfi ikiqat mənsubiyyət şəkilçisi ilə işlənənlər. "Kitabi-Dədə Qorqud"da müşahidə edilən III növ təyini söz birləşmələrinin əksər hissəsinin hər iki tərəfi şəkilçi qəbul edib işlənir. Buna aid aşağıdakı birləşmələri misal göstərmək olar: Qazanın anası, Təpəgözün əli, oğlanın babası, kafirin cəsusu, Oğuzun üstü, meydanın başı, yigitin canı, Qanturalın yuxusu, xanın söhbəti, onun könlü, Tanrının buyruğu, mənim evim, Qazanın inancıbaşın ağrısı, Beyrəyin nişanlısı, qızın atı, oğuzun dövləti, bizim halallımız, kafirin iç yüzü və s. "Kitabi-Dədə Qorqud"da işlənən III növ təyini söz birləşmələrinin müəyyən bir qismini də formaca II növ təyini söz birləşmələrinə oxşayan birləşmələr təşkil edir. Qeyd etmək lazımdır ki, bu tipli birləşmələr birinci tərəfin şəkilçisinin işlənməsinə görə II növ təyini söz birləşmələrinin ifadə etdiyi mənanı bildirir: məs.:başım taxtı, evim taxtı, bəyinizin oğlu, yüklər zəhmi, yollar izi, ata köksü, baban yurdu, kafirlər leşi, evim üstü, Qazan xatunu, qarındaşım qanı, anan südü . Ə.Dəmirçizadə abidədə işlənən bu tipli birləşmələri "ixtisarlı mürəkkəb ismi birləşmə" adlandırır (4, 158). Q.Həsənov XVI əsrə aid yazılı mənbələrdə formaca II, məzmunca III növ təyini söz birləşmələrinə təsadüf edildiyni göstərir (7, 35). III növ təyini söz birləşmələrində birinci tərəfin yiyəlik hal şəkilçisi qəbul etmədən işlənməsi Azərbaycan dilinin Qazax, Şəki dialektlərində, Naxçıvan qrupu dialekt və şivələrində də müşahidə edilir.

III növ təyini söz birləşmələrində diqqəti cəlb edən maraqlı xüsusiyyətlərdən biri də ikinci tərəfin ikiqat mənsubiyyət şəkilçisi ilə işlənməsidir. Lakin bu tipli birləşmələrə abidədə çox az təsadüf edilir; məs.:atın yeləyisi, yuxunun qalanısı və s. II tərəfi ikiqat mənsubiyyət şəkilçisi ilə işlənən III növ təyini söz birləşmələri XVI əsrə aid yazılı abidələrdə dialekt və şivələrimizin bir çoxunda da özünü göstərir. Müasir ədəbi dilimizdə olduğu kimi, "Kitabi-Dədə Qorqud"da işlənən III növ təyini söz birləşmələrinin tərəfləri cəmlənə bilir. Lakin burada da tərəflərdən biri cəm şəkilçisi qəbul etdikdə digər tərəf tək halda işlənir; məs.:kafirlərin feli, onların dostluğu, otlaxların yeri, bəzirganların malı, ərənlərin meydanı, çobanın əlləri, Əlinin oğulları, onun bəbəkləri, babanın yoldaşları və s. Yeri gəlmişkən qeyd etmək istərdik ki, "Kitabi-Dədə Qorqud"da mürəkkəb təyini söz birləşmələri də çox işlənir. Bu birləşmələr üç və daha artıq sözün birləşməsindən əmələ gəlir; məs.:xan Uruzun babası, Bayandur xanın göygüsü, qonur atın ayası, ümmət soyunun arslanı, qalın oğuzun dövləti və s.

Belə nəticəyə gəlmək olar ki, təyini söz birləşmələrinin formalaşması uzun bir tarixi inkişaf keçmiş, get-gedə cilalanmış və müasir ədəbi dilimizdəki stabil şəklinə düşmüşdür.

İstifadə edilmiş ədəbiyyat:

1. Ağayev E.Q. Cəlilabad rayonu şivəsində təyini söz birləşmələri. AMEA "Xəbərləri" (ədəbiyyat, dil və incəsənət seriyası), 1973, №3
2. Azərbaycan dilinini qərv qrupu dialekt və şivələri, Bakı, 1967
3. Azərbaycan dilinin Muğan qrupu şivələri, Bakı 1968.
4. Dəmirçizadə Ə.M. "Kitabi-Dədə Qorqud" dastanlarının dili, Bakı, 2000
5. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti , Bakı, 2008
6. "Kitabi-Dədə Qorqud" dastanları . Bakı, 2004
7. Həsənov Q.M. Dəhnamənin sintaksis, Bakı, 1967
8. Щербак А.М. Очерки по сравнительной морфологии тюркских языков. Л.1977
9. İlkin Quliyev. Qazi Bürhanəddinin "Divan"ının dilinin sintaksisi . Bakı, 2009

"Kitabi-Dədə Qorqud"da işlənən təyini söz birləşmələri

Xülasə

Türk dünyasının ölməz abidəsi olan "Kitabi-Dədə Qorqud" xalqımızın tarixi, adət-ənənəsi, etnoqrafiyası, keçmiş yaşayış tərzi və s. ilə bağlı bir çox məsələləri öyrənmək üçün dəyərli faktlar verən qədim və mötəbər mənbələrdən biridir. Bu abidə eləcə də dilimizin qədim leksik qatlarını, onun seçdiyi tarixi inkişaf yolunu, bir sıra qrammatik kateqoriyaların ilkin formalarını açıqlamaq, həmçinin dilçiliyimizdə mübahisəli olan bəzi məsələləri aydınlaşdırmaq baxımından da çox qiymətlidir.

"Kitabi-Dədə Qorqud"da diqqəti cəlb edən araşdırılması gərəkli olan məsələlərdən biri də təyini söz birləşmələridir. Abidə üzərində aparılan araşdırmalardan aydın olur ki, burada təyini söz birləşmələrinin hər üç növü geniş şəkildə işlənir. Lakin kiçik bir məsələdə həmin birləşmələri tam şəkildə əhatə etmək mümkün olmadığından burada yalnız onlar haqqında müəyyən təsəvvür yaratmağa, əmələ gəlmə yollarını, müasir ədəbi dilimizin fərqli cəhətlərini üzə çıxarmağa səy göstərmişdir. "Kitabi-Dədə Qorqud"da mürəkkəb təyini söz birləşmələri də çox işlənir. Bu birləşmələr üç və daha artıq sözün birləşməsindən əmələ gəlir; məs.:xan Uruzun babası, Bayandur xanın göygüsü, qonur atın ayası, ümmət soyunun arslanı, qalın oğuzun dövləti və s.

Belə nəticəyə gəlmək olar ki, təyini söz birləşmələrinin formalaşması uzun bir tarixi inkişaf keçmiş, get-gedə cilalanmış və müasir ədəbi dilimizdəki stabil şəklinə düşmüşdür.

ЭСМИРА КУЛИЕВА
ДУРДАНА НАГИЕВА

ОПРЕДЕЛИТЕЛЬНЫЕ ФРАЗЫ, ИСПОЛЬЗОВАННЫЕ В «КИТАБИ-ДЕДА ГОРГУД». РЕЗЮМЕ

«Китаби-Деда Горгуд», бессмертный памятник тюркского мира, содержит в себе историю, традиции, этнографию, прошлый быт и т.д. нашего народа. Это один из древних и надежных источников, дающих ценные факты для изучения многих вопросов, связанных с этим памятником также очень ценен с точки зрения выявления древних лексических пластов нашего языка, избранного им исторического пути развития, исходных форм ряда грамматических категорий, а также прояснения некоторых спорных вопросов в нашем языкознании.

В «Китаби-Деде Горгуд» одним из вопросов, требующих исследования, является определение словосочетаний. Из исследований, проведенных на памятнике, видно, что здесь широко используются все три типа определяющих словосочетаний. Но так как в малом материале невозможно полностью охватить эти сочетания, то здесь он лишь попытался составить о них известное представление, выявить пути их образования и различные стороны нашего современного литературного языка. «Китаби-Дада Горгуд» также использует много сложных словосочетаний. Эти соединения образованы сочетанием трех и более слов; например: дед хана Уруза, сын Баяндур-хана, сын бурого коня, лев уммы, государство толстого Огуза и т. д.

Можно сделать вывод, что образование детерминированных словосочетаний претерпело длительное историческое развитие, постепенно отшлифовывалось и стало устойчивой формой в нашем современном литературном языке.

ESMIRA GULIYEVA
DURDANA NAGIYEVA

DEFINITIVE PHRASES USED IN "KITABI-DADA GORGUD" SUMMARY

"Kitabi-Dada Gorgud", an immortal monument of the Turkic world, contains the history, traditions, ethnography, past way of life, etc. of our people. It is one of the ancient and reliable sources that provide valuable facts for studying many issues related to This monument is also very valuable in terms of revealing the ancient lexical layers of our language, the historical development path chosen by it, the

initial forms of a number of grammatical categories, as well as clarifying some controversial issues in our linguistics.

In "Kitabi-Dada Gorgud", one of the issues that needs to be investigated is the definition of word combinations. From the research conducted on the monument, it is clear that all three types of defining word combinations are widely used here. However, since it is impossible to fully cover those combinations in a small matter, here he has only tried to create a certain idea about them, to reveal the ways of their formation, and the different aspects of our modern literary language. "Kitabi-Dada Gorgud" also uses a lot of compound word combinations. These compounds are formed by the combination of three or more words; e.g.: the grandfather of Khan Uruz, the son of Bayandur Khan, the son of the brown horse, the lion of the ummah, the state of the thick Oguz, etc.It can be concluded that the formation of deterministic phrases has undergone a long historical development, has been gradually polished and has become a stable form in our modern literary language.

Redaksiyaya daxil olma tarixi: 05.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: f.ü.f.d. dos.P.Ə.Əzizova
tərəfindən çapa tövsiyə olunmuşdur

B.M.ABIYEVA V.G.
M.SƏFİXANOVA A.H.
asəfixanova@gmail.com

FRAZEOLOJİ BİRLƏŞMƏLƏR, ONLARIN İNGİLİS VƏ AZƏRBAYCAN DİLİNDƏ LEKSİK XÜSUSİYYƏTLƏRİ

X Ü L A S Ə

Bu məqalədə frazeoloji birləşmələr və sabit söz birləşmələrindən bəhs edilir. Dildə olan sabit söz birləşmələrinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlara əksər hallarda başqa bir dildə olduğu kimi tərcümə etmək olmur və çox zaman mənasız ifadələr alınır. Frazeoloji birləşmələr istər məzmun istərsə də forma etibarilə zənginliyə, onların dildə həddindən artıq işlədilməsi dilçilərin diqqətini özünə cəlb etmirlər. Sabit söz birləşmələrinin leksika ilə daha sıx əlaqəsi olduğundan onlar bir tərəfdən bu birləşmələrin törəməsində müxtəlif qrammatik vasitələr iştirak edir, eyni zamanda bunlardan fikirlərin istifadəsi üçün dilin tərkibində məfhunun hazır vahidləri şəklində istifadə edilir. Frazeoloji birləşmə sözün potensial ekvivalentidir. V.Vinoqradovun frazeoloji vahidlərə dair bölgüsündə frazeoloji birləşmə adlandırılan qrup ilk baxışda təsnifatında frazeoloji qrup və ya adi birləşməyə oxşayır. İngilis dilində də frazeoloji birləşmələr iki sözlə bir məna vermək üçün istifadə olunar. Ümumilikdə, frazeoloji birləşmələrdə *up, down, it, out, on, off* kimi köməkçilərdən istifadə olunur və köməkçilər əsas felin özündən sonra gəlir, *turn off, get up, cheer up* və s. Bəzi frazeoloji birləşmələr sadəcə yazıldığı kimi parça istifadə olunur. Bütövlükdə bir leksik mənanı bildirən söz birləşmələrinə frazeoloji birləşmələr deyilir. Frazeoloji birləşmələr tərkibində dəyişməyən və məcazi mənada işlənən sabit söz birləşmələridir. Dilin bütün vahidlərinin əmələgəlmə mənbəyi nitq fəaliyyətidir.

Açar sözlər: frazeoloji birləşmələr, leksikologiya, struktur dəyişikliyi, semantik məna.

Frazeoloji vahidlərin çoxsaylılığı və onların nitqdə tez-tez işlənməsi bir çox tədqiqatçıların nəzərini birləşmələrin özünə məxsus xüsusiyyətləri vardır. İnsanın nitq fəaliyyəti dilin bütün kimi frazeoloji vahidlərin də əmələgəlmə mənbəyidir. Frazeoloji vahidlər hər şeydən əvvəl, söz birləşmələri olub kommunikatın məqsədlərə xidmət edir. Dilçilik elmin də frazeoloji birləşmələrə həmişə maraq olmuşdur və dilçilikdə müxtəlif alimlər tərəfindən özünə məxsus şəkildə qiymətləndirilmişdir. Ş.Balli sözə ekvivalent olan frazeoloji tərkiblər arasında iki əsas tipi fərqləndirmiş və onları frazeoloji vəhdətlərdə birləşmişdir. Azərbaycan dilinin səciyyəvi xüsusiyyətlərini dərindən öyrənməklə semantik cəhətdən bölünməz

olan frazeologizmlər arasında frazeoloji vəhdətlər ilə frazeoloji qovuşmaları ayırd etmək mümkündür. A.Qurbanov frazeoloji vahidlərin tipləri məsələsini özünün "Dilşiliyə qrup" adlı kitabında qeyd etmişdir. Alim frazeoloji vahidlər məsələsinin əhatə dairəsinə inandırıcı şəkildə müəyyənləşdirilmişdir. Xarici alimlərin o cümlədən Ş.Ballinin fikirlərini inkişaf etdirmək frazeoloji vahidlərin bölünməzliyi və sabitliyi əsasında fərqləndirilməsi və təsnif edilməsi prinsipıərini təklif etmiş, onların tarixi təbiətinin izah edilməsi yollarını göstərmiş frazeoloji vahidlərin üç tipini müəyyən etmişdir, frazeoloji pozulma, frazeoloji vəhdət və frazeoloji uyuşma. Frazeoloji qovuşmalar möhkəmlənmir və nitqdə yaranmır (1-4-5). Frazeoloji birləşmələrin mənası ilə tərkib hissələrinin mənaları arasında heş bir əlaqə yoxdur. Qovuşmanın bütövün semantik bölünməzliyini tərkib hissələrinin zahiri qrammatik sərhədlərinin qalması müşayiət edir. Frazeoloji qovuşmalarının əsas əlaməti semantik cəhətdən bölünməzliyi bütövün mənasının tərkib hissələrinin mənalarından yaranmışdır. Frazeoloji bölüşmələr semantik cəhətdən bölünməzdilər, vahid mənanın ifadəsidir, ancaq bunların bütöv məna motivlənir, leksik tərkiv hissələrinin mənalarının birləşmələrini göstərir. Frazeoloji vəhdətlərinin dörd əlaməti vardır. Məcazi, onların semantik bölünməzliyini yaradan məcazi, obrazlı məna, ekspoztivdolğunluq, frazeoloji birləşmələrin müvafiq söz və ifadə ilə əvəz oluna bilinməsi, bütövlükdə frazeoloji vəhdətin müvafiq söz və ifadə ilə əvəz oluna bilməsi. Frazeoloji uyğunluqlar üçün onların leksik tərkib hissələrinin bir-birinə sıx yanaşması ilə bərabər, yenə də onlara xüsusi mənası olan ayrıca sözlərin duyulması xasdır. Frazeoloji birləşmələrin səciyyəvi xüsusiyyətləri belə göstərilir: frazeoloji birləşmələr "sabit" söz kompleksi olub, sintaktik söz birləşmələri – qarşı durublar, bunkar hazır törəmələr olub, yaradılmışlar, nitq prosesində hasil edilirlər.

Frazeoloji birləşmələrdə tərkib hissələrinin semantik cəhətdən qaynayıb – qarışması onların leksik tərkib hissələrinin sabit olduğunu göstərir (1-7-8). Dilçilərin frazeoloji konsepsiyanın bütövlükdə eyni formada üiymətləndirməsi qeyd olunur. Akademik V.Vinoqradovun konsepsiyası "bölünməz birləşmələr" nəzzəriyyəsinin inkişafında xüsusi bir mərhələ, dilçilikdə ona qədər edilənlərlə müqayisədə daha yüksək bir mərhələ kimi göstərilmişdir. İngilis dilinin frazeologiyasının tədqiqi sahəsində A.V.Kuninin gördüyü işlərə xüsusi bir mərhələ təşkil edir. Dilçi hər şüydən əvvəl qeyd etmək istəyir ki, o dəfələrlə nəşr olunmuş, ingilis dilinin frazeoloji lüğətinin müəllifi olmuşdur. İngilis dili frazeologiyasının ilk sistemkəşdirilmiş təsviri A.Kuninin "İngilis frazeologiyası əsərində yerinə yetirilmişdir. Tədqiqatçı özünün qəbul etdiyi frazeoloji konsepsiyaya uyğun olaraq bir sıra məsələləri (variantlıq, struktur, sinonimlik, frazeoloji vahidlərin asılılığı, frazeoloji mənanın tiplərinin, frazeoloji kontekt nəzəriyyəsi, frazeoloqizmlər öz prinsiplərindən ayrıldığı halların təsviri və s.) yenidən həll etməyə çalışmışdır. Tədqiqatçı tədqiqat üsulu kimi frazeoloji eyniləşdirmə metodundan istifadə etmişdir. İngilis və amerikan dilçiliyində sabit söz birləşmələrinə daha çox tətbiqi dilçilik problemi olaraq yanaşmış, səylərini idiomatik birləşmələrin lüğətini tərtib etmək üzərində cəmləşdirmişdir. İngilis

dilçiliyində frazeologiyanın tətbiqi sayəsində əldə edilən nailiyyətlərin konkret bir dildə aid olduğu göstərilir (2, səh.5-7). Hər bir dilçilikdə frazeoloji birləşmələr sabit söz birləşmələri kimi qeyd olunur "yarımsabit birləşmələrdə leksik semantik hüdudlar söz tiplərinin üzərində qoyulmuş məhdudiyyətlərdə təzahür edir. Məsələn, *go* feli göstərilən nümunələrdə belə işlənir. Bu zaman *"to go"* felindən sonra sözönləri və artiklsız ad gəlir (to go hand in hand) (to go cap in hand) bunlar yalnız müəyyən hərəkət və vəzifələrin icra olunduğu məkan adları ilə işlənir. Yalnız azsaylı sinonimləri ilə bağlıdırsa, yaxud mümkün deyilsə, yəni ifadənin üzvləri həmişə eyni olaraq qalır və bir-birindən həmişə ayrı olaraq qalır və bir-birindən ötrü sabit deyilsə o sabit söz birləşməsidir. Frazeoloji vahid və söz əsərində frazeoloji fondların öyrənilməsi sahəsində ən çox nailiyyətləri nəzərə almaqla belə hesab edilir ki, həmin işin miqyaı necə olursa olsun, frazeoloji fondlar. Frazeoloji və qeyri- frazeoloji xarakterli sabit söz birləşmələrini ehtiva etməlidir (3, səh.3-4). Frazeoloqizmlərin əsas xüsusiyyətlərindən biri odur ki, onlar əsasən əsas və kğməkçi nitq hissələrinin birləşməsindən düzəlir. İngilis dilində də köməkçi nitq hissəsi funksiyasında sözünün bağlayıcı, artikl çıxış edə bilər. Feli – postpositiz frazroloqizmlər əsasən əsas və köməkçi nitq hissəsinin köməyi ilə düzəlir və onların özləri də üç qrupa bölünürlər.

1) Istiqamətləndirici, *to come back, to go away, future away,*
2) Şəkilləndirici: *to sit, to sit down,*
3) Gücləndirici: *to end up, to bush up to fix up.*

Frazeoloji vahidlərin yaranma yollarına aid vahid bir prinsip mövcud deyildir. Müxtəlif tədqiqatçılar da bu məsələlərə müxtəlif nöqteyi-nəzərdən yanaşmışlar və aşağıdakı qruplara bölünmüşlər.

1) Qrup təşkil edənlər
2) Qrup təşkil etməyənlər.

Qrup təşkil edənlərə əsasən sifət-isim, isim-isim, isim-zərf modelləri daxildir. Qrup təşkil etməyənlərə isə sintaktik əlaqələr üzrə birləşməyən bir sıra qeyri-feli frazeoloji birləşmələr daxildir. Azərbaycan dilində hər iki komponent isimdən ibarət olnan frazeoloji vahidlərə aşağıdakılar aiddir: ara sözləri, çiçək yağışı, söz yarası və s. ingilis dilində hər iki tərəfi isim olan frazeoloji birləşmələr: affair of heart – ürəkdən gələn, the collour far – irqi ayrıseçkilik, bublin brook – çoxdanışan, a babe in the wood – sadəlövh uşaq, to bade off – səsini kəsmək, bade out – verdiyi sözü tutmamaq, bade the wall – çıxılmaz vəziyyətə düşmək və s. Frazeoloji vahidlərin haqqında fikirlər tədqiqatçılar arasında fikir ayrılığına səbə olmuşdur. Ona görə də bu fikir ayrılığı nəticəsində frazeologiya "dar" və "geniş" mənada işlənir. Yalnız bir ad bildirən sabit birləşmələr sabit birləşmələr frazeologiyada "dar" mənada işlənir. Atalar sözləri, iddialar, zərb məsəllər və hikmətli sözlər geniş mənada işlənən frazeologiyaya aiddir. Geniş mənada işlənən məfhumatların frazeologiyaya daxil edilməsi məsələsinə tədqiqatçı Z.Əlizadənin öz xüsusi baxışları vardır. Metaforlaşma dərəcəsinə görə söz birləşmələri üç qrupa ayırmaq olar.Tam metofikirləşmə nəticəsində atalar sözləri söz anayışa və cümlə-anlayışa uyun gəlir. Məsələn, (sakit

olmayan adama, çıltaq, cəncəl sözləri deyilir (4, səh.16-18) İ.V.Almondun fikrinə görə aşağıdakı semantik təsnifatı frazeoloji fikirləşmələrdə daha düzgün göstərilmişdir.

1) əşyalıq mənalı substanlı idiomlar sinfi – a bird in the hand – nağd pul
2) antibutivlik: as if butter wauldn`t melt in one1s mounth – ağzında yağ kimi əriyir.
3) Komporativlik: in the twinkling of an eye – bir göz qırpımında.
   Hərəkət məzmunlu adverbicle idianlar sinfi burn the caudle in bah ends.

Cümlənin əsas üzvləri arasında münasibət məna proporsional idiomlar sinfi in the light of, in the face of, modallıq hərəkətin ardıcıllığı, konkretləşdirmə, yaxud dəqiqləşdirmə mənası əlavə idiomlar sinfi in truth – həqiqətən, əslində ingilis dili frazeologizmlərin sistemləşdirilməsinin ilk təşəbbüslərinin biri L.P.Smitə məxsusdur. Onun ingilis dilinin frazeologiyasına həsr etdiyi əsərdə N..Şmelyonun yazdığı müqəddiməsində deyildiyi kimi, həmin işdı frazeologizmlərin struktur tiplərinin aydınlaşdırılması yox dərəcəsindədir. L.P.Smit tərəfindən əsas materialın əks etdiyi mənbələrə müvafiq şəkildə yerinə yetirilir. Frazeoloji birləşmələr tərkibcə dəyişməz bütövlükdə məcazi bi rmənanı bildirən sabit söz birləşmələridir. Frazeoloji birləşmələr dildə hazır şəkildə olur. Onların bəzilərini bir sözlə əvəz etmək mümkündür və onlar tərkib hissələrinə bölünmədən bütöv bir cümlənin üzvü olur. Dilin bütün vahidlərinin əmələgəlmə mənbəyi nitq fəaliyyətidir. Bu fikri eynilə frazeoloji vahidləri də olur. Məlumdur ki, frazeoloji vhidlər hər şeydən əvvəl söz birləşmələri olub, nominallı xarakter daşıyır. Bu xarakterik xüsusiyyətlər nəinki Azərbaycan dilində, həmçinin digər dillərdə də özünü göstərir. Belə ki, frazeoloji vahidlər frazeoloji birləşmələr metodu üzrə seçilir.

ФРАЗЕОЛОГИЧЕСКИЕ СОЧЕТАНИЯ, ИХ ЛЕКСИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ
РЕЗЮМЕ

Ключевые слова: фразеология, лексикология, структурное изменение, семантическое значение.

Фразеологические сочетания и их лексические особенности в англо азербайджанском языке. Статья посвящена исследованию лексико-семантических групп фразеологических единиц на английском и азербайджанском языках данная работа посвящена лексико-семантическому исследованию фразеологических единиц. Те, которые учатся на английском языке, думают, что одним из самых сложных вопросов в английском языке – является фразеологизм. Поэтому для того, чтобы лучше понять тот самый язык, нам необходимо поглубже изучить понятие и классификацию фразеологизма.

Фразеологизм – это неотъемлемая и органическая часть и языковой системы и культуры. Его еще называют фразеологическим оборотом. Речевым оборотом – это свойственно только данному языку, устойчивое сочетание слов. Фразеологические выражения – это готовые речевые обороты, которые состоят из слов со свободным значением. Фразеологические сочетания – это выражения, в которых одно слово употребляется свободно, а второе связанное с первым. Фразеология раздел языкознания, изучающий устойчивые сочетания в языке. Идиомы и фразеологизмы – это устойчивые сочетания слов, которые не переведены просто так. Также фразеологические выражения – это обороты с буквальным значением компонента. В этой статье также рассмотрено некоторые важные аспекты в процессе перевода фразеологических соединений в английском и азербайджанском языках. Их роли значение в предложениях тоже обсуждаются.

SUMMARY

PHRASEOLOGICAL UNITS, THEIR FEAUTURES IN ENGLISH AND AZERBAIJANI

Key words: phraseologial units structural changes, semantical mealugs lexicology.

In this article observatious show that phraseological units play an important role in English reading, in lexicology in trauslating from English to Azerbaijani or from Azerbaijani to English. It forms English Azerbaijani dictionaries. In linguishics phraseology is the study of set or fixed expnessious, such as idioms, phrasel verbs and other types of multi – word lexical units, in which the component parts of the expression take on a meaning more specific than, or other wise not predictable meanings, The basic units of analysis in phraseology are often referred to as phrasems or phraseological units. Phraseological unit, are stable word-groups with partially or fully transferred meanings to kick the bucket “guck gift” and other expressions. Phraseological unit is a lexicalized, reproducible lexemic or polylexemic word group. This article is devoted to the study of the phraseology origin. In this article are slown the word phraseplpgy and it`s isolation from lexicology. In order to complemed the word phraseologism they first introduced it is the scholars. It is clear that phraseological unit is the important part of lexicology. In this article the basic types of phraseological units are analyzed relating to the degree of idiomaticity in the process of learning a foreign language. The authors tried to define the types of phraseological units by using numerous examples. The source of all language units is speech activity.

The same can be saved about phraseological units. Phraseological units first of all a combination of words nominative and communicative. They are shown not

only in English and Azerbaijani but also the other languages. So learning of theoretical problems of these phraseplogical components deeply and systematically searching of their forming process make easy to enlaarse dictionaries.

ƏDƏBİYYAT

1.A.Qurbanov. Azərbaycan dilinin frazeologiyası. Bakı, 1966.
2.A course in modern English lexicology. Moscow, 2004.
3.M.Əlizadə. Azərbaycan dilinin frazeoloji sistemində sözlərin mövqeyi. Bakı, 2002.
4.English as a global language crystal. David, Cambridge, 2003.

Redaksiyaya daxil olma tarixi: 08.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

ARİFƏ YUSİFOVA
Azərbaycan Tibb Universiteti
arifə.@.mail.ru.

SADƏ NƏQLİ CÜMLƏNİN KOMMUNIKATİV TƏBİƏTİ

Açar sözlər: cümlə, nitq, kontekst.
Key words: sentence ,speech,context.
Ключевые слова: предложение, речь,контекст.

Cümlə hər bir dilin qrammatik qanunları əsasında formalaşaraq bitmiş bir fikri ifadə edir. Cümlələrin əmələ gəlməsindəki qaydalar hər bir dilin öz daxili inkişaf qanunlarına əsaslanır. Bu qaydaların müəyyən dərəcədə tarix boyu dəyişikliyə məruz qalması zaman-zaman müxtəlif tədqiqatların obyekti olmuşdur. Cümlə və onun əlamətləri tədqiqatçılar tərəfindən müxtəlif şəkildə izah edilmişdir.Hər bir cümlə müəyyən məlumata, intonasiya formasına, predikativliyə və modallığa malik olmalıdır. Beləliklə, nitqlə bağlı canlı qarşılıqlı əlaqələr və qarşılıqlı təsir prosesi şəraitində cümlənin kommunikativ funksiyası aparıcı yer tutur. Buna görə də cümlənin təhlili məhz funksional baxımdan həyata keçirilir. Sintaktik təhlil zamanı həmişə cümlə üzvləri fərqləndirilir, məntiqi təhlildə frazanın informasiya mənası aydın olur, aktual təhlildə isə konkret ünsiyyət şəraitində frazanın anlam dairəsi müəyyənləşdirilir.Danışıq dilinin biri digərinə yaxın görünən vahidləri bəzən çox incə məna və intonasiya xüsusiyyətləri ilə seçilir. Fonetik ünsürlər prinsipcə leksik-qrammatik vasitələrdən fərqlənir. Lakin onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndiricisi rolunu oynayır. Sadə cümlə sintaksisi əhatə dairəsinə görə geniş olub, dilin sintaktik quruluşunun əsas məsələlərini: cümlə üzvlərini, əlavələr, sözlərin sırası, cümlə üzvlərinin iştirakına görə cümlənin növləri, cümlə əvəzləri, qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər kimi bir sıra problemləri tədqiq edir.Sadə monopredikativ quruluşlu cümlənin təşəkkülü məsələsinə qısa nəzər salaq. Bu cümlələrin keçdiyi yol, həm də müxtəlif ideyaların qoyuluşu uzun bir mərhələ keçmişdir. Lakin sadə cümlənin bu təşəkkülü unikal bir hal deyildir. Həm müasir azərbaycan dilində, həm də başqa dünya dilləri ailələrinə mənsub dillərlə sadə cümlənin tipoloji analogiyası olduğu kimi müasir ingilis dilində də oxşardır. Sadə cümlə ilə bağlı problem əsasən bir qrup tədqiqatçıların cümlə üçün göstərdiyi əlamətləri təktərkibli, digərləri isə cüttərkibli cümlələrdə tapması ilə bağlı olmuşdur. Sadə cümlə quruluşu nə qədər möhkəm olsa da, onun potensial pozulma halları bir o qədər çox olur. Bu da onların tərkibində elliptik, yarımçıq, paranteza və s. cümlələrin mövcudluğu ilə bağlıdır.

Sadə cümlə məsələsi müxtəlif ziddiyyətli fikirlərin olması baxımından hələ də mübahisəli qalmaqdadır. Bunlardan ən çox mübahisə yaradanı dilçilikdə mürəkkəb cümlənin sadə cümlələrin ardıcıllığından əmələ gəlməsi haqqındakı müxtəlif

fikirlərin olmasıdır.I.F.Vardul yazır: «Tabeli mürəkkəb cümlələr əslində cümlələr deyil, çünki onlar ilk növbədə cümlələrə bölünürlər. Bu cür adlandırılan vahidlər əslində tabesizlik əlaqəsi nəticəsində meydana çıxan cümlə zəncirləri, cümlə ardıcıllığıdır».Bizcə alim burada cümlə zəncirləri, cümlə ardıcıllığı dedikdə sadə cümlələri nəzərdə tutur.Formal- qrammatik elementlər intonasiya ilə yanaşı sadə nəqli cümlənin struktur- semantik düzümündə müəyyən rol oynayır. Bu zaman rema xüsusi nəzərə çatdırılır. Cümlənin emosional və ekspressiv çəkisi xeyli artır[1, 76].

Müasir Azərbaycan və ingilis dillərində bu və ya digər cümlə üzvlərinin rema kimi çıxış etməsində, müəyyən məna çalarlarının verilməsində formal- qrammatik elementlər mühüm rol oynayır.Əgər aktual üzvlənmə suprasintaksis yarusu ilə bağlıdırsa, formal üzvlənmə isə bilavasitə sintaksis yarusuna aiddir. Suprasintaktik yarusun vahidləri ifadə üçün bilavasitə intonativ vasitələrlə əlaqəyə girir, sintaksis vahidləri isə özlüyündə heç bir intonasiya parametrinə malik deyillər. Bu münasibətlə K.Abdullayev yazır: «Müəyyən cümlə üzvünün aktuallaşması, yəni onun həmin cümlənin remasına çevrilməsi söz sırasından başqa eyni zamanda müxtəlif qrammatik və leksik elementlərin (əlamətlərin) köməyilə də baş verir. Bununla bağlı müəyyən formal hissəciklər Azərbaycan türk dilində ayrılıb bir qrup təşkil edir ki, bütövlükdə bu qrupun elementləri cümləyə remanın varlığını seçib ayırmaq, nəzərə çatdırmaq üçün daxil edilir» [1, 98]Bu qrupun elementləri bilavasitə aktuallaşmaya xidmət etdiklərinə görə müəllif onları «aktualizator» adlandırır. O cümlədən, müxtəlif tərkibli sadə nəqli cümlələrdə bu hissəciklər işlədilərək onların mənasına təsir edə bilmir, ancaq ifadə etdiyi məna növlərinin qabarıq nəzərə çatdırılmasına xidmət edir.«Gecədən xeyli keçmişdi,/ ətraf da,/ кiçiк həyət də,/ iki kiçik pəncərəsindən işıq gələn otaq da, / bayırdakı qar kimi yumşaq bir sükut içində mürgü vururdu» Burada «ətraf da» sözündən başlayaraq «otaq da» sözünün sonuna qədər səs tonu yüksəlməyə doğru gedir. Bu sözlərin hər üçü da/də hissəciyi ilə işlədilərək, cümlənin başqa hissələrinə nisbətən yüksək intonasiya ilə deyilir. Cümlədə sadalama intonasiyasından istifadə olunur. Bu sözlərin deyilişində səs tonu eyni şəkildə başlayıb eyni şəкildə bitmir. Ona görə də bu cümlədə «ətraf da» sözü daha yüksək, «kiçik həyət də» sözü ona nisbətən zəif, «otaq da» sözü isə bu nisbətdə daha zəif, lakin cümlənin ümumi tonundan qüvvətli intonasiya ilə ifadə edilir. Cümlədəki formal da/də elementinə gəlincə isə o cümlə tərkibində uzlaşdığı cümlə üzvünün funksional mənasının şiddətlənməsinə şərait yaratmış, kommunikativ gərginliyin daşıyıcısına çevrilmiş, ona qüvvətli dinamik vurğu gətirmişdir. Bu qrammatik – morfoloji göstərici ilə oxucu və ya dinləyicinin nəzəri müəyyən sözə cəlb olunaraq, remanın seçilməsində vasitə olmuşdur.Müasir Azərbaycan dilindəki "da"-"də", ingilis dilindəki «also» sözünə uyğun gəlir2.«Yes,/ this was also the end of Cape Town/ and its bustling and exciting stream of life.» (Bəli, bu da Keyptaun və onun qaynar, həyəcanlı həyatının sonu idi .) Bu cümlədə də «also» sözü aid olduğu sözün məna tutumunu genişləndirir, onu konkretləşdirir və məntiqi predikata çevirir. «Yes» sözü cümlənin əvvəlində yarımçıq düşən tonla bitmiş, cümlə özü enən

tonla sərhədlənir. Məna mərkəzi axırıncı vurğulu sözə düşür.Formal hissəciklərə ədatları, modal sözləri, qayıdış əvəzliklərini misal göstərmək olar. Müasir ingilis dilində də bu ünsürlər bu və ya digər cümlə üzvlərinin rema кimi çıxış etməsində, mənanın qabarıq nəzərə çatdırılmasında mühüm rol oynayır. Bunlardan qüvvətləndirici just, even, dəqiqləşdirici namely, such as və s. göstərmək olar. Onlar mübtədadan əvvəl işlənərək, remalaşdırma vəzifəsini görür. İngilis dilində cümlənin remasının, yəni yeni olan hissəsinin xüsusi olaraq nəzərə çatdırılması üçün qrammatik əlamətdən və ya leksik göstəricilərdən istifadə edilir. Adı çəkilən ədatlar aid olduğu mübtədanın mənasını ya qüvvətləndirir, ya məhdudlaşdırır, ya da inkar edir. [1,11] İşlənmə dairəsinə görə müasir ingilis dilində mübtəda qarşısında nisbətən çox işlənən remalaşdırıcı «only» «even» ədatlarıdır ki, bunlar da müasir Azərbaycan dilinə «yalnız», «təkcə», «ancaq», «belə», «habelə» kimi tərcümə edilir.«Even here is something sad and terrible» .(Hətta burada nəsə qəmli və dəhşətlidir)və ya: Lady's only relaxation was to come up after she had sewed the dinners and have a little chat with her gentleman» . (Xanımın yeganə rahatlığı təşkil etdiyi naharı yola vermək və öz cənabı ilə bir az söhbət etməsi idi .)Təsdiq məqamında işlənmiş bu cümlələr enən tonla sərhədlənərək «only» sözünün köməyilə güclü dinamik vurğu ilə tələffüz edilir, söz özü modal zonaya daxil edilir. «Only» ədatı prepozisiyada işlənərək, kommunikativlik cəhətdən böyük əhəmiyyət kəsb edir.«O ölümdən belə qorxmurdu».«Belə» qoşması işlənmiş bu cümlədə frazanın əvvəlində ton qalxma, sonuna yaxın enən şкala ilə özünü göstərir. Cümlənin melodiyası alçalıb qalxan formadadır. Cümlədə «belə» qoşması remanı müəyyənləşdirir, ona məntiqi vurğu gətirir səs tonu sona yaxın zəifləməyə doğru gedir.Qeyd etməliyik ki, «belə» qoşması da/də elementindən daha fəal şəkildə cümlənin funksional quruluşunda remanı ayırır, yəni daha çox xüsusiləşir. Qeyd edək ki, modal sözlər köməkçi sözlərlə əsaslar arasında qiymətləndirici məna daşıyan körpü rolunu oynayır.Bundan başqa, özü, özü də, belə, qədər, kimi və s. sözləri də misal gətirmək olar.«Otaq gülüş səsiylə dolmuşdu. Tanrı özü də gülürdü» .Bu cümlə yüksək tonla işlənmiş, səs tonunun hərəkəti düşəndir. Əsas gərginlik «özü də» sözündə cəmlənir.

Qayıdış əvəzliyi olan «özü» cümlə daxilində formal ünsür кimi çıxış edərək remalaşdırıcı funksiyanı öz üzərinə götürür. Məntiqi vurğu ilə tənzimlənir. Cümlənin əvvəlində, ortasında, axırında gələ bilir. Bu əvəzlik da/də hissəciyi ilə birləşərək cümlə üzvünün digər cümlə üzvlərindən daha kəskin ayrılmasını nəzərdə tutur. K.Abdullayev onu mürəkkəb aktualizator adlandırır. [1, 113] « Özü də qaravəlli danışırdı Götürək özü əvəzliyinin postpozisiyadakı vəziyyətini. Burada da analoji hal təkrar etdirilir.«Sən deyən yaxşı adam deyil özü.» Xəbərdən sonra işlənərək subyekti konkretləşdirir. Eyni zamanda cümlə özü düşən tonla sərhədlənir.Analoji məqamlar müasir ingilis dilinə də aiddir.«And he himself sat down on the arm of his grandfather,s chair» (O özü babasının stolunda oturdu.). Burada «himself» prepozisiyada işlənir. Bu elementin daxil edilməsi ilə məntiqi – sintaktik əlaqə yaranaraq, əsas cümlənin mənasında dəyişiklik baş verir.

«The first season presented it myself» (Birinci mövsümdə onu mən özüm təqdim etdim .) [«...Və göydən bir üzü sarı, bir üzü qırmızı üç alma düşmüşdü».Lakin bir çox hallarda müasir İngilis dilində də «and» bağlayıcısından əvvəl üç nöqtə ilə qeyd olunan pauza göstəricisinə rast gəlinir. Bu da nəticə bildirmə çalarının daha qabarıq nəzərə çatdırılmasını şərtləndirir.«… And she told everything» (.. Və o hər şeyi danışdı .)Yeri gəlmişkən qeyd edək ki, pauza cümlənin ortasında gəldikdə ayırıcı məqam kimi özünü göstərir. Bu mənada pauza deyimin həm tempini, həm də ritmini müəyyənləşdirir və tənzimləyir. Əgər biz verilmiş cümlələrdən «myself», «himself», «even», «only», «özü», «və» kimi başqa sözləri atsaq, əsas cümlənin quruluşunda söz sırasında əsaslı bir dəyişiklik baş verməyəcəkdir. Cümlənin mənasına diqqət etdikdə isə nə kimi dəyişiklik baş verdiyini hiss etməmək mümkün deyildir. Bu elementlər işlənən zaman dərhal dəyişiklik baş verir.

«Bayaq elə bu yamacda gördüyüm işıq indi kəndimizin üstünə düşmüşdü.

Evlər ağappaq bir işığın içindəydi».

«Bu» əvəzliyi mətndə semantik əlaqə yaradaraq ümumi fikri daha dolğun əks etdirmək üçün işlənir. Eyni zamanda «bu» əvəzliyi statik deyil, dinamik səviyyədə özünü göstərir. Məlum olanı bildirir.

Beləliklə, sadə cümlə mətnin təşkilində aparıcı rola malikdir.

Ədəbiyyat

1. Abdullayev K. Azərbaycan dilinin sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.

2. Косериу Э. Синхрония, диахрония и история, // Новое в лингвистике, вып III, M: 1963, c.177- 190.

3. Крушельницкая К.Г. К вопросу о смысловом членении предложения// Вопросы языкознания. M: Просвещение, 1956, №5, c.54- 59.

4. Кокорина С.И. К вопросу о грамматической семантике структурной схемы простого предложения// Спорные вопросы синтаксиса, МГУ, 1974, c.450- 462.

A.Yusifova

THE COMMUNICATIVE NATURE OF SIMPLE DECLARATIVE SENTENCE

SUMMARY

The article is devoted to the simple declarative sentences in modern Linguistics. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of it.

The author emphasizes its role in Linguistics. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly and use the language more competently.

So,simple declarative senrences plays great role in the formation of text. It giver meaningful, colourful effect to the text -formation.

At this moment the space of text is getting to be widen.

The formal-grammatic elements also very important in the formation of the text

А.ЮСИФОВА

КОММУНИКАТИВНАЯ ПРИРОДА ПРОСТЫХ ПОВЕСТВОВАТЕЛЬНЫХ ПРЕДЛОЖЕНИЙ

РЕЗЮМЕ

Статья посвящена k простому повествовательному предложению на современном лингвистике. В анализе большое внимание обращено на фактом , полученные из методологических литератур.

Автор пытается раскрыть роль этих предложений.

Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность.

Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также более разнообразном колорите.

Итак, простые повествовтельные предложении играет большой роль на формировании текста.

Дает значительный эффект текстам.

Формальные -грамматические элементы здесь также важно.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

Dos. MƏTANƏT HACIYEVA
Azərbaycan Tibb Universiteti
haciyeva.metanet@internet.ru

AZƏRBAYCAN DİLİNDƏ İŞLƏDİLƏN RUS VƏ AVROPA MƏNŞƏLİ HÜQUQ TERMİNLƏRİ

Ключевые слова: лексические единицы, язык, заимствования, термин, грамматическая, выражения, слово, образование

Açar sözləri: leksik vahidlər, dil, alınmalar, termin, qrammatik quruluş, ifadələr, söz, əmələ gəlməsi

Keywords: lexical units, language, borrowings, term, grammatical, expressions, word, education

Hər bir dilin lüğət tərkibində başqa dillərdən alınmış leksik vahidlər işlənir. Alınma proqressiv təsir olub, dilxarici və dildaxili amillərin təsiri ilə meydana çıxır və dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Belə ki, müəyyən bir xalqın başqa bir xalqla çoxəsirlik mədəni, tarixi, iqtisadi-sosial əlaqələri öz əksini alınmalarda tapır. Bu proses dillərin qarşılıqlı təsiri nəticəsində baş verir və dünya dillərinin hamısı üçün səciyyəvidir.

Alınmaya əksər hallarda o zaman müraciət edilir ki, dilin daxili imkanları əsasında, bu dilin bilavasitə özünəməxsus söz yaradıcılığı üsulları ilə müəyyən anlayışın ifadəsi üçün müvafiq termin yaratmaq mümkün olmur. Bu zaman başqa dildən həmin anlayışı ifadə edən söz hazır şəkildə alınıb işlədilir.

Alınmalar içərisində əsas yeri terminlər tutur. Məlumdur ki, hər hansı bir dildə sosial inkişaf və elmi-texniki tərəqqi ilə əlaqədar müəyyən anlayışı ifadə etmək başqa dildən terminalma prosesini şərtləndirir. Bu mənada alınma terminlər adı altında müəyyən bir dildən başqa dilə məxsus terminlərin alınıb, alan dilin fonetik, leksik və qrammatik quruluşuna uyğun şəkildə ifadəsini nəzərdə tuturlar.

S.Sadıqova terminologiyada işlənən alınma terminlərin aşağıdakı cəhətlərini qeyd edir.

1) Alınma terminlər ancaq elmi anlayışları ifadə edir və hazırda da elmi dildə işlənir.

2) Tarixi şəraitlə bağlı olaraq alınan terminlər müəyyən dövrdən sonra dildən çıxır.(5.140)

Dildə alınma sözlərə aid Azərbaycan və rus dilçiliyində A.A.Reformatskinin, A.P.Krisinin, K.N.Yeqorovun, N.M.Şanskinin, L.I.Barannikovanın, Azərbaycan dilçilərindən R.İ.Budaqovun, N.Məmmədli, A.Qarayevin ("Azərbaycan dilində Avropa dillərindən alınma sözlər adlı doktorluq dissertasiyası), S.Xəlilovanın (İnternasional terminlər) və başqalarının tədqiqatları vardır.

Dilimizin leksikasındakı alınma sözlərin mühüm bir qismini rus və Avropa mənşəli sözlər əhatə edir. Dilçilik əsərlərində dəfələrlə qeyd olunduğu kimi əgər inqilabdan əvvəl dilimizin lüğət tərkibinə ərəb-fars dillərinin təsiri daha güclü idisə, inqilabdan sonra rus və Avropa dillərinin təsiri onu üstələdi və müsbət təsir qüvvəsinə, gücünə malik olan bu dillərin təsiri altında Azərbaycan dilinin lüğət tərkibi Sovet dövründə daha da zənginləşdi.

M.Qasımov bu fikri bir daha qeyd edərək yazır: "Azərbaycan dili indiyədək rus dili vasitəsilə saysız-hesabsız elmi-texniki, ictimai-siyasi və başqa terminlərlə təkmilləşmişdir. Azərbaycan dilinə terminologiya cəhətindən heç bir dilin rus dili qədər müsbət təsiri olmamışdır (2,153).

Bu sözlərin dilimizə keçməsi əsasən XIX əsrin birinci yarısı ilə əlaqədardır. Yəni ərəb və fars sözlərinə nisbətən rus və Avropa alınma sözlərin tarixi o qədər də qədim deyildir. Bu dövrdən başlayaraq Azərbaycan və rus xalqları arasında ictimai, siyasi, iqtisadi və mədəni əlaqə və münasibətlər inkişaf etmiş və bunun nəticəsində də bu proses daha da genişlənməyə başlamışdır.

N.Xudiyev qeyd edir ki, rus dilindən türk dillərinə keçən sözlər daha çox terminoloji xarakter daşıyır, çünki Sovet dövründə rus dilindən türk dillərinə keçən sözlərin böyük əksəriyyəti bilavasitə elmi-texniki inqilabla əlaqədardır (1,17).

Digər dillərdən sözlərin alınması nisbəti müəyyən şəraitlə bağlı olaraq dəyişir. İlk dövrlərdə (XIII-XIV əsrlərdə) ərəb və fars sözlərinin dilimizə keçməsi çoxluq təşkil edirdisə, sonralar bu proses demək olar ki, tamamilə kəsilmişdir.

XIX əsrin əvvəllərində rus dilindən və ya rus dili vasitəsilə dilimizə keçən sözlərin miqdarı az idisə, bu proses getdikcə qüvvətlənmişdir. Qeyd edək ki, bu sözlərin mənbə dilləri əsasən Avropa dilləri olmuşdur. Bütün bunlar tarixi hadisələrlə baş vermiş ictimai və iqtisadi dəyişikliklərlə bağlıdır.

N. Məmmədli bu barədə yazır: "Terminlər əsasən yunan, latin, fransız, italyan, holland, alman, ingilis, ispan dillərindən rus dilinə keçmişdir. (3,49) Buradan aydın olur ki, müasir Azərbaycan dili leksikasının ikinci qolunu alınmalar təşkil edir və bunlar aşağıdakı mənbələrdən götürülmüşdür.

1) ərəb dilindən; 2) fars dilindən; 3) rus dilindən; 4) rus dili vasitəsilə başqa dillərdən (yunan, ingilis, latin, italyan, fransız, alman və s).

XIX əsrin birinci yarısından elm, texnika və incəsənətlə əlaqədar bir çox rus-Avropa sözləri dilimizə keçərək vətəndaşlıq hüququ qazanmışdır. Məsələn: *partiya, palata, deputat* və s.

M.Şirəliyev yazır: "Elm, texnika, incəsənətlə əlaqədar olaraq dilimizdə bir çox rus- Avropa istilalarının işlənməsi və möhkəmlənməsi mədəniyyətimizin inkişafını və dünya mədəniyyətindən ayrı olmadığımızı göstərən bir hadisədir. (6,37)

Məlumdur ki, sovet dövründə rus dili millətlərarası ünsiyyət vasitəsi kimi SSRİ xalqlarının dillərində elmi terminologiyanın sabitləşməsində və inkişafında həlledici rol oynamışdır.

M. Qasımovun qeyd etdiyi kimi, Azərbaycan dili terminologiyasının zənginləşməsinin əsas mənbəyi rus dilidir. Rus dili vasitəsi ilə alınan terminlər Azərbaycan xalqının siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edir. Həmin terminlərin çoxu Sovet cəmiyyətinin inkişafının müəyyən mərhələlərini əks etdirir. (2, 135-136)

Qeyd edək ki, uzun sürən hakimiyyət dövründə bu proses o qədər güclü olmuşdur ki, həmin söz və terminlər indi də öz təsirini itirməmişdir. Müxtəlif sahələr də indi də işlənməkdədir.

Müasir dilimizdə işlənən ən çox rus mənşəli hüquq terminlərinə aşağıdakıları misal göstərə bilərik.

Zaqs (VVAQ) - *doğum, ölüm, evlənmə, boşanma, övladlığa götürmə* hadisələrini qeyd edən vətəndaşlıq vəziyyəti aktları şöbəsi.

Dilimizdə hüquq termini kimi işlənən "Sovet sözündən də vaxtilə çox istifadə edilirdi. Bu termindən bir çox söz-termin birləşmələri yaranmışdır. Məsələn: *Ali sovet, yerli sovet, Nazirlər Soveti, Xalq deputatları soveti, qəsəbə soveti, kand soveti, sovet hüququ, sovet dövləti* və s.

Göstərilən bu birləşmələr, əlbəttə sosializm quruculuğu ilə bağlı birləşmələrdir. Son zamanlar həmin söz-termin birləşmələrinin bəziləri arxaikləşərək bunların dilimizdə işlənmə hüququ məhdudlaşmışdır.

Artıq respublikamız müstəqillik əldə etdikdən sonra bu axının qarşısı alınmış, yenidən dilimizin öz sözlərindən (milli) istifadə edilməyə başlanmışdır. İndi Avropa dillərindən birbaşa alınmalarda daha çox istifadə edilir. Məsələn: *piket (ing), aksiya (fr)* və s.

Hal-hazırda dilimizə müstəqilliklə əlaqədar yeni söz-terminlər daxil olur ki, bu sözlər də dilimizdə əvvəllər işlənən sözləri sıradan çıxarır və ya yanaşı işlədilir. Məsələn: *Ali sovet-Milli Məclis, kvorum-yetarsay, sadr-spiker (Milli Məclisin sədri)*

Azərbaycan ədəbi dilinin inkişafında yalnız hüquq sahəsi deyil, bütün sahə terminologiyalarında Avropa dillərindən alınmaların təsiri böyükdür. Aparılan tədqiqat göstərir ki, dilimizə keçən söz və terminləri mənşəyinə görə latın, yunan, alman, ingilis, italyan, fransız və başqa dillər əhatə edir.

Bir çox tədqiqatçı alimlərimiz öz əsərlərində alınmalardan bəhs edərkən Avropa dillərindən alınmaların təsirini geniş şərh etmişlər. Məsələn: N.Məmmədlinin əsərində Azərbaycan dilində alınma terminlərin mənşəyi, strukturu, mənimsənilməsi, məna və funksiyası araşdırılmış, terminalma prosesinin obyektiv şərtləri, perspektivləri geniş şərh edilmişdir. (3,200)

Müasir Azərbaycan dilində hüquq sahəsində işlənən terminlərə nəzər saldıqda görürük ki, onlar mənşəyinə görə müxtəlif dillərə mənsub olsa da, bəziləri artıq dilimizdə doğmalaşmışdır.

Qərbi Avropa dillərindən alınma hüquq terminlərini mənşəcə aşağıdakı kimi qruplaşdırmaq olar.

1) Latın mənşəli

2) Yunan mənşəli
3) İngilis mənşəli
4) İtalyan mənşəli
5) Alman mənşəli
6) Fransız mənşəli hüquq terminləri

Latın mənşəli hüquq terminləri başqa alınmalara nisbətən daha çoxdur. Məsələn: *akt, aktiv, advokat, aliment, aparat, apellyasiya, viza, ekspert, ekspertiza, inspektor, inte- qrasiya, kollegial, kollegiya, kompromis, konqres, mandat, notarius, protest, resenziya, referendum, sanksiya, sessiya* və s.

Yunan mənşəli hüquq terminləri: *protokol, anonim, sistem, orqan, aristokratiya, birja, hegemoniya, genosid, himn, amnistiya* və s.

İngilis mənşəli hüquq terminləri: *standart, piket, blokada* və s.

Fransız mənşəli hüquq terminləri: *büro, anket, bilet, blok, bülleten, kadr, kuryer, parlament, partiya, pasport, reqlament, raport, fond, bürokratiya, departament* və s.

Alman mənşəli hüquq terminləri: *marka, ştat* və s.

İtalyan mənşəli hüquq terminləri: *ştamp, lombard, gerb (polyak), banda, valyuta* və s.

Tədqiqatlar göstərir ki, Azərbaycan dilinə rus dili vasitəsilə keçən alınma hüquq terminlərinin çoxu latın mənşəlidir. Bundan sonra isə fransız və yunan mənşəli terminlər üstünlük təşkil edir.

Alınma hüquq terminlərinin əksəriyyəti göründüyü kimi dilimizdə işləkliyi ilə fərqlənir. Gündəlik həyatda ən çox işlənən hüquq terminləri aşağıdakılardır: *sənəd, təqdimat, hesabat, akt, qərar, qanun, fərman, sərəncam, əmr, order, müqavilə, protokol, izahat* və s.

Azərbaycan dili terminologiyasında Avropa mənşəli elə alınmalar vardır ki, onlardan bu və ya digər anlayışları bildirən müxtəlif söz birləşmələri şəklində hüquq terminləri əmələ gəlmişdir. Məsələn: latın mənşəli *"komissiya"* sözündən dilimizdə müxtəlif sahələrdə işlədilən terminlər əmələ gəlmişdir. Buna aşağıdakıları misal göstərmək olar: *təftiş komissiyası, hökümət komissiyası, plan komissiyası, seçki komissiyası, attestasiya komis- siyası, mandat komissiyası* və s.

Göründüyü kimi Müasir Azərbaycan dilinin hüquq terminologiyasındakı alınmaların bir hissəsini Avropa mənşəli terminlər təşkil edir. Bu terminlərin bir qismi Azərbaycan dilinin qayda-qanunlarına tabe edilərək dəyişdirilir və həmin termin dildə vətəndaşlıq hüququ qazana bilir. N.Məmmədov dilin daxili qanunauyğunluğundan əmələ gələn bu xüsusiyyəti belə izah edir. "Başqa dillərdən keçən sözlər keçdiyi dilin daxili inkişaf qa- nunlarına tabe olaraq işlədilir və bunun nəticəsində də çox zaman həmin sözlərin gəlmə söz olduğunu müəyyənləşdirmək çətin olur. (4, 22)

Faktlar göstərir ki, rus və Avropa dillərindən hüquq terminlərinin alınmasında latın mənşəli hüquq terminləri üstünlük təşkil edir.

Ədəbiyyat

1. Xudiyev N. Azərbaycan ədəbi dilinin zənginləşmə yolları. Bakı, 1987
2. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973
3. Məmmədli N. Alınma terminlər. Bakı, 2017
4. Məmmədov N. Dilin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarına dair. ADU, Bakı, 1958.
5. Sadıqova S. Azərbaycan dilinin terminologiyasının nəzəri problemləri. Bakı, Elm.
6. Şiraliyev M.Ş. İstilalar yaradılmasının əsas prinsipləri. Dil Institutunun əsərləri. I cild. 1947

AZƏRBAYCAN DİLİNDƏ İŞLƏDİLƏN RUS VƏ AVROPA MƏNŞƏLİ HÜQUQ TERMİNLƏRİ

Xülasə

Hər bir dilin lüğət tərkibində başqa dillərdən alınmış leksik vahidlər işlənir. Alınmalar proqressiv təsir olub, dilxarici və dildaxili amillərin təsiri ilə meydana çıxır və dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Alınma prosesi dillərin qarşılıqlı təsiri nəticəsində baş verir. Alınmaya əksər hallarda o zaman müraciət edilir ki, dilin daxili imkanları əsasında, bu dilin bilavasitə özünəməxsus söz yaradıcılığı üsulları ilə müvafiq termin yaratmaq mümkün olmur. Bu zaman başqa dildən həmin anlayışı ifadə edən söz hazır şəkildə alınıb işlədilir. Alınmalar içərisində əsas yeri terminlər tutur. Bu mənada alınma terminlər adı altında müəyyən bir dildən başqa dilə məxsus terminlərin alınıb, alan dilin fonetik, leksik və qrammatik quruluşuna uyğun şəkildə ifadəsini nəzərdə tuturlar. Müasir Azərbaycan dilində hüquq sahəsində işlənən terminlərə nəzər saldıqda görürük ki, onlar mənşəyinə görə müxtəlif dillərə mənsub olsa da, bəziləri artıq dilimizdə doğmalaşmışdır.

RUSSIAN AND EUROPEAN LEGAL TERMS USED IN THE AZERBAIJAN LANGUAGE

Summary

Lexical units taken from other languages are used in every language. Borrowings are a progressive effect, they appear under the influence of extralinguistic and intralinguistic factors and play an important role in enriching the vocabulary of a language. The process of borrowing occurs as a result of the interaction of languages. In most cases, borrowings are used when, based on the internal capabilities of the language, it is not possible to create a corresponding term with the specific ways of word formation in this language. At this time, a word is

taken and used that expresses this concept from another language. Terms occupy the main place among borrowings. In this sense, the name of borrowed terms is understood as the expression of terms belonging to a language other than a particular language, in accordance with the phonetic, lexical and grammatical structure of the receiving language. If we pay attention to the terms used in the field of law in the modern Azerbaijani language, we see that although they belong to different languages in their origin, some of the terms have already taken root in our language.

РОССИЙСКИЕ И ЕВРОПЕЙСКИЕ ЮРИДИЧЕСКИЕ ТЕРМИНЫ, ИСПОЛЬЗУЕМЫЕ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Резюме

Лексические единицы, взятые из других языков, используются в каждом языке. Заимствования являются прогрессивным эффектом, появляются под влиянием экстралингвистических и внутриязыковых факторов и играют важную роль в обогащении словарного запаса языка. Процесс заимствования происходит в результате взаимодействия языков. В большинстве случаев заимствования используются, когда, исходя из внутренних возможностей языка, нет возможности создать соответствующий термин при специфических способах словообразования этого языка. В это время берется и используется слово, выражающее это понятие из другого языка. Термины занимают основное место среди заимствований. В этом смысле под названием заимствованных терминов понимают выражение терминов, принадлежащих языку, отличному от определенного языка, в соответствии с фонетической, лексической и грамматической структурой принимающего языка. Если обратить внимание на используемые в сфере права термины в современном азербайджанском языке, мы видим, что хотя они и принадлежат к разным языкам по своему происхождению, некоторые из терминов уже природились в нашем языке.

Redaksiyaya daxil olma tarixi: 15.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: dos.Y.K.Alxasov
tərəfindən çapa tövsiyə olunmuşdur

АЛИЯ АБАСКУЛИЕВА
Азербайджанская Государственная Академия
Физической Культуры и Спорта
aliya.abasquliyeva@sport.edu.az

ПЛАНИРОВАНИЕ УРОКА ЧТЕНИЯ ПО НОВЫМ МЕТОДИКАМ ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ

Данная статья посвящена основным методикам изучения учащимися английского языка в Спортивной Академии. В статье рассматривается навык или способность чтения — это, говоря простым языком, способность человека взаимодействовать с текстом и воспринимать слова. Чтение — это процесс просмотра письменных символов и букв и понимания их значения. Это один из четырех основных языковых навыков наряду с аудированием, говорением и письмом. Чтение обычно является третьим языковым навыком, который вы изучаете на своем языке, — он приходит после аудирования и разговорной речи. Стратегии чтения — это методы обучения и занятия, которые учителя и родители могут использовать со своими детьми для развития речи и навыков чтения. Существует множество различных стратегий чтения, которые вы можете применять на занятиях по чтению в классе. Чтобы улучшить понимание прочитанного, учителя могут представить 7 стратегий познавательного чтения для эффективного чтения. Они сосредоточены на поощрении таких навыков, как активация, вывод, мониторинг-уточнение, вопросы, подведение итогов и визуализация. Чтение является ключевой частью изучения английского языка, и эти уроки дают вам прекрасную возможность представить свои собственные темы. Будьте внимательны при выборе статьи. Важно, чтобы ученикам был интересен материал. Они будут более активны в обсуждении, если они твердо относятся к определенной теме. Как говорил Афлербах “Стратегии чтения — это обдуманные, целенаправленные попытки контролировать и модифицировать усилия читателя по декодированию текста, пониманию слов и построению значений текста. Навыки чтения — это автоматические действия, которые приводят к расшифровке и пониманию с помощью скорость, эффективность и беглость и обычно происходят без осознания компонентов или задействованный контроль».

Ключевые слова: методика обучения иностранным языкам, навыки чтения, читательская деятельность, планирование урока.

Вы, вероятно, знаете, что даже на вашем родном языке чтение считается важным, потому что оно может быть развлекательным и познавательным, может открывать новые миры и обогатить вашу жизнь, а также может улучшить зрительно-моторную координацию и улучшить социальные навыки.

Но для изучения иностранного языка, в данном случае английского, чтение на этом языке имеет дополнительные важные преимущества, которые могут помочь вам выучить язык быстрее и полнее. Чтение является важным навыком для изучающих язык. Когда ваши навыки чтения улучшаются, ваши навыки аудирования, говорения и письма также улучшаются. Вот некоторые конкретные причины, по которым изучающим английский язык рекомендуется читать на английском языке:

-Постоянное повторение слов и шаблонов при чтении помогает вам выучить и запомнить словарный запас и грамматические структуры.

-Чтение поможет вам познакомиться с ритмом английского языка. Со временем это станет казаться естественным, и вы заметите, что предложение или фраза кажутся вам неправильными.

-В отличие от разговора, чтение — это то, чем вы можете заниматься самостоятельно.

-Чтение не дорого, часто бесплатно.

Хорошие навыки чтения могут улучшить ваши другие языковые навыки. Вам нужно научиться читать, прежде чем вы сможете писать.

-Чтение — лучший способ выучить и запомнить правильное написание слов.

-Слушая, когда вы читаете вслух, вы можете улучшить свои навыки произношения.

=Если вы хотите улучшить свой английский, научитесь любить читать на английском языке. Лучшие читатели часто получают лучшие оценки, работу и возможности.

Когда мы читаем, мы смотрим на письменные символы (буквы, знаки препинания, пробелы) и используем наш мозг, чтобы преобразовать их в слова и предложения, которые имеют для нас значение. Мы можем читать про себя (мысленно) или читать вслух, произнося каждое прочитанное слово.

Чтобы уметь читать, мы должны уметь: определять слова, которые мы видим (распознавание слов); понять, что они означают (понимание); соединять слова и их значение так, чтобы чтение было автоматическим и точным (беглость).

Навыки чтения влияют на способность студента к чтению — другими словами, на то, насколько хорошо он может читать и понимать то, что читает. Существует широкий спектр навыков чтения, которые дети развивают и над которыми работают на протяжении всего начального образования и за его пределами. Эти навыки можно разделить на четыре основные категории: декодирование, беглость речи, словарный запас и понимание предложений. Эти основные навыки чтения составляют основную часть способности учащигося к чтению. В целом, они направлены на то, чтобы вооружить учащихся навыками, позволяющими им понимать смысл прочитанного. Это

важно не только для их уроков английского языка и других школьных предметов, но и для всех сфер жизни помимо их образования.

Bir sözlə, Cəlil Məmmədquluzadənin əsərlərindəki tarixizmləri yekun olaraq bu şəkildə qruplaşdırmaq olar:vəzifə adı bildirənlər: nəçəmik, qazı, qaradovoy, miravoy, qlava,divanbəyi, pristav, çavuş, yasovul, çarvadar, müdərris, mərsiyəxan,konsul, qarovul, silistçi, vəzir, sultan, qubernator, dilmanc, yüzbaşı, mirzə, müdərris, mürəbbi, sazəndə, nəvazəndə, spextor, padşah,inspektor, çinovnik, mirab, istraxovoy, knyaz, müfti, imperator, vəliəhd,canişin və s.;Nümunələrə nəzər yetirək: Birdən qaçaqaç düşdü; dedilər "naçalnikgəlir" (6, 176); Xudayar bəy qazının sözünün cavabına bir qədər dikəlib və sağ əlinin şəhadət barmağım yuxan qalxızıb dedi (6, 56); Sabah yox,biri gün miravay pasrednik xana qonaq gələcək və urus həkiminin arvadı da gələcək və bunlardan savayı Dəmirtəpə pristavı da gələcək, Qulam xan da gələcək, Səfi xan da gələcək (6, 197); Əvvəl, yəni iki il bundan əvvəl Xudayar bəy qlava yanında çavuş idi (6, 51); Xan bu fikirdə idi -polis yasovulu dayandı qapıya və xam görcək dedi (6, 125); Tappıltı,şaqqıltı və çığır-bağır, qoyma, dinmə, çəkil, gəl, get, axırda bir yoğun çinovnik girdi həyətə, yeridi xanıma tərəf, sol əli ilə börkünü çıxardıb sağəlini uzatdı xanıma və xanımın əlini öpüb qonaqlarla bir-bir əl-ələ veribqalxdı balkona və girdi otağa (6, 176); Doğrudu, kəndə naçalnik də

gəlib,silistçi də gəlib, lider də gəlib, qazı da gəlib, bəlkə qobumat da gəlibdi:amma nəinki hamısı birdən (6, 215); Qulluğumun adı dilmanclıq idi: yəni şikayətə gələn kəndlilərin sözünü naçalnikə rusca tərcümə elərdim,naçalnikin də sözünü türkcə yetirərdim kəndlilərə (6, 253); Yoldaşlarımın çoxu ruslar idi; ancaq bir-iki nəfər müsəlman mirzələri hərə öz işinə məşğul idi; Bu təbiidir: yaraşar ki, qəza naçalniki divanxanasında həmişə kəndli olsun; Mən bu fikrimi camaata dedikdə qabaqda duran kəndlilər belə bəyan etdilər ki, guya naçalnik divanxanasmdan hökm göndərilibGərmə-çataq yüzbaşısma ki, bu gün yəni iyun ayının ikisində, İrəvandakı kazak qoşunundan ötrü əlli dörd dənə yan tütəyi camaatdan yığıb göndərsin (6, 254); Mehriban padşahımızın yolunda oğlumu njaiukı saldatlığa verərəm, mən onu qurban da kəsərəm (6, 491); Cənab Molla Mövlam verdi, cənab inspektor məni vəkil edib sizə təklif edəm ki, həmin uşqolda həftədə iki saat şəriət dərsi deyib, ayda on iki manat yanm hüquq alasınız (6, 503); Axın lap naəlac qalıb, getdim bir qaradovoy çağırdım,oğlanı döyə-döyə çıxartdı eşiyə; Məhəmmədhəsən əmi kağızı çavuşa verib, dübarə düşdü atın döşünə və başladı ayaqlannı öpməyə; Ola ki, karvanın yanında gözətçi və çarvadar olmasın; Musiqi bəstəkarları da haman şeirləri notaya düzüb musiqiyə salıblar və hər ziyafət məclisində və hər bir toyda və qonaqlıqda sazəndə və sazəndələr çalırlar və xanəndələr də oxuyurlar (6, 287); Bir də qardaş bağışla sözün açığı, sən hara konsul hara; On-on iki il bundan irəli Məşədi İrəvanda başına yeddi-səkkiz müsəlman uşağı yığıb müdərrislik elərdi ve hemin Nəzərəli xanın ətrafındakı vəzirlər ibarət idilər bir dəstə ferraşdar ki, əllərində şallaq küçə-bacanı gəzib, xanın əmrini rəiyyətə yemirdi (6, 233).Yuxarıda verilən nümunələr C.Məmmədquluzadənin «Danabaş kendinin əhvalatları», «Poçt qutusu», «Qurbanəli bəy», «Quzu»,Konsulun arvadı», «Danabaş kəndinin məktəbi» və "Xanın təsbehi" adlı əsərlərindən götürülmüşdür. Müəllif bu tarixizmlərdən həmin tarixi dövrdəki ictimai-quruluşun mənzərəsini yaratmaq və dövrün əşyalarını adlandirmaq üçün istifadə etmişdir. ölçü, çəki adı bildirənlər: girvənkə, arşm, xalVar, desyatin və s.;Nümunələrə diqqət edək: Tez yarım girvənkə zəfəran tap (6, 175);Yoxsa, vallah, insaf və mürüvvətdən kənardır ki, Ağa bəyin, ya Cahangirxanın on min desyatindən özünə ban min desyatin də verməyələr (6,287); Kərbəlayi İsmayıl vəfat edib, doqquz ulaq, 23 qoyun, 7 keçi, iki talvar zəmi qoyub getdi.Ölçü, çəki adı bildirənlər tarixizmlərdən isə yazıçı «Qurbanəli bəy»,-Bəlkə də qaytardılar» və digər hekayələrində istifadə etmişdir.pul vahidi bildirənlər: şahı, abbası və s.;

Nümunələrə nəzər yetirək: Otuz girvənkəsi otuz abbası, bu altı manat,çıxaq doqquz şahısını, qalar beş manat on bir şahısı (6, 61); Cibimdə ancaq bir abbası gümüş pul var idi.Hər hansı bir tarixi dövrü canlandıran zaman yazıçıda yuxandaişlənən tarixizmləri işlətmək zərurəti yaranmışdır. Bu da əsərlərə canlılıq gətirmişdir.geyim adı bildirənlər: çanq, çarğat, duvaq, börk, çuxa və s.;Nümunələrə nəzər yetirək: İzdrasti! - və börkünü götürüb sağ əlilə calxızdı yuxan və qışqırdı (6, 176); Vəliqulu kənardan çömbəlib, başladı çarıqları çıxarmağa; Köhnə çarğat, köhnə ağ çit arxalıq - övrətin libası ancaq budur; Evin bir tərəfində təndir üstə duvaq, bir

tərəfdə kürsü, üstə bir qədər də çörək qalanıb; Qoçaq kitabı gətirdi və çuxanı da məndən aldı.Bu tarixizmlərin adlanna isə müasir zamanda rast gəlmək mümkün deyil. Belə ki, bu geyimlər artıq mövcud deyil və tarixin müəyyən bir dönəminin yadigan olan mirasdır. Bu adlara isə yazıçının «Danabaş kəndinin əhvalatları», «Poçt qutusu», «Qurbanəli bəy» və s. əsərlərində rast gəlmək mümkündür: alət adı bilirənlər: çölmək, fərş, xərmən, şana, küləş, şallac.qəcəmədaş, çotka, aflab və s.;

Nümunələrə diqqət edək: Otaqların bir qüsuru yox idi, çünk:divarların kağızı təzə və təmiz idi, taxta fərşlər təzə şirlənmişdilər (6.139); On-on iki yaşında bir oğlan sol əlində bir çölmək sallaya-sallay- girdi içəri; Hətta burası da yadımdadır ki, xərmənlər təzə döyülürdü.Şənəm götürdü və başladı küləşi çevirməyə.dini anlayış bildirənlər: axund, əfəndi, dərviş, vaiz, mərsiyəxan.kərbəlayi, məşədi və s.; .Nümunələrə nəzər yetirək: Baş üstə! - və geyinib çıxdım həyətə və axundla bahəm getdik qonşuluqdakı hacı Cəfər hamamına (6, 203); Bu_iki pedaqoq bir neçə dəqiqə pıçıldaşandan sonra Ədülhəsənzadə Xəlili çağırdılar və müdərris Zəki əfəndi ona belə ded (6, 260).müəssisə adı bildirənlər: divanxana, karvansaray, suc.sahibxana, darülfünun, seminariya, konsulxana, qəzavat, hərəmxana komissiya, dustaqxana və s.

Ədəbiyyat

1. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Leksika. Bakı, «Şərq-Qərb», 2007, 192 s.
2. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası.Bakı,ADU, 1978, 62s.
3. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası.Bakı,«Maarif», 1987, 308 s.
4. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin lcksikologiyası. Bakı,«Nurlan», 2008, 44s.

A.YUSSIFOVA

GROUPING OF ARCHAISMS USED IN WORKS OF JALIL MAMMADGULUZADEH OVER DIFFERENT FIELDS

Summary

Vocabulary does not remain stable any time and is exposed to permanent changes. Like other languages we are faced with different riew in fact while compared with previous periods looking through lexicon of contemporary Azerbaijani language. As formation of new words in the language makes a pole of language change, the other pole comprises contraction of usage circle of words in the language; gradual out-of-date and later leaving the language by words. These are called obsolete words and characterized differently. In ME appeared first instances of a continuous aspect, consisting of the verb be (n) and the first participle. A special future form, which started in OE, becomes in ME a regulars par of the tense system. Perfect forms are widely used in ME. The Subjunctive mood preserved in ME many features it had in OE. It was often used in temporal and concessional clauses. The

passive voice was very widely developed in ME. As the verb weorfan disappeared the only auxiliary for the passive was the verb ben. Ben Participle II could express both a state and Azerbaijan language/

А.ЮСИФОВА

ГРУППИРОВКА АРХАИЗМОВ ИСПОЛЬЗОВАЛА В РАБОТАХ ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ ПО РАЗЛИЧНЫМ ОБЛАСТЯМ

РЕЗЮМЕ

Словарь не остается устойчивым любое время и выставлен постоянным изменениям. Как другие языки мы сталкиваемся с другим представлением фактически в то время как по сравнению с предыдущими периодами, просматривающими словарь современного азербайджанского языка. Поскольку формирование новых слов на языке делает полюс языкового изменения, другой полюс включает сокращение круга использования слов на языке; постепенный устарелый и более поздний отъезд языка словами. Их называют устаревшими словами и характеризованы по-другому.

В этой статье также рассматривается в некоторых произ- ведениях Джалил Мамедкулузаде архаические слова,исторические слова,неологизмы, и слова которые употребляются в обшенародном лекси- коне.Некоторые слова которые употебляется в словарном запасе Азербайджанском народном лексиконе,арабо-персидского происхождение обясняется отдельно,выражается ниже статье

Redaksiyaya daxil olma tarixi: 19.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru ,dosent Nuriyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

f.ü.f.d., dos. ESMİRA ALLAHVERDİ QIZI QULİYEVA,
f.ü.f.d., dosent DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA
email adresi: esmiraquliyeva123@gmail.com
Azərbaycan Tibb Universiteti,
Azərbaycan dili kafedrası

ÜMUMTÜRK AREALINDA TEONİM ANLAYIŞLI PARALEL TOPONİMLƏR

XÜLASƏ

Türk mənşəli toponimik vahidlər hüdudları çox geniş olan böyük bir ərazidə yayılmışdır. Toponimik vahidlərin yayılması türk xalqlarının özlərinin qeyriməhdud bir ərazidə məskunlaşması prosesinin nəticəsi kimi meydana çıxmışdır. Tarixi mənbələrdə göstərildiyinə görə türk xalqları hələ eramızın ilk yüzilliklərində hüdudları Şərqdə Çinə, Hindistana, Cənubda Əfqanıstana, İrana, Şimalda Ural dağlarına, Qərbdə qədim Bizans imperiyasına kimi uzanan bir ərazidə yaşamışlar. Bunlar isə öz növbəsində daxili miqrasiyaların daim fəaliyyətdə olması na real şərait yaratmışdır. Beləliklə, daxili miqrasiyalar böyük hadisələr olmadan da fəaliyyət göstərmişdir. Bütün bu cəhətləri nəzərə almaqla toponimlərin areal paralelliyini etnik anlayış və sosial-məişət amilləri əsasında ümumiləşdirmək olar. Geniş ərazi boyunca yayılmış və məskunlaşmış türk xalrlarının arasında yeni adət və ənənələrlə , başqa xalqlarla münasibətdən doğan sosial amillərlə, həmçinin digər məişət fərqləri ilə əlaqədar baş verən differensiallaşma prosesləri belə ilkin etnik anlayışların üstünü pərdələyə bilməmişdir. Türk xalqlarının qədim birliyinin öyrənilməsi, üzə çıxarılması baxımından inamlar və etnik anlayışlarla bağlı olan paralelliyin tədqiqi çox qiymətli mənbələrdən birini təşkil edir.

Açar sözlər: *toponimik vahidlər, monoteizm və politeizm, etnik anlayış, totem anlayışı*

Qədim türk xalqlarında əsas ilahi qüvvə anlayışı Tanrı sözü ilə ifadə olunur. Bir qayda olaraq, Tanrı sözünün özü kök atributu ilə müəyyənləşir. Belə ki, Tanrı anlayışı bütövlükdə **kök Tanrı** ifadəsində

öz əksini tapır. **Kök** atributu burada səma və rəng mənasından əlavə ucalıq, böyüklük anlayışını qüvvətləndirən bir komponent kimi çıxış edir. Beləliklə, **kök Tanrı** ifadəsinin məzmunu şifahi dilimiz üçün səciyyəvi olan **ulu tanrı, uca tanrı** ifadələrindəki məna ilə üst-üstə düşür. **Tanrı** sözünün əsasında yaranan yer adları təkcə yaşayış məskəni yox, həm də relyef mənası bildirən toponimlərdən ibarət ola bilər. Məsələn, Yevlax rayonundakı **Tanrıqulular** toponimi və Kəlbəcər rayonundakı **Tanrıyoxuşu** toponimi bu cəhətdən səciyyəvidir (5,33).

Tanrı sözündəki genişlik, böyüklük, ucalıq anlayışının ümumiləşməsini nəzərə alaraq belə bir mülahizə söyləmək olar ki, bu cür anlayış qədim dünya xalqlarında universal səciyyə daşımışdır. Başqa sözlə, mənşəyindən asılı olmayaraq, bütün xalqların ilahi inamında genişlik, ucalıq, böyüklük anlayışı mühüm yer tutmuşdur. Beləliklə də Allah, ilahi qüvvə inamı ayrı-ayrı xalqlarda genişlik, ucalıq, böyüklük kimi anlayışlara görə yaranmışdır. Bu anlayış hər bir xalqda ancaq dil mənsubiyyətinə görə fərqlənir. Məsələn, türk xalqlarında ilahi anlayışı **Tanrı**, ərəblərdə **Allah,** yunanlarda **Teos**, iranlılarda **Xuda** , qədim assurilərdə **as/qas,** albanlarda **xas/xaç** sözləri ilə reallaşmışdır. Bununla birlikdə, maraqlı bir xəhəti də nəzərə çatdırmaq lazımdır ki, həmin tanrı adları türk xalqlarının məskun olduğu arealda da ilahi inamları kimi mənimsənilmişdir. Bu mənimsənilmə türk xalqlarının yayıldığı ərazidəki toponimik vahidlərdə, xüsusilə öz izlərini qoruyub saxlamışdır. Müəyyən qisim toponimik vahidlərdə əks olunan ilahi inamın əsasını ərəblərə məxsus **Allah** sözü təşkil edir. **Allah** sözünün özü mənşəcə ərəb dilinə məxsus ucalıq, yüksəklik bildirən **al//əl** kökü əsasında yaranmışdır (3,28). **Al//əl** kökünün ucalıq, böyüklük mənası həmçinin **ali** sözündə müşahidə olunur. Ərəb dilindəki uca, yüksək mənalı sözlərin kökünü təşkil edən **al//əl** morfemi türk dillərində böyüklük mənası bildirən **al//il//el** morfemlərinə uyğun gəlir. A.N.Kononov, L.M.Qumilyov, S.N.Malov kimi tədqiqatçılar **al//il//el** morfemlərinin türk dillərində qəbilə, tayfa, xalq, dövlət mənası daşıdığını göstərirlər. **Al//il//el** morfemlərinin belə bir məna xüsusiyyətinə malik olmasını "Oğuznamə" müəlliflərindən biri olan Əbül Qazi xan da qeyd etmişdir. **Al//il//el** morfemlərinin təhlili ilə əlaqədar nəticələrdən çıxış edərək həmçinin belə bir fikrə gəlmək mümkündür ki, bunlar əslində ümumi bir anlayışla

birləşirlər. Bu anlayış isə bütövlükdə ucalıq, böyüklük, genişlik mənaları ilə reallaşır. Çünki istər el, istər hakimiyyət, dövlət, istərsə də qəbilə və tayfa anlayışlarının özü üçün də ucalıq, böyüklük, genişlik mənaları səciyyəvidir. Təsadüfi deyildir ki, birinci türk xanı olan Bümın xaqan da özünü ulu, böyük xan mənasına uyğun gələn Elxan adı ilə adlandırmışdır. Türk dillərində ilahi anlayışı səviyyəsindəki böyüklük, ucalıq, genişlik mənaları **al** kökünün **alp** variantında öz əksini tapır. Ayrı-ayrı mənbələrdə göstərildiyinə görə Alp sözünün özündə də hündür, əzəmətli, böyük, uca mənaları əsas yer tutur. İlahi anlayışı üçün səciyyəvi olan böyüklük, ucalıq, genişlik mənalarını özündə əks etdirən Alp sözü topokomponent kimi paralel olaraq ayrı-ayrı regionlara məxsus yer adlarında özünü göstərir (6, 77). Məsələn, respublikanın Qazax, Ucar, Laçın, Göyçay, Bərdə rayonlarındakı **Alpout**, həmçinin Quba rayonundakı və Türkmənistandakı **Alpan**, Ucar rayonundakı **Alpı** yer adları bu qəbildəndir. Türk xalqlarının məskun olduqları ərazilərdə, həmçinin al morfeminin ala derivatı əsasında yaranmış toponimlərə də təsadüf olunur. Məsələn, Orta Asiyadakı alp komponentli Cunqari Alatau, Zaili, Talas, Alatay adları bu cəhətdən nəzəri cəlb edir. Bu adlar dağ anlayışlı obyektləri bildiridiyinə görə onların ala komponentində də hündürlük mənası əks olunur. **Ala** komponenti, həmçinin Azərbaycan ərazisində müəyyən yer adları tərkibində çıxış edir. Məsələn, **Alabaşlı** (Xanlar), **Alaqurşaq** (Qubadlı), **Alakol** (Tovuz), **Alaxancallı** (Daşkəsən), **Alacadırlı** (Bərdə), həmçinin Qırğızıstandakı Alabaqi yer adlarını bu qəbildən hesab etmək mümkündür. Maraqlıdır ki, toponimlərin müəyyən qismində ala sözünə xas olan anlayışa müvafiq şəkildə böyük appelyativinə də təsadüf edilir. Məsələn, Böyük Qaramurad (Gədəbəy), Böyük Bəhmənli (Füzuli), Böyük Qışlaq (Kəlbəcər) kimi adlar bu qəbildəndir (6, 78-79).

İlahi varlıq inamı ilə əlaqədar yaranan adlardan biri də yunan dilinə məxsus **teo** (teos- Allah deməkdir) sözüdür. Türk dillərində bu sözə məxsus böyüklük, ucalıq, genişlik mənaları onun fonetik tipi səviyyəsindəki **tağ/dağ/tay** morfemlərində əks olunur. Türk xalqlarının məskunlaşdığı ərazilərdə **tağ/dağ/tay** morfemlərinin iştirakı ilə düzələn **Alatay, Aktay** (Orta Asiya), **Aladağ** (Azərbaycan), **Qaradağ** (Azərbaycan, İran), **Ləkədağ, Saltağ** (Culfa) kimi toponimik vahidlərə

təsadüf olunur. Türk xalqlarının məskun olduğu ərazilərdə dağ sistemi bildirən **Altay** sözündəki tay morfemi də tipoloji cəhətdən böyüklük, ucalıq mənasındakı İlahi varlıq mənası bildirən teo sözü ilə uyğun gəlir (4, 27).

Türk dilləri toponimiyasının formalaşmasında ilahi varlıq inamı ilə əlaqədar meydana gələn **as/az , qas/qaz** morfemlərinin də mühüm rolu vardır. Teonim anlayışı bildirmək cəhətdən az/as, qaz/qas morfemlərinin maraqlı xüsusiyyətləri vardır. Tədqiqatçı F. Cəlilov bunları bir- birilə quruluş və məna cəhətdən əlaqəli olan morfemlər kimi qiymətləndirir. Bununla da **Az/Qaz** komponentli etnonimlərin (Məsələn, Azər-qaspi) birbirilə tarixi bağlılığı barədə ideya yaranmış olur. **Az/Qaz** morfemlərinin Allah mənasındakı **Astavas** və **Qospod** sözlərinin tərkibində iştirakı da təsadüfi deyildir. **As/Qas** morfemləri və onların allomorfları, həmçinin türk xalqlarının toponomiyasında da əks olunur. Məsələn, **Azıx, Azov, Kaspi, Xəzər**, həmçinin Qazan(Tatarıstan), Qazançı (Culfa), Qazax (Qazax rayonu), Qazaxlar (Bərdə), Kazaklar (Tatarıstan), adlar da bu qəbildəndir. **Az/ Qaz** morfemlərini Astvas və Qospod kimi ilahi anlayış bildirən sözlərlə yanaşı türkdilli toponimlərdə iştirak etməsini qədim xalqların təfəkkür tipologiyasına aid ümumi cəhətlərlə əlaqələndirmək olar (5, 133).

Türk mənşəli paralel toponimlərin yaranmasında **qud/xud** morfemləri ilə ifadə olunan teonimik vahidlərin də xüsusi yeri vardır. **Qud** morfeminin xud variantı İran dillərində Allah mənası daşıyan xuda sözünün aparıcı komponenti kimi işlənir**. Qud** morfeminin özü isə türk dillərində daha çox ilahi varlığa şamil edilən xoşbəxrlik, xeyirxahlıq, uğur, ləyaqət, böyüklük anlayışları ilə ümumiləşir. **Qud** morfemi bu anlayıça uyğun mənalarla, həmçinin german dillərində də işlədilir. **Qud/xud** morfemlərinə türk dillərindəki qutluq, qorqud, xudu antroponimlərinin tərkib hissələri kimi də təsadüf olunur. Azərbaycan toponimiyasında həmçinin paralel **qud/xud** tərkibli yer adlarına da rast gəlmək mümkündür. Belə adlardan, xüsusilə aşağıdakıları səciyyəvi hesab etmək mümkündür: **Qudula** (Şəki), **Qodman** (Masallı), **Qutqaşen** (Qəbələ), Q**uturqan** (Qusar), **Xudat** (Xaçmaz) və s (4, 33).

İlahi varlıq inamı müəyyən qisim toponimik vahidlərin tərkib hissəsi kimi işlənən xaç/xas/xaş morfemlərində də mühafizə olunur. Etnoqrafik tədqiqatlarda, xüsusən xaç sözünün Qafqaz Albaniyasında ay inamı

ilə əlaqədar yaranması barədə fikirlər irəli sürülür. Bu fikirlərin doğruluğu respublikamızın müəyyən ərazilərində, xüsusən də Gədəbəy regionunda albanlara məxsus qədim ay məbədlərinin aşkara çıxarılması ilə təsdiq olunur. Maraqlıdır ki, xaç sözü qədim albanların bir qolu olan udinlərin dilində ay mənasını indi də mühafizə edir.

Azərbaycan toponimiyasında əks olunan **xaç/xas/xaş**, həmçinin **xaç/qaş** morfemləri də güman ki, qədim albanlara məxsus ay inamının tipoloji mənimsənilməsi nəticəsi ilə bağlıdır. Qədim ay inamının izləri Azərbaycan dilindəki Xasay, Qaçay kimi sözlərdə, xüsusilə qabarıq şəkildə əks olunur. Həm də maraqlıdır ki, bu adların elə özündə də həmin inama bağlı ay sözü işlənir. Qeyd etmək lazımdır ki, toponimlərdə bu xüsusiyyətin özü də tipoloji bir kalka kimi ümumi səciyyə daşıyır. Məsələn, Zərdab -Sarıpu, Qara dəniz - Çernoye more kimi tipoloji kalkalar bu cəhətdən səciyyəvidir. Qədim albanlarda ay anlayışı ilə yaranan xaç sözünün müvafiq allomorfları paralel şəkildə Azərbaycan ərazisində və türk xalqlarının yaşadığı digər areallarda da yayılmışdır. Belə adlara misal olaraq **Xaçbulaq** (Daşkəsən), **Xacıabad** (Balakən), **Xaçındərbəkli** (Ağdam), **Xaçınyalı** (Laçın), **Xaçbulaq** (Daşkəsən), Xaçmaz (Oğuz), **Xaşı** (Quba), **Xasavyurt** (Dağıstan), **Qoşqar** (Daşkəsən) , **Kaşqar**a (Perm), **Kaşqar** (Özbəkistan), **Kaşkar** (Qazaxıstan) adlarını göstərmək olar.

Türkdilli toponimlərin tipoloji təhlili yolu ilə onların tərkibində digər qədim ilahi inamın izlərini də aşkar etmək mümkündür. Başqa xalqlara aid ilahi inam bildirən sözlərin türk dilləri toponimlərində əks olunan tipoloji paralellərinin oxşar məna bildirməsi təəccüblü və qəribə hadisə deyildir. Belə bir tipoloji oxşarlığın təzahürü, hər şeydən əvvəl insanın xarici aləm hadisələrinə oxşar münasibətlərindən doğur. Buna görə də oxşar təfəkkür tərzi və oxşar münasibət, həmçinin oxşar dil modellərinin yaranmasında öz real ifadəsini tapır. Zaman keçdikcə dillər arasında meydana çıxan fərqlənmələr eyni motiv əsasında yaranan sözləri də birbirindən uzaqlaşdırır. Bununla yanaşı, toponimik adlarda xalqın yaddaşına çevrilmiş həmin mənaların müəyyən olunmasında tipoloji təhlil bir açar vəzifəsini görür. Bu cür toponimlərin təhlili isə xalqın qədim tarixinin və coğrafi arealının müəyyənləşdirilməsi baxımından xüsusilə əhəmiyyətli görünə bilər.

Эсмира Кулиева
Дурдана Нагиева

ПАРАЛЛЕЛЬНЫЕ ТОПОНИМЫ С ТЕОНИМИЧЕСКИМ ПОНИМАНИЕМ НА ОБЩЕТЮРКСКОМ АРЕАЛЕ

РЕЗЮМЕ

Топонимические единицы тюркского происхождения распространены на большой территории с очень широкими границами. Распространение топонимических единиц появилось в результате процесса расселения самих тюркских народов на неограниченной территории. Согласно историческим источникам, тюркские народы жили на территории, границы которой простирались в первые века до Китая на востоке, Индии, Афганистана, Ирана на юге, Уральских гор на севере и древней Византийской империи на западе. нашей эпохи. Это, в свою очередь, создало реальные условия для постоянной активности внутренних миграций. Таким образом, внутренние миграции функционировали без крупных событий. Учитывая все эти аспекты, ареальный параллелизм топонимов можно обобщить на основе этнического понимания и социально-экономических факторов. Процессы дифференциации, происходившие среди тюркских народов, охватившие широкий ареал и закрепившиеся в связи с новыми обычаями и традициями, социальными факторами, возникающими из отношений с другими народами, а также другими бытовыми различиями, не могли скрыть исходных этнических представлений. В плане изучения и раскрытия древнего единства тюркских народов изучение параллелизма, связанного с верованиями и этническими представлениями, является одним из наиболее ценных источников. Ключевые слова: топонимические единицы, монотеизм и политеизм, этническая концепция, тотемная концепция.

Ключевые слова: *топонимические единицы, монотеизм и многобожие, этническое понимание, тотемная концепция*

ESMIRA GULIYEVA
DURDANA NAGIYEVA

PARALLEL TOPONYMS WITH THEONYM UNDERSTANDING IN THE ALL-TURKISH AREA

SUMMARY

Toponymic units of Turkic origin are spread over a large area with very wide boundaries. The spread of toponymic units appeared as a result of the process of settlement of the Turkic peoples themselves in an unlimited territory. According to the historical sources, the Turkic peoples lived in an area whose borders extended to China in the East, India, Afghanistan, Iran in the South, the Ural Mountains in the North, and the ancient Byzantine Empire in the West in the first centuries of our era.

These, in turn, created real conditions for internal migrations to be constantly active. Thus, internal migrations functioned without major events. Considering all these aspects, the areal parallelism of toponyms can be summarized on the basis of ethnic understanding and socio-economic factors. The processes of differentiation that took place among the Turkic peoples spread over a wide area and settled in connection with new customs and traditions, social factors arising from relations with other peoples, as well as other domestic differences could not hide the initial ethnic concepts. In terms of studying and uncovering the ancient unity of the Turkic peoples, the study of parallelism related to beliefs and ethnic concepts is one of the most valuable sources.

Key words: *toponymic units, monotheism and polytheism, ethnic concept, totem concept.*

İstifadə olunmuş ədəbiyyat

1. З.И.Ямпольский.Древняя Албания Ш-I веков до н.э. Баку, 1962;М.И.Артамонов История Хазар, Л.1962; Л.Н.Гумилев Древние тюрки, М.1967.
2. M.Adilov. Azərbaycan teonimikası. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, 1986, s.276
3. “Kitabi-Dədə Qorqud”. Bakı, 1978, s.26,87
4. M.Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983, s. 22
5. Фазлуллах Рашид-ад-дин. Огузнаме. Баку, 1987, с. 64-67
6. R.J.Xəlilov. Saylar, 1978.

Redaksiyaya daxil olma tarixi: 25.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent L.V.Qocayeva tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDZADƏ SEVİNC SƏLİM QIZI
Odlar Yurdu University, Dillər kafedrası
Filologiya üzrə fəlsəfə doktoru,dosent
Koroğlu Rəhimov 13, AZ1072, Bakı, Azərbaycan
mamedzade-1982@mail.ru

DİL VƏ ONUN CƏMİYYƏTİN TƏFƏKKÜRÜNDƏ TƏZAHÜRÜ

XÜLASƏ

Dil dünyanın modelidir. Dil bir tərəfdən etnosun nadir əlaməti, digər tərəfdən isə öz başlıca funksiyasını gerçəkləşdirən bir varlıqdır. Tarixin bütün dövrlərində dil sosial hadisə kimi özünü göstərmişdir, yəni, dili cəmiyyətdən kənar bir varlıq kimi qəbul etmək olmaz. Çox vacib ünsiyyət vasitəsi olan dil həm də sosial şərtlənmənin interaksiyasını doğurur.

"Dil və cəmiyyət", eləcə də "Dil və təfəkkür" problemləri dilçilik nəzəriyyəsində ən mürəkkəb və mübahisəli problemlərdəndirlər. Dil elmi tarixinin müxtəlif dövrlərində bu problemlər müxtəlif üsullarla həll edilmişdir: məntiqi istiqamətin nümayəndələri, məsələn, bu anlayışları müəyyən etmişlər; psixoloji cərəyanın tərəfdarları təfəkkürün dilə, sonra dilin təfəkkürə münasibətdə üstünlüyünü əsaslandıraraq bu məsələni başqa cür həll etməyə çalışırdılar; Təqdim olunan bu məqalə də dil və onun cəmiyyət daxilində necə təzahür olunmasına və bu zaman meydana çıxan problemlərin təhlilinə yönəlmişdir. Amerika strukturizminin nümayəndələri hesab edirdilər ki, dilin strukturu təfəkkür strukturunu və xarici aləmi tanımaq üsulunu müəyyən edir. Bu problemin müxtəlif həll yollarına baxmayaraq, bütün tədqiqatçılar dil və təfəkkür arasında əlaqənin olması ilə razılaşdılar. Təfəkkür obyektiv reallığın aktiv əks olunmasının ən yüksək formasıdır; obyektlərin və hadisələrin əsas əlaqələri haqqında məqsədyönlü, vasitəçi və ümumiləşdirilmiş bilikdir. O, bəşəriyyətin idrak və sosial-tarixi təcrübəsinin sabitləşdiyi və ümumiləşdiyi müxtəlif forma və strukturlarda (anlayışlar, kateqoriyalar, nəzəriyyələr) həyata keçirilir. Düşüncə aləti dil, eləcə də digər işarə sistemləridir. [1]

Açar sözlər: *linqvokulturologiya, paradiqmatika, sintaqmatika, dil və təfəkkür, sosiolinqvistika.*

Giriş: Dil əməli nitqin xəzinəsidir, işarələr sistemidir. Dil sosialdır, nitq isə fərdidir. Nitq dilin varlığının bir formasıdır. Dil öz funksiyalarını yerinə yetirir və bilavasitə nitqdə özünü biruzə verir. Lakin nitqdən fərqli olaraq dil mücərrəd bir varlıqdır. Yazılı ünsiyyətdə nitq aktı müvafiq olaraq yazılanların yazılmasını və oxunmasını (vizual qavrayış və anlama) əhatə edir və ünsiyyət iştirakçısı ola bilir. Dil ünsiyyət vasitəsi və işarələr sistemi kimi bir çox elmlər tərəfindən öyrənilir. Dil və nitq fəaliyyətinin fakt və hadisələri müxtəlif xüsusiyyətlərə malikdir və ona görə

də müxtəlif rakurslardan nəzərdən keçirilə bilər. Dilçilik bir çox başqa elmlərlə sıx bağlıdır. 20-21-ci əsrlərin qovşağında dilçilikdə yeni sahələr sürətlə inkişaf edir, o cümlədən: linqvokulturologiya, koqnitiv, kommunikativ və hesablama dilçiliyi, sosiolinqvistika, psixolinqvistika, mətn dilçiliyi və s. Dilçiliklə ən sıx bağlı olan elmlər insanı və insan cəmiyyətini öyrənən humanitar elmlərdir:

- filologiya - dilçilik filologiyanın bir hissəsi kimi ədəbi tənqidlə yanaşı, dilin quruluşunu və fəaliyyətini öyrənir;
- fəlsəfə - "dilin mahiyyəti", "*dil və cəmiyyət", "dil və mədəniyyət" və s. problemlərində;*
- məntiq - təfəkkürün məntiqi formalarının onların ifadəsinin linqvistik formaları ilə əlaqəsi;
- sosiologiya - dil və cəmiyyət, dil və millət münasibətləri, dil siyasəti, dilin sosial funksiyaları, ikidillilik və çoxdillilik;
- psixologiya - insanın mənəvi, əqli, emosional fəaliyyətinin linqvistik formalarda əks olunması; [1]

Dilçiliyin müxtəlif elmi fənlərlə əlaqəsi yeni tədqiqat sahələrinin yaranmasına səbəb olur. Beləliklə, 20-ci əsrdə sosiolinqvistika və psixolinqvistika kimi elmlər bir-birindən fərqlənir. Sosiolinqvistika dilçilik, sosiologiya, sosial psixologiya və etnoqrafiyanın kəsişməsində inkişaf edən bir elmdir. O, dilin sosial mahiyyəti və onun sosial funksiyaları ilə bağlı problemlərini geniş spektrdə öyrənir. Psixolinqvistika elmi düşüncə və psixi proseslərin nitqdəki əksini öyrənir. Bu elm eksperimental metodlardan istifadə etməklə nitq vahidlərinin əmələ gəlməsinin və qavranılmasının psixi qanunauyğunluqlarını, eləcə də bu prosesləri idarə edən və dilə mənimsənilməsini təmin edən mexanizmləri, nəhayət, geniş kontekstdə insanın dil, zehni və intellektual qabiliyyətlərini öyrənir.

20-ci əsrin sonlarında dilçilik və mədəniyyətşünaslığın kəsişməsində yeni bir istiqamət - linqvokulturologiya yarandı, onun predmeti isə dilin qarşılıqlı təsiri nəticəsində formalaşan linqvistik işarələrin mədəni semantikasının öyrənilməsi oldu.

Linqvokulturologiya dünyanın milli mənzərəsini, linqvistik şüuru, mental-linqual kompleksin xüsusiyyətlərini öyrənməklə bilavasitə bağlıdır. V.V. Vorobyovun fikrincə, linqvokulturologiya elmi bir elm olaraq bir sıra spesifik xüsusiyyətlərlə xarakterizə olunur:

1) Linqvokulturologiya mədəniyyət və filologiyanı öyrənən elmlər arasında sərhəd xətti olan bir elmdir;

2) Linqvokulturologiyanın əsas obyektləri mədəniyyət və dilin fəaliyyət prosesində qarşılıqlı əlaqəsi və bu qarşılıqlı əlaqənin vahid sistemdə şərhinin öyrənilməsidir;

3) Linqvokulturologiyanın predmeti dil ünsiyyəti sistemində təkrar istehsal olunan cəmiyyətin milli formalarıdır. [3]

20-ci əsrin ikinci yarısında riyaziyyatın xüsusi sahəsi olan riyazi dilçilik yarandı. Riyazi dilçilikdə təbii dillərin kateqoriyalarını formal olaraq təsvir etmək üçün riyazi məntiq metodlarından istifadə edilir. Dilçilik və kibernetikanın kəsişməsində doğulan mühəndislik dilçiliyi informasiya sənayesinin tələblərinin təsiri ilə təbiət elmlərində yaranan obyektiv metodların və yeni ideyaların dilinin öyrənilməsi nəticəsində formalaşmışdır.

Dil işarə sistemi kimi təfəkkürün maddi dayağıdır, fikirləri maddiləşdirir, informasiya mübadiləsini təmin edir. Düşüncə reallığı əks etdirir, dil isə ifadə edir. Düşüncə idealdır, dil isə maddidir (onun bütün vahidləri səslərə bürünmüşdür). Düşüncə maddənin xassələrinə (kütlə, uzanma, sıxlıq və s.) malik deyil. Dilin təfəkkürlə əlaqəsi ona öz kommunikativ və idrak funksiyalarını yerinə yetirməyə imkan verir: dil yalnız xarici aləmin cisimləri və hadisələri haqqında mühakimə və ya mesajlar çatdırmır, həm də bu dünya haqqında biliklərimizi müəyyən şəkildə təşkil edir, onları bölür və sabitləşdirir. Beləliklə, dil bir tərəfdən fikrin ifadə vasitəsi, digər tərəfdən isə onun formalaşması vasitəsidir. Bununla belə, təfəkkürün inkişafı dilə də öz təsirini göstərmiş, sözlərin mənalarını genişləndirmiş, dilin leksik və frazeoloji tərkibinin artmasına töhfə vermişdir. Düşüncə idrakla sıx bağlıdır. Xarici aləm təsir edərək insanda müəyyən hisslər yaradır. Xarici aləmin cisim və hadisələrindən gələn bu hisslər təfəkkür üçün material olur, insanda obyekt haqqında təsəvvür yaranır və onun əsasında konsepsiya formalaşır. Söz eynicinsli obyektləri təyin etməyə imkan verir, yəni, obyektləri ümumi xüsusiyyət və ya funksiya əsasında siniflərə, kateqoriyalara, qruplara birləşdirir ki, bu da xarici aləmin əşya və hadisələri haqqında insan anlayışlarının formalaşmasına kömək edir. [9]

Dil sosial hadisə kimi yaranır, inkişaf edir və fəaliyyət göstərir. Onun əsas məqsədi insan cəmiyyətinin ehtiyaclarına xidmət etmək və sosial kollektivin üzvləri arasında ünsiyyəti, habelə bu kollektivin kollektiv yaddaşının fəaliyyətini təmin etməkdir.

Bəs dil özü nədir və necə yaranmışdır? O, bioloji, psixi yoxsa sosial hadisədirmi? Dil məlum, yoxsa məchul bir məvhumdurmu? Dilin mənşəyi ilə bağlı bu və bir çox digər məsələlər ilə tanınmış rus dilçisi B.V.Yakuşin təhlillər aparmışdır. O, dil və nitqin mahiyyəti və funksiyaları haqqında sosioloji fikirlərə əsaslanan elmi fərziyyə təklif edir:

İnsan nitqinin mənşəyi çox mürəkkəb məsələdir, onu təkcə dilçilik deyil, həm də digər elmlər: antropologiya, psixologiya, biologiya, etnoqrafiya öyrənməkdədir. Dilin *mənşəyi* insanın və insan cəmiyyətinin mənşəyi probleminin tərkib hissəsidir. Bir milyon ildən çox əvvəl meydana çıxan qədim insanlar uzun müddət insanın bioloji və sosial xüsusiyyətlərini özlərində daşıyıb inkişaf etdirirdilər. [5]

Dil təfəkkür işini obyektivləşdirən və cəmiyyətdə insanların ünsiyyət, fikir mübadiləsi və qarşılıqlı anlaşma vasitəsi olan səs, lüğət və qrammatik vasitələrin tarixən formalaşmış sistemidir. Dilin mahiyyəti məsələsi dilçilikdə ən çətin

məsələlərdən biridir; dil bioloji (təbii), fərdi və sosial (ictimai) hadisə kimi qəbul edilir. [2]

Dil və cəmiyyət arasında əlaqə qədim zamanlara əsaslanır. Bu problemə diqqət zaman keçdikcə daha da gücləndi və dilçilikdə cəmiyyətin dilə təsirini, dilin cəmiyyətdəki rolunu, eləcə də müxtəlif dil situasiyalarını öyrənən yeni bir istiqamətin - sosiolinqvistikanın yaranmasına səbəb oldu.

Dili bioloji hadisə kimi qəbul etmək çox yanlış bir fikirdir. Dil hər bir insanın şüuruna qeyri-şərtsiz daxil olur, çünki bu dil ətrafdakı insanlar tərəfindən istifadə olunur və onlardan nümunə götürərək istifadə olunmağa başlayır. Buna görə də dilin mənşəyinə dair sosial nəzəriyyələr onun zahiri görünüşünü ictimai ehtiyaclar və insan şüurunun inkişafı ilə izah edirlər. Dilin ictimai münasibətlərin inkişafına təsiri, ilk növbədə, dilin xalqın formalaşmasında möhkəmlədici amillərdən biri olması ilə sübut olunur. O, bir tərəfdən onun baş verməsi üçün ilkin şərtdirsə, digər tərəfdən də bu prosesin nəticəsidir. [7]

Dil cəmiyyətin tərbiyə və təhsil fəaliyyətində böyük rol oynayır, çünki dil biliklərin, mədəni, tarixi və digər ənənələrin nəsildən-nəslə ötürülməsi vasitəsidir. Dil (və onun lüğəti) maddi mədəniyyətin inkişafına (texnika və texnologiya) və mənəvi mədəniyyətin nailiyyətlərinə (dünyanın elmi, bədii, mifoloji dərk edilməsi, yeni anlayışların formalaşmasına) cavab verir. Müasir dil keçmiş sosial nümunələri və sosial strukturları düzəldən xüsusiyyətləri özündə qoruyub saxlayır.

Dilin cəmiyyətlə əlaqəsi obyektivdir, ayrı-ayrı şəxslərin iradəsindən asılı deyildir. Bununla belə, dilə cəmiyyətin məqsədyönlü təsiri də mümkündür.

Dilin sosial mahiyyəti ilk növbədə onun xalqla - bu dilin yaradıcısı və daşıyıcısı ilə, onun normaları, xüsusən də ədəbi və yazılı dillə bağlılığında özünü göstərir. Dil bir çox dialekt şəklində danışan xalqın ərazi fərqini və cəmiyyətin təbəqələrə və qruplara sosial diferensiasiyasını əks etdirir.

Nitq dil varlığının bir formasıdır və o, dil funksiyalarını yerinə yetirir. Eyni zamanda nitq fəaliyyəti insanın nitq istehsalı üçün həyata keçirdiyi psixofizioloji işlərin məcmusudur.

Dilçilik tarixinin sübut etdiyi kimi, dil və nitq anlayışları çox vaxt bir-birindən fərqlənmirdi: ya dil fərdin nitq fəaliyyətinə çevrilir, ya da nitq və onun dilə təsiri tamamilə nəzərə alınmır. Bu arada insan dilinin vahid fenomenini təşkil edən dil və nitq bir-biri ilə eyni deyildir. V.Humbolt bu anlayışları bir-birindən fərqləndirmək zərurətindən danışmışdır ("Dil öz məhsullarının məcmusu kimi ayrı-ayrı nitq fəaliyyəti aktlarından fərqlənir"). [6] Bu mövqeyin nəzəri əsaslandırılması F.de Sössür və L.V. Şerba tərəfindən aparılmışdır. Dil və nitqin insan dilinin vahid hadisəsini təşkil etməsinə baxmayaraq, onların hər birinin özünəməxsus xüsusiyyətləri vardır:

1) dil ünsiyyət vasitəsidir, nitq bu vasitə ilə yaranan ünsiyyət növüdür, yəni, nitq nitq vasitəsilə öz kommunikativ funksiyasını yerinə yetirən dilin təcəssümü və reallaşmasıdır;

2) dil mücərrəd, formal, nitq isə maddidir, dildə olan hər şeyi konkretləşdirir, qulaqla qəbul edilən artikulyar səslərdən ibarətdir;

3) dil sabit, passiv və statik, nitq aktiv və dinamikdir, yeniliyə, ifadəliyə, fərdiliyə meyllidir, yüksək dəyişkənliyi ilə xarakterizə olunur;

1) dil və nitq fərqli təşkilatlanmaya malikdir: dil səviyyəli təşkilatlanma ilə xarakterizə olunur, nitq isə xəttidir, nitq axınla bağlı sözlər ardıcıllığıdır, dil isə bu ardıcıllığa ierarxik münasibətlər daxil edir;

2) dil situasiyadan müstəqildir, nitq isə kontekst və situasiya baxımından şərtlənir, həmişə konkret ünsiyyət vəziyyətinə bağlıdır. [4]

Dil və nitq anlayışları bu şəkildə ümumi və xüsusi olaraq əlaqələndirilir: dil işarə sistemidir, hər bir fərdin şüurunda potensial olaraq mövcud olan dil nitqdə ifadə olunur və nitq dilin bir proses və məhsul kimi təcəssümü və həyata keçirilməsi formasıdır. "Dil" termini dilin quruluşunu, ədəbi normanı və fərdi nitqi, məsələn, Nizaminin dilini ifadə edir.

Dil və kulturologiya

Kulturoloji xüsusiyyətlər deyərkən, "mədəniyyət anlayışı və onun forma və növləri nəzərdə tutulur. Kulturologiya cəmiyyətin istehsal sahəsində, sosial və mənəvi həyatında əldə etdiyi nailiyyətlərin toplusu deməkdir. Kultruologiya həyati proseslərdə paralel olaraq insanın qarşıya qoyduğu məqsədə doğru getdiyi yol və bu yolda qazandığı göstəricidir. Kulturologiyanın ən vacib elementləri bunlardır: işarəvilik (yeni sözlər, lüğət tərkibi və s.), dialoqlaşma, prosesin fasiləsizliyi, mədəniyyət atributlarının müxtəlif istiqamətlərə şaxələnməsi; mədəniyyət mexanizminin qorunması və s.

Dilin mədəniyyətlə əlaqəsi birbaşa mövcuddur. Amerikalı dilçi E.Sepir dil və mədəniyyət arasındakı əlaqəni aşağıdakı tezislərlərlə göstərir:

1. Kultruologiya bir xalqın həyat tərzini səciyyələndirən təcrübi bacarıq və düşüncələrin birliyidir. Bu, cəmiyyət tərəfindən həyata keçirilən bir dəyər seçimidir.

2. Kulturologiya simvolikdir. Dil isə sosial-mədəni inkişafın məhsulu olmaqla yanaşı, bir vasitədir və o, mədəniyyətdən öncə mövcud idi. Mədəniyyət bir sıra nəsillərin nəhəng və anonim əsəri kimi yaradılmış, bütün sənətlərin ən kütləvi formasıdır.

3. Dil və kulturologiyanın bir çox müştərək xüsusiyyətləri var: hər ikisi də hər hansı fikrin, ideyanın seçilməsini tələb edir. Fərq ondan ibarətdir ki, mədəniyyət insanın nə gördüyü və nə düşündüyünü, dil isə onu necə etdiyini göstərir.

4. Dil xalqın mədəniyyətini toplayır və gələcəyə miras saxlayır. Mədəniyyətin qorunub saxlanmasında atalar sözləri, məsəllər, adət-ənənələr, dini əsərlər (dualar, ayinlər və s.) soy şəcərələri (antroponimlər, toponimlər və s.) mühüm rol oynayır.

5. Kulturologiya sürətlə, dil isə ləng inkişaf edir. Mədəniyyətin inkişafının sürətlənməsi dilin inkişafının sürətlənməsinə səbəb olur. Mədəniyyətdəki dəyişikliklər dildən şüurlu olması ilə seçilir.

6. Dil və kulturologiya formaları arasında ciddi bir ahəngdarlıq görünmür. Belə ki, dillərdə dərin fərqlərin olmasına baxmayaraq, mədəniyyət tez yayıla, kütləviləşə bilər. Vahid mədəniyyətə tamamilə fərqli dillərin daşıyıcıları arasında rast gəlmək olur.

7. Dilin lüğət tərkibi xalqın mədəni inkişaf səviyyəsini inkişaf etdirir, lüğət tərkibi (leksika) mədəniyyətin həssas bir göstəricisidir; bunu sözlərin, terminlərin mənalarındakı dəyişikliklər, arxaik və tarixizmlərin itirilməsi, arxada qalmsı, yeni sözlərin, neologizmlərin yaradılması və alınma sözlərin dilə daxil olması və s. sabitləşdirir. Hər hansı bir xalqa məxsus zəngin bir lüğət ehtiyatı qədim mədəniyyətin göstəricisi kimi özünü göstərir.

8. Dil və kulturologiya bir-biri ilə geologiya və paleontologiya kimi bağlıdır. Əgər bir alim mədəniyyətdəki dəyişiklikləri dildə baş verən dəyişmələrlə əlaqələndirə bilirsə, o zaman mədəniyyətin ilkin yaranma dövrünü və mərhələsini ölçmək (hesablamaq) mümkün olacaqdır.[8]

Dil və kulturologiyanın əlaqəsini bu cür tutarlı dəlillərlə sübut edən E.Sepir mədəniyyətin mürəkkəbliyi nəticəsində dilin morfoloji sistemini sadələşdirmək meylini də təklif edir. Funksional və sistem cəhətdən dil və mədəniyyət də izomorfizm (struktur oxşarlıq) mövzudur. E.Sepir daha sonra göstərirdi ki, dil "mədəni" funksiyaya malikdir, yəni müxtəlif dillərdə danışan insanlar ayrı-ayrı mədəniyyətlərə mənsubdur və onlar dünyanı fərqli şəkildə dərk edirlər. E.Sepirin nöqteyi-nəzərincə, hər bir mədəniyyətin məzmunu onun dilinin köməyi ilə ifadə edilə bilər və məzmunu cəmiyyət tərəfindən həyata keçirilən dəyərlər seçim kimi qavranılan mədəniyyətlə ayrılmaz şəkildə bağlıdır. [8]

Bu tezislər də sübut edir ki, mədəniyyət dildə təsbit olunur. Mədəniyyət məkanı dildə ayrı- ayrı diskurslarda öyrədilir. Eyni zamanda, kommunikativ məkanın mədəni fonu diskurs şəraitində tədris olunur. Bu kimi linqvokulturoloji məsələlər indi xarici dillərin öyrənilməsinə uğurla tətbiq olunur.

Müasir kompleks elmdə linqvokulturologiyanın konseptual əsasları və inteqrativ xarakteri həm tədqiq, həm də tədris olunur. Müxtəlif anlayışlar: milli-mədəni özünəməxsusluq, milli-mədəni əlaqə, milli-mədəni məkan, mədəniyyət, şüur, təfəkkür, intellekt və mədəniyyət, dil və mədəniyyət, kommunikasiyanın milli spesifikası, mədəni informasiya vahidlərinin müxtəlif səviyyələri, milli-mental – linqval kompleks, metaforlaşma vasitələri, onların leksik, sintaktik, frazeoloji, ekstralinqvistik aspektləri öyrənilir və uğurla tədrisə tətbiq olunur.

Bu gün linqvokulturoloji araşdırmalar müasir linqvistika elmində geniş vüsət almaqdadır. Bu istiqamətdə kontrastiv və müqayisəli-tipoloji tədqiqatlar konseptual semantikanın milli spesifikasını üzə çıxarmaqdadır. Belə yanaşma bir mühüm dil vahidi kimi sözün semantikasının xalqın mədəniyyəti ilə bağlı tərəfini nəzərdən keçirməkdədir. Yəni, sözdə şərtləndirilmiş xalq mədəniyyətinin semantikası necə əks olunur? Suala cavab verərək söyləmək olar ki, linqvokulturologiya yeni linqvistik tədqiqat sahəsidir. Dil vahidlərinin funksional-struktur fərqi mədəniyyət faktoru ilə

şərtləndirilir, çox sayda semantik komponentlər leksik vahidin məzmun və mənasında mədəniyyət hadisəsini əks etdirir, hansı ki, hər xalq üçün spesifik və mənəvi olan mədəniyyət universal mədəniyyətin material hadisəsi kimi təqdim olunur.

Linqvokulturologiya 3 sahənin – müasir dilçiliyin, mədəniyyətin və etnolinqvistikanın ən yeni sahələrindəndir. Bu qovuşuq sahədə dil və mədəniyyətin, dil və etnosun qarşılıqlı münasibətləri yaranır. Dil və xalq mentaliteti arasında olan qarşılıqlı əlaqə bu münasibətə dayanır. Tədqiqatlar linqvokulturologiya elmini belə üçlü kimi proqnozlaşdırır: "Triada - dil, mədəniyyət və insan şəxsiyyəti". Linqvokulturologiya sanki bir linzadır, burada etnosun maddi və mənəvi tərəfi görünür.

İstənilən elmin yaranması onun kateqorial aparatına – bazasına görə müəyyən olunur. Linqvokulturoloji məsələlərin kateqoriya aparatının əsasını *dil şəxsiyyəti və konsept* təşkil edir. Bu kontekstdə dil bilavasitə şəxsi keyfiyyətlərin təzahürü ilə bağlı olaraq bir sıra təbii dillərin qrammatik sistemində şəxsi keyfiyyətlərə münasibəti ilə əsas götürür. [3]

Şübhəsiz dil şəxsiyyəti anlayışında insan dayanır və onun nitq sahibi kimi bir mövcudluq forması olaraq bacarıqları, vərdişləri, yəni danışığının təqdim və qəbulu kimi anlaşılır. Eyni zamanda, bu anlayış adı altında insanın şifahi nitqi zamanı ünsiyyət aktı kimi seçdiyi davranışı- kommunikativ şəxsiyyəti də nəzərdə tutulur.

"Konsept" və "konsepsiya" termin-anlayışları proterminoloji vəzifəyə sahib olaraq dilçilikdə 90-cı illərin əvvəlində aktiv şəkildə istifadə olunmağa bşlanılıb. Linqvokulturoloji dolğunlaşma və zənginləşmə məhz bu anlayışlarla bağlı həyata keçmişdir.

Konsepsiyanın linqvistik işarəsi hər hansı predmetə aid olmağından savayı, bütün ünsiyyət məlumatını da özünə daxil edir. Linqvistik konsepsiyanın semantikasının komponenti sözün koqnitiv (bilik) yaddaşıdır- ana dilinin mənəvi dəyərlər sistemi ilə linqvistik işarənin semantik xüsusiyyətləri ilə özünməxsus məqsədilə bağlıdır. Burada ən vacib sayılan təbii dil vahidlərinin semantikasının spesifikliyini müəyyənləşdirən və daşıyıcılarının "linqvistik (sadəlövhlük) şəklini" əks etdirən mədəni-etnik elementdir. Gündəlik şüurun bir faktı kimi "dünyanın sadəlövh baxış"ı dilin leksik və frazeoloji vahidlərində hissə-hissə əks olunur, lakin dil özü bilavasitə dünyanı inikas və təcəssüm etmir, dil bu dünyanın milli dil şəxsiyyəti kimi (konsepsiyası) yalnız bir yolunu təqdim edir və buna görə də bu cür ifadələr – "dilin dünya xəritəsi" və "dilin dünya mənzərəsi" müəyyən qədər şərtidirlər.

Dilin nisbilik nəzəriyyəsinə görə müxtəlif dillərdə fərqli kateqoriyalar mövcuddur və həmin dillərin daşıyıcıları dünyanı və ətraf aləmi məhz fərqli formada təsvir və ya izah edirlər.

Konseptologiya və kateqoriyallaşma məsələlərinə yanaşmada sözün yaxın və uzaq mənasına və ya linqvistik və mədəni mənasına aydınlıq gətirilməlidir. Linqvistik məna yaxın, mədəni məna uzaqdır, əlçatmazdır.

Mədəni mənanı əks etdirən mədəniyyət bir xalqın həyat tərzini səciyyələndirən praktik bacarıq və düşüncənin birləşməsidir. Bu cəmiyyət tərəfindən həyata keçirilən dəyər seçimidir. Dil sosial və mədəni inkişafın məhsuludur, mədəniyyətdən öncə yaranmışdır. Dil və mədəniyyətin bir sıra ümumi xüsusiyyətləri mövcuddur. Hər ikisi aktual fikir seçilməsini tələb edir. Fərq ondan ibarətdir ki, mədəniyyət insanın nə gördüyü və düşündüyünü, dil isə onu necə etdiyini göstərir. Dil mədəniyyəti toplayır, bir yerə yığır və miras qoyur. Atalar sözləri, dualar, adətlərdə, soy səcərələrdə mədəniyyət qorunub saxlanılır. Mədəniyyət intensiv inkişaf edir, dil isə nisbətən inkişafdan ləngiyir. Mədəniyyətin inkişafının sürətlənməsi dilin inkişafının sürətlənməsinə səbəb olur. Mədəniyyətdəki dəyişikliklər dildən daha şüurlu olur.

Dil vahidlərinin linqvokulturoloji mənasının, əhəmiyyətinin müəyyənləş-dirilməsi üçün konkret mədəni səbəb olmalıdır. Xalq mədəniyyətinə məxsus xüsusiyyətlər mədəni fenomen, və hadisə kimi dil vahidlərilə əks olunur, semantik komponentlər aydınlaşır. Sözün milli-mədəni spesifikası, onun mənalarında, ayrıca komponentlərin mənalarında, həmçinin leksik qrupların mənalarında da mövcuddur.

Beləliklə, dil vahidlərinin, yaxud leksik qrupların linqvomədəni əhəmiyyəti bu mənaların müəyyən olunması nəticəsində ortaya çıxır.

Dildə baş verən hadisələrinin linqvokulturoloji spesifikasının formaları aşağıdakılardır:

-tarixi hadisələrin adlandırılması, xalqın tarixi abidələrinin qorunub saxlanması;

-kulturoloji realilərin adlandırılması;

-onomastik realilərin adlandırılması;

-mətndə milli presedentin əlaqəsinin adlandırılması (insan futlyar, əlavə insan və s.)

-milli-tarixi qeyri-ekvalent realilərin adlandırılması (bolşevik, barin, nomenklatura, rəhbər, partiyasız və s.);

-milli-material (məişət) realilərin adlandırılması;

-milli-mədəni simvolların əksi, adlandırılması (rəng simvolları). [3]

Linqvokulturologiya filoloji elmlərdəndir. Milli-mədəni ümumiliyi öyrənir, dil və mədəniyyətin qarşılıqlı əlaqəsini tədqiq edir. Dil vahidlərinin mədəni markirovkası etnokultur və yaxud milli spesifika daşıyır. Etnokultur spesifika-"kulturoloji mentaliteti" formalaşdırır və informasiya verilir. Dil vahidlərinin kulturoloji aspektləri aşağıdakı çərçivədə qərarlaşaraq "dilin fundamental sahəsi+ mədəniyyət+dil şəxsiyyəti üçlüyünü əhatə edir. Bu spesifika dil vahidlərin kulturoloji spesifikası, mədəni dil kodu kimi funksionallaşır. Mədəni-dil kodu linqvomədəni korrelyasiya sistemi yaradır, dil şəxsiyyətinin strukturunu təşkil edir. Dil vahidlərinin kulturoloji xüsusiyyətlərinin öyrənilməsi prosesi hələ də davam edir.

Anlayışın linqvokulturoloji kodu dilin linqvokulturoloji tədqiqatının obyektidir. Yəni dil linqvokulturoloji kodun təhlilində mühümi rol oynayır.

Linqvokulturoloji kodun kompleks xarakteri vardır. Onun hərəkətin təmin olunmasındakı rolu böyükdür. Linqvkulturoloji kod dil şəxsiyyətindən ibarətdir.

Linqvokulturoloji yanaşma ilə dilin sisteminə baxmaq, hər hansı bir dil vahidinin milli-mədəni spesifikasını təyin etmək, bu barədə olan konsepsiyanı inkişaf və davam etdirmək olur.

Paradiqmatika və sintaqmatika

F.de Sössürə görə, hər hansı bir dilin vəziyyəti hər şeyin o dilə münasibətilə əsaslanır. Dil sisteminin üzvləri arasında əlaqələr və fərqlər iki fərqli sahədə inkişaf edir. Onlar zehni fəaliyyətimizin iki formasına uyğundur. Bir tərəfdən nitqdəki sözlər bir-biri ilə əlaqə quraraq dilin xətti xarakteri əsasında əlaqələri yaradır. Bu elementlər nitq axınında bir-birinin ardınca düzülür. Bunlar dil *vahidlərini* eyni vaxtda və ardıcıllıqla birləşdirən sintaqmatik əlaqələrdir. Sintaqmatik münasibətlər həmişə mövcuddur. Sintaqmatik münasibət faktiki ardıcıllıqda bərabər şəkildə mövcud olan əlaqənin iki və ya daha çox üzvünə əsaslanır. Digər tərəfdən, nitq prosesindən kənarda ümumi cəhətləri olan sözlər yaddaşda elə əlaqələndirilir ki, onlardan qruplar əmələ gəlir və onların daxilində çox müxtəlif əlaqələrə rast gəlinir. Beləliklə, “tərbiyəçi” sözü qeyri-ixtiyari olaraq şüurda bir çox başqa sözləri oyadır: “tərbiyə etmək”, "şagird", “uşaq bağçası”, “koloniya” və s. [4]

Paradiqmatik münasibətlər dil vahidlərini qruplara, kateqoriyalara birləşdirən əlaqələrdir. Paradiqmatik münasibətlər, məsələn, samitlər sisteminə, azalma sisteminə, sinonimik sıralara əsaslanır. Paradiqmatik münasibətlər bəzən assosiativ adlanır. Assosiativ münasibətlərə misal olaraq felin, eyni kökdən olan sözlərin birləşməsi, sözün hallara görə dəyişməsi paradiqması ola bilər. Bunlar “ya/ya da” prinsipinə görə sözlər arasındakı münasibətlərdir.

Sinxroniya və diaxroniya

Sinxroniya və diaxroniya ideyasını irəli sürən F.de Sössür bu məsələni ən ətraflı şəkildə nəzərdən keçirmişdir.

Sinxroniya dilin vəziyyətini bir-biri ilə əlaqəli və bir-birindən asılı olan elementlərin hazır bir sistemi kimi təqdim edir: mənşəyindən asılı olmayaraq, leksik, qrammatik, və fonetik əlaqələrə görə. Dilin sinxroniyası onun özü ilə eyni qaldığı müddətcə onun vəziyyətidir .

Diaxroniya isə müxtəliflik deməkdir. Sinxroniya və diaxroniya anlayışları dilçiliyin əsasını təşkil edir, yəni:

1) Sinxron dilçilik, bir yerdə mövcud olan elementləri birləşdirən və bir sistem təşkil edən məntiqi və psixoloji dəyişiklikləri təzahür edir və onları kollektiv şüur tərəfindən qəbul edildiyi kimi öyrənir.

2) Diaxronik dilçilik isə zamanla bir-birini izləyən və eyni kollektiv şüur tərəfindən qəbul edilməyən elementləri, yəni ardıcıl olaraq bir-birini əvəz edən və öz məcmusunda formalaşmayan elementləri öyrənir. [4]

Nəticə: Dilin ictimai münasibətlərin inkişafına təsiri, ilk növbədə, dilin xalqın formalaşmasında möhkəmlədici amillərdən biri olması ilə sübut olunur. O, bir

tərəfdən onun baş verməsi üçün ilkin şərtdirsə, digər tərəfdən də bu prosesin nəticəsidir.

Dil cəmiyyətin tərbiyə və təhsil fəaliyyətində böyük rol oynayır, çünki dil biliklərin, mədəni, tarixi və digər ənənələrin nəsildən-nəslə ötürülməsi vasitəsidir. Dil (və onun lüğəti) maddi mədəniyyətin inkişafına (texnika və texnologiya) və mənəvi mədəniyyətin nailiyyətlərinə (dünyanın elmi, bədii, mifoloji dərk edilməsi, yeni anlayışların formalaşmasına) cavab verir. Müasir dil keçmiş sosial nümunələri və sosial strukturları düzəldən xüsusiyyətləri özündə qoruyub saxlayır.

Dilin cəmiyyətlə əlaqəsi obyektivdir, ayrı-ayrı şəxslərin iradəsindən asılı deyildir. Bununla belə, dilə cəmiyyətin məqsədyönlü təsiri də mümkündür.

Dilin sosial mahiyyəti ilk növbədə onun xalqla - bu dilin yaradıcısı və daşıyıcısı ilə, onun normaları, xüsusən də ədəbi və yazılı dillə bağlılığında özünü göstərir. Dil bir çox dialekt şəklində danışan xalqın ərazi fərqini və cəmiyyətin təbəqələrə və qruplara sosial diferensiasiyasını əks etdirir.

Beləliklə, nitq dil varlığının bir formasıdır və o, dil funksiyalarını yerinə yetirir. Eyni zamanda nitq fəaliyyəti insanın nitq istehsalı üçün həyata keçirdiyi psixofizioloji işlərin məcmusudur.

Ədəbiyyat

1. Veysəlli, F.Y. Dil / F.Y.Veysəlli. – Bakı: Təhsil NPM, – 2007. – 298 s.
2. Xomski, N. Dil və təfəkkür / N.Xomski. – Bakı: Kitab aləmi, –2006. – 152 s.
3. Воробьев В.В. Лингвокальтурология: М.: Изд-во РУДН, - 2008. - 340 с.
4. Соссюр, Ф. де. Курс общей лингвистики: [пер. с франц.] / Ф. де Соссюр. – Екатеринбург: Изд-во Урал. ун-та, 1999.
5. Якутшин Б.В.: Гипотезы о происхождения языка.- Москва: Наука, - 1984. - 136 с.
6. Humbolt V. On the difference between the structure of human languages and their impact on spiritual development of mankind / V. Humbolt. Selected papers on linguistics. – Moscow, 1984. P. 68-69
7. Ohood Al-Nakeeb / Language and Ideology: Linguistic and Philosophical Perspectives. – 2018 www.academia.edu
8. Sapir E. / Language. An Introduction to the Study of Speech / New-York: Hardcourt, Brace, - 1921. - 125 p.
9. Yurdanova V.N., Tkacheva N.A. / Philosophy of Ancient Linguistic Concept / www.rusnauka.com

С.Мамедзаде

ЯЗЫК И ЕГО ПРОЯВЛЕНИЕ В ОБЩЕСТВЕ
РЕЗЮМЕ

Язык – это модель мира. С одной стороны, язык является редким признаком этноса, а с другой - сущностью, выполняющей свою основную функцию. Во все периоды истории язык проявлял себя как социальное явление, то есть язык не может рассматриваться как субъект вне общества. Являясь очень важным средством общения, язык также порождает взаимодействие социальной обусловленности.

Проблема «язык и мышление» — одна из самых сложных и дискуссионных проблем теории языкознания. В разные периоды истории науки о языке она решалась по-разному: представители логического направления, например, определяли эти понятия; сторонники психологического течения пытались решить этот вопрос по-иному, обосновывая превосходство мышления над языком, а затем языка над мышлением; Представители американского структурализма считали, что структура языка определяет структуру мышления и способ познания внешнего мира. Несмотря на разные решения этой проблемы, все исследователи сошлись во мнении, что между языком и мышлением существует связь. Мышление есть высшая форма активного отражения объективной действительности; представляет собой целенаправленное, опосредованное и обобщенное знание об основных отношениях предметов и событий. Он реализуется в различных формах и структурах (понятиях, категориях, теориях), в которых стабилизируется и обобщается познавательный и социально-исторический опыт человечества. Орудием мысли является язык, как и другие знаковые системы.

Ключевые слова: *лингвокультурология, парадигматика, синтагматика, язык и мышление, социолингвистика.*

S. Mammadzada

LANGUAGE AND ITS APPEARANCE IN SOCIETY
SUMMARY

Language is the model of the world. On the one hand, language is a rare sign of an ethnos, and on the other hand, it is an entity that performs its main function. In all periods of history, language manifested itself as a social phenomenon, that is, language cannot be considered as a subject outside of society. Being a very important means of communication, language also generates the interaction of social conditioning.

The problem of “language and thinking” is one of the most complex and debatable problems in the theory of linguistics. In different periods of the history of the science of language, it was solved in different ways: representatives of the logical

direction, for example, defined these concepts; supporters of the psychological trend tried to solve this issue in a different way, justifying the superiority of thinking over language, and then language over thinking; Representatives of American structuralism believed that the structure of the language determines the structure of thinking and the way of knowing the outside world. Despite different solutions to this problem, all researchers agreed that there is a connection between language and thinking. Thinking is the highest form of active reflection of objective reality; is a purposeful, mediated and generalized knowledge about the basic relationships of objects and events. It is realized in various forms and structures (concepts, categories, theories), in which the cognitive and socio-historical experience of mankind is stabilized and generalized. The instrument of thought is language, like other sign systems.

Key words: Linguistics, paradigmatics, syntagmatics, language and thought, sociolinguistics.

Redaksiyaya daxil olma tarixi: 23.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: ***filologiya üzrə elmlər doktoru, professor***
Qazıyeva Məsməxanım Yusif qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

ARİFƏ YUSİFOVA
ATU, Azərbaycan dili kafedrası
arifə.@.mail.ru.

AZƏRBAYCAN DİLİNDƏ VƏ DİLÇİLİK TARİXİNDƏ FRAZEOLOGİZMLƏRİN ÖYRƏNİLMƏSİ ,TƏDQİQATI VƏ ONUN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Frazeloji birləşmələr ,qohumluq terminlər,şivələr,dialekt sözlər, toponimik adlar.

Key words: Phraselogical units ,kinship terms ,accents,dialect words , toponymy names

Ключевые слова: Фразеологические соединения ,родственные термины,диалектные слова ,говоры ,торонимические названия

Fazeologiya yunanca phrasis (ifadə) loqos (təlim) sözlərinin birləşməsindən əmələ gəlmişdir.Məlum oldugu kimi ,frazeologiya hər hansı bir dildəki sabit söz birləşmələrini öyrənən dilçilik terminidir. «Dildə mövcud olan sabit söz birləşmələri,ə sas etibarilə qeyri-sabit ,daha doğrusu ,qram- matik birləşmələrin əsasında əmələ gəlir.Qrammatik birləşmənin özü və ya onun tərkibində olan sözlər məcazi mənaya keçərək mütəhərrikliyini itirdikdə sözlər arasında əlaqə və münasibətlər yaradan vasitələr donuq bir hala gəlir və o bir məfhumu ifadə edən sabit söz birləşməsinə çevrilir...»Dildəki sabit söz birləşmələrinin (frazeoloji birləşmələrin)öyrənilməsi ilə frazeologiya elmi məşğul olur.Bu sahənin banisi Ş.Balli hesab olunur.Belə ki ,«dildə möhkəm sürətdə daxil olan birləşmələri öyrənilməsini xüsusi üsullarının zıruriliyini ilk dəfə Ş.Balli əsaslandırmışdır.O fazelogiyanın dilçiliyin xüsusi bölməsi kimi kontur və vəzifələrini göstərmişdir».. Fazeologoyanın dilçiliyin bir şöbəsi kimi formalaşmasında akdemik V.V.Vinaqradovun böyük xidmətləri vardır. Frazeo- loji vahidlərin düzgün təsnif edilməsində ,onların dərin elmi təhlilinin verilməsində V.V.Vinaqradov xüsusi işlər görmüşdür. O, rus dili materialları əsasında fazeoloji vahidlərinin təsnifini vermişdir ki, həmin bölgü bu gün də əhəmiyyətini itirməmişdir..Azərbaycan dilçiliyində ədəbi dilimizin frazeolo- giyasına dair bir sıra əsər və məqalələr yazılmışdır . Bu məsələ ilə bağlı ilk dəfə professor M.Hüseyinzadə təşəbbüs göstərərək ,«Müasir azərbaycan dili » kitabında ayrıca olaraq frazeologiya bölməsi ayırmışdır. Professor Ə.Dəmir- çizadə « Azərbaycan dilinin üslubiyyatı » kitabında idiomlar ,yaxud iduomatik ifadələr» başlığı ilə frazeoloji birləşmələr üslubi cəhətdən tədqiq etmişdir.- Professor Y.Seyidov« Azərbaycan ədəbi dilində söz birləşmələri »kitabında Sərbəst və sabit söz birləşmələri » adı altında frazeoloji birləşmələrə münasibətini bildirmişdir. Professor A.Qurbanov da Azərbaycan dili fra- zeoloji vahidlərinin əmələ gəlməsini ,onların məna növlərini və mənaca qruplarını geniş şəkildə izah etmişdir.. M.Rəhimzadə bir

sıra fazeoloji vahidlərin çoxmənalı olmasının səbəbini belə izah edir:«Çoxmənalı ideomatik ifadələrin yaranmasında çoxmənalı sözlər böyük rol oynayır. Məlumdur ki ,sonuncular öz əsas mənaları ilə birlikdə həm də məcazi mənalar və məna çalarlıqları kəsb edir .Əsas mənalarla bağlı olan əlavə mənalar müəyyən birləşmələrin daxilində qalır.Bunlar bu əlavə mənaların böyük hissəsini əks etdirir.Azərbaycan dilinin başqa dialekt və şivələrində olduğu kimi ,Yevlax şivələrinin də lüğət tərkibində tarixi dövrlərin izlərini yaşadan sözlər - tarixizmlər işlənməkdədir.Tarixizmlərin öyrənilməsi ,araşdırılması ,dilimizin, eləcə də xalqımızın tarixini ,onun qohum və ya qohim olmayan dillərlə və xalqlarla əlaqəsini meydana çıxarmaq üçün böyük qiymətə malikdir.Çünki,bu sözlərin bir qismi dilimiz üçün arxaikləşsə də ,dilaekt və şivələrimizin aktiv fonduna daxildir.Dilimizin bütün dialekt və şivələrində olduğu kimi ,Yevlax şivələrində də tarixi dövrələrin izləri adı altında tayfa adları ,yer adları (toponimik adlar),qohumlar bildirən adlar ,köhnə fəsil və ay adları ,köhnə quruluşla əlaqədar adlar və köhnə ölçü adlarından bəhs olunur.A.A.Ba- kıxanov yazır:Nəinki əsrlər ,hətta min illər belə bu ölkənin bir çox yerlərinin və tayfalarının adlarının adlarını məhv edə bilməmişdir..Bu cəhətdən dialekt və şivələrimizdə yer ,tayfa və nəsil adlarının araşdırılması iri əsas məsələlərdən biridir. Bu iş yalnız dilçilik elmi üçün deyil,eyni zamanda tarix etnoqrafiya və s. elm sahələri üçün də faydalıdır.Tayfa və nəsil məhfumu çox zaman həmin nəsildən olan bir şəxsin adı ilə adlandırılır.Tirə,öylat,nəsil uşaq ,məhlə sözlərinin əvvəlinə həmin nəsil təccəssüm etdirən şəxsin adı artırılır. Bəzi tayfa adları isə nəsildə ulu babanın məşğul olduğu sənət sahəsi və ya dini rütbə ilə fərqləndərilir.Məsələn ,Salamabad kəndində Hacıismayıllı məhəlləsi Həccə getmiş Hacı İsmayıl kişinin adı ilə adlandırılır.Həmiddi məhləsi isə bu məhəllədə yaşayanların ulu babası Həmid kişinin adı ilə belə adlanır.

2.Toponimik adlar.

Məlumdur ki, toponimik adlar coğrafiyanın obyektidir.Lakin onların mənası dilçilər tərəfindən açılır.Məhz bundan sonra həmin adlar tarixi tədqiqatlar üçün mənbəyə çevrilir.Deməli, toponimika elminin müxtəlif sahə- ləri olan - tarix , coğrafiya ,arxeologiya ,etnoqrafiya ilə bağlı olmaqla ya- naşı ,dilçilik ,dil tarixi və dialektologiya ilə sıx əlaqədardır.Buna görə də toponimik adların öyrənilməsi bu sahə ilə maraqlanan müxtəlif tədqiqatçı- ların diqqət mərkəzində durur və müxtəlif cəhətdən araşdırılır.Dialektoloqlar da bu vacib məsələyə özünəməxsus yöndən yanaşırlar.Çünki yer adlarının dialektoloji aspektdən öyrənilməsi şivələrin dil xüsusiyyətlərinin aşkara çıxarılmasına kömək edir.Aran rayonlarından biri olan Yevlaxın səthi düzənlikdən ,torpaqları boz çəmən torpağı və şoranlıqdan ibarətdir.Buna görə də burada təbii mikro-toponimlərə ,oronimlərə az təsədüf edilir.

Qohumluq və ailə münasibətləri bildirən adlar.

Leksikanın qədim qatlarına aid olan sözlərin bir qismi də qohumluq terminləridir.Qohumluq əlaqəsi bildirən adlar qəbilə dövrünün izlərini əks etdirən sözlər sırasına aiddir.Yevlax şivələrində müşahidə olunan qohumluq terminlərin bir

çoxu ,ədəbi dildə və digər dialekt və şivələrdə işlənən sözlərlə ümumilik təşkil edir. Bu terminlərin bəziləri sinonim cərgələr yaradır.Şivələrdə təsadüf edilən ,qohumluq terminlərinin bir qismi digər türk dillərində də işlədilir.

Yevlax şivələrində rast gəlinən qohumluq terminləri

ana (büt .şiv.)|| nənə(əks.şiv.) || ciji (Yev.)-anaata(büt .şiv.)|| lələ(A.Qar.,-Qm.)|| əmi(Yev.)-ata

qardaş(büt .şiv.)|| qaqaş(əks.şiv)-qardaş;qaga(Yev.,Yeni.,Ək.)-böyük qardaş

bajı(büt .şiv.)-I.bacı,2.qardaş arvadı,3.ögey ana,baba|| bava|| dədə(əks .şiv.)- baba

nənə (büt .şiv.) -nənə,cəddaba(əks .şiv.)-nəsildə ulu babaoğul ||oğul-uşax || bala||züryət(Qm.Qğ.,Xal)-övlad;qoja nənə(Qğ.,S.,V)-atanın və ya ananın nəvəsi

əmi(büt .şiv.)-atanın qardaşı;mama(büt .şiv.) -atanın bacısı

bibi(büt .şiv.)-əminini və ya dayının arvadı;xala(büt .şiv.)-ananın bacısı nəvə ||nüə(A.Sal.)-oğlun (qızın)övladı;nəticə(büt .şiv.)-nəvədən olan uşaq kötücə|| kötüx 'cə-nəticədən ilan uşaq;kirvə(büt .şiv.)-sünnət olunan uşağı tutan adam

qohum-öylat || əğraba (əks .şiv.)- qohum;simsar(əks .şiv.)-nisbətən uzaq qohumsüd anası (büt .şiv.)-uşağı anasının əvəzinə əmizdirən qadın Frazeologizimlər dilin xalq fizionomiyası ,onun orjinal vasitəsi ,varlıq və zəka zənginliyidir.Onların həm məzmun ,həm də forma etibarı ilə zənginliyi və dildə həddindən artıq işlədilməsi alimlərin diqqətini özünə cəlb etmişdir.Ona görə də frazeologiya dilçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevrilmişdir. Frazeologizimlər daxili məna qurluşunun və xarici strukturunun ,onların ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması ,tərcümə olunma imkanlarının öyrənilməsi,milli və beynəlmiləl mahiyyətinin şəhri,onların işlənmə xüsusiyyətinin və istifadə olunma sahələrinin təhlili həm nəzəri ,həm də praktik cəhətdən aktuallıq kəsb edir.

Frazeoloqizimlərdən istifadə insanlara öz fikirlərini dəqiq ,qısa və idiomatik ifadə etmək imkanı verir.Onlar məhfumu dolayı olsa da ,konkret ifadə edir. Frazeologizimlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı , emosional,ifadəli olmasıdır.Belə ki, frazeologizimlər dilin ekspressivliyində onun emosionallığında xüsusi rol oynayır.Onlar bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir.

Frazeologizimlərdən həm bədii həm publisist ,həm də digər üslubdan istifadə olunur.Onlar ədəbi dilin yazılı növündə ,əsasən bədii üslubda yazılan əsərlərdə,xüsusi üslubi rola malikdir. Frazeoloji birləşmələr yazıçı fikrinin tutumunu böyükdür,bədii əsərin emosionllığını , üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət eləyir. Yazıçı frazeoloji birləşmələri cümlədə işlədərkən mətnlə frazeoloji birləşmənin qarşılıqlı münasibətini əsas götürür, yəni mətn frazeologizimlərin semantik çalarlarını dəqiqləşdirir, frazeologizimlər isə mətnin.Böyük yazıçı və şairlərin əlində frazeologizimlər bu və ya surətin danışığını fərdiləşdirmək ,tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir. Həm dildəki frazeoloji materialın məcmusu və həm də bunlar haqqında elm şöbəsi frazeologiya

adlanır.Frazeologiyanın belə iki məna ifadə etməsi dilçilikdə qüsurdur.Dilin leksik tərkibi leksika ,leksikadan bəhs edən şöbə leksikologiya adlandırıldığı kimi ,frazeloji tərkibi bildirmək üçün frazeologiya haqqında biliyə isə "frazeologiya" adlandırmaq lazımdır.Dilçilikdə az işlənmiş nəzəri problemlər hələ də çoxdur; məsələn , leksem və frazemlərin qarşılıqlı münasibəti və s. Bütün bu məsələlərin həm xüsusi həm ümumi dilçilik planında həll edilməsi frazeiogiya şöbəsinin qarşısında duranəsas vəzifələrdəndir. Fazeoloji birləşmələr nitqdə ifadəlilik , obrazlıq gətirən ,fikri ifadəli edən dil vahidlərindəndir.Belə birləşmələrə sabit birləşmələr də deyilir.Bir qayda olaraq ,frazeoloji birləşmələr məcazi mənalı olur.Məsələn : ürəyi düşmək , qəlbinə toxunmaq ,özündən çıxmaq ,zəhləsi getmək ,burnunu sallamaq və s.

Ədəbiyyat

1.S.Cəfərov Müasir Azərbaycan dili B.,1982,s.99 2.Prinsipıı opisaniya yazıkov mira M.,1976, s .461-462 3.Y.S.Stepanov Osnovı obşeqo yazıkoznaniya M.,1975
4.Ə.Dəmirçizadə Azərbaycan dilinin üslubiyyatı ,Bakı ,1962,5.s 168

А.ГУСЕЙНОВА

ФРАЗЕОЛОГИЧЕСКИЕ СОЕДИНЕНИЯ

РЕЗЮМЕ

В статье рассматриваются семантические и грамматические свойство префиксов на современном английском и азербайджанском языках а также их структуры в словах и словосочетаниях. Слова соединений внутри подковы из бывает первичным и лексичуские я независимые компоненты словори я с защитили сохраняет независимость; Например: Мотор машины, трактора ,любовь ,любовь к родине, когда вам письмо прочел книгу деревья , садовник лесной школы , голос,и т.д. Свободное соединение стороны я и так и с токки зрения грамматики связаны друг с другом.

Номинативная сторон я и синтаксических связей между сторонами наблюдается высокая . Если бы они ни были,их отдельными словами,наряду пришлось бы включить словарям и словарь языка в составе соединения на готовом виде свабодно.В нашем языке свабодно соединений не они сами ,устройства имеются модели.В процессе формирование и включаются в фразе создается на основе моделей берутся эти слова , речи языка словарь из состава признан целесообразным.

A.KUSEYNOVA

PHRASELOGICAL UNITS
SUMMARY

Components consist of words and these words preliminary i lexical compound within the horseshoe is to independent -I protected the independence of sets the ;Ex:School, the tress of the forest ,tractor motor vehicle ,love love, when you read the letter and s ,home ,book ,voice gardener who belongs.Free group parties and I and grammatical point of view is associated with each other.

Parties nominative i and syntactic relations between the parties is clearly observed.Free compounds in the language in the ready form ,if it would be individual words in the vocabulary necessary to include them along,dictionaries and language was if they would.Fluent in our language compounds,there are not themselves build models. Speech process is taken from the vocabulary of the language appropriate words,these models are included in the sentence compounds is created and was elected on the basis. The article deals with semantic and grammatic characteristics of the prefixes in contemporary English and Azerbaijani, also their structure in the words and phrases.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Tamilla Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

MAARİFƏ MANAFOVA,
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Mingəçevir Dövlət Universiteti
manafov49@mail.ru,
ORCİD: 0000-0001- 7425-2313

ÜMUMTÜRK DİLLƏRİ DİALEKT VƏ ŞİVƏLƏRİNİN QARŞILIQLI İNTEQRASİYASI
(Professor Mahirə Hüseynovanın tədqiqatlarında)

XÜLASƏ

Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası məsələlərinin tədqiqində professor Mahirə Hüseynovanın xidmətlərini böyükdür. Tanınmış türkoloq türk dillərinin dialektlər sistemini yorulmadan araşdırmiş, ortaq dialektoloji vahidləri və onların areallarını müqayisəli şəkildə linqvistik tədqiqata cəlb etmişdir.

Tədqiqatçı qeyd edir ki, ümumtürk dilləri fonetikasının müqayisəli tədqiqi onların ümumi inkişaf qanunauyğunluqlarını, bu dillərin hər birinin oxşar və fərqli cəhətlərini aşkara çıxarmaq üçün qiymətli faktlar verir.

Türkcələrin ədəbi dilləri inkişaf etdikcə ayrı-ayrı dil vahidlərinin dialekt həddində müəyyənləşməsi prosesi genişlənmişdir və bu baxımdan morfoloji kateqoriyalar da istisna deyildir. Dilin başqa yaruslarında olduğu kimi, morfoloji quruluşunda da ayrı-ayrı elementlər (morfoloji əlamətlər) dialekt faktı kimi işlənmişdir.

Buğünkü türk xalqlarının ədəbi dillərinin və ya dialektlərinin və eyni zamanda, onların tarixi-etnik-genetik köklərinin dərindən öyrənilməsində saysız-hesabsız leksik vahidlər də mühüm rola malikdirlər və ümumtürk dillərinin leksik bazasına söykənməklə qohum dillərin dialekt və şivələrində müşahidə olunan inteqrasiya hallarını üzə çıxarmaq mümkündür.

Tədqiqatçı haqlı olaraq bu nəticəyə gəlir ki, bəşəriyyət tarixində ilk dəfə olaraq müxtəlif peşələri kəşf edən türklər olmuş, türk xalqları bu peşələrə və bu peşələrdə istifadə olunan alət və vasitələrə uyğun olaraq müxtəlif adlar vermiş və bu adlar minillikləri adlayaraq və eyni zamanda türk dillərinə və dialektlərinə inteqrasiya edilərək çağdaş dövrümüzə qədər gəlib çıxmışlar. Bütün bu leksik vahidlərin türk dillərinin dialektlərindəki struktur-semantik, leksik-semantik əlamətlərini öyrənməklə türk xalqlarının bir-birlərinə dil və etnoqrafik baxımdan nə qədər yaxın olduğunu aşkara çıxarmaq mümkündür.

Professor Mahirə Hüseynovanın ümumtürk dilləri dialekt və şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin qarşılıqlı inteqrasiyasına dair tədqiqatları müstəqillik dövrü dilçiliyimizin böyük nailiyyətidir.

Açar sözlər: ümumtürk dilləri, qohum dillər, dialekt və şivələr, qarşılıqlı inteqrasiya, dil vahidləri

Qohum türk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiq edilməsi dilçilik elminin prioritet sahələrindən biridir. Bu sahədə Azərbaycan dilçiliyində xeyli iş görülmüş, dialekt və şivələrin müxtəlif sahələrinə dair qiymətli monoqrafiyalar yazılmış, dialektoloji atlaslar və və lüğətlər tərtib edilmişdir.

Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası məsələlərinin tədqiqində professor Mahirə Hüseynovanın xidmətlərini böyükdür. Tanınmış türkoloq türk dillərinin dialektlər sistemini yorulmadan araşdırmiş, ortak dialektoloji vahidləri və onların areallarını müqayisəli şəkildə linqvistik tədqiqata cəlb etmişdir.

Professor M. Hüseynova türk dilləri dialektlərinin ədəbi dillərə interqrasiyasında əsas rol oynayan dialektlərin müəyyənləşdirilməsi və bununla qədim türk protodillərinin rekonstruksiya edilməsi işini diqqətlə araşdırmış, ümumtürk dilləri dialekt və şivələrində fonetik, morfoloji və leksik xüsusiyyətləri tədqiq etmişdir [4, s. 11].

Ümumtürk dillərinin dialekt və şivələrində saitlərin fonematik xüsusiyyətlərinin, samitlərin variantlarının qohum türk dillərində müqayisəli tədqiqi aktuallıq kəsb edən məsələlərdəndir. Tədqiqatçı göstərir ki, dialekt və şivələrin fonetikasl türkcələrin ədəbi dilləri ilə müqayisədə oxşar və fərqli cəhətlərə malikdir. Ümumtürk dilləri fonetikasının müqayisəli tədqiqi onların ümumi inkişaf qanunauyğunluqlarını, bu dillərin hər birinin oxşar və fərqli cəhətlərini aşkara çıxarmağa qiymətli faktlar verir..

Türk dillərinin fonetik quruluşunu araşdıran tədqiqatçı əksər türk dillərində 8 saitin, *ə* saiti olan dillərdə 9 saitin, özbək dilində 6 saitin olduğunu göstərir və qeyd edir ki, türk dillərinin dəfələrlə ayrılması, birləşməsi nəticəsində hər bir türk dilinin fonetik quruluşunda fərdi cəhətlər yaranmağa başlamışdır.

M. Hüseynova göstərir ki, türkcələrin ədəbi dilləri inkişaf etdikcə ayrı-ayrı dil vahidlərinin dialekt həddində müəyyənləşməsi prosesi genişlənmişdir və bu baxımdan morfoloji kateqoriyalar da istisna deyildir. Dilin başqa yaruslarında olduğu kimi, morfoloji quruluşunda da ayrı-ayrı elementlər (morfoloji əlamətlər) dialekt faktı kimi işlənmişdir. Məhəlli dialektlərin formalaşmasında ekstralinqvistik amillər mühüm rol oynamışdır. Müxtəlif inzibati bölgülər, təbii-coğrafi sədlər ayri-ayri dil vahidlərinin məhdud ərazilərdə işlənməsi üçün şərait yaratmışdır. Tanınmış türkoloq Elbrus Əzizovun qeyd etdiyi kimi: " Qədim türk dillərinin bəzi əlamətləri və innovasiya faktı kimi sonralar meydana çıxmış bir sıra xüsusiyyətlər məhəlli dialektlərin əlamətləri kimi müəyyənləşmişdir. Ədəbi dil normalarının sabitləşməsi isə ayrı-ayrı qrammatik əlamətlərin dialektal təbiətini daha aydın göstərir " [1, s. 168].

Hal kateqoriyasının morfoloji göstəricilərinin türk dillərinin dialekt və şivələrinə inteqrasıyasını qeyd edən professor M. Hüseynova ümumtürk dillərində ismin hallarının müxtəlif terminlərlə adlandirilmasını göstərir: *Adlıq, Yiyəlik, Yönlük, Təsirlik, Yerlik, Çıxışlıq* (Azərbaycan türkcəsində); *İlgi, Yükləmə, Yaklaşma, Bulunma, Uzaklaşma* (Başqırd, Qazax, Qırğız və b. türkcələrdə). Türk dillərində ismin hal

kateqoriyası ilə əlaqədar başlıca xüsusiyyətlər bu və ya digər hal şəkilçisinin işlənməsində müşahidə edilir. Hal kateqoriyasının əksər morfoloji göstəriciləri ümumtürk dillərinə və ya dialektlərinə qarşılıqlı şəkildə, özü də müxtəlif dövrlərdə inteqrasiya olunmuşdur (2, s.367).

Tədqiqatçı alim türk dilləri dialektlərinin morfoloji cəhətlərinin geniş bir aspektdə öyrənilməsinə ciddi ehtiyac olduğunu göstərmiş və türk dilləri dialektlərində mənsubiyyət kateqoriyasının morfoloji əlamətlərinin; *-lar-lər* morfeminin; əvəzliklərin (əsasən işarə və qayıdış əvəzliklərinin); zərflərin; məsdər, feili bağlama, feili sifət şəkilçilərinin ümumtürk dillərinin dialektlərinə qarşılıqlı inteqrasiyasının spesifik cəhətlərini müqayisəli planda araşdırmışdır.

M. Hüseynova xüsusi olaraq vurğulayır ki, buğünkü türk xalqlarının ədəbi dillərinin və ya dialektlərinin və eyni zamanda, onların tarixi-etnik-genetik köklərinin dərindən öyrənilməsində saysız-hesabsız leksik vahidlər də mühüm rola malikdirlər və ümumtürk dillərinin leksik bazasına söykənməklə qohum dillərin dialekt və şivələrində müşahidə olunan inteqrasiya hallarını üzə çıxarmaq mümkündür. Müxtəlif peşələrlə baglı leksik vahidlərin yaranma və formalaşma tarixi türk dillərində olduqca qədimdir. Müasir türk dillərinin dialektlərində bu qəbildən olan leksik vahidlərin bəziləri arxaikləşmiş, bəziləri fonetik cəhətdən formasını dəyişmış, bəziləri isə qədim mənasını qoruyub saxlamışdır. Professor M. Hüseynova həm oğuz, həm də qıpcaq qrupu türk dillərinin dialektlərində işlənən müxtəlif peşələrlə bağlı leksikanın müəyyyən cəhətlərini izləmiş, şivələrdə mühafizə olunan bəzi sözləri təhlil süzgəçindən keçirməklə dilçiliyimiz üçün maraqlı nəticələr əldə etmişdir. *Daraq, məs (dabansız yüngül ayaqqabı), biz, balaq, börk , uruğ, tirə...* belə sözlərdəndir.

Tədqiqatçi göstərir ki, *daraq* sözü türk xalqlarında xalçaçılıq peşəsi ilə bağlıdır (yun daramaq işlərində tətbiq olunur) və *daraq* sözü əksər türk xalqlarının həm ədəbi dilində, həm də dialektlərində işlək vəziyyətdədir. Bu söz qırğız, qazax, tatar, başqird, qaraçay-balkar, yakut və s. dillərdə "t" ilə işlənir: *daraq/tarak. Daraq/ tarak* sözü ümumtürk mənşəlidir. Mahmud Kaşğarinin lüğətində *tarğat* (*tarğak, taradi, taraldi, daradı*) sözləri də məlum semantikada işlənmişdir (3, s.232-233). Azərbaycan dilinin Şuşa şivəsində işlənən *daraxçı (daraq qayıran sənətkar*) sözünün əsasında da *darax* leksik vahidi dayanır. Bu söz Şuşa, Ağdam, Biləsuvar, Daşkəsən şivələrində onomastik vahid kimi çıxış edir, müxtəlif mənalar bildirir. Məsələn, Şuşa şivəsində : 1) *Darax* - Bəzi quşların başında yelpincə oxşar kəkil – *Şanapipiyin darağı tousunkuna oxşuyur; 2) Darax*- qəlsəmə- *Balığın darağı qirilsa, zəhərri olar; 3) Darax* - əl və ayaqlarda pəncə sümükləri- *Bu sümüklər əl deyil, əyax daraxlarıdı.*

Bütün bunlardan əlavə, *daramax* sözü Gürcüstanın Dmanisi, Marneuli şivələrində feil kimi işlənir və *baş yumaq* mənasını bildirir. Gəncə və Tovuz şivələrində də bu söz işlənir və *ağacın budaqlarını kəsmək, qirmaq anlamını* ifadə edir (2, s.488).

Biz- Bu, tikişçilik peşəsində istifadə edilən alət adını bildirir. Azərbaycan dilinin Şamaxı dialektində və Kürdəmir, Tərtər şivələrində *bizdəmək* sözü işlənir ki, bu leksik vahidin əsasında *biz* sözü dayanır:-Onu bizdəməsən iş görəsi döy (Şamaxı).

Tikiş aləti anlamında bu söz Türkiyə, Azərbaycan, başqird, qazax, tatar, türkmən türkcəsində *biz*, özbək və uyğur türkcəsində isə *bigiz*, *begiz* formalarında işlənir. Qırğız türkcəsində bu *şibege* şəklindədir. Altay-balkar, noqay dillərində bu söz *bigiz* formasında və *deşmək, kəsmək, doğramaq* mənalarında işlənir (3, s.225).

Tədqiqatçı haqlı olaraq bu nəticəyə gəlir ki, bəşəriyyət tarixində ilk dəfə olaraq müxtəlif peşələri kəşf edən türklər olmuş, türk xalqları bu peşələrə və bu peşələrdə istifadə olunan alət və vasitələrə uyğun olaraq müxtəlif adlar vermiş və bu adlar mənsubiyyətini adlayaraq və eyni zamanda türk dillərinə və dialektlərinə inteqrasiya edilərək çağdaş dövrümüzə qədər gəlib çıxmışlar. Bütün bu leksik vahidlərin türk dillərinin dialektlərindəki struktur-semantik, leksik-semantik əlamətlərini öyrənməklə türk xalqlarının bir-birlərinə dil və etnoqrafik baxımdan nə qədər yaxın olduğunu aşkara çıxarmaq mümkündür.

Beləliklə, çəkinmədən demək olar ki, professor Mahirə Hüseynovanın ümumtürk dilləri dialekt və şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin qarşılıqlı inteqrasiyasına dair tədqiqatları müstəqillik dövrü dilçiliyimizin ən böyük nailiyyətlərindən biridir.

Manafova Maarifa Nuh,

MUTUAL INTEGRATION OF DIALECTS AND ACCENTS OF COMMON TURKIC LANGUAGES (in the studies of Professor Mahira Huseynova)

ABSTRACT

The service of Professor Mahira Huseynova in the study of the issues of mutual integration of dialects and accents of common Turkic languages are great. The well-known Turkologist tirelessly studied the dialect system of the Turkic languages, attracted common dialectological units and their directions to comparative linguistic research.

The researcher notes that a comparative study of the phonetics of common Turkic languages provides valuable facts for identifying their general patterns of development, similarities and differences in each of these languages.

As the literary languages of Turkish developed, the process of defining individual language units at the dialectal level expanded, and morphological categories are no exception in this respect. As at other levels of the language, individual elements (morphological features) are treated as a fact of the dialect in its morphological structure.

Countless lexical units play an important role in the in-depth study of the literary languages or dialects of modern Turkic peoples, and at the same time their historical and ethnogenetic roots, relying on the lexical base of all Turkic languages, it is pos-

sible to identify cases of integration observed in dialects and dialects of related languages.

The researcher rightly concludes that, it was the Turks who for the first time in the history of mankind discovered various professions for themselves, the Turkic peoples gave different names to these professions and to the tools and instruments used in these professions and these names have been passed a millennia and at the same time have been integrated into the Turkic languages and dialects and have reached our modern times.Studying the structural-semantic, lexical-semantic characteristics of all these lexical units in the dialects of the Turkic languages, one can reveal how close the Turkic peoples are to each other in linguistic and ethnographic terms.

The studies of Professor Mahira Huseynova on the mutual integration of phonetic, lexical and grammatical features of dialects and accents of common Turkic languages is a great achievement of our linguistics in the period of independence.

Keywords: common Turkic languages, related languages, dialects and accents, mutual integration, language units

İstifadə edilmiş ədəbiyyat

1. Əzizov, E. İ. Azərbaycan dilinin tarixi dialektologiyası, Bakı: Elm və təhsil, -2016.-348 s.

2. Hüseynova, M. Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası, Bakı: ADPU nəşriyyatı, - 2020. - 600 s.

3. Kazımov, İ. Müasir türk dillərinin müqayisəli leksikası, Bakı: Elm və təhsil, -2012.-315 s.

4. Məmmədli, N. Ümumtürk dilləri dialekt və şivələrinin öyrənilməsinə dəyərli töhfə// Bakı:, "Xalq qəzeti", -16 mart 2022. –s.11.

Маарифа Нух кызы Манафова

ВЗАИМНАЯ ИНТЕГРАЦИЯ ДИАЛЕКТОВ И ПРОИЗНОШЕНИЙ ОБЩЕТЮРКСКИХ ЯЗЫКОВ (В исследованиях профессора Махиры Гусейновой)

В изучении вопросов взаимной интеграции диалектов и произношений общетюркских языков великая заслуга принадлежит профессору Махире Гусейновой. Известный тюрколог неустанно изучала систему диалектов тюркских языков и привлекала к лингвистическому изучению общих диалектологических единиц и их ареалов в сравнительной форме.

Исследователь отмечает, что сравнительное изучение фонетики общетюркских языков дает ценные факты для выявления общих закономерностей развития, сходства и отличия каждого из этих языков.

По мере развития литературы тюркских языков процесс идентификации отдельных языковых единиц в пределах диалекта расширялся, и

морфологические категории в этом отношении не являются исключением. Как и в других ярусах языка, в его морфологической структуре отдельные элементы (морфологические признаки) обрабатывались как диалектный факт.

Немаловажную роль в углубленном изучении литературных языков или диалектов современных тюркских народов, а вместе с тем и их историко-этногенетических корней, играют и бесчисленные лексические единицы, и, опираясь на лексическую базу общетюркских языков, можно выявить случаи интеграции, наблюдаемые в диалектах и произношениях родственных языков.

Исследователь справедливо приходит к выводу, что именно турки впервые в истории человечества открыли различные профессии, и именно тюркские народы дали этим профессиям, инструментам и средствам, используемым в этих профессиях, различные названия. Данные названия, проходя через тысячелетия и в то же время интегрированные в тюркские языки и диалекты, дошли до нашего времени. Изучая структурно-семантические, лексико-семантические признаки всех этих лексических единиц в диалектах тюркских языков, можно выявить, насколько близки тюркские народы друг к другу в языковом и этнографическом отношении.

Исследования профессора Махиры Гусейновой взаимной интеграции фонетических, лексических и грамматических особенностей диалектов и произношений общетюркских языков являются большим достижением нашей лингвистики периода независимости.

Ключевые слова: общетюркские языки, родственные языки, диалекты и произношения, взаимная интеграция, языковые единицы

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Rəhilə Məmmədosa
tərəfindən çapa tövsiyə olunmuşdur

QULİYEVA ƏNTİQƏ N
Bakı Dövlət Universiteti
quliyeva.entiqe@bk.ru

XIX ƏSR AZƏRBAYCAN DILÇILIYININ GÖRKƏMLI NÜMAYƏNDƏLƏRI: MIRZƏ CƏFƏR TOPÇUBAŞOV VƏ MIRZƏ CƏFƏR RZAYEV

XÜLASƏ

XIX əsrin əvvəllərində Azərbaycanda poliqlotluğu, mədəniyyəti ilə seçilən görkəmli ziyalı alim M.C.Topçubaşov olmuşdur. Müəllif ömrünün 45 ilini Şərq dilləri institutunda müəllimliyə və tərcüməçiliyə həsr etmişdir. 1869-cu ildə şəxsi vəsaiti hesabına hüquqşünaslıq sahəsində ən yaxşı əsər yazan tələbəyə 100 manat məbləğində mükafat təsis etmək üçün yuxarı təşkilatlara müraciət edir. Onun təklifi qəbul edilərək imperatorun imzası ilə "Topçubaşov mükafatı" təsis edilir. M.C.Topçubaşovun dilçi kimi fəaliyyəti də olduqca maraqlıdır. Müəllimlərin fars dilini öyrənməsində mühüm xidmətləri olmuşdur. F.Şarmua M.C.Topçubaşovdan fars dilini mükəmməl öyrənmiş və fransız dilində "Fars dilinin qrammatikası" əsərini yazmışdır. XIX əsrin bir digər görkəmli nümayəndəsi M.C.Rzayevin elmi irsinin araşdırılmasında Nadir Məmmədovun xüsusi xidmətləri olmuşdur. M.C.Rzayev şifahi nitq vərdişlərinin inkişafına diqqət edərək, 1882-ci ildə "Farsca-rusca danışıq kitabı" adlı əsərini hazırlayır və 1883-cü ildə Kazanda nəşr etdirir. Əsərdə müəllif qeyd edir ki, dili nəzəri baxımdan öyrənmək o dili mənimsəmək deyil, dili tam mənimsəmək üçün şifahi nitq vərdişlərinə yiyələnmək lazımdır. Dərslik fars dilinin mükəmməl mənimsənilməsində mühüm rol oynayır. Müəllif bu əsərində verdiyi xülasələrlə kifayətlənməmiş, 1884-cü ildə "Fars dilinin qısa qrammatikası" adlı əsərini yazmışdır. Əsər həm tələbələrə, həm də müəllimlərə fars dilini öyrənmək üçün yarayırdı.

Açar sözlər: M.C.Topçubaşov, dilçilik, M.C.Rzayev, Farsca-rusca danışıq kitabı.

XIX əsrin əvvəllərində Mirzə Cəfər Topçubaşov poliqlotluğu, mədəniyyəti ilə seçilən ziyalı kimi şöhrət qazanmışdır. Mirzə Cəfər Topçubaşov Gəncədə anadan olmuşdur. Tiflis mədrəsəsində təhsil alıb, rus dili ilə yanaşı gürcü və erməni dillərini də mükəmməl bilirdi. Şəxsi mütaliəsi sayəsində ərəb, fars və türk dillərini də öyrənmişdir. 1849-cu ildən 1867-ci ilə qədər Rusiya Xarici İşlər Nazirliyinin Asiya departamentinin Şərq dilləri institutunun fars dili üzrə professoru kimi fəaliyyət göstərmişdir. O, bu vəzifədə olarkən fars dilində yazılmış rəsmi sənəd və ədəbiyyatı rus dilinə tərcümə etmişdir. Ömrünün 45 ilini Şərq dilləri institutunda müəllimlik və tərcüməçiliyə həsr etmişdir.

Rusiya Xarici İşlər Nazirliyi Asiya departamentinin direktoru, rus şərqşünası M.A.Qamazov öz müəllimi M.C.Topçubaşov haqqında yazır: "Həm bizim institutda,

həm də universitetdə fars dilini Avropa təhsili astanasına qədəm qoymamış bir şəxs öyrədirdi. O müəllim Mirzə Cəfər Topçubaşov idi. Onun təlimi olduqca parlaq nəticələr vermiş və dinləyicilərin nəzər-diqqətində ömürlük dərin izlər buraxmışdır. Vaxtilə Mirzə Cəfərin tələbəsi olmuş, indi isə universitetin fars dili müəllimi olan mən və mənim fakültə yoldaşlarım da bunu etiraf etməkdən imtina etmirik... Avropa təhsili görməmiş təkcə bu şəxsin səpmiş olduğu toxumlar ən kamil təhsil metodunun belə iftixar edə biləcəyi bəhrələr vermiş, onun tələbələrinin sonralar həmin toxumlar sayəsində fars dilini mükəmməl surətdə öyrənmələrinə imkan yaratmışdır" [3, s, 424].

1869-cu ildə şəxsi vəsaiti hesabına hüquqşünaslıq sahəsində ən yaxşı əsər yazan tələbəyə 100 manat məbləğində mükafat təsis etmək üçün yuxarı təşkilatlara etdiyi təklifi qəbul edilərək imperatorun imzası ilə "Topçubaşov mükafatı" təsis edilmişdir. Həmçinin Topçubaşov Rusiyada yaratdığı Arxeologiya və Numizmatika cəmiyyətinin də rəhbəri olmuşdur. 1852-ci ildən 1857-ci ilə qədər sədr olduğu bu cəmiyyətin elmi "Xəbərlərini" nəşr etdirib və burada Azərbaycanın arxeologiyası haqqında məqalələri, "Kitabi-Dədə-Qorqud" və s. dastanlardan tərcümələri nəşr etdirib.

M.C.Topçubaşovun dilçilik fəaliyyəti də olduqca maraqlıdır. Topçubaşovun müəllimlərin fars dilini öyrənməsində mühüm xidmətləri olmuşdur. Belə ki, F.Şarmua M.C.Topçubaşovdan fars dilini mükəmməl öyrənməsi əsasında fransız dilində "Fars dilinin qrammatikası" kitabını yazmışdır. Topçubaşov bu əsəri yüksək qiymətləndirirdi. Müəllif elmdə hər zaman obyektiv mövqe tutmuşdur. Lazım gəldikdə rus alimlərinin elmi əsərlərini tənqid etməkdən çəkinmirdi.

Müəllif A.Boldırevin fars dilinin tədrisi üçün tərtib etdiyi müntəxəbatın müsbət cəhətlərini qeyd etməklə yanaşı, nöqsanlarını da tənqid etmişdi. "Teleskop" jurnalının 1834-cü il 21-ci hissəsində yazırdı: "Consun və Kolbrukun əsərləri Avropada hələ dünənə qədər, guya insan həyatının mənəvi inkişafında heç bir uğur qazanmayan və buna görə də nadan hesab edilən Şərq xalqlarının xarici və daxili həyatını yaxından öyrənmək arzusunu daha da gücləndirdi və bunun nəticəsində Avropanın başlıca şəhərlərində: Kmebricdə, Londonda, Parisdə, Vyanada, Leydendə, Bonnda, Berlində, Sankt-Peterburqda və digər şəhərlərdə ərəb, fars, türk, çin, sanskrit, hind və s. Şərq dilləri kafedraları meydana gəldi [1, s, 95].

M.C.Topçubaşov qahirəli ərəb Məhəmməd Şeyx Təntəvinin fars dilinin öyrənməsinə kömək etmişdi. M.Ş.Təntəvi "Gülüstan" əsərini mükəmməl mənimsədikdən sonra onu farscadan ərəbcəyə tərcümə edib. Bu işdə M.C.Topçubaşovun da köməyi qeyd edilməlidir.

Akademiklər B.A.Dorn, X.D.Fren və F.B.Şarmua ilə birlikdə Mirzə Cəfər Şərq əlyəzmalarının kataloqunu tərtib etmişdilər. Mirzə Kazımbəy 1852-ci ildə "Sovremennik" jurnalında nəşr edilmiş məqaləsində həmin kataloqu rus şərqşünaslığının mühüm qələbəsi hesab edərək bunu "Avropada bu tipli ilk ədəbi hadisə" adlandırırdı. Kataloqun Avropada meydana çıxan analoji əsərlərdən

üstünlüyünü göstərən alim öz fikrini belə əsaslandırırdı ki, “Frenin, Mirzə Cəfərin, Şarmua və Dornun təkcə adları bu sahədə ən inanılmış təminat sayıla bilər” [2, s, 19].

M.C.Topçubaşov Azərbaycanın görkəmli alimi A.Bakıxanovla da yaxından tanış idi. Peterburqdan vətənə qayıdan A.Bakıxanovun "Əsrarül-məlәkut" traktatının son səhifəsinə yazdığı lakonik "Mirzə Cəfər üçün “Quba corabı və Füzuli divanı" qeydi XIX əsr Azərbaycan elmi fikrinin bu iki görkəmli nümayəndəsinin Şimal paytaxtındakı söhbətlərinin, fikir mübadilələrinin xarakterinə, məzmununa da müəyyən aydınlıq gətirir. Soyuq Şimalı özünə ikinci vətən seçən Mirzə Cəfər də, bir neçə aylığa Neva sahillərində qalan Abbasqulu ağa da cah-cəlallı, əyləncəli Peterburqda Füzuli sözünün odu ilə isinmişdilər... [2, s, 20]

M.C.Topçubaşov bilirdi ki, şərq dillərini mükəmməl öyrənmək üçün oxunan mühazirələr, yazılan qrammatika və dərsliklər kifayət etmir, şərq dilləri haqqında rus dilində dərsliklər və qrammatikalar yazılmalıdır. Azərbaycan dilçisi bu məsələ haqqında öz fikirlərini açıq deməkdən çəkinməmişdi: “Nəzərə çarpan cəhət bir də odur ki, Avropada çoxdan öyrənilən və son dövrlərdə tədris edilən başqa dillərə nisbətən ərəb, fars və türk dilləri üzrə daha az vəsait yaradılmışdır. Bizim vətəndə Şərq dilləri kafedraları Avropaya nisbətən daha sonralar yaradılmış və bu dilləri öyrənmək üçün heç bir vəsait nəşr edilməmişdir. Bizdə bu çatışmazlıq ona görə daha çox hiss olunur ki, öyrənmək istəyənlər bu sahəyə aid Avropada çap olunmuş kitablardan istifadə edə bilmirlər. Əvvəla, onlar çox baha və nadir kitablardır, ikincisi, bu kitabların çoxu latın və ingilis dillərində yazılmışdır ki, bu dillər dinləyicilər üçün öyrənmək istədikləri Asiya dilləri qədər naməlum idi. Bu çətinliklər Şərqin sirlərini öyrənmək istəyənlərin çoxunu işdən yayındırır. Buna görə də onların onsuz da az olan sayı çox ləng artir” [3, s, 425].

Mirzə Cəfər Rzayev. Mirzə Cəfər Rzayevin elmi irsinin aşkarlanmasında Nadir Məmmədovun əməyini xüsusi qeyd etmək lazımdır. Nadir Məmmədov Moskva kitabxanaları və arxivlərində saxlanan əlyazmaları, çap edilmiş sənədləri araşdıraraq “Moskva Şərq dilləri institutunun azərbaycanlı alimləri” adı altında monoqrafiya yazmışdır. Bu kitabda bir sıra Azərbaycan dilçiləri ilə bərabər Mirzə Cəfər Rzayevin yaradıcılığı haqqında məlumata yer verilmişdir.

Mirzə Cəfər Rzayev 1876-cı ildə Lazarev Şərq dilləri institutunda fars dili müəllimi kimi fəaliyyət göstərir. Müəllif burada fars və Azərbaycan dillərindən dərs deyən türkiyəli yunan S.E.Sakovla dost olmuş və onun bu dilləri öyrənməsinə köməklik göstərmişdir. Mirzə Cəfərə qədər fars dili dərsləri qəzet materialları, “Kəlilə və Dimnə”, Sədinin “Gülüstan” əsəri əsasında aparılırdı. Mirzə Cəfər bu institutda müəllim kimi fəaliyyət göstərdikdən sonra fars və Azərbaycan dillərinin tədrisində inkişaf özünü göstərirdi. Müəllif şifahi nitq vərdişlərinin inkişafına da diqqət yetirərək, 1882-ci ildə “Farsca-rusca danışıq kitabı” adlı əsərini hazırlayır və əsər 1883-cü ildə Kazanda nəşr edilir. Müəllif qeyd edirdi ki, dili nəzəri baxımdan öyrənmək o dili mənimsəmək deyil, dili mənimsəmək üçün şifahi nitq vərdişlərini qazanmaq lazımdır. Bu əsərdə oxuyuruq: “Xüsusilə xarici ölkə mütəxəssislərinin

qibtə olunacaq dərəcədə nəzəri savadı var, ancaq şərq ədəbiyyatı haqqında elmi fikir yürüdən bu nəzəriyyəşünaslar canlı şərq adamı ilə danışmağa çətinlik çəkirlər, ifadələri tanınmaz şəkilə salır, qol-qanadını qırır, mənanı tamamilə təhrif edirlər. Nəzəri bilik canlı danışıq üçün kifayət deyil." [3, s, 434].

Kitabda 45 dərsə yer verilib. Hər dərsdə qrammatik material, oxu mətni, sual-cavab (mükalimə), şifahi və yazılı çalışmalar, minimum lüğət ehtiyatı təqdim edilir. Bunlardan başqa, hər dərsdə kalliqrafik nümunələr də verilir ki, bu da əsərin qiymətini artırır. Bütün bunlar fars dilinin mənimsənilməsini yüksəldirdi.

Dərslərin mövzusu gündəlik həyat və məişətdən götürülürdü: ev və ev əşyaları, qab-qacaq, pal-paltar, ev heyvan və quşları, çöl heyvanları, sürünənlər və suda-quruda yaşayanlar, yabanı quşlar, zərgərlik və bəzək məmulatları, İran pulları, çəki ölçüləri, dünya və ölkələr haqqında məlumat, ticarət və İranda ticarət, əkinçilik, maldarlıq, bağçılıq, quşçuluq, meyvə-tərəvəz, İranda oyun və oyuncaqlar, həftənin günləri, aylar, fəsillər, faydalı qazıntılar, metallar və minerallar, hava, yemək və içmək, bədən üzvləri, qohum-əqrəba və s. Hər dərsdə mətndən sonra Sədi və ya Hafizdən ibrətamiz nümunələr verilir. Mükalimələr didaktikanın bütün qaydalarına cavab verir; sual-cavablar həm idrakı, həm də metodik səciyyə daşıyır [3, s, 434-435].

Mirzə Cəfər Rzayev "Farsca-rusca danışıq kitabı" əsərində verdiyi xülasələrlə kifayətlənməmiş, 1884-cü ildə "Краткая грамматика персидского языка" (Fars dilinin qısa qrammatikası) adlı kitabını çap etdirmişdir. Əsərdən təkcə dərslik kimi yox, həm də fars dilini öyrənmək üçün istifadə etmək mümkün idi. Kitab həm tələbələrə, həm də müəllimlərə fars dilini öyrənmək üçün yarayırdı.

Görkəmli şərqşünas alim F.Y.Korş əsəri yüksək qiymətləndirərək onun təkmilləşməsində müəllifə kömək etmişdi. Bundan sonra əsər 1900-cü ildə təkmilləşmiş şəkildə yenidən nəşr edildi. İki hissədən ibarət olan "Fars dilinin qrammatikası"nın müqəddiməsində yazır: "Əldə olan fars dili dərslikləri çatışmazlıqlarla doludur. Fars dilini praktik şəkildə öyrənmək üçün bütün tələblərə cavab verə biləcək bircə dərsliyə rast gəlməmişəm. Bunu nəzərə alaraq Fars dilini öyrənməyə başlayanlar üçün rus transkripsiyası ilə bu dilin əsas qrammatik qayda və qanunlarının qısa şərhini verən kitab hazırlamışam. Şübhə etmirəm ki, bu qrammatika və danışıq kitablarının köməyi ilə çox qısa vaxt ərzində fikirlərini fars dilində düzgün və sərbəst ifadə edəcəklər" [1, s, 97-98].

Bu qrammatikada da morfologiyaya daha çox yer verilmişdir. Sintaksisdə isə cümlə və cümlə quruluşu məsələləri izah edilir. Əsərin başlanğıcında fars dilinin qrammatik qaydaları, əlifba, vurğu haqqında məlumat verilir, oxu və yazı nümunələri verilir. Əsas nitq hissələrindən sifət, say, əvəzlik və feillərdən bəhs olunur. Zərf, zərfin növləri, qoşma və növləri, bağlayıcı və onun növləri haqqında məlumat verilir. Əsərin ikinci hissəsində isə morfoloji yolla söz yaradıcılığından bəhs olunur.

Mirzə Cəfər Rzayevin də xristianlığı qəbul etməsi faktı onun bir alim kimi elmi irsinin araşdırılmasında çətinlik törətdiyi kimi, şəxsiyyətinin müəyyənləşdirilməsində

də dolaşıqlığa səbəb olmuşdur. Bəzi mənbələrdə onun adı Artyom, soyadı Ter-Zaxarov kimi verilmişdir. Müxtəlif əsərlərinin axırındakı imzalara görə onu mənbə və kataqloqlarda Mirzə Cəfər Rzayev, Mirzə Cəfər İrani, Mirzə Cəfərxan İrani, Mirzə Cəfərxan Rzayev, Mirzə Abdulla Cəfərov və s. kimi təqdim edirlər [1, s, 98-99].

İstifadə olunmuş ədəbiyyat:

1.Babayev A. Azərbaycan dilçiliyinin tarixi, Bakı: Mütərcim, 2015, 338 s.
2.Quliyev V. Tarixdə iz qoyan şəxsiyyətlər, Bakı: Ozan, 2000, 583 s.
3.Rəcəbli Ə. Dilçilik tarixi, Bakı: Nurlan, 2006, 616 s.

Guliyeva Antiga

Prominent representatives of 19th century Azerbaijani linguictics: M.C.Topchubashov and M.C.Rzayev

Summary

At the beginning of the 19th century, there was M.C.Topchubashov an outstanding intellectual scientist who stood out for his polyglotness and culture in Azerbaijan. The author devoted 45 years of his life to teaching and translating at the Institute of Oriental Languages. In 1869, at the expense of his personal funds, he applied to higher organizations to establish a prize of 100 manats for the student who wrote the best work in the field of jurisprudence. His proposal was accepted abd the "Topchubashov Award" was established with the emperor's signature. M.C.Topchubashov's activity as a linguist is also quite interesting. Teachers have had important services in learning the Persian language. F.Sharmua learned the Persian language perfectly from M.C.Topchubashov and wrote the work "Grammar of the Persian language" in French. Another prominent representative of the 19th century, Nadir Mammadov had special services in researching of M.C.Rzayev. M.C.Rzayev paid attention to the development of oral speech habits and prepared his work "Persian-Russian conversation book" in 1882 and published it in Kazab in 1883. In the work the author notes that learning a language from a theoretical point of view is not mastering that language, but in order to fully master the language, it is necessary to master oral speech habits. The textbook plays an important role in mastering the Persian language. The author was not satisfied with the summaries given in this work, in 1884 he wrote a work called "A short Grammar of the Persian Language". The work was useful for both students and teachers to learn the Persian language.

Key words: M.C.Topchubashov, linguistics, M.C.Rzayev, Persian-russian conversation book.

Гулиева Антига

Видные представители азербайджанского языкознания XIX века: М.Ч.Топчубашов и М.Ч.Рзаев.

Резюме

В начале 19 века в Азербайджане был выдающийся ученый-интеллигент М.Ч.Топчубашов, выделявшийся своим полиглотством и культкрой. 45 лет своей жизни автор посвятил преподаванию и переводу в Институте восточных языков. В 1869 году за счет своих личных средств он обратился в высшие организации с ходатайством об учреждении премии в 100 манатов студенту, написавшему лучшую работу в области юриспруденции. Его предложение было приятно и за подписью императора была учреждена “премия Топчубашева”. Интересна и деятельность М.Ч.Топчубашова как лингвиста. Учителя оказали важную услугу в изучении персидского языка. Ф.Шармуа в совершенстве выучил персидский язык у М.Ч.Топчубащшова и написал труд “Грамматика персидского языка” на французском языке. Другой видный представитель XIX века Надир Мамедов имел особые заслуги в исследовании научного наследия М.Ч.Рзаева. М.Ч.Рзаев обратил внимание на развитие навыков устной речи и подготовил свой труд “Персидского-русская разговорная книга” в 1882г и издал его в Казани в 1883г. В работе автор отмечает, что изучение языка с теоретической точки зрения-это не овладение этим языком, а для полного овладение этим языком, а для полного овладения языком необходимо овладение навыками устной речи. Учебник играет важную роль в овладении персидским языком. Автора не удовлетворили изложенные в этой работе резюме, в 1884 году он написал труд под названием “Краткая грамматика персидского языка”. Работа была полезна как студентам, так и преподавателям при изучении персидского языка.

Ключевые слова: М.Ч.Топчубашов**,** лингвистика, М.Ч.Рзаев, Персидского-русская разговорная книга.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya elmlər namizədi, dosent Fikrət Şiriyev tərəfindən çapa tövsiyə olunmuşdur

LƏMAN HƏSƏNOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
böyük elmi işçi
lemanheseneli@gmail.com

TURİZM TERMİNOLOGİYASININ TƏRCÜMƏ ÜSULLARI

Xülasə

Sahə terminologiyasında terminlərin tərcüməsi əsas tədqiqat obyektlərindən biridir. Digər sahə terminologiyasında olduğu kimi, turizm terminlərinin də tərcüməsinin də spesifik cəhətləri vardır. Terminlərin tərcüməsinin dörd metodu qeyd olunur ki, bu metodlardan asılı olaraq terminlərin tərcümə üsulları müəyyənləşir. Həmin üsullar müxtəlif sahə, həmçinin turizm terminlərinin tərcüməsinə tətbiq olunur. Turizm terminlərinin tərcüməsinin birinci üsulu kimi həmin terminə ekvivalent tapmaqdır. Terminləri əvəz edə biləcək müvafiq vahid olmadıqda təsviri tərcümə üsuluna müraciət olunur. Bir sıra terminlərin tərcüməsi leksik transformasiya ilə verilir. Bu zaman ya ümumiləşdirmə, ya da konkretləşdirmə aparılır. Belə tərcümə transformasiya tərcüməsi adlandırılır. Transformasiya tərcüməsi obyekt dildə müvafiq qarşılıq olmadığı hallarda tətbiqini tapır. Konkretləşdirmə zamanı mənbə dildəki geniş mənalı termin obyekt dildə termin funksiyasını yerinə yetirən dar mənalı sözlə əvəz olunur. Ümumiləşdirmə bunun əksi olan prosesdir. Mənbə dildəki dar mənalı termin obyekt dilin müqayisədə geniş mənalı sözü ilə tərcümə edilir.

Açar sözləri: terminologiya, turizm terminləri, tərcümə üsulları, təsviri tərcümə, leksik transformasiya.

Terminologiyanın praktik məsələlərindən biri terminlərin tərcüməsi məsələsidir. Bu problem terminoqrafiya ilə çox bağlılığa malikdir. Terminlərin tərcüməsi, eyni zamanda tərcümə nəzəriyyəsi və praktikası ilə əlaqədardır.

Ayrı-ayrı sahə terminologiyalarında terminlərin tərcüməsi məsələsinə baxılır. Bu da eyni problemin fərqli sahələrdə araşdırılması üçün zəmin yaratmışdır. Tədqiqatlarda belə bir suala da cavab axtarmaq lazım gəlir ki, müxtəlif sahə terminlərinin tərcüməsi eyni bir problemə aiddir, yoxsa sahə terminlərinin tərcüməsinin spesifik cəhətləri vardır. Mahiyyət etibarı ilə terminlərin tərcüməsi ümumi problemdir və onun sahələrin fərqliliyi ilə bağlılığı yoxdur. Lakin bu müddəanın təsdiqi də konkret araşdırmalar tələb edir.

Beynəlxalq səviyyədə turizmin inkişafı və turist səfərlərində, əsasən, turistlərin, yəni sahə ilə bağlı olmayan şəxslərin iştirakı, onların turizm terminlərindən istifadə etməsi, turizm terminologiyasının dilin ümumişlək leksik qatına yaxınlığını, turizm terminologiyasında terminləşmə və determinləşmənin yüksək səviyyədə olduğunu təsdiq edir. Turizm diskursu olduqca geniş miqyas

almışdır. İşgüzar turizm fərqli sahə mütəxəssislərinin də turizmdə fəal iştirak etdiyini göstərir. Eyni zamanda, turizm xidmət sahəsi olduğundan burada terminlərin vahid sistemə gətirilməsi, onların hamı tərəfindən başa düşülən, dərk edilən olmasını tələb edir.

Terminlərin tərcüməsinin dörd metodu qeyd olunur: 1) terminin mədəni və dil ənənələrinə xas funksional ekvivalentinin seçilməsi; 2) hərfi tərcümə; 3) mənbə dilin termininin alınması; 4) neologizmin yaradılması [3, s. 11]. Bu metodlardan asılı olaraq terminlərin tərcümə üsulları müəyyənləşir. Həmin üsullar müxtəlif sahə, o cümlədən də turizm terminlərinin tərcüməsinə tətbiq olunur.

Turizm terminlərinin tərcüməsinin birinci üsulu mənbə dildəki terminin leksik ekvivalentini tapmağa əsaslanır. Bu üsulla tərcümə zamanı mənbə və obyekt dillərin fəaliyyət göstərdiyi ölkələrdə ictimai inkişafın səviyyəsində yaxınlıq nəzərə alınır. Alman dilindən *bewundern* turist termini Azərbaycan dilinə "heyran qalmaq" kimi tərcümə olunur. Turizm diskurslarında bu termin mədəni və tarixi abidələrə münasibət bildirmək, onların qiymətləndirmək zamanı istifadə edilir. İngilis dilinə tərcümə *to admire* feili ilə verilir.

Boat- gəmi, qayıq [1, s. 100]. Hər iki dildə turizm terminologiyasına daxil edilmiş söz (boat, qayıq) dilin ümumişlək leksik qatına aid olmuşdur. Ona görə də, tərcümədə terminin leksik qarşılığından istifadə edilir. Eyni qaydada boat trip birləşməsi tərcümə olunur: qayıq səyahəti. Qeyd etmək lazımdır ki, *trip* sözünün səyahət sözü ilə verilməsi kontekstdən asılıdır. Azərbaycan dilinə *trip* kontekstdən asılı olaraq qayıq gəzintisi şəklində də aparıla bilər. Dəniz, göl və çay sahilində yerləşən turist baza və otellərində turistlər üçün belə gəzintilər təşkil edilir. Bəzi turist bazalarında təhlükəsiz göl və çaylarda turistlərin özlərinin qayıq gəzintisinə çıxmasına icazə verilir. Qayıq səyahəti bir məntəqədən digərinə getməyi, ikinci məntəqədə gəzintidə olmağı və geri qayıtmanı özündə birləşdirilir.

Boutique – kiçik dəbli maqazin, butik [1, s.105]. Butik mağazadan dəbdəbəsi, dizaynı ilə fərqlənir. Burada satışa çıxarılan mallar seçilən firmalara məxsus olur. Kiçik dəbli mağazalarda qiymət adi mağazadan bahalığı ilə diqqəti cəlb edir. Azərbaycan dilində müvafiq leksik qarşılıqlı yoxdur. Ona görə izahlı, yaxud definitiv mətn şəklində verilir: kiçik dəbli mağaza. Turizm sənayesində bahalı otellərin daxilində belə mağazalar fəaliyyət göstərir. Leksik qarşılığı olmadığına görə Azərbaycan dilində sözün alınması daha optimal tərcümə hesab edilir.

Stage – səhnə. Böyük otellərdə yeməkxana və zallarda quraşdırılır. Azərbaycan dilinə leksik qarşılığı verilməklə tərcümə edilir.

Travel – səyahət, səfər. Mənbə ingilis dilindən tərcümə edilən bu terminin Azərbaycan dilindəki qarşılığı leksik vahiddir. Həmin leksik vahid turizm terminologiyasına keçmişdir. Azərbaycan turizm terminologiyasında həm səyahət, həm də səfər istifadə edilir. Səyahət və səfər sözləri arasında məna çalarlığı fərqi hiss olunur. Səfər bir məntəqədən başqasına getmək, bir məntəqənin sərhədlərindən

kənara çıxmaq mənasında işlənir. Səyahət sözündə yerdəyişməni deyil, gəzib dalaşmağı qabardır.

Termin müxtəlif terminoloji birləşmələrin tərkibinə daxil ola bilir və yaxud yeni terminoloji söz birləşmələrinin yaradılmasında iştirak edir. Səyahət, səfər turizm terminologiyasının əsas terminlərindəndir. İngilis dilində *travel* eyni spesifikliyə malikdir. Adətən, əsas terminoloji vahid daha çox termin birləşməsinin tərkibində işlənir. Belə terminoloji birləşmənin tərkib elementi kimi terminin tərcüməsi həmin terminin ayrılıqda tərcüməsindən fərqlənə bilər.

Travel agency – turizm agentliyi, səyahət bürosu, tur-büro [1, s. 963]. Terminoloji birləşmənin birinci komponenti həm turizm, həm də səyahət sözü ilə verilmişdir. Aydındır ki, turizm və səyahət sözlərini tam eyniləşdirmək olmaz. Turizm daha geniş anlayışdır. Turizm təşkilatı həm səyahəti, həm də ekskursiyaları təşkil edir. Turizm agentliyi turist qrupu üçün lokal çərçivədə ekskursiya təşkil edir, başqa ölkədən gəlmiş turistlərin qəbulu, yerləşdirilməsi, onlara xidmət göstərilməsi və yola salınması işlərini görür. *Travel agency* terminoloji birləşməsinin tərcümə variantlarından birində agentlik, digərində büro sözündən istifadə olunmuşdur. Müxtəlif turizm təşkilatlarının, idarələrinin adlarının yaranmasında yerli ənənə riayət edilir. Azərbaycan dilinin daha əvvəlki turizm terminologiyasında büro, idarə terminləri agentlik sözü ilə müqayisədə daha işlək olmuşdur.

Travel ingilis dilində isim, sifət və feil funksiyasında çıxış edir. İngilis turizm mətnlərində bu terminin hansı halda konkret hansı məna daşıması tərcümədə nəzərə alınmalıdır.

Traveller - səyyah, səyahətçi. Leksik qarşılıqlar arxaik turizm terminlərini göstərir. Terminoloji kontekstdə müasir dövrdə işlənən traveller termini turist termini ilə tərcümə edilir. Bununla belə, kontekstdə sözün səyyah və səyahətçi mənaları da işlədilə bilər.

Terminin tərcüməsi iki mərhələli prosesdir. Birinci mərhələdə mənbə dildə terminin, kontekstdəki mənası aydınlaşdırılır. İkinci mərhələdə bu məna obyekt dildə ifadə edilir. Bu halda terminin təcrid olunmuş şəkildəki tərcüməsindən deyil, kontekst daxilindəki tərcüməsi baş verir. Əslində, bu cür yanaşma termin üçün deyil, söz üçün məqbuldur. Çünki termin kontekstdən asılı olmamalıdır. Termin anlayışı ifadə etməlidir. Eyni anlayışın iki fərqli terminlə verilməsi terminin variativliyindən irəli gəlir. Termin kontekstdən asılı olduqda eyni terminin sahədə iki anlayışı bildirməsi halı meydana çıxır ki, bu da terminoloji sistemin nizama salınması prosesində həllini tapmalıdır.

Bu tərcümə söz səviyyəsinə uyğun gəlir. Terminoloji sistemdə qeyd edilən terminlərdən yalnız biri yer almalıdır. Buna baxmayaraq, Azərbaycan dilinin terminoloji sistemində, daha dəqiq desək, turizm terminologiyasında *səyyah, səyahətçi* və *turist* terminləri vardır. Məsələ ondadır ki, bu terminlərdən ikisi arxaikləşmişdir. Bir zamanlar bəzi şəxslər dünyanın bir çox ölkələrini gəzib müxtəlif xalqların həyatı, məişəti yaşadıqları yerlərlə tanış olmaqla məşğul olmuşlar.

Onlardan bəziləri bunu şəxsi təşəbbüsləri ilə həyata keçirmiş, digərləri isə bu işi tapşırıqla əməl etmişlər. Hazırda belə adamlara ehtiyac olmasa da, bəziləri səyyah kimi dünyanı yenə dolaşırlar. Müasir dövrdə turizm sənayesi mövcuddur və adamlar öz imkanları daxilində onlara təklif edilən xidmətdən istifadə edərək müxtəlif ölkələrə, yerlərə turist kimi gedirlər. Qeyd edilən terminlər turizm terminologiyasında istifadə olunur. Lakin onlardan yalnız biri müasir turizm terminologiyasında aparıcıdır və bu turist terminidir. İngilis dilində də traveller və tourist terminləri istifadə edilir. Onların arasından *tourist* termini terminoloji sistemin əsas vahidlərindən biridir.

Terminlərin tərcüməsinin yeddi üsulunun olduğunu V.Q.Mironova müasir rus tərcüməşünaslığına istinadla qeyd etmişdir. Onun fikrinə görə, bu üsullar aşağıdakılardır: "*1) leksik ekvivalentlə tərcümə; 2) semantik kalka; 3) struktur kalka; 4) alınmalar; 5) təsviri tərcümə; 6) mənbə dildəki terminin mənasının təsiri altında obyekt dilin lüğət tərkibindəki sözün terminə çevrilməsi; 7) leksik transformasiya."* [4]. L.Q.Mironovanın qeyd etdiyi yeddi üsuldan birincisinin şərhi yuxarıda verilmişdir. İkinci və üçüncü üsul kalka ilə bağlıdır. Terminlərin tərcüməsinin dördüncü üsulu alınmalıdır.

Terminlərin təsviri tərcüməsi üsulu obyekt dildə termini əvəz edə biləcək müvafiq vahid olmadıqda tətbiqini tapır. Bu üsulu konkret nümunələr əsasında nəzərdən keçirək.

Euroilpass- Avropa ölkələrinin çoxunda güzəştli dəmir yolu biletlərinin əldə edilməsi üçün kart. Kart sahibi yerin bronlaşdırılması, 1-ci klas gediş və s. üçün ödəmələr etmir" [2, s . 89]. Lüğətdən götürülmüş lüğət məqaləsində termin ingilis dilində olduğu şəkildə verilməmişdir. İngilis dilində termin Eurailpass formasındadır. Hazırda Eurail Global Passsistemi fəaliyyət göstərir. Bu kartı sistemə daxil olan Avropa ölkələrindən olmayan şəxslər ala bilərlər. Kart müxtəlif şərtlərlə satılır. Məsələn, beşgünlük ardıcıl səyahət kartı, bir aylıq səyahət kartı (ardıcıl və fərqli), çoxmüddətli səyahət kartı və s.

Lüğətə daxil edilmiş termində hərf səhvinə yol verilmişdir. Dəqiq yazılmış Eurailpass şəklindədir və burada orta mövqedə duran rail sözünün dəmir yolu və rels mənaları vardır. Pas sözü kontramarka (bilet əvəzinə verilən talon) [1, s. 640] mənası vardır. Aydın olur ki, termin Europe rail pass birləşməsindən birinci komponentin Eu başlanğıc elementi ilə digər iki sözün bitişdirilməsi yolu ilə düzəldilmişdir. Termin başqa dillərə təsviri şəkildə tərcümə edilir.

Turizm terminlərinin bir qismini bir söz və ya söz birləşməsi ilə ifadə etmək mümkün olsa da, onların definitiv təqdimatı, izahı lazım gəlir. Bu, obyekt dildə belə terminlərin işlənmədiyi, qarşılığı olmadığı hallarda vacibdir.

Packagetour– pəkic tur. Turist təşkilatı tərəfindən bir neçə gün ərzində turistə kompleks şəkildə göstərilən xidmət (nəqliyyat, yerləşmə, qidalanma, ekskursiya və s.) paketi [2, s. 170]. Azərbaycan turizm terminologiyasında *pəkic tur* termini alınma terminoloji birləşmə olaraq qəbul edilməmişdir. *Pəkic* (package) sözü başqa turizm

terminoloji birləşmələrində də istifadə olunur. Məsələn, *packageservice* (pəkic servis), package lunch (pəkic lanç) və s. Hər üç terminoloji birləşmədə işlənən *package* çoxmənalı sözdür. Pəkic tur terminoloji birləşməsində söz kompleks mənasındadır. Söz pəkic servis terminoloji birləşməsində də eyni mənada işlənmişdir.

Package lunch (pəkic lanç) termin söz birləşməsində isə söz qab, paket mənasındadır. Turistlər gün ərzində uzaq məsafəyə gəzintiyə, ekskursiyaya aparıldıqda və onların aparıldığı yerdə yemək xidməti göstərildikdə çıxış məntəqəsində turistlərə paketlənmiş, yaxud qablaşdırılmış quru yemək verilir. İngilis dilində bu, package lunchtermini ilə adlandırılır. Azərbaycan dilində turizm terminologiyasında rus dilindən "сухой паёк" terminlərindən kalka edilmiş quru yemək termini istifadə edilir.

Terminin definitiv, izahlı tərcüməsi həcminə görə böyük olur. Bəzən bütün izahın turist diskursunda tam verilməsi özünü doğrultmur. Belə hallarda izah mətnə əlavə və ya qeyd şəklində artırılır.

Terminlərin tərcüməsi zamanı mənbə dildəki terminin mənasına yaxın olan leksik vahiddən istifadə edilir. Obyekt dildən götürülən bu leksik vahid yeni terminoloji məna qazanır.

İngilis dilinin turizm terminologiyasında işlənən *snek-bar* termini yüngül, tez hazırlanan və hazır ərzaq (pendir, yağ, mürəbbə, cem, kolbasa, hazır kotlet və s.) təklif edən kafe-barı bildirir. Azərbaycan dilində bu terminin dəqiq qarşılığı olmadığı üçün onun yerinə dildə işlənən bufet sözündən istifadə edilir.

Bir sıra terminlərin tərcüməsi leksik transformasiya ilə verilir. Bu zaman ya ümumiləşdirmə, ya da konkretləşdirmə aparılır. Belə tərcümə transformasiya tərcüməsi adlandırılır. Transformasiya tərcüməsi obyekt dildə müvafiq qarşılıq olmadığı hallarda tətbiqini tapır. Konkretləşdirmə zamanı mənbə dildəki geniş mənalı termin obyekt dildə termin funksiyasını yerinə yetirən dar mənalı sözlə əvəz olunur. Ümumiləşdirmə bunun əksi olan prosesdir. Mənbə dildəki dar mənalı termin obyekt dilin müqayisədə geniş mənalı sözü ilə tərcümə edilir.

Tərcümənin əsas vəzifəsi mənbə dildə ötürülən informasiyanın obyekt dildə ekvivalent şəkildə ifadəsini tapmasıdır. Sahəyə aid mətnlərin tərcüməsi tələbi meydana çıxır. Əgər sözün tərcüməsi prosesində ekvivalentlik dərəcəsi dəyişə bilirsə, terminlərin tərcüməsində buna yol verilmir. Sahənin hər bir termini konkret anlayışı ifadə edir və bu sahənin terminoloji sisteminə daxil edilir. Termin obyekt dilə təsviri tərcümə edildikdə obyekt dilin terminoloji sistemində müvafiq anlayışın izahı yer alır. Təsviri tərcüməyə paralel olaraq mənbə dildən terminin alınması da baş verir. Alınma termin sonradan obyekt dildə daha sadə və anlaşıqlı formada salınır.

Terminlərin tərcüməsində spesifik bir hal da müşahidə edilir. Mənbə dildəki termin obyekt dilə müvafiq yazılışı ilə keçir. Bu hadisə transplantasiya adlandırılır. Mənbə dilin termini sanki kəsilib, qoparılıb obyekt dilin terminoloji sisteminə köçürülür.

A la carte. Qədim yunan dilindəki chartes sözündən olub latın (charta) və XV əsrdə fransız dilinə keçmişdir. İlkin mənası papirus, kağız list olmuşdur. Müasir turizm terminologiyasında hər bir qabdakı yeməyin ayrıcı qiymətləndirildiyi menyunu ifadə edir. Bahalı otellərdə yaşayan varlı turistlərə təklif ediləm yemək təminatı sistemi mənasında da işlənir.

Hazırda a la carte yalnız yeməklə deyil, digər xidmətlərlə bağlı da istifadə olunur.

Folio. Latın dilindən alınma sözdür. İlkin mənası yarpaq olmuşdur. Ortadan qatlanmış vərəq ölçüsündə olması qəbul edilmişdir. Müasir turizm terminologiyasında hesab qəbzi mənasında işlənir.

Chek in. Turistin mehmanxanaya gəlişinin qeydə alınması və onun otaqla təmin edilməsini ifadə edir. Hazırda bu termin tibb terminologiyasında da işlənir. Şəxsin, pasientin hərtərəfli tibbi yoxlamadan keçməsini bildirir.

ƏDƏBİYYAT

1. İngiliscə-Azərbaycanca lüğət. Bakı: KM mətbəəsi, 2012. – 1360 s.
2. Rəhimov, S. Beynəlxalq turizmdə işlədilən termin və anlayışların izahlı lüğəti (ingiliscə-azərbaycanca) / S.Rəhimov. – Bakı: ATİ nəşri, 2011. – 364 s.
3. Анисимова, А.Г. Методология перевода англоязычных терминов гуманитарных и обшественно-политических наук: Автореф. дисс. … док. филол. наук./А.Г.Анисимова. – Москва, МГУ, 2010. – 36с.
4. Миронова, В.Г. Терминология международного туризма и проблемы ее перевода /В.Г.Миронова//Литературоведение //https:// cyber le ninka.ru/article/n/terminologiya-mezhdunarodnogo-turizma-i-problemy-ee-perevoda

ГАСАНОВА Л.

СПОСОБЫ ПЕРЕВОДА ТЕРМИНОЛОГИИ ТУРИЗМА

Резюме

Перевод терминов в отраслевой терминологии является одним из основных объектов исследования. Как и в случае с другой отраслевой терминологией, перевод туристических терминов также имеет свои особенности. Упоминаются четыре способа перевода терминов, в зависимости от этих способов определяются способы перевода терминов. Эти методы применяются для перевода различных отраслевых и туристических терминов. Первый метод перевода терминов туризма заключается в том, чтобы найти эквивалент для этого термина. При отсутствии подходящей единицы, способной заменить термины, используется метод описательного перевода.

Перевод ряда терминов дан путем лексической трансформации. В это время выполняется либо обобщение, либо уточнение. Такой перевод называется трансформационным переводом. Трансформационный перевод используется в тех случаях, когда нет соответствующего аналога в объектном языке. При конкретизации широкий термин в исходном языке заменяется узким словом, выполняющим функцию термина в объектном языке. Обобщение – это обратный процесс. Термин с узким значением на исходном языке переводится словом с относительно широким значением на языке перевода.

Ключевые слова: терминология, термины туризма, приемы перевода, описательный перевод, лексическая трансформация.

L.HASANOVA

METHODS OF TRANSLATION OF TOURISM TERMINOLOGY

Summary

Translation of terms in field terminology is one of the main objects of research. As in the case of other field terminology, the translation of tourism terms also has its own characteristics. Four ways of translating terms are mentioned, depending on these methods, methods of translating terms are determined. These methods are used to translate various field and tourism terms. The first method of translating tourism terms is to find an equivalent for that term. In the absence of a suitable unit capable of replacing the terms, the method of descriptive translation is used. Translation of a number of terms is given by lexical transformation. At this time, either generalization or refinement is performed. Such a translation is called transformational translation. Transformational translation is used when there is no corresponding counterpart in the object language. When concretized, a broad term in the source language is replaced by a narrow word that performs the function of a term in the object language. Generalization is the reverse process. A term with a narrow meaning in the source language is translated by a word with a relatively broad meaning in the target language.

Keywords: terminology, tourism terms, translation techniques, descriptive translation, lexical transformation.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: fil.ü.f.d., dos. Vəfa Abdullayeva-Nəbiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNAZ VÜQAR QIZI İBRAHİMLİ
Bakı Dövlət Universiteti
E.mail: gulnazibrahimli660@gmail.com

FEİL DÜZƏLDƏN QOVUŞUQ QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

Müasir Azərbaycan dilində mövcud olan altı əsas nitq hissəsindən biri də feildir. Feillər lüğət tərkibinin, morfoloji imkanlarının və s. kimi digər xüsusiyyətlərinin zənginliyinə görə nitq hissələri arasında xüsusi mövqeyə malikdir. Feillər söz yaradıcılığı prosesində ən fəal iştirak edən nitq hissələrindən biridir.

Dilin tarixi inkişaf prosesində şəkilçilərin birləşməsi prosesi özünü göstərir. Bunlar müasir dilimizdə artıq qovuşmuş şəkilçi olaraq bir morfem kimi çıxış edir. Bu tip şəkilçilərin xüsusiyyətləri haqqında Ş.Hüseynov "Azərbaycan dilində qrammatik vahidlərin inkişafı" kitabının II fəslində ətraflı bəhs etmişdir. Müəllif qovuşuq şəkilçiləri birləşmə səviyyəsinə görə iki qrupa ayırır:

1. Sabit qovuşma
2. Zəif qovuşma.

"Sabit qovuşmalar tərkib hissələrinə parçalanmırlar. Onları yalnız diaxron tədqiqat nəticəsində müəyyənləşdirmək olur... Zəif qovuşmaların müasir dil baxımından tərkib hissələri məlumdur. Şərti olaraq onları parçalamaq mümkündür" (Ş.H, s 185).

Qeyd edək ki, həm ad, həm də feil düzəldən şəkilçilər arasında qovuşuq şəkilçilərə rast gəlmək mümkündür. Məsələn:

1. -ıntı[4]. Ad düzəldən və məhsuldar olan bu şəkilçi feildən isim düzəldən -ın[4] və -tı[4] şəkilçilərinin kombinasiyasından yaranmışdır: *tikinti, sıxıntı, qırıntı, sızıntı* və s.
2. -ılı[4]. Feillərdən ad düzəldən və qeyri-məhsuldar olan bu şəkilçi feillərdən ad düzəldən -ı[4] və adlardan ad düzəldən -lı[4] şəkilçilərinin birləşməsindən yaranmışdır: *biçili, süzülü* və s.
3. -ılda[4]. Təqlidi sözlərdən feil düzəldən bu şəkilçi -ıl[4] və -la[2] şəkilçilərinin birləşərək qovuşmasından əmələ gəlmişdir. "Burada birinci ünsürün sonundakı "l" səsinin təsiri altında -la, -lə şəkilçisinin "l" səsi dissimilyasiya edilərək "d" səsinə keçmiş və -da, -də şəklinə düşmüşdür (S.C, s 108). Məsələn, *xışılda(maq), sızılda(maq), qurulda(maq), cızılda(maq), gurulda(maq), zingildə(mək)* və s.

   Feil düzəldən qeyri-məhsuldar qovuşuq şəkilçiləri dilimizdə əhəmiyyətli yerə malikdir.

-imsə, -ümsə. Dilimizdə bu şəkilçiyə yalnız iki sözdə rast gəlinir: *mənimsə(mək), gülümsə(mək)*. Nümunələrdən göründüyü kimi, bu şəkilçi şəxs əvəzliyi və feildən yeni semantikalı feillər əmələ gətirir. Bu şəkilçi -ım, -üm və -sə

şəkilçilərinin birləşməsindən əmələ gələn qovuşuq qeyri-məhsuldar şəkilçidir. H.Mirzəyev -imsə, -ümsə şəkilçisindən bəhs edərkən -imsə şəkilçisindəki -im ilə -ümsə şəkilçisindəki -üm hissələrinin eyni şəkilçi olmadığını qeyd edir. Müəllif yazır: " -imsə şəkilçisindəki -im hissəsi tarixən sözdəyişdirici, -ümsə şəkilçisindəki -üm isə sözdüzəldici şəkilçi olmuşdur. Məlum olduğu kimi, -ümsə şəkilçisindəki -üm forması və bunun digər variantları tarixən dilimizdə həm isim, həm də sifət düzəltməyə xidmət etmişdir. Müasir dilimizdə işlənən *at-ım, it-im, iç-im, ud-um, öl-üm* sözləri buna misal ola bilər. Çox güman ki, *gülümsəmək* feilindəki -üm şəkilçisi də tarixən *ölüm*, *itim* sözlərində olduğu kimi, isim düzəltmiş (gülüm) və buna sonradan feil düzəldən -sə şəkilçisi artırılmışdır" (H.M, s 153). -imsə şəkilçisindəki -im komponenti yiyəlik-sahiblik bildirən şəkilçidir və həmin sözdə də bu məzmun açıq-aşkar görünür. Bu şəkilçilərin ikinci tərəfi, yəni -sə hissəsi hər iki şəkilçidə eyni xüsusiyyətə malikdir. Yəni hər iki şəkilçidə -sə hissəsi feil düzəltməyə xidmət edir.

Onu da qeyd edək ki, -sa[2] müasir dilimizdə bir neçə sözün yaranmasında iştirak edir. Məsələn, *susa(maq), qəribsə(mək)* və s. Bu baxımdan bu şəkilçinin özü də qeyri-məhsuldar hesab edilə bilər.

-lat, -lət. İki şəkilçinin qovuşaraq birlikdə işlənməsindən yaranmışdır: feil düzəldən -la, -lə və -t şəkilçisi. B.Serebrennikov və N.Hacıyeva şəkilçinin tərkibindəki -t hissəsinin icbar növ şəkilçisi olduğunu qeyd edirlər (Sereb, s 305). -lat, -lət şəkilçisi adlara əlavə olunaraq feil yaradan qeyri-məhsuldar qovuşuq şəkilçi kimi fəaliyyət göstərir. Məsələn, *keylət(mək), yüngüllət(mək), qalınlat(maq), cinlət(mək), çirklət(mək), aydınlat(maq)* və s. S.Cəfərov -lat, -lət şəkilçisindən bəhs edərkən yazır: "Bəzi hallarda -lan və -lət şəkilçilərinin köklərə qarışaraq itməsi hallarına təsadüf edilir. Bu hadisə əsas etibarilə köklərin arxaikləşməsi nəticəsində baş verir, məsələn, *aldat(maq)* və *aldan(maq)* sözlərində *al* kök olub *dan* və *dat* ünsürləri də *l* səsinin *d* səsinə keçməsilə -lat və -lan şəkilçilərindən törəmişdir. Vaxtilə "hiylə" mənasında işlənmiş *al* sözü müasir dilimizdə müstəqil olaraq bu mənada işlənmək hüququnu itirərək arxaikləşmişdir" (S.C, s 108). Lakin bizi maraqlandıran qeyri-məhsuldar -lat, -lət şəkilçisinin ayrılması heç də kökün arxaikləşməsi ilə bağlı deyil; burada -lat, -lət şəkilçilərinin qovuşması prosesi açıqdır. Çünki həmin sözlərin -la[2] ilə birləşmiş forması dilimizdə yoxdur. Ona görə də bu sözlər -lat[2] ilə düzəlnişdir.

Lakin demək lazımdır ki, qeyd edilən şəkilçilərin (-la[2] və -t) ardıcıllıqla sözə qoşulması müasir dilimizdə çox məhsuldardır. Məsələn, *başlat(maq), bellət(mək), cəmlət(mək), sərinlət(mək), çarpazlat(maq)* və s. Qeyd olunan nümunələrdəki sözlərin ilk baxışda -lat, -lət şəkilçisi qəbul etdiyini söyləmək mümkündür. Lakin bu sözləri tərkibinə görə təhlil etdikdə aydın olur ki, həmin sözlərdə bir yox, iki leksik şəkilçi işlənmişdir: *baş-la-t, bel-lə-t, cəm-lə-t, sərin-lə-t, çarpaz-la-t*. Həmin sözlərdəki birinci şəkilçi -la, -lə adlardan feil düzəldən, ikinci şəkilçi -t isə icbar növ və təsirsiz feildən təsirli feil yaradan leksik şəkilçidir.

-xala. Mürəkkəb struktura malik qeyri-məhsuldar şəkilçidir. -xa və -la şəkilçilərinin birləşməsi nəticəsində yaranmışdır. Məsələn, *çalxala(maq), ovxala(maq)* və s. Q.Kazımov bu şəkilçidən bəhs edərkən onun tərkib hissələri olan -xa və -la şəkilçilərinin eyni mənanın ifadəçiləri olduğunu qeyd edir. Müəllif yazır: "-xa şəkilçisi arxaikləşməkdə olduğundan onun işləndiyi sözlərə -la şəkilçisi də artırılır: *çalxamaq – çalxalamaq ovxamaq – ovxalamaq, yayxamaq – yayxalamaq* və s." (Q.K, s 172).

-ala, -ələ. Əsasən feillərdən, bəzən də adlardan feil yaradan qeyri-məhsuldar qovuşuq şəkilçilərdən biridir. -a və -la şəkilçilərinin kombinasiyasından əmələ gəlmişdir. Məsələn, *qovala(maq), ovala(maq), eşələ(mək), didələ(mək), üstələ(mək)* və s. Dilimizdə -ala, -ələ şəkilçisi ilə yaranan bəzi sözlər vardır ki, bu sözlərdəki şəkilçi kökə qarışaraq itmək üzrədir. Məsələn, *itələ(mək), yumala(maq), silkələ(mək)* və s.

-ızdır, -izdir, -uzdur, -üzdür. Qeyri məhsuldar -ız[4] şəkilçisi ilə məhsuldar -dır[4] şəkilçisinin birləşməsindən yaranan qovuşuq qeyri-məhsuldar şəkilçidir. Məsələn, *dadızdır(maq), damızdır(maq), yatızdır(maq), çimizdir(mək), əmizdir(mək), doğuzdur(maq), doyuzdur(maq), tutuzdur(maq)*. Fikrimizcə, -ızdır[4] şəkilçisinin birinci hissəsi r-z əvəzlənməsinin məhsulu, ikinci hissəsi olan -dır[4] feilin icbar növünün göstəricisidir. Yuxarıda göstərilən nümunələrdə icbar növ mənasının olması da bu fikri sübut edir.

-ızdır[4] şəkilçisi qəbul etmiş sözlər dilimizdə qeyri-məhsuldar -ız[4] şəkilçisi və feilin icbar növünün göstəricisi olan -dır[4] şəkilçisini qəbul etmiş sözlərlə zahirən oxşardır. Bu sözlər dilimizdə sayca azlıq təşkil edir. Məsələn, *ud-uz-dur*.

-ışdır, -işdir, -uşdur, -üşdür, -şdır. Dilimizdə işlənən qovuşuq qeyri-məhsuldar şəkilçilərdən biridir. Qarşılıq-birgəlik növün göstəricisi olan -ış[4] və təsirsiz feillərdən təsirli feil yaradan -dır[4] şəkilçilərinin sintezindən yaranmışdır. Göründüyü kimi, şəkilçinin yaranmasında iştirak edən hər iki tərəf ayrı-ayrılıqda məhsuldar şəkilçilərdir. Feillərin kökünə əlavə olunaraq yeni semantikalı feillər yaradır. Məsələn, *araşdır(maq), ovuşdur(maq), tıxışdır(maq), əzişdir(mək), təpişdir(mək) və s.* Müasir ədəbi dilimizdə bir qisim sözlər vardır ki, -ışdır[4] şəkilçisini qəbul etmiş sözlərlə zahirən oxşardır. Məsələn, *bitişdir(mək), döyüşdür(mək), vuruşdur(maq), uyuşdur(maq), danışdır(maq), barışdır(maq), qarışdır(maq)* və s. Göstərilən nümunələrdəki sözlərin hər biri zahirən -ışdır[4] şəkilçisi qəbul etmiş kimi görünsə də, bu sözləri tərkibinə görə təhlil etsək bunun doğru olmadığını görə bilərik. Qeyd olunan nümunədə ilk üç söz müstəqil işlənən -ış[4] və dır[4] şəkilçilərinin sözə əlavəsi ilə yaranmışdır: *bit-iş-dir, döy-üş-dür, vur-uş-dur.* Digər üç sözdə isə yalnız -dır[4] şəkilçisi işlənmişdir: *danış-dır, barış-dır, qarış-dır.* Bu sözlərin tərkibindəki "ış" hissəsi isə müstəqil şəkilçi deyil, sözün kökünün bir parçasıdır.

-xul. Zəif işlənmə tezliyinə malik qeyri-məhsuldar şəkilçidir. Müasir ədəbi dilimizdə yalnız *burxul(maq)* sözündə rast gəlinir. Bu şəkilçi *bur-ux-ul* sözündə olan

-ux şəkilçisi ilə -ul şəkilçisinin birləşib birlikdə işlənməsindən əmələ gəlmişdir. Şəkilçinin birinci hissəsi olan -ux şəkilçisində "u" saiti düşmüşdür. Hal-hazırda müasir ədəbi dilimizdə bütöv bir şəkilçi kimi -xul formasında işlənir. İ.Əsgərov şəkilçinin birinci hissəsinin təsirsiz feil düzəldən, ikinci hissəsinin isə növ düzəldən şəkilçi olduğunu qeyd edir (İ.Ə, s 115).

-dala, -dələ. Mürəkkəb quruluşa malik olan qeyri-məhsuldar şəkilçilərdən biridir. Bu şəkilçi -da, -də və -ala, -ələ şəkilçilərinin sintezindən formalaşmışdır. Dilimizdə *bükdələ(mək), basdala(maq), daldala(maq)* və s. sözlərin tərkibində rast gəlinir.

-sən, -sət. Feildən feil düzəldən qovuşuq qeyri-məhsuldar şəkilçilərdən biridir. -san şəkilçi morfemi -sə şəkilçisi ilə feilin qayıdış növünün göstəricisi olan -n şəkilçisinin birləşməsindən yaranmışdır. Bu şəkilçiyə *görsən(mək*) sözündə rast gəlinir. -sət şəkilçisi isə -sə şəkilçi morfemi və feildən feil yaradan -t şəkilçisinin kombinasıyasından əmələ gəlmişdir. Dilimizdə yalnız *görsət(mək)* sözündə rast gəlinir. Ədəbi dilimizdə bu söz *göstər(mək)* şəklində daha aktiv istifadə olunur.

-sın, -sin, -sun, -sün. Adlardan feil düzəldən -sı[4] şəkilçisi ilə feilin qayıdış növünün göstəricisi olan -n şəkilçisinin qovuşaraq birlikdə işlənməsindən yaranan qeyri-məhsuldar şəkilçidir. Məsələn, *doluxsun(maq), duruxsun(maq), umsun(maq), tamsın(maq), vaysın(maq)* və s. Nümunələrdən də göründüyü kimi, bu şəkilçi həm adlardan, həm də feillərdən yeni semantikalı feillər yaradır. S.Cəfərov -sın[4] şəkilçisindən bəhs edərkən yazır: "Bu şəkilçi bəzi türk dillərində -san, -sən formasında işlənir. Eyni zamanda bəzi türk dillərində -sa, -si şəkilçilərinin -sı, -sə, -su, -sü variantlarına rast gəlirik. Bunları nəzərə aldıqda -sın, -sin, -sun, -sün şəkilçisinin -sa, -sə şəkilçisi ilə qayıdış növ şəkilçisindən törəndiyini güman etmək olar" (S.C, s 119). Göstərilən nümunələrdə qayıdış növ məna çalarının olması deyilən fikrin doğruluğunu sübut edir.

-ümsün, -msın. Mürəkkəb struktura malik qeyri-məhsuldar şəkilçilərdən biridir. Müasir ədəbi dilimizdə *gülümsün(mək)* və *ağlamsın(maq)* sözlərində təsadüf olunur. -ım, -üm və -sın, -sün şəkilçilərinin birləşməsindən yaranan qovuşuq şəkilçidir. Bu şəkilçidən bəhs edərkən H.Mirzəyev yazır: "Türkoloji ədəbiyyatdan məlumdur ki, -sın[4] şəkilçisinin mənşəyi sa, sı sözləri tarixən kiçilmək, azalmaq mənalarını ifadə etmişdir. Deməli, *ağlamsındı* feilində kiçilmək, azalmaq mənasının olması bu şəkilçinin törədiyi sözün tarixən kiçilmək, azalmaq mənalarını ifadə etməsi ilə bağlıdır" (H.M, s 150).

Məqalənin əsas hissəsindən aydın olur ki, feil əmələ gətirən qovuşuq şəkilçilər rəngarəng xüsusiyyətlərə malikdir və say baxımından heç də az deyil. Həmçinin yuxarıda qeyd etdiyimiz kimi dilimizdə yalnız feil düzəldən yox, həmçinin ad düzəldən qovuşuq şəkilçilər mövcuddur. Söz yaradıcılığı ilə məşğul olan tədqiqatçılar qovuşuq şəkilçilər məsələsini daha dərindən araşdırmalı, həmin şəkilçiləri müxtəlif cəhətdən əsaslandırmalı və elmi nəticələrə gəlməlidirlər.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Elm", 2021, 756 s.
2. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1960, 204 s.
3. Əsgərov İ. Azərbaycan dilində məhsuldarlıq yaradan qeyri-məhsuldar şəkilçilər. Bakı, "Elm və Təhsil", 2015, 148 s.
4. Hüseynov Ş. Azərbaycan dilində qrammatik vahidlərin inkişafı (şəkilçilər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2003, 222 s.
5. Kazımov Q. Müasir Azərbaycan dili, Morfologiya. Bakı, "Elm və Təhsil", 2010, 400 s.
6. Mirzəyev H. Azərbaycan dilində feil. Bakı, "Maarif", 1986, 320 s.
7. Serebrennikov B, Hacıyeva N. Türk dillərinin müqayisəli tarixi qrammatikası. Bakı, "Səda", 2002, 380 s.

Açar sözlər: söz yaradıcılığı, feil, qovuşuq, qeyri-məhsuldar, şəkilçi
Ключевые слова: создание слов, глагол, соединённый, непродуктивный, суффикс
Key words: word creation, verb, conjunction, unproductive, suffix

Feil düzəldən qovuşuq qeyri-məhsuldar şəkilçilər

Xülasə

Müasir dilimizdə mövcud olan şəkilçilərin hər biri rəngarəng xüsusiyyətlərə malik olması ilə diqqəti cəlb edir. Dilimizdə mövcud olan bəzi şəkilçilərə məxsus xüsusiyyətlərdən biri də iki və daha artıq şəkilçinin birləşərək bir qovuşuq şəkilçi kimi işlənməsidir. İstər ad, istərsə də feil düzəldən şəkilçilər arasında qovuşuq şəkilçilərə rast gəlinir. Həmçinin qovuşuq şəkilçilər arasında məhsuldar və qeyri-məhsuldar şəkilçilər qrupunu da ayırmaq mümkündür. Bu cür şəkilçilərin əmələ gəlməsində iştirak edən şəkilçilərdə də məhsuldarlıq və qeyri-məhsuldarlıq xüsusiyyətinə rast gəlinir. Buradan da aydın olur ki, qovuşuq şəkilçilər özünəməxsus rəngarəng xüsusiyyətlərinin olması ilə digər şəkilçilərdən fərqlənir.

Bu məqalədə qovuşuq şəkilçilərin bir qismi olan feil düzəldən qeyri-məhsuldar şəkilçiləri nəzərdən keçirdik. Şəkilçilərin bu tipinin öyrənilməsi, fikrimizcə, dilçiliyimiz üçün olduqca zəruridir. Ona görə ki, şəkilçilərin bu növünün tədqiqata cəlb edilməsi dilimizin tarixində olan dəyişmə proseslərini, qrammatik vahidlərin formalaşma tendensiyasını dərindən izləməyə və qrammatik quruluşunun inkişaf istiqamətini düzgün müəyyənləşdirməyə kömək edər.

СОЕДИНИТЕЛЬНЫЕ НЕПРОДУКТИВНЫЕ СУФФИКСЫ, ОБРАЗУЮЩИЕ ГЛАГОЛЫ

РЕЗЮМЕ

Каждый из суффиксов в нашем современном языке привлекает внимание своими колоритными особенностями. Одной из особенностей некоторых суффиксов в нашем языке является то, что два или более суффикса объединяются в составной суффикс. Соединительные суффиксы встречаются между суффиксами, образующими как существительные, так и глаголы. Также среди спрягаемых суффиксов можно выделить группу продуктивных и непродуктивных суффиксов. В суффиксах, участвующих в образовании таких суффиксов, также обнаруживается признак продуктивности и непродуктивности. Отсюда также видно, что конъюнктивные суффиксы отличаются от других суффиксов наличием своих красочных признаков. В данной статье мы рассмотрели непродуктивные суффиксы, образующие глаголы, входящие в состав суффиксов спряжения. Изучение этого типа образности, на наш взгляд, очень необходимо для нашего языкознания. Потому что привлечение этого типа суффиксов к исследованию помогает глубоко проследить процессы изменения в истории нашего языка, тенденции образования грамматических единиц, правильно определить направление развития грамматического строя.

CONJUNCTIVE UNPRODUCTIVE SUFFIXES THAT FORM VERBS

SUMMARY

Each of the suffixes in our modern language attracts attention with its colorful features. One of the features of some suffixes in our language is that two or more suffixes are combined as a compound suffix. Conjunctive suffixes are found between suffixes forming both nouns and verbs. It is also possible to distinguish the group of productive and non-productive suffixes among conjugated suffixes. In the suffixes involved in the formation of such suffixes, the feature of productivity and non-productivity is also found. It is also clear from here that conjunctive suffixes differ from other suffixes by having their own colorful features. In this article, we have considered unproductive suffixes that form verbs, which are part of conjugation suffixes. The study of this type of imagery is, in our opinion, very necessary for our linguistics. Because the involvement of this type of suffixes in the research helps to deeply follow the change processes in the history of our language, the tendency of the formation of grammatical units, and to correctly determine the direction of the development of the grammatical structure.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: prof. Tofiq Hacıyev tərəfindən çapa tövsiyə olunmuşdur

MAHMUDAĞA SARIBALA OĞLU QASIMOV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Cəlilabad filialının baş müəllimi
E-mail: mahmudağa@mail.ru

CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ SAİT VƏ HECA DÜŞÜMÜ

XÜLASƏ

Məqalədə Cəlilabad rayonu şivələrində tələffüz zamanı baş verən bəzi fonetik hadisələrdən, xüsusən müəyyən sözlərdə sait və heca düşümündən danışılır. Göstərilir ki, rayonun şivələri öz spesifik xüsusiyyətləri və rəngarəng ləhcə formaları ilə diqqəti özünə cəlb edir. Buna səbəb bu əraziyə müxtəlif regionlardan köç edib daimi yaşamağa gəlmiş şəxslərin tələffüz fərqləridir. Onların ləhcə tərzi şivəmizdə müəyyən fərqli izlərin yaranmasına səbəb olmuşdur. Bu baxımdan şivəmiz başqa dialekt, ləhcə və şivələrdən öz spesifik cəhətlərinə görə seçilir. Burada sait və samit səslərin bir-birini əvəz etməsi, tələffüz zamanı sözlərdə sait, samit səsartımı, səsdüşümü, söz köklərində samitlərin qoşalaşması, müəyyən diftonqların özünü göstərməsi və s. kimi hallar mövcuddur. Odur ki, bu məqalədə Cəlilabad rayon şivələrində bəzi sözlərdə sait və heca düşümünü tədqiq etmiş, tapdığımız nümunələr əsasında verməyə çalışmışıq. Bildirik ki, şivəmizdəki bu halı hərtərəfli öyrənmək üçün rayonun bütün yaşayış obyektlərində olduq. Müxtəlif yaş kateqoriyasına məxsus insanların danışığına, etdiyi söhbətlərə diqqətlə qulaq asdıq və lazımi qeyd götürdük. Nəticədə rayonumuzun müxtəlif ərazisində-oykonimlərində yaşayan sakinlərin danışıq tərzi ilə yaxından tanış olduq. Dərk etdik ki, müşahidə zamanı öyrəndiyimiz faktlar dilimizi, onun orfoepik təzahürünü üzə çıxarmaq üçün çox maraqlıdır. Bu mənada apardığımız tədqiqat işini şərh etmək üçün rayonun müxtəlif ərazisində yaşayan sakinlərin tələffüzündə müşahidə etdiyimiz bəzi sözlərdə sait və heca düşümünü sistemli şəkildə verməli olduq.

Açar sözlər: söz, fonetik hadisə, dialekt, orfoepik, şivə, ləhcə, tələffüz, sait, səsdüşümü

"Azərbaycan dilinin orfoqrafiya lüğəti" sözlərin düzgün yazılışını özündə ehtiva edən, hər bir vətəndaşın istinad və istifadə edə biləcəyi bir mənbədir.(1,6) Lakin hər bir rayonun, dialekt və oykonimlərin özünəməxsus orfoepik danışıq xüsusiyyətləri var. Bu mənada Azərbaycanın müxtəlif yaşayış ərazisində fərqli ləhcələrə, tələffüz formalarına, bəzi fonotik hadisələrə rast gəlinir. (2, 99-100) Bunların içərisində Cəlilabad rayon şivələrinin tələffüzündəki xüsusiyyətlər maraq doğurur. Burada Yardımlı, Cənubi Azərbaycan, Salyan, Şamaxı, Füzuli, Neftçala, Masallı, Lerik, Lənkəran və s. kimi yerlərdən daimi yaşamağa gəlmiş şəxslərin danışıq

xüsusiyyətləri şivəmizdə müəyyən izlər qoymuşdur. (3, 70) Fikrimizi tədqiq etdiyimiz mövzuya uyğun aşağıdakı nümunələr əsasında şərh edə bilərik.

Saitlərin düşümü (eleziya)

Bu hal sözün vurğusuz hecasında, vurğunun əsasdan şəkilçiyə keçməsi hallarında və sözlərin birləşməsi nəticəsində olur. (4,27)

1. Sözün vurğusuz hecasında çox vaxt qapalı sait düşür. Bu da ən çox alınma sözlərdə olur. Məsələn: Xədicə-Xədcə//Xəccə, Hənifə-Hənfə, Səkinə-Səknə, Səlimə-Səlmə, Həlimə-Həlmə, cərimə-cərmə, çeviriş-çevriş, xəzinə-xəznə, xəlifə-xəlfə, ərizə-ərzə, hökumət-hökmət, mərifət-mərfət, müəllim-məllim, bəsirət-bəsrət, kəsimət-kəsmət (şərt mənasında), kulon-klon, kürümək-kürməy, müamilə-mamilə, etiket-etket, isinişmə-isnişmə, düzünə-düznə, düzülüş-düzlüş, penisillin-pensilin, filankəs-flankəs, müavin-mavin, müavinət-mavinət, müəllif-məllif, müəyyən-məyyən, müalicə-malicə, peşiman-peşman, yüyürük-yüyrüy, müayinə-mayinə//mainə, Həbibə-Həbbə, Mədinə-Mədnə, Vəsilə-Vəslə, veriliş-verliş, əliyalın-əlyalın, eyibli-eybli, həmişəki-həmşəki, orijinal-orjinal, ömür-ömrümüz, şəkil-şəklim, fikir-fikrim, isim-ismə və s.

Eləcə də sözdə **açıq saitlərin düşməsinə** də rast gəlmək olur. Məsələn: şəkil-şkil, televizor-telvizor, telefon-telfon//telfun//telfın, velosiped-velsiped , paroxod-praxod və s. (4,28)

2. Vurğunun əsasdan şəkilçi və ya **o biri söz üzərinə keçməsi** ilə sait düşür. Bu çox vaxt sonor səslə bitən ikihecalı sözlərə saitlə başlayan şəkilçi və ya söz əlavə edildikdə sözün axırıncı qapalı saiti **(ı, i, u, ü)** düşür. Məsələn:oğul- oğlum, oğlun, oğlu, oğla; noğul-noğlum, noğlun, noğlu, noğla; alın-alnım, alnun, alnı, alna; gəlin-gəlnim, gəlnün, gəlni, gəlnə; ömür- ömrüm, ömrün, ömrü, ömrə; ağız-ağzım, ağzın, ağzı, ağza; toyuq-toyğu, toyğa; soyuq-soyğu, soyğa; boyun-boynum, boynu; könül-könlüm, könlü; burun-burnu, burna; qayınana-qəynənə, qayınata-qəynata, küsülü-küslü, acıxəmrə-acxəmrə, acıtərə-actərə, eyib-eyb və s. (4,28-29)

3. Şivəmizdə məkan-istiqamət anlayışı bildirən **geri, irəli, bəri, yuxarı, ora, bura, hara** sözlərinə yerlik, çıxışlıq, bəzən də yönlük hal şəkilçiləri qoşulduqda sözün sonuncu saiti düşür. Məsələn: geriyə-geryə, irəliyə-irəlyə, bəriyə-bəryə, haraya-haryə, yuxarıda-yuxarda, oraya-oryə, ora-orda, oradan-ordan, oradakı-ordakı, harada-harda, haradan-hardan, burada-burda, buradan-burdan, buraya-buryə və s. (4, 29)

4. Qapalı saitlə **(ı, i, u, ü)** bitən sözlərə III şəxs mənsubiyyət şəkilçisi qoşulduqda sözün sonuncu saiti düşür. Məsələn: əmisi-əmsi, bibisi-bibsi, bibinəvəsi-bibnəvəsi, bacısı-bacsı, dayısı-daysı, ikisi-iksi, gəmisi-gəmsi, zəmisi-zəmsi, çəkisi-çəksi, hamısı-hamsı, çoxusu-çoxsu, ütüsü-ütsü, su quyusu-su quysu//su quysi və s. (4, 29)

5. Rayonumuzun yaşayış ərazilərində **l, r, n** səsləri ilə bitən fel köklərinə **qeyri- qəti gələcək zaman şəkilçisi qoşulduqda** I şəxs tək və cəmdə zaman şəkilçisindəki sait düşür. Məsələn: alaram-allam, gələrəm-gəlləm, gələrük-gəllük//gəllüy, dönərük-dönnük//dönnüy, dərərük-dərrük//dərrüy, bölərük-böllük//böllüy, ölərük-öllük//öllüy,

apararam-aparram, apararıq-aparruğ, salaram-sallam, minərəm-minnəm, minərük-minnük və s. (4,29)

6. Sözlərin birləşməsi nəticəsində (mürəkkəb sözlərdə) saitlərin düşməsi hadisəsi baş verir. Məsələn: əmidostu-əmdosdu, bibiqızı-bibqızı, bibioğlu-biboğlu, xalaoğlu-xaloğlu, dayıoğlu-dayoğlu, əmicanı-əmcanı, əmioğlu-əmoğlu, bibigəlini-bibgəlni, dayıgəlini-daygəlni, hacıleyləк-hacleyləк, yemişan-yemşan, qapı-baca-qapbaca, qapı-pəncərə-qappencərə, Hacıbaba-Hacbaba, Əzizağa-Əzzağa, Əzizulla-Əzzulla, Əmiraslan-Əmraslan// Əmirasdan//Əmrastan, Əliməmməd-Əlməmməd, Əliqulu-Əlqulu, Əlisurət-Əlsurət, Əlimərdan-Əlmərdan, Əlisahib-Əlsahib, Əlisoltan-Əlsoltan, Əlixan-Əlxan, Əlipaşa-Əlpaşa, Əlipənah-Əlpənah və s.

Eləcə də saitlə bitən sözə saitlə başlayan söz qoşub mürəkkəb söz yaradanda birinci tərəfin sonundakı sait düşür, ixtisar olunur. Məsələn: Əliəşrəf-Ələşrəf Əliəkbər-Ələkbər, Əliəsgər-Ələsgər, Əliabbas-Ələbbas, Əliəhməd-Ələhməd və s.

Sözün 2-ci hecasında **ı** və **i** saitlərinin **düşməsi**: Mirişəkən-Mirşəkən (Buravar kəndində yer adı), Əzizalı-Əzzalı, Alışan-Alşan, Şamılı-Şamlı (nəsil- tirə adı) və s. (4,29-30)

7**.** Feildən düzələn **düzəltmə feillərə** indiki zaman – **ır**[4] şəkilçiləri artırıldıqda sözün ikinci hecasında şəkilçidəki sait düşür. Məsələn: görünür-görnür, deyinir-deynir, geyinir-geynir, çəkinir-çəknir, sıxılır-sıxlır, yazışır-yazşır, deyilir-deylir, çəkilir-çəklir, görüşür-görşür, kəsilir-kəslir, sökülür-söklür, çəkişir-çəkşir, kəsişir-kəsşir və s. (4,30)

8. Sual əvəzlikləri ilə **eləmək, olmaq, etmək** köməkçi feillərinin birləşməsi nəticəsində sual əvəzliyinin saiti düşür. Məsələn, nə olar-nolar, nə elədün-neləd ün-neynədün//neylədün, nə olub - nolub, nə oldu - noldu, nə olsun - nolsun, nə edim - neynim, nə edirəm - neynirəm//neyniyəm, nə etmişəm - neynəmişəm, necə oldu - necoldu və s. (4,30-31)

9. Samitlə bitən, saitlə başlayan sözlərin birləşməsi nəticəsində ikinci sözün birinci saiti düşür. Məsələn: nə isə- nəsə, kim isə-kimsə, nə isə-nəsə//nəysə; nə işim-nəyşim//nəşim, nə işimə-nəyşimə//nəşimə, mən üçün-mənçün, sən üçün-sənçün, özüm üçün-özümçün, bizim üçün-bizimçün, özü üçün-özüyçün və s. (4,31)

Heca düşümü (qaplologiya)

Dialekt və şivələrimizdə olduğu kimi rayonumuzun müxtəlif ərazisindəki şivə və ləhcələrdə **heca düşümü** mövcuddur. Bu özünü **sözün** orta hecasının bütünlüklə deyil, **iki səsinin düşməsi ilə göstərir**. (5.73) Məsələn: əzəcəyəm-əzəcəm, gətirdi-gətdi, oturdu-otdu, götürdü-götdü, otursunlar-otusunlar//otsunnar, böyüklük-böylük, deyəcəyəm-deyəcəm//deəcəm//diyəcəm//diəcəm, alacağam-alacam, yeyəcəyəm-yeyəcəm//yeəcəm, gələcəyəm-gələcəm, gedəcəyəm-gedəcəm, dəqiqə-dəyqə//dəqə, biçəcəyəm-biçəcəm, bükəcəyəm-bükəcəm, satacağam-satacam, səpəcəyəm-səpəcəm, biləcəyəm-biləcəm, sökdürəcəyəm-sökdürəcəm, kəsəcəyəm-kəsəcəm, içəcəyəm-içəcəm, gördünüz-gördüz, oxudunuz-oxuduz, aldınız-alduz, əkdiniz-əkdüz, verəcəyəm-verəcəm, baxarsınız-

baxarsuz, səpdiniz-səpdüz, yediniz-yedüz, basdıracağam-basdıracam, ovunduracağam-ovunduracam//ounduracam və s. (4,31,32)

İstifadə olunan ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti, 6-cı nəşr, Bakı:"Şərq-Qərb", 2013, 839 səh.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, I hissə, Bakı: "Şərq-Qərb", 2007, 253 səh.
3. Qasımov M. Filologiya məsələləri. Cəlilabad rayonu şivələrində sait əvəzlənmələri, Bakı: "Elm və təhsil" 2022, N:6, 70-77 səh.
4. Qasımov M. Cəlilabad rayonunun bəzi şivə xüsusiyyətləri, Bakı: "Elm və təhsil", 2021, 115 səh.
5. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı: " Şərq Qərb", 2008, 421 səh.

М.Гасымов

РЕЗЮМЕ

ГЛАСНЫЕ И СЛОГИ ВЫПАДАЮТ В НЕКОТОРЫХ СЛОВАХ В ДЖАЛИЛАБАДСКИХ РЕГИОНАЛЬНЫХ ДИАЛЕКТАХ.

В статье рассказывается о некоторых фонетических явлениях, возникающих при произношении в говорах Джалилабадского района, особенно о падении гласных и слогов в некоторых словах. Показано, что диалекты региона привлекают внимание своими специфическими особенностями и колоритными диалектными формами. Причиной этого являются различия в произношении людей, переселившихся в эту местность из разных регионов и приехавших на постоянное жительство. Их диалектный стиль привел к появлению некоторых различных следов в нашем диалекте. С этой точки зрения наш язык отличается от других диалектов, говоров и диалектов своими специфическими аспектами. Здесь происходит замена гласных и согласных, подъем и опускание гласных и согласных в словах при произношении, парность согласных в корнях слов, появление некоторых дифтонгов и т. д. такие случаи есть.

Поэтому в этой статье мы изучили падение гласных и слогов в некоторых словах в диалектах Джалилабадского района и попытались привести их на основе найденных нами примеров. Допустим, мы посетили все жилые объекты области, чтобы досконально изучить эту ситуацию на нашем языке. Мы внимательно слушали разговоры людей разных возрастных групп и делали необходимые записи. В результате мы познакомились с речью жителей, проживающих в разных районах нашей области.

Мы поняли, что факты, которые мы узнали в ходе наблюдения, очень интересны для раскрытия нашего языка и его орфоэпического проявления. В этом смысле для интерпретации нашей исследовательской работы нам пришлось систематически давать гласное и слоговое произношение в

некоторых словах, которые мы наблюдали в произношении жителей, проживающих в разных районах района.

Ключевые слова: слова, фонетик совытие, диалект, орфоэпия, акцент, произнощение, гласный, согланый звук

M.GASYMOV

SUMMARY

VOWEL AND SYLLABLE FALL IN SOME WORDS IN JALILABAD REGIONAL DIALECTS

The article talks about some phonetic phenomena that occur during pronunciation in Jalilabad region dialects, especially the vowel and syllable drop in certain words. It is shown that the dialects of the region attract attention with their specific characteristics and colorful dialect forms. The reason for this is the pronunciation differences of people who migrated to this area from different regions and came to live permanently. Their dialect style has led to the emergence of certain different traces in our dialect. From this point of view, our language is distinguished from other dialects, dialects and dialects due to its specific aspects. Here, vowels and consonants are replaced, vowels and consonants are raised and dropped in words during pronunciation, pairing of consonants in word roots, appearance of certain diphthongs, etc. such cases exist. Therefore, in this article, we have studied the vowel and syllable fall in some words in Jalilabad district dialects and tried to give them based on the examples we found. Let's say that we visited all residential facilities of the region to thoroughly study this situation in our language. We carefully listened to the conversations of people of different age groups and took necessary notes. As a result, we got to know the way of speaking of residents living in different areas of our region. We realized that the facts we learned during the observation are very interesting to reveal our language and its orthoepic manifestation. In this sense, in order to interpret our research work, we had to systematically give vowel and syllable pronunciation in some words we observed in the pronunciation of residents living in different areas of the district.

Key words: word, phonetic event, dialect, orphoepic, accent, pronunciation, vowels, sound drop

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Yədulla Dadaşlı tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNAR MƏHƏRRƏMZADƏ
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Azadlıq 20, Bakı
gulnar.meherremzade84@gmail.com
https://orcid.org/0000-0002-6041-2061

TÜRKOLOJİ DİLÇİLİKDƏ POLİSEMİYANIN TƏDQİQİ

XÜLASƏ

Məqalə türkoloji dilçilikdə polisemiyanın tədqiqi məsələlərindən bəhs edir. Türk dilçilərinin polisemiyaya dair araşdırmalarının dilçilikdə mühüm əhəmiyyəti vardır. Türkologiyada D.Aksan, Z.Korkmaz, B.Vardar, V.D. Günay, M.Erdem N.Üçok və başqalarının araşdırmalarında polisemiya məsələsi öz əksini tapmışdır. Azərbaycan dilçiləri S.Cəfərov, A. Qurbanov, A. Babayev, H. Həsənov, İ. Məmmədovun əsərlərində çoxmənalılıq təhlil olunmuşdur.

H. Həsənov "Müasir Azərbaycan dilinin leksikası"ında çoxmənalı sözlərin hər bir mənasının digər mənalarla əlaqədar olduğunu, hər bir mənanın hər hansı ümumi əlamətlərə malik olaraq invariant məna yaratdığını yazır. İ. Məmmədov çoxmənalığı leksik vahidlərin məna dəyişməsi kimi müəyyən edir. S. Cəfərov çoxmənalı sözlərə aşağıdakı kimi tərif verir: "Har hansı sözün ilk mənasından əmələ gələn yeni mənalar onun məna çalarlığı adlanır. Bir məfhumun müxtəlif məna çalarlığını ifadə edən sözlərə çoxmənalı - polisemantik sözlər deyilir". A. Babayev polisemiyanı dildə mövcud olan leksik vahidlərin ilkin mənadan əlavə yeni mənalarda işlənməsini öyrəndiyini yazır. Türk dilçisi D. Aksan isə polisemiyada əsas məna ilə yanaşı, yeni məfhumlara da rast gəlindiyini, yəni əsas mənanı saxlayaraq törəmə mənalar qazanıldığı fikrini irəli sürür.

Beləliklə, məqalədə türk dilçiliyində polisemiyaya dair aparılmış müxtəlif tədqiqatlar və bu sahədəki elmi-nəzəri fikirlər ümumiləşdirilmişdir.

Açar sözlər: *türkoloji dilçilik, polisemiya, əsas məna, yeni məna*

H. Həsənov "Müasir Azərbaycan dilinin leksikası"ında çoxmənalı sözlərin hər bir mənasının digər mənalarla əlaqədar olduğunu, hər bir mənanın hər hansı ümumi əlamətlərə malik olaraq invariant məna yaratdığını yazır. O, həmçinin çoxmənalı sözün əsas mənası ilə digər mənaları arasında tabelilik, törəmə mənaların arasında isə tabesizlik əlaqəsinin mövcudluğunu qeyd edir. Müəllif nümunə olaraq Azərbaycan dilində "qol" (dastanın qolu, çayın qolu və.s.) sözünü işlədir. [8;36]

İ. Məmmədov "Azərbaycan dilinin semantikası" əsərində polisemiyanın tədqiqinə böyük yer ayırmışdır. İ. Məmmədov çoxmənalığı leksik vahidlərin məna dəyişməsi kimi müəyyən edərək, aşağıdakı modelləri göstərir:

1. Hər hansı bir məfhum digər bir məfhumla müqayisə edilir və müqayisə mənbəyindəki hər hansı bir əlamət digərinə köçürülür (leksik-semantik səviyyədə). Məsələn, su kimi (asan), daş kimi (bərk) və.s.

2. Sözün aid olduğu leksik semantik çoxluğu bir tam kimi qəbul etsək, bu çoxluğun tərkibinə daxil olan elementlər onun tərkib hissəsi hesab olunur. Bu leksik-semantik çoxluğun tərkibində hər element öz bənzərsizliyini saxlamaqla yanaşı, lüğət tərkibindəki digər sözlərlə, xüsusilə həmin sahəyə aid olan sözlərlə münasibətdə mövcud olur, sistem əlaqədə fəaliyyət göstərir. Elementlər (sözlər) ünsiyyət və üslub tələbindən asılı olaraq aid olduğu sahəyə xarakterik olmayan sözlərin əhatəsində yeni semantik məzmunun daşıyıcısı olaraq istifadə edilir.
3. Əşyalar, hadisələr arasında mövcud olan oxşar xüsusiyyətlərin qavranılması ifadə planında sərbəstliyin mövcudluğu dil elementlərinin ayrı-ayrı məqamlarında yeni məna daşımasına şərait yaradır. Çoxmənalılıq ümumi dil hadisəsi olduğu üçün onun yaranması və inkişafı dil daşıyıcılarının mədəni və etnopsixoloji tarixi fonunda nümayiş etdirilir. Ətraf mühit müqayisə nəticəsində qavranılır, obyektiv müəyyən əlamətə əsasən müqayisə edilir. Bəzən müqayisə modeli istifadə fəallığını inkişaf etdirib ümumi dil hadisəsinə çevrilir və nəticədə hər hansı bir sözün yeni semantik variantı yaranır. Məsələn, dilimizdə oddur (istidir), qızıldır (qiymətlidir), buzdur (soyuqdur) kimi polisemantik sözlər qeyd edilən model əsasında meydana çıxmışdır.
4. Məna daralması nəticəsində sözün yeni mənası yaranır. Sözün tarixən daşıdığı əsas mənası aktivliyini itirir, onun törəmə mənası əsas mənadan uzaqlaşır, yeni məna üçün şərait yaranır. Məsələn, dilimizdə işlənən *xəyala dalmaq*, *fikrə dalmaq* ifadələrinin əsas mənası tarixi abidələrimizin dilində işlənmiş "*dalmaq"(suya baş vurmaq)* sözü kimi hesab etmək olar.
5. Canlılara aid olan sözün semantik xüsusiyyəti cansız predmetlərə köçürülür. Məsələn; ana dil, ana vətən.
6. Hər hansı bir predmetin adı kimi istifadə edilən sözün mənasında toplanmış bir sıra semantik xüsusiyyətlər əşyanın müxtəlif əlamətinə görə fərqlənən törəmələrini təcəssüm etdirən leksik-semantik variant olaraq meydana çıxır. Məsələn, *ağır* (artıq çəkisi olan, gərgin, amansız, qiymətli, kədərli vacib). [11;232-246]

İ. Məmmədov yuxarıda qeyd edilən modellərdən əlavə bir sıra digər modelləri nümunə göstərmişdir.

S. Cəfərov çoxmənalı sözlərə aşağıdakı kimi tərif verir: "Har hansı sözün ilk mənasından əmələ gələn yeni mənalar onun məna çalarlığı adlanır. Bir məfhumun müxtəlif məna çalarlığını ifadə edən sözlərə çoxmənalı - polisemantik sözlər deyilir". [5;15]

Müəllif dilimizdə istifadə edilən "türkün sözü" ifadəsini nümunə gətirərək çoxmənalılığın türk dillərində hələ qədim dövrlərdən böyük əhəmiyyət kəsb etdiyini vurğulayır. S. Cəfərov həmçinin çoxmənalı sözlərin əlavə mənalarını məcazi məna adlandıraraq, məcazi mənada işlənən leksik vahidləri leksik məcazlar və üslubi məcazlar kimi iki hissəyə ayırır. Dilçi leksik məcazları dilin lüğət tərkibində mövcud olan daşlaşmış ifadələr adlandırır, üslubi məcazları isə fərdi yaradıcılıqla əlaqələndirir. Leksik məcazlara *başa düşmək-analmaq, dərk etmək*, *əldən düşmək – yorulmaq* kimi birləşmələri nümunə gətirərək, bu birləşmələrin daxilində işlənən

sözlərin eyni mənanı saxlayaraq yeni mənaların yaranmasına kömək etdiyini vurğulayır. Üslubi məcazlara isə *İşlərim yağ kimi gedir, Qələm lap yağ kimi yazır* cümlələrini nümunə göstərir və bu cümlələrdə işlənən yağ sözünü müqayisə məzmunu ifadə etdiyi üçün üslubi məcaz adlandırır.

S. Cəfərov dilimizdə mövcud olan məna çalarlıqlarının aşağıdakı səbəblərdən yarandığını qeyd edir:

1. Əşyaların oxşar xüsusiyyətlərinə görə:
a) formaya əsasən: *ayaq* (adamda)-*ayaq* (stolda);
b) rəngə əsasən: *qızıl*(saat)- *qızıl* (xətt);
c) dada əsasaən: *şirin* (bal)-*şirin* (söz);
ç) hərəkətin oxşarlığına əsasən: *açmaq* (kitabı)-*açmaq* (ürəyi).
2. Əşyaların müəyyən cəhətdən yaxınlaşmasına görə:
a) məkana əsasən: *dan (*yeri)-*dan* (ulduzu);
b) zamana əsasən: *gecə* (gün batandan sonrakı vaxt)- *gecə* (şənlik gecəsi keçirmək);
c) məntiqə əsasən: *quzu* (qoyun balası)- *quzu* (dinc uşaq);
ç) prosesə əsasən: *dolanmaq* (fırlanmaq)-*dolanmaq* (yaşamaq);
d) müxtəlif məfhumların oxşar funksiya yerinə yetirməsinə əsasən: *içmək* (su)- *içmək* (kefli olmaq). [5;15-20]

A. Babayev polisemiyanı dildə mövcud olan leksik vahidlərin ilkin mənadan əlavə yeni mənalarda işlənməsini öyrəndiyini yazır. Dilçi çoxmənalılığı sözün bir əşyadan digərinə köçürlməsi ilə şərtləndirir. A. Babayev çoxmənalılğın yaranma səbəblərini aşağıdakı kimi izah edir:

1. Metafora (funksional çoxmənalılıq). Söz ifadə etdiyi əşyanın mühüm funksiyasına görə digər əşyaya köçürülür. Bu zaman əşyanın xarici formasından daha çox onun daxili məzmunu əhəmiyyət kəsb edir.
2. Metonimiya. Sözlərin əlaqəyə əsasən köçməsi.
a) məkan etibarilə adın köçürülməsi;
b) zaman etibarilə adın köçürülməsi;
c) müəllif-əsər köçürülməsi;
ç) canlı-məkan köçürülməsi;
d) maddi əsasa görə köçürmə. [4;280]

A. Qurbanov dildə çoxmənalılığın daha çox ümumişlək sözlərə aid olmasını qeyd edir. A. Qurbanovun fikrincə söz əsas mənasından başqa, dildə daha bir sıra mənada istifadə edilə bilir. Müəllif belə dil hadisəsini, başlıca olaraq, sözün məcazi məna ifadə etməsi ilə əlaqələndir. Məsələn, dilimizdə *"boz* sifətinin ilkin mənası müəyyən rəng növünü göstərir. Amma *"boz adam", "boz hava", "boz üz"* birləşmələrində isə bu söz rəng bildirmir, kəmiyyət, əlamət mənalarını nümayiş etdirir: boz adam – xasiyyətcə çətin, həyasız adam; boz hava – tutqun hava mənasında istifadə edilir. A. Qurbanov həmçinin qeyd edir ki, sözün çoxmənalılğı yalnız söz birləşmələri, frazeoloji birləşmələr və cümlə daxilində öz əksini tapır və çoxmənalı sözlər semantik cəhətdən bağlı olur. Dilçi həmçinin çoxmənalı sözləri omonim sözlərdən

fərqləndirmək üçün çoxmənalılıq prosesində semantik daxili əlaqənin əhəmiyyətini vurğulayır. [10;414]

Türk dilçiləri B.Vardar və V.D. Günay çoxmənalılığın bir dildə bir işarənin birdən çox işarələyənə işarə etdiyi zaman baş verdiynini qeyd edir. [7;188],[13;62]

D. Aksan isə polisemiyada əsas məna ilə yanaşı, yeni məfhumlara da rast gəlindiyini, yəni əsas mənanı saxlayaraq törəmə mənalar qazanıldığı fikrini irəli sürür. [3;70]

Türkoloq Z. Korkmaz çoxmənalılığa belə tərif verir: "Bir sözdə əsas məna ilə bağlı birdən çox mənanın olması; sözün ilkin mənasına uyğunluğunu itirmədən mənanın inkişafı yolu ilə yeni mənalar qazanması". Bu tərif bir az daha əhatəli məlumat verərək, çoxmənalı sözlər arasında əlaqənin olmasına diqqət çəkir.[9;38]

Göytürk kitabələrindəki çoxmənalı sözlərlə misal çəkərək çoxmənalı xüsusiyyətin ən qədim zamanlardan gəldiyini nümayiş etdirir. Burada qeyd edilir ki, bir dilin ən qədim mətnlərində çoxmənalı sözlərin olması həmin dildəki çoxmənalılığın bu mətnlərdən çox daha qədim dövrlərə yayıldığının göstəricisidir.[1]

D. Aksanın fikrincə yeni anlayışlar üçün adlar tapmağa çalışarkən, çox vaxt funksiyalarına görə yaxın və xassələrinə görə oxşar olan obyektlər arasında əlaqə yaratmaq üsuluna üstünlük verilir. Bu vəziyyətin nəticəsində söz ilk əks etdirdiyi məfhumdan başqa digər məfhumları da əks etdirməyə başlayır. Bu proses həm də daha asan ifadəyə meyl edərək çoxmənalılığın ortaya çıxmasına şərait yaradır. [2;65]

D.Aksan həmçinin qeyd edirdi ki, lüğətə nəzər saldıqda, oradakı sözlərin əksəriyyətinin birdən çox məna daşıdığına və bu mənaların ədədlərin sıralanması ilə izah edildiyinə şahid oluruq. Bu vəziyyət çoxmənalılığa uyğun gəlir və bəzi dilçilərə görə dilin əsas xüsusiyyətini əks etdirir.[3;58]

D. Aksan "Anlambilim Konuları ve Türkçenin Anlambilimi" əsərində qeyd edirdi ki, dilin işlənməsindən asılı olaraq müxtəlif texniki, elmi və bədii sahələr üzrə anlayışların sayı artdıqca lüğət tərkibi də inkişaf edəcəkdir. Bu vəziyyətlə paralel olaraq çoxmənalılığın artması ilə müşayət olunur. [3;124]

M. Erdem çoxmənalılığa səbəb olan hadisələrin bəzilərinin metafora, metonimiya, evfemizm və dolayı ifadə kimi görüldüyünü qeyd edirdi. [6;51]

N. Üçok (1947) polisemiya üçün "türlüanlamlılık" terminindən istifadə edir. Texnologiya inkişaf etdikcə və həyat səviyyəsi dəyişdikcə yeni anlayışlar meydana çıxır, ona görə də bu anlayışlara ad tapmaq zərurəti yaranır. Əgər bir söz çox mənalıdırsa, dinləyici, oxucu diqqətli olmalı və sözü kontekstə uyğun qiymətləndirməlidir. Əgər sözün yalnız əsas mənası ağla gətirilsə, düşüncə axını pozulur və yanlış anlaşılmalara səbəb olur. Dildə çoxmənalı sözlər olmayan dil haqqında düşünmək mümkün deyil, başqa sözlə, sözlərin çoxmənalı olmadığı dil haqqında düşünmək mümkün deyil, sözlərin kontekstə uyğun olaraq məna qazanması təbiidir. Bir dildəki sözlər arasında yalnız terminlərin təkmənalılığına rast gəlmək olar. [12;69,70]

D.Aksanın fikrincə bəzən hətta terminlərin çoxmənalı olmasının şahidi oluruq. Çoxmənalı sözləri qeyri-müəyyənlik kimi qiymətləndirmək hər dilçi üçün qəbul edilən münasibət deyil. Bu vəziyyətin səbəbi kontekst və mətni nəzərə alaraq heç bir çətinlik çəkmədən söz ilə hansı anlayışın nəzərdə tutulduğunu anlamağın mümkün olması arqumentidir. [3;72,74]

Ədəbiyyat

1. Aksan, D. (2003). En Eski Türkçe'nin İzlerinde: Orhun ve Yenisey Yazıtları Üzerinde Sözcükbilim, Anlambilim ve Biçembilim İncelemelerinin Aydınlattığı Gerçekler. İstanbul: Multilingual.
2. Aksan, D. (2006). Türkçenin Sözvarlığı-Türk Dilinin Sözcükbilimiyle İlgili Gözlemler, Saptamalar, Ankara: Engin Yayınları.
3. Aksan, D. (2009). Anlambilim Konuları ve Türkçenin Anlambilimi, Engin Yayınevi, Ankara.
4. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti (ali məktəblər üçün dərslik). Gənclik nəşriyyatı, Bakı, 2015. 572 səh.
5. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə. Leksika. Bakı, "Şərq-Qərb", 2007, 192səh.
6. Erdem, M. (2009). *Modern Oğuz Türkçesi Söz Varlığı, Türkiye, Azerbaycan ve Türkmen Standart Türleri Esasında*, Ankara: Grafiker Yayınları.
7. Günay, V. D. (2007). *Sözcükbilime Giriş*, İstanbul: Multilingual Yayınları.
8. Həsənov H."Müasir Azərbaycan dilinin leksikası". "Maarif" nəşriyyatı, Bakı, 1988
9. Korkmaz, Z. (1992). Gramer Terimleri Sözlüğü. Ankara: Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu TDK Yayınevi.
10. Qurbanov A. Ümumi dilçilik. I cild (3 cilddə). Bakı, 2019, 448 səh.
11. Məmmədov İ. Azərbaycan dilinin semantikası. Bakı: Xəzər nəşriyyatı, 2006, 372 səh.
12. Üçok, N. (1947). *Genel Dilbilim*, Ankara Üniversitesi, Ankara: Dil ve Tarih-Coğrafya Fakültesi Yay.
13. Vardar, B. (2002). *Açıklamalı Dilbilim Terimleri Sözlüğü*, İstanbul: Multilingual Yay.

Гюльнар Магеррамзаде

ИЗУЧЕНИЕ ПОЛИСЕМИИ В ТЮРКОЛОГИИ
РЕЗЮМЕ

В статье рассматриваются вопросы изучения полисемии в тюркологическом языкознании. Большое значение в языкознании имеют исследования турецких лингвистов по полисемии. В тюркологии проблема полисемии отражена в исследованиях Д. Аксан, З. Коркмаз, Б. Вардар, В.Д. Гюнай, М. Эрдема, Н. Ючок и других. Азербайджанские лингвисты С.Джафаров, А.Гурбанов, А.Бабаев, Х.Гасанов, И. Мамедов проанализировал полисемию.

Г. Гасанов пишет в «Словаре современного азербайджанского языка», что каждое значение многозначных слов связано с другими значениями, и каждое значение создает инвариантное значение, имея какие-либо общие признаки. Я. Мамедов определяет полисемию как изменение значений лексических единиц. С. Джафаров определяет многозначные слова следующим образом: «Новые значения, образованные от первого значения какого-либо слова, называются его оттенками значения. Слова, выражающие разные значения одного понятия, называются многозначными словами. А. Бабаев пишет, что полисемия – это изучение новых значений существующих в языке лексических единиц в дополнение к исходному значению. Турецкий лингвист Д. Аксан выдвигает мысль о том, что при полисемии наряду с основным значением обнаруживаются и новые понятия, то есть приобретаются производные значения при сохранении основного значения.

Таким образом, в статье обобщаются различные исследования полисемии в турецком языкознании и научно-теоретические взгляды в этой области.

Ключевые слова: *тюркологическое языкознание, полисемия, базовое значение, новое значение.*

Gulnar Maharramzada

STUDY OF POLYSEMY IN TURKOLOGY
SUMMARY

The article deals with the issues of studying polysemy in Turkological linguistics. The researches of Turkish linguists on polysemy have an important importance in linguistics. In Turkology, the issue of polysemy is reflected in the researches of D. Aksan, Z. Korkmaz, B. Vardar, V.D. Gunay, M. Erdem N. Uçok and others. Azerbaijani linguists S. Jafarov, A. Gurbanov, A. Babayev, H. Hasanov, I. Mammadov analyzed polysemy in their works.

H. Hasanov writes in the "Lexicology of the Modern Azerbaijani Language" that each meaning of polysemous words is related to other meanings, and each meaning creates an invariant meaning by having any common features. I. Mammadov defines polysemy as the change of meaning of lexical units. S. Jafarov defines polysemous words as follows: "New meanings formed from the first meaning of any word are called shades of meaning. Words that express different meanings of one concept are called polysemantic words. A. Babayev writes that polysemy is the study of new meanings of lexical units existing in the language in addition to the original meaning. Turkish linguist D. Aksan puts forward the idea that in polysemy, along with the main meaning, new concepts are also found, that is, derived meanings are gained while keeping the main meaning.

Thus, the article summarizes various studies on polysemy in Turkish linguistics and scientific-theoretical opinions in this field.

Key words: *Turkological linguistics, polysemy, primary meaning, new meaning*

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya elmləri doktoru,
professor İlham Mikayıl oğlu Tahirov
tərəfindən çapa tövsiyə olunmuşdur

Dos. HACIYEVA MƏTANƏT
Azərbaycan Tibb Universiteti
haciyeva.metanet@internet.ru

AZƏRBAYCAN DİLİNİN ƏCNƏBİ DİL KİMİ TƏDRİSİNDƏ QRAMMATİK MİNİMUMUN XÜLASƏ

Təlimin başlanğıc mərhələsinin əsas məqsədi təşkil edilmiş dil (qrammatika) materialinda şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Başlanğıc mərhələnin qrammatik minimumunda, Azərbaycan dilinin daha çox istifadə olunan morfoloji formaları və sintaktik konstruksiyaları əks olunmalıdır. Hər ayrı dərnəkdə (ümumi tipli, mütəxəssislər üçün və s.) təlimin konkret məqsədlərindən asılı olaraq, qrammatik minimumun həcmi və xarakteri dəyişir. Mütəxəssislər və işgüzarlar üçün qrammatik minimuma yazılı nitqə xas olan forma və konstruksiyalar daxildir. Qrammatik minimuma bir neçə mövzunu aid edə bilərik. Onlardan biri dilimizdə yönlük, yerlik və çıxışlıq halları məkan bildirən qrammatik hallar sayılmasıdır. Tələbələr bəzən bunları da zərf adlandırırlar. Amma bu doğru deyil. Digər bir məsələ isə, dilimizdə bir neçə söz vardır ki, onlar müxtəlif qrammatik funksiya və məna daşıyır. Tələbələr bu sözlərin hansı köməkçi nitq hissəsinə aid olduğunu təyin etməkdə çətinlik çəkirlər. Belə sözləri müəllim əvvəlcədən müəyyənləşdirməli və onları müqayisəli şəkildə izah etməlidir.

Açar sözlər: qrammatik minimum, Azərbaycan dili, başlanğıc mərhələ

Təlimin başlanğıc mərhələsinin əsas məqsədi təşkil edilmiş dil (qrammatika) materialinda şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Başlanğıc mərhələnin qrammatik minimumunda, Azərbaycan dilinin daha çox istifadə olunan morfoloji formaları və sintaktik konstruksiyaları əks olunmalıdır. Kompleks - konsentrik mövqe və dil materialının mərhələlərlə bölüşdürülməsi, təlimin ilkin mərhələlərində Azərbaycan dilində ünsiyyət qurmağı təmin edir.

Hər ayrı dərnəkdə (ümumi tipli, mütəxəssislər üçün və s.) təlimin konkret məqsədlərindən asılı olaraq, qrammatik minimumun həcmi və xarakteri dəyişir. Mütəxəssislər və işgüzarlar üçün qrammatik minimuma yazılı nitqə xas olan forma və konstruksiyalar daxildir, Azərbaycan dilində aktiv nitq fəaliyyətini təmin edən qrammatik materialın və Azərbaycan dilində yalnız oxunu təmin edən materialın uyğunluğu isə ümumi tipli dərnəklərdən başqa olacaq.

Başlanğıc mərhələnin qrammatik minimumuna aşağıdakı mövzular daxil olunmalıdır.

1) İsim: ismin kəmiyyət, mənsubiyyət, hal kateqoriyası, canlı, cansız isimlər, isimlərin hallanması.

2) Sifət: sifətin hal və kəmiyyət üzrə dəyişməsi, sadə və düzəltmə sifətlər, sifətin adi, azaltma və çoxaltma dərəcəsi, sifətin cümlədə rolu.

3) Say: miqdar sayları (müəyyən, qeyri-müəyyən, kəsr), sayın hallanması, sayın isim və sifətlə birləşmədə işlədilməsi.

4) Əvəzlik: əvəzliyin təsnifatı; şəxs əvəzlikləri, işarə əvəzliyi, sual əvəzliyi, təyini əvəz- liklər, qeyri-müəyyən əvəzlik, inkar əvəzliyi; şəxs, sual və işarə əvəzliklərinin cümlədə işlənməsi.

5) Fel; fellərin təsrifi; zaman formaları; feli sifət və feli bağlama; nitqdə fel tərzlərinin və bəzi qayıdış felləri qruplarının: özünə qayıdış, qarşılıqlı-qayıdış və s. kimi fellərin işlənməsi.

6) Zərf; zərfin bölmələri; zərflik və təyini zərflər; zərfliyin müqayisə dərəcələri.

7) Qoşma, bağlayıcı, ədat və modal sözlər.

Qrammatik minimumda həmçinin bəzi sintaktik mövzular, məsələn, sadə və mürəkkəb cümlənin növləri, söz birləşmələri və sintaktik əlaqə növləri də əks olunmalıdır.Söz yaradıcılığı qrammatik minimumda söz yaradıcılığı nümunələrinin nisbətən az miqdarı ilə, məsələn, *oxumaq oxu- oxuyucu, jurnal - jurnalist - jurnalistika, İtaliya - italyanca- italiyalı* və s. təqdim edilməlidir (bax "Əlavə ").

Məşğələlərin məqsədi intensiv oxu olan qruplarda, xüsusən söz yaradıcılığına diqqət yetirmək lazımdır. Belə ki, bunun nəticəsində quruluş elementləri üzrə sözün mənasını başa düş- mək bacarığı, yəni dili inkişaf etdirmək mümkündür.

Qrammatik material rasional təşkil edilməli və təlim prosesinə daxil olunmalıdır. Əcnəbilərə Azərbaycan dilinin təlimi praktikasında bütün morfoloji formaları sintaktik əsasda daxil edirlər. Dil materialının sintaktik əsasda təşkili prinsipi, bilavasitə nitq fəaliyyətində baş verən pro- seslərin qeydə alınması yolu ilə təlimin kommunikativ istiqamətini daha dolğun reallaşdırmaq imkanını aşkar edir.

Qrammatik materialın tədrisində müxtəlif ölkələrdən olan əcnəbi tələbələr üçün mənim- sənilməsi çətin və həcmi böyük olan "Fel. Fellərin müqayisəsi" mövzusunu nümunə göstərmək olar. Həmin mövzunun aşağıdakı qaydalar üzrə keçilməsi məqsədə uyğundur.

1. Təsirli və təsirsiz fellərin fərqləndirilməsindəki çətinliklər.

Tərifdəki qeyri-dəqiqlikdən irəli gələn çətinlik: obyekt tələb edən ifadəsinin aydın olmaması. Tələbə felin əlaqədə olduğu hər hansı halda olan ismi də obyekt kimi başa düşə bilir. Obyektlə işlənə bilənlə işlənən ifadələr qarışdırılır. Eyni fel müxtəlif mənaya malik olduğun- dan eyni fel həm təsirli, həm də təsirsiz ola bilir. Təsirsiz fellərdən təsirli fel əmələ gətirən bəzi şəkilçilər iki vəzifə daşıyır.

Müəllim yuxarıda deyilənlərin mahiyyətini bütün dəqiqliyi ilə tələbələrə çatdırmalıdır. Eyni sözün müxtəlif mənalar bildirdiyini mətn və cümlələr daxilində tələbəyə anlatmalıdır. Ona görə də çalışma üçün seçilmiş mətnlərdə yuxarıda sadaladığımız mübahisəli misal və şəkilçilərə daha çox yer vermək, bunlar üzərində tələbələri daha çox işlətmək lazımdır.

2. Felin mənaca növlərinin mənimsədilməsindəki çətinliklər.

Bəzi dərsliklərdə məlum fellərin verilməsi. Məlum növlə qayıdış növün hər ikisinin ic- raçılarının məlum olması. Qayıdış növ və məchul növ fellərin eyni şəkilçilərlə düzəldilməsi. İcbar növ felləri əmələ gətirən *-dır* şəkilçisinin həm təsirli fellər əmələ gətirməsi, həm xəbərlik şəkilçisi olması. Qarşılıq-müştərək anlayışlarının birgəlik anlayışı ilə qarışdırılması, *-ış* və *-laş* şəkilçilərinin həm də sözdüzəldici olması. Bütün sadalanmış oxşar əlamətlər sistem halında verildikdən sonar, onların hər birini fərqləndirən spesifik əlamətlər qabarıq şəkildə aydınlaşdırılmalı və tələbələrə anladılmalıdır. Çalışma mətnlərinə ən çox bir-birinə oxşarlığı olan sözlər və morfemlər daxil edilməli və tələbələr daha çox belə sözlər və şəkilçilər üzərində işləməlidir.

3. Xüsusi forma əlaməti olmadığı üçün, əmr və xəbər formalarının öyrədilməsindəki, arzu və lazım formalarının fərqləndirilməsindəki çətinliklər.

Bildiyimiz kimi, əmr və xəbər formaları digər formalardan xüsusi forma şəkilçisi olma- ması ilə fərqlənir. Bunların əlamətsizliyi, bir növ onların əlamətinə çevrilir. Əmr və xəbər forması isə yalnız bir cəhətə görə fərqlənir. Əmr forması yalnız şəxsə görə dəyişdiyi halda, xəbər forması şəxsə görə dəyişməklə yanaşı zamana görə də dəyişir. Şəxsə görə dəyişmə bütün formalara xas olan əlamətdir. Əmr forması, əslində formal əlamətə malik deyildir.

Əmr forması fel kökü + şəxs şəkilçisi.

Xəbər forması isə = fel kökü + zaman + şəxs şəkilçisi.

Arzu və lazım formalarını öyrəndikdə isə ilk növbədə arzu və lazım anlayışları arasındakı məna fərqini tələbələrə başa salmaq lazımdır. Bundan başqa, *gərək* sözünü də *ayırmaq* vasitəsi kimi tələbələrə çatdırmaq olar. Yalnız arzu formasında olan fellərə *gərək* sözünü artırmaq mümkündür. Başqa sözlə, yalnız belə fellərə gərək sözü yanaşdırıla bilər. Şühudi keçmiş zaman şəkilçisi olan *-di* fel formalarının hekayəsini əmələ gətirən *idi*-nin şəkilçiləşmiş köməkçi fel forması ilə nəqli keçmiş zaman şəkilçisi olan *-mış*, fel formalarının rəvayətini əmələ gətirən *imiş*-in şəkilçiləşmiş fel forması ilə qarışdırılır. Buna görə də müəllim bunların fərqləndirilməsi yollarını dəqiq öyrətməlidir. Tələbələrin diqqəti bir cəhətə xüsusi cəlb edilməlidir ki, şəkilçiləşmiş *idi* və *imiş* zaman və ya forma şəkilçisindən sonra şühudi keçmiş şəkilçisi olan - *di* və nəqli keçmiş zaman şəkilçisi olan *-miş* isə fel kökü və ya əsaslarının üzərinə artırılır. Müəllim bütün bunları müqayisə yolu ilə xarakterik misalların təhlili əsasında təkrar-təkrar tələbələrə çatdırmalı, sonra isə tələbələrlə uyğun seçilmiş çalışmalar üzərində işləməlidir.

4. Feli sifətin sifətlə, xüsusilə feldən düzələn sifətlə və fellə qarışdırılması.

Feli sifətlər elə söz qrupudur ki, bunlarda həm sifətin, həm də felin əlamətləri özünü göstərir. Buna görə də feli sifətlər ancaq o zaman dəqiq mənimsənilə bilər ki, bunlar həm fel, həm də sifətlə düzgün müqayisə edilsin.Feli sifətləri, ilk növbədə, fellə müqayisə etmək lazımdır. Müqayisə zamanı əvvəlcə feli sifətdəki fellik əlamətləri aşağıdakı sistem halında göstərilməlidir: feli sifətlər də fellər kimi təsdiq və inkar, təsirli və təsirsiz olur, müxtəlif məna növünü bildirir. Bu eyniliklər misallar

əsasında tələbələrə çatdırılmalıdır. Bundan başqa, feli sifətlər də fellər kimi digər sözləri idarə edə bilir. Feli sifətlərin tərkib əmələ gətirməsi də məhz onun bu xüsusiyyəti ilə bağlıdır. Bun- dan sonra müqayisənin ikinci mərhələsi başlanır. Felə məxsus hansı əlamətlər feli sifətlərdə yoxdur?

Feli sifətlər fellər kimi zamana və şəxsə görə dəyişə bilməz. Ona görə də feli sifətlər müxtəlif forma şəkilçilərini qəbul etmir və onun formaları olmur. Məhz buna görə də feli sifətlər feldən ayrılır.Fellərlə dəqiq müqayisədən sonra sifətlərlə müqayisəyə başlamaq lazımdır. Yenə də əvvəlcə sifətə xas olan əlamətlərdən başlanmalıdır: feli sifətlər də sifətlər kimi əşyaya aid olur, hər hansı əşyanın müəyyən hərəkətlə bağlı əlamətini bildirir, *necə? nə cür? hansı?* suallarına cavab olur. Bu müqayisələri dəqiq aparmaq üçün əyani vəsaitdə və ya lövhədə yazılmış sifət və feli sifətlərə aid misalları qarşılaşdırmaq tələb olunur.Bundan sonra feli sifətin sifətdən fərqli xüsusiyyəti tələbələrə aydınlaşdırılır. Belə ki, si- fət əşyanın daimi əlamətini bildirirsə, feli sifət əşyanın hərəkətlə bağlı əlamətini bildirir. Bu məqsədlə, ilk növbədə, feldən düzəldilmiş sifətlərlə, ona oxşar feli sifətlər müqayisə etdirilməlidir. Məsələn: *ağlağan - ağlayan, oynağan - oynayan, güləyən-gülən* və s. Bundan sonra müəllim feli sifət əmələ gətirən şəkilçiləri elə öyrətməlidir ki, onlar heç vaxt yaddan çıxmasın. Çünki bunun sintaksis təlimi üçün də böyük əhəmiyyəti olacaqdır. Bu zaman iki vəzifəli - *mış , -acaq², -malı , -asɪ²* şəkilçilərinə xüsusi diqqət yetirilməli və onların üzərində çoxlu çalışmalar aparılmalıdır.

5. Feli bağlamaların fellər və zərflərlə qarışdırılması.

-ıb həm feli bağlama, həm də zaman şəkilçisi ola bildiyindən bu məsələyə müəllim xüsusi diqqət yetirməlidir.

6. Feli bağlamalar, xüsusilə tərz və vəziyyət bildirən feli bağlamalar tərzi - hərəkət zərflərinə oxşadığından onlarla qarışdırılır. Əsas felin əlamətini zamanla bağlayan feli bağlamalar isə zaman zərfləri ilə qarışdırılır. Tələbələrin bunları qarışdırmaması üçün feli bağlama şəkil- çilərinin üzərində daha çox işləmək lazımdır. Bundan başqa, qeyd etmək lazımdır ki, Azərbaycan dilinin xarici dil kimi tədrisi zamanı "Zərf" mövzusu da tələbələrə çətinlik törədir. Bildiyimiz kimi, zərflər bir sıra nitq hissələri ilə qarışdırılır. Bunlardan xüsusilə sifət, say və isimləri diqqət mərkəzində saxlamaq lazımdır. Tərzi-hərəkət zərfləri, xüsusilə hərəkətin keyfiyyətini bildirən tərzi-hərəkət zərfləri morfoloji sualına görə sifətlərlə bəzən eyniləşir. Məsələn, *yaxşı, qəşəng, gözəl, pis* kimi sözlər cümlədə həm sifət, həm də zərf sayılır. Müəllim bu cəhətdən belə sözlərin aid olduğu sözlərə xüsusi diqqət yetirməlidir. Əgər bu sözlər əşyanı təyin edirsə, sifət, hərəkətin necəliyini bildirirsə, tərzi-hərəkət zərfi hesab edilir.

Həmçinin *çox, az, xeyli* sözləri əşyaya aid olduqda, say, hərəkətin kəmiyyətini bildirdikdə miqdar zərfi sayılır. Bu sözlərin də nəyə aid olmalarına xüsusi diqqət yetirilməlidir.

Bildiyimiz kimi, dilimizdə yönlük, yerlik və çıxışlıq halları məkan bildirən qrammatik hallar sayılır. Ona görə ki, bunların mənalarında məkan anlayışı vardır.

Tələbələr bəzən bunları da zərf adlandırırlar. Həmin sözlərin zərf deyil, isim olduğunu başa salmaq üçün tələbələr belə halda sözlərə şəkilçisiz, yəni hal şəkilçisiz (sözün kökünə) diqqət yetirməlidirlər.Qeyd etmək lazımdır ki, dilimizdə bir neçə söz vardır ki, onlar müxtəlif qrammatik funksiya və məna daşıyır. Tələbələr bu sözlərin hansı köməkçi nitq hissəsinə aid olduğunu təyin etməkdə çətinlik çəkirlər. Belə sözləri müəllim əvvəlcədən müəyyənləşdirməli və onları müqayisəli şəkildə izah etməlidir. Məsələn, *ilə* həm qoşma, həm də bağlayıcı, *ancaq* həm ədat, həm də bağlayıcı olur. Belə məsələlər üzərində praktik işlərə xüsusi diqqət yetirilməlidir.

Bu kimi hallar yuxarıda qeyd etdiyimiz kimi, dilin mənimsənilməsində müəyyən çətinliklər törədir. Lakin bəziləri, məsələn, Azərbaycan dilini öyrənən rus dilli tələbələr üçün "qoşma" bəhsinin öyrənilməsi bir o qədər də çətinlik törətmir. Bunun səbəbi isə bir çox qoşmala- rın mənasının rus dili qrammatikasının önlük (преДлог) bəhsi ilə Oxşar olmasıdır.Qoşmaların mənaca növlərini tələbələrin diqqətinə çatdırarkən onların qoşulduğu halları da tələbələrə başa salmaq lazımdır.

İsmin qeyri-müəyyən və müəyyən yiyəlik, eləcə də yönlük və çıxışlıq halında işlənən sözlərə qoşulan qoşmalar bunlardır: *kimi (tək), qədər, -can, -can, üçün, ilə (-la, -la),içrə, üz- ra, görə, nisbətən, qarşı, tərəf, sarı, doğru, məxsus, aid, dair, dək, bəri, ötrü, savayı, qeyri* Azərbaycan dilində bəzən bir qoşma bir neçə məna ifadə edə bilir. *Kimi* və *tək* qoşması müqayisə və bənzətmə mənasını (*O yaxşı bilirdi ki, son zamanlar qızının nəbzi əvvəlki kimi vurmur, əvvəlki kimi sakit və rahat nəfəs almırdı. Səkinə güzəşt nə olduğunu bilmir, qaya ki m i (tək) möhkəm dururdu*), *kimi, -dək, -can, -cən* qoşmaları zaman mənasını, yəni icranın, ha- disənin ya dəqiq zamanını, ya da zaman məsafəsi ilə birlikdə son nöqtəsini (*Bunu eşidənk im i sanki onun üstündən ağır bir yük götürüldü. O, axşama can çalışdı. Aslan səhərəcən yatmadı. Axşamadək nəticəsini görəcəksiniz*), məkan miqyasını (*Qonaqları vağzala kimi (vağzalacan, vağzaladək) yola saldıq*), *qədər* qoşması kəmiyyətcə ölçü miqyası məzmununu və ya zaman və məkana görə ölçü miqyasını *(Şeyda özünü yetirənə qədər Vasif bir neçə yerə zəng eləyib dünənki qazma işlərinin və neft istehsalının vəziyyətinə dair məlumat istədi*) bildirir.

Üçün qoşması səbəb, aidlik, tamamlamaq məzmunları (*İdarə heyətinin digər üzvləri kimi, Əlinin bu hərəkəti Güləndam üçün də gözlənilməz idi. Şəhla Aynuru yalnız bir dəfə həyat- da uşaqlarla oynayan zaman özündən kiçik bir qızı döyüb ağlatdığı üçün bərk şilləmişdi*), birgəlik və iştirak obyekti (*Biz sənin lə Xəzərin qoynunda təhsil alacağıq*), vasitə obyekti (*Tez-tez görüşməyə imkanları olmadığından çox vaxt telefonla hal-ahval tuturdular*), tərz obyekti (*Sən çıxdın qarşıma d uzla, çörəklə; bağından dərdiyin gülla, çiçəklə*), məkan obyektini (*O qarı yenə yorğun bir halda qotuğunda bağlama dənizkənarı ilə evinə qayıdırdı*), ifadə edir.

Görə qoşması səbəb, uyğunluq - müvafiqlik, əsas, istinad, nisbət (*Tahir ona zəhmət verdiyinə görə əvvəlcədən üzr istədi; Hər kəs öz bacarığına görə nə bacarır, onu da danışır: O, təbiblərin tapşırığına görə iki ay Kislovodskda oldu; Eşitdiyimə*

görə Əli yaxşı oyunlar bilir; Kamrana görə Arif cavan görünür), *tərəf, sarı, doğru* istiqamət məzmunu (*Tahir ona doğru (tərəf, sarı) gedib təşəkkür etdi*), *məxsus, aid, dair* aidlik məzmunu (*O, gəncliyə mə xsus na varsa, hamısını özündə əks etdirməyə çalışırdı*), *-dək* iş və hərəkətin son məqsədini (*Tural onu axıra qədər danışmağa qoymadı*), *ötrü* qoşması məqsəd (*Arif öz arzularını Nigardan* ötrü *saxlayırdı*) bildirir.

Başlanğıc mərhələsində bütün milliyyətli nümayəndələr üçün ikinci böyük qrammatik mövzu - "Azərbaycan dilində felin məna növlərinin istifadə olunması" - aşağıdakı kimi təqdim edilə bilər:

1. Azərbaycan dilində felin məna növlərinin (məlum, məchul, qayıdış, qarşılıqlı, müştərək, icbar) tərtib edilməsi. Material müşahidə olunan müxtəlif fel formalarının istifadə olunma nümunələrinə izah kimi verilə bilər.

2. Birdəfəlik və təkrarlanan hadisənin verilməsi üçün, felin məna növlərinin aktiv istifa- də olunması. Material *O, dünənki hadisəni eşitdi* və *Dünənki hadisə eşidildi* kimi iki əks mənalı nümunələrin müqayisə edilməsi əsasında verilir və möhkəmləndirilir. İzah edərkən hər iki cümlənin felinə (xəbərinə) diqqət yetirmək lazımdır.

3. *O, bütün günü kitabı oxudu. O kitabı bir gün ərzində oxuyub qurtardı* kimi hərəkətin icrasının gedişatını və nəticəsini bildirən felin məna növlərinin felin məna növlərinin aktiv istifadə olunması. İzah edərkən zaman mənalı konstruksiyalara diqqət yetirmək məqsədəuyğundur.

4. Felin məlum növünün iki və ya daha artıq eyni zamanda baş verən hadisələrinin və felin məchul növünün iki və ya daha çox ardıcıl baş verən hadisələrinin bildirilməsi: *Mən oxudum və mətndən yeni sözləri köçürdüm. - Kitab oxundu və kitabxanaya qaytarıldı*. Nümunələr müqayisə edilmə formasında verilir.

5. Felin malum növünün hərəkət faktının təsdiq edilmə mənası, nəticə mənalı müqayisə etmənin müşahidə edilməsi və başa düşülməsi üçün verilir: *Siz dünən nə etdiniz? - Man imtahan verdim. Verdiz? - Verdim. Dörd aldım*.

ƏDƏBİYYAT

1. Karimov Y.Ş. Təlim metodları, Bakı, 2009.
2. Принципы организации обучения иностранным языкам в школе и ввузе: Сборник статей. М.: Русский язык, 1988.

В ПРЕПОДАВАНИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО ГРАММАТИЧЕСКИЙ МИНИМУМ

РЕЗЮМЕ

Основной целью начального этапа обучения является развитие навыков устной и письменной речи на языковом (грамматическом) материале. В грамматическом минимуме начального этапа должны быть отражены наиболее

употребительные морфологические формы и синтаксические конструкции азербайджанского языка. В зависимости от конкретных целей обучения в каждом отдельной группе (общего типа, для специалистов и т. д.) объем и характер грамматического минимума различаются. Грамматический минимум для профессионалов и бизнесменов включает в себя формы и конструкции, типичные для письменной речи.Мы можем отнести к грамматическому минимуму несколько тем. Одна из них относится к падежам, которые в азербайджанском языке указывают на местонахождение. Студенты иногда называют их также наречиями. Но это не так. Другая проблема заключается в том, что в азербайджанском языке есть несколько слов, которые имеют разные грамматические функции и значения. Учащиеся затрудняются определить, к какой вспомогательной части речи относятся данные слова. Учитель должен заранее отобрать такие слова и объяснить их в сравнительной форме.

Ключевые слова: грамматический минимум, азербайджанский язык, начальный этап

IN THE TEACHING OF AZERBAIJAN LANGUAGE AS A FOREIGN LANGUAGE GRAMMATICAL MINIMUM

SUMMARY

The main goal of the initial stage of training is the development of oral and written speech skills on an organized language (grammatical) material. The grammatical minimum of the initial stage should reflect the most common morphological forms and syntactic constructions of the Azerbaijani language. Depending on the specific learning objectives in each individual association (general type, for specialists, etc.), the volume and nature of the grammatical minimum differ. The grammatical minimum for professionals and businessmen includes forms and constructions typical of written speech.We can attribute several topics to the grammatical minimum. One of them refers to the cases that indicate the location in the Azerbaijani language. Students sometimes call them also adverbs. But it's not. Another problem is that there are several words in the Azerbaijani language that have different grammatical functions and meanings. Students find it difficult to determine which auxiliary part of speech these words belong to. The teacher must select such words in advance and explain them in a comparative form.

Key words: grammatical minimum, Azerbaijan language, the initial stage

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: dos.Y.K.Alxasov
tərəfindən çapa tövsiyə olunmuşdur

AYTƏN QULUYEVA
Bakı Dövlət Universitetinin
E-mail: quluyevaayten00@gmail.com

ANTROPONİMİK SİSTEMDƏ TƏXƏLLÜS KATEQORİYASI

Onomastika elminin şəxsə aid olan adları öyrənən sahəsi Antroponimika adlanır. Antroponimlərə şəxsin əsl adı, soyadı, ata adı, təxəllüs, ləqəb və titul daxildir. Qeyd edilən adlar rəsmi olmağına, işlədilmə dairəsinə, şəxs tərəfindən götürülməsinə və başqa xüsusiyyətlərinə görə bir-birilərindən fərqlənirlər. Antroponimik sistemdə adlar iki formada işlədilir: əsas adlar kateqoriyası və köməkçi adlar kateqoriyası. Əsas adlar kateqoriyasına şəxsin əsl adı, soyadı və ata adı daxildir. Bu adlar kateqoriyası rəsmi səciyyə daşıyır və şəxsə başqaları tərəfindən verilir. Köməkçi adlar kateqoriyasına isə ləqəb, titul və təxəllüslər daxil edilir. Bu adların da özünəməxsus xüsusiyyətləri vardır.

Təxəllüs ərəb sözü olub, iki məna bildirir: "1) qurtarma, xilas olma; 2) yazıçıların özləri üçün götürdükləri ad" (2, s. 362). Dilimizdə bu söz ikinci mənasında istifadə olunur.

Ümumiyyətlə, köməkçi ad kateqoriyalarına Mədəd Çobanov ləqəb və təxəllüsləri, Aydın Paşayev isə əlavə olaraq titulları da daxil etmişdir. Çox zaman təxəllüslərlə ləqəblərin qarışdırılması hallarına təsadüf edilir, lakin onların tamamilə fərqli anlayışlar olmasını qeyd etmək mütləqdir. Təxəllüslər məşhur yazıçılar, şairlər, rəssamlar, incəsənət və mədəniyyət xadimləri tərəfindən, zövqlərinə uyğun şəkildə seçilib götürülür. Ləqəblər isə insana başqaları tərəfindən onun hər hansı bir xüsusiyyətinə əsasən verilir. Bundan əlavə ləqəblərdən fərqli olaraq təxəllüslərin rəsmiləşə bilmək imkanı vardır. Yəni bir insanın təxəllüsü ya həmin zamanda, ya da sonralar başqa bir insanın şəxsi adı kimi işlənə bilir. Məsələn, Məhəmməd Füzulinin təxəllüsü olan "Füzuli" müasir dövrdə hər hansı bir şəxsin əsl adı kimi işlənmə imkanı qazanmışdır. Yazılı ədəbiyyatda təxəllüslərin başlıca xüsusiyyəti kimi lirik əsərlərin son beyti və ya son bəndində işlənərək, sözün bitdiyini bildirməsi, şeirin müəllifini işarə etməsini qeyd edə bilərik. Ədəbiyyatşünaslıqda müəllifin təxəllüsü verilmiş son beyt məqtə, son bənd isə təxəllüsbənd, möhürbənd kimi qeyd olunur. (3, s. 251)

Azərbaycan dilçiliyində təxəllüslərin yaranma tarixi familiyalardan daha qədim dövrlərə dayanır. Məlumdur ki, familiyalar XIX əsrdə yaranıb-formalaşmışdır. XIX əsrədək, demək olar ki, heç bir mənbədə familiyalarla rastlaşmırıq. Təxəllüslərin yaranma tarixini isə, əsasən, "Kitabi - Dədə Qorqud" abidəsinin tarixi ilə əlaqələndirirlər. Abidədə dastan qəhrəmanlarının təxəllüs və ləqəbləri ilə qarşılaşırıq: Dədə Qorqud, Dəli Əvran Qonur Qoca və s. Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" abidəsinin yaranma tarixi ilə bağlı yekdil fikir yoxdur. Bəzi mülahizələrə görə, abidə İslam dininin hakim olduğu bir dövrdə, bəzi fikirlərə görə isə

islamiyyətdən əvvəl yaranmışdır. Bu səbəbdən təxəllüslərin yaranma tarixi ilə bağlı dəqiq şəkildə fikir bildirmək qeyri-mümkündür. Mədəd Çobanov yazır: "Kitabi-Dədə Qorqud" abidəsinin islamiyyətdən əvvəl yarandığını bildirmiş və qeyd etmişdir: ""Kitabi-Dədə Qorqud" dastanlarının islamiyyətdən əvvəl düzülüb qoşulduğunu nəzərə alsaq, yazılı mənbələrin verdiyi məlumata görə, dilimizdə təxəllüsün təşəkkül tapmasının 1500 ildən çox tarixi vardır" (1, s. 130). Deməli, Mədəd Çobanov "Kitabi-Dədə Qorqud" abidəsinin və təxəllüslərin yaranma tarixini islamiyyətdən əvvəlki dövrlərə şamil edir. Aydın Paşayev Mədəd Çobanovdan fərqli olaraq, bu tarixi "Kitabi-Dədə Qorqud" abidəsinin yaranması ilə əlaqələndirmir və abidəyə nisbətən təxəllüslərin yaranma tarixini daha sonrakı dövrə - XII əsrə aid edir. "Demək, XII əsrə qədər şeir nümunələrində ad və təxəllüslərin işlənməməsi folklor materiallarının çoxalmasına səbəb olmuşdur" (8, s. 12). Qeyd edilən mülahizədə şifahi xalq ədəbiyyatının inkişafı təxəllüslərlə əlaqələndirilmişdir. Bu fikirlə tam olaraq razılaşmaq qeyri-mümkündür. Çünki şifahi xalq ədəbiyyatına xas olan vahidlərin hər birinin müəllifsiz olmadığı fikrini diqqət mərkəzindən kənarda qoymaq olmaz. Fikrimizcə, şifahi xalq ədəbiyyatının inkişafını təxəllüslərin mövcud olub-olmaması ilə bağlı olan bir hadisə kimi qiymətləndirmək doğru deyil.

Qədim dövrlərdən günümüzə bəzi təxəllüslər gəlib çata bilmişdir. Məsələn, XVI əsrdə yaşamış Şah Təhmasibin qızı Pərixan xanım - Həqiqi, Məhəmməd Füzuli - Füzuli, XVII əsrdə Əlican Təbrizi - Qövsi, XVIII əsrdə M. P. Vaqifin oğlu Əliağa – Alim və başqaları müxtəlif təxəllüsləri götürmüşlər. XIX əsrin əvvəllərinədək yazıb-yaradanların demək olar ki, hamısı, əsasən, təxəllüsləri öz mənəvi zövqlərinə uyğun olaraq seçərək qəbul etmişlər. XVI əsr sənətkarı Məhəmməd Füzulinin qəbul etdiyi "Füzuli" təxəllüsü ilə bağlı maraq doğuran belə bir mülahizəsi vardır: "Düşündüm, əgər şeirdə başqaları ilə müştərək bir təxəllüs götürərsəm, müvəffəq olmadığım bir təqdirdə mənə zülm olar, müvəffəq olarsam, ortağıma zülm etmiş olaram. Bu bənzərliyi aradan qaldırmaq üçün Füzuli təxəllüsünü aldım və ortaqlarımın mənə zülm edib, məni iztirab içində qoymalarından qurtarmaq üçün təxəllüs himayəsinə sığındım" (1, s. 128-129). Onu da qeyd etmək lazımdır ki, "Füzuli həddini bilməyən, özünə aid olmayan işlərə qarışan, yersiz danışan, uzunçu, naqqal mənasını verir" (4, s. 206). Həmin dövrdə, demək olar ki, hamıya bu sözün mənası aydın olduğu üçün heç kəs belə bir adı nə övladına əsl ad kimi, nə də özünə bir təxəllüs kimi qəbul etməzdi. Lakin hal-hazırda valideynlər, söz sənətkarları bu təxəllüsün mənasını bilmədən, hətta bəzən bilə-bilə onu övladlarının əsl adı və özlərinin təxəllüsü kimi qəbul edirlər. Bu zaman onlar üçün sözün mənası yox, əvvəlcə o adı daşıyan insanın şəxsiyyəti götürülmüş olur.

Bundan başqa, Səfəvi hökmdarı olan Şah İsmayılın təxəllüsü – "Xətai"nin qəbul edilməsinin səbəbi ilə bağlı müxtəlif fikirlər vardır. Bir fikrə əsasən, Xətai Şah İsmayılın dünyaya gəldiyi, Ərdəbil yaxınlığında yerləşən kəndin adıdır. Lakin şairin qeyd edilən kənddə yox, Ərdəbil şəhərində doğulduğu aşkar edilmişdir. İ.Şahbazov Şah İsmayılın təxəllüsü ilə bağlı belə bir məlumat təqdim edir: "Qədim fars dilində

yazılmış Çin, Təklə, Orta Asiya və, ümumiyyətlə, Şərqdə azərbaycanlıların ərazisinə Xəta deyilmişdir. Beləliklə, Şah İsmayıl azərbaycanlıların yaşadığı Xəta ölkəsini vətəni hesab edib, özünü Şah İsmayıl Xətai adlandırmışdır" (9). Başqa bir fikrə görə, şair "Xətai" təxəllüsünü hər hansı bir xəta törətdiyi üçün qəbul etmişdir. Şair tərəfindən "Xətai" təxəllüsünün qəbul edilməsi ilə bağlı mülahizələrin sayı çoxdur. Ümumiyyətlə, Şah İsmayıldan başqa bu təxəllüsü Şüştəri, Səmərqəndi, Sui, Yəzdi, Kocrati və Mir Qurani daşımışlar. Sonrakı dövrlərdə isə "Xətai" təxəllüsü şəxs adı, rayon, küçə və s. adları kimi də istifadə olunmağa başlanmışdır.

Təxəllüslərin qəbul edilməsində və verilməsində müəyyən mənalılıq olmalıdır. Sənətkarların özlərinə təxəllüs götürmələri doğulduğu və ya yaşadığı yerin adı ilə, mənsub olduğu tayfa, nəsil adı ilə, şairin sevinci,kədərini ifadə edən sözlərlə, quş adları ilə, çay,dəniz adları ilə və başqa xüsusiyyətlərlə bağlı ola bilir. Məsələn, Tağı Şahbazi Simurğ adındakı Simurğ əfsanəvi quş olan Simuqun adı ilə bağlıdır. Şair Məmməd Arazın tam adı əslində Məmməd İbrahimovdur. Araz çay adı ilə əlaqədar olaraq götürülmüş təxəllüsdür. Qətran Təbrizi, Seyid Yəhya Bakuvi, Seyid Əzim Şirvani və s. sənətkarların təxəllüsləri yer adlarına əsasən yaranıb. Afad Qurbanov bu cür təxəllüsləri topotəxəllüslər adlandırmışdır. (6, s. 124)

XIX əsrdən başlayaraq şair və yazıçıların özlərinə təxəllüs götürmələrinin artıq başqa səbəbi yaranmışdı. Bu dövrdə şairlər, yazıçılar təxəllüsləri, əsasən, özlərini qorumaq və əsl kimliklərini gizlətmək üçün qəbul edirdilər. Bəs nə üçün bir şair və ya yazıçı özündə xalqına qarşı kimliyini gizlətmək ehtiyacı duysun? Qeyd edilən səbəb ictimai-siyasi şəraitlə bağlı olaraq, xalqın acınacaqlı vəziyyətindən irəli gəlirdi. Birinci rus inqilabından sonra Azərbaycan mətbuatında, xüsusən də qəzet və jurnallarda satirik, tənqidi səciyyəli, xalqın mənafeyinə uyğun, yenilik tərəfdarı olan yazılar nəşr olunurdu. Bu xüsusiyyət xalqın maariflənməsində böyük rol oynadığı üçün Rusiyanın mənafeyinə uyğun gəlmirdi. Rus çarlığı tərəfindən həmin yazıların müəllifləri təqiblərə məruz qalırdı. Satirik ruhlu əsərlər yazan şair və yazıçılar da bu təqibdən yayınmaq üçün özlərinə təxəllüslər, gizli imzalar götürürdülər. Xalqı azadlığa, elmə səsləyən sənətkarların təxəllüsləri ifşa olunduqda onlar hər dəfə özlərinə yeni təxəllüslər, gizli imzalar qəbul edirdilər. Bu da bir yazıçının həddindən artıq təxəllüsünün olmasına və ya bir təxəllüsün bir neçə sənətkar tərəfindən qəbul edilməsinə gətirib çıxarırdı. Sənətkarlar bu səbəbdən, hətta bəzən öz təxəllüslərinin sayını-hesabını itirirdilər. Bu kimi səbəblər əsasən təxəllüslər daimi və müvəqqəti olaraq, iki yerə bölünür. Sovet dövründə təxəllüslər, əsasən, müvəqqəti səciyyə daşımışdır. Mirzə Ələkbər Sabir "Molla Nəsrəddin" jurnalında Hop-hop, Ağlar, Güləyən, Əmu, Qardaşoğlu və s. imzalarla çıxış etmişdir. Qədim dövrün söz sənətkarlarında bu xüsusiyyətə az hallarda təsadüf edilir. Dilçiliyimizdə "İmzalar" adı altında təxəllüslərə dair lüğət tərtib edən Qulam Məmmədlinin qeydinə görə, "Cəlil Məmmədquluzadən öz "Molla Nəsrəddin"ində də işlətdiyi gizli imzaların bir çoxunu unutduğu üçün 1927-ci ildə Tiflisdə - jurnalın ilk mürəttiblərindən olan İsmayıl Haqqı Həsənzadəyə məktub yazıb gizli imzalarını ondan soruşmuşdur" (7, s.

6). Həmin dövrdə yazıb-yaradan və təxəllüslərinin say çoxluğu ilə fərqlənən sənətkarlardan Nəriman Nərimanov (Balaban, N.N, Nər, Nir, Arı bəy), Cəlil Məmmədquluzadə (Adaş, Molla Nəsrəddin, Allahpərəst, Ağzı oruc, Axund Molla Tatarqulu, Vızvıza, Qanmaz, Üzeyir Hacıbəyov – Qaf, Qatilov, Bir, Bisavad) və başqaları qeyd edilə bilər. Bu qəbildən olan sənətkarların məqsədi şan-şöhrət qazanmaq deyil, xalqı qəflət yuxusundan oyadıb, ayağa qaldırmaq idi. Sənətkarların gizli imzalardan istifadə etməsi həmin dövr üçün xalqın rifahı uğrunda atılan düzgün addım olsa da, bu xüsusiyyət hal-hazırda həmin dövrün əsərlərinin hansı sənətkara məxsus olması baxımından ciddi şəkildə çətinlik törədir. Problemin yeganə həlli olaraq dil – üslub xüsusiyyətlərinin əsas amil kimi götürülməsi qəbul oluna bilər. Qulam Məmmədli də əsərində problemin həllinə bu aspektdən yanaşmış və nəticədə bir çox sənətkarların təxəllüslərini bərpa etməyə nail olmuşdur. Bundan başqa, lüğət müəllifinə bir təxəllüsün bir neçə sənətkar tərəfindən götürülməsi məsələsi də problem yaratmışdır. Məsələn, C.C imzası ilə Camobəy Cəbrayılbəyli, Cəfər Cabbarlı, Cabbar Cabbarov, Cəfər Cəfərov, Mozalan imzası ilə Mirzə Cəlil, Ə. Haqverdiyev, Məşədi Qurbanəli, Salman Mümtaz, Lağlağı imzası ilə Mirzə Cəlil, Ömər Faiq Nemanzadə, Məşədi Qurbanəli Şərifov, Ə.Haqverdiyev, Rzaqulu Nəcəfov müxtəlif əsərlər yazmışlar. Lakin müəllif bu problemin də öhdəsindən ustalıqla gəlmişdir. Afad Qurbanovun qeyd edilən lüğətlə bağlı belə bir fikri vardır: "Kitabçanın rusca adı "Psevdonimı" getsə də, buradakı adların hamısını təxəllüs hesab etmək olmaz" (6, s. 117). Belə qənaətə gəlmək olar ki, Afad Qurbanov təxəllüslərlə gizli imzaları bir-birindən fəqləndirmişdir. Elmira Qasımova və Afaq Əliyevanın əməkdaşlığı ilə ərsəyə gəlmiş "Gizli imzalar" adlı əsərdə də onlar gizli imzaları təxəllüs və ləqəblərdən ayırmış və bu anlayışlar arasında olan fərqləri qeyd etmişlər. "Gizli imzalar yaranma tarixi baxımından ləqəb və təxəllüsdən çox-çox sonrakı dövrdə xalqın "söz azadlığı", "mətbuat azadlığı" qazandığı dövrdə - XIX-XX əsrin əvvəllərində yaranmışdır. Mənaca daha çox ləqəbə yaxındır. Məkanı yazılı ədəbiyyat və mətbuatdır. Təxəllüsdən fərqli olaraq, mətnin daxilində yox, əsər bitdikdən sonra özünə yer alır" (5, s. 11). Fikrimizcə, gizli imzaları təxəllüslərdən tamamilə fərqləndirib, ləqəblərə yaxın olan vahid kimi qəbul etmək məqbul sayılmamalıdır. Gizli imzalar ləqəblərə deyil, təxəllüslərə yaxın olan bir vahid kimi hesab edilməlidir. Şübhə yoxdur ki, gizli imzaların yaranma tarixi təxəllüslərin yaranma tarixinə nisbətən daha müasirdir. Ona görə də gizli imzalar ya təxəllüslərin bir növü kimi, ya da XIX əsrdə təxəllüslərin digər adı kimi götürülməlidir.

Məlumdur ki, Azərbaycan dilçiliyində təxəllüslərin tədqiqinə az yer verilib. Lakin bu bizə "Təxəllüslər tədqiq edilməmişdir" fikrini bildirməyə əsas vermir. Dilçiliyimizdə bu mövzunun tədqiqi ilə məşğul olan şəxsiyyətlərdən Aydın Paşayev, Qulam Məmmədli, Mədəd Çobanov, Afad Qurbanov, Elmira Qasımova, Afaq Əliyeva və başqalarının adlarını çəkmək olar. Təxəllüslərə aid Prof. H.Həsənov "Təxəllüslər və ləqəblər" adlı məqaləsi, Mədəd Çobanov "Familiya. Təxəllüs" adlı kitabı və bir sıra məqalələr yazmışlar. Aydın Paşayevin "Təxəllüsşünaslığın

əsasları” adlı kitabı təxəllüslərin tədqiqinə həsr edilmiş ən irihəcmli əsər kimi qəbul edilə bilər. Dövrümüzə qədər bu mövzu ilə bağlı yazılan əsərlər, əsasən, lüğət xarakteri daşımışdır. Bu əsərdə isə o, təxəllüslərin hərtərəfli xarakteristikasını - yaranma yolları, növləri, tipləri, mənşəyi, funksiyaları və s. verilmişdir. Aydın Paşayevin qeyd edilən fikri ilə razılaşmamaq qeyri-mümkündür: “Bizə elə gəlir ki, antroponimikanın təxəllüslərin əmələ gəlməsi, funksiyası, onomastik, leksik, qrammatik və üslubi xüsusiyyətlərini öyrənən şöbəsini “təxəllüsşünaslıq” adlandırmaq daha məqsədəuyğundur” (8, s. 17).

Təxəllüslər dünya dilçiliyində də tədqiq edilmiş sahələrdən biridir. Avropa xalqlarında XVII əsrdən etibarən təxəllüslərin lüğətləri hazırlanmağa başlanmışdır. XIX əsrdə araşdırmalar daha geniş vüsət almışdır. Böyük rus biblioqrafi rus olan İ.F.Masanov ömrünün 45 ilini rus mətbuatı və ədəbiyyatında istifadə olunan təxəllüslərin toplanmasına və müəlliflərin şəxsiyyətlərinin müəyyənləşdirilməsinə həsr etmişdir. Onun topladığı 80 minə qədər təxəllüsün 4 cildə nəşr edilməsi bütün xalqlara örnək olmalıdır”(8, s. 16). Rus antroponimikasında A. Reformatski, V.V. Vinoqradov, P. Berkov, V.A. Nikonov, V.Q.Dmitriyev və başqaları təxəllüsləri tədqiq etmiş və bu barədə qiymətli fikirlər yürütmüşlər. V. Q.Dmitriyevin tədqiqatları digərlərindən fərqlənir. Belə ki, o təxəllüslər haqqında fikirlər söyləməklə yetməmiş, təxəllüslər kitablar həsr etmişdir. Lakin belə tədqiqat əsərləri ilə məşğul olan insanlar çox deyildi. Hesab edirik ki, təxəllüslərin ətraflı tədqiqata cəlb olunması Azərbaycan və dünya dilçiliyinin qarşısında duran vacib məsələlərdəndir.

ƏDƏBİYYAT

1. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Bakı, “Maarif”, 1998, 332 səh.
2. Ərəb və fars sözləri lüğəti (Azərbaycan klassik ədəbiyyatını oxumaq üçün). İki cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005, 472 səh.
3. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı, “Elm və təhsil”, 2011, 416 səh.
4. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. İki cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2005, 416 səh.
5. Qasımova E. Əliyeva A. Azərbaycan satirik mətbuatında gizli imzalar (1906-1920). Bakı, “Avropa”, 2019, 194 səh.
6. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. İki cilddə. II cild. Bakı, “İmak” (İstanbul, Türkiyə), 2019, 432 səh.
7. Məmmədli Q. İmzalar. Bakı, “Xatun Plyus”, 2010, 146 səh.
8. Paşayev A. Azərbaycan təxəllüsşünaslığının əsasları. Bakı, “Elm və təhsil”, 2018, 304, səh.
9. Şahbazov İ. “Xətai” məqaləsi, Azərbaycan müəllimi qəz. 5 sentyabr 1979.

QULUYEVA AYTƏN

ANTROPONIMIK SISTEMDƏ TƏXƏLLÜS KATEQORIYASI

Xülasə

Təxəllüslər Azərbaycan antroponimik sisteminin bir hissəsidir. Onun bizim dilçiliyimizdə və ədəbiyyatımızda oynadığı rol danılmazdır. Onun istifadə dairəsi genişdir. Elə hal mümkündür ki, bir təxəllüsü iki və ya daha artıq şəxs qəbul etsin. Bu zaman həmin şəxsləri ayırd etməyin yeganə yolu onların əsərlərin dillərinin, yazılma xüsusiyyətlərinin fərqləndirilməsidir.

Söz sənətkarlarının hər birinin özlərinə təxəllüs götürmələrinin müəyyən bir məqsədi, səbəbi olmuşdur. Bəzi sənətkarlar yaşadığı və ya doğulduğu yeri, bəziləri psixoloji vəziyyətini, bəziləri həyata qarşı olan münasibətini və başqalarını diqqət mərkəzinə gətirmək istəyir. Doğulduğu yeri bildirən təxəllüsü bəzən nisbə də adlandırırlar. Onu da qeyd edək ki, mənbələr sübut edir ki, təxəllüsləri təkcə söz sənətkarları deyil, inqilabçılar, kəşfiyyatçılar və başqaları da qəbul edirlər. Təxəllüslərin sayəsində təxəllüs sahibinin gerçək kimliyi gizli qalır. Buna görə də təxəllüslər təkcə müəlliflərin, onu qəbul edən şəxsin məşhurlaşmasına deyil, həm də müxtəlif dövrlərdə onların qorunmasına, gizli saxlanmasına xidmət etmişdir. İctimai-siyasi şərait söz sənətkarlarını təxəllüs, gizli imza adı altında qorunmağa vadar etmişdir. Təxəllüslər yazıçı, şair və ya hər hansı bir sənətkar haqqında məlumat mənbəyi ola bilər. Sənətkar əgər gizli imzadan istifadə edirsə, biz həmin sənətkar haqqında yetərincə biliyə malik ola bilmirik. Bu səbəbdən Azərbaycan dilçiliyində təxəllüslərin tədqiqinə müəyyən qədər yer verilsə də, bu araşdırmaların sayı artırılmalıdır.

Açar sözlər: antroponim, təxəllüs, gizli imzalar, köməkçi adlar

GULUYEVA AYTEN

PSEUDONYM CATEGORY IN THE ANTHROPONYMIC SYSTEM

SUMMARY

Pseudonyms are a part of the Azerbaijani anthroponymic system. The role they play in our literature and linguistics is undeniable. Its scope of use is wide. It is possible that two or more people take one pseudonym. At this time, the only way to distinguish those people is to distinguish the languages of their works and the characteristics of their writing. Each of the wordsmiths had a specific purpose and reason for taking a pseudonym. Some artists want to focus on their place of residence or birth, some on their psychological state, some on their attitude towards life and others. The nickname indicating the place of birth is sometimes called nisba. It

should also be noted that sources prove that pseudonyms are adopted not only by wordsmiths, but also by revolutionaries, scouts and others.

Thanks to pseudonyms, the real identity of the owner of the pseudonym remains hidden.

Therefore, pseudonyms served not only to make the authors and the person who received them famous, but also to protect them and keep them secret in different periods.

Socio-political conditions have forced artists to protect themselves under pseudonyms and secret signatures. Pseudonyms can be a source of information about a writer, poet or any artist. If an artist uses a hidden signature, we cannot have enough knowledge about that artist. For this reason, Although some place is given to the study of pseudonyms in Azerbaijani linguistics, the number of these studies must be increased.

Key words: anthroponym, pseudonym, secret signatures, auxiliary names

ГУЛУЕВА АЙТАН

КАТЕГОРИЯ ПСЕВДОНИМОВ В АНТРОПОНИМИЧЕСКОЙ СИСТЕМЕ

РЕЗЮМЕ

Псевдонимы являются частью антропонимической системы Азербайджана. Роль, которую они играют в нашей литературе и языкознании, неоспорима. Сфера его использования широка. Возможно, что два и более человека берут один псевдоним. В настоящее время единственный способ отличить этих людей — различать языки их произведений и особенности их письма.

У каждого из мастеров слова была определенная цель и причина для взятия псевдонима. Некоторые художники хотят акцентировать внимание на месте своего проживания или рождения, некоторые на психологическом состоянии, некоторые на отношении к жизни и другие. Прозвище, указывающее на место рождения, иногда называют нисба. Следует также отметить, что источники доказывают, что псевдонимы берут не только словесники, но и революционеры, разведчики и другие. Благодаря псевдонимам настоящая личность владельца псевдонима остается скрытой. Поэтому псевдонимы служили не только для прославления авторов и получившего их лица, но и для их защиты и сохранения в тайне в разные периоды.

Социально-политические условия вынуждают художников защищать себя псевдонимами и тайными подписями. Псевдонимы могут быть источником информации о писателе, поэте или любом художнике. Если художник

использует скрытую подпись, у нас недостаточно знаний об этом художнике. По этой причине, хотя изучению псевдонимов в азербайджанском языкознании отводится определенный объем, количество этих исследований, безусловно, должно быть увеличено.

Ключевые слова: антропоним, псевдоним, секретные подписи, вспомогательные имена

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: dos. Mehriban Əlizadə
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRGİZ MƏDƏTOVA
Azərbaycan Dillər Universiteti

İSPAN DİLİNDƏ QRAMMATİK BACARIQLARIN FORMALAŞMASINA XİDMƏT EDƏN ÇALIŞMALAR SİSTEMİ

Xülasə

Dilin qrammatikasına yiyələnmək – xarici dildə eşidib-anlama və oxu prosesində informasiyanı başa düşmək,yazılı və şifahi nitqdə konkret qrammatik materialdan istifadə etmək bacarığına yiyələnməkdir.Qrammatik bacarıqlar iki qrupa bölünür: reseptiv və produktiv.Reseptiv qrammatik bacarıqlara eşidib-anlama və oxu, produktiv qrammatik bacarıqlara isə danışıq və yazı prosesləri daxildir. Reseptiv qrammatik bacarıqların formalaşmasına xidmət edən iş növləri bunlardır: qrammatik konstruksiyaların tanınması və onların məna variantlarının başa düşülməsi, oxşar qrammatik formaların fərqləndirilməsi, sadə və mürəkkəb cümlələrin növlərinin müəyyənləşdirilməsi, mətnlərdə konkret qrammatik formanın, strukturun daşıdığı mənanın tapılması və s. məsələlər: produktiv qrammatik bacarıqlar üçün qrammatik formanın və ya tərkibin düzəldilməsi və işlədilməsi, yazılı və şifahi nitqdə konkret qrammatik materialın düzgün işlədilməsi xarakterik sayılır.

İspan dilinin tədrisi zamanı kommunikativ qramatik bacarığın yaradılması üçün pilləli, mərhələli,ardıcıl,əlaqəli çalışmalar öz funksiyalarına görə aşağıdakı kimi qruplaşdırılır.

1.Anlama bacarığını inkişaf etdirən çalışmalar

2.İfadetmə bacarığının əsasını qoyan reproduktiv xarakterli çalışmalar

3.İfadəetmə bacarığını inkişaf etdirən reproduktiv-produktiv xarakterli çalışmalar

4.İfadəetmə bacarığını möhkəmləndirən leksik-qrammatik xarakterli çalışmalar

5.İdarəetmə bacarığını inkişaf etdirən kimmunikativ xarakterli çalışmalar

Kommunikativ dil təlimi prosesində bütün çalışmalar nitq xarakterli olduğu üçün bütün qrammatik çalışmalar ispan dilində ünsiyyətin yaradılmasına və anlaşılmasına xidmət etməlidir.Əsasən aşağıdakı qrammatik çalışma növlərindən istifadə olunur: təkrar çalışmalar, boşluqların doldurulması, struktur çalışmalar,fikrini şifahi yaxud yazılı tərzdə şərh etmə.

Açar sözlər : qrammatik bacarıqlar, çalışmalar sistemi,kommunikativ nitq vərdişləri

Avropa təhsil sisteminin pedaqoqları qeyd edirlər ki, xarici dillərin tədrisi zamanı təhsilin ümumtəhsil və inkişafetdirici məqsədlərinə çatmaq çatmaq üçün qrammatik materiallar ətraflı təhlil olunmalı,qrammatik terminlər düzgün araşdırılmalı, qrammatik strukturlar şifahi və yazılı nitq üçün işləklik səviyyəsinə qaldırılmalıdır. Lakin indinin özündə belə xarici dil təlimində qrammatikanın ənənvi

tədrisi geniş yer almışdır. Bu haqda psixoloq B.V.Belyayev göstərir ki,xarici dildə cümlə qurmaq üçün qrammatik qaydaları bilmək azdır,həmin model və strukturları nitq prosesinə cəlb etmək əsasdır.(1)

Qrammatik bacarıqlar öz-özünə formalaşa bilmir, onlar üçün düzgün baza yaratmaq lazımdır.Qrammatik biliklər dilöyrənmə prosesinə o vaxt kömək edə bilər ki, dilöyrənənlər həmin biliklər vasitəsilə öyrəndikləri dili sistem halında anlaya bilsinlər. Belə halda qrammatikanın tədrisi və qrammatik hadisələrin möhkəmləndirilməsi – nitq prosesinə daxil edilməsi dilöyrənənlərdə kommunikativ bacarıq və vərdişlərin formalaşdırılmasına kömək edə bilər.

Dilin qrammatikasına yiyələnmək-xarici dildə eşidib-anlama və oxu prosesində informasiyanı başa düşmək,yazılı və şifahi nitqdə konkret qrammatik materialdan istifadə etmək bacarığına yiyələnməkdir.

Qrammatik bacarıqlar iki qrupa bölünür: reseptiv və reproduktiv.Reseptiv qrammatik bacarıqlara eşidib anlama və oxu, produktiv qrammatikbacarıqlara isə danışıq və yazı prosesləri daxildir. Reseptiv qrammatik bacarıqların formalaşmasına xidmət edən iş növləri bunlardır: qrammatik konstruksiyaların tanınması və onların məna variantlarının başa düşülməsi, oxşar qrammatik formaların fərqləndirilməsi, sadə və mürəkkəb cümlələrin növlərinin müəyyənləşdirilməsi, mətnlərdə konkret qrammatik formanın , strukturun daşıdığı mənanın tapılması və s. məsələlər. Produktiv qrammatik bacarıqlar üçün qrammatik formanın və ya tərkibin düzəldilməsi və işlədilməsi, yazılı və şifahi nitqdə konkret qrammatik materialın düzgün işlədilməsi xarakterik sayılır.

Xarici dildə qrammatik materialların tədrisinin psixoloji əsaslarını tədqiq edərkən aydın olur ki, hər bir fəaliyyət prosesində tələbələr müxtəlif vərdişlərə yiyələnirlər.Tələbələrin dilöyrənmə prosesində yiyələndikləri bu vərdişlərin hamısı birdən-birə, eyni vaxtda yaranıb, eyni vaxtda başa çatmır. Məlum məsələdir ki, hər bir vərdiş tələbənin artıq malik olduğu vərdişlər sistemində fəaliyyət göstərir və təşəkkül tapır. Maraqlı cəhət odur ki, bu vərdişlərdən bəziləri yeni vərdişin yaranmasına və fəaliyyət göstərməsinə kömək edir. Dilöyrənmə prosesində yeni vərdişlərin yaranmasına keçmiş vərdişin mexanizmi bir növ köməkçi rol oynayır. Bu hal eyni tipli və ya müxtəlif xarakterli vərdişlərin yaradılması zamanı özünü göstərir. Bu hərəkətləri kompleks şəkildə yerinə yetirmək zəruriliyi yaranır,praktika və çalışmalar sisteminə ehtiyac duyulur. Məqsədyönlü, planlı şəkildə təşkil olunmuş, dəfələrlə icra olunası hərəkətlər tələb olunur. Nəticədə çalışmaların sayəsində hərəkətlər möhkəmlənir, şüurlu fəaliyyətin avtomatik yerinə yetirilməsi hesabına vərdişlər yaranır. Onlar tapşırıqların icrası prosesində möhkəmlənir, yenidən təşkil olunur və təkmilləşir.(2)

Qeyd etmək lazımdır ki, dilöyrənmə prosesində istifadə olunan hər bir çalışmanın konkret məqsədi olur.Çalışmalar yalnız hərəkətlərin dəfələrlə təkrar olunmasını nəzərdə tutmur,eyni zamanda xüsusi formada təşkil olunmuş məqsədyönlü fəaliyyət sistemini ehtiva edir.

Mənimsəmə prosesinin təşkilində çalışmalar sistemi aşağıda göstərilənləri təmin etməlidir:

1.Hər hansı bacarığın formalaşdırılmasına xidmət edən çalışmanın seçilməsi

2.Mənimsəmə prosesi sistemsiz, qaydasız şəkildə deyil, konkret mərhələdən və məqsəddən asılı olaraq həyata keçirildiyindən çalışmaların müvafiq ardıcıllığının gözlənilməsi

3.Çalışmalarda əlaqəli fəaliyyətlərin yerinə yetirilməsi

4.Çalışmaların tərtibinə və icrasına dair konstruktiv yanaşmanın nəzərə alınması

Konstruktiv (yaradıcı) yanaşmanın tətbiqi nəticəsində tələbələr çalışmanın leksik və qrammatik təhlilini apara bilir,onlarda anlam səviyyəsində bacarıq formalaşır. Sonra onlar anlamı müəllimin əlavələri və şərhi ilə genişləndirirlər. Daha sonra tələbələr dərslik və paylama materialları üzərində verilən tapşırıqları yerinə yetirərək öz anlamlarını biliyə çevirirlər. Nəticə olaraq, çalışmalarda naməlum leksika aydınlaşdırılır və cümlələrdə sözlərin qrammatik vəzifələri müəyyənləşdirilir.(3)

Bu əməliyyatlardan birincisi lüğətin köməyi ilə, ikincisi isə qrammatik təhlil vasitəsi ilə yerinə yetirilir. Bu iki şərtlərdən biri nəzərə alınmazsa, cümlənin mənası anlaşılmaz. Cümlədəki sözlərin qrammatik vəzifəsini müəyyən etmədən onların lüğətdəki mənalarını axtarmaq çox zaman yanlış nəticə verir. Çünki sözün leksik mənası çox vaxt onun cümlədəki sintaktik vəzifəsindən asılı olur, daha doğrusu həmin vəzifəyə görə müəyyən edilir.

Qrammatik təhlil ispan dilində cümlənin ümumi mənasının açılmasına və bununla da onun düzgün tərcümə olunmasına xidmət edir.Qrammatik bilik yalnız tərcümə bacarığına deyil,həm də nitq fəaliyyəti növləri üzrə vərdişlərə yiyələnmək üçün son dərəcə vacibdir. Belə bir təhlil tələbələrin qrammatik bilikləri əsasında aparıldığı üçün onların keçilmiş qrammatik materialı nə dərəcədə mənimsədiyini yoxlamağa və onu möhkəmləndirməyə imkan verir.

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, ispan dilində cümlənin təhlili həm məqsəd, həm də üsul etibarı ilə ana dilindəki cümlənin təhlilindən fərqlənir. Bu fərq ondan ibarətdir ki,ana dilində qrammatik təhlil cümlənin mənasını açmaq üçün deyil, onun hansı dil hadisələri vasitəsilə ifadə olunduğunu müəyyən etmək üçün aparılır. Burada cümlənin mənası oxu prosesində asanlıqla başa düşülür, bu da tamamilə təbiidir.

İspan dilində cümlənin qrammatik təhlili onun mənasının başa düşülməsinə xidmət edir və əsasən formal əlamətlər əsasında aparılır. Buna görə də qrammatik təhlilin uğurlu olması üçün ispan dilinə məxsus bütün qrammatik forma və strukturları, qayda və qanunları mükəmməl bilmək lazım gəlir.

Ispan dilində tədrisin qarşısında tamamilə yeni məqsədlərin qoyuluşu və təlim materiallarının seçimində yeni prinsiplərdən istifadə olunması, əlbəttə ki çalışmalar sisteminə və bu çalışmaların yerinə yetirilməsi üçün lazım olan vasitələrə də öz təsirini göstərə bilmək iqtidarındadır. Ispan dilinin tədrisi zamanı kommunikativ

qrammatik bacarığın yaradılması üçün "pilləli,mərhələli,ardıcıl, əlaqəli" çalışmalar sistemindən istifadə olunur. Bu cür çalışmaların əsas modeli mərhələ-mərhələ, pillə-pillə anlamadan ifadəyə doğru şəkildə tərtib olunur. Anlamadan ifadəyə doğru yolda hər bir çalışmanın öz funksiyası var və çalışmalar məhz bu funksiyalarına görə qruplaşdırılır.

A) Anlama bacarığını inkişaf etdirən çalışmalar
B) İfadəetmə bacarığının əsasını qoyan reproduktiv xarakterli çalışmalar
C) Ifadəetmə bacarığını inkişaf etdirən reproduktiv –produktiv xarakterli çalışmalar
D) Ifadəetmə bacarığını möhkəmləndirən leksik-qrammatik xarakterli çalışmalar
E) Idarəetmə bacarığını inkişaf etdirən kommunikativ xarakterli çalışmalar.

Qrammatik materialların tədrisi və tələbələrdə müxtəlif səviyyələrdə qrammatik bacarıqların yaradılması, formalaşdırılması və inkişaf etdirilməsinə dair metodik ədəbiyyatda xeyli sayda çalışmalar təqdim olunur. Onların xüsusiyyətləri, istifadə istiqamətləri,məqsəd və vəzifələri aydın şəkildə şərh olunur. Istər nəzəri, istərsə də praktik baxımdan verilən şərhlər bilavasitə konkret hərəkətlərin icrasına yönəlmişdir. Çalışmalar ümumilikdə reseptiv, produktiv, hazırlıq, məşq, kommunikativ dil və nitq xarakterli hesab olunur.

Biz bu məqaləni yazarkən ispan dilində qrammatikanın tədrisi üçün kommunikativ yönümlü çalışmalara üstünlük vermişik.Təklif etdiyimiz çalışmalar sisteminin qurulmasında aşağıdakı prinsiplərdən çıxış etmişik:

a. Hər bir çalışma qarşısında bir məqsəd qoyulmalı və o, tələbələr tərəfindən mənimsənilmiş leksik material əsasında tərtib olunmalıdır
b. Çalışmalar sadə cümlə nümunələrindən ibarət olmalı, ispan dilinə ağırlıq gətirə bilən strukturlar və mürəkkəb cümlələr tələbələr üçün əlavə çətinliklər yaratmamalıdır
c. Çalışmalar yaradıcı xarakter daşımalı və kommunikativ yönümlü olmalıdır

Yuxarıda göstərilənləri nəzərə alaraq biz ispan dilində qrammatik materialların və onların funksiyalarının praktik şəkildə mənimsənilməsinə yönəlmiş şifahi və yazılı çalışmalar sistemini işləyib hazırlamağı önəmli hesab edirik.

Kommunikativ dil təlimi prosesində bütün çalışmalar nitq xarakterli olduğu üçün hazırlıqlı çalışmalar da daxil olmaqla bütün qrammatik çalışmalar ispan dilində ünsiyyətin yaradılmasına və anlaşılmasına xidmət etməlidir.Əsasən aşağıdakı qrammatik çalışma növlərindən istifadə olunur: "təkrar çalışmalar", "boşluqların doldurulması", "struktur çalışmalar", " fikrin başqa tərzdə şərh edilməsini əks etdirən çalışmalar"(4)

"Boşluqların doldurulması" na aid olan çalışma tipləri müxtəlifdir.Belə çalışmaların bir sıra növləri var. Belə çalışmaların bir sıra növləri var. Bu çalışmalar əasasən dialoqlar, mətnlər,şeir parçalarından ibarət olarsa,danışıq vərdişlərinin aşılanması üçün daha çox səmərə verər. Bu çalışma növlərindən bəzilərini qeyd edək:

- Yarımçıq dialoqu tamamlayın;
- Qarışıq replikaları məntiqi ardıcıllıqla düzün;
- Verilmiş sualları cavablara uyğunlaşdırın;
- Müvafiq başlığı seçin;
- Qarışıq cümlələrdən mətn düzəldin;
- Cümlənin və ya mətnin boş buraxılmış başlanğıcını tamamlayın;
- Mətnin sonunu tamamlayın

I. Conjugue los verbos entre paréntesis en pretérito imperfecto, pretérito indefinido o en pretérito pluscuamperfecto.

1. Siempre *(compartir/nosotros)* …… nuestro almuerzo con los demás.
2. Hace cinco años *(ganar/yo)* ..... una competición de gimnasia.
3. Antes *(soler/yo)* ..... comer en la cafeteria.
4. Los actores *(firmar)* ..... autógrafos después de cada función.
5. Cuando llegamos ya *(descubrir/vosotros)* ..... la verdad.
6. Rafael Azcona *(vivir)* ..... del año 1926 al 2008.
7. Edgar Degas *(pintar)* …… esencialmente bailarinas y carreras de caballos.
8. En aquella época no *(ser/nosotros)* ..... conscientes de nuestro comportamiento.
9. El año pasado, todos los alumnos *(aprobar)* ..... los exámenes finales.
10. Han publicado unas fotos de la luna como nunca antes la *(ver/nosotros)*

II. Componer frases

1) la contaminación /atmosférica /estoy /sobre/ preparando/ un estudio- Estoy preparando un estudio sobre la contaminación atmosférica.
2) Barcelona es/ desde /la última vez/ mucho /que estuve/ una ciudad/ que ha cambiado /allí.- Barcelona es una ciudad que ha cambiado mucho desde que estuve allí la última vez
3) Fui/ Yo/ a verlos/ cuando/ ellos/ habían desayunado.- Yo fui a verlos cuando ellos habían desayunado.
4) Nada/ gafas /yo/ ver /Sin/ no puedo.- Sin gafas yo no puedo ver nada.
5) ¿ para /mañana/ este traje /podría /limpiarme?- Podría limpiarme este traje para mañana
6) no se mataron/ milagro/ fue /los viajeros/ de/ El accidente /terrible.- El accidente fue terrible los viajeros no se mataron de milagro.
7) se muere /de miedo/ hay /tormenta/ cuando /Mi hermano.- Mi hermano se muere de miedo cuando hay tormenta.
8) el público/ La/ se reía /obra /a carcajadas/ es /divertidísima- La obra es divertidísima el publico se reía a carcajadas.
9) la luz/ no encendí/ estaba durmiendo/ Luis /porque/ y/ a la habitación/ de oscuras /Salí.- No encendí la luz porque Luis estaba durmiendo y salí a la habitación de oscuras

10) déjame /Por favor /en paz/ ya estoy /de /tus reproches /harto- Por favor deja me en paz ya estoy harte de tus reproches.

III . Ponga el verbo en modo y tiempo adecuado.

1. Es verdad que Lorenzo (presentarse)a las próximas elecciones.
2. Parecía evidente que la responsabilidad de todo(ser) del gente.
3. No creo que mis amigos (ir) ya a ver esa película.
4. Tráeme el plano para que te (poder, yo) indicar dónde está el Instituto.
5. Me dio rabia que, en aquella ocasión (querer,tú) engañarnos.
6. Creo que (estar) pasando algo extraño.
7. Aunque me (ayudar,tú), no me habría salido bien el examen.
8. El empleado ha afirmado que no (estar) relacionado con esta venta.
9. Tengo miedo de que Alonso (llegar) a la boda de mi primo.
10. Ayer (ir) a la playa porque hacia mucho calor.

Relacione las dos columnas.

1. Ver las estrellas	a) Controlar el gasto de dinero con cuidado
2. Estar hecho polvo	b) Fracasar un negocio, proyecto o idea
3. Estar como un niño con zapatos nuevos	c) Cooperar en un trabajo
4. Quedarse de piedra	d) Sentir un dolor insoportable
5. Arrimar el hombro	e) Enfocar una situación con paciencia
6. Irse a pique	f) Persona que no quiere gastar dinero
7. Tomarse algo con calma	g) Estar lleno de entusiasmo y felicidad
8. Comer como un pajarito	h) Comer muy poco
9. Ser un agarrado	i) Estar agotado
10. Mirar el dinero	j) Sentirse muy impresionado y sorprendido

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar:

1. Qrammatik nitq bacarıqlarının formalaşdırılması bir proses olaraq sistemli şəkildə aparılmalıdır. Reseptiv və produktiv vərdişlərin inkişaf etdirilməsi təcrid edilmiş formada deyil, əksinə onlar üçün müvafiq strukturbaza yaradılmalı və metodiki iş sistemi konkret məqsədə xidmət etməlidir.
2. Qrammatik bacarıqların yaradılması və inkişaf etdirilməsi üçün ana dilinin rolu diqqət mərkəzində saxlanılmalıdır. Produktiv vərdişlərin inkişaf etdirilməsi prosesində dillərin bir-birinə qarşılıqlı təsiri nəzərə alınmalı və

interferensiyanın mənfi amillərini aradan qaldırmaq məqsədilə məqsədyönlü iş aparılmalıdır.

3. Qrammatik bacarıqların formalaşdırılması, əsasən üç mərhələdə mümkün olur:
   a. Elementar bacarıqlar yaradılır. Tələbələr qrammatik materialları tanıyır, başa düşür.
   b. Bacarıqların inkişaf etdirilməsi mərhələsində tələbələr ispan dilində sərbəst ünsiyyət aktına daxil olurlar. Informasiyanın alınmasında və ötürülməsində fəal olmağa çalışırlar.
   c. Tələbələr hazırlıqlı nitq nümunələri və qrammatik modellər əsasında spontan olaraq fikirlərini ifadə edə bilirlər.Reseptiv və produktiv bacarıqların formalaşdırılması tələbələrin kommunikativ nitq vərdişlərinin inkişaf etdirilməsi ilə nəticələnir.

Ədəbiyyat

1. Беляев Б.В «Очерки по психологии обучения иностранным языкам» М. Академия,1965
2. Витлин Ж. Л. «Современные проблемы обучения грамматике иностранных языков», « Иностранные языки в школе».2000 №5
3. Гусейн-заде Г. Дж. «Обучение речевой коммуникации на иностранным языке», Мутачджим 2001
4. Yunusov D.N. “Xarici dillərin tədrisi:problemlər və mülahizələr. Azərbaycanda xarici dillər”. 2007/2
5. F.Castro “Uso de la gramática española” Nivel elemental, intermedio, avanzado
6. M.Baralo, M.Genís,M.E.Santana “En Vocabulario” Niveles
7. M.Dolores Martínez e Isabel Ordeig “Practica tu español”

A SYSTEM OF EXERCISES THAT SUPPORT THE FORMATION OF GRAMMATICAL SKILLS IN THE SPANISH LANGUAGE

Summary

To master the grammar of the language is to acquire the ability to understand information in the process of listening and reading in a foreign language, to use specific grammatical material in written and oral speech.

Grammar skills are divided into two groups: receptive and productive. Receptive grammar skills include listening and reading, and productive grammar skills include speaking and writing. The types of work that serve to form receptive grammatical skills are: recognizing grammatical constructions and understanding their meaning options, distinguishing similar grammatical forms, determining the types of simple and complex sentences, finding a specific grammatical form, the

meaning of a structure in texts, etc. issues: correcting and using grammatical form or composition, correct use of specific grammatical material in written and oral speech are considered characteristic for productive grammatical skills.

The step-by-step, step-by-step, sequential, related studies for creating communicative grammar skills during the teaching of the Spanish language are grouped according to their functions as follows.

1. Studies that develop the ability to understand
2. Studies of a reproductive nature, which lay the foundation of the ability to express
3. Reproductive-productive studies that develop expressive skills
4. Studies of a lexical-grammatical nature that strengthen the ability to express
5. Studies of a communicative nature that develop management skills

Since all activities in the process of communicative language training are of a speech nature, all grammatical activities should serve to create and understand communication in Spanish. Mainly, the following types of grammatical activities are used: repetitions, filling in gaps, structural activities, expressing one's thoughts orally or in writing.

Key words: grammatical skills, learning system, communication speech skills

СИСТЕМА УПРАЖНЕНИЙ, СПОСОБСТВУЮЩИХ ФОРМИРОВАНИЮ ГРАММАТИЧЕСКИХ НАВЫКОВ ИСПАНСКОГО ЯЗЫКА

Резюме

Овладеть грамматикой языка означает приобрести способность понимать информацию в процессе прослушивания и чтения на иностранном языке, использовать специфический грамматический материал в письменной и устной речи.

Грамматические навыки делятся на две группы: рецептивные и продуктивные. К рецептивным грамматическим навыкам относятся аудирование и чтение, а к продуктивным грамматическим навыкам относятся устная и письменная речь. Видами упражнений, служащие для формирования рецептивных грамматических навыков, являются: узнавание грамматических конструкций и понимание вариантов их значения, различение сходных грамматических форм, определение типов простых и сложных предложений, нахождение конкретной грамматической формы и значения конструкции в текстах, и другие вопросы: исправление и использование грамматической формы или композиции, правильное использование определенного грамматического материала в письменной и устной речи считаются характерными для продуктивных грамматических навыков.

Поэтапные, пошаговые, последовательные, взаимосвязанные занятия по формированию коммуникативных грамматических навыков при обучении испанскому языку сгруппированы по своим функциям следующим образом.

1. Упражнения, развивающие способность понимать
2. Упражнения репродуктивного характера, которые закладывают основу способности к самовыражению
3. Репродуктивно-продуктивные упражнения, развивающие выразительные способности.
4. Упражнения лексико-грамматического характера, укрепляющие умение выражать
5. Упражнения коммуникативного характера, развивающие управленческие навыки.

Так как все действия в процессе коммуникативного обучения языку носят речевой характер, то все грамматические действия должны служить созданию и пониманию общения на испанском языке. В основном используются следующие виды грамматических действий: повторение, заполнение пропусков, структурное действие, выражение свои мысли устно или письменно.

Ключевые слова: грамматические навыки, система обучения, коммуникативные речевые навыки

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Quliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ CUMA QIZI HACIYEVA
ADPU
E/mail: afaqhaciyeva@mail.ru
ID: https://orcid.org:0000-0003-0535-6818
(050) 577-91-11

AZƏRBAYCANDA REKLAM DİLİNƏ DAİR TƏLƏBLƏR

XÜLASƏ

Reklam öz mahiyyətinə görə malların və xidmətlərin istehlak xassələri haqqında məlumat verməklə, həmin məhsullara qarşı alıcılıq qabiliyyətinin formalaşdırılması prosesidir. Lakin reklam hər hansısa bir əmtəəyə alıcı seçərkən istənilən forma və vasitələrdən istifadə edə bilməz. Belə ki, reklam mətnlərinin hazırlanmasına xüsusi diqqət yetirilməli, reklam mətnləri ictimai əxlaq normalarına uyğun olaraq hazırlanmalıdır. Burada diqqət çəkən əsas məsələlərdən biri də reklamın dilidir. Belə ki, reklam mətnlərində istifadə olunan dil əxlaqi normaları özündə ehtiva etməklə yanaşı, eyni zamanda da aydın, hər kəs üçün əlçatan formada olmalıdır.

Məqalənin əsas məqsədi Azərbaycan Respublikasında yayımlanan reklamlarda verilən mətnlərə, eləcə də reklam dilinə dair qoyulmuş tələblərin xarakterik xüsusiyyətlərini tədqiq etməkdir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün ilk öncə reklam və onun mahiyyəti, eləcə də reklamın insan həyatında tutduğu mövqe araşdırılmalı, bu sahəyə dövlət nəzarətinin cari səviyyəsi təhlil olunmalı, eyni zamanda da dil baxımından reklamlar qarşısına qoyulmuş əsas tələblər araşdırılmalıdır.

Açar sözlər: *reklam, reklam dili, vətəndaş mövqeyi, reklamın təsir dairəsi.*

Афаг Джума кызы Гаджиева

ТРЕБОВАНИЯ К ЯЗЫКУ РЕКЛАМЫ В АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

Реклама, по своей сути, представляет собой процесс формирования покупательной способности этих товаров путем предоставления информации о потребительских свойствах товаров и услуг. Однако реклама не может использовать какие-либо формы и средства при выборе покупателя на какой-либо товар. Таким образом, подготовке рекламных текстов следует уделить особое внимание, а рекламные тексты должны быть подготовлены в соответствии с общественными моральными нормами. Одним из основных вопросов, которые здесь выделяются, является язык рекламы. Таким образом,

язык, используемый в рекламных текстах, должен содержать нормы морали и в то же время быть понятным и доступным каждому.

Основной целью статьи является изучение особенностей требований к текстам, предъявляемым к рекламным объявлениям, публикуемым в Азербайджанской Республике, а также языка рекламы. Для достижения поставленной цели в первую очередь следует исследовать рекламу и ее сущность, а также место рекламы в жизни человека, проанализировать современный уровень государственного контроля в этой сфере, и в то же время, должны быть исследованы основные требования к рекламе с точки зрения языка.

Ключевые слова: *реклама, язык рекламы, гражданская позиция, сфера рекламы.*

Afaq Juma gizi Hajiyeva

ADVERTISING LANGUAGE REQUIREMENTS IN AZERBAIJAN

ABSTRACT

Advertising, by its essence, is the process of forming purchasing power towards those products by providing information about the consumer properties of goods and services. However, advertising cannot use any form and means when selecting a buyer for any commodity. Thus, special attention should be paid to the preparation of advertising texts, and advertising texts should be prepared in accordance with public moral norms. One of the main issues that stand out here is the language of advertising. Thus, the language used in advertising texts should contain moral norms and at the same time be clear and accessible to everyone.

The main purpose of the article is to study the characteristic features of the requirements for the texts given in the advertisements published in the Republic of Azerbaijan, as well as the advertising language. In order to achieve the set goal, first of all advertising and its essence, as well as the position of advertising in human life, should be investigated, the current level of state control in this field should be analyzed, and at the same time, the main requirements for advertisements in terms of language should be investigated.

Keywords: *advertising, advertising language, civic position, scope of advertising*

GİRİŞ

Reklam mətnləri alıcıların etimadını itirməməyə istiqamətlənməli, eləcə də ayrı-ayrı istehlakçı qruplarının bilik və təcrübələri nəzərə alınmaq şərti ilə hazırlanmalıdır. Reklam mətnləri insanlarda həyəcan, qorxu kimi hissləri oyatmamalı, eyni zamanda da mövhumatçılıq prinsiplərindən uzaq olmalıdır. Çünki əhalinin bütün təbəqələri dini inanclara sahib deyil. Bir qism əhali islam, digərləri xristian, buddist və digər dinlərə inanırlarsa, bir qrup insan isə heç bir dini inanca sahib deyil. Reklam da ayrı-ayrı əhali qruplarını əhatə etmədiyindən, bütünlüyü və

tamlığı özündə ehtiva etdiyindən bu tip məsələlərə qarşı xüsusilə həssaslıqla yanaşılmalıdır.

Reklamlar insan həyatına inanılmaz müdaxilə etmək iqtidarına malikdir. Reklam mətnlərinin düzgün seçilməsi insanların bir məhsuldan imtina edib digərinə meyl etməsinə gətirib çıxarır. Aparılan statistik təhlillərdən məlum olmuşdur ki, 70 yaşına çatan bir insanın müşahidə etdiyi, izlədiyi ümumi reklam sayı 2 milyona yaxındır. Statistik rəqəmin böyüklüyü də onu göstərir ki, reklamlar insan həyatında müstəsna rola və təsir imkanlarına malikdir.

Azərbaycan Respublikasında reklam mətnlərinin hazırlanmasına qoyulmuş tələblər

Reklam mətnləri hazırlanarkən qarşıya qoyulmuş əsas tələblərdən biri də reklamda yer alacaq mətnlərin şiddəti, gücü müdafiə etməsinə qoyulan qadağalardır. Çünki müasir dövrümüzdə reklam bütün yaş kateqoriyalarından olan şəxslərin qarşısına küçədə, ictimai nəqliyyatda, televiziya kanallarında, eyni zamanda da internet portallarında çıxa bilir. Bu səbəbdən də reklam mətnləri hazırlanarkən əhalinin yaş kateqoriyaları da nəzərə alınmalı, reklam mətnləri hər hansısa gücün müdafiəsinə yönəlmiş formada olmamalıdır.

Reklam mətnlərinin hazırlanması zamanı qarşıya qoyulmuş digər bir tələb isə mətnlərin ayrıseçkiliyə, eləcə də dini və cinsi fərqqoymaya uğramadan yazılmasıdır. Çünki reklamın əsas məqsədi təqdim etdiyi məhsula daha çox alıcı tapmaq, həmin məhsulun asanlıqla realizə olunmasını təmin etməkdir. Reklamlardakı ayrıseçkiliyin nümayiş olunması insanlara şüuraltı təsir edərək, həmin reklamın təqdim etdiyi məhsuldan da kənar gəzməyə sövq edir. Başqa sözlə desək, itici formada verilmiş reklam məhsula alıcı tapmaq prosesini çətinləşdirməklə yanaşı, mövcud alıcıların da kənarlaşmasına səbəb olur. Məşhur Amerika brendi olan "Old Spice" kometik vasitəsinin reklamı ilə tanış olaq [5]: *"Atalar deyib ki, kişidən tər iyi gələr, Qardaş, kimin atası deyib? Sənin, ya mənim? Onda heç zaman çimməyək də. Kişidən kişi qoxusu gələr. Bax, Old Spice dezodorantı, vurursan bədənə, çıxırsan çölə. Köynək zad da geyinmirsən. Qoy, külək vursun, hamı tutsun əsl kişi qoxusunu. Əlimdəki bilmirəm nədir, çəkilişdən sonra qoyublar. Hər nədirsə, bilirəm ki, pul, briliant boş şeydir, əgər kişidən kişi qoxusu gəlmirsə... Bunu mənim qıratım da bilir, yox Düratım da. Old Spice, əsl kişi qoxusu."*

Reklam mətninə diqqətlə baxsaq, aydın olar ki, Old Spice kosmetik vasitəsi kişilərin istehlak malları siyahısına daxil edilmiş məhsullardandır. Başqa sözlə desək, kişilər tərəfindən istifadə olunan məhsuldur. Lakin reklam mətninin içərisində dəfələrlə və xüsusi innotasiya ilə vurğulanan "əsl kişi" ifadəsi qəbul edilməzdir. Birincisi, burada "əsl kişi" ifadəsinin işlədilməsi cinsi orientasiya baxımından ayrıseçkiliyə işarədir. İkincisi, bu ifadə digər marka istifadəçilərinə qarşı təhqirdir. Müəssisə reklamdan istifadə edərək özünə alıcı kütləsi toplamağa çalışmalıdır, digər

markaların istifadəçilərini təhqir etməklə reklam mətnlərinin formalaşdırılması qanunauyğun hal deyildir.

Məlum məsələdir ki, Old Spice ABŞ istehsalı olan məhsuldur. Belə bir məhsulun reklamında Koroğlu dastanına müraciət olunması, Qırat və Dürat kimi milli ornamentlərə malik simvolik ifadələrin xarici məhsulun satılması məqsədilə istifadə edilməsi də milli-mənəvi dəyərlərin gözlənilməməsi kimi neqativ halları ortaya çıxarır.

Məlumdur ki, hər bir reklamın effektivlik dərəcəsi var və bu dərəcə reklamın ictimai həyata daxil olduqdan müəyyən müddət sonra müəssisə tərəfindən yoxlanılır. Bu yoxlamanın həyata keçirilməsində əsas məqsəd reklam vasitəsilə müəssisənin nə qədər yeni alıcı topladığını müəyyən etməkdir. Çünki reklamın hazırlanması, eləcə də onun ictimai formada nümayiş olunması böyük xərclər tələb edir. Belə olan halda isə reklam effektiv olmaqla ona çəkilən xərcləri bir xeyli üstələməlidir. Apardığımız araşdırmalar nəticəsində məlum olmuşdur ki, Old Spice reklamının ictimai efirlərə daxil olmasından 2 ay sonra məhsulun satışında 8 faizlik geriləmə müşahidə olunmuşdur. Bu isə onu deməyə imkan verir ki, uğursuz reklam mətnləri məhsula yenici alıcı tapmır, əksinə mövcud alıcıların kənarlaşmasına səbəb olur.

Reklamın müxtəlif formalarda gündəlik həyatımıza daxil olur. Bu baxımdan reklamın növlərini bir-birindən fərqləndirirlər. Reklamın əsas növləri aşağıdakı sxemdə verilmişdir.

Sxem 1. Reklamın növləri



Mənbə: *Гольман И.А. Рекламная деятельность: планирование, технологии, организация. Москва, «Гелла – принт», 2020 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Sxem 1-dən də göründüyü kimi reklamlar sosial və kommersiya reklamları olmaqla iki əsas növə bölünür. Sosial reklamlar dedikdə, insanların şüurunda ictimai əxlaqi normalara uyğun olaraq müəyyən olunmuş davranış qaydalarının formalaşdırılmasına, eləcə də bu davranış qaydalarının təkmilləşdirilməsinə, əhalinin diqqətinin cəmiyyətdəki sosial məsələlərə yönəldiməsinə, həmçinin də mədəni irsin qorunmasına, xeyriyyəçilik fəaliyyətinin təmin olunmasına və maarifləndirmə siyasətinin təşkil olunmasına istiqamətlənmiş reklamlar başa düşülür. Bu tip

reklamların əsas məqsədi sosial məsələlərin öz həllini tapmasıdır. Bu tip reklamlar maddi formada gəlir gətirmədiyi üçün onlara qeyri-kommersiya reklamları da deyilir.

Şəkil 1. Sosial reklama aid nümunə

Şəkil 1-də verilmiş reklam sosial reklam nümunəsi olmaqla bələdiyyə seçkilərinin keçirilməsinə və əhalinin bu seçkilərdə iştirakının təmin edilməsinə istiqamətlənmişdir. Sosial reklamın əsas sifarişçiləri qismində dövlət orqanları, ayrı-ayrı mərkəzi icra hakimiyyəti orqanları, eyni zamanda da fiziki və hüquqi şəxslər çıxış edir. Sosial reklamlarda reklam istehsalçısının, reklam agentinin, eləcə də reklam yayıcısının adı verilə bilməz. Sosial reklamların digər bir xarakterik xüsusiyyəti isə bu tip reklamlarda əmtəə nişanlarının və loqotiplərin olmamasıdır. Sosial reklamlar birmənalı olaraq sosial məsələlərin həllini nəzərdə tutduğundan burada reklam istehsalçısının kim olmasının da bir əhəmiyyəti olmur.

Reklam digər bir növü isə kommersiya reklamları hesab olunur. Sosial reklamlarla müqayisədə kommersiya reklamları daha geniş yayılmış və bütün əhali təbəqələrinə təsir imkanlarına malikdir. Kommersiya reklamlarının əsl məğzi də onların əhalinin hər nəfərinə təmas eləmə qabiliyyətində olmasıdır. Çünki kommersiya reklamları məhsulun alıcılıq qabiliyyətinin artırılmasında əsaslı dərəcədə iştirak edir.

Kommersiya reklamları da müxtəlif növlər üzrə təsnifləşdirilir. Aşağıdakı sxemdə kommersiya reklamlarının əsas növləri verilmişdir.

Sxem 2. Kommersiya reklamlarının növləri

Mənbə: *Karabacak, E. G. (1997). Tüketicilerin Korunması Yönünden Aldatıcı Yanıltıcı Reklamların Etkileri: Gıda Maddeleri Üzerine Bir Araştırma. Yayınlamamış Doktora Tezi. İzmir: Dokuz Eylül Üniversitesi: 111.*

Sxem 2-dən də göründüyü kimi kommersiya reklamları mətbuat, sərgi-vitrin və çöl reklamları kimi növlər üzrə təsnifləşdirilir. Mətbuat reklamlarına televiziya və radio kanallarında nümayiş etdirilən və internet portalları vasitəsilə verilən reklamlar aid edilir. Sərgi-vitrin reklamlarına isə hər hansısa bir əhəmiyyətli tədbirin keçirilməsi zamanı vitrin formasında təqdim olunan reklamları misal göstərə bilərik. Çöl reklamları isə küçə və aparıcı yollarda quraşdırılmış reklam tablolarını, eləcə də böyük reklam plakatlarını misal göstərə bilərik.

Reklam dilinin düzgünlüyünün təmin olunması baxımından tərtib olunan reklamlara dair müxtəlif tələblər qoyulur. Belə ki, reklam mətnində dövlət əleyhinə çıxışlara, eləcə də dövlətə qarşı xəyanət, qiyam, üsyan, dövlət çevrilişi etməyə istiqamətlənmiş fikir və ifadələr yer almamalıdır. Reklam mətnlərində bir qayda olaraq insan şərəf və ləyaqətini alçaldan, milli mənəvi dəyərlərə qarşı çıxan, təcavüzü, zorakılığı və terrorçuluğu təbliğ edən, insanların dini və siyasi əqidəsinə, eləcə də onların ictimai təhlükəsizliyinə xələl gətirə biləcək elementlərə yer verilə bilməz. Reklamların mətnində cəmiyyətə və ətraf mühitə zərər vura biləcək materiallara da yer verilə bilməz. Azərbaycan Respublikasında yayımlanan reklamlarda xüsusilə diqqət edilməli məqamlardan biri də dövlət rəmzlərinin və digər dövlət atributlarının təhrif olunaraq verilməsi hallarına yol verilməməsidir.

Son dövrlərdə iqtisadiyyatın rəqəmsallaşması, ənənəvi iqtisadiyyatdan rəqəmsal iqtisadiyyata keçid prosesinin sürətlənməsi elektron ticarətin də həcminin

artmasına təsir edib. Bu səbəbdən də yeni reklam növləri yaranıb formalaşmağa başlamışdır. Yeni reklam növlərinin ərsəyə gəlməsi reklam dilinə də öz təsiri göstərir. Belə ki, məsafədən satış forması ilə realizə olunan məhsulların reklam mətnində aşağıdakı sxemdə qeyd etdiyimiz məlumatlar da yer almalıdır.

Sxem 3. Məsafədən satış formasında realizə edilən məhsulların reklam mətninə dair tələblər



Mənbə: Reklam haqqında" Azərbaycan Respublikasının Qanununun 14-cü maddəsi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sxem 3-dən də göründüyü kimi məsafədən satış həcminin artırılması ilə əlaqədar təqdim olunan reklamların mətnində bir qayda olaraq məhsul istehsalçısının (hüquqi şəxs) adı, hüquqi ünvani, VÖEN-i, sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs bu fəaliyyəti fiziki şəxs qismində həyata keçirərsə, bu halda fiziki şəxsin adı, soyadı və atasının atı, eləcə də VÖEN-i, həmçinin də fiziki və hüquqi şəxslərin əlaqə məlumatları mütləq şəkildə verilməlidir.

Əmtəə məhsullarının qiyməti dəyişərsə, və yaxud da istehsalçı müəyyən müddətə endirim təklif edərsə, bu zaman reklamın mətnində bir qayda olaraq endirim tətbiq edilməyə başladığı ilk tarix, eləcə də bu endirim kompaniyasının bitmə tarixi, endirimin tətbiq olunduğu məhsul və xidmətlərin tam siyahısı, endirimdən öncəki qiymət, endirim faizi və endirimdən sonrakı qiymətlər mütləq şəkildə qeyd olunmalıdır [1]. Bununla alıcı reklama baxarkən dərhal endirimin hansı məhsullara tətbiq edildiyindən xəbərdar olmalı, endirimin ona gətirəcəyi iqtisadi fayda haqqında təsəvvürlərə malik olmalıdır. Lakin, müasir dövrdə reklam mətnlərində ən çox pozulan hallardan biri də məhz endirimli reklamların təhrif olunmuş formada verilməsi, məlumatların alıcıda tam informasiya yaratmamasıdır.

Şəkil 2. Endirimli məhsulların reklamında dil tələbinin pozulması halı

Şəkil 2-də uşaq paltarlarının satışını həyata keçirən "Bebetto" uşaq mağazasının reklamı verilmişdir. Reklamda dil tələbinin açıq aşkar pozulması hallarının şahidi oluruq. "50 %-dək endirim" ifadəsi tam formada anlaşılmır. Birincisi ona görə ki, endirim faizinin dəqiq həcmi qeyd olunmamışdır. %0 faizədək o deməkdir ki, bu endirim 5% də ola bilər, 45 faiz də ola bilər. Adətən bu tipli reklamlardan aşağı faizli endirim tətbiq olunduğu hallarda istifadə edirlər. Kənardan müştərinin mağazaya asanlıqla daxil olmasını təmin etmək üçün endirim faizlərini daha yüksək göstərib, sonuna "-dək, -kimi" vasitələr artırmaqla mağazada alıcıya deyəcəkləri qiymətlər baxımından bir növ özlərini sığortalamış olurlar. Lakin reklam mətnində bir qayda olaraq, endirim faizinin məbləği, eləcə də endirimdən əvvəl və endirimdən sonrakı qiymətlər mütləq şəkildə göstərilməlidir. "Bebetto" uşaq mağazasının diqqət qaçırdığı başqa bir nüans isə endirimin tətbiq edildiyi tarixlərlə bağlı informasiyanın reklamda yer almamasıdır.

Şəkil 3. "Zeyland" mağazasının endirimli məhsulların reklamında dil tələbini pozması halı

Şəkil 3-ə diqqət edək. İlk baxışdan bu reklam mətnində hər hansı bir səhvin olmadığını görürük. Mağazanın adı dil tələbi normalarına uyğun olaraq yazılıb. "Theyland" yerinə "Zeyland" yazılması düzgün addımdır. Endirim dərəcəsi də açıq-aydın şəkildə göstərilib-50%. Lakin endirimdən əvvəlki və endirimdən sonrakı qiymətlərlə bağlı heç bir məlumat yoxdur. İkinci bir problem isə endirim tarixlərinin qeyd olunmamasıdır. Bu endirim nə zaman başlayıb və nə zaman bitəcəyinə dair

alıcıda heç bir fikir formalaşa bilmir. Digər bir problem isə bu endirimin hansı məhsullara tətbiq edilməsi ilə bağlıdır. “Seçilmiş mallara” söz birləşməsi nəyi ifadə edir-reklamdan anlamaq olmur. Apardığımız araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycan reklam bazarında endirimli məhsulların satışı ilə bağlı təqdim edilmiş reklam mətnlərində buraxılan səhvlər və boşluqlar demək olar ki, hər bir məsul reklamında qarşımıza çıxır. Bu reklamlar içərisində nisbətən ideal formada olanı və dil tələbənin bir çox parametrlərinin gözlənildiyi reklam ilə tanış olaq.

Şəkil 4. “OBA” marketlər şəbəkəsinin endirimli məhsul reklamı

Şəkil 4-dən də aydın olur ki, reklam mətnində bir sıra tələblər gözlənilmişdir. Reklamda məhsulun endirindən əvvəlki qiymətinin 7,59 manat olması, endirimdən sonra isə 5,75 manat təşkil etməsi kimi detallara diqqət edilmişdir. Eyni zamanda isə endirimin müddətinin 18-24 noyabr tarixlərində həyata keçirilməsinə dair də alıcıda fikir formalaşır. Lakin reklamvericinin unutduğu yeganə nüans endirim faizinin dərəcəsi ilə əlaqədardır. Endirimdən əvvəlki və endirimdən sonrakı qiymətlərin verildiyini nəzərə alsaq, bu, çox da böyük səhv kimi qəbul edilməməlidir.

Reklam mətnlərinin hazırlanmasında diqqət çəkən ən əsas nüanslardan biri də reklamda istifadə olunacaq sözlərin düzgün seçilməsidir. Belə ki, reklamda yalan vədlərin verilməsi son nəticədə istehlakçının hüququnun pozulması deməkdir ki, bu da istehsalçının məhkəmədə çətin vəziyyətdə qoya bilər. Dünya praktikasına nəzər salsaq görərik ki, bu kimi hadisələr heç də az olmamışdır. Ən məşhur reklamlardan biri olan “Red bull” enerji içkisinin reklam mətni ilə tanış olaq [4]:

“ *Qullar, kəmərlərdan möhkəm yapışın, Sibir hələ uzaqdadır.*
Təbili bu cürə çalsan, gedib çata bilməyəcəyik, ya da tamam çökəcəyik.
Təbilsiz avar çəkə bilməzsiniz?
Yaxşı olar ki, sən də bir Red Bul içəsən.

Red Bull,
Həə, enerji içkisi. Bədəni və beyni canlandırır.
Red Bull qanadlandırır".

Uşaqdan-böyüyə əksər insanların dilinə düşmüş "Red Bull qanadlandırır" ifadəsi gəlin görək Red Bull istehsalçısına nə qazandırıb?! Amerika vətəndaşı Benjamin mütəmadi olaraq 10 il Red Bull içkisini qəbul etdikdən sonra istehsalçı şirkəti məhkəməyə verib. Məhkəmə müraciət edən Benjamin iddia ərizəsində yazıb: "10 ildən artıqdır ki, "Red Bull" enerji içkisini qəbul edirəm. Lakin reklamda deyildiyi kimi bədənimdə və beynimdə heç bir fiziki və zehni dəyişiklik olmayıb. Ən əsası isə məni qanadlandıra bilməyib". Nəticədə məhkəmə prosesini udan Benjamin reklamda yalan vəd verən "Red Bull" şirkətindən 13 milyon ABŞ dolları həcmində maddi təzminat ala bilib.

NƏTİCƏ

Yuxarıda qeyd olunanlar əsasında yekun olaraq onu deyə bilərik ki, reklamlarda istifadə olunan dil normalarının tələblərinin aşkar şəkildə pozulması hallarına əksər reklamlarda rast gəlinir. Bu tip halların aradan qaldırılması üçün bu sahəyə dövlət nəzarətinin daha da gücləndirilməlidir, eləcə də reklamların ictimaiyyətə çatdırılmasından öncə onların mətni mütləq şəkildə yoxlanılmalı, bu sahənin mütəxəssislərinin işə cəlb edilməsi ilə reklam mətnlərinin redaktə olunması təmin edilməlidir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 15 may 2015-ci il № 1281-IVQ
2. Karabacak, E. G. (1997). Tüketicilerin Korunması Yönünden Aldatıcı Yanıltıcı Reklamların Etkileri: Gıda Maddeleri Üzerine Bir Araştırma. Yayınlamamış Doktora Tezi. İzmir: Dokuz Eylül Üniversitesi: 111.
3. Гольман И.А. Рекламная деятельность: планирование, технологии, организация. Москва, «Гелла – принт», 2020 kitabının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.
4. Red Bul qanadlandırır. Red Bull-un reklamı. https://www.youtube.com/watch?v=sA1Firm3EkA
5. Old Spice reklamı. https://www.youtube.com/watch?v=815p71DWyyg

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Səmədova tərəfindən çapa tövsiyə olunmuşdur

B.m.**ABIYEVA VALİDƏ**
m.SƏFİXANOVA AFƏT
Azərbaycan Tibb Universiteti
asəfixanova@gmail.com

İNGİLİS DİLİNDƏ "THERE + TO BE" VƏ ONUN CÜMLƏDƏ YERİ

XÜLASƏ

Bu məqalədə yer zərfliyi rolunda olan "there + to be" ifadəsindən bəhs edilir.

This often results in some form of mediation whose realization can be recognised through language (Faiq, 2004, 2).

The concepts of domestication and foreignisation, addressed by Venuti (1995, 1996 and 1998), have been presented as opposed cultural translation strategies that have created a longitudinal dispute among both translation theorists and translation practitioners. This is due to the fact that domestication leads to translation violence through the reconstruction and adaptation of the source text so as to fit the beliefs and values specific to the target language culture, whereas foreignisation gives rise to exoticism through inserting cultural references peculiar to the source language culture in the target text, thus creating foreign terms to the culture of the target reader. The present paper argues for a middle ground; using a double-strategy as a cultural translation strategy which aims at both retaining the content of the source text in the target text and producing a target text which can be comprehended by the target reader.

Culture is inextricably bound to translation. Transferring culture from a source text (ST) to a target text (TT) is a fundamental aspect of the phenomenon of translation. Translators are entrusted with the task of bridging cultural differences and enabling TT receptors to understand the original message in its entirety, just like its ST receptors. Taking into consideration the wide array of culture-specific terms present in each language, it only follows logically that, sometimes, these terms can be notoriously difficult to translate. However, many translation theorists purport that difficult though it is to handle culture-specific terms in translation, it is not entirely impossible. In that respect, they classify the culture-specific terms in various domains and propose numerous translation strategies for rendering culture-specific terms (e.g. borrowing, adaptation, explanation, generalization, reduction, etc.), their general tendency being either towards ‘domesticating’ or ‘foreignising’ the translated text.

INTRODUCTION

Culture goes hand in hand with language and is a fundamental aspect of translation. The task of translators is not merely to translate a text; they need to strive to preserve the same impact and to evoke the same feelings and reactions on the part

of the target text receptors, just as the original text has done in the case of the source text readership. In doing that, translators invariably need to handle the transference of culture, i.e.the culture aspects of the original text into the translated text with special deliberation and care. In addition to the consensus regarding the significance of translating culture, two general approaches seem to recur repeatedly in translation literature – the 'foreignising' and 'domesticating' approach. According to the former, the receptors might find themselves in a position not to understand the translated text completely because of the foreign elements that have been transferred from the source text and preserved in it. In that case, they are at least exposed to the foreign elements, and, thus, are in a position to expand their viewpoints with new, insightful information about the foreign culture[6,p90]. Conversely, the latter approach gives prominence to the target language and culture. Consequently, the receptors are led to relate to concepts and mode of behavior familiar to them and relevant to their own culture. The advantage of this approach is that the receptors will most probably have a much better understanding of the text as a whole, as the foreign elements will be replaced by domestic ones; however, the likelihood for them to arrive at new revelations related to the foreign culture is minimal[4,p55].

The English word 'Culture' is derived from the Latin term 'Cult or cultus' meaning cultivating or refining and worship. It means cultivating and refining a thing to such an extent that its end product evokes our admiration and respect. This is practically the same as 'Sanskriti of the sanskriti language. The term 'Sanskriti' has been derived from the root 'Kri (to do) of Sanskriti language. Three words came from this root 'Kri,' 'Prakriti' (basic matter), 'Sanskriti' (refined matter) and vikriti (modified). When 'Prakriti' or a raw materials is refined it becomes 'Sanskriti' and when broken or damaged it becomes 'Vikriti'.

Translation is the communication of the meaning source from one (source to another language (target language). So translation consists of language and culture. Larson claimed that 'Translation is a complicated process. It is no longer to be a mere cross-linguistic activity but it significantly is cross-cultural communication. Translation is necessary for spread of information, knowledge and ideas. It is absolutely necessary for effective and empathetic communication between different cultures. Its therefore, is critical for social harmony and peace. Limitations in translation is one of the specific features of culture, not necessarily imposed from outside world. Behaviors which are acceptable will every from location to location[3,p56].

Culture exposes how certain groups of people behave in relation to their beliefs social habits, customs, and traditions. Language plays a key in defining culture. Language is a complex communication system that humans adapt depending on their cultural backgrounds. Translating is a converting process that helps people who

speak other languages to understand one another. It helps to connect cultures and eradicate the cultural differences that may be present.

The translation is important to both language and culture because it enables better communication between two people. The relationship that exists between translation and culture helps to bridge the voids that are created by different languages. The interdependency that exists within the human race such as the need to trade, has given a high status to translations[4,p.56].

arbonell (2004, 27-28) argues that both linguistic and cultural studies are unable to offer solutions in addressing cultural problems arising from translation between two different cultures. He claims that translating from Arabic into Spanish, for instance, involves an inevitable degree of exoticism where neither foreignisation, nor domestication can appear flexible to both translation theorists and/or professional translators. On the other hand, he asserts that readers can make the unfamiliar references coherent through accommodating and learning a new system of classes and categories as well as different practices of human being that they can provide a description thereof. Consequently, foreignness becomes limited (Carbonell, 2004, 30). Carbonell (2004, 30) goes on to explain that in any discursive construction formulated in the form of a particular text, the assumption that all elements contained within this very text are familiar to the target reader is not plausible, nor is the assumption that the whole text looks alien to the target reader acceptable. Indeed, there are a relatively limited number of texts aspects that are responsible for making the target text known to the target reader, or otherwise alien to him/her. However, and in any case, Carbonell (2004,

37) rejects the concept of fidelity to the source culture, pointing out that loyalty to the culture of the original text often raises problematic ethical questions. Whenever there exists a cultural gap between the source text and the target language, ideological choices make translators suffer and govern the options available to them (Carbonell, 2004, 37-38)

Carbonell argues that both linguistic and cultural studies are unable to offer solutions in addressing cultural problems arising from translation between two different cultures. He claims that translating from Arabic into Spanish, for instance, involves an inevitable degree of exoticism where neither foreignisation, nor domestication can appear flexible to both translation theorists and/or professional translators. On the other hand, he asserts that readers can make the unfamiliar references coherent through accommodating and learning a new system of classes and categories as well as different practices of human being that they can provide a description thereof. Consequently, foreignness becomes limited[2,p89]. Carbonell goes on to explain that in any discursive construction formulated in the form of a particular text, the assumption that all elements contained within this very text are familiar to the target reader is not plausible, nor is the assumption that the whole text looks alien to the target reader acceptable.

Indeed, there are a relatively limited number of texts aspects that are responsible for making the target text known to the target reader, or otherwise alien to him/her. However, and in any case, Carbonell rejects the concept of fidelity to the source culture, pointing out that loyalty to the culture of the original text often raises problematic ethical questions. Whenever there exists a cultural gap between the source text and the target language, ideological choices make translators suffer and govern the options available to them [2, p.36-37].

It is obvious that a good translation gives the reader the same feel that he/she might get while reading a particular text in his/her native language. The importance of translation in culture is that it helps to communicate the beliefs and ideas in a proper way which could be understood by people from different literary and cultural backgrounds. Deeply held taboos in one culture can be completely neutral in another culture. Translation must be sensitive to the moral, spiritual values associations of the words and symbols in the language to find meaning equivalents. The values dimension is where some of the worst translation confounding takes place [4,p.76].

Traditionally, there is something which is lost in translation process. Limitation and censor as obstacles that limit translators in conveying the "semantic" message in the receptor language. The other limiting factor which translators encounter is moral filtering being based on religion, family, society rules, and culture, etc. Moreover limitation related to different kinds of the audience. So it is the time to say that culture itself is a filter in translation. Difficulties arising out of differences of cultures constitute the most serious problems for translators and have produced the most far-reaching misunderstanding among readers. Culture itself has its own limitation in transferring the source text into target text. Each society or group of people based on their historical background, local situations, and religion with their specific language, construct their own culture which is respected, performed and accepted along with its limitations. Limitation in translation is one of the specific features of culture, not necessarily imposed from outside world. Behaviors which are acceptable will vary from location to location. Nowadays, the major problem in translation is being certainly influenced by different cultural norms in the source language and target language. The translator's responsibility is to choose the norms that take priority over others. It depends on translator's decision if the cultural norms of the source language, target language, or a combination of both are essential to be considered.

Religion is one of those obstacles that cause problem in translation. Religion can be understood only by its cultural language and to translate this religious context we face with some limitations that cannot be translated. Because religious texts are described in an implicit way, natural and effective translation is almost impractical. Besides, religion and culture are interwined and religion has taken its root from human mind and soul, people accepte them by the core of their hearts. Therefore, it cannot be changed or distorted by any one. because it leads to stimulate people and evoke negative reaction by them. Therefore translators' job is more difficult and must

avoid such distortion or any work which is against their religion in the process of translation.

Texts usually relay ideological meaning, which makes them exposed to socio-cultural norms which are amenable to change. Intertextuality ascertains the everlasting interaction between several texts, which gives rise to the existence of text types. Following this, and from a pragmatic point of view, utterances serve as semiotic signs whose purpose is to impart a particular piece of information by a particular person to another person at a particular time period and in a particular place. The emergence of the text type focus may generally be described in terms of its inclination either to manage or to monitor a specific situation. If the main function of the text concerned is to offer a reasonable account of the situation model, 'situation monitoring' is being carried out. On the other hand, if the primary function of the text in question is to direct the situation in such a way that runs in line with the objectives and goals of the text's producer, 'situation management' is being performed.

Translation plays a vital role in making a culture universal and general. It acts as a bridge to communicate all kinds of languages specially those similar to each other considering their linguistic features and cultural customs in all parts of the world. So it links all units of the world in the global network. Moreover translation presumes the existence of boundaries between different cultures and the translator most probably is aware of these boundaries and the inevitability of crossing them. Without cultural similarities and universalities, there is no way for people of different cultures to communicate with each other and translation will be impossible. When speaking of two languages which are to be translated equivalently, translators must convey the same referential, pragmatic and interlinked meanings. However, due to differences between two cultures, semantic equivalence is limited to some.

Literature

1. Asad, T. (1995). A comment on translation, critique and subversion. In A. Dingwaney & C. Maier (eds.), Between languages and cultures (pp. 325-332). Pittsburgh: University of Pittsburgh Press.
2. Carbonell, O. (1996). The exotic space of cultural translation. In R. Alvarez & C. Vidal (eds.), Translation, power, subversion (pp. 79-98)
3. Hatim, B. (1997). Communication across cultures: Translation theory and contrastive text linguistics. Exeter: University of Exeter Press.
4. Nida, E. (2001). Contexts in translating. Amsterdam: John Benjamins
5. Nida, E. A. (1964). Towards a Science of Translating: With Special Reference to Principles and Procedures Involved in Bible Translating. Leiden: Brill.
6. Nord, C. (2001). Translating as a Purposeful Activity: Functionalist Approaches Explained. Shanghai: Shanghai Foreign Language Education Press.

Mədəniyyətin ötürülməsində tərcümənin mühüm rolu

Xülasə

Dil, mədəniyyət və tərcümənin öyrənilməsi və onlar arasındakı əlaqə dünyada insan ünsiyyətinin əhəmiyyətinə görə dəyərli məsələlərdir. Müxtəlif mədəniyyətlərə malik dillərin müxtəlifliyi və insan həyatında ünsiyyət zərurəti tərcümənin ünsiyyətdə, mədəniyyətlərin və biliklərin mübadiləsində çox təsirli bir amil olmasına səbəb olmuşdur. Beləliklə, görünür ki, dil və mədəniyyət bir-biri ilə sıx bağlıdır və tərcümə prosesində hər ikisini nəzərə almaq vacibdir. Tərcümənin necə aparılacağına dair konkret çərçivə və qüvvə olmasa da, öz cəmiyyətinin mədəni və dini normaları əsasında təbii mənanı ötürən bütün tərcüməçilər tərcümə vasitəsilə bəzi məhdudiyyətlər və senzura ilə qarşılaşırlar. Bu araşdırmada biz dillər arasında mədəniyyətlərin ötürülməsi ilə tərcümə maneələrini müzakirə edirik. Biz həmçinin müəyyən edirik ki, tərcümə mədəniyyətlərin, xüsusilə pop mədəniyyətin qloballaşmasında mühüm rola malikdir və bu, etnik vərdişlərin və adətlərin, yaxud dini dəyərlərin genişlənməsinə gətirib çıxarır. Dillər və mədəniyyətlər bir-birini tamamlayan və hər bir bölgənin mədəni xüsusiyyətləri fərqli olduğundan, tərcüməçilər yalnız eyni mənanı necə çatdırmaq üzərində cəmləməməli, həm də iki mədəni perspektiv arasındakı fərqləri göstərməyə çalışmalıdırlar. Dil müxtəlif mədəniyyətləri birləşdirən fenomen və faktordur və insanların çatdırmağa çalışdıqları hissləri və fikirləri ifadə etmək üsuludur. Biz iki və ya daha çox dil arasında mədəni anlayışların ötürülməsində tərcümənin əsas rollarını və bu prosesdə tərcüməçilərin qarşılaşdıqları bəzi maneələri və ya çətinlikləri öyrənəcəyik. Biz bilirik ki, tərcümə müxtəlif mədəniyyətlərin və ünsiyyətin kəsişməsində mühüm rol oynayır. Buna görə də tərcümə mədəniyyətin ötürülməsində əsas, fundamental və adekvat yollardan biridir, lakin senzura və hətta mədəniyyətin özü kimi bəzi məhdudiyyətlər var. Bu məqalə həm də tərcümə prosesində bəzi maneələri təmsil etmək məqsədi daşıyır. Yaxşı tərcüməçi eyni zamanda mədəni amillərdən, baxışlardan və ənənələrdən xəbərdar olmalıdır ki, mənbə mətnin xronoloji ardıcıllığını, açıq mənasını, əlaqəli fənlərin inkişafını, tarixi və dini mənşəyini şüurlu şəkildə nəzərdən keçirsin.

Açar sözlər: tərcümə,mədəniyyət dil

A. ƏSƏDOVA

ВАЖНАЯ РОЛЬ ПЕРЕВОДА В ПЕРЕДАЧЕ КУЛЬТУРЫ

РЕЗЮМЕ

Изучение языка, культуры и перевода, а также отношений между ними являются ценными вопросами в связи с важностью человеческого общения в мире. Разнообразие языков с разными культурами и необходимость общения в жизни человека привели к тому, что перевод стал очень эффективным фактором общения, обмена культурами и знаниями. Таким образом, представляется, что язык и культура тесно связаны между собой, и в процессе

перевода важно учитывать и то, и другое. Хотя может не быть конкретных рамок и требований к тому, как должен быть выполнен перевод, все переводчики, которые передают естественное значение на основе культурных и религиозных норм своего общества, сталкиваются с некоторыми ограничениями и цензурой при переводе. В этом исследовании мы обсуждаем переводческие барьеры через перенос культур между языками. Мы также определяем, что перевод играет важную роль в глобализации культур, особенно поп-культуры, ведущей к расширению этнических привычек и обычаев или религиозных ценностей. Поскольку языки и культура дополняют друг друга, а культурные особенности каждого региона различны, переводчики должны не только сосредоточиться на том, как передать одно и то же значение, но и попытаться показать различия между двумя культурными точками зрения. Язык — это явление и фактор, связывающий разные культуры, и способ выражения чувств и идей, которые люди пытаются передать. Мы собираемся изучить основные роли перевода в передаче культурных понятий между двумя или более языками и некоторые барьеры или трудности, с которыми переводчики сталкиваются в этом процессе. Мы знаем, что перевод играет важную роль в пересечении различных культур и коммуникаций. Поэтому перевод является одним из необходимых, фундаментальных и адекватных способов передачи культуры, но есть некоторые ограничения, такие как цензура и даже сама культура. Эта статья также была направлена на то, чтобы представить некоторые барьеры в процессе перевода. Хороший переводчик должен одновременно осознавать культурные факторы, взгляды и традиции, чтобы сознательно учитывать хронологический порядок, явное значение, развитие смежных дисциплин, историческую и религиозную подоплеку исходного текста.

Ключевые слова: перевод, культура, язык

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Fil.f.d. Çinarə Şahbazlı
tərəfindən çapa tövsiyə olunmuşdur

İLAHƏ ASLANOVA AĞABALA QIZI
Bakı Avrasiya Universiteti
ilaheaslanova3366@gmail.com
Bakı Avrasiya Universiteti

DÜNYA DİLÇİLİYİNDƏ SÖYLƏMİN TƏDQİQİ

Açar sözlər: söyləm, mətn, sintaksik bütövlər, rema, tema, dil, nitq, sintaqm, cümlə

Xülasə

Söyləm nəzəriyyəsi həm azərbaycan, həm də dünya dilçilərinin tədqiqat obyektinə çevrilmişdir. Söyləm ünsiyyətə xidmət edən nitq vahididir. Bir səs, söz, söz birləşməsi, cümlə söyləmə ekvivalentdir. Söyləm vasitəsi ilə insanların fikri reallaşır. Dünya dilçisi M.Matezius tədqiqatında söyləmi informasiya baxımından dörd tipə bölmüşdür. Rema-tema aktual sintaksisdə öyrənilir. Yeni məlumatı tema-rema vasitəsi ilə əldə edirik. İlk dəfə bu terminlərə M.Mateziusun "Cümləyə funksional aspektdən yanaşma" adlı əsərində rast gəlinir. Aktual üzvlənməyə məzmunca yanaşan dilçilər söyləmin nitq aktında yarandığını irəli sürənlərdir. Söyləmin bəzi xüsusiyyətləri sintaqm və cümləyə uyğun gəlir. Dilçi İ.A.Boduen De Kurtene söyləm və sintaqm anlayışını tamamilə bir-birindən fərqləndirir. Qeyd edir ki, sintaqmlar mənalı ifadələrdir və üzvlənə bilir. Söyləm isə nitqdə mövcuddur.

Söyləmin geniş funksional aspektləri vardır. Cümlələri funksional nöqteyi-nəzərdən tədqiq etmək üçün onların semantik quruluşunu, formal əlamətlərini araşdırmaq, struktur-informativ, struktur-praqmatik xüsusiyyətlərini, cümlədə sırasını, əsas modellərini və onların tiplərini öyrənmək vacibdir. Çex dilçisi M.Mateziusa görə əsas funksiya kommunikativ funksiyadır. Kommunikativ funksiya bütün söyləmlərə xas xüsusiyyətdir.

Giriş

Söyləm məsələsi dünya dilçiliyində geniş tədqiq edilsə də, hələ də bu sahədə ciddi fikir ayrılığına rast gəlinir. Söyləmə dünya dilçilərinin bir çoxu özünəməxsus yanaşır və bu səbəbdən də söyləmin dəqiq sərhədləri və dil sistemində yeri müəyyənləşməmişdir. Şübhəsiz, buna səbəb həm də bu problemin dünya dilçiliyində hələ də mübahisə doğurmasıdır.

"Söyləm nəzəriyyəsi"ni araşdırmaq dünya dilçilərinin daim diqqət mərkəzində olmuşdur. Bu nöqteyi-nəzərdən də dünya dilçiliyində söyləm terminə müxtəlif adlar və tərifl ər verilmişdir. Rus dilində «Высказывание», ingilis dilində "statemment", türk dilində "söylem çözümlemesi", qaqauz dilində "sölemaa, sölenti, söleyiş".

Söyləm nəzəriyyəsinin tərifini türkiyə dilçiləri bu formada vermişdir. *«Söylem - herhangi bir düşünce, duyğu, oluş ve kılış anlatan; bir yargı bildiren ve çekimli bir*

eylemle biçimlenen sözcük ya da sözcük grubu\gruplarıdır. Örnek: Acaba bugün hava nasıl? İmdat! Biçimleri" [4, s. 405].

Söyləm hər hansı bir fikrin, düşüncənin, hissin formalaşması və reallaşmasını izah edir. Hər hansı bir hökm bildirən təsriflənən hərəkətlə formalaşan söz və ya söz birləşmələrindən ibarət qruplardır. Məsələn.: Görəsən bu gün hava necedir? İmdad! Kömək edin – qəlib formaları.

Söyləm türkcələrdə tipik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər türk dillərinin iltisaqiliyindən irəli gəlir. Bu tiplərin geniş bir hissəsi tema-rema qanunlarına əsaslanır. Bu haqda ümumi dilçilikdə V.Admoni, Q.Kazımov, İ.Raspopov, F.Əlizadə və başqa dilçilər tədqiqatlar aparmışdır.

İ. Raspopov tema-remanı 6 tipə bölüb təsnif etmişdir.

Söyləm nəzəriyyəsini araşdırmaq çex diçisi M.Mateziusun yaradıcılığında əsas yer tutmuşdur. M.Matezius söyləmin informasiya baxımından dörd tipini müəyyən etmişdir.

1) İmuminformativ səciyyəyə malik olan söyləmlər;

2) İnformasiyanı hissə-hissə paylayan söyləmlər;

3) Müəyyən mövzu haqqında yeni məlumatları verən həmsöhbətin fikrinə reaksiya ötürən söyləmlər;

4) Reallıq ifadə edən söyləmlər.

Rema-tema qanunlarını dünya dilçiliyində məşhurlaşdıran V.Mateizus olmuşdur.

Tema-rema məsələsi aktual sintaksisdə öyrənilir. Yeni məlumatı tema-rema vasitəsi ilə əldə edirik. İlk dəfə bu terminlərə "Cümləyə funksional aspektdən yanaşma" adlı əsərində rast gəlinir. M.Matezius aktual üzvlənmə təliminin qurucusu kimi böyük şöhrət qazanmışdır. İlk öncə alim aktual üzvlənmənin əsas tərkib hissələri kimi "əsas" və "nüvə" terminlərindən istifadə edib. M.Matezius tema-remanı bu cür izah edir. Söyləmin tərkib hissələri tema və remadır.

1) *Söyləmin çıxış nöqtəsi. Bu əsas nöqtə də adlanır. Bu cür mətnlərdə verilən, təsvir və nəql edilən hadisələr, informasiyalar məlum olandır. Bu, bilindiyi kimi temadır.*
2) *Söyləmin yeni informasiyanı – yeni məlumatı bildirən hissəsi eyni zamanda kommunikasiya nüvəsi də adlanır. Yeni məlumat «informasiyanın canı», «informasiyanın özəyi» də adlandırılır [6, s. 240].*

Yaradıcılığında aktual üzvlənmənin dil hadisəsi olduğunu sübut etmişdir. "*Aktual üzvlənmə söyləmin semantik strukturunun kateqoriyasıdır, cümlənin dil semantikasından fərqli olaraq nitq semantikasına məxsusdur" [6, s. 2].*

Cümlənin bitkin məna ifadə etməsi üçün aktual üzvlənmə mütləq nəzər alınmalıdır. Dilçilikdə aktual üzvlənmə ilə bağlı sistemli şəkildə araşdırmalar ilk dəfə fransız dilçisi A.Veyli tərəfindən doktorluq dissertasiya işində ümumiləşdirilmişdir. Dilçi bu mövzu ilə bağlı maraqlı faktlar aşkar etmişdir. O nitqdə birinci söyləmin

çıxış nöqtəsinin sonra isə əsas məqsədinin ifadə olunduğunu sübut etmişdir. Bu səbəbdəndə aktual üzvlənmənin əsasını söyləm təşkil edir.

Dilçi Koljanskiyə görə mətn sintaksisinin əsas kateqoriyalarını söyləmlə bağlı olan aktual üzvlənmə təşkil edir. O bu məsələni əsasən linqivistik ədəbiyyatda şərh etmişdir.

Dilçi V.Q.Qak aktual üzvlənmənin bir sıra sinonim variantlarını vermişdir. "Kommunikativ üzvlənmə" , " məlum olan yeni", "informasiya daşıyan struktur" və s.

Bəzi dilçilər aktual üzvlənməni forma və məzmuna bölüb tədqiq edir. Aktual üzvlənməyə məzmunca yanaşan dilçilər söyləmin nitq aktında yarandığını irəli sürənlərdir. Aktual üzvlənməyə formaca yanaşanlar isə söyləmin formal şəkildə ifadə olunan cümlələrdən ibarət olmasını irəli sürənlərdir. Həm forma, həm də məzmun tərəfdarlarının diqqət mərkəzində saxladıqları əsas məsələlər vardır.

Aktual üzvlənməyə məzmunca yanaşan dilçilər:

1) Söyləmi iki yerə ayırır;
2) Söyləmin hissələri arasında keçidi əsas götürür;
3) Söyləm daxilində semantik keyfiyyətin artması və ya azalması.

Aktual üzvlənməyə formaca yanaşan dilçilər:

1) Tema və remanın formal olaraq ifadəsi tələb edilir;
2) Tema və remadan ən azı birinin formal ifadəsindən bəhs edilir.

Söyləmin rus-avropa dilçiliyində tətqiqi.

1.*Subyekt-predikat-bağlama üçlüyü yönündə öyrənilib" [1, s. 153-154].*

2. Söyləm ünsiyyət vahidi kimi tətqiq edilib;

3. Söyləm aktual üzvlənmənin əsas tərkib hissəsi kimi tətqiq edilib. Söyləmin tərkibində həm reallıq, həm də danışanın ona qarşı olan münasibəti öz əksini tapır;

4. "*struktur-kommunikativ aspektdə və intonasiya sistemi kimi öyrənilib" [10, s. 58]*

5. Mətn daxilində olan söyləmlərin tərkibində iki cür bağlılıq mövcud olduğuna görə sintaqmatik və paradiqmatik aspektdə tətqiqatlar aparılmışdır;

6. Kommunikasiya və nitq aktı kimi söyləmin tətqiqi. Bu yöndə əsasən söyləmin qanuna uyğunluqları və model əhatəsi araşdırılmışdır;

7. Emosiya ifadə edən söyləmlərin tətqiqi;

8. Söyləmin müstəqil dil səviyəsi kimi tətqiqi. Söyləmin yaranmasında intonasiya və söz sırasının mühüm rolu olmuşdur.

9. Semantik-sintaktik səviyədə söyləmin modellərinin tətqiqi;

10. Söyləm nitq vahidi kimi beş əsas xüsusiyyəti yerinə yetirir.

1. *kommunikativ vəzifə; 2. virtual modelin xətti realizasiyası; 3.dinamik mərkəzlərin bölgüsü; 4. prosodik tərtibat; 5. situativ məna. [1, s. 159]*

11. Söyləmin növlərinin (elliptik söyləmlər, ritorik söyləmlər, qoşulma söyləmləri, emotiv söyləm , emosional söyləmlər və s.) tətqiqi;

12. Situativ söyləmlərin tətqiqi;

13. Söyləmin seqmentasiya metodunun tətqiqi;
14. Törəmə söyləmlərin tədqiqi;
15. Söyləmin kommunikativ və nominativ funksiyalarının tətqiqi və.s.

Ən geniş və əhatəli tərif rus dilçiliyində Serebrikov tərəfindən verilmişdir.

"Strukturundan asılı olmayaraq, söyləmlər aktual (kommunikativ, funksional) sintaksis çərçivəsində ifadə etdikləri kommunikativ vəzifə, virtual modelin xətti realizasiyası, dinamik mərkəzlərin bölgüsü, prosodik tərtibat, situativ mənalarla bağlı şəkildə öyrənilən nitq məlumat vahididir" [5, c. 328].

Rus dilçisi Z.Valyasinskaya söyləmə bu tərzdə tərif vermişdir. *"söyləm nitq fəaliyyətinin kiçik bir anından və fəal qavrayışından əmələ gəlir" [7, s. 328].*

Dilçi J.Serl söyləmlə nitq aktını eyniləşdirir . *"Nitq aktı nədir sualına əsaslı cavab verir və onun elə söyləm olduğunu əsaslandırır"[10, c .151-169].*

Dilçi *N.Y.Şvedov bütöv sintaksisin «təməli»nin inşaasında söyləmin də rolunu qiymətləndirir [8, s. 120].*

Söyləmin kommunikativ sintaksisdə və linqivistik ədəbiyyatda araşdırılması fərqli şəkildə olmuşdur. Dilçi İ.A.Boduen De Kurtene söyləmi fraza (semasiologi-morfoloji) mövqeydən araşdırmışdır. Dilçi söyləm və sintaqm anlayışını tamamilə bir-birindən fərqləndirir. Qeyd edir ki, sintaqmlar mənalı ifadələrdir və üzvlənə bilir.

Söyləm isə nitqdə mövcuddur. *"Əgər söyləm digər dil birləşməsi kimi hələ yazmağı və oxumağı bacarmayan yalnız danışan insanın beynində yaranmışdırsa, deməli, o, özünü zahiri təzahüründə insanlararası ünsiyyət səbəbindən tələffuz-eşitmə təsəvvürü oyadacaqdır" [2, s. 154].*

Dilçi Con Layons kitabının IV hissəsini söyləmin mənasına həsr etmişdir. Con Layons söyləmi bu tərzdə şərh etmişdir. *"Söyləm termini birmənalı deyil və onu həm proses mənasında, həm də məsul mənasında başa düşmək olar. Burada proses hərəkətdən və fəaliyyətdən daha geniş mənada işlədilən termin kimi nəzərdə tutulur; hərəkət agent (icraçı) tərəfindən nəzarət edilən prosesdir; fəaliyyət isə hərəkətin və fəaliyyətin birləşməsidir. «Söyləm» termini ya nitq prosesinə (fəaliyyətinə) ya da həmin prosesin (yaxud fəaliyyətin) məhsuluna aid olaraq işlənir. Birinci mənaya aid olan günümüzdə nitq aktları kimi göstərilir; ikinci mənadakı söyləm isə daha ixtisaslaşmış mənada inskripstiya (yazı) kimi göstərilir; beləliklə, söyləmə baxışında Con Layons belə bir məqsəd güdür ki, söyləm danışıq dilinə nisbətən yazı dili üçün daha səciyyəvidir. Əsas məqsəd isə nitq aktı və yazı arasındakı əlaqəni aydınlaşdırmaqdır. Belə olduğu halda, cümlə-mənası və nitq-mənası arasındakı fərqlər də aydınlaşmış olacaq" [3, s. 249].*

Nəticə

Nəticə olaraq qeyd edə bilərik ki, azərbaycan dilçiliyində olduğu kimi dünya dilçiliyində də hələ bu məsələ tam olaraq öz həllini tapmamışdır. Belə ki, dilçilər öz mənsub olduqları cərəyana uyğun olaraq söyləmi özünəməxsus izah etməyə çalışırlar.

Xüsusən də son illər bu məsələyə psixolinqivistik yanaşma meyilləri artmışdır. Dünya dilçisi C.Layson söyləmi proses mənasında başa düşdüyü üçün bu istiqamətdə tədqiqat işləri aparmışdır.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Axundov, A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006. 280 s.
2. Boduen De Kurtene İ.A. Ümumi dilçilik üzrə əsərləri.Bakı, 2014.
3. Con Layons. Linqvistik semantika: giriş. Bakı, 2014. 16 s.

Türk dilində:

4. Sürer Eker. Çağdaş Türk Dili. 7 Baskı, Ankara, 2011. 411 s.

Rus dilində:

5. Серебренников Б.А. Вероятностные обоснования в компаративистике. М.: Наука,1974. 351 с.
6. Матезиус В.О. Основная функция слов в чешском языке.-Пражский лингвистический кружок. М.: 1967. 240 с.
7. Мешанинов И.И. Члены предложения и части речи. М.: 1978. 328 с.
8. Шведов Н.Й. Место семантики в описательной грамматике (синтаксис). Грамматическое описание славянских языков. Концепции и методы», М., «Наука», 1974. 120 с.
9. Гак В.Г.Высказывание и ситуация\\Гак В.Г. Языковые преобразования. М.: 1988. 243-263 с.
10. Серл Ж. Что такое речевой акт?\\Новое в зарубежной линвистике; Вып.17. Теорие речевых актов. М., 1968. 151-169 с.

ILAHA ASLANOVA

SUMMARY
THE STUDY OF SAYINGS IN WORLD LINGUISTICS

Discourse theory has become the object of research by both Azerbaijani and world linguists. Speech is a unit of speech used for communication. Sound, word, phrase, sentence are equivalent to speech. People's thoughts are realized through

speech. World linguist M. In his study, Mathesius divided speech into four types according to informativeness. The theme is studied in actual syntax. We get new information through theme-rema. For the first time these terms are found in the work of M. Mathesius under the title "Approach to the proposal from the functional side". Linguists suitable for actual membership from the point of view of content are those who assume that speech is created in a speech act. Some signs of speech correspond to a sentence and a sentence.

Linguist I. A. Baudouin de Courtenay completely distinguishes between the concepts of utterances and syntagms. He notes that syntagmas are meaningful expressions and can be combined. Speech exists in speech. Speech has broad functional aspects. In order to study sentences from a functional point of view, it is important to study their semantic structure, formal features, structural-informative, structural-pragmatic features, order in the sentence, basic models and their types. According to the Czech linguist M. Matezius, the main function is the communicative function. Communicative function is a characteristic of all utterances.

Key words: utterance, text, syntactic entities, rheme, theme, language, speech, syntagm, sentence.

ИЛАХА АСЛАНОВА

РЕЗЮМЕ
ИЗУЧЕНИЕ ВЫСКАЗЫВАНИЕ В МИРОВОЙ ЛИНГВИСТИКЕ

Теория дискурса стала объектом исследования как азербайджанских, так и мировых лингвистов. Речь – единица речи, служащая для общения. Звук, слово, фраза, предложение эквивалентны говорению. Мысли людей реализуются через речь.

Мировой лингвист М. Матезиус в своем исследовании разделил речь на четыре типа по информативности. Рема-тема изучается в актуальном синтаксисе. Мы получаем новую информацию через theme-rema. Впервые эти термины встречаются в работе М. Матезиуса под названием «Подход к предложению с функциональной стороны». Лингвисты, подходящие к фактическому членству с точки зрения содержания, — это те, кто предполагает, что речь создается в речевом акте. Некоторые признаки речи соответствуют синтагме и предложению.

Лингвист И. А. Бодуан де Куртенэ полностью разграничивает понятия высказывания и синтагмы. Он отмечает, что синтагмы являются осмысленными выражениями и могут быть соединены. Речь существует в речи. Речь имеет широкие функциональные аспекты. Для изучения предложений с функциональной точки зрения важно изучить их

семантическую структуру, формальные признаки, структурно-информативные, структурно-прагматические признаки, порядок в предложении, основные модели и их виды. По мнению чешского лингвиста М. Матезиуса, основной функцией является коммуникативная функция. Коммуникативная функция свойственна всем высказываниям.

Ключевые слова: высказывание, текст, синтаксические образования, рема, тема, язык, речь, синтагма, предложение.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Fil.ü.f.dok. dos. Təhminə İsmayılova
tərəfindən çapa tövsiyə olunmuşdur

YƏHYAYEVA ELNARƏ
ADU
R.Behbudov 60
yehyayevaelnare@gmail.com

ŞAH İSMAYIL XƏTAİNİN DİLİNİN TƏDQİQİ

Xülasə

Şah İsmayıl Xətai yaşadığı dövrün tarixi proseslərinə təsir etmək gücündə olan tarixi şəxsiyyət kimi həyatı və siyasi fəaliyyəti ilə Şərq və Qərb dünyasında diqqət mərkəzində olmaqla bərabər, ana dilində divan yaradan ilk şairlərdən biri kimi də tarixə düşmüşdür. Divanın günümüzə çatmayan ilk əlyazmasının şairin sağlığında üzünün köçürüldüyü, əsas nüsxələrdən hesab olunan Daşkənd nüsxəsinin həmin əlyazma əsasında tərtib olunduğu ehtimal edilir. Tədqiqatlarda şairin 25 əlyazması müəyyənləşdirilmişdir ki, onlardan 23-ü əsasında araşdırma aparılmışdır. Vaşinqton nüsxəsi bu günədək araşdırılmamışdır. İstanbul Rado Yazmaları nüsxəsi isə ən son tədqiq olunan əlyazmadır. Bu əlyazmada şairin digər əlyazmalarda olmayan 50 şeiri də vardır. Əlyazmalardakı bəzi şeirlərinin dil, üslub və mövzusu şairin müasirlərinin şeirləri ilə oxşarlıq təşkil etdiyindən onları bütün əlyazma və məcmuələrdəki variantlarla müqayisə etmək lazım gəlir. Şairin "Divan"ının Daşkənd, Paris, London, Vatikan, İstanbul, Tehran, Təbriz nüsxələri üzərində araşdırmalar aparılmış, əsərlərinin dili fonetik, leksik, qrammatik cəhətdən müəyyən qədər təhlil edilmiş, şeirlərinin tənqidi mətni hazırlanmışdır. Tənqidi mətnlərdən məlum olur ki, ayrı-ayrı nüsxələrdə şeirlərin sayında və əlyazmaların tərkibinə daxil olan şeirlərdə fərqlər vardır. Bu fərqlər həmin şeirlərin müxtəlif təzkirə və cünglərdən toplanması ilə, eləcə də əlyazmanı köçürən katiblərin əlavələri və imla fərqləri ilə əlaqədardır. Xətainin bədii irsinin və dilinin tədqiqinə ilk olaraq Avropada başlanmış, əsərləri, divanının dili haqqında məlumat verilmişdir. Azərbaycanda şairin "Divan"ının tədiqi və çapına XX əsrin əvvəllərində başlanmış, əsasən Daşkənd nüsxəsindəki şeirlərinin tənqidi mətni hazırlanmış, dissertasiyalar yazılmışdır. Şairin əsərləri dilinin təmizliyi və demokratikliyi ilə müasirlərindən fərqlənir. Ana dilini rəsmi və ədəbi dairələrdə istifadə edən şair bu dilin bədii gücündən də ustalıqla istifadə etmiş, bəzi izafət tərkiblərini, alınma konstruksiyaları milliləşdirərək istifadə etmişdir. Onun yaradıcılığında xalq dilindən alınmış frazeoloji birləşmələr xüsusi yer tutur. Şairin leksikası kifayət qədər zəngin və xalq danışıq dilinə yaxındır. Odur ki, Xətainin əsərlərinin dilinin daha ətraflı tədqiqinə ehtiyac vardır.

Açar sözlər: əlyazma, divan, fonetik fərqlər, tənqidi mətn

Şah İsmayıl Xətai ədəbi və siyasi fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında və Azərbaycan tarixində xüsusi rol oynamaqla yanaşı, Azərbaycan dilinin formalaşmasında və inkişafında müstəsna xidmətləri olan tarixi şəxsiyyətdir. O,

hökmdarlığı dövründə hərb sənəti ilə bərabər, elm, ədəbiyyat və incəsənətin də inkişafına böyük dəstək vermiş, Təbrizi mədəni mərkəzə çevirmişdi. Sarayında şeir məclisləri təşkil etməklə yanaşı, özü də məhəbbət və dini mövzularda şeirlər yazmışdır. Xətai haqqında araşdırmalarda şairin azərbaycanca "Minaqibül-əsrar və behcətül əhrar" qoşmalar məcmuəsi və "Divan"ından başqa, farsca divanının olduğu, nisbətən məhdud olsa da, ərəbcə şeirlər yazdığı, hətta İstanbul nüsxəsində 163 beytlik dərvişcə bir məsnəvisi olduğu qeyd olunur.

Ə.Məmmədovun Xətainin əlyazmaları haqqında verdiyi məlumata görə şairin sağlığında tərtib etdiyi divan qorunub saxlanılmamışdır. Alim elmə məlum olan I Daşkənd əlyazmasının həmin əlyazmadan köçürüldüyünü ehtimal edir (14, s135). Alimin verdiyi məlumata görə, 86 səhifəlik əlyazmanın bu nüsxəsində 14 qəsidə, 258 qəzəl, 10 rübai vardır. Nüsxənin haşiyələrinə "Dəhnamə"nin mükəmməl mətni köçürülmüşdür. Hicri 948, miladi 1541-ci ildə üzü köçürülmüş I Paris nüsxəsində 24 qəsidə, 232 qəzəl mövcuddur, bu nüsxədə rübai yoxdur. II Paris nüsxəsi 64 vərəqdir və 205 qəzəl, 16 qəsidə, farsca 1 qəzəl və "Nəsihətnamə" məsnəvisindən ibarətdir ki, bu nüsxədəki 3 qəzəl digər nüsxələrdə yoxdur. 83 vərəqlik Ərdəbil nüsxəsi 83 vərəqdən ibarətdir və 167 beytlik "Nəsihətnamə", 260 qəzəl, 19 qəsidədən ibarətdir. Britaniya nüsxəsi də 83 səhifədən ibarətdir, bu nüsxədə 168 beytlik "Nəsihətnamə", 225 qəzəl, 10 rübai toplanmışdır. Əfqanıstanın Məzari-Şərif şəhərində Baxtər muzeyində saxlanılan nüsxə 101 vərəqdən ibarətdir və 193 qəzəl, "Dəhnamə" və "Nəsihətnamə"nin üçdə ikisi mövcuddur ki, qəzəllərin 28-i digər nüsxələrdə yoxdur. Vatikan əlyazmasında 16 qəsidə, 164 qəzəl vardır ki, 9 şeirə başqa nüsxələrdə rast gəlinmir. (14, s.135-138). H.Araslı şairin "Divan"ı və "Minaqibül-əsrar və behcətül əhrar" qoşmalar məcmuəsi haqqında məlumat verir (6, s.5). Qeyd edək ki, həmin məcmuə AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutunda qorunur.

Şah İsmayıl Xətai haqqında tarixi mənbələrdə, təzkirə və cünglərdə kifayət qədər məlumat vardır. Onun əsərlərinin də, demək olar ki, əksəriyyəti günümüzə qədər gəlib çatmışdır. Bununla belə, şairin həm şəxsiyyəti, həm də yaradıcılığı daim mübahisə və müzakirələrə səbəb olur. Belə ki, əlimizə çatan şeirlərinin mövzu oxşarlığı, müəyyən üslubi yaxıınılıq bu şeirləri nə qədər yaxınlaşdırırsa, vəzn və pərakəndəlik, eləcə də mənbələrdəki müxtəliflik və tarixlər şübhə yaradır. Bunun başlıca səbəbi yenə də şairin şəxsiyyəti ilə bağlıdır. Xətainin dini və şəxsi təsiri o qədər güclü olmuşdur ki, onun müridləri şairin ölümündən sonra da, onun ənənəsini və adını yaşatmaq üçün Xətai təxəllüsü ilə şeirlər yazmışlar. Bəzi tədqiqatlarda həmin şeirlərin də Ş.İ.Xətainin adına çıxıldığı göstərilir. Bunu təsdiq və inkar edən faktlar da yox deyildir. Bu barədə Muhsin Macit "Hatayi Divanı" adlı arşdırmasında kifayət qədər tutarlı faktlar göstərmişdir.

Şah İsmayılın şəxsiyyəti haqqında siyasi, dini, hətta mistik məlumatlar mənbələrdə onun şairliyinin önünə keçmişdir. M.Macit göstərir ki, Şah İsmayılın şairliyi haqqında ilk dəfə Qəribi öz "Külliyyat"ında yazmış və şairin şeirlərindən nümunələr vermişdir (13, **s.**30). Şairin yaradıcılığı haqqında ilk mənbələrdən biri

oğlu Sam Mirzənin farsca yazdığı "Töhfeyi-Sami" təzkirəsindir. Saray şairlərindən təhsil almış və Sami təxəllüsü ilə şeirlər yazan, təzkirəsində XVI əsrin birinci yarısında yaşamış şairlər haqqında məlumat verən Sam Mirzə Şah İsmayıl Xətainin türkcə və farsca şeirlər yazdığını göstərmiş və farsca bir beytini nümunə vermişdir. Məlumatın və nümunələrin məhdudluğu, Sam Mirzənin fars dili təsirində olması və farsdilli şairlərin əsərlərinə üstünlük verməsi ilə əlaqələndirilə bilər. Şairin ədəbi mühiti və yaradıcılığı haqqında ilk mənbələrdən biri Şah Abbasın kitabdarı Sadiq bəy Əfşarın 1607-ci ildə yazdığı "Məcməül-xəvvas" təzkirəsidir. Şah Abbasın tarixçisi olmuş İsgəndər bəy Münşi "Tarixi-aləm arayi-Abbasi" əsərində Şah İsmayılın yüksək təbi olduğunu da qeyd etmişdir. XVI əsr Yaxın Şərq tarixçisi Mirxond "Rövzətüs-səfa" kitabında öz müasiri Şah İsmayılın həyatı, siyasi fəaliyyəti haqqında məlumat verməklə yanaşı, onu şair kimi də tanıtmış, hətta azərbaycanca bir beytini nümunə vermişdir. Şairin adı bir hökmdar, sərkərdə və şair kimi XVII əsr osmanlı müəllifi Katib Çələbinin "Kəşfüzünün" əsərində, XVIII əsr təzkirəçisi Lütfəli bəy Azərin "Atəşgədə" əsərində, Hacı Əliqulu xan Valehin "Riyazüş-şüəra" əsərində, XIX əsr təzkirəçisi Rzaqulu xan Hidayətin "Məcməül-Füsəha", Şəmsəddin bəy Saminin "Qamusül-əlam" əsərində A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində çəkilmişdir. S.Ə.Şirvani 18 Ərdəbil şairi haqqında məlumat verdiyi "Ərdəbil şairlərinin bir qismi" əsərində Xətaiyə xüsusi yer ayırmış, "Dəhnamə" haqqında məlumat vermiş, şairin divanına daxil olmayan azərbaycanca yazılmış "Doğrusu" qəzəlini nümunə vermişdir. Qeyd edək ki, bu şeir Xətainin heç bir əlyazmasında və şairin şeirləri yer almış təzkirələrdə yoxdur. Xətai bir şəxsiyyət və şair kimi Avropa və rus tədqiqatçılarının da diqqətini cəlb etmişdir. XIX əsrdə yaşamış tədqiqatçı Hammer Jozef təzkiraçilərin Xətai haqqındakı məlumatların şərhini vermiş, lakin onu İran şairi kimi təqdim etmişdir. Şarl Rio Britaniya muzeyi üçün tərtib etdiyi kataloqda şairin şeirləri və "Nəsihətnamə" məsnəvisi haqqında, A.Krımski şairin ana dilində divanının olduğu haqqında məlumat vermişdir.

Şairin yaradıcılığı haqqında Avropa oxucusuna geniş və nisbətən səhih məlumatı V.B.Minorski vermişdir. Onun 1942-ci ildə Londonda çap olunmuş "The Poetre of Şhah İsmail" ("Şah İsmayılın poetikası") əsəri altı hissədən ibarətdir: giriş, Avropa kitabxanalarındakı qədim nüsxələrin təsviri, şeirlərinin dili və vəzni, əsərlərinin məzmunu və əsərlərindəki surətlər. Sonda isə azərbaycanca 19 şeir və onların ingiliscə tərcüməsi verilmişdi. 1959-cu ildə Neapolda təbrizli alim Turxan Gənceyi I Paris, II Paris, Britaniya və Vatikan nüsxələri əsasında şairin 232 qəzəl 27 qəsidədən ibarət şeilərinin elmi-tənqidi mətnin çap etdirmişdir. Bundan sonra Polşalı şərqşünas A.Zayonçkovski kitabın nəşri münasibətilə məqalə yazmışdır.

Xətai irsinə Türkiyədə də maraq göstərilmişdir. M.F.Köprülü, İsmayıl Hikmət, S.N.Ergin, Ə.Gölpınarlı şairin ədəbi irsini tədqiq etmişlər. Düzdür, bu tədqiqatlarda bəzən onun siyasi fəaliyyəti şairliyinin önünə keçmiş, bəzən dini görüşləri müzakirə obyekti olmuş, şerilərindəki məzhəb meyilləri onun birtərəfli tədqiq olunması ilə nəticələnmişdir. Abdulbaqi Gölpınarlı 1956-cı ildə İstanbulda

çap olunmuş "Qayğusuz Abdal, Xətai, Qul Hümmət" kitabında Xətainin heca vəznində yazılmış şeirlərinin Azərbaycan və Şərqi Anadoluda geniş yayıldığını qeyd edir. Sadeddin Nüzhət Erginin tərtib etdiyi "Xətai divanı" kitabı şair haqqındakı cüng və təzkirələrdəki məlumatlar, eləcə də İstanbul Millet Kitabxanasındakı əlyazması əsasında çap olunmuşdu. O, ilk dəfə Xətainin türk dili ilə yanaşı əsaslı dəlil göstərməsə də, farsca divanının olduğunu və ilk dəfə ərəbcə məhdud miqdarda şeirlərinin olduğunu qeyd edir, hətta nümunələr də verir. "Həmin "Divan"da şairin heca vəznində 115, əruz vəznində 86 şeiri vardır. "Divan"ın ən yaxşı cəhəti odur ki, buraya daxil edilmiş nəfəslər, varsağılar, gəraylılar, bayatılar və s. şeirləri bizə məlum olan "Divan"ın I Daşkənd, I Paris, Britaniya, Vatikan, Məzari-Şərif əlyazma nüsxələrində yoxdur" (**7**, s.27).

Ş.İ.Xətai irsinin Azərbaycanda davamlı tədqiqi və əsərlərinin çapı iyirminci əsrin əvvəllərindən başlanmışdır. Y.V.Çəmənzəminli 1919-cu ildə şairin 2 qəzəl və 4 qoşmasını "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərinə salmışdır. Ə.Məmmədov göstərir ki, S.Mümtaz "Maarif və mədəniyyət" jurnalının 1923-cü il nəşrində şairin həyatı, siyasi və ədəbi fəaliyyəti haqqında "Şah Xətai" sərlövhəli məqalə çap etdirmişdir. Həmçinin hazırda Respublika Əlyazmalar Fondunda saxlanılan, XVII əsrdə üzü köçürülmüş "Dəhnamə"nin natamam nüsxəsini nəşr etdirir (11, s.60). Qeyd edək ki, fondda saxlanılan həmin nüsxənin arxasında belə bir qeyd vardı: "Paris Milli Kitabxanasındakı əlyazması. Yusif Çəmənzəminli tərəfindən 1923-cü ildə Parisdə yapılan qopyası Elmi kütübxanada Xətainin ikinci nüsxəsi də vardır. 945 tarixi vardır" (8).

Şairin ədəbi irsi kifayət qədər araşdırılmış və "Dəhnamə" poeması ayrılıqda, eləcə də seçilmiş əsərləri 1946-2013-cü illərdə dəfələrlə çap olunmuşdur. İsmayıl Hikmətin 1928-ci ildə Bakıda çap olunmuş "Azərbaycan ədəbiyyatı tarixi" kitabının ikinci cildində Xətainin həyat və yaradıcılığı haqqında məlumat verdikdən sonra şairin əsərlərinə maraq artdı. 1946-cı ildə H.Araslı "Dəhnamə" məsnəvisini ixtisarla çap etdirdi. Bundan sonra 1948-ci ildə əski Azərbaycan əlifbası ilə poema yenidən nəşr olundu. Poema üçüncü dəfə 1959-cu ildə çap olundu. 1973-cü ildə şairin əsərləri iki cilddə Ə.Məmmədovun tərtibatında nəşr olundu. 1988-ci ildə X.Yusifov Xətainin bir misrası ilə adlanan "Keçmə namərd körpüsündən" adlı hər iki vəzndə yazılmış şeirləri, həmçinin "Dəhnamə" və "Nəsihətnamə" məsnəviləri daxil olmaqla əsərlərini çap etdirir. Bu nəşr əsasında 2005-ci ildə Ə.Səfərli və X.Yusifovun tərtib etdiyi və latın qrafikasına transliterasiya olunmuş əsərləri çap olunmuşdur.

Şairin həyatı, yaradıcılığı, əlyazmaları haqqında tədqiqatlar aparılmış, həm Azərbaycan, həm türk, həm də rus və Avropa şərqşünasları tərəfindən şeirlərinin tənqidi mətni hazırlanmışdır. Bununla belə, şairin dilinin tədqiqi haqqında bu sözləri demək olmaz. Xətainin dili həm sələflərinin, həm xələflərinin, həm də müasirlərinin dilindən istər leksik, istər sintaktik baxımdan fərqlənir. Şeirlərinin bir qismini heca vəznində yazması, şifahi xalq ədəbiyyatı janrlarına müraciət etməsi onun əsərlərinin dilinə də təsirsiz qalmır. Xətainin dili canlılığı və demokratikliyi ilə seçilir. Şairin dili

haqqında ilk araşdırma aparanlardan biri B.Çobanzadə olmuşdur. Alim 1933-34-cü illərdə "Xətainin dili və ədəbi yaradıçılığı haqqında" adlı monoqrafiya yazmış, monoqrafiyanın bir bəhsini şairin divanının dilinə həsr etmişdir. O, Britaniya və Ərdəbil nüsxələrinin imla xüsusiyyətlərini, leksik fərqlərini, bəzi arxaik morfemləri müqayisə etmiş, Britaniya nüsxəsinin daha qədim və orijinala daha yaxın olduğu, nüsxələrin başqa-başqa xəttatlar tərəfindən üzü köçürüldüyü, Ərdəbil nüsxəsinin üzünü köçürənin türk dilini kifayət qədər bilmədiyi qənaətinə gəlmişdir (28,s.297). O, şairin dilinin zənginliyini xüsusi vurğulamışdır [28, s.270]. Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində 171№-li fondda saxlanılan makina çapı və əlyazması əsasında nəşr edilmiş monoqrafiya alimin sağlığında məlum siyasi səbəblərdən çap olunmamış, 2007-ci ildə çap olunmuş beşcildlik "Seçilmiş əsərlər"inin birinci cildində işıq üzü görmüşdür. Əsərin girişindən məlum olur ki, bu müqəddimə, həmçinin Elmlər Akademiyasının Azərbaycan filialında Xətainin divanının dili və əsərlərinin aydınlaşdırılması üçün hazırlanmışdır. Alimin fikrincə, nüsxələr arasındakı imla və dil fərqi yalnız katiblərin buraxdıqları səhvlər kimi izah edilməməlidir (28, s.270). Nüsxələrdəki imla fərqlərindən biri budur ki, Britaniya nüsxəsində sağır nunun sabit və davamlı şəkildə işləndiyi halda, Ərdəbil nüsxəsində həmin qrafem bir neçə şəkildə verilmişdir. İmla fərqlərindən biri c səsinin əvəzinə ç səsinin, ç səsinin əvəzinə ş səsinin işlənməsidir. Britaniya nüsxəsinə nəzərən Ərdəbil nüsxəsində metasteza hadisəsi müşahidə olunur, məsələn, kiprik-kirpik. Britaniya nüsxəsində isə assimilyasiya hadisəsi özünü göstərir. Britaniya nüsxəsində boldu forması, Ərdəbil nüsxəsində isə oldu forması üstünlük təşkil edir. Alim, haqlı olaraq, nüsxələrdəki bəzi fərqlərin təsadüfi xarakter daşımadığını qeyd edir və q-x-h əvəzlənmələrinin tarixi keçid prosesinin nəticəsi kimi qiymətləndirir (4, s.289). Tədqiqatçı bəzi morfoloji məqamlara da toxunur: şairin dilində fəal işlənən -gəc şəkilçisinin XVII əsrdən etibarən –cək şəkilçisi ilə əvəzləndiyini, artıq Qasım bəy Zakirin dilində -cək şəklində rastlandığını göstərir (4, s.290). Şairin dilində fars və cığatay ünsürlərinin olduğunu qeyd edən alim bu xüsusiyyəti şairin bilinqvist olması ilə əlaqələndirmişdir. Qeyd edək ki, bəzi imla fərqləri ərəb qrafikasında nöqtələrin ya qoyulmaması, ya qədimlik səbəbindən pozulması ilə əlaqədar ola bilər.

1970-ci ildə Ə.Məmmədov şairin dilinə həsr etdiyi "Şah İsmayıl Xətai əsərləri mətnlərinin tədqiqi və elmi-tənqidi mətni" doktorluq dissertasiyasında şairin əsərlərinin yer aldığı təzkirələr və məcmuələr haqqında, şairin əlyazmalarının nüsxələri, bu nüsxələr haqqında əldə olunmuş məlumatlar, şairin əsərlərini tədqiq edən şərq və qərb alimləri haqqında məlumat verməklə yanaşı, ayrı-ayrı əlyazma nüsxələrini tutuşdurmuş, müqayisələr nəticəsində belə qənaətə gəlmişdir ki, nüsxələr arasındakı fərqlər, əsasən, katiblərin diqqətsizliyindən, və ya onların öz əlavələrindən qaynaqlanır (12). Tədqiqatçı 1961-ci ildə nəşr etdirdiyi "Şah İsmayıl Xətai" kitabında şairin şeirlərinin qorunduğu təzkirə və cünglər haqqında ətraflı məlumat vermişdir. 1988-ci ildə çap olunmuş "Şah İsmayıl Xətai" monoqrafiyasında şairin əlyazmaları haqqında ətraflı məlumat və bəzi şeirlərinin müqayisəsini və

tənqidi mətnin vermişdir. Ə.Məmmədov, eyni zamanda şairin "Seçilmiş əsərləri"ni tərtib etmiş və ön söz yazmışdır. Qeyd etməliyik ki, istər Azərbaycanda, istərsə də şairin ədəbi irsi ilə məşğul olan türk və Qərb tədqiqatçıları onun araşdırmalarından və təhlillərindən bəhrələnmişlər.

Qeyd etmək lazımdır ki, şairin dilini araşdıranlar, əsasən, "Dəhnamə" məsnəvisini tədqiqata cəlb etmişlər. Bu, poemanın dilinin sadəliyi, leksikasında türk sözlərinin üstünlük təşkil etməsi ilə əlaqələndirilə bilər. Q.Həsənov 1967-ci ildə "Dəhnamə"nin sintaksisi (təyini söz birləşmələri)" mövzusuna həsr etdiyi tədqiqatında poemanın dilində olan təyini söz birləşmələrini araşdırmışdır (4). Tədqiqatçı məsnəvinin dilində işlənmiş təyini söz birləşmələrini müəyyənləşdirmiş, bu birləşmələri birinci, ikinci, üçüncü növ təyini ismi birləşmələr olmaqla qruplaşdırmış, birləşmələrin tərəflərini təşkil edən komponentlərin ifadə vasitələrini göstərmiş, quruluşca mürəkkəb olan təyini söz birləşmələrini də tədqiqata cəlb etmişdir. O, poemanın dilindən gətirdiyi nümunələri "Kitabi-Dədə Qorqud"un dilindən, eləcə də Xətainin müasirlərinin dilindən gətirdiyi nümunələrlə müqayisə etmişdir. Müəllif şairin dilində işlənmiş təyini birləşmələrin tərəflərinin yerdəyişməsini də müşahidə etmiş və bunu şairin dilinin xəlqiliyi və üslubu ilə izah etmişdir: "Təyini söz birləşmələrində tərəflərin yerdəyişməsinin başlıca səbəblərindən biri canlı danışıq dilinin təsiridirsə, digəri üslubi tələblərdir" (5, s.7).

M.Cavadova "Ş.İ.Xətainin "Dəhnamə" poemasında söz yaradıcılığı" adlı məqaləsində "Dəhnamə"nin dilində işlənmiş və müxtəlif üsullarla yaranmış sözlərdən bəhs etmiş [2, s.83-89], 1971-ci ildə əlyazmaların Daşkənd nüsxəsi əsasında yazdığı "Şah İsmayıl Xətainin leksikası ("Dəhnamə" poeması üzrə)" monoqrafiyasında bu ənənəni davam etdirərək poemadakı sözləri quruluşuna görə qruplaşdırmış, sözlərin semantik xüsusiyyətlərini araşdırmışdır. Tədqiqatçı poemanın dilində işlənmiş milli və alınma şəkilçilərlə adlardan və feillərdən düzəlmiş sözlərdən bəhs edərkən müasir ədəbi dilimizdə mübahisə obyekti olan –çılıq şəkilçisinin şairin dilində işləndiyinə aid nümunə də vermişdi: Gər zahirinizdə nəstə yoxdur, Leyik asicilik içində çoxdur (3, s.23). Alimin tərtib etdiyi lüğətdən də görünür ki, sintaktik yolla və söz birləşmələri əsasında yaranan mürəkkəb sözlərin əksəriyyətinin təşkil olunduğu komponentlər türk mənşəlidir. O, həmçinin şairin dilində işlənmiş, müasir dil üçün arxaikləşmiş sözləri semantik cəhətdən arxaikləşmiş, müasir dildə fərqli məna kəsb etmiş və fonetik dəyişikliyi uğramış adlar və feillər olaraq ayırmışdır. Poemanın leksik, semantik və üslubi xüsusiyyətləri sinonim, antonim və omonimlər əsasında araşdırılmışdır. Monoqrafiyanın sonunda arxaik sözlərin lüğəti və mətnin fotomaksimilesi verilmişdir.

Şairin dilinin demokratikliyi əsərlərinin sintaksisində də özünü göstərir: burada feili tərkibli geniş cümlələr və mürəkkəb cümlələr fikrin dəqiq ifadə olunmasına şərait yaradır. Xətai dilinin sintaksisini araşdıran Ə.H.Cavadov "Şah İsmayıl Xətai əsərlərinin dilində tabeli mürəkkəb cümlələr" məqaləsində tabeli

mürəkkəb cümlələrin növləri, tərəfləri bağlayan vasitələr haqqında məlumat vermişdir (1, s.37–42).

Müasir dövrdə Xətai irsinə maraq azalmamış, əksinə artmışdır. Şairin əlyazmalarının tam mətnlərinin əldə edilməsi, əlçatanlığı onların müqayisə edilməsinə əlverişli şərait yaratmışdır. Türkiyə ədəbiyyatşünaslarının zaman-zaman diqqətində olan Ş.İ.Xətai irsi məqalə və araşdırmaların mövzusu olmaqda davam edir. "Hatayi Divanının dil özellikleri" məqaləsində İdris Çətin şairin dilinin imla xüsusiyyətləri, leksikası, morfoloji xüsusiyyətləri və izafət birləşmələrindən bəhs etmişdir (9). Səbahəddin Şəmşir "Şah İsmail: hayatı və şahsiyyeti" məqaləsində şairin dövrü və siyasi fəaliyyəti ilə yanaşı, onun şairliyi, xüsusilə, şeirlərini sadə türk dilində yazdığını qeyd edir (16). Professor Muhsin Macit "Hatayinin yayımlanmamış gazelleri" məqaləsində şairin ikisi Türkiyədə olmaqla 25 əlyazması olduğunu göstərərək bu günə qədərki nəşrlərdə Vaşinqton və İstanbul Rado Yazmaları nüsxələrinin istifadə olunmadığını qeyd edir. O, Xətainin İstanbul nüsxəsində olan və əvvəlki nəşrlərdə yayımlanmamış 50 şeiri üzərində araşdırma aprarmışdır. Alim Xətai təxəllüsü ilə yazılan şeirlər haqqında gəlinən fikirləri müqayisə edərək təzkirə və cünglərdə rastlanan bu şeirlərin Şah İsmayılın müridləri, dərvişlər və bektaşi-ələvilər tərəfindən yazıla biləcəyini ehtimal edir (13). Belə ki, şairin əqidə davamçıları, xüsusilə, bektaşi dərvişləri öz təxəllüs və adlarının əvəzinə mürşidlərinin təxəllüsündən istifadə etmişlər. Başqa sözlə, Xətai təxəllüsü ümumiləşmiş səciyyə daşımışdır. Muhsin Macit "Hatayi Divanı" əsərində şairin əlyazmalarını, bu əlyazmalardakı fərqləri araşdırmışdır. Xətainin heca vəznində "Allah, Allar den, qazilər, Qazilər deyən şah mənəm" mətləli yalnız bir şeirinin olduğunu göstərərək heca vəznində olan digər şeirlərin təzkirə və cünglərdən toplanmış Xətai təxəllüslü digər şairlərin şeirləri olduğunu yazır (14, s.139). Bununla belə, o, şairin heca vəznində şeirlər yazmış olduğunu istisna etmir. Eyni zamanda həm Xətainin, həm də Nəsiminin əlyazma nüsxələrində olan 23 şeirin toplandığı mənbələrin tarixlərini müqayisə edərək həmin şeirlərin Xətaiyə aid ola bilməyəcəyini müəyyənləşdirmişdir. Günümüzə qədər gəlib çatan əlyazmaları iki qrupa ayıran müəllif nüsxələrin, əsasən, Daşkənd nüsxəsi ilə Gülüstan Sarayı Kitabxanası və Məscidi-Azam Kitabxanasındakı nüsxələri əsasında üzü köçürüldüyü qənaətindədir (14, s.162). Onun araşdırmalarına görə 270 şeir mövcud nüsxələrin əksəriyyətində öz əksini tapmışıdır (14, s.178). 1546-cı ildə Yari tərəfindən üzü köçürülən Sultan əl-Kurrai Kitablığı nüsxəsi Xətainin bütün şeirləriini ehtiva etməklə digərlərindən fərqlənir. Muhsin Macit tərtib etdiyi Xətai "Divan"ının tənqidi mətnində 19 qəsidə, 440 qəzəl, 1 müsəddəs, "Dəhnamə" və "Nəsihətnamə"dən başqa 2 məsnəvi, 10 tuyuğ, 1 qitə və 1 mətlə olmaq üzrə Xətainin 474 şeirinə yer vermişdir. Azərbaycan və İrandakı nəşrlərdə 32 farsca, 1ərəbcə şeiri olmasına baxmayaraq tənqidi mətnə farsca 1 təxmis, 4 qəzəl tərcümələri ilə birlikdə daxil edilmişdir. Araşdırmaya həm də Xətainin İstanbul Araştırmaları Enstirüsü Şevket Rado Yazmaları №51 ünvanlı əlyazmasının skan edilmiş nüsxəsi də əlavə edilmişdir. Tədqiqatçının bəzi fikirləri

mübahisəli olsa da, gördüyü işin genişmiqyaslı olduğu inkaredilməzdir. Öz araşdırmasında Azərbaycan tədqiqatçılarının əsərlərindən bəhrələnən alim Xətai irsinin dəqiqləşdirilməsi sahəsində və əsərlərinin tənqidi mətninin hazırlanmasında, həmçinin Xətainin geniş oxucu kütləsinə tanış olmayan məsnəvi və şeirlərinin tanıdılmasında əhəmiyyətli addım atmışdır.

Şairin müasirlərinin dilinin tədqiqi zamanı tez-tez müqayisə məqsədilə onun əsərlərinin dilinə müraciət olunur, dilin inkişafında baş vermiş tarixi prosesi izləmək üçün bir mənbə kimi istifadə olunur. T.Yusubova "Azərbaycan dilində "feil+feil" tipli feili birləşmələr" adlı namizədlik dissertasiyasında Xətainin dilində işlənmiş feil+feil tipli birləşmələr, bu birləşmələrin statistikası, yaranma yolları, struktur-semantik xüsusiyyətlərindən misallar vermiş (17), Z.Nəbiyeva "Azərbaycan dilində adlıq hallı feili birləşmələr" mövzusunda yazadığı namizədlik dissertasiyasında fikirlərini əsaslandırmaq üçün şairin dilindən nümunələr gətirişdir (15).

Ş.İ.Xətainin dilinin leksik tərkibi, sintaktik quruluşu, imla xüsusiyyətləri ayrı-ayrı tədqiqatlarda onun dilinə müraciət olunmasına səbəb olmuşdur. Belə ki, bəzi şəkilçilərin, sözlərin, sintaktik konstruksiyaların keçdiyi tarixi inkişaf yolunu izləmək üçün şairin dili etibarlı mənbədir.

İstifadə olunmuş ədəbiyyat:

1. Cavadov, Ə. H. Şah İsmayıl Xətai əsərlərinin dilində tabeli mürəkkəb cümlələr // - Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, - 2009. №3, - s. 37-42
2. Cavadova, M. İ. Ş.İ. Xətainin "Dəhnamə" poemasında söz yaradıcılığı // - Bakı: ADU, Dil və ədəbiyyat seriyası, - 1984. №1, s.83-89
3. Cavadova, M.İ. Şah İsmayıl Xətainin leksikası ("Dəhnamə" poeması üzrə) / M.İ.Cavadova. - Bakı: Elm, - 1977. - 214 s.
4. Çobanzadə, B. Seçilmiş əsərləri: [5 cilddə] / B. Çobanzadə. - Bakı: "Şərq-Qərb", - c.1. -2007. - 336s.
5. Həsənov, Q. M. "Dəhnamə"nin sintaksisi (təyini söz birləşmələri) / Q. M. Həsənov. - Bakı: EA, - 1967. - 116 s.
6. Şah İsmayıl Xətai. Dəhnamə / - Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, - 1959. - 184 s.
7. Şah İsmayıl Xətai. Əsərləri: [2 cilddə] / -Bakı: Azərnəşr, 1-ci cild. - 1975. - 412 s.
8. Şah İsmayıl Xətai. Divan. AMEA-nın Füzuli adına Əlyazmaılar İnstitutu, D-392/10369
9. İdris Çətin. Hatayi Divanının dil özəllikləri. Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi 2021 – s.119- 146. http://busbed.bingol.edu.tr
10. Məmmədov Ə. "Şah İsmayıl Xətai" monoqrafiya, Bakı, Yazıçı, 1961, 160s. , s.60

11. Məmmədov Ə. “Şah İsmayıl Xətai” monoqrafiya, Bakı, Yazıçı, 1988, 160s. , s135
12. Məmmədov Ə. Şah İsmayıl Xətai əsərləri mətnlərinin tədqiqi və elmi-tənqidi mətni, dok. dis. 1970
13. Muhsin Macit “Hatayinin yayımlanmamış gazelleri” İstanbul, Türkiye Yazma Eserler Kurumu Başkanlığı Yayınları -2015, 41 s.
14. Muhsin Macit. “Hatayi Divanı” (İnceleme-Tenkitli Metin-Tıpkıbasım) İstanbul, Türkiye Yazma Eserler Kurumu Başkanlığı Yayınları -2017, 804 s.
15. Nəbiyeva Z “Azərbaycan dilində adlıq hallı feili birləşmələr” nam. dis.
16. Səbahəddin Şəmşir // “Şah İsmail” hayatı və şahsiyyeti” – Akademik Tarih ve Düşünce Dergisi – 2019- s.74-86.
17. Yusubova T. “Azərbaycan dilində “feil+feil” tipli feili birləşmələr” nam. dis., Bakı, 2002, 143 s

Яхьяева Эльнара Вагиф кызы
АУЯ, Р. Бейбутова 60
yehyayevaelnare@gmail.com

РЕЗЮМЕ
ИСТОРИЯ ИЗУЧЕНИЯ ЯЗЫКА Ш. И. ХАТАИ

Ключевые слова: рукопись, диван, фонетические различия, критический текст.

Шах Исмаил Хатаи был в центре внимания восточного и западного мира своей жизнью и политической деятельностью как историческая личность, имевшая власть влиять на исторические процессы своего времени, а также вошла в историю как один из первых поэтов который создал диван на своем родном языке. Предполагается, что лицевая сторона первой рукописи Дивана, не дошедшая до наших дней, была скопирована еще при жизни поэта. Предполагается, что ташкентский экземпляр «Дивана» был скопирован с этой рукописи. В результате исследований выявлено 25 рукописей поэта, по 23 из них проведено исследование. Вашингтонская копия до сих пор не исследована. Копия Стамбульских рукописей Радо - самая недавно изученная рукопись. Эта рукопись содержит 50 стихотворений поэта, которых нет в других рукописях. Поскольку язык, стиль и тематика некоторых его стихотворений в рукописях сходны со стихами современников поэта, необходимо сопоставить их с вариантами во всех рукописях и сборниках. Были проведены исследования ташкентских, парижских, лондонских, ватиканских, стамбульских, тегеранских, тебризских копий «Дивана» поэта, фонетически, лексически и грамматически проанализирован язык его произведений, подготовлен критический текст его стихов. Из критических текстов известно, что

существуют различия в количестве стихотворений в отдельных экземплярах и стихотворений, вошедших в состав рукописей. Эти различия связаны со сбором этих стихов из разных тазкир и джунгов, а также с дополнениями и орфографическими различиями писцов, переписывавших рукопись. Изучение художественного наследия и языка Хатаи было впервые начато в Европе, даны сведения о его произведениях и языке его дивана. В Азербайджане корректура и печатание «Дивана» поэта начались в начале 20 века, в основном готовился критический текст его стихов в ташкентском экземпляре, писались диссертации. Произведения поэта отличаются от современников чистотой и демократичностью языка. Поэт, использующий родной язык в официальных и литературных кругах, умело использовал художественную силу этого языка, национализировал некоторые фразеологизмы и заимствованные конструкции. Особое место в его творчестве занимают фразеологические сочетания, взятые из разговорной речи. Лексика поэта достаточно богата и близка к разговорной речи. Поэтому возникает необходимость в более детальном изучении языка произведений Хатаи.

Yahyayeva Elnara Vagif kyzy
AUL, R. Beibutova 60
yehyayevaelnare@gmail.com

HISTORY OF LANGUAGE STUDY SH. I. KHATAI
SUMMARY

Key words: manuscript, divan, phonetic differences, critical text.

Shah Ismail Khatai was at the center of attention of the Eastern and Western worlds with his life and political activities as a historical figure who had the power to influence the historical processes of his time and went down in history as one of the first poets who created a sofa in his native language. It is assumed that the front side of the first manuscript of the Divan, which has not survived to this day, was copied during the lifetime of the poet. It is assumed that the Tashkent copy of the "Divan" was copied from this manuscript. As a result of the research, 25 manuscripts of the poet were identified, 23 of them were studied. The Washington copy has not yet been explored. A copy of the Istanbul Rado Manuscripts is the most recently studied manuscript. This manuscript contains 50 poems by the poet not found in other manuscripts. Since the language, style and themes of some of his poems in manuscripts are similar to those of the poet's contemporaries, it is necessary to compare them with the variants in all manuscripts and collections. Studies of Tashkent, Parisian, London, Vatican, Istanbul, Tehran, Tabriz copies of the "Divan" of the poet were carried out, the language of his works was analyzed phonetically, lexically and grammatically, and a critical text of his poems was prepared. It is

known from critical texts that there are differences in the number of poems in individual copies and poems included in manuscripts. These differences are related to the collection of these verses from various tazkir and jungs, as well as additions and spelling differences of the scribes who rewrote the manuscript. The study of the artistic heritage and language of Khatai was first started in Europe, information is given about his works and the language of his divan. In Azerbaijan, the proofreading and printing of the "Divan" of the poet began at the beginning of the 20th century, mainly the critical text of his poems was prepared in the Tashkent copy, and dissertations were written. The works of the poet differ from his contemporaries by the purity and democratic nature of the language. The poet, who uses his native language in official and literary circles, skillfully used the artistic power of this language, nationalized some phraseological units and borrowed constructions. A special place in his work is occupied by phraseological combinations taken from colloquial speech.The poet's vocabulary is quite rich and close to colloquial speech. Therefore, there is a need for a more detailed study of the language of Khatai's works.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: fil.f.d., dos. Fazil Əhmədov
tərəfindən çapa tövsiyə olunmuşdur

İRADƏ KƏRİMOVA
BDU, filologiya üzrə
fəlsəfə doktoru

MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN LEKSİK NORMALARI VƏ ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ BU NORMALARA RİAYƏT OLUNMASI HAQQINDA

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

Ümummilli Lider Heydər Əliyev

Azərbaycan dilini azərbaycançılığın mənəvi əsası kimi dəyərləndirən Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan prezidenti cənab İlham Əliyevin 23 may 2012-ci il tarixli Sərəncamından sonra dövlət dilinin tətbiqinə nəzarət daha da gücləndirildi və bu baxımdan ciddi addımların atılması müasir Azərbaycan ədəbi dilimizin normalarına riayət olunmayan mövcud nöqsanların aradan qaldırılmasına örnək oldu (1,187).

Dünyanın inkişaf etmiş ədəbi dilləri kimi müasir Azərbaycan ədəbi dili də mükəmməl, sabit normalara malikdir. Həmin normalar müəyyən tarixi təkamülün məhsuludur.

Ədəbi dilin (nitqin) tabe olduğu qayda-qanunların sistemi ədəbi dilin normaları adlanır. **Norma** – müəyyən bir dövrdə sözün fonetik tərkibi və leksik mənasının, cümlənin qrammatik quruluşunun hər hansısa bir dil kollektivində obyektiv şəkildə fəaliyyətidir.

Dilin daxili quruluşunu onun səs tərkibi leksikası və qrammatikası təşkil edir. Ədəbi dilin normaları da bu quruluşa uyğundur: fonetik norma; leksik, yaxud leksik-semantik norma; qrammatik norma.

Müasir Azərbaycan dilinin lüğət tərkibi çox zəngindir. Burada əsl türk sözləri ilə yanaşı, forma və məzmunca türkləşmiş ərəb, fars və türk sözləri də işlənir. Daha sonrakı illərdə isə Azərbaycan dilinə Avropa dillərinə məxsus çoxlu sayda söz daxil olmuşdur. Dünyanın başqa inkişaf etmiş ədəbi dilləri kimi, Azərbaycan ədəbi dilində də leksik normanın keyfiyyətini milli sözlər müəyyən edir.

Fonetikaya və qrammatikaya nisbətən leksik normada dəyişiklik daha çox baş verir. Milli sözlər alınma sözlərdən daha fəaldır, onlar yüksək işlənmə tezliyinə malikdir. Elə alınma sözlər də var ki, ədəbi dilin müəyyən bir üslubu üçün

xarakterikdir. Məsələn, elmi üslubda olan sözlərin (terminlərin) çoxu alınma sözlərdir, o sözləri yalnız həmin elm sahəsi ilə məşğul olan elm adamları işlədir.

Ləksik norma hər kəsdən sözün mənası ilə yaxından tanış olmağı, onu yerində, düzgün işlətməyi tələb edir, sözlərin leksik və semantik mənası, məzmunu mütləq gözlənilməlidir. Əks təqdirdə leksik norma pozulmuş olur. Belə ki, dildəki sözlər tarixi inkişaf sayəsində müəyyən mənaya malik olur. Sözün ona məxsus olmayan, ənənədən çıxan mənada işlədilməsi, lüzumsuz şəkildə mətnə daxil edilməsi nitq nöqsanıdır. Söz onun üçün xarakterik olan mənada işlənmirsə, demək, fikir düzgün anlaşılmayacaq, beləliklə, nitq mədəniyyətinin tələbi – leksik norma, pozulacaq. Qeyd etməliyik ki, ədəbi dildə vulqar, kobud söz və ifadələr işlədilməməlidir. Ədəbi dil tarixən müəyyənləşmiş möhkəm qayda-qanunlara tabe olub, xalqın, millətin ümumi, nümunəvi ünsiyyətinə xidmət edir. Ədəbi dildə söyüşlərə, loru, yaxud kobud sözlərə yer verilmir. Lakin bu tipli sözlər bədii üslubda bədii məqsədlər üçün edilirsə, leksik norma pozulmur.

Sözdən düzgün istifadə olunması ilə yanaşı, onun dəqiq, yerinə görə ifadəli və emosional işlədilməsi də leksik normanın tələblərindəndir. Bu məqamda dünya şöhrətli dahi şairimiz Nizami Gəncəvinin "Az danışmağin gözəlliyi" şeirindən misal vermək yerinə düşər:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.
İnci tək sözlər seç, az danış, az din
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz **Nizami Gəncəvi** (2, 462)

Hər bir söz tarixi inkişaf prosesinin nəticəsində müəyyən məna–məzmun (semantika) qazanır. Alınma sözlərin forma və məzmunca milliləşməsi həmin leksik mühitdə gedir. Dünyanın başqa dillərində olduğu kimi, Azərbaycan dilində də leksik (leksik-semantik) normanın keyfiyyətini milli leksika müəyyən edir. Milli leksika, yəni əsl türk sözləri ədəbi dildə alınma sözlərlə müqayisədə daha fəaldır, yüksək tezliklə işlənir. ikinci yeri isə milliləşmiş alınma leksika tutur. Milli leksika (əsl türk sözləri) ədəbi dildə alınma sözlərlə müqayisədə daha fəaldır, yüksək işlənmə tezliyinə malikdir. İkinci yeri milliləşmiş alınma leksika tutur. Leksik (leksik-semantik) normanın keyfiyyətini milli leksika müəyyən edir. Alınma sözlərin forma və məzmunca milliləşməsi həmin leksik mühitdə gedir. Fonetik və qrammatik norma ilə müqayisədə leksik normada dəyişkənlik daha tez olur.

Milli leksika (əsl türk sözləri) ədəbi dildə alınma sözlərlə müqayisədə daha fəaldır, yüksək işlənmə tezliyinə malikdir. İkinci yeri milliləşmiş alınma leksika tutur.

Leksik normanın tələbinə görə hər bir söz öz yerində işlənməlidir, söz yerində işlənməzsə, fikir düzgün ifadə olunmaz və əlbəttə ki, nitq mədəniyyətinin tələbi ödənilmiş olmaz, eyni zamanda dil normaları pozulmuş olar. Bu isə dil qanunlarına ziddir və təəssüflər olsun ki, orta məktəb dərsliklərinin əksəriyyətində leksik normanlara riayət olunmur.

Gözəl nitq mədəniyyətinə malik olmaq ücün ədəbi dilin normalarına bələd olmaq vacibdir. Çünki ədəbi dil xalq dilinin ciddi fonetik, leksık və qrammatik normaları əsasında qanuni fəaliyyət göstərən formasıdır. Lakin orta məktəb dərsliklərində bu normalara düzgün əməl olunmur. Dərsliklərdə normaların pozulması haqqında internet və mətbuat səhifələrindəki mülahizələr, tənqidlər, fikirlər, aparılan monitorinqlərin nəticələri dediklərimizi bir daha təsdiq edir.

Nitqimizdə dialekt sözlərdən, arxaizmlərdən, vulqarizm və varvarizmlərdən istifadə də leksik normanın pozulması deməkdir. Buna görə də gözəl nitqə yiyələnmək üçün leksik normanın tələbərinə yiyələnmək vacibdir. Gözəl nitqə malik olmaq üçün bu normaları gözləmək əsas şərtlərdən biridir. Ancaq bunun üçün nitq üslubi cəhətdən də düzgün qurulmalıdır. Yəni biz düşüncələrimizi çatdırmaq üçün sözləri elə seçməli, elə əlaqaləndirməliyik ki, fikrimiz aydın ifadə olunsun. İntonasiyamıza, jest və mimikamıza da diqqət yetirməli, yoruculuqdan uzaq olmalıyıq.

Şagirdlərin leksik normalara düzgün riayət etməsində və onların düzgün inkişaf etməsində orta məktəb dərsliklərinin nə dərəcədə mühüm rol oynadığını yaxşı bilirik və orta məktəb dərslikləri üzərində aparılan müşahidələr, əfsuslar olsun, göstərir ki, dərsliklərin dili anlaşılmazdır, qüsurlarla doludur. Bu qüsurların aradan qaldırılmasında monitorinqlərin rolu danılmazdır. Lakin əlbəttə ki, tək monitoriqlərlə kifayətlənmək olmaz, dərsliklərin yenidən hazirlanmasında mütəxəssislərin, nəşriyyatın da düzgün seçilməsi əsas şərtlərdən biridir və dərsliklərin düzgün ərsəyə gəlməsində olduqca böyük rol oynayır.

Dərsliklərinin dilindəki nöqsanların aradan qaldırılması üçün dərsliklərin monitorinqi çox əhəmiyyətlidir. Qeyd etsək ki, orta məktəb şagirdləri ədəbi dili əsasən dərsliklər vasitəsilə öyrənirlər, onda bu məsələnin vacibliyini dərk etmiş olarıq.

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzində “Azərbaycan dili beynəlxalq aləmdə” layihəsi çərçivəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş onlayn beynəlxalq tədbir keçirilib.

Monitorinq Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan dilinin qorunması, dünya miqyasında təbliği istiqamətində cari ildə görülmüş işlərin müzakirəsi ilə bağlı keçirilən bu tədbirdə Türkiyə, Kanada, Misir, Çin, İngiltərə,

Fransa, Hollandiya və s. ölkələrdə yaşayan və müxtəlif qurumlarda çalışan soydaşlarımız iştirak ediblər.

Mərkəzin direktoru filologiya elmləri doktoru, professor Sevinc Əliyeva soydaşlarımızı vahid məfkurə ətrafında birləşdirən milli-mənəvi dəyərimiz olan ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan dilinin beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsində müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin hər kəsə nümunə olacaq dil sevgisindən danışıb. S.Əliyeva dominant dillərin təsirinə baxmayaraq, xarici ölkələrdə öz dilini, mədəniyyətini yaşadan və layiqincə təmsil edən həmvətənlərimizin fəaliyyətini yüksək dəyərləndirərək bildirib ki, doğma dilimizin təbliği Mərkəz üçün də prioritet məsələdir. Hazırda Mərkəzin əməkdaşları tərəfindən "Azərbaycan dili" dərsliyi və ədəbi dil normalarını əks etdirən audiovəsaitlər hazırlanır. Azərbaycan dilinin düzgün tələffüz qaydalarının təbliğinə xidmət edən nağıllar və hekayələrdən ibarət disklər artıq dinləyicilərə və xaricdə yaşayan soydaşlarımızın ailələrində böyüyən uşaqlara təqdim edilib (6, 2).

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlunun sözlərinə görə, hər keçən gün Azərbaycanın leksik fondu bir qədər də azalır: "Bu gün Azərbaycanın leksik fondunda 56 min söz var, ancaq jurnalistin yazısında və nitqində orta statistik hesablamalara görə, istifadə etdiyi sözlərin ümumi sayı 5 mindən çox deyil. Bilirsiz, bu, artıq faciədir. Problemdən yaxa qurtarmağın yeganə yolu korrekturanın bərpasıdır. Burda söhbət təkcə qəzet və sayt korrekturasından getmir. Eyni zamanda radio və televiziya aparıcıları, müxtəlif mövzularla bağlı efirlərdə ictimaiyyətə təqdim olunan ekspertlər də dilin tələblərinə əməl etməlidir. Yəni bu prosesi kütləviləşdirmək lazımdır. Bununla həm dilimizin leksik fondu zənginləşəcək, həm də yazılarda və nitqlərdə düzgün ifadə tərzi formalaşacaq" (5,1).

Orta məktəblər üçün Azərbaycan dili dərsliklərinin müəllifi Rafiq İsmayılov leksik normalara riayət olunmasını belə təqdim edir: "Sözlərin yazılışını elmi, linqvistik, etimoloji cəhətdən əsaslandırmaq üçün çox arqument gətirmək olar. Amma adi vətəndaş bütün bunları bilməyə məcbur deyil. Ona görə söz müəyyən anlayışı bildirən bir işarədir və o, istəyir ki, orta məktəbdə öyrəndiyi bu işarə tez-tez dəyişməsin. Əgər dəyişərsə, onda bu işarələrə və qaydalara qarşı bir etinasızlıq yaranar. Yeri gəlmişkən, müzakirə olunan sənədin özündə də 2013-cü il orfoqrafiya lüğətindəki bəzi dəyişikliklərə məhəl qoyulmur: "sətirdən-sətrə" sözü ayrı, "qoşasamitli," gah bitişik, gah da ayrı yazılır. Bu o deməkdir ki, artıq elmi araşdırma aparanların özündə də etinasızlıq prosesi başlayıb" (7,2).

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzində "Ana dili və ziyalı təəssübkeşliyi" mövzusunda tədbir keçirilib. Şair Cığatel İsaqızı ata-babalarımızdan bizə əmanət olan ana dilimizin, Azərbaycan ədəbi dilimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsinin hər birimizin vətəndaşlıq borcu olduğunu söyləyib.

Görüşdə mövzu ətrafında müzakirələr olmuş, mərkəzin apardığı monitorinqlərin yekun hesabatında mövcud sahədə olan boşluqların aradan qaldırılması üçün təkliflərin əks olunması da diqqətə çatdırılmışdır. Tədbirdə Monitorinq Mərkəzinin Azərbaycan dilinin saflığının qorunmasına xidmət edən layihələri haqqında da ətraflı məlumat verilib.Çıxış edənlər ana dilinin qorunması və təbliği üçün əllərindən gələni əsirgəməyəcəklərini və Monitorinq Mərkəzinin fəaliyyətinə böyük məmnuniyyətlə yardımçı olacaqlarını bildiriblər. Qeyd edilib ki, bu prosesə Azərbaycan dilini mükəmməl bilən bütün vətəndaşlarımız, ziyalılarımız qoşulmalıdır. (3,2).

Orta məktəb dərsliklərində dil qüsurlarını (leksik normaların pozulması) aşkarlamaqda və sizə təqdim etməkdə məqsədimiz Azərbaycan ədəbi dil normalarının qorunmasına hər bir azərbaycanlının borclu olmasını diqqətə çatdırmaqdır. Bu nöqsanların aradan qaldırılacağına inam yaratmaq və iş aparmağın gələcəkdə dilimizin saflığının qorunmasının təmin olunması üçün əlverişli şəraitin, imkanların yaradılmasının vacibliyini bir daha diqqətə çatdırmaqdır.

Dərsliklərindəki nöqsanlar - şagirdin yaşının nəzərə alınmaması, ağır, anlaşılmayan, yaş həddinə uyğun olmayan terminlərdən istifadə, izahların natamamlığı, vulqar ifadələrin işlədilməsi, orfoqrafik və heca səhvləri, dilin fonetik, leksik və qrammatik normaların pozulması, məzmun və yazı üslubundakı qüsurlar hələ də mövcuddur və aradan qaldırılmayıb.

Təhsil üzrə ekspert Etibar Əliyev deyib ki, "Azərbaycanda yaxşı dərsliklərin yazılması üçün bir sıra qurumlar, məsələn, dərslik nəşriyyat şöbəsi, Dərsliklərin Qiymətləndirmə Şurası yaradıldı, nəşriyyatlara seçim hüququ verildi. Buna baxmayaraq dərsliklərdə ciddi qüsurlar qalmaqdadır" (4,1).

Azərbaycan dilinin dövlət dili kimi inkişafı və dilin təmizliyinin qorunması, eləcə də ədəbi dilin normalarının pozulmasının qarşısının alınması üçün Azərbaycan ədəbi dilinin normalarına əməl edilməsi, həmçinin orta məktəb dərsliklərindəki qüsurların aradan qaldırılması məqsədilə monitorinqlər keçirilməsi, monitorinqlərin nəticələrinin təhlili və buna uyğun treninqlərin aparılması vacibdir.

Ədəbiyyat

1.Azəbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dğvlət Proqramı" haqqında 23 may 2012-ci il Sərəncamı. Azərbaycan Respublikası Prezidentinin Fərmanlari və Sərəncamlari. səh.187, Bakı, 2013.

2.Nizami Gəncəvinin "Az danışmağın gözəlliyi" Bakı, Şərq –Qərb nəşriyyatı, s.462.

3.Ana dili və ziyalı təəssübkeşliyi. AZƏRTAC. Bakı, 14.01.2022.

4.Azərbaycanda dərslik böhranının səbəbləri. Bakı, 27.10.2018.AFN.

5.Dil normalarını media qorumalıdır. "Şərq" qəzeti, 01.08.2018).

6.Monitorinq Mərkəzində tədbir: Azərbaycan dili beynəlxalq aləmdə. Bakı, AZƏRTAC, 26.12.2022.
7.Rafiq İsmayılov, Dilçilərin vəzifəsi dildə dəyişiklik etmək deyil. 30 Yanvar 2018, Modern.az İnformasiya agentliyi.

İradə İsrafil qızı Kərimova

XÜLASƏ

MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN LEKSİK NORMALARI VƏ ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ BU NORMALARA RİAYƏT OLUNMASI HAQQINDA

Məqalədə Azərbaycan ədəbi dilinin leksik normaları araşdırılır. Orta məktəb dərsliklərində bu normalara əməl olunması tədqiq edillir.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan haqqında dəyərli fikirləri "Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" məqalədə öz əksini tapmışdır

Məqalədə göstərilir ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 23 may 2012-ci il tarixli Sərəncamından sonra dövlət dilinin tətbiqinə nəzarəti daha da gücləndirdi və bu baxımdan ciddi addımların atılması müasir Azərbaycan ədəbi dilimizin normaların riayət olunmayan mövcud nöqsanların aradan qaldırılmasına örnək oldu.

Dünya şöhrətli şairimiz Nizami Gəncəvinin sözün qüdrətini göstərmək məqsədi ilə "Sözün də su kimi lətafəti var" şerindən sitat verilib.

Qeyd olunur ki, ədəbi dilin (nitqin) tabe olduğu qayda-qanunların sisteminə isə ədəbi dilin normaları deyilir. Norma – müəyyən bir dövrdə sözün fonetik tərkibi və leksik mənasının, cümlənin qrammatik quruluşunun hər hansısa bir dil kollektivində obyektiv şəkildə fəaliyyətidir.

Tədqiq olunur ki, leksik norma hər kəsdən sözün mənası ilə yaxından tanış olmağı, onu yerində, düzgün işlətməyi tələb edir. Sözlərin leksik və semantik mənası, məzmunu mütləq gözlənilməlidir. Əks təqdirdə leksik norma pozulmuş olur. Belə ki, dildəki sözlər tarixi inkişaf sayəsində müəyyən mənaya malik olur.

Araşdırılır ki, orta məktəb dərsliklərindəki nöqsanlar - şagirdin yaşının nəzərə alınmaması, ağır, anlaşılmayan, yaş həddinə uyğun olmayan terminlərdən istifadə, izahların natamamlığı, vulqar ifadələrin işlədilməsi, orfoqrafik və heca səhvləri, dilin fonetik, leksik və qrammatik normaların pozulması, məzmun və yazı üslubundakı qüsurlar hələ də mövcuddur və aradan qaldırılmayıb.

Nəticədə göstərilir ki, Azərbaycan dilinin dövlət dili kimi inkişafı və dilin təmizliyinin qorunması, eləcə də ədəbi dilin normalarının pozulmasının qarşısının alınması üçün Azərbaycan ədəbi dilinin normalarına əməl edilməsi, həmçinin orta məktəb dərsliklərindəki qüsurların aradan qaldırılması məqsədilə monitorinqlər

keçirilməsi, monitorinqlərin nəticələrinin təhlili və buna uyğun treninqlərin aparılması vacibdir.

Açar sözlər: Müasir Azərbaycan dili**,** leksikologiya, orta məktəb dərslikləri, ədəbi dil normaları, dilin lüğət tərkibi, leksik normalar.

Керимова Ирада Исрафил кызы

РЕЗЮМЕ

ЛЕКСИЧЕСКИЕ НОРМЫ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА И О ПОЛОЖЕНИЯ СОБЛЮДЕНИЯ ЭТИХ НОРМ В УЧЕБНИКАХ СРЕДНИХ ШКОЛ

В статье рассматриваются лексические нормы современного азербайджанского литературного языка и положения соблюдения этих норм в учебниках средних школ.

В статье отражены ценные слова великого лидера Гейдара Алиева: «Главной идеей независимого Азербайджанского государства является азербайджанство. Каждый азербайджанец должен гордиться своей национальностью, и мы должны сохранять азербайджанство – азербайджанский язык, культуру, национально-духовные ценности, традиции».

Отмечено, что после Указа Президента нашей Республики господина Ильхама Алиева от 23 мая 2012 года отмечается усиление контроля за использованием государственного языка. Предпринятые серьезные шаги в этом направлении стали примером устранения существующих недостатков нашего современного азербайджанского литературного языка, не соответствующих нормам.

В статье процитировано стихотворение всемирно известного Азербайджанского поэта Низами Гянджеви.

Отмечается, что словарный состав современного Азербайджанского языка очень богат. Как и в других развитых литературных языках мира, качество лексических норм Азербайджанского литературного языка определяют национальные слова.

Указывается, что лексическая норма требует хорошего ознакомления со значением или же значениями слова, а также его уместного и правильного употребления. Слова языка приобретают, определенные значения в результате исторического развития. Употребление слов в несвойственном им, нетрадиционном смысле и значении, введение в текст в ненужном виде является дефектом речи. Если слово используется и употребляется в нехарактерном для него смысле, это означает, что мысль будет

невразумительно. Таким образом, лексическая норма будет нарушена, т.е. будут нарушены требования культуры речи.

В заключении указывается, что каждый азербайджанец должен придерживаться норм литературного языка и бороться за его чистоту. Поскольку современный Азербайджанский литературный язык является одним из важных атрибутов государства и государственности, каждый процесс, связанный с ним, должен находиться под контролем государства.

Ключевые слова: Современный Азербайджанский язык, лексикология, учебники средней школы, нормы литературного языка, словарный состав языка, лексические нормы.

Kerimova İrada İsrafil

Summary

LEXICAL NORMS OF MODERN AZERBAIJANI LITERARY LANGUAGE AND PROVISIONS ON COMPLIANCE WITH THESE STANDARDS IN TEXTBOOKS FOR SECONDARY SCHOOLS

The article examines the lexical norms of the literary language of Azerbaijan. Compliance with these norms is studied in secondary school textbooks.

The article reflects the valuable words of the great leader Heydar Aliyev: “Azerbaijanism is the main idea of an independent Azerbaijani state. Every Azerbaijani must be proud of his nationality, and we must preserve Azerbaijaniness - the Azerbaijani language, culture, national and spiritual values, traditions.”

After the Decree of the President of our Republic, Mr. Ilham Aliyev, dated May 23, 2012, there has been a strengthening of control over the use of the state language. The serious steps taken in this direction have become an example of eliminating the existing shortcomings of our modern Azerbaijani literary language, which do not meet the norms.

The article quotes a poem by the world-famous Azerbaijani poet Nizami Ganjavi.

It is noted that the vocabulary of the modern Azerbaijani language is very rich. As in other developed literary languages of the world, the quality of the lexical norms of the Azerbaijani literary language is determined by national words.

The lexical norm requires a good knowledge of the meaning or meanings of the word, as well as its appropriate and correct use. The words of a language acquire certain meanings as a result of historical development. The use of words in an unusual, non-traditional sense and meaning, the introduction into the text in an unnecessary form is a speech defect. If the word is used and used in a sense that is not characteristic of it, this means that the thought will be unintelligible. Thus, the

lexical norm will be violated, i.e. the requirements of the culture of speech will be violated.

In conclusion, it is indicated that every Azerbaijani must adhere to the norms of the literary language and fight for its purity. Since the Azerbaijani literary language is one of the important attributes of the state and statehood, every process associated with it should be under the control of the state.

Key words: Modern Azerbaijani language, lexicology, high school textbooks, norms of the literary language, vocabulary of the language, lexical norms.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Əliheydər Ağakişiyev tərəfindən çapa tövsiyə olunmuşdur

AYSU GÖZƏLOVA
Bakı Dövlət Universiteti
aysugozelova55@gmail.com

KİÇİK HƏCMLİ FOLKLOR JANRLARINDA LEKSİK-SEMANTİK SÖZ QRUPLARI

Şifahi xalq ədəbiyyatı nümunələri zəhmətkeş xalq kütlələrinin arzu və istəklərini tərənnüm etməsi baxımından hər bir xalqın ədəbi və mədəni irsində mühüm yer tutur. Bu janrlar xalqın keçmişdən bu günə qədər olan fikirlərini, düşüncələrini əks etdirir. Tapmacalar, bayatılar, atalar sözləri, zərb-məsəllər xalq yaradıcılığının gözəl və zəngin nümunələridir. Bu janrların dili də olduqca rəngarəng və çoxcəhətlidir. İstər nəzm, istərsə də nəsr şəklində olan bu janrların müxtəlif dil vahidlərini özündə cəmləşdirir. Xüsusilə də şifahi xalq ədəbiyyatının şeir dilində leksik-semantik söz qrupları-sinonim, antonim və omonimlər öz işlənmə xüsusiyyətlərinə görə fərqlənir.

Folklor janrlarının dili zəngin sinonimliyə malikdir. Xalq yaradıcılığının müxtəlif nümunələrində işlənən sinonim sözlər janrların dilinə ifadəlilik keyfiyyəti verir, rəngarəng edir və incə mətləblərin çatdırılmasında rol oynayır. Bayatıların dilində daha çox rast gəlinən bu söz qrupları, əsasən, bir misra daxilində işlənənərək şeirin təsir gücünü artırır:

Əziziyəm, incidi,
İnci mərcan, inci dürr.
Yaman övlad, *bəd* qonşu,
Qohum-qardaş incidi [1, s. 82].

Nümunələrin dilində fərqli sözlər eyni mənanın ifadəsinə xidmət etsə də, onların bir misra daxilində yan-yana işlədilməsi mətndə çatdırılan məzmunu daha dəqiq və incə şəkildə ötürməyə kömək edir:

Tut ağacı tut kimi,
Tut da bitər ot kimi.
Şirin-şəkər dadı var,
Yeyən olar od kimi [1, s. 119].

Folklorun dilində fərqli məqamlarda çıxış edən sinonimlərin müştərək xidməti odur ki, bu söz qrupları eyni söz və ifadənin təkrarlanmasının qarşısını alırlar. Təkcə bayatılarda deyil, tapmacaların dilində də sinonimlər işləkdir. Məzmun baxımından müxtəlif sahələrlə bağlı olan tapmacalarda təsvir edilən əşyanın xüsusiyyətlərinin, əlamətlərinin daha qabarıq şəkildə, incəliklərinə qədər ifadə olunmasında sinonimlər rol oynayır:

Üstü yaşıl məxmərdi,
İçi *şirin, şəkərdi* (qarpız) [5, s. 331].

Kiçik həcmli folklor janralarının leksik-semantik cəhətdən qurulmasında, ifadə edilən mənaların təzad vasitəsilə təşkil olunmasında rol oynayan söz vahidlərindən biri də antonimlərdir. Əgər sinonimlər mənanın qüvvətlənməsində güclü vasitə kimi çıxış edirsə, antonimlər daha çox fərqləndirici və müqayisəedici vasitədir. Antonim sözlərin əsas mahiyyəti əkslik və ziddiyyət yaratmaq, mənanı dəqiq və təsirli verməkdir. Şifahi xalq ədəbiyyatının nümunələrinin bəzən bir misrası, bəzən də bütövlükdə nümunə antonim sözlər əsasında qurulur. Xüsusilə də öz dərin məzmununə görə seçilən atalar sözləri bəzən sırf antonimlərdən təşkil olunur: "*İçi cənnətdi, çölü cəhənnəm"* [2, s. 469], "*Ağıllı balaca, cahil böyükdən* yaxşıdı" [1, s. 302]. "*Halal artar, haram batar*" [1, s. 308], "*Əvvəl* evin *içi*, *sonra çölü*" [6, s. 91], "*Az danış, çox eşit*" [6, s. 75].

Folklor nümunələrində təzadlı məqamlar xalqın təfəkkürünə, xalqın dilinin təbiətinə uyğun olaraq antonimlərin iştirakı ilə əks olunur. Antonimlər vasitəsilə müəyyən anlayışlar əks qütblərdə qruplaşdırılır:

Əzizim, yaram azdı,
Ovçu *çox*, yaram *azdı.*
Ağlama, anam, bacım,
Ölmərəm yaram azdı [1, s. 88].

Və yaxud:

Əzizim, qara baxdım,
Ağ baxdım, *qara* baxdım.
Quzeydə lalə dərdim,
Güneydə qara baxdım [1, s. 84].

Leksik vasitələrin uğurla qarşılaşdırılması tapmacaların dilində də çox istifadə olunur:

Ağzı açıx Sayəmət,
İçi qızıl qiyamət.
Yaş vuraram, *quru* çıxar,
Səy-yalo Məhəmməd (təndir) [1, s. 154].

Tapmaca, bayatı, atalar sözlərinin leksik-semantik strukturuna baxdıqda aydın olur ki, sözlər arasında olan əks, zidd məna bağlılıqları bu janrların qurulmasında əsas vasitə kimi çıxış edir. Nümunələrin çoxunda antonim cütlükləri vasitəsilə maraqlı konflikt yaradılır, bu da mətnin təsirini artırır, ekspressivlik yaradır:

Gündüz bəzər budağı,
Gecə gəzər otağı (ditdili) [6, s. 144].

Yaxud:

Alçaxda oturma sel aparar,
Hündürdə oturma yel aparar [6, s. 165].

Göründüyü kimi, antonim sözlər xalq yaradıcılığında əşya və hadisələrin əlamət və keyfiyyəti haqqında obrazlı və canlı təsəvvür yaratmaq üçün ən yaxşı vasitədir.

Folklor janrlarının dili üçün xarakterik olan digər söz qruplarından biri də omonimlərdir. Müxtəlif mənaları ifadə edən, lakin səslənməsinə görə eyniyyət təşkil edən bu sözlər şifahi xalq ədəbiyyatı nümunələrinin dilində estetik funksiya daşıyır. Omonim sözlərin səslənmə baxımından ahəngdar düzülüşü mətnin sintaqmlara ayrılmasında, ritmikliyin, dinamikliyin formalaşmasında mühüm rola malikdir.

Omonimiya hadisəsi xüsusilə folklorun dilində cinas qafiyənin yaranması üçün ən effektiv vasitədir. Bunun üçün omonim və omonimik dil hadisələrindən istifadə olunur. Buraya semantik omonim, omofon, omoqraf və omoformlar aiddir. "Semantik omonimlər bir sözün bir və ya iki mənasının əsas məna ilə hər cür əlaqəsini kəsərək maksimal məna ayrılığına malik olması nəticəsində əmələ gəlir" [3, s. 103]. Bu sözlər bayatıların dilində tək səslənmə effektinə görə deyil, semantik baxımından düşündürmə tərzinə görə də diqqəti cəlb edir:

Ana, məni yaz ağla,
Qış sızılda, *yaz* ağla.
Nə vaxt yadına düşsəm,
Ağ kağıza *yaz* ağla [7, s. 56].

Şifahi xalq ədəbiyyatı nümunələrinin dilində elə söz qrupları da var ki, səslənmə baxımından oxşarlıq təşkil edirlər. Belə sözlər omofon adlanır. Bayatı nümunələrinin çoxu bu sözlər əsasında qurulur, onlar vasitəsilə cinas yaradılır:

Aşiqəm, *oda* sənin,
Döşəli *oda* sənin.
Yetimin bir canı var,
Dilərsən, *o da* sənin [7, s. 75].

Folklor janrlarının dilində morfoloji omonimlər (omoqraf və omoformlar) da aktiv iştirak edir, bu söz qrupları şeir dilində qafiyə mövqeyində çıxış edirlər. Burada vurğu, intonasiyanın və müxtəlif qrammatik vasitələrin də xüsusi rolu vardır:

Bağında *üzüm* qara,
Yeməyə *üzüm* qara.
İstərəm dosta varam,
Əlim boş, *üzüm* qara [7, s. 102].

Vurğuya görə fərqlənən sözlər əsasında qurulan tapmaca nümunələri də az deyil:

Əzizinəm, yüz *qoyun*,
Yüz götürün, yüz *qoyun*.
Altı abbasıya almışam,
Altı öküz, yüz *qoyun* [8, s. 113].

Xalqın təfəkkürünü ifadə edən bu şeir nümunələrində sözlərdən bu formada istifadə böyük sənətkarlıq tələb edir. Sözlərdən orijinal şəkildə bəhrələnilən xalq şeirlərində bəzən eyni formada olan, lakin qrammatik baxımından fərqlənən sözlərdən də böyük məharətlə istifadə olunur:

Aşiqəm, *qala* məndə,
Bürc məndə, *qala* məndə.

Mən ölməkdən deyiləm,
Yar sözü *qala* məndə [7, s. 70].

Omonim və omonimik hadisələrin əsas xüsusiyyəti odur ki, bu söz qrupları şeir dilinin müxtəlif hissələrində çıxış edir, qarşılıqlı, paralel şəkildə verilir. Dərin fəlsəfi məzmuna malik olan atalar sözlərində isə daha çox paronimlər işlənir. Bu sözlər tərkibindəki bir hərfə görə fərqlənən, müxtəlif mənaya malik sözlərdir. Atalar sözləri və məsəllərin dilində belə sözlər kifayət qədərdir:"Gündə gedən *kül* üstə, ayda gedən *gül* üstə" [3, s. 284],*"*Acda *iman* olmaz, toxda *aman*" [3, s. 276], *"Camış* ola, *qamış* ola" [3, s. 279], *"Dəm dəm* gətirər, *qəm* də *qəm*" [3, s. 289].

Şifahi xalq yaradıcılığının digər janrları olan bayatı nümunələrində də bu tip sözlər qafiyə yaratmaq məqsədi ilə işlənir, şeirin dilinin təsirini artırır, mənanı qabarıq və parlaq şəkildə çatdırır:

Ay yanında *halə* var,
Ot üstündə *jalə* var.
Yara dəyip dolaşma,
Gözündə piyalə var [2, s. 72].

Yaxud:

Əziziyəm, *zər* kəmər,
Zəri yığan dərd əmər.
Zəri yığıb qorusan,
Arxasıynan *şər* gələr [2, s. 72].

Beləliklə, müxtəlif semantik kateqoriyalar folklor nümunələrinin dilini dolğun və təbii ifadəsinə xidmət edir. Omonim və omonimik hadisələrin yaradığı ritmik avazlanma və qafiyə qəlibləri xalq dilinin gözəlliyinin əsas təminatçılarından birinə çevrilir. Həmçinin anlayışların təzadlı müqayisəsi, sözlərin məna yaxınlığından istifadə şifahi xalq ədəbiyyatına məxsus janrların formalaşmasında əsas rolu oynayır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan folkloru antologiyası, XIII cild: Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru, Bakı, 2005, 546 s.
2. Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru), Bakı, Səda, 2006, 496 s.
3. Azərbaycan folkloru antologiyası, XVIII kitab, Şəki folkloru, III cild, Bakı, Nurlan, 2008, 536 s.
4. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili, I cild. Bakı, Nurlan, 2003, 450 s.
5. Naxçıvan folkloru antologiyası. I cild, Naxçıvan, 2009, 541 s.
6. Nailə ananın söylədikləri (Qubadlı bölgəsi: etnoqrafiya, folklor, dil örnəkləri). Bakı, Elm və təhsil, 2020, 392 s.
7. Sultanlı.S.P. Azərbaycan ağız ədəbiyyatında bayatılar. Gəncə, 2012, 377 s.
8. Tapmacalar. Bakı, Şərq-Qərb, 2004, 208 s.

GÖZƏLOVA AYSU

KİÇİK HƏCMLİ FOLKLOR JANRLARINDA LEKSİK-SEMANTİK SÖZ QRUPLARI

XÜLASƏ

Şifahi xalq ədəbiyyatı nümunələri zəhmətkeş xalq kütlələrinin arzu və istəklərini tərənnüm etməsi baxımından hər bir xalqın ədəbi və mədəni irsində mühüm yer tutur. Bu janrlar xalqın keçmişdən bu günə qədər olan fikirlərini, düşüncələrini əks etdirir. Tapmacalar, bayatılar, atalar sözləri, zərb-məsəllər xalq yaradıcılığının gözəl və zəngin nümunələridir. Bu janrların dili də olduqca rəngarəng və çoxcəhətlidir. İstər nəzm, istərsə də nəsr şəklində olan bu janrların müxtəlif dil vahidlərini özündə cəmləşdirir. Xüsusilə də şifahi xalq ədəbiyyatının şeir dilində leksik-semantik söz qrupları-sinonim, antonim və omonimlər öz işlənmə xüsusiyyətlərinə görə fərqlənir. Folklor janrlarının dili zəngin sinonimliyə malikdir. Əgər sinonimlər mənanın qüvvətlənməsində güclü vasitə kimi çıxış edirsə, antonimlər daha çox fərqləndirici və müqayisəedici vasitədir.

Müxtəlif semantik kateqoriyalar folklor nümunələrinin dilini dolğun və təbii ifadəsinə xidmət edir. Omonim və omonimik hadisələrin yaradığı ritmik avazlanma və qafiyə qəlibləri xalq dilinin gözəlliyinin əsas təminatçılarından birinə çevrilir. Həmçinin anlayışların təzadlı müqayisəsi, sözlərin məna yaxınlığından istifadə şifahi xalq ədəbiyyatına məxsus janrların formalaşmasında əsas rolu oynayır.

Açar sözlər: sinonim, antonim, omonim, bayatı, tapmaca, atalar sözləri.

GOZALOVA AYSU

LEXICAL-SEMANTIC WORD GROUPS IN SMALL FOLKLORE GENRES

SUMMARY

Samples of oral folk literature occupy an important place in the literary and cultural heritage of every nation in terms of glorifying the wishes and aspirations of the working people. These genres reflect people's thoughts and ideas from the past to the present day. Riddles, old sayings, proverbs, proverbs are beautiful and rich examples of folk creativity. The language of these genres is also quite colorful and multifaceted. It includes various language units of these genres, both in the form of poetry and prose. Especially in the poetic language of oral folk literature, lexical-semantic word groups-synonyms, antonyms and homonyms differ according to their processing characteristics. The language of folklore genres has rich synonymy. If synonyms act as a powerful means of reinforcing meaning, antonyms are more of a distinguishing and comparative tool.

Various semantic categories serve the full and natural expression of the language of folklore examples. Rhythmic rhythm and rhyming patterns created by homonyms and homonymic events become one of the main providers of the beauty of the folk

language. Also, the contrasting comparison of concepts, the use of the close meaning of words play a key role in the formation of genres belonging to oral folk literature.

Key words: synonym, antonym, homonym, stale, puzzle, proverbs.

ГОЗАЛОВА АЙСУ

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ГРУППЫ СЛОВ В МАЛЫХ ФОЛЬКЛОРНЫХ ЖАНРАХ

РЕЗЮМЕ

Образцы устной народной литературы занимают важное место в литературном и культурном наследии каждого народа с точки зрения прославления желаний и чаяний трудящихся. Эти жанры отражают мысли и идеи людей от прошлого до наших дней. Загадки, старинные поговорки, пословицы, пословицы – красивые и богатые образцы народного творчества. Язык этих жанров также достаточно красочен и многогранен. Он включает в себя различные языковые единицы этих жанров, как в форме поэзии, так и в прозе. Особенно в поэтическом языке устной народной литературы лексико-семантические группы слов-синонимы, антонимы и омонимы различаются по своим технологическим характеристикам. Язык фольклорных жанров имеет богатую синонимию. Если синонимы действуют как мощное средство усиления смысла, то антонимы — скорее инструмент различения и сравнения.

Полному и естественному выражению языка фольклорных образцов служат различные семантические категории. Ритмический ритм и рифмованные узоры, создаваемые омонимами и омонимическими явлениями, становятся одним из главных поставщиков красоты народного языка. Также контрастное сопоставление понятий, использование близкого значения слов играют ключевую роль в формировании жанров, принадлежащих к устному народному творчеству.

Ключевые слова: синоним, антоним, омоним, черствый, загадка, пословицы.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: prof.S.Abdullayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

XƏDİCƏ ƏLİYEVA
MDU
Dilarə Əliyeva 21
e-mail: ***xediceeliyeva-90@ mail. ru***

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ LİNQVİSTİK MATERİALLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİ YOLLARI

XÜLASƏ

Cümlə hər bir dilin qrammatik qanunları əsasında formalaşaraq bitmiş bir fikri ifadə edir. Cümlələrin əmələ gəlməsindəki qaydalar hər bir dilin öz daxili inkişaf qanunlarına əsaslanır. Bu qaydaların müəyyən dərəcədə tarix boyu dəyişikliyə məruz qalması zaman-zaman müxtəlif tədqiqatların obyekti olmuşdur. Cümlə və onun əlamətləri tədqiqatçılar tərəfindən müxtəlif şəkildə izah edilmişdir.Hər bir cümlə müəyyən məlumata, intonasiya formasına, predikativliyə və modallığa malik olmalıdır. Nitqlə bağlı canlı qarşılıqlı əlaqələr və qarşılıqlı təsir prosesi şəraitində cümlənin kommunikativ funksiyası aparıcı yer tutur. Buna görə də cümlənin təhlili məhz funksional baxımdan həyata keçirilir. Sintaktik təhlil zamanı həmişə cümlə üzvləri fərqləndirilir, məntiqi təhlildə frazanın informasiya mənası aydın olur, aktual təhlildə isə konkret ünsiyyət şəraitində frazanın anlam dairəsi müəyyənləşdirilir. Danışıq dilinin biri digərinə yaxın görünən vahidləri bəzən çox incə məna və intonasiya xüsusiyyətləri ilə seçilir. Fonetik ünsürlər prinsipcə leksik-qrammatik vasitələrdən fərqlənir. Lakin onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndiricisi rolunu oynayır. Bu mənada xarici dillərin tədrisində dil materiallarından istifadə zamanı müəyyən meyarlara riayət olunmalıdır. Bununla yanaşı, leksikanın tədrisinə ayrılan vaxt səmərəli şəkildə bölünməlidir. Belə ki, dərsin əvvəlində tələbələri fəallaşdırmaq, onları müxtəlif, əvvəlcədən nəzərdə tutulmuş fəaliyyət növlərinə cəlb etmək məqsədilə onlara nitq fəaliyyətlərini aktivləşdirən sualların verilməsi tövsiyə edilir. Növbəti mərhələlərdə yerinə yetirilən tapşırıqlar üç mərhələli iş sistemində həyata keçirilməlidir. Burada bu fəaliyyət növlərinin yerinə yetirilməsi tövsiyə edilir: açar sözlərin təqdim edilməsi, mətndə olan qrammatik strukturların tələbələrə təqdim edilməsi və təklif edilən çalışma və tapşırıqların mərhələli şəkildə yerinə yetirilməsi. Tapşırıq verərkən, onun yerinə yetirilməsində verilən vaxt müddətini müəyyənləşdirmək olduqca vacibdir. Təhsil alan və dili professional məqsədlərlə öyrənənlər onlara bu və ya digər tapşırığın yerinə yetirilməsinə ayrılan vaxt müddətindən səmərəli şəkildə istifadə etməyi və onu düzgün şəkildə bölməyi tədricən öyrənməlidirlər. Bu leksikanın tədrisi prosesinin səmərəliliyini təmin edir. Müntəzəm olaraq, öyrənilən xarici dildən kommunikativ məqsədlərlə istifadə etməklə dilin kommunikativ-yönümlü tədrisini təşkil etmək mümkündür. Kommunikativ-yönümlü təlim öyrənilən xarici dilin yalnız auditoriya şəraitində deyil, həm də auditoriyadan kənar şəraitdə istifadə edilməsini nəzərdə tutur.

Açar sözlər: dil, leksika, metod, texnologiya , nitq

Son illərdə nəşr edilmiş metodik ədəbiyyatlarda dillərin kommunikativ təliminə dair həsr edilmiş tədqiqatların mövcudluğunu qeyd etmək lazımdır. D.Haymz, C.Edelhof, D.Litl, C.Uilems, D.Atkinson, M.Klayn, D.Kuşman, R.Engerstrom, H.Gardner, E.Gofman, H.Grays, C.Gamperə, C.Kasper, C.Martin, L.Smit və s. alimlərin tədqiqatlarında ingilis dilində adekvat kommunikasiyanın təliminin kifayət qədər mürəkkəb bir məsələ olduğu vurğulanır.

Şifahi nitq vərdişlərinin aşılanmasından bəhs edərkən, ilk növbədə kommunikativ səriştənin nə olduğu sualı ilə qarşılaşırıq. "Kommunikativ kompetensiya" (Communicative competence) termini ilk dəfə olaraq, sosiolinqvist D. Haymz tərəfindən təklif edilmişdir. Kommunikativ kompetensiyaya yiyələnmiş dildaşıyıcıları və eləcə də dildaşıyıcıları olmayan dil istifadəçiləri dildən ünsiyyət məqsədilə adekvat şəkildə istifadə etmək qabiliyyətinə yiyələnmiş olurlar. D. Haymz öyrənilən dilin sosial və funksional qaydalarının mənimsənilməsini prioritet hesab edir. Kommunikativ təlim sahəsində çoxsaylı tədqiqatlar kommunikativ səriştənin nisbiliyini, kommunikasiya prosesinə cəlb olunmuş iştirakçılardan asılılığını və dinamik xarakterə malik olduğunu qeyd edir. Şifahi nitq vərdişlərinin aşılanması zamanı nitq situasiyalarının rolu danılmazdır. Bu iki formada həyata keçirilir: əyani-situativ-ekstra linqvistik və kontekstual-situativ. Əmələ gəlmə şəraitindən asılı olaraq, təbii təlim situasiyalarını da qeyd etmək olar. Təbii şəraitdə şifahi nitq real, canlı və yaradıcı ünsiyyət prosesində formalaşır. Lakin onu da qeyd etmək lazımdır ki, müvafiq şərait olduğu halda mütləq real situasiyalardan bəhrələnmək vacibdir. Burada xarici dili, o cümlədən ingilis dilini tədris edən müəllimin üzərinə düşən əsas vəzifə ünsiyyət prosesini stimullaşdırmaqdan və əmələ gələn təbii situasiyanın dilöyrənənlər tərəfindən nitq reaksiyasına səbəb olmasını təmin etməkdən ibarətdir.

Xarici dillərin tədrisində metodiki işin könüllü xarakteri, onun hazırlanmasında və həyata keçirilməsində olan çətinliklərin həlli, tədbirlərin hazırlanması, məzmun, forma və metodlar üzrə bütün tələblərə əməl olunması zəruri hesab olunur. Xarici dil ilə bağlı iş sisteminin xüsusi şərtləri onun strateji məqsədlərinə tabe olmalıdır. İşin xüsusiyyətləri onların məzmununa olan metodiki tələblərdə öz əksini tapır. Xarici dil üzrə işin məzmunu onun əsas istiqamətlərinin üzvi birliyindən ibarətdir. Burada dilöyrənənlərin monoloji və dialoji nitqləri nəzərə alınmalıdır. Belə ki, monoloji və dialoji nitqin vəhdətdə inkişafı yüksək nəticələr verir.

Monoloji nitqin təşkilində tələbat və həmin tələbatın ödənilməsi üçün səmərəli şəraitin olması vacibdir. Məhz buna görə nitq ünsiyyətinin baş verməsi üçün müvafiq situasiyanın olması zəruridir. Müvafiq bacarıqlara yiyələnmiş dil daşıyıcıları nitq prosesində bununla bağlı heç bir çətinliklə üzləşmir. Dil daşıyıcısı olmayan, xarici dilləri, o cümlədən ingilis dilini öyrənənlərə monoloji nitq zamanı müvafiq vərdişlərin aşılanması zəruridir. Bütün bunlar işlərin siyahısına daxildir. Belə ki, buraya yazı, oxu və digər bacarıqlar da aid edilir. Lakin çətinlikləri şərtləndirən məsələlər sırasında bu işin bəzən yekdil olmaması da yer alır. Belə ki, bacarıqların birini unudub digərini fəallaşdırdıqda çətinliklər labüd hala keçir. Bu işlərin təşkilində tapşırıqların yerinə yetirilməsi də vacib şərtlərdəndir. Lakin

bəzən tapşırıqlar dilöyrənənlərin marağına daxil olmur. Seçilərkən debat və müzakirələrə sövq etməyən tapşıırqlardan istifadə olunur ki, bu da zamanla dilöyrənənləri yorur.

Aşağıdakı danışığa sövq edən tapşırığa nəzər salaq:

Fashion. Reading 1. Smart clothes. Thinking about the topic. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. Identifying Main Ideas and Supporting Details. D. Relating reading to personal Experience.

Reading 2. Shoes. Predicting. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. Making inferences. Relating reading to personal Experience.

Reading 3. Style not fashion. Thinking about the topic. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. Recognizing Purpose. Relating reading to personal Experience.

Reading 4. Repeat after me: Memory takes practice. Thinking about the topic. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. recognizing Purpose. Relating reading to personal Experience.

Personality. Reading 1. Thinking about the topic. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. Identifying Main Ideas and Supporting Details . D. Relating reading to personal Experience.

Reading 2. Temperament and Personality. Predicting. Skimming. A. Comprehension Check. B. Vocabulary Study. C. Making inferences. Relating reading to personal Experience.

Müasir dövrdə xarici dilin tədrisində çalışmalar sistemini seçərkən onların əsas bacarıqlar olan dinləyib-anlama, yazı, oxu və danışıq bacarıqlarını yüksək səviyyədə inkişaf etdirmək potensialının olması nəzərə alınmalıdır.Təlim situasiyaları onlarda real və qeyri-real komponentlərin nisbətindən asılı olaraq səciyyələndirilir. Bu göstəricini əsas tutaraq məhz real modellər olan şərti-real situasiyalar təbii situasiyalara ən yaxın hesab edilə və diskursiv kompetensiyanın aşağı kurs tələbələrinə aşılamaq məqsədilə uğurla istifadə edilə bilər. Problemli situasiyalarda baş verən proseslər dilöyrənənlərin xarici dildə nitqinin fəallaşdırılması, mənimsənilmiş linqvistik materialların aktuallaşdırılması və şifahi nitqin əsasını təşkil edən potensial fəaliyyətin həyata keçirilməsi üçün və beləliklə, dilöyrənənlərdə şifahi nitqin inkişaf etdirilməsi üçün səmərəli şəraitin yaradılmasını tələb edir. İxtisas dilindən ünsiyyət məqsədilə istifadə etməyə qadir olan mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran əsas vəzifəsidir. Müasir məktəblərin inkişafının bugünki mərhələsində bu işlər təhsil sisteminin vacib bir elementi kimi çıxış edir. Bu islahatlar nəticəsində əldə edilən qərarlar olduqca vacibdir. Bu işlərin dərs proqramları ilə düzgün şəkildə əlaqələndirilməsi tədrisin səmərəliliyini daha da artırır. Müəyyən bir fənn ilə bağlı işlərin planlaşdırılması və aparılmasında fəaliyyətlərin hər birinin məktəbin təhsil sisteminə uyğunlaşdırılmasının vacibliyi nəzərə alınmalıdır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər isə bütün dilöyrənənləri fəallaşdırır, təhsilalanlar və müəllim arasında psixoloji mühit yaranır, hər iki tərəfin qarşılıqlı əməkdaşlığı təmin olunur. Bunun nəticəsində zəif dilöyrənənlərdə öz gücünə inam yaranır, güclülər isə öz yoldaşlarına kömək edirlər. Bu zaman onlarda kommunikativ bacarıqlar yaranır, tənqidi

təfəkkür inkişaf edir. Müasir təlim metodu olaraq, interaktiv metod ingilis dilinin tədrisi prosesini xeyli intensivləşdirir, fəallığın artmasına zəmin yaradır və təlimin inkişaf prosesini gücləndirir.Tədris prosesində interaktiv təlim metodundan istifadə zamanı dərsin strukturunda motivasiya, problemin qoyulması, tədqiqatın təşkili, məlumat mübadiləsi, məlumatın təşkili, nəticənin çıxarılması, tətbiq edilməsi nəzərə alınmalıdır. Belə təlim prosesində dərs müxtəlif formalarda-fərdi, cütlərlə, qruplarla iş şəklində effektli üsullarla aparılır. İnteraktiv təlim metodunun mühüm xüsusiyyəti dərs prosesində öyrədici, ümumiləşdirici, yaradıcı olaraq müxtəlif səpkili problemlərin təşkili, düşünməyə yönəltmə, dərketmə, tələbələrdə aldıqları biliklər əsasında təhlil etmə qabiliyyətlərini inkişaf etdirmək və formalaşdırmaqdır. İnteraktiv təlim metodunun istifadə edilməsi tələbəni dərsin fəal iştirakçısı etməyə, idrak fəallığını yaratmağa və inkişaf etdirməyə imkan verir. Bu fəaliyyət zamanı tələbələr daha çox psixoloji gərginlikdən azad, canlı ünsiyyət prosesində isə interaktiv fəaliyyətdə olurlar. Bu zaman yeni metod və texnologiyalar vasitəsi ilə dilöyrənənlərin yalnız şifahi nitqi deyil, həmçinin onlarda məntiqi, tənqidi, yaradıcı təfəkkür də inkişaf etdirilir. Xarici dillərin müasir metodlar vasitəsi ilə öyrədilməsi istedadlı tələbələrin inkişafı üçün əlverişli şərait yaradır. Belə dərslərdə yalnız istedadlı dilöyrənənlər deyil, həm də zəiflər fəal iştirakçıya çevrilir. Təlim prosesinin inkişaf etdirilməsi üçün dilöyrənənlərin maraq və meyilləri nəzərə alınmalıdır. Yalnız bu yolla onlarda xarici dilə qarşı maraq oyatmaq olar. Təlim prosesində onlarda motivasiya yaratmaq, dil öyrənmək həvəsi yaratmaq mühüm şərt kimi meydana çıxır. Bu isə fəal təlim metodlarından dərsdə daha çox istifadə olunmasını tələb edir. İşlərin təşkili zamanı birgə fəaliyyətə ciddi hazırlıq işi aparılır ki, bu da təbii ki, dilöyrənənlərdən daha mürəkkəb və kompleks bacarıqları özündə birləşdirən intellektual fəaliyyət tələb edir. Burada kooperativ tədris üsulundan istifadə bu və ya digər qrupa daxil olan təhsilalanlara tədris materialını özünün anladığı səviyyədə mənimsəməyə imkan verir. Bu da dilöyrənənlərin müstəqil rola malik olmaqla iş çərçəvəsində sonrakı bərabər və aktiv fəaliyyətini təmin edir. Ayrı-ayrı fərdlərin uğurundan isə ümumilikdə bu və ya digər işin uğuru çox asılıdır. Hesab edirik ki, bu fəal şüurlu fəaliyyətə, biliklərin daha möhkəm mənimsənilməsinə, eləcə də, yeni informasiya axtarışına olduqca böyük stimul verməklə çox mühüm amul kimi çıxış edir.

Beləliklə, dilöyrənənlərdə ingilis dilində şifahi nitq bacarıqları formalaşdıraraq mütləq müvafiq linqvistik materialların və nitq modellərinin dilin normalarına uyğun kommunikasiya prosesində işlədilməsinə xüsusi diqqət yetirilməlidir. İngilis dili dərslərində təlim situasiyalarından geniş şəkildə istifadə etməklə orta və ali məktəblərdə şifahi nitqin inkişaf etdirilməsi prosesini daha səmərəli şəkildə təşkil etmək və bu istiqamətdə daha yüksək nailiyyətlər əldə etmək mümkündür. Dilöyrənənlərə təqdim edilən situasiyalar real ünsiyyət situasiyalarına yaxın olmalı və konkret kommunikativ situasiyalarda tələbələrin bilavasitə "iştirak etmə effekti"ni təmin etməlidir. İngilis dilində dilöyrənənlərə təqdim olunan situasiyalar onları maksimum dərəcədə fəallaşdıraraq öyrənilən xarici dildə şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirilməlidir [1, s.143].

Onu da yadda saxlamaq lazımdır ki, müəyyən dil materiallarının səmərəli şəkildə aktivləşdirməsinə səbəb ola bilən zəruri şərtlərdən biri mənimsənilməli olan linqvistik

materialların və nitq modellərinin dilöyrənənlərin kommunikativ baxımdan tələbatlarına uyğun olmasıdır. Xarici dildə şifahi nitqin inkişaf etdirilməsi yalnız kommunikativ situasiyaların olması zamanı mümkündür. Tədris olunan linqvistik materialların hər hansı konkret situasiya ilə əlaqəli şəkildə istifadə etmək bacarığının formalaşmasına dair tələblər şifahi nitqin tədrisində situativ-modelləşdirmə istiqamətləndirilməsi prinsipi ilə tam şəkildə üst-üstə düşür [2, s.57]. Şifahi nitqin aşılanmasına kommunikativ yanaşma dilöyrənənlərə tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyəti prosesində təkmilləşdirilməsini nəzərdə tutur. Auditoriya şəraitində bu yanaşmanın həyata keçirilməsi məqsədilə bədii ədəbiyyatda olan problemli situasiyalardan istifadə etmək tövsiyə edilə bilər. Hər hansı mətnin tərkibində olan semantik informasiya şifahi nitqin inkişaf etdirilməsi üçün stimul ola bilər. Eyni zamanda mətndə olan linqvistik xarakterli informasiya kommunikasiyanın adekvat linqvistik vasitələrdə və nitq modellərindən istifadə etməklə həyata keçirilməsinə xidmət edir.Dil daşıyıcılarının yaşadıqları mühitdə rast gəldikləri və onların nitq davranışlarının nümunələri kimi qəbul edilə bilən kommunikativ situasiyalar əsasında təsvir edilən kontekstual situasiya auditoriya şəraitində analoji nitq situasiyalarının yaradılması üçün bir model hesab edilə bilər. Həmin situasiyaların yaradılması mənimsənilməli olan dil materialları və nitq modellərinin kommunikasiya prosesində istifadə edilməsi məqsədini ortaya qoyur. Oxu zamanı əldə edilmiş informasiya müzakirə obyektinə dair müəyyən fikirlərin və yanaşmaların yaradılmasına səbəb olaraq, dilöyrənənlərdə şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsini təmin edir. Fikrimizcə, orta və ali məktəblərdə təhsil alan dilöyrənənlərin şifahi nitq fəaliyyətinin stimullaşdırılması yolları müəyyən edilərkən, üstünlük real kommunikasiya situasiyalarının modelləri tələbinə cavab verən kontekstual situasiyaya verilməlidir. İstiqamətlərin qarşılıqlı təsiri xarici dil üzrə həyata keçirilən işlər zamanı şəxsiyyətin müvafiq inkişafını təmin edir. Yerinə yetirilən işlər zamanı onun infrastrukturu məqsədləri ilə səsləşməlidir. Bu zaman təlimin forma və məzmununa (funksiyalarına) müvafiq olaraq, məqsədlərinin miqyası da konseptual ölçülərlə genişlənə bilər.Tədrisin ümumtəhsil, təcrübi, inkişafetdirici və tərbiyəvi məqsədləri bir-birilə qarşılıqlı əlaqədə olduqda, bir-birini məntiqi surətdə tamamladıqda dərs prosesi daha da mükəmməl olmağa doğru dəyişə bilir. Belə işlər xarici dillərin tədrisinin uğurla həyata keçirilməsində kifayət qədər mühüm rola malikdir[3, s.400]. Bu həm dil bacarıqları, həm də özünü və başqalarını qiymətləndirmə baxımından olduqca əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, pp. 136-143
2. Bailey K.M. and D. Nunan (Eds.) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451p.
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

Х.АЛИЕВА

ЭФФЕКТИВНЫЕ ПУТИ ИСПОЛЪЗОВАНИЯ ЛИНГВИСТИЧЕСКИХ МАТЕРИАЛОВ В ПРЕПОДАВАНИЕ ИНОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

В данной статье рассматриваются исполъзования лингвистических материалов на английском языке. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков. Проблема обучения комбинированию элементов лексики изучаемого языка в процессе речевой коммуникации органически входит в более общую проблему обучения иноязычно-речевой коммуникации, так как комбинаторика, наряду со знаниями и совокупностью навыков, рассматривается в качестве одного из компонентов речевого умения. Чтение литературы на изучаемом языке способствует развитию устной речи, обогащает словарный запас, знакомит с культурой и литературой страны изучаемого языка, развивает аналитическое мышление. Поэтому уроки домашнего чтения необходимы в учебном процессе. Эти уроки очень ценны: во первых, учащийся соприкасается современным живым языком, а не условно – учебным; во-вторых, есть возможность высказать свое мнение и дать оценку и свои мысли произведению, персонажам. Но чтобы чтение было интересным и в тоже время развивающим речевые навыки, необходимо проводить работу над текстом, как перед чтением отрывка, так и после, чтобы помочь учащимся понять текст и активизировать новые языковые явления.

Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются.

Ключевые слова: язык, лексика, метод, технология, речь

KH. ALIYEVA

THE EFFECTIVE WAYS OF USING LINGUISTIC MATERIALS IN FOREIGN LANGUAGE TEACHING

SUMMARY

The article deals with the opportunities of using linguistic materials in developing lexical skills in English. The learner can hardly understand anything at all, unless the speaker is talking about things the learner is observing, or unless the language being learned is closely related to some other language the learner knows. Through comprehension activities the student can internalize some vocabulary and some grammatical structures, which will help the learner to understand more, when he or she knows enough to actually converse in a simple way. The result of getting through stage one is that the learner has acquired enough of the basic building blocks of the language to begin to function in real communication situations. In stage one there is very little real speaking ability, apart from some words and sentences that can be built on the comprehension exercises. In real communication situations the learner has to depend on memorized survival phrases to meet the most immediate needs. Comprehension is shared meaning between parties in a communication transaction. This is the first step in the listening process. The second challenge is being able to discern breaks. Retaining is the second step in the listening process. Memory is essential to the listening process because the information retained when a person is involved in the listening process is how meaning from words is created. Because everyone has different memories, the speaker and the listener may attach different meanings to the same statement. Listening is an interaction between speaker and listener. It adds action to a normally passive process. On the other hand, if one finds that the other party understands, an atmosphere of cooperation can be created. Communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. So, teachers and learners should take into consideration the linguistic materials in the language teaching process. This helps the quality of the lessons. It makes the lessons more effective and colorful.

Key words: language, lexic, method, technology, speech

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA AYTƏN
TAHIROVA İRADƏ
Heydər Əliyev adına Hərbi İnstitut
missmelodiya62@mail.ru

İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ VƏ İDİOMATİK İFADƏLƏR

Xülasə

Frazeologiya – dildəki frazeoloji birləşmələri öyrənən elmdir.Frazeoloji birləşmələr emosional və ekspressiv xüsusiyyətə malik olan sabit söz birləmələridir.Frazeologiya dildə mövcud olan bütün söz birləşmələrinin ümumi toplusu, məcmusudur. Qeyd etməliyik ki, sabit söz birləşmələrində sözlər üzvi surətdə elə birləşir ki, onları ayırmaq mümkün deyil. Eyni zamanda onları müstəqil surətdə də mümkün deyil,çünki bu zaman məna tamamilə dəyişir.

Bundan əlavə belə bir faktı da nəzərə çatdırmaq lazımdır ki, bir yazıçının,(Ceyms Coysun frazeologiyası), müəyyən bir dövrün(20 ci əsr mətbuatının frazeologiyası) və s. ifadələrə də rast gəlinir. İdiomlar dil öyrənməyin vacib bir hissəsi olaraq dilin səriştəli öyrənilməsinə öz təsirini göstərir. Hər bir dil üçün əsas material sözdür və dil öyrənmək istəyən hər kəs gündəlik olaraq yeni söz və söz birləşmələri öyrənir. Həmin söz birləşmələrinin tərkibində idiomlar xüsusi yer tutur. İngilis dili idiom və idiomatik birləşmələrlə zəngin bir dildir. İdiomlara bütün üslublarda rast gəlmək mümkündür:yazıda, danışıqda, bədii ədəbiyyatda və s. Hətta qəzetlərdə belə idiomatik ifadələrlə rast gəlinir. Komponentlərin mənaca qovuşuq və ayrılmaz olması frazeologizmlərin sabitliyini göstərir. Frazeologizmlərin məna strukturunda inteqral(məna fərqləndirən) əlamətlər mövcuddur. Diferensial əlamətlər, frazeologizmin rəngarəng olduğunu , inteqral əlamətlər isə frazeologizmin digərinə uyğunluğunu göstərir. Frazeologizmlərin mənası tərkib üzvlərin mənaları əsasında yox, bütövlükdə müəyyənləşir. Bunların mənasını, forma və məzmun vəhdəti baxımından, yanaşmaqla açmaq mümkündür. Frazeologizmlərdə onların konkret maddi əsasını təşkil edən sözlərə , struktur modellərinə də diqqət yetirmək lazımdır..

Açar sözlər frazeologiya, sabit söz birləşməsi,məna, məcazi məna, məcmuə,həyat tərzi

Frazeoloji birləşmələr nitqə ifadəlilik,obrazlılıq gətirən dil vahidləridir. Əsas faktorlardan biri ondan ibarətdir ki, frazeoloji birləşmələr məcazi məna daşıyırlar.Frazeoloji birləşmələrin əsas xüsusiyyətləri bunlardır :

Fazeoloji birləşmələrin tərkibi dəyişməzdir

Bu ifadələr dildə hazır şəkildə mövcuddurlar

Frazeoloji birləşmələr iki və daha artıq sözdən ibarət olur

Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin mənasını itirir və məcazı mənada işlədilirlər. Frazeoloji sabit söz birləşmələri leksika ilə daha sıx əlaqəli olduğundan, onlar bir tərəfdən vahid bir məfhum ifadə etmək etibarilə sözlərə yaxın olduqları kimi, digər də bu birləşmələrin törəməsində müxtəlif qrammatik vasitələr kimi iştirak edirlər, eyni zamanda frazeoloji birləşmələrdən fikirlərin ifadəsi üçün dilin tərkibində məfhumun hazır vahidləri şəklində də istifadə edilir. Frazeoloji birləşmə sözün potensial ekvivalentidir.

Bu birləşmələr tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü olurlar

Bütün dünya dillərində olduğu kimi ingilis dilində də frazeoloji birləşmələr mövcuddur.İngilis dilində frazeoloji birləşmələrdə "up, down, in, out, on, off"

söz önlərindən çox istifadə edilir:

to get up- rise from bed after sleepng

to get on well- to establish a friendly relationship

to wake up - an instance of a person waking up

to put down idioms-to criticise

to cheer up- become less miserable

to call on-to visit someone

to fall down- lose one's blance and collapse

to take off- 1.remove clothing from one's body, 2 leave the ground

to switch off- stop the flow or operation of something by means of a tap, swith, or button.

to take on- engage an employee

to take time off-to stop working

Cut (it) out — Stop it

Hang out-to spend time with somebody

Speak of the devil'- means that the person you're just talking about actually appears at that moment.

See eye to eye– means agreeing with someone

Once in a blue moon– an event that happens infrequently

To cost an arm and a leg– something is very expensive

A piece of cake– something is very easy

To feel under the weather – to not feel well

To cut corners– to do something badly or cheaply

Let someone off the hook – To allow someone, who have been caught, to not be punished

Bread and butter-earnings of a person

Break the ice-to try to become friends with someone

Chasing rainbows-to follow your dream

Cool as a cucumber- to be very calm and relaxed

Food for thought-an idea to think about

Forty winks- sleep a while mainly during the day; take a nap

Frazeoloji birləşmələr ingilis xalqının çoxəsirlik tarixini,mədəniyyətini,həyat tərzini, adət ənənələrini əks etdirir. Frazeoloji vahidlərin regional dəyəri üç komponentlə bağlıdır.

Frazeoloji vahidlər milli mədəniyyəti tərkib vahidlərinə görə parçalanmış şəkildə əks etdirir.

İngilis dilində işlədilən frazeoloji vahidlər milli mədəniyyəti bütöv şəkildə əks etdirir.

"Frazeoloji birləşmələrlə bağlı başqa bir cəhət ondan ibarətdir ki, həmin birləşmələrdə həmçinin komponentlərinin ifadəliliyinə görə ekspressivlik olur. Buna görə də bəzi sifətli frazeoloji birləşmələr vardır ki, onlarda fitonimlər komponent kimi iştirak edir və müqayisə olunur, metaforlaşır və leksik mənasından uzaqlaşmaqla yanaşı konkret situasiyada işlədilir"[1,8]. Belə fitonimlərdən biri berry-dir. Onu da vurğulamaq istərdik ki, ingilis dilində bir neçə fitonim vardır ki, onların ikinci komponenti berry sözündən ibarətdir və bu fitonimlər quruluşuna görə mürəkkəb sözlərdir və onları sadəcə sadalamaq hesab edirik yerinə düşərdi. blackberry - böyürtkən, qara qarağat goose-berry - qırmızı qarağat, quş üzümü strawberry - çiyələk Bu fitonimlərlə yanaşı berry fitonimi vurğuladığımız kimi frazeoloji birləşmə yaratmışdır. "Well, well, you're brown as a berry" - Siz nə qədər qaralmışsınız, lap şokolad kimi. [2, 34].

Qeyd etməliyik ki, bəzən bu ifadə mənfi çalar da ifadə edə bilir və bütün hallarda bu faktlar kontekstdən asılıdır və bu ifadəlilik (ekspressivlik) vüzual olaraq möhkəmlənir və kontekstdə həyata keçirilir.

İdiomlar gündəlik danışıq dilində istifadə olunan ifadələrdir. Onlar adətən məcazi məna daşıyır və danışıq dilinin zənginləşməsində misilsiz rol oynayır. İdiomları sözbəsöz tərcümə etdikdə onlar heç məna kəsb etmirlər. İdiomların hər birinin mənasını cümlələrlə daha asan öyrənmək olur. *Məsələn, "climb the walls "- to be uneasy or restless; syn: go bananas bu idiomun mənası "incitmək, narahatlıq yaratmaq" deməkdir. "cross (one's) fingures – to hope for luck" yəni şans diləmək deməkdir. Amerikada bir kəs öz çılğın hərəkətinə görə günahladırılırsa "off the wall", "over the deep end" kimi ifadələr işlənir, yəni " divardan və ya dərin ucdan baxmaq". Birləşmiş Krallıqda isə bu ifadə"sixpence short of shilling", " mad a bag of ferrets", " mad as a box of frogs" kimi istifadə olunur.[3,45].*

İdiomların üç alt sinifi var.(4, 26)

1. Pure idioms (saf idiomlar). Şərti hərfi olmayan çox sözlü ifadə növü, tamamilə qeyri şəffafdır. Məsələn, "Kick the bucket" (vedrəyə təpik vurun).

2. Semi-idioms (yarı deyimlər\idiomlar). Bir vəya daha çox hərfi quruluşa sahib olan və bir ədəbi mənası olmayan alt mənalı, qeyri şəffaf olan deyimlər (idiomlar). Məsələn, Foot the bill(i.e. pay). Hesabı bağlamaq. "Bill"(bağlamaq) sözün hərfi mənada istifadə edildiyi halda " foot-ayağ" ədəbi olmayan element olduğu yarı-deyim nümunələrindən biridir.

3.Literal idioms. Hərfi idiomlar. Bu idiomlar dəyişməz və az dəyişməyə imkan verən, şəffaf və ya hissələri əsasıda şərh edilə bilər.

4. Phrasal verb idioms.(İfadəli fel idiomlar) Bu deyim ifadələr fel kimi işlənir. Ümumiyyətlə bir cümlə içərisində, fel rolunda işlənirlər. Məsələn, She will get away with stealing that car. To get away with (canını qurtarmaq), avoid punishment (cəzadan çəkinin) bu kimi ifadələr feli idiomlar mənasında istifadə olunur.

5. Metaphorical idioms (Məcazi idiomlar). Metoforik idiomlar bir qayda olaraq bir şeyi başqa bir şeyə bağlandığını ifadə edən, örtülü bir müqayisə aparan bir frazadır. İki vəziyyəti, obyekti və iki hərəkəti müqayisə edir. Məsələn, İt was raining cats and dogs (itlər və pişiklər kimi yağır) yəni "leysan yağır". Lakin metaforalar, əsaslı deyimlər iki fikri biri-birinə bağlamaq üçün "like (kimi),və ya "as"(kimi) sözlərindən istifadə etmir. Məsələn,"a carrot and stick"(yerkökü və çubuq metodu) məcbur etmə üsulu mənasında istifadə olunur. Əlindəki vəziyyəti inadkar atın və qatırın qabağında bir yerkökü asaraq arxasıda bir çubuqla süründürməklə müqayisə edir.

6. Aphorisms. Aforizmlər dərin mənalı fikirləri ifadə edən söz, söz birləşməsi və ya cümlələrdən ibarət olur. Bu mənalı sözlər əsasən tanınmış şəxslərin düşüncələrinin təsviri olur. Onlar qısa, yadda saxlanılması asan cümlələrdə dərin fəlsəfi həqiqəti ehtiva edirlər. Məsələn, Youth is blunder (Gənclik korlanır), Manhood is a struggle (kişilik mübarizədir), Old are regret (qocalıq peşmançılıqdır). Life's Tragedy is that we get old soon and wise too late [Benjamin Franklin]. Həyatın faciəsi tezliklə yaşa dolmaq və çox gec müdrükləşməkdir.

PHRASEOLOGICAL AND IDIOMATIC EXPRESSIONS IN ENGLISH

Resume

Key words: phraseology, life style, fixed expressions, metaphorical meaning, phraseological units.

In linguistics, phraseology is the study of set or fixed expressions, such as idioms, phrasal verbs, and other types of multi-word lexical units.The component parts of the expression take on a meaning more specific than, or otherwise not predictable from, the sum of their meanings when used independently.Phraseology is a scholarly approach to language which developed in the twentieth century. The basic units of analysis in phraseology are often referred to as phrasemes or *phraseological units*. Phraseological units are stable word-groups with partially or fully transferred meanings. According to Rosemarie Gläser, a phraseological unit is a lexicalized, reproducible bilexemic or polylexemic word group in common use, which has relative syntactic and semantic stability, may be idiomatized, may carry connotations, and may have an emphatic or intensifying function in a text.(5,125)

Idioms are important part of aquiring a language. They are often indicate proficient learner.

English idioms are a part of the culturalelements of the language which should be mastered by EFL learners. By developing a clear understanding of figurative language, such as idiomatic expressions, students can further comprehend texts that contain metaphorical and lexical meanings beyond the basic word level. Phraseology takes into account the phraseological units (PU) of a language as its object of study. This field analyzes the formal, semantic and pragmatic properties of these elements and classifies them into categories. Based on empirical studies, phraseology identifies the theoretical principles that describe how PUs work in discourse.

ФРАЗЕОЛОГИЧЕСКИЕ ИДИОМАТИЧЕСКИЕ ВЫРАЖЕНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Резюме

Ключевые слова: фразеология, устойчивые речевые обороты, метафорическое значение, идиоматические выражения

Фразеология - раздел лингвистики, изучающий устойчивые речевые обороты и выражения — *фразеологические единицы*. Совокупность фразеологических единиц какого-либо языка также называется его фразеологией .В отличие от лексикологии, изучающей отдельные слова и словарную лексику, фразеология изучает неоднословные единицы языка: устойчивые словосочетания:коллокации,идиомы,поговорки пословицы.
Фразеологизм употребляется как некоторое целое, не подлежащее дальнейшему разложению и обычно не допускающее внутри себя перестановки своих частей. Семантическая слитность фразеологизмов может варьировать в довольно широких пределах: от невыводимости значения фразеологизма из составляющих его слов во фразеологических сращениях (идиомах) до фразеологических сочетаний со смыслом, вытекающим из значений, составляющих сочетания. Превращение словосочетания в устойчивую фразеологическую единицу называется лексикализацией.Различные учёные по-разному интерпретируют понятие фразеологизма и его свойств, однако наиболее последовательно выделяемыми различными учёным воспроизводимость,устойчивость,сверхсловность,принадлежность к номинативному инвентарю языка.Английские идиомы являются частью культурных элементов языка, которые должны быть освоены изучающие английский и иностранный язык. Развивая четкое понимание образного языка, такого как идиоматические выражения, учащиеся могут дальше понимать тексты, содержа щие метафорические и лексические значения за переделаны базового уровня слово.

Исходя из того, что фразеологизмы - это сочетание слов, объединенных по грамматическим законам, лексические единицы фразеологического оборота не свободны в своих связях, их сочетаемость с другими словами замкнута.

Фразеологизмы характеризуются лексической устойчивостью, сохраняют постоянный состав.

References

1. Günay Ağayeva "KOMPONENTLƏRİNDƏ FITONİMLƏR OLAN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ"(Dil və ədəbiyyat "jurnalı,2019)
2. S.Lexis. The Job, Oxford Press, 2008
3. Pesce, C.(n.d). How to teach idioms and Their Meaning. Retrieved fromhtt:\\ busyteacher.org\3712-how-to-teach-english-idioms-and-their-meaning.html.
4. Shapely, L.N. (n. d.) What is the Meaning of Idiomatic Expressions Language?Retrieved from http:\\ www.ehow.com \about-6509169_meaning–idiomaticexpressions-language_html.
5. Gläser, Rosemarie. 1998. The Stylistic Potential of Phraselological Units in the Light of Genre Analysis In A.P. Cowie (ed.), Phraseology. Oxford.

Rəyçi filologiya üzrə fəlsəfə doktoru Bünyadova Vəfa (Az.MİU)

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Münəvvər Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

ƏKBƏROVA GÜLNAR
ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci
"Dillər" kafedrası
e-mail:gulelekber33@mail.ru

VAHİD ƏZİZ POEZİYASINDA BƏDİİ XİTAB

Xülasə

Xalq şairi Vahid Əziz yaradıcılığında xitablardan intensiv istifadə edən şairlərimizdəndir.Şair şeirlərində rəngarəng xitablar işlətmişdir.

Xitab nitq prosesində canlı və cansıza müraciətdir. Üslubi fiqur olan xitab şairin lirikasında yalnız müraciət, çağırış bildirməklə bağlı olmayıb, şairin obrazlara şəxsi münasibətini də əks etdirir.

Xitablar müəyyən üslubi xüsusiyyətlərə malikdir.Nəzm əsərlərində xitabların təkrarlanması priyomundan geniş istifadə edilir.Xitablar misranın müxtəlif yerlərində təkrarlanır.Belə təkrarlar şeir dilinə ekspressivlik bəxş edir.Yüksək dinamikası ilə fərqlənən Vahid Əziz lirikası məhz təkrarlar vasitəsilə hiss-həyəcan,çağırış, fərəh, müraciət və s. kimi məna çalarları ifadə edir.Lirik poeziyada emosional səciyyəli xitabların ən geniş yayılmış formalarından biri sevgiliyə xitabdır.Bu qisim xitablarda müraciət olunan ünvana sevgi, hörmət, səmimi hisslər ifadə olunur.Digər canlı varlıqlara müraciətlə işlədilən xitablar şairin arzularını emosional tərzdə ifadə etməyə imkan verir.Şairin təbiətə müraciəti,dünyaya müraciəti şeirlərində istifadə etdiyi bədii xitablar sırasında xüsusi yer tutur.

Vahid Əziz şeirlərində xitablar nidalarla yanaşı işlənə bilir.Belə xitablar misrada müxtəlif emosional çalarlar yaradır.

Gəlinən nəticəyə görə,şeir dilində xitabların funksiyası yalnız müraciət,çağırış bildirmək deyil, müxtəlif hissləri,emosiyaları aydınlaşdırmaqdır.

Açar sözlər: Vahid Əziz, xitab, exspressivlik, sadə və mürəkkəb xitab, xitabların təkrarı

Vahid Əziz poeziyasına dərindən bələd olduqca ondakı coşqun fikirlərə, yüksək sənətkarlığa heyran qalırsan. Şeir dilimizin incəliklərindən, sözdən böyük məharət və incə zövqlə istifadə edən şair müxtəlif üslubi fiqurlardan istifadə etməklə sözünün bədiiliyini, şeirinin estetik təsir gücünü artırmışdır. Üslubi fiqurlardan biri olan bədii xitabların Vahid Əzizin poeziyasında öyrənilməsi hazırkı məqaləmizin əsas məqsədidir.

Xitab dedikdə, müraciət, yəni bu və ya digər şəxsə, canlı və cansız varlıqlara, həqiqi və mücərrəd anlayışlara, abstrakt qüvvələrə müraciət başa düşülür [2,s.139,140]. Sintaktik kateqoriya olan xitablar müəyyən üslubi xüsusiyyətlərə malikdir. Müxtəlif üslublarda işlənməsinə baxmayaraq, bədii üslubda xitablardan

daha geniş istifadə olunur. Bədii əsərlərdə xitablardan bədii effekt yaratmaq üçün istifadə edilir.

Xalq şairimiz Vahid Əzizin poetik nitqi xitablarla zəngindir. "Vahid Əziz poeziyasında bədii xitab" mövzusunu araşdırarkən aşağıdakı ardıcıllığa diqqət yetirilib: a) xitabların işlənmə yeri; b) xitabların məna növləri; c) xitabların quruluşca növləri; d) xitabların nidalarla işlənməsi; e) xitabların təkrarı.

Cümlə üzvləri ilə əlaqədə olmadığı üçün heç bir qrammatik dəyişikliyə məruz qalmayan xitablar cümlənin hər yerində (əvvəlində, ortasında, sonunda) işlənir. Xitablar daha çox cümlənin əvvəlində gəlir."Bu isə hər şeydən əvvəl, xitabın kommunikativ funksiyası-danışanın resipiyentlə (müraciət olunan obyektlə) ünsiyyət yaratma cəhdi ilə əlaqədardır."[4, s.174]

Vahid Əzizin şeirlərində işlənən xitablara nəzər salaq:

Dünya, açıq bazardayıq -
son qiymətin neçiyədi? [5, s.236]

başqa bir misal:

Küləк, toxunma buluda -
Qoy yağsın hardan istəyir,
İstəyir məni ovuda
Qoy baxsın hardan istəyir! [5, s.242]

yaxud;

İlahi, o necə məhəbbət idi?!
Məni həsrət qoydun Günəş nuruna,
Sən məni özünə rəqibmi bildin?
Atdın bir gözəlin ayaqlarına? [5.s.125]

Şair zaman-zaman emosionallıq xatirinə öndə gələn xitablardan istifadə etsə də, çox vaxt oxucusuna dünyanın sevinc və kədərini, həyatı yaradan və qidalandıran məhəbbəti incə duyğularla tərənnüm etmişdir.

Şərq şeirinin xarakterik cəhətlərindən biri müəllifin özünə müraciətidir.Bədii əsərlərdə, xüsusən, poetik mətndə müəllifin özünə müraciəti çox işlənir.Bu səpkidən olan şeirin xarakterik cəhəti ondadır ki, şair öz şəxsiyyətinə müraciət edərək özünü tənbeh edir,özünə məsləhət verir,öz dərdinə acıyır və s.Özünə xitab xüsusi adlarla ifadə oluna bilər [2, s.155].

Fikrimizi əsaslandırmaq üçün bir neçə nümunəyə diqqət yetirək:

"Əlvida"- de, ayrılığın vaxtı çatdısa,
Liman gəzmə,ümid yüklü gəmin batdısa,
Vahid Əziz, tale gülün səni atdısa,
Vəfasızın həsrətindən niyə ölürsən..... [5, s.217]

və ya:

İnsaf et,**Vahid Əziz,** sən də barı dəymə mənə,
Görmürsən bəxti kəməm,taleyimin taxtı yanır?.. [6, s.202].

Şeirdə şair öz-özünə müraciət edərək, həyat inamdır və inamsızlıq yaradılışa ziddir devizini şairanə tərzdə ifadə etmişdir.

Ruhlar yurd salacaq özgə məkanda,
sınıb məhv olacaq ox da, kaman da
pislər, **Vahid Əziz,** həddən ziyada
yaxşılar olanda tək-tək olacaq... [5, s.270]

Şeirdə şairin xitab etdiyi subyekt yenə də şairin özüdür. Lakin özünə xitabla yanaşı, şair oxucularına haqsızlıq əleyhinə barışmaz münasibətini gözlər önünə sərir.

Həsrət, ürəyimdə yer iraqlama
Mer-meyvə kal qalar, payız, ağlama,
Yatsan,**Vahid Əziz**, qapı bağlama -
Təklikdə qəfildən ölsən, bilinməz.. [5.s.18].

və ya:

Paho, **dərd yiyəsi,** evin yıxılsın,
Alovun sinəmə sərildi lay-lay
Səndən nə gördüm ki, nəyin də qalsın-
Tökdüyün dillərin nə dildi? - bay, bay [5.s.375].

Şair yenə də öz-özünə müraciət edir. Ürəyindəki həsrəti qovmağa çalışan şair təsəlli verəcək bir kəsin olmadığını təəssüf hissi ilə ifadə etmişdir. Bu nümunədə işlənmiş xitab quruluşca mürəkkəbdir və təyini söz birləşməsi ilə ifadə edilib.

Şairin bəzi şeirlərində xitab hər bənddə,misrada,sətirlərdə təkrarlanır.Belə təkrar şeirə həm yeni ritm bəxş edir,həm də müraciət etdiyi subyektə münasibətini bildirir.

Misallara nəzər salaq:

Ürəklərdə Bayrağın
enmədi,**Qarabağım,**
Bu gün hamının gözü
səndədi,**Qarabağım.** [7, s.76].

Müxtəlif insani emosiyaları özündə cəm edən xitablar bədii dildə ekspressiv,emosional çalarlar yaratmaqda güclü qrammatik vasitədir.Şair məhz xitablar vasitəsilə oxucusuna öz emosional münasibətini bildirir. Bu, onu deməyə əsas verir ki, Vahid Əziz xitablardan yalnız müraciət deyil,obrazın əhval-ruhiyyəsini və ya yazıçının daxili duyğularının ifadə vasitəsi kimi istifadə edir.

Çiçəyim, indi də yazıram hərdən,
Misra var - sabaha biletim olur,
Nədən söz açsam da, məhəbbətimdən
Yazdığım çox zaman "şah beytim" olur [5,s.342]

Xitab, hər şeydən əvvəl, danışıq aktı zamanı müəyyən şəxsə müraciət, çağırışdır.[4, s.26]. Xitablar müxtəlif əşya və varlıqların adlarını bildirə bilər. Bu cəhətdən xitabların üç növünü göstərmək olar:

1. İnsan adı bildirənlər

2. Başqa canlıların adlarını bildirənlər
3. Cansız əşyaların və mücərrəd anlayışların adlarını bildirənlər [1, s.218].

İnsana müraciətlə işlədilən xitablar xitabların əsas ifadə formasıdır. İnsan adları bildirən xitabların özləri də müxtəlif olur.

Dəli könül,yıxılsan da sürünmə!
Can nədir ki? Yaşanmırsa,dirənmə
Vahid Əziz, bir də bədbin görünmə,
Qəlbindəki arzulardan ayıbdı... [5, s.61].

Şeirdə şairin öz-özünə xitabını görürük; şair çəkdiyi bütün əzablara güc gələrək, aşıb-

daşan arzularından utanır, mənliyini qoruyaraq, bədbinlikdən uzaq durmağı həm özünə, həm oxucusuna nəsihət edir.

Lirik poeziyada müraciət formalarından biri də sevgiliyə xitabdır. Vahid Əziz poeziyasında bu tip xitablar rəngarəngliyi ilə seçilir. Şeir bəndinə nəzər salaq; xitab konkret olaraq çeşməyə aid olsa da bənzətmələrlə orijinal işlədilib. Məsələn:

Xumar çeşmə, salma məni bu hala-
başındakı yarpızlardan ayıbdı,
El içində gəzmək olmur qol-qola
Tənhalardan,yalqızlardan ayıbdır [5, s.265].

və ya;

Çiçəyim, telini bir az yan elə,
O acı sözlərdən birin "can" elə,
Sevənə dağlar çək, imtahan elə,
Amma ürəyini qırma, xoşdamır! [5, s.429].

İnsana aid xitablar ümumxalq dilində işlənsə də bədii ədəbiyyatda dinləyicinin diqqətini cəlb etmək üçün işlədilir. Vahid Əziz bədii xitablar yaradaraq, şeirinin estetik təsir gücünü artıra bilmişdir.

Baxma ki, **incə gülüm,** əhdə vəfa etməmisən
Qəlbimdəsən hələ də, özgə yerə getməmisən. [5, s.301].

yaxud;

Gülün**, doğmalarım,** nədir əlacım
Ona zərbələrə dözmək qalacaq,
Çörək qazanmayan "Çörək ağacım"
Sizlərə şan-şöhrət qazandıracaq. [5, s.92].

Verilmiş nümunələrdə şair mümkün ünvanlara xitab edir; sevgiliyə, doğmalarına, dərdi çox olanlara və b. Belə xitablar müəlliflə - gözaltısı arasındakı münasibətdən xəbər verir. Məsələn, "incə gülüm" qadına, sevgiliyə ünvanlanan xitabdır.

Vahid Əziz poeziyasında insana münasibətlər içərisində müəllim adına xitab olaraq yazılan "Müəllim" şeiri yaradıcılığında qürurla səslənir.

Kitabdan oxunmaz namusla qeyrət,
Bu yolda gözünün işığı gedər,
Müəllim, sən bizə yanmağı öyrət,
Gerçəyi qeyrətli ocaq öyrədər! [5, s.191].

Vahid Əziz canlı və cansız hər nəyə müraciət edirsə, onlara bir sayğı duyur; quşlarla canlı, yüksək şüura malik insanla danışırmış kimi davranır:

Ala qarğa, sən burda çətin yuva qurarsan,
Ya vurub öldürərlər, ya da ki tutularsan.
Bura bir ormandı ki,
Gərək yaşamaq üçün yalanlar uydurasan [5, s.189].

yaxud;

Sakitcə baş verər köçüb-getməyi,
duyulmaz təşvişi, giley etməyi,
üşüdən Vətəni tərk eləməyi
durnamı öyrədib, sana, **qaranquş?!** [5, s.359].

Yuxarıda dediyimiz kimi, bədii əsərlərdə cansız əşyalara, mücərrəd varlıqlara, təbiət hadisələrinə ünvanlanan xitablar şairin yaradıcılığında geniş yer tutur. Cansızlara xitab edilərkən onlar canlılaşdırılır. Tanrıya müraciət, doğma Vətənə, yurda çağırış, bitkilərə, ağaclara, dağlara, dənizə, dünyaya və s. edilən xitablar təbii və canlı duyğularla şəxsləndirilmişdir.

Vətən, sənə ərk eləsəm
Bir gün səni tərk eləsəm
günahımdan keçərsənmi? [5, s.153].

Doğma elə-obaya xitab Vahid Əziz poeziyasında qırmızı xətlə gedir. Qarabağ ağrısı, yurd həsrəti şairi ovutmayan, rahatlıq verməyən bir mövzudur. Şair yenə də ümidsizliyə qapılmır, nikbin düşüncələr qoynunda oxucularına Azərbaycan-Qarabağ yolunda bir olmağa səsləyir.

Azərbaycan, at məni-ağır topun, mərminəm,
milyonlardan biriyəm-mübariz, qədirbilən,
birləşin soydaşlarım-dünyaya səpələnən:
cahan anlaya bilsin, get-gedə dirçəlirəm,
fəxr eləyim deyəndə: ”Qarabağdan gəlirəm!” [5.s.394]

Vətən həsrətli Vahid Əziz şeirləri artıq ağ libas geyinib.44 günlük Vətən müharibəsindəki qələbəmizi,Zəfərimizi şair belə salamlayır:

Xoş gördük,**açılan mehriban qucaq**.
İstinə qurbanam,**a doğma ocaq!**
Var ol,**Azərbaycan,**üçrəngli Bayraq
Nəğməyə dönəcək Qarabağımda... [7.s.134]

Tanrıya müraciət istər nəzm, istər nəsr əsərlərində çox işlənən bədii xitablar sırasında demək olar ki öndədir. Tanrıya, İlahiyə müraciət şairin rəngarəng yaradıcılığından yan keçə bilməmişdir.

Ulu Tanrı,
Bunu səndən gözləməzdim.
Varlığıma nə qəribə fərman verdin?
Əhd elədim,
Niyyət tutdum, çarə gəzdim -
təzə dərdi köhnə dərdə
dərman verdim [5, s.155].

və ya;

Rəhm et, dərgahına üz tutanlara,
şeytanın köləsi olaram, **Allah.**
Bu qədər əzabı görəndən sonra,
Mən necə müqəddəs qalaram, **Allah!** [6, s.124]

Milli poeziyamızda dağ obrazı geniş şəkildə işlənir. Dağ ucalıq, vüqarlılıq, etibarlılıq rəmzidir. "Dəlidağ" şeirində şair insan və dağ münasibətlərini canlandırır və onlar arasında emosional əlaqə yaradır.

Yenə yaman yada düşdün**, Dəlidağ,**
Əsirlikdə oda düşdün, Dəlidağ,
Mən xəyanət eləmədim, Dəlidağ-
Taleyinlə namərd dövran oynayar.. [5, s.447]

və ya;

Sevdim səni, **gözəl Xəzər**
Altın meşə, üstün xəzəl,
Balıqların çılpaq, gözəl..
Bu qədər də ovsun olar? [5, s.147]

Dənizə poetik obraz kimi yanaşan Vahid Əziz, dənizi canlandırır və ona sirdaş, həmfikir kimi müraciət edir.

Xitablar quruluşuna görə sadə və mürəkkəb olurlar. Sadə xitablar bir üzvə uyğun gəlir. Mürəkkəb xitablar isə iki üzvə (mübtəda və onun təyininə)uyğun gəlir [3, s.228]. Məsələn:

Sən məni qısqanma şeirlərimə,
Nəğməsiz yaşamaq olmayır, **gülüm,**
Min dəfə qış gəlsin bahar yerinə
İlk eşqin çiçəyi solmayır, **gülüm** [6, s.37].

və ya:

Yerin soyuqdurmu,**Cavid əfəndi?**
"Əllidən bir kəmi"kimlər oxudu?.... [6, s.197].

Bədii ədəbiyyatda təsviredici funksiya daşıyan mürəkkəb xitablar şeirdə ritm və xüsusi intonasiya yaratmaqla yanaşı, müraciət olunanın daxili dünyasını açmağa yardımçı olan üslubi fənddir. Aşağıdakı parçaya nəzər salaq:

Ağlımı başımdan aparan gözəl,
Ağlımı neynirdin mən qala-qala?
Hər gün əllərimə uzanar yüz əl-
Tutmam heç birindən, sən qala-qala! [5,s.76].

Və ya:

Sən ey yollarıma baxıb gözləyən,
Boylan, səhərlərə gələn gül kimi.
Mən yenə eləcə qaynar gözlüyəm
Bir vaxt gəncliyimdə gördüyün kimi [6, s.31].

Verilmiş nümunələrdə mürəkkəb xitablar feili sifət tərkibi ilə ifadə olunub.Belə xitablarda müraciət edilən şəxsin adı çəkilmir və feili sifət tərkibi substantivləşərək xitabı əvəz edir. Müvafiq ritm və intonasiya ilə müşayiət edilən belə xitablarda müraciət olunanın daxili aləmi, psixologiyası, onun digər personajlara, yaxud da müəllifin təsvir etdiyi nitq ünvanına müsbət və ya mənfi münasibəti açılır [2, s.169].

Müasir Azərbaycan dilində xitablar tez-tez nidalarla işlədilir. Belə halda xitablar nidalarla yanaşı müəyyən hissi halları ifadə edir. Nida xitaba xüsusi intonasiya verir.[1, s.220].

Şairin şeirlərində *a, ah, ey*, *ay* nidalarının xitablarla işlənməsinin şahidi oluruq. Şair nidaları xitablarla işlədərək, sözün ekspressiv çalarlığını daha da qabarıq çatdırılmasına nail olmuşdur:

İnad etmə, **ay ürkəyim, a tərsim,**
Elə bilmə-barışarsan, gülərlər.
Ağlın bizim camaata getməsin-
hər yetəndən soruşarsan, gülərlər [5, s.451]

və ya:

İnanmışdım sözlərinə,
Qəbimdəki közlərinə
Dünya qopsa-gözlərinə
Görünmərəm, **ay yalançı!** [5, s.403]

Bədii əsərlərdə xitabların yaratdığı üslubi çalarlardan biri də xitabların təkrarıdır.Söz sənətkarları təkrarda

n emosionallıq və obrazlılıq yaratmaq üçün istifadə edirlər. ”Müəllif xitabların təkrarı vasitəsilə onların emosionallığını artırır və bununla da yüksək dərəcəli ekspressivlik yaradır” [2, s.173-174].

Nəzmə xüsusi intensivlik verən,şeirin dinamikasını,melodikliyini yüksəldən xitabların təkrarı Vahid Əziz şeirlərində reduplikasiya (qoşalaşma) şəklində işlənməkdədir.Nəticədə təkrarlanan xitablar misrada hiss-həyəcan, müraciət, fərəh və s. kimi məna çalarları yaratmışdır.

Mehribanım, mehribanım, mehribanım,
Qönçəm mənim, gülüm mənim,

ulduz dolu kəhkəşanım -
istəyirsən haray salıb bu sevdanı elə yayım! [5, s.96]

və ya:

Sən gözəl, yamyaşılsan,
Sən Allah saxla məni,
səməni, ay səməni [5, s.182].

Nəticə olaraq deyə bilərik ki, Vahid Əziz poeziyasında xitablara müraciət çoxluq təşkil edir. Şeirlərin bədii dil baxımından təhlili həm şairin üslub zənginliyini, həm də şairin poetik dilində xitabların özünəməxsus şəkildə işlənməsinin şahidi olduq. Bədii xitablardan istifadə etməklə, bədii sözün və obrazlı təfəkkürün əlvanlıq və dəqiqliyindən məharətlə faydalanan şair bizə təravəti solmayan qiymətli bir mirası yadigar verir.

ƏDƏBIYYAT:

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Şərq-Qərb, 2007, 424 s.
2. Bəylərova A. Bədii dildə üslubi fiqurlar. Bakı, Nurlan, 2008, 212 s.
3. Xəlilov B. Müasir Azərbaycan dili. Bakı, Adiloğlu, 2017, 428 s.
4. Orucova Ş. Türk dillərində xitab. Bakı, Nurlan, 2007, 200 s.
5. Vahid Əziz. Səninlə. Bakı, Azərnəşr, 2016, 500 s.
6. Vahid Əziz. Dözmək olmur (Şeirlər və poemalar). Bakı, Gənclik, 1997, 212 s.
7. Vahid Əziz.Param-parça illər "Qarabağ dəftərindən"(1988-2021).Bakı,Azərnəşr,2021,239 s.

ГЮЛЬНАР АКПЕРОВА

ХУДОЖЕСТВЕННОЕ ОБРАШЕНИЕ В ПОЕЗИИ ВАХИДА АЗИЗА

РЕЗЮМЕ

Народный поэт Вахид Азиз-один из наших поэтов, интенсивно использующих в своем творчестве обращения. Поэт использовал в своих стихах красочные обращения. Обращение-это призыв к живому и неживому в процессе речи. Обращение, как стилистическая фигура в лирике поэта, связано не только с призывом, но и отражает личное отношение поэта к образам.

Обращения имеют определенные стилистические особенности. В его поэзии широко используется прием повторения обращений. Обращения повторяются в разных местах строки. Такие повторения придают языку поэзии экспрессивность. В лирике Вахида Азиза, отличающейся высокой динамикой, именно через повторения выражаются такие оттенки чувств, как волнение, вызов, восторг, обращение и другие. Одной из наиболее распространенных форм обращений эмоционального характера в лирической поэзии является обращение к возлюбленной. В таких обращениях выражаются любовь, уважение, искренние чувства по отношению к адресату. Обращения к другим живым существам позволяют выразить желания поэта эмоционально.

Обращение поэта к природе, к миру занимает особое место в ряду художественных обращений, которые он использует в своих стихах.

В стихах Вахида Азиза обращения могут применяться наряду с восклицаниями. Такие обращения создают в строке различные эмоциональные оттенки. Согласно полученному выводу, функция обращений в языке поэзии заключается не только в выражении обращения, призыва, но и в разъяснении различных чувств, эмоций.

Ключевые слова: Вахид Азиз, обращение, экспрессивность, простое и сложное обращение, повторность обращений

GULNAR AKBAROVA

THE ARTISTIC ADDRESS IN VAHID AZIZ'S POETRY

SUMMARY

Folk poet Vahid Aziz is one of our poets who intensively uses addressing in his works. The poet used colorful addresses in his poems.

Addressing is for animate and inanimate in the speech process. Address, which is a stylistic figure, in the poet's lyrics was not only about making an application or a calling, but also reflecting the poet's personal attitude to the imagery.

Addresses have certain stylistic features. In poetic works, the principle of repetition of addresses is widely used. Addresses are repeated in different parts of the verse. Such repetitions give expressiveness to the language of the poem. Through repetitions Vahid Aziz's poems, which are distinguished by their high dynamics, express shades of meaning and feelings of excitement, appeal, joy, pride, and etc. One of the most common forms of emotional addresses in lyric poetry is an address to a lover. In this part of addressing, love, respect, and sincere feelings are expressed. Poet's appeal to nature and the world occupy a special place among the artistic addresses he uses in his poems. In the poems of Vahid Aziz, addressing can be used along with exclamations. Such addresses create different emotional tones in the verse. According to the conclusion, the function of addresses in the language of poetry is not only to express appeals and calling, but also to clarify various feelings and emotions.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru,dosent Rasim Heydərov
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

AİDA QASIMOVA
Bakı Dövlət Universitetinin professoru
aidagasimova@bsu.edu.az

ULİYYƏ BİNT MEHDİ – DÖVRÜ, HƏYATI, ŞƏXSİYYƏTİ VƏ POEZİYASI

Xülasə

Bu məqalədən məqsəd Abbasi xilafətinin birinci dövründə yaşamış görkəmli şairə Uliyyə ibn Mehdinin həyatı və poeziyası barədə məlumat verməkdir. Uliyyənin həyatı, ədəbi şəxsiyyəti və poeziyası öz dövrünün ictimai-siyasi və dini-ideoloji durumu ilə sıx bağlı olub. Məqalədə ilk növbədə həmin dövrün ümumi mənzərəsi canlanır. Belə ki, Abbasilərin tarix səhnəsində Əməviləri əvəz etməsi ilə xilafətin ictimai-siyasi və əqli-mənəvi həyatında böyük dəyişikliklər baş vermiş, xilafətin siyasi orientasiyası və mərkəzi farsyönümlü istiqamətdə dəyişmişdi. Abbasi cəmiyyəti etnik mənsubiyyəti arxa plana keçirib müsəlmanların ümumi din və həyat tərzinə əsaslanan kosmopolitan bir cəmiyyət idi. Bu toplumda başqa konfessiyaların nümayəndələri də az deyildi.

Bu dövrdə urbanizasıya nəticəsində poeziya səhraları və bədəvi xeymələrini tərk edib məscid, bazar və yarmarkalara, saraylarda düzənlənən ədəbi məclislərə yol açır. Uliyyə bint Mehdi bu məclislərin daimi iştirakçılarından idi. Onun həyat və fəaliyyəti sübut edir ki, Abbasi cəmiyyətində qadın yalnız sevgi obyekti, ilham pərisi deyil, həm də şair, müğənni, rəqqasə kimi şeir və musiqi məclislərinin fəal iştirakçısı idi.

Uliyyə bint Mehdinin həyat və yaradıcılığı əfsanələrə qərq olub. Orta əsr mənbələri onun ilk növbədə istedadlı bir şairə olduğunu qeyd edir. Qeyd edək ki, Uliyyə öz muzasını qadın adları ilə adlandırır, şeirlərində əks cinsə olan sevgisini üstüörtülü şəkildə ifadə edirdi. Halbuki təxminən iki əsr öncə üzri qəzəl şairələri utanıb-çəkinmədən sevgililərinə qəzəllər (müzəkkər qəzəl) həsr edirdilər. Abbasi saray mühitində isə, görünür, qadınlar bu məsələdə çox da sərbəst deyildilər. Bəlkə də Uliyyənin "sevilib öpülərək" qətl edilməsinin səbəblərindən biri də bu cür şeirləri idi. Hər halda onun yaradıcılığının sonralar şəhrəşub şeirlərinə təsir etdiyini düşünmək olar.

Açar sözlər: Uliyyə bint Mehdi, Abbasə uxt ər-Rəşid, Abbasilər sülaləsi, qəzəl, mucun, zindiqlik

Dövrün ümumi mənzərəsi

Uliyyə bint Mehdi ərəb mədəniyyəti tarixində dərin iz buraxmış sənətkarlardandır. Onun yaşayıb-yaratdığı dövr Abbasi hakimiyyətinin birinci mərhələsinə təsadüf edir. Bu, Əməvi xanədanının xarabalıqları üzərində qurulmuş yeni, fərqli bir imperiya idi.

Əməvilər əleyhinə illər boyu formalaşmış güclü müqavimət hərəkatı, onların siyasətinə müxalif olan qüvvələrin qiyam və üsyanları sonda bu sülalənin tarix səhnəsindən silinməsi ilə nəticələndi. VIII əsrin ortalarına doğru Əməvilər əleyhinə olan iki böyük qüvvənin – şiə tərəfdarlarının və Əməvilərin ərəb təəssübkeşliyi siyasətindən narazı olan əcəm xalqlarının, xüsusilə farsların vahid bir cəbhədə çıxış etməsinin şahidi oluruq. Xalq kütlələrinin Əhl-i beytə məhəbbətindən faydalanan Abbasilər xalqın qisas yanğısını söndürmək üçün Əməvilərin beşikdəki körpələrini belə qılıncdan keçirdilər, dəfn edilmiş xəlifələrini belə qəbirdən çıxarıb həqarətlərə məruz qoydular. Abbasi üsyanı əslində bir ərəb sülaləsinin -- 661-ci ildə hakimiyyəti Bənu Haşimdən almış Bənu Uməyyənin hakimiyyətinin yenidən Bənu Haşimə qaytarılması olmayıb, İslam sivilizasiyasında, din, siyasət və intellektual inkişafda yeni bir istiqamətin başlanğıcından xəbər verirdi (1) Əbu Muslim əl-Xorasani üsyanını farslar və digər millətlərdən olan məvalilər, İraqda və İranda güclənmiş şiələr, farslarla tarix boyu sıx əlaqələrə malik bir çox Yəmən qəbilələri dəstəkləyirdi. Bu üsyanda şiələrin tapdanmış haqqı uğrunda çıxışları ilə meydana atılan Abbasilər qələbədən öz sülalələrinin mənafeyi üçün bacarıqla istifadə edib şiələri hakimiyyətə yaxın buraxmadılar.

Abbasilərin tarix səhnəsində Əməviləri əvəz etməsi ilə xilafətin ictimai-siyasi və əqli-mənəvi həyatında böyük dəyişikliklər baş verdi. İlk növbədə xilafətin siyasi orientasiyası və mərkəzi dəyişdi. Şiələrə arxalanan Əbu l-Abbas əs-Səffah əvvəl Kufə yaxınlığında saldığı kiçik şəhər olan Haşimiyyəni, sonra isə Ənbarı özünə paytaxt seçdı. Xəlifə Əbu Cəfər əl-Mənsur isə qədim Sasani xanədanının Ktesifondakı (Mədain) qalıqları üzərində Bağdad şəhərini salır. Bununla da xilafətin siyasi həyatında farsların mühüm rolu bir növ təsbit olunur.

Xəlifə Mənsurun dövründə əyalət hakimlərinin, demək olar ki, yarısı fars və türk mənşəli idi (4, 1985, 263).

Abbasi xəlifəsi əl-Mənsur ilk dəfə məvaliləri, eləcə də öz qulam və kölələlərini yüksək hərbi və inzibati vəzifələrə çəkmiş, sonrakı Abbasi xəlifələri bu işdə onun ardınca getmişlər. Bu səbəbdən Abbasilər dövründə ərəblər öz hegemonluqlarını itirmiş olur (bax 1).

Fars dövlətçilik ənənəsinin dirçəldilməsi özünü həm də vəzirlik təsisatının yaranmasında göstərdi. Bu mənsəbi əvvəllər Bərməki sülaləsi tutur. Amma Bərməkilərin daim artan nüfuzundan əndişələnən Harun ər-Rəşid onları siyasət meydanından uzaqlaşdırdı. Cəfər əl-Bərməkinin yerinə vəzir təyin olunan Fəzl ibn

Səhl (فضل بن سهل) də əslən fars məvalisi idi. O, hakimiyyətdaxili savaşda Məmunu dəstəkləyib onun öz qardaşı əl-Əmin üzərində qələbə çalmasına kömək etmişdi.

Fars təsiri özünü insanların həyat tərzində, məişətində də göstərir. Bir zamanlar səhranın ağır şəraitində "dəhr"lə çarpışan ərəb indi naz-nemət içərisində yaşayırdı; möhtəşəm saraylar, ziyafətlər və kef məclisləri, musiqi və müğənnilər, gözqamaşdırıcı zinət əşyaları, hətta ayaqlarına belə bilərzik taxan qadınlar, meyxanə və şərab məclisləri, imperiyanın müxtəlif əyalətlərindən gətirilən kənizlər, xədim-kölələr Abbası həyatının tipik mənzərəsi idi.

Abbasi xəlifələrinin hədsiz despotizmi, hakimiyyət uğrunda bir-birləri ilə ölüm-dirim savaşına girişməsi bəzən ananı oğula, qardaşı qardaşa düşmən edirdi. Qanı bir, canı bir yaxın adamlarını öldürmək, şikəst etmək xəlifə ailəsində adi bir hal idi. Xəlifə Hadi öz oğlunu Qur'an-i Kərimi düzgün oxumadığı üçün qətlə yetirdir. Onun anası -- vaxtilə əri xəlifə Mehdini öldürməsi söylənilən Xeyzuran öz oğlunu – xəlifə Hadini kənizlərin köməyi ilə gecə yuxudaykən yastıqla boğub öldürür ki, taxt-taca digər oğlu Harun ər-Rəşid otursun. Harun ər-Rəşidin oğlu Məmun qardaşı Əmini camaatın gözü qarşısında təhqiramiz bir şəkildə qətlə yetirdir. Məşhur ərəb şairi, Abbasilər nəslindən olan İbn əl-Mu'təzz cəmi bir gün xəlifəlik edir; onu hakimiyyətdən salan əmisi oğlanları şairi tikə-tikə doğratdırıb bir kisəyə yığdırır və ailəsinə göndərirlər. İlk baxışda həyat qaynayan saraylar qətl və sui-qəsd məkanı idi.

Abbasi xəlifələrinin möhtəşəm sarayları, dəbdəbəli həyatı müqabilində Əməvi xəlifələri öz həyat tərzi ilə qəbilə şeyxləri təsiri bağışlayırdılar. Mustafa Şəka bu dəyişiklikləri urbanlaşma ilə izah edir. O, Abbasilərin hakimiyyəti dövründə kənd həyatını şəhər həyatının əvəz etdiyini bildirir (9, 171). Həqiqətən də, Abbasilər dövründə bir sıra şəhərlər salınır, vaxtilə hərbi qarnizon kimi yaranmış şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrilirdi. Abbasilərin paytaxtı Bağdadda həyat qaynayırdı. Ərəb tarixçisi Yəqubi İraqı dünyanın mərkəzi, Bağdadı isə İraqın göbəyi sayır, burada möhtəşəm sarayların, gur sulu kanalların olmasını qeyd edirdi. Fərat və Dəclə çayları ilə əhatə olunan şəhərdə həm dəniz, həm də karvan ticarəti inkişaf edirdi. Ticarət mərkəzi olan Bağdada dünyanın hər yerindən mallar gətirilirdi (bax 5, 65).

Mədəni inkişaf baxımından, Abbasilərin hakimiyyətə gəlməsi yalnız sülalələrin bir-birini əvəz etməsi kimi deyil, daha mühüm dəyişikliklər mərhələsi kimi izah edilir. Abbasilər Əməvilərin ərəb təəssübkeşliyi siyasətindən uzaq olduqlarından bu dövrdə başqa xalqların nümayəndələrinin müsəlman imperiyasının ictimai-siyasi və mədəni həyatında rolu artır. Buna görə də M. Mahmudov Abbasilərin hakimiyyətə gəlməsi ilə ərəb mədəniyyətinin öz yerini ümummüsəlman mədəniyyətinə verdiyini xüsusi vurğulayır (2, 79). Keçən əsrin 60-cı illərindən şərqşünaslıqda bu dövrün mədəniyyət və ədəbiyyatını müsəlman deyil, islamikeyt (İslamicate) adlandırmaq daha məqbul sayıldı. Marşal Hodsonun gündəmə gətirdiyi bu anlamla İslamın yayıldığı ərazidə yaranmış multikultural mədəniyyət və ədəbiyyat dəyərləndirilir.

Abbasi cəmiyyəti etnik mənsubiyyəti arxa plana keçirib ümumi dinə və həyat tərzinə əsaslanan kosmopolitan bir cəmiyyət idi. Məvalilərin dövlətdə mühüm vəzifələr tutması adi hal idi. Xəlifə əl-Məmun dövründə mötəzililiyin rəsmi dini ideologiyaya çevrilməsi dini diskussiyalara geniş meydan açdı. Yunan fəlsəfi əsərlərinin tərcüməsi İslam fəlsəfəsinin inkişafına təkan verdi.

Abbasilər cəmiyyətinin özünəxas təsvirini verərkən, adətən, aşağıdakı məsələlər ön plana çəkilir:

Bunlardan biri **dini ayin və ehkamlara etinasızlıqdır**. Abbasilər cəmiyyətində dini etiqad məsələlərində bir sərbəstlik nəzərə çarpırdı. Əməvilər xilafətindəki Ziyad ibn Əbihi, Həccac ibn Yusif kimi valilərin inkvizisiya aparatı bu dövrdə bir qədər zəifləmişdi. Yunan fəlsəfi əsərlərinin ərəb dilinə tərcüməsi dini diskussiyalara meydan açır, bidətçilik hərəkatı güclənirdi. Məscidlərdə, bazarlarda intellektual həyat qaynayır, əhalinin etnik tərkibindəki rəngarənglik əqli həyata öz təsirini hiss etdirirdi. Xəlifə sarayları intellektual həyatın mərkəzi olmaqda məscid və bazarlardan geri qalmırdı. Başları saraydaxili intriqalara və kef məclislərinə qarışmış xəlifələr bəzən dində çox da möhkəm olmayan şair və ədibləri himayə edirdilər. Bu dövrdə xüsusilə ***zindiqlər*** fəallaşır. Dini ehkamlara etinasızlıq əxlaq normalarını da zəiflədir. İnsanların əxlaq normalarına əməl etməməsi (***mucun***) adi hala çevrilir. Şərab məclislərindəki saqilərə və digər yeniyetmə oğlanlara meyil və onlara şeirlər qoşulması (*müzəkkər qəzəl* və ya *qılmaniyyə*) geniş yayılır (bax 3, 320-330).

Bu dövrdə **şüubilik** hərəkatının genişlənməsi mədəni həyata güclü təsir göstərir. Hərəkatın əsası Əməvilər dövründə qoyulsa da, qol-budaq atması Abbasilər dövrünə təsadüf edir. Çünki Abbasilərin siyasəti nəticəsində məvalilər Əməvilər dövründəkindən fərqli olaraq böyük nüfuz sahibi idilər. Vəzirlik mənsəbini illər boyu əllərində saxlayıb böyük güc və sərvət toplamış Bərməkilərin belə kökü məvalilərə bağlanır.

Əhalinin bir qismi gününü əyləncələrlə keçirdiyi bir vaxtda başqa bir təbəqə dini mübahisələrə, qeyblə bağlı olub çözülmək bilməyən mübahisə və düşüncələrə, mistik yönümlü təcrübələrə meyil göstərirdi. Hədislərin toplanıb yazıya alınması görünməmiş vüsət alır. Sünnəyə əməl insanları qatı möminliyə sövq edirdi. Mövcud durum qarşısında çarəsizlik mistikaya rəvac verirdi. Təsadüfi deyil ki, məhz bu dövrdə ərəb **sufizm**i bir hərəkat kimi yaranıb inkişaf edir.

Bütün bu deyilənlər Abbasilər cəmiyyətinin rəngarəngliyindən xəbər verir. Bu rəngarənglik yalnız etnik və dini mənsubiyyətin çoxçalarlığı ilə deyil, həm də mədəniyyətlərarası dialoqun güclənməsi, fars, hind, yunan dilində yaranmış abidələrin ərəb oxucusuna çatması nəticəsində düşüncələrdə yaranmış plyuralizmlə əlaqəli idi.

Qeyd etdiyimiz kimi, Abbasilərin hakimiyyətə gəlməsi heç də sadəcə olaraq bir sülalənin digərini əvəz etməsi olmayıb, həm də ictimai-siyasi və mədəni həyatda köklü dəyişiklərin başlanğıcı idi. Fars təsiri yalnız siyasi həyatla kifayətlənməyib insanların mənəvi həyatında da özünü büruzə verirdi. Bunun ardınca fars təsirini

zəiflətmək məqsədi güdən ərəb təəssübkeşliyi hərəkatı başlandı. Fütuhat nəticəsində işğal olunmuş ərazilərdə yaşayan xalqların artıq ərəb dilini mənimsəyib ədəbi yaradıcılığa qoşulması da mühüm amil idi.

Abbasilərin birinci dövrünün ədəbiyyatı **yeniləşmə dövrü ədəbiyyatı** adlanır. Bu dövr şairlərinə isə yenilikçi şairlər – *mucəddidun* (المجددون) deyilir. Yeniləşmə dövrü ədəbiyyatını özündən əvvəlki ədəbiyyatdan fərqləndirən bir sıra cəhətlər var. İlk növbədə, bu, cəmiyyətdə baş verən dəyişikliklərin ədəbiyyata təsirindən doğurdu. Birinci dövrdə ədəbi proseslərin şəhərlərdə cəmləndiyi qeyd edilməlidir. Ədəbiyyatın səhraları və bədəvi xeymələrini tərk edib məscid, bazar və yarmarkalara, ədəbi məclislərə yol açması prosesi daha da güclənir. Bəsrə, Kufə, Bağdad kimi şəhərlər poeziya mərkəzi olur.

Yeniləşmə meyillərinə baxmayaraq, ənənələrdən qurtulmaq o qədər də asan deyildi; ədəbiyyatda ənənəvi bədəvi obrazları, təqlidçilik hələ də özünü göstərirdi. Amma artıq səhralardan kənarda yaşayan, müxtəlif etnik qrupların əhatəsində olan, xüsusilə fars təsiri altında olan və ya əslən fars və başqa xalqlardan olan şairlər yavaş-yavaş ənənəvi obrazlardan və formalardan uzaqlaşırlar. Qəsidə forması ilə yanaşı kiçik həcmli şeirlər də geniş yayılır. Bir sıra janrların (xəmriyyə, tardiyyə, zuhdiyyə) qəsidənin tərkibindən çıxıb müstəqillik qazanması nəzərə çarpır. İndiyədək Əmr ibn Kulsum, əl-Ə'şə, əl-Əxtal və b. şairlərin yaradıcılığında özünü göstərən xəmriyyə janrı olduqca geniş yayılır. Bağdad ətrafındakı monastrlara gedib gününü şərab məclislərində keçirən şairlər bu janrı inkişaf etdirib qəsidədən ayırır. Əbu Nuvasın ayrıca xəmriyyə divanı yazdığını görürük.

Şərab məclislərinin vəsfi adi hal almaqla yanaşı bəzən İslama laqeyd münasibət də özünü göstərir. Zindiqlik bir həyat tərzi kimi ədəbiyyatda da əks olunur. Məsələn, Əbu Nuvas deyirdi: "Mən bir badə şərab içəndə bir Qur'an ayəsi oxuyuram ki, birinin savabı o birinin günahını yusun". Din xadimlərinin tənqidi poeziyaya yol açır (Əbu Nuvasın "Fitva fəqih" əsəri). Bəzən ədəbiyyatda zərdüştliklə bağlı motivlər əks olunur və dualizm ideyasını təbliğ edən şeirlər yazılır. Bu özünü, xüsusilə Əbu l-'Atəhiyə yaradıcılığında göstərir.

Həyatın bir tərəfi kef və eyş-işrətlə bağlı idisə, digər tərəfi zahidliyin, tərki-dünya fikirlərin əsarətində idi. Tərki-dünya həyatı tərənnüm edən zuhdiyyələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Cahiliyyət dövrünün "dəhr" mövzulu şeirlərinə həyatın faniliyi barədə İslam elementləri daxil olur. Məzarlıq, qəbir, kəfən poeziyanın əsas təsvir və düşüncə obyekti olur.

Bu dövrdə ov səhnələrini əks etdirən *tardiyyələr* də geniş yayılır. Xəlifələri ov zamanı müşayiət edən şairlər bu janrın gözəl nümunələrini yaradır. *Tardiyyələr* də qəsidənin tərkibindən çıxıb müstəqil şeir kimi formalaşır.

Artıq Əməvilər dövründə müstəqil şəkildə inkişaf etmiş qəzəl janrı, xüsusilə onun hadari qəzəl forması yeni həyat qazanmışdı. Abbasilər dövründə qəzəldə açıq-saçıq mövzular yer alır. Qadınlara olan məhəbbəti tərənnüm edən qəzəllə yanaşı

oğlan uşaqlarına həsr olunan qılmanıyyə şeiri, müzəkkər qəzəl də yaranır. Bu axırıncı növün əsas təsvir obyekti meyxanə və monastrlardakı saqilər idi.

Bu dövrdə şairlər əruzun yüngül bəhrlərinə müraciət edirlər. Ənənəvi motivlərdən çəkinib ədəbiyyata real həyatı əks etdirən obrazlar gətirirlər. Şairlər tərk edilmiş oba qalıqlarının təsvirindən daha çox şərab və musiqi məclislərinin təsvirinə meyil edir. Meyy, Leyla, Suad kimi ənənəvi bədəvi gözəlləri arxa planda qalır; poeziyada saqi, kəniz, müğənni obrazları əsas yeri tutur.

Digər tərəfdən, yenilikçi şairlər arasında əslən fars olanlar arasında şüubilik motivləri güclənir. Şüubilik müsəlman dünyasında ərəb təəssübkeşliyinə qarşı yönəlmiş bir hərəkat idi. Şüubi şairlər ərəblərin keçmişini, bədəvi adətlərini əla salır, qədim Sasani, hətta bəzən Roma mədəniyyəti ilə öyünürdülər. Bu tənqid yalnız bədəvi ərəbin özünə qarşı deyil, bəzən hətta ənənəvi poeziyaya qarşı yönəlirdi. Yenilikçilər qədim şairlərin oba qaşısında göz yaşları axıtmasına istehza edirdilər.

Yenilikçi şairlərin yaradıcılığında Orta əsr ərəb filoloqları tərəfindən xüsusi vurğulanan bir cəhət də onların bədii təsvir və ifadə vasitələrinə - bədi (البديع) sənətinə həddsiz meyil etmələri idi. *Bədi* sənəti ərəblərə Cahiliyyət dövründən məlum olsa da, yeniləşmə dövründə bu daha da inkişaf edir. Bu səbəbdən ibn əl-Mu‘təzz kimi filoloqlar bədi sənətini yeniləşmə poeziyasının əsas xüsusiyyəti sayırlar.

Haqqında bəhs edəcəyimiz Uliyyə bint Mehdi məhz belə bir dövrdə, belə bir mühitdə yaşamışdır.

Uliyyə bint əl-Mehdi

Uliyyə bint Mehdinin həyat və yaradıcılığı həmin dövrün siyasi çaxnaşmaları və ideoloji durumu ilə sıx bağlı idi. Məlumdur ki, Abbasi xilafətində Sasanilərin dövlət quruculuq prinsiplərindən faydalanmaqla yeni vəzir mənsəbi təsis olunur. Qur’anda Musa peyğəmbərin qardaşı Harunun “vəzir” adlanması bu vəzifəyə xüsusi status verir; vəzirlər xəlifənin ən yaxın adamı, onların sağ əli idi. İlk mərhələdə xilafətdə fars əsilli Bərməki sülaləsi vəzirlik mənsəbini tutmaqla böyük nüfuz qazanır. Əslən Xorasandan olan Bərməki sülaləsinin kökü Bəlxin buddist məbədgahına gedib çıxır. Onlar Bəlxdə böyük ərazilərə sahib idilər. İslamdan sonra Bərməki nəsli ərəblərin Bənu Əzd (بنو ازد) qəbiləsinin məvalisi olur. Əl-Xorasani üsyanında fəal iştirak bu ailəni hakimiyyətin yüksək eşalonuna daxil edir. Vəzirlik mənsəbini tutan Bərməkilərin sarayları öz cah-cəlalı ilə heç də xəlifə sarayından geri qalmırdı. Əbu Muslim əl-Xorasani üsyanının nəticələrindən bəhrələnərək Abbasilərin dövlət strukturunda mühüm vəzirlik mənsəbini ələ keçirən bu sülalə xilafət həyatında mühüm rol oynayırdı. Xalid Bərməki xəlifə Mənsurun sağ əli sayılırdı. Onun oğlu Cəfər Bərməki Xilafətin dövlət idarəçilik sisteminin formalaşmasında böyük rol oynadı. Bərməkilərin daim artan sərvət və şöhrəti Abbasiləri narahat edir. Bu arada Harun ər-Rəşidin vəziri Cəfər Bərməkinin xəlifənin bacısı Abbasə (ona bəzən Uliyyə də deyirdilər) ilə olan eşq macərası dillərdə dolaşır. Böyük sərvət və siyasi güc sahibi

olan bərməkilərin ağalığına xəlifə Harun ər-Rəşid (هارون الرشيد) dövründə, 803-cü ildə son qoyulur. Ərəb mənbələri bunu Harun ər-Rəşidin bacısı Uliyyə (Abbasə) ilə Cəfər əl-Bərməki arasındakı eşq macərası ilə izah etsələr də, səbəblər daha dərin olub xilafətdə güc sahibliyini tənzimləmək, olduqca güclənmiş fars Bərməki ailəsinin nüfuzunu azaltmaq və onların iqtisadi resurslarını ələ keçirmək məqsədi güdürdü. Digər tərəfdən, mənbələrin özündə Uliyyənin həyatı və şəxsiyyəti ilə bağlı qaranlıq məqamlar çoxdur.

İlk öncə qeyd edək ki, Abbasilər dövründə qadınların cəmiyyət həyatında rolu nəzərə çarpacaq dərəcədə artmışdı. Ədəbi mühitdə qadın yalnız sevgi obyekti, ilham pərisi deyil, həm də şair, müğənni, rəqqasə kimi şeir və musiqi məclislərinin fəal iştirakçısı idi. Abbasilər dövrünün qızıl əsrində Uliyyə bint əl-Mehdinin (v. 825) adı tez-tez çəkilirdi. Onun barəsində Əbu l-Fərəc əl-İsfəhaninin və Əbu Bəkr əs-Sulinin əsərlərində maraqlı məlumatlar hifz olunub. Bəzi mənbələrdə adı Abbasə bint əl-Mehdi kimi verildiyindən, iki fərqli tale ilə bağlı xəbərlərə rast gəlirik. Onun adını Uliyyə kimi verən Əbu l-Fərəc əl-İsfəhani və Əbu Bəkr əs-Sulidən fərqli olaraq, ibn Cərir ət-Təbəri onu Abbasə bint əl-Mehdi adlandırıb haqqında tam fərqli xəbərlər söyləyir. Ona görə də, ola bilsin ki, Uliyyə və Abbasə eyni qadın deyil. Görünür, xəlifə əl-Mehdinin iki qızı olub, amma Orta əsr müəlliflərinin əsərlərini oxunaqlı etmək üçün bəzən fantaziyaya meyl etmələrini də unuda bilmərik.

Uliyyə hicrətin 160-cı (m. 777) ilində anadan olub 210-cu (m. 826) ilində 50 yaşında vəfat etmişdir. Əbu Bəkr Suli göstərir ki, Abbasi xəlifələrinin qızları içərisində Uliyyə qədər istedadlısı olmayıb. O, həm poeziyada, həm də mahnı sənətində mahir idi. Eləcə də ağıllı və mömin biri idi. Qur'an qiraətini və mehrab önündə ibadəti çox sevərdi (7, 55).

Uliyyə barədə daha geniş məlumata Əbu l-Fərəc əl-İsfəhaninin "Kitab əl-əğani"sində rast gəlirik (6, cild 10, 129-148). Təxminən 20 səhifəlik bir oçerkdə əl-İsfəhani Uliyyədən, onun poeziyasından, bəstələdiyi mahnılardan bəhs edir. Uliyyə bint Mehdinin anası bir müğənni kəniz olub. Məknunə adlı bu qadını xəlifə əl-Mehdi Mədinədən yüz min dirhəmə almışdı. Həm gözəl, həm də istedadlı idi. Görünür, qızının şeir sənətinə və musiqiyə həvəsi də buradan gəlir. Çox gözəl olan Uliyyənin bir eybi var idi: alnı çox böyük idi. Bunu gizlətmək üçün alnını ləl-cəvahirlə bəzəyirdi (6, cild10, 129-148.

Ümumiyyətlə, mənbələrdə Abbasilər dövrünün saray həyatı, buradakı eyş-işrət məclisləri barədə oxuduqda insan özünə belə suallar verir: Əcəba, bu insanlar müsəlmanmı olub? Bu insanlar şərab məclislərini Qur'anla, İslamla necə uyğunlaşdırıblar? Xəlifələrdən biri Qur'anı düz oxumadığı üçün oğlunu qətlə yetirirsə, şərab məclisləri, xəmriyyət şeiri, eyş-işrət və mucun bu həyata necə sirayət edirdi? Məsələn, Əbu Bəkr əs-Suli Uliyyə barəsində qəribə bir xəbər söyləyir: Uliyyə Harun ər-Rəşidin dövründə həcc ziyarətinə yollanır. Amma o, yolunu dəyişib Tayzənabada gedir. Tayzənabad o dövrdə şərab istesalı ilə məşğul olan monastrları ilə tanınrdı. Şairlər, müğənnilər bu monastrlarda tez-tez məclislər qurur, eyş-işrətlə

məşğul olur, bəzən günlərlə buranı tərk etmirdilər. Onun Tayzənabada getdiyini eşidən Harun ər-Rəşid çox qəzəblənir, Uliyyəni çağırıb danlayır. Bu zaman Uliyyə aşağıdakı şeiri söyləyir (7, 59):

Mən nə günah işlətdim? Rəbbimdən qorxmasaydım, hansı günahı işlədərdim?
Cəmi bircə gün və bir gecə şərab içmədən Tayzənabadda qalmağım günahmı?
Səhərisi günümü isə sərin bir şərabla açdım. Elə bir şərab ki, hətta yaşlı bir zahidi belə məftun edərək yeniyetmə oğlana döndərər.
Elə saf və təmiz bir içki ki, yaşlı qadının belə bütün dərdlərini azaldır.

Uliyyənin dini, imanı barədə mənbələrdə insanı heyrətə salan məlumatlar var. Məs. Əbu l-Fərəc əl-İsfəhani göstərir ki, o şərab içərdisə, namaz qılmazdı, ancaq qüsl edib təmizləndikdən sonra namaza başlardı. Onun ən böyük həvəsi şeirə, musiqiyə idi (6, cild 10, 129)

Orta əsrlərdə şairələrin şeir deməsinin bəzi çətinlikləri var idi, xüsusilə zadəgan xanımlar öz sevgilərini gizlətmək məcburiyyətində idilər. Deyilənə görə, Uliyyə bu səbəbdən Raşə adlı bir qulama olan eşqini gizlədir, ona həsr etdiyi qəzəllərdə sevgilisini "Zeynəb" adlandırırdı. Halbuki bir qadının başqa bir qadına qəzəllər yazmasının da müxtəlif yozumları meydana çıxırdı. Bir şeirində o bu halını belə ifadə edir:

Kölələrimdən birini sevdim, amma adını gizli saxladım. Eşqimi də qəlbimdə gizlədim.
Əgər mən şəhərin gözəl geyimli əyanlarından birini sevsəydim, yəqin ki, adını uca səslə qışqırardım.

Eyni mövzuda Uliyyə deyir:

Ey eşqini gizli tutduğum! Mən sənin adını gizli saxlamağı qorxudan etmirəm.
Sevdiyim adam belə mənim halımı anlamır, onun ucbatından nələr çəkdiyimi bilmir.

Onun Harun ər-Rəşidin Tall adlı bir köləsini də çox sevdiyi, ona şeirlər qoşduğu bildirilir. Harun ər-Rəşid onun bu şeirlərindən, Talla maraq göstərməsindən xoşlanmazdı. Xəlifə Uliyyəyə Tallın adını belə çəkməyi qadağan edir. "Tall" sözü hərfi mənada "şeh" deməkdir. Bir dəfə Qur'an oxuyarkən əl-Baqara surəsinin 265-ci ayəsinə çatarkən (فإن لم يصبها وابل فطل) Uliyyə "tall" sözündə dayanır, onun əvəzinə "xəlifənin qadağan etdiyi şey" söyləyir. Bunu eşidən Harun ər-Rəşid bacısının alnından öpür və "mən Tallı sənə bağışladım"-deyir (6, cild 10, 130).

Uliyyə qardaşı Harun ər-Rəşidin vəfatından sonra uzun müddət özünə gəlməmişdir. Xəlifə Əmin ona xüsusi qayğı ilə yanaşır, dərdini ovutmağa çalışırdı.

Əbu Bəkr əs-Sulinin məlumatında onu Məmunun öldürdüyü aydınlaşır. Burada məşhur "Qladiator" filmindəki bir ölüm səhnəsinə bənzər hadisə təsvir olunur; Filmdə Commodus qoca atası Marcusu qucaqlayıb elə bərk ağuşuna sıxır ki, Markusun nəfəsi tıxanıb ölür. Deyilənə görə, Məmun Uliyyəni qucaqlayıb bağrına basmış, üzünü-gözünü öpmüş, nəfəs yollarını tıxamış və bu yolla qətlə yetirmişdir (7, 82). Bu xəbərin nə dərəcədə düzgün olduğunu bilmirik, amma Uliyyənin Harun ər-Rəşidin digər oğlu Əminlə münasibəti yaxşı olub. Əmini Məmun taxtdan salıb öldürmüşdür. Bəlkə də Əminlə yaxınlığı səbəbindən Məmun Uliyyəni də öldürüb.

Circi Zeydanın "Abbasə uxt ər-Rəşid" romanında xəlifə əl-Mehdinin Abbasə adlanan bir qızından söhbət gedir və onunla Harun ər-Rəşidin vəziri, fars əsilli Cəfər əl-Bərməki arasında eşq macərası olması bildirilir. Circi Zeydan bu epizodu çox güman ki, ət-Təbərinin "Tarix"indən götürmüşdür. Ət-Təbəri bildirir ki, Harun ər-Rəşid dostu və vəziri Cəfər əl-Bərməki və bacısı Abbasə ilə bir məclisdə olmağı çox sevirdi. Bu iki naməhrəmi bir araya gətirmək üçün Harun ər-Rəşid onlar arasında kəbin kəsdirir, amma bu formal bir kəbin olmalı idi. Cəfər əl-Bərməkini sevən Abbasə gecələr kəniz geyimində onun yanına gedir və Cəfərdən əkiz uşaq doğur. Bundan xəbər tutan Harun ər-Rəşid Cəfər əl-Bərməkinin qətlnə fərman verir və Bərməki sülaləsinə divan tutur.

Gördüyümüz kimi, bəzən Uliyyə ilə eyniləşdirilən Abbasənin fərqli bir taleyi olub. Nə əl-İsfəhani, nə də Əbu Bəkr əs-Suli Uliyyənin Cəfər əl-Bərməki ilə eşq macərasından bəhs etmir. Çox güman ki, Abbasə xəlifə Mehdinin başqa bir qızı olub.

Uliyyənin poeziyası oynaq və qısa parçalardan ibarətdir. Onun iri həcmli qəsidələrinə rast gəlmirik. Bütün şeirləri 2-3 beytlik, yüngül bəhrlərdə deyilmiş qitələrdir, çünki bu şeirlər nəğmə üstə söylənmişdir. Onun çoxsaylı (təxminən 50 və ya 80) nəğməsi olması bildirirlir. Nəğmələrini, adətən, saray müğənniləri oxuyurdu. Şeirlərində eşq, məhəbbət və şərab motivləri vəhdətdə verilir:

Onun ətri əlimdə qalıb, yanımda olanda da, olmayanda da mən bu qoxunu duyuram.

Sanki sərin bir şərabla içizdirilən, ənbər qatılmış reyhandır.

Ey dost, bu bir bitkinin kökündən çəkilib digərinin şirəsi ilə qarışdırılmış ətirli bir şərabdır.

O mənim qəlbimin sevdiyidir. Dərdimin təbibi yalnız odur.

Qeyd etdiyimiz kimi, Uliyyə bəzən sevdiyi gəncləri qız adları ilə adlandırırdı. Saray məclislərində oxunan nəğmələrdə, təbii ki,sevgi obyektinin qız olması daha münasib idi. Aşağıdakı şeirdə Zeynəb (qısaca Zeyb) kimi verilən sevgili əslində cavan oğlandır.

Qəlbim Zeybin müştaqıdır.Ya rəbbim, bunda bir eyibmi var?

Qəlbim əsir edib və ağlamaqdan başqa çarəm qalmayıb, ey qeybdən xəbərdar olan!

Sanki nəyi isə cibimdə gizlədirmiş kimi onun adını belə şeirimdə gizlin tutdum.

Başqa bir şeir-nəğmədə deyir:

Ey səhrada ocaq qalayan! Ocağın atəşini sənin üçün həyəcan keçirən qəlbimdən götür!

Sənin yandırdığın ocaq yandığı kimi də sönüb gedər. Qəlbimin odu isə heç vaxt sönməz.

Təxminən iki əsr öncə üzri qəzəl şairələri utanıb-çəkinmədən sevgililərinə qəzəllər (müzəkkər qəzəl) həsr edirdilər Leyla əl-Əxyəliyyə Taubəyə, Leyli adlandırdığımız digər Leyla Qeysə, Buseynə Cəmilə olan eşqini gizlətmirdi. Onlar bu yolun şəhidləri idilər. Abbasi saray mühitində isə, görünür, qadınlar bu məsələdə çox da sərbəst deyildilər. Bəlkə də Uliyyənin "sevilərək" qətl edilməsinin səbəblərindən biri də bu cür şeirləri idi. Hər halda onun yaradıcılığının sonralar şəhrəşub şeirlərinə təsir etdiyini düşünmək olar.

Ədəbiyyat

1. Bosworth, C. E. "ʿAbbasid Caliphate," *Encyclopædia Iranica (online)* https://iranicaonline.org/articles/abbasid-caliphate (10.02. 23)
2. Qasımova, A. *Ərəb ədəbiyyatı, v-xıı əslər*. Bakı, 2019.
3. Mahmudov, M. *Klassik ərəb ədəbiyyatı*. Bakı, 2001.
4. Фильштинский, И. М. *История арабской литературы*, Москва, Наука, 1985.
5. Шидфар, Б. Я. *Абу Нувас.* Москва, Наука, 1978

6. ابو الفرج اصفهاني، *كتاب الاغاني*، تحقيق احسان عباس،I-XXV ، بيروت، دار صادر، الطبعة الثالثة، 2008
7. ابو بكر محمد ابن يحيى الصولي، *اشعار اولاد الخلفاء واخبارهم من كتاب الاوراق*. مصر، 1936
8. ابو عبد الله ياقوت بن عبد الله الروي الحموي، *معجم الادباء او ارشاد الاريب الى معرفة الاديب*. بيروت، دار الكتب العلمية 1991
9. مصطفى شكعة، *الشعر والشعراء في العصر العباسي الاول*، بيروت، دار العلم

Aida Gasimova

ABSTRACT
ULIYYA BINT AL-MAHDI – HER MILIEU, BIOGRAPHY, PERSONALITY, AND POETRY

The aim of this article is to give a brief account on Uliyya bint al-Mahdi. She was one of the prominent figures of Arab poetry during the first period of Abbasid literature.

First we will draw a picture of sosial-political and religious life in Abbasid caliphat. Thus, with the replacement of the Umayyads by the Abbasids on the stage of history, great changes took place in the social-political and intellectual-spiritual life of the caliphate, and the political orientation and center of the caliphate changed and became Persian-oriented. Abbasid society was a cosmopolitan society based on a common religion of muslims, not on their ethnicity and background. There were also representatives of other denominations.

As a result of urbanization, poetry left the deserts and Bedouin tents and opened its way to mosques, bazaars and fairs, literary gatherings organized in palaces. Uliya bint al-Mahdi was one of the regular participants of these meetings. Her life and activities prove that in the Abbasid society, women were not only objects of love and muse, but also active participants gatherings devoted to the poetry and music, they acted as poets, singers, and dancers.

It should be noted that Uliyya called her male muse by female names and implicitly expressed her love for the opposite sex in the poems. However, about two centuries ago, uzri ghazal poetess used openly to dedicate ghazals (mudhakkar ghazal) to their lovers without embarrasing. In the Abbasid court milieu, apparently, women were not that free in this issue. Perhaps one of the reasons why Uliya was killed by the “lovely kiss” of Mamun was her poetry. In any case, it can be assumed that her poetry influenced *shahrashub* poems later.

Key words: Uliyya bint a-Mahdi, Abbasa ukht al-Rashid, Abbasid dinasty, ghazal, mujun, zindiqism

Аида Гасымова

РЕЗЮМЕ
УЛИЙЯ БИНТ АЛЬ-МАХДИ – ЕЕ СРЕДА, БИОГРАФИЯ, ТВОРЧЕСКАЯ ЛИЧНОСТЬ И ПОЭЗИЯ

Цель данной статьи — краткое описание жизни и биографии Улиййи бинт аль-Махди. Она была одним из видных деятелей арабской поэзии на начальном этапе Аббасидской власти. Ее жизнь и личность были окутаны легендами. Сначала прольем свет на общественно-политическую и религиозную жизнь Аббасидского халифата.

Необходимо отметить, что со сменой Омейядов Аббасидами на исторической сцене произошли большие изменения в общественно-политической и интеллектуально-духовной жизни халифата, политическая ориентация и центр халифата изменились и стали ориентированы на персов. Аббасидское общество было космополитическим обществом, основанным на общей религии мусульман, а не на их этнической принадлежности и происхождении. Были и представители других конфессий. В результате урбанизации поэзия покинула пустыни и бедуинские палатки и открыла свой путь в мечети, базары и ярмарки, устраиваемые во дворцах литературные вечеринки. Улийя бинт аль-Махди была одной из постоянных участниц этих вечеринок.

Ее жизнь и деятельность доказывают, что в аббасидском обществе женщины были не только объектами любви и муз, но и активными участницами вечеринок, посвященных поэзии и музыке, выступали как поэтессы, певицы и танцовщицы. Следует отметить, что свою музу (мужчину) Улийя называла женскими именами и скрыто выражала свою любовь к противоположному полу. Однако около двух столетий назад поэтессы узри-газель не смущаясь открыто посвящали газели (музаккар газели) своим возлюбленным. В аббасидской придворной среде, по-видимому, женщины были не столь свободны в этом вопросе. Возможно, одной из причин, по которой Улийя была убита “поцелуем” Мамуном, были ее стихи. В любом случае можно предположить, что ее поэзия позже оказала влияние на стихи шахрашуба.

Ключевые слова: Улийя бинт а-Махди, Аббаса Ухт ар-Рашид, династия Аббасидов, газель, муджун, зиндикизм

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmləri doktoru Şəfəq Əlibəyli tərəfindən çapa tövsiyə olunmuşdur

Dos.QƏDİM İGİD oğlu RUFULLAYEV
Lənkəran Dövlət Universiteti
qedim73@mail.ru

SALMAN MÜMTAZIN ARAŞDIRMALARINDA VAQİF VƏ ONUN ƏDƏBİ İRSİ

XÜLASƏ

Məqalə Salman Mümtazın ədəbiyyatşünaslıq fəaliyyətinə həsr olunmuşdur. Burada qeyd edilir ki, Azərbaycan ədəbiyyatşünaslığı XX əsrin əvvəllərində öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Bu sahədə real addımlar atanlardan biri olan Salman Mümtaz klassik ədəbi irsinin və xalq yaradıcılığı nümunələrinin toplanması, tədqiqi və nəşri istiqamətində mühüm işlər görmüşdür. Onun Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Aşıq Qurbani və s. kimi ədəbi şəxsiyyətlərimiz haqqında tədqiqat işləri sonrakı elmi araşdırmalar üçün zəngin qaynaq mənbəyi olmuşdur. Salman Mümtazın araşdırdığı klassiklərdən biri də Molla Pənah Vaqifdir. M.P.Vaqif Azərbaycan siyasi və bədii fikir tarixində müstəsna xidmətləri olan dahi şəxsiyyətlərdən biridir. Onun XVIII əsrdə dövlət xadimi kimi gördüyü işlərlə bədii ədəbiyyatda yaratdığı ənənələr məcmu şəkildə birləşərək özünəməxsus, yenilikçi Vaqif şəxsiyyətini təcəssüm etdirir. İndi bizə məlum olan bu məlumatlar vaxtilə Salman Mümtaz tərəfindən toplanmış və 1925-ci ildə "Kommunist"qəzetində "Molla Pənah Vaqif" başlığı altında nəşr etdirilmişdir. Salman Mümtazın bu araşdırmasında Vaqifin tərcümeyi-halı və siyasi və ədəbi yaradıcılığı barədə bəhs olunur. Qeyd olunur ki, Vaqif yaradıcılığı Qarabağ xanlığının XVIII əsrdəki ictimai-siyasi vəziyyətini, xalqın həyatını, məişətini əks etdirən bu poeziya nikbinliyi, xılqiliyi ilə seçilir. Onun əsərlərində dövrünün ziddiyyətlərini, sevinc və kədərini daha parlaq ifadə etdiyi üçün bütünlüklə ədəbiyyatımızın bu dövrünü Vaqif əsri adlandırsaq, səhv etmərik.

Salman Mümtazın Vaqifdən bəhs edən araşdırmaları böyük əhəmiyyətə malikdir və gələcək tədqiqatlar üçün zəngin elmi mənbə hesab edilir.

Açar söz: ədəbiyyatşünas, Salman Mümtaz, araşdırma, Vaqif yaradıcılığı

Azərbaycan ədəbiyyatşünaslığı XX əsrin əvvəllərində öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Bu sahədə real addımlar atanlardan biri olan "Salman Mümtaz klassik ədəbi irsinin və xalq yaradıcılığı nümunələrinin toplanması, tədqiqi və nəşri istiqamətində mühüm işlər görmüşdür. Onun Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Aşıq Qurbani və s. kimi ədəbi şəxsiyyətlərimiz haqqında tədqiqat işləri sonrakı elmi araşdırmalar üçün zəngin qaynaq mənbəyi olmuşdur" (2, 44). Salman Mümtazın araşdırdığı klassiklərdən biri də Molla Pənah Vaqifdir. M.P.Vaqif Azərbaycan siyasi və bədii fikir tarixində

müstəsna xidmətləri olan dahi şəxsiyyətlərdən biridir. Onun XVIII əsrdə dövlət xadimi kimi gördüyü işlərlə bədii ədəbiyyatda yaratdığı ənənələr məcmu şəkildə birləşərək özünəməxsus, yenilikçi Vaqif şəxsiyyətini təcəssüm etdirir. M.P.Vaqifin siyasi fəaliyyəti gələcək dövlətçilik ənənələri üçün bir məktəb rolunu oynadığı kimi, onun bədii "yaradıcılığı ilə xalq şeirinin sirri yazılı ədəbiyyatımızda üstünlük qazanır. Qarabağ xanlığının XVIII əsrdəki ictimai-siyasi vəziyyətini, xalqın həyatını, məişətini əks etdirən bu poeziya nikbinliyi, xılqiliyi ilə seçilir. Vaqifin poeziyası dövrünün ziddiyyətlərini, sevinc və kədərini daha parlaq ifadə etdiyi üçün bütünlüklə ədəbiyyatımızın bu dövrünü Vaqif əsri adlandırsaq, səhv etmərik" (5, 358). Çünki Vaqif poeziyası həm yazılı, həm də şifahi ədəbiyyat ənənələrini elə şəkildə vəhdət təşkil edir ki, onların sərhədlərini müəyyən etmək çox çətindir. Həm də Vaqif poeziyası xalq şeirinə, dil və üslub xüsusiyyətlərinə xas olan əsas keyfiyyətləri özündə ifadə etdiyi üçün milli səciyyə daşıyır. Araz Dadaşzadə məhz bu baxımdan vurğulayırdı ki, "Azərbaycan ədəbi dilinin inkişafında Vaqifin xidmətləri böyükdür. O heca vəznində yazdığı şeirlərdə xalq dilindən sənətkarlıqla istifadə edərək onu ədəbi-bədii dil səviyyəsinə qaldırmışdır"(1, 44)

Salman Mümtaz məhz ona görə də Vaqif şəxsiyyətini, eləcə də onun bədii irsini sevə-sevə araşdırmış və əldə etdiyi materialları 1925-ci ildə "Kommunist"qəzetində "Azərbaycan ədəbiyyatı" başlığı altında nəşr edilmişdir.

M.P.Vaqifin sənətkarlığı hələ sağlığında ikən sənətsevərlərin diqqətini özünə cəlb etmişdi. Əsərləri toplanmış, cünglərdə saxlanılmışdır. "Şairin əsərlərini ilk dəfə sistemli şəkildə toplayıb nəşr edən Mirzə Yusif Nersesov olmuşdur. Onun 1828-ci ildə topladığı şeirlər 1856-cı ildə Teymurxanşurada "Kitabi-məcmueyi-divani-Vaqif və digər müasirin" adı ilə çap olunur" (3, 359). Böyük dramaturqumuz Mirzə Fətəli Axundzadə də tanınmış sənətkarları, o cümlədən M.P.Vaqif, Q.B.Zakirin ədəbi irsini toplayıb nəşr etdirmək qərarına gəlir. Ancaq o buna nail olmur. M.F.Axundzadənin yaxın dostu şərqşünas və qafqazşünas Adolf Berje XIX əsrlər azərbaycan şairlərinin ədəbi irsi əsasında ərsəyə gətirdiyi "Qafqazda və Azərbaycanda məşhur olan şüəranın məcmuə" kitabını çap etdirir. Bu kitabda Molla Pənah Vaqif yaradıcılığına da geniş yer verilmişdir. Onun yaradıcılığına aid 50 əsəri burada əksini tapmışdır. Vaqif yaradıcılığını tədqiq edənlərdən biri də Firudin bəy Köçərli olmuşdur. Onun "Azərbaycan ədəbiyyatı tarixi" kitabında Vaqifin ədəbi irsinə aid xeyli nümunələr verilmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulana qədərki dövrdə Vaqif yaradıcılığını kitab şəklində H.Vəzirov çap etdirmişdir. H.Ə.Qayıbov da böyük sənətkarın əsərlərini çoxcildli kitab şəklində tərtib etsə də, nəşrini həyata keçirə bilməmişdir.

M.P.Vaqif yaradıcılığına yeni münasibət, əsərlərinin sistemli şəkildə toplanıb nəşr olunması məhz Salman Mümtazdan başlanır, desək yanılmarıq. O, 1925 və 1937- ci illərdə Vaqifin ədəbi irsini iki dəfə nəşr etdirir.

Salman Mümtazın 1925-ci ildə "Kommunist"qəzetində "Azərbaycan ədəbiyyatı" silsiləsinə daxil etdiyi "Molla Pənah Vaqif" başlığı altında nəşr etdirdiyi

materialdan görürük ki, böyük tədqiqatçı alim, Vaqif şəxsiyyəti və onun ədəbi irsinin üzə çıxarılması üçün dövrün səciyyəsini özündə əks etdirən əksər mənbələrə baş vurmuşdur. Olduqca böyük zəhmət və vaxt tələb edən bu işdən qətiyyən çəkinməmiş və məlum olan bütün qaynaqlarla tanış olmuş, yeni məlumatlar əldə etməyə çalışmışdır. Nəhayət, o, məqalədə yazır: "Azərbaycan türklərinin saf bir özəyini təşkil edən kəndlilərdən ərseyi-vücudə gəlmiş və bütün ellər tərəfindən "hər oxuyan Molla Pənah olmaz" ünvani- cəlilə məhzər olmuş bu böyük və qiymətli şairimizə dair ilk məlumatı biz o tarixlərdə yazılan Hacı Əliqulu xan Valeh Dağıstaninin təlif etdiyi "Riyazülüş şüəra" adlı təzkirəsindən və yaxud İbrahim xan Cavanşir ilə sıx bir rabitədə olan Təbriz bəylərbəyi əmirül-ümərası Hacı Əbdürrəzzaq xan Dünbilinin "Nigaristan"ından öyrənəcəkdik ki, məətəssüf, birincisini görmədiyimiz kimi, ikincisində də heç bir məlumata təsadüf etmədik və yenə uzun müddət Qarabağda yaşayan Bəhmən mirzə Qacar Nəsrəddin şah Qacarın atası olan Məhəmməd şah Qacarın adına Yazdığı "Təzkireyi- Məhəmmədşahi"sində tam mənası ilə sükut ixtiyar edərək Vaqif haqqında tək bir cümlə də olsun işlətməmişdir"(3, 3).

Göründüyü kimi, Salman Mümtaz qarabağ tarixi və xüsusilə, burada baş verən hadisələri özündə əks edən mənbələrdə dövrünün məşhur siması barədə səhih məlumat ala bilmir. Məqalədən görürük ki, Salman Mümtaz Adolf Berje XIX əsrlər Azərbaycan şairlərinin ədəbi irsi əsasında ərsəyə gətirdiyi "Qafqazda və Azərbaycanda məşhur olan şüəranın məcmuə" kitabı ilə də tanış olmuşdur. O, qeyd edir ki, Almaniyanın Leypsiq şəhərində A.Berje tərəfindən nəşr olunan məcmuədə Vaqifin əsərləri də yer almağına baxmayaraq, şairin tərcümeyi-halı barədə bir sətir belə yazılmamışdır. Buna baxmayaraq, M.P.Vaqif haqqında müfəssəl məlumat verən mənbələrin varlığını da sevinc hissi ilə dilə gətirən tədqiqatşı alim, onun 3 qisim olduğunu vurğulamışdır. "Vaqif barəsində bizə dəyərli yardımda olan ərbabi-qələmin birincisi İbrahim xan Cavanşir vüzərasından həm də azərbaycanca yazdığı məşhur "Asari-Camal" (azərbaycanca yazılmış səhih və mötəbər Qarabağ tarixidir) adlı tarixi ilə qaranlıqda qalmış tariximizinbir hissəsini aydınladan Mirzə Camal"dır (4, 32).

Vaqifin tərcümeyi-halı haqqında məlumat verən tədqiqatçılardan ikincisi, "erməni ədiblərindən, türk, fars və ərəb dillərinə bir əndazəyə qədər dara olan Mirzə Yusif Nersesov Qarabağı, üçüncü azərbaycanca "Qarabağnamə" tarixini yazan Mirzə Adgözəl bəy olmuşdur".

Salman Mümtazın qənaətinə görə, birinci və sonuncu mənbə M.P.Vaqif ilə əlaqədar olan hadisəni işıqlandırmaqla kifayətlənmişlər. Ancaq ikincisi, yəni Mirzə Yusif Nersesov fars dilində Vaqifin təcümeyi-halını yazmaqla bərabər, onun bir neçə əsərini də mənbəyə daxil etməklə ədəbiyyat tariximizə böyük bir xidmət göstərmişdir.

Yalnız bundan sonra, yəni əvvəlki mənbələrin verdiyi informasiya və özünün topladığı materialları müqaisə etdikdən sonra Salman Mümtaz "Molla Pənah Vaqif" məqaləsində şair haqqında ümumi qənaətləri elmi ictimaiyyətə təqdim edir. Məhz bu

cəhətinə görə elmi mənbələrdə qeyd edilir ki, "Sovet hakimiyyəti illərində Vaqif irsinin nəşri və tədqiqi sahəsində S.Mümtaz xeyli iş görür" (5, 359).

Salman Mümtaz şairin tərcümeyi-halından söz aşaraq qeyd edir ki, dəyərli və görkəmli şairimizin adı Pənah, atasının adı Mehdi ağa, anasının adı Ağqız, təxəllüsü isə Vaqifdir. Anasının adının Ağqız olması Molla Vəli Vidadiyə yazdığı şeirlərin birində məlum olur:

Ağqız oğluyam, əhli dərdəm mən,
Tayım, bərabərim yoxdur, mərdəm mən.
Əlinin quluyam, Cavanmərdəm mən,
Ancaq sən yassarsan, xissət eylərsən. "(3, 4).

Salman Mümtaz Vaqifin həm də molla olmasını şairin şeirləri ilə ifadə etməyə çalışır. Məlumdur ki, Molla Pənah Şəki xanı Məhəmmədhüseyn xan Müştaqla dostluq edib yazışırdı. Şair Məhəmmədhüseyn xanın ona sovqat kimi göndərdiyi kürkə görə gəlininə xitabən bir müxəmməs yazır və burada molla olduğunu dilə gətirir.

Qış günü çünki dönər şol cənnətül-məvayə kürk,
Ol səbəbdən layiq olmuş firqeyi-mollayə kürk,
Görünür ədna əgərçi himməti –valayə kürük,
Eylə ki, püşak olur fəsli-şita əzayə kürük,
Tən edər yüz faxiri-məlbuseyi-dibayə kürk! (4, 32)

Məqalədə Vaqifin həm də molla olması qənaətinin təsdiqi üçün şairin bir neçə şeirinə istinad olunur. Hətta Molla Vəli Vidadinin Vaqifə qarşı yazdığı bir nümunədə Vaqifin axund olması fikri ilə qarşılaşırıq.

Sarı Çoban oğlu gəlsin yanına,
Axund deyib, canın qatsın canına.
Onun şövkətinə, sənin şanına
O, yaxşı müxəmməs düzər, ağlarsan. (4, 33)

Bizcə, Vaqif ilk təhsilini mədrəsədə aldığı üçün və öz zamanında təhsilli adam, ziyalı olduğuna görə ona Molla,- deyə müraciət etmişlər. XIX əsrin əvvəllərində təhsilli adamlara "molla", bir qədər sonra, yəni Azərbaycanın rusiya tərəfindən işğalı başa çatdıqdan sonra eyni zümrədən olanlara "mirzə",-deyə müraciət edirdilər.

Salman Mümtazın məqalədə aradan qaldırmaq istədiyi problemlərdən biri də Vaqifin haradan olması məsələsidir. O, yazır: "Vaqifin anadan olan yeri haqqında da ixtilaf fikirlər vardır. Bəziləri Balakən, Həsənsu, Qarabağ, Qazax şəhər və kəndlərini Vaqifin anadan olan yer hesab edirlər. Amma ehtiyatkar mühərrirlər isə bu nöqtəni üstüörtülü buraxaraq, Qazax elindəndir, deyirlər" (4, 33). Tədqiqatçı bir daha vurğulayır ki, Molla Pənahın doğulduğu yer barədə indiyə qədər fikir bildirən araşdırıcılar, hətta Mirzə Yusif Nersesov belə doğru məlumat verə bilməmişlər.

“Onun doğma yurdu Qazax şəhərinin yanındakı Salahlı kəndidir”. Vaqif öz əsərlərində də bu barədə nişanə qoymuşdur.

Vətən xoşdur deyə, Vaqif, bizi çəkdin Səlahlıya,
Səlah bilməm nədir, yanında yari-canfəza yoxdur.

Salman Mümtazın təxminlərinə görə, M.P.Vaqif Nadir şah Əfşarın qətlindən 12 il sonra, yəni 1759-cu ildə Qarabağa gəlmişdir. Məlumdur ki, Nadir şah Əfşar 1747-ci ildə iyun ayında qətlə yetirilmişdir. O, eyni zamanda, bu tarixin İbrahim xan Cavanşirin taxta çıxdığı vaxtla üst-üstə düşdüyünü qeyd edir. Hazırkı mənbələrdə, xüsusilə internet resurslarında Vaqifin öz yurdunda 42 il yaşadığı bildirilir (7). Bu da təxminən 1759-cu ilə qədərki dövrü əhatə edir. İbrahim xan Cavanşirin taxta çıxdığı tarixi 1763-cü il hesab eləsək, burada bir qədər uyğunsuzluğun olduğunu görürük. Düşünürük ki, tarix üçün bir neçə ilin fərq verməsi təbii hadisədir.

Molla Pənah Vaqif Salahlı kəndindən köçərkən Şuşa şəhərinə deyil, indiki Füzuli rayonuna daxil olan Veysəlli kəndinə gəlmiş, burada doğma kəndlərində olduğu kimi məktəbdarlıqla məşğul olmuşdur. Vaqif burada bir müddət sıxıntılı güzəran keçirmişdir. Ola bilsin ki, şair burada bir neçə il yaşadıqdan sonra Şuşaya getmiş və bu, S.Mümtazın qeyd etdiyi, hadisəyə, İbrahim xan Cavanşirin taxta çıxdığı tarixə, 1763-cü ilə təsadüf etmişdir.

Vaqif Veysəllidə yaşadığı müddətdə keçirdiyi sıxıntıları bir şeirdə ümumiləşdirmişdir. Hansı ki, bu şeir həm də xalqımızın folklorundan, adət və ənənələrindən, xüsusilə novruz görüşlərindən xəbər verən zəngin bir bədii nümunədir.

Bayram oldu, heç bilmirəm, neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügiylə yağ ha tükənmiş lap çoxdan,
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm.dəxi qoymazlar kəndə.
Xalq batıb noğula.şəkərə, qəndə,
Bizim evdə axda zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahibcamalımız var.
Vaqif öyünmə ki, kəmalımız var,
Allaha şükür ki, kəmalımız da yoxdur (4, 37).

Salman Mümtazın araşdırmalarından görürük ki, Vaqif Şuşaya getdikdən sonra da məktəbdarlıqla məşğul olmuşdur. Ancaq Vaqifi Şuşaya gətirən səbəb nə idi? Bu sualın cavabı S.Mümtaz tərəfindən də araşdırılır. “Vaqifin əsl məram və məqsədi yeni cülus etmiş xan ilə sıx bir rabitəyə girişərək ona müqərrəb və vəzir olmaq imiş ki, nəhaət müvəffəq olmuşdur. Əvvəlcə sünni məzhəbində olan Vaqif

sonra, yəni Qarabağa gələrkən və yaxud gəlməmişdən bir qədər irəli məzhəbini dəyişərək səmimi bir surətdə şiəliyi qəbul etmişdir.” (4, 34).

Düşünürük ki, Vaqifin Şuşaya gəlməsi tarixi zərurətdən irəli gəlmişdir. Əgər Vaqif, doğrudan da, döğma kəndlərində olarkən şiyə məzhəbini qəbul etmişsə, çox güman ki, bu onun köçməsinə səbəb ola bilərdi. Salman Mümtaz özü də qeyd edir ki, “kim bilir, bəlkə də, zəmanəmizdə tam mənası ilə qiymət və əhəmiyyətini itirən bu fəqərə Vaqifi Qazax tərəfdən hicrət etməyə məcbur etmişlər”. Digər bir mənbədə verilən məlumata görə Vaqifin köç etməsinin səbəbi başqadır. “1759-cu ildə Gürcüstan sərhədində baş verən siyasi qarşılıqlıq nəticəsində bir çox kəndlər və ailələr Qazağı tərk edir. Vaqif də ailəsi ilə Qazaxdan köçür”(5, 358).

Bütün bunlara rəğmən Vaqif öz dünyağörüşündə və dini dəyərlərə olan münasibətdə səmimi idi. Biz onun Salman Mümtazın təqdim etdiyi şeirlərindən də görürük.

Ey xoş anlar kim, Məhəmməd Mustafanı sevdilər,
Oldular aşiq, Əliyyül-Murtəzanı sevdilər,
Sidqi ixlas ilə pənc alü abanı sevdilər,
Dəxi anlardan gözəl yaxşı cəmaət görmədim. (4, 35).

Vaqif sonradan bir çox insanlar kimi səmimi dostu Molla Vəli Vidadini də şiə məzhəbini qəbul etməyə çağırmışdır. Onun Vidadiyə ünvanladığı şeirlərdən birindən oxuyuruq:

Vəktkən dəli olma, gəl eşit məndən,
Gəzmə, yalvar-yapış onlara gendən.
Amma qorxun olsun Əbdülhəsəndən,
Səni əzim-əzim əzər, ağlarsan.

Qılk körpüdən çünki sürşər ayağın,
Cəhənnəm xovfindən yarılır yağın,
Qorxma, yenə Əli olur dayağın,
Əğər anıb həştü çahar ağlarsan. (4, 35).

Vaqif öz zamanının fövqəladə bilik və savadına malik olan şəxslərindən idi, onun hər zaman məktəbdarlıq fəaliyyəti məşğul olması və Şuşada da bu işi davam etdirməsi qənaətlərimizi bir daha təsdiq edir. Onun zəkalı bir insan olması və bu səbəbdən cəmiyyət arasında artan nüfuzu saray adamlarının nəzərindən də qaça bilməzdi. Çox keçmir ki, həm saray daxilində, həm də xalq arasında həlledici nüfuza sahib olur. Məhz bu cəhətinə görə “Ağa Məhəmməd şahın saray xadimi olan Abraham Beknazaryants Molla Pənahı Qarabağ türklərinin mənəvi rəhbəri adlandırırdı”(1, 36).

Vaqif Qarabağa- Şuşaya köçdükdən sonra da yaradıcılıqla məşğul olmuşdur. Onun əsərlərindən biri Qarabağ xanı İbrahim xan Cavanşirə ünvanlanmış və onu mədh etmişdir.

Qarabağ içrə bir şair kəlimüllah Musadır,
Cavanşir içrə bir mövzun bayati dəsti-beyzadır.
Qələm qədrin əsayi-əjdəhapeykərcəbilməkdə,
Bəni-israilə ali-Cavanşir yəni həmtadır.
Dili rövşən gərək nadan içində sərf edən ömrün,
Çırağın səltənətgahi səvadi-şəmi-yeltadır.
Ümidim vardır kim, bu qara gün getməyə başa,
Dönər bir özgə rəng ilə, bu axır çərxi-xəzradır.
Məkan tutdisə Vaqif, yox əcəb, bu Şişə daşında,
Məkani-ləli-gülrəngin miyani-səngi-xaradır. (4, 38).

Çox çəkmir ki, Qarabağ xanı, Vaqifin istedadına bələd olur. Onu saraya dəvət edir və burada mötəbər vəzifələr icra edir.

Salman Mümtaz sözügedən məqalədə Vaqifin sonrakı taleyi barədə də ətraflı məlumat verir. Ağa Məhəmməd şah Qacarın Şuşaya gəlməsi, sonradan Məhəmməd bəy Cavanşirin hakimiyyəti qəsb etməsi, Vaqifin oğlu Əli bəylə eyni gündə edam olması ilə bağlı məlumatlar müffəssəl şəkildə ifadəsini tapır.

Vaqifin ədəbi yaradıcılığı, xalq ruhunda yazdığı əsərlər haqqında məlumat və onların burada təqdimi ədəbiyyat tariximizə xüsusi xidmət hesab olunmalıdır.

Vaqif nikbin ruhlu insan olduğundan yaşadığı, sakin olduğu məntəqələrdə ərsəyə gətirdiyi nümunələr cazibədar və heyranedicidir. Salman Mümtazın qənaətinə görə, Vaqif hələ Veysəllidə yaşadığı müddətdə Mədinə adlı bir xanımı sevmiş və ona şeirlər həsr etmişdir. Məqalədə həmin şeirlərdən altısı təqdim edilmişdir. "Bir gözəl qamətli yari- lalərəngi sevmişəm" və "Gülsən, sənə yoxdur bu nəzakətdə qərinə" misraları ilə başlanan əsərlər müxəmməs, qalan dörd şeir isə qoşmalardan ibarətdir. "Molla Pənah Vaqif Vidadi, Hali, Aşıq Əli, Fəzli, Müştaq Rafe kimi müasirləri ilə dostluq etmişdir. Aşıq Əli Qaradağdan öz səkinə adlı məşuqəsi ilə Qarabağa əldikdə Vaqifə bi şeir yazır və gəldiyini bildirir. Vaqifin də ona yazdığı cavabında rəfiqəsinin Mədinə olduğunu qəti şəkildə müəyyən edirik:

Bu gövhər sözlərin, ey alicənab,
Tamam aşiqlərin səminə gəlmiş.
Fəsahətdə, bəlağətdə sənin tək,
İnanma ki ruyi-zəminə gəlmiş.

.. Aş.iq oldum bir qaməti rənayə,
Onu sevdim, canım düşdü bəlayə.
Vallah-billah, sən düşdüyün sövdayə,
Artıq mən fəqirin sərinə gəlmiş.

Əli çəkər gcə-gündüz ahü zar,
Kəsildi müdava, getdi ixtiyar,
Vaqif olsun bu mənadan xəbərdar,

Mədinə kuyinə Səkinə gəlmiş" (4, 49).

"Molla Pənah Vaqif" məqaləsində öz müasirləri olan şair dostlarına yazdığı şeirlər də yer almışlar. Şairin Molla Vəli Vidadinin "Durnalar " şeirinə yazdığı eyniadlı əsəri, Məmmədhüseyn xan Müştağa yazdığı "Tüfəng" və "Kürk" rədifli müxəmməsləri, müxtəlif zamanlarda yazdığı, o cümlədən "Düşər", "Etdi", "Bax" kimi qəzəlləri, "Hayıf ki yoxdur" qoşması və bu əsərin ərsəyə gəlməsi ilə bağlı əhvalatlar yer almışdır.

M.P.Vaqif yaradıcılığı XIX əsr Azərbaycan poeziyasının və ədəbiyyat tariximizin sonrakı inkişafı üçün mühüm bir mərhələni təşkil edir. Vaqif yaradıcılığının əsas cəhəti yazılı ədəbiyyatının xəlqiləşməsində xüsusi və həlledici paya malik olmasıdır.

Bu gün mübaliğəsiz ifadə etdiyimiz bu məqamları məhz Salman Mümtazın və onun kimi onlarla elm fədailərinin araşdırmaları, yorulmaz əməyi və qənaətləri sayəsində dilə gətirə bilirik.

M.P.Vaqifin həyatı və ədəbi irsi haqqında, onun ədəbiyyat tarixindəki mövqeyi barədə Salman Mümtazın elmi dövrüyyəyə təqdim etdiyi bilgilər sonrakı tədqiqatlar üçün əvəzsiz bir mənbə rolunu oynamışdır. Sevindirici haldır ki, Vaqif irsi ilə bağlı söz düşərkən ilk növbədə Salman Mümtaz xatırlanır. Görkəmli ədəbiyyatşünas alim Abid Tahirlinin "Vaqifin poetik "gözü"" məqaləsi bu baxımdan maraq doğurur. O, yazır: "Azərbaycan poeziyasının ideya-sənətkarlıq və janr-üslub cəhətdən yeni keyfiyyətlər qazanmasında müstəsna xidmətləri olan Molla Pənah Vaqifin mühiti, həyatı, yaradıcılığı haqqında Salman Mümtaz, Firudin bəy Köçərli, Həmid Araslı, Səməd Vurğun, Mirzə İbrahimov, Araz Dadaşzadə, İsa Həbibbəyli, Nizami Cəfərov.. ,Vaqif irsinə yeni gözlə baxan, fərqli yanaşan, şairin poeziyasına həm "iç"dən, həm də "zahirən" baxan Rüstəm Kamal kimi ədəbiyyat xiridarları .. bənzərsiz şairin ədəbiyyat tariximizdəki yerini, rolunu layiqincə dəyərləndirmişlər" (6, 12-13)

Göründüyü kimi, Salman Mümtaz onlarla ədəbi şəxsiyyətlərimizin, o cümlədən Molla Pənah Vaqifin həyatı və ədəbi irsinin Azərbaycan oxucusuna, eləcə də elmi ictimaiyyətə yeni və dolğun məzmunda təqdim olunmasında əvəzsiz xidmətlər göstərmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Dadaşzadə A. Певец жизни (Раздумъя о Вагифе). Баку изд-во АН Азербаджанской ССР, 1968, 44
2. Kadim Rufullayev. İn the literary meetings of Yunus Emre and Mullah Qasim ScientificSalman Mumtaz. TURAN-CSR: TURAN Center for Strategic Researches, TURAN-CSR International, İstanbul- 2022; Month: June; Volume: 14/SPRING, p. 43-49, 44
3. Salman Mümtaz.Azərbaycan ədəbiyyatının qaynaqları.Tərtib edən Rasim Tağıyev.Bakı, Avrasiya press,2006, 440

4. Salman Mümtaz. Azərbaycan ədəbiyyatı, say-2.Molla Pənah Vaqif, XII əsri-hicri, Bakı, "Kommunist" nəşriyyatı, 1925, səh.3
5. Səfərli Ə., Yusifov X. Qədim və orta əsr Az.ədəb.,Bakı, maarif, 1982,388
6. Tahirli Abid. İti gözlər, açar sözlər, dərin izlər. 525-ci qəzeti, 10 fevral, 2023, səh. 12-13
7. (https://az.wikipedia.org/wiki/Molla_P%C9%99nah_Vaqif

Доцент Гадим Игид оглы Руфуллаев

ВАГИФ И ЕГО ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ В ИССЛЕДОВАНИЯХ САЛМАНА МУМТАЗА
РЕЗЮМЕ

Ключевые слова: литературовед, Салман Мумтаз, исследование, творчество Вагифа.

Статья посвящена литературной деятельности Салмана Мумтаза.

Здесь отмечается, что азербайджанское литературоведение вступает в новый этап своего развития в начале XX века. Салман Мумтаз, один из тех, кто сделал реальные шаги в этой области, проделал важную работу в направлении сбора, исследования и публикации образцов классического литературного наследия и народного творчества. Его исследования о наших литературных деятелях как Низами Гянджеви, Имадедин Насими, Мухаммад Физули, Шах Исмаил Хатаи, Ашик Гурбани и др. богатый ресурс для дальнейших научных исследований. Одним из классиков, рассмотренных Салманом Мумтазом, является Молла Панах Вагиф. М.П.Вагиф является одним из гениев с исключительными заслугами в истории политической и художественной мысли Азербайджана. Работа, которую он проделал как государственный деятель XVIII века, и традиции, созданные им в художественной литературе, в совокупности воплощают уникальную, новаторскую личность Вагифа. Эта известная нам информация была собрана Салманом Мумтазом и опубликована в 1925 году под заголовком «Молла Панах Вагиф» в газете «Коммунист». В этом исследовании Салмана Мумтаза обсуждаются биография и политические и литературные произведения Вагифа. Отмечается, что творчество Вагифа отличается оптимизмом и характером, в котором отражено общественно-политическое положение Карабахского ханства в XVIII веке, быт и быт народа. Мы не ошибемся, если назовем этот период нашей литературы в целом эпохой Вагифа, так как он ярче выражает в своих произведениях противоречия, радости и горести его времени. Исследование Салмана Мумтаза о Вагифе имеет большое значение и считается богатым научным ресурсом для будущих исследований.

Associate Professor Gadim Igid oglu Rufullaev

VAGIF AND HIS LITERARY HERITAGE IN THE STUDIES OF SALMAN MUMTAZ
SUMMARY

Key words: literary critic, Salman Mumtaz, research, Vagif's creativity.

The article is devoted to the literary activity of Salman Mumtaz. It is noted that Azerbaijani literary criticism enters a new stage of its development at the beginning of the 20th century. Salman Mumtaz, one of those who have made real strides in this area, has done important work towards collecting, researching and publishing samples of classical literary heritage and folk art. His research on our literary figures like Nizami Ganjavi, Imadedin Nasimi, Muhammad Fizuli, Shah Ismail Khatai, Ashik Gurbani and others is a rich resource for further scientific research. One of the classics reviewed by Salman Mumtaz is Molla Panah Vagif. M.P. Vagif is one of the geniuses with exceptional merits in the history of the political and artistic thought of Azerbaijan. The work he did as an 18th-century statesman, and the traditions he created in fiction, together embody Vagif's unique, innovative personality. This information known to us was collected by Salman Mumtaz and published in 1925 under the heading "Molla Panah Vagif" in the newspaper "Communist". This study of Salman Mumtaz discusses Vagif's biography and political and literary writings. It is noted that Vagif's work is distinguished by optimism and character, which reflects the socio-political situation of the Karabakh Khanate in the 18th century, the way of life of the people. We will not be mistaken if we call this period of our literature as a whole the era of Vagif, since he more clearly expresses in his works the contradictions, joys and sorrows of his time.

Salman Mumtaz's research on Vagif is of great importance and is considered a rich scientific resource for future research.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Abid Tahirli tərəfindən çapa tövsiyə olunmuşdur

SULTANOV ƏLİCAN
Şirin İsmayılov adına 3 saylı tam orta məktəb Siyəzən şəhəri
Sultanovalican147@gmail.com

TEXNİKİ TƏFƏKKÜRÜN İCTİMAİ DƏYƏRI VƏ YA BƏDİİ-ESTETİK MƏİŞƏT HƏYATI

XÜLASƏ

İnsanın özünü və ətrafını çözməsi, eyni zamanda, bu funksiyanın hər hansı faktoru ən obyektiv çalarda yanaşdığımız halda, məhz bədii yanaşma mədəniyyətinin özüdür. Çünki istənilən məntiqi-riyazi və ya texniki təzahür ən azı özünüifadə baxımdan dilçiliyə məlum bütün üslubların qaynaqlandığı məişət təfəkküründün elementləri timsalında şəkillənir, həmçinin ictimai məzmun, zərurət daşıyıcısına çevrilir.

Poetik-bədii dil xarakteri isə hər hansı nəzəri-innovativ şərtin məişət həyatına inteqrasiyasından sonrakı nəticəni doğuran daha estetik idrak hadisəsidir. Başqa sözlə, dil yaranır, hər hansı ictimai fəaliyyət zəminində yeni fakta çevrilir və mövcud xarakterini sözügedən fakta-mütərəqqi hadisəyə tətbiqlə tam poetik-nəfis çalara oturur. Nəticədə bir cəmiyyəti cəmiyyət kimi təqdim edən ən zəruri mahiyyət və məzmunun potensial siması, təmsilçisi rolunda çıxış edir.

XIX əsr dünya fəlsəfə tarixində əvəzsiz rolu olan Fridrix Nitsşe bu qənaətdədir ki, güclülər zəiflərə gücünü göstərməkdən utanar; beləcə zəiflər güclülərə qalib gələr. Əlbəttə ki, burada "güc" anlayışını mənəviyyat, təfəkkür, əxlaq (bir sözlə, ədəbiyyat) timsalında dəyərləndirə bilərik. Lakin elə bu mənada da utanclığa söz vermək özü ən bariz güc nümunəsi və insanlıq dərsidir. Başqa sözlə, mənəviyyat (istənilən elementindən istifadə fonunda) dəyərinin üstünə dəyər gətirə bilən mövcudluğu ilə mənəviyyat kimi tanınır (Əgər biz bu mənəviyyatı məişət ehtiyacımız fonunda yaşaya bilsək).

Açar sözlər: məişət estetikası, təbii zövq, nəfislik, etik xarakter, sivil cəmiyyət, situativ təsir.

Bəli, bədii dil istənilən mütərəqqi hadisəni, hətta riyazi gerçəklikyin özünü belə riyazi gerçəklikdən daha dəqiq səviyyədə təmsil etmək iqtidarına malikdir.Məs., riyaziyyat hər hansı müxtəlifyönlü çoxluğu ayrı-ayrı detallardan ibarət sonsuzluğa yönəlik mənfi və ya müsbət hadisə kimi də qiymətləndirə bilir. Əslində isə, mövcudluq istənilən elementinə rəğmən istər mənəvi, istərsə də fiziki halı(eləcə də qazanılmış neqativ və müsbət kəsbi) ilə vahid orqanizmşəkilli reallığın təmsilçisi kimi yalnız vahiddaxili-rasional hadisədir; yəni müsbət və ya mənfi sonsuzda sonsuzluğun tərkibi şərtidir. Başqa sözlə, mövcudiyyət ayrı-ayrı hadisələri fərqli vahidlər çoxluğunun timsalında deyil, vahiddaxili müxtəlifliyin səciyyəsi qismində mənalandırmaqdan ibarətdir. Və nəticə etibarilə, natural çoxluğu boş çoxluq mislində

fərqləndirən mülahizə riyazi mütləqliklə müqayisədə daha həssas, daha humanist-bir sözlə, tam poetik yanaşmanın səciyyəsidir. Aşağıdakı riyazi ifadəyə baxaq: 8-((x-2x4)x3)+2=4. Verilmiş ifadə qəbul olunmuş-ənənəvi tələbinə görə, məchulun müəyyənləşməsindən bəhs edir (məhz məntiqi-riyazi münasibətin gözləntisi kimi).Əslində isə tələbin "Ədədi riyazi ifadəni verbal riyazi ifadəyə çevir " və ya əks xarakterli ("Verbal riyazı ifadəni ədədi riyazi ifadəyə çevir") tərzdə qəbullanması istər riyazi, istərsə də humanitar düşüncənin formalaşması baxımdan daha təqdirəlayiq məzmun kəsb edir (Qeyd edək ki, şərt və ya tələb baxımdan, Verbal riyazi ifadə bu şəkildə idi: 2və 4-ün hasilini hər hansı ədəddən çıxıb alınan fərqin üçqatını növbəti halda, 8-dən çıxmaqla nəticəyə 2 əlavə etsən, cavab 4 olar) Çünki sözügedən-şərtləndirilən məzmunda keçdiyi yolun fərqinə varmayan lazımsız nəticənin təyinatına xidmətdən deyil, uğurlu prosesdən söhbət gedir. Nəhayətdə, istiqamət alan tərəf (məs., şagird) doğru yaşam tərzinə yoluxmağın özünü ən ümdə nailiyyət səciyyəsi kimi qiymətləndirir(2,səh.155) və mənzil başına yetməyi isə real şəraitdən asılı , 2-ci dərəcəli məqam kimi anlaya bilir. Təbii ki, "Hər bir nəticənin gözəlliyi bizi ona çatdıran yolun kübarlığı qədərdir" devizinə yoluxmaqla.(Sözsüz ki, bəhs edilən yanaşma bədii-mənəvi münasibətin timsalıdır(1,səh.247)).

Əlbəttə ki, sözügedən qənaət (öz bədii çaları ilə) eqodan xaric, ən kübar məqsədin əhəmiyyətini yalnız mövcud məqama vicdanla xidmətdə görür. O xidmət ki özlüyündə keçmişə hörmət və gələcəyə dəyər anlayışını bir məslək timsalı kimi yaşamaq əzmindədir. Hesab etmək olar ki, mənafeyönlü maraqlarla nəfəs alan cəmiyyətin (yəni əksərən bu günümüzün) həyat sferasında məhz şüursuz canlılar yaşaya bilirlər. Çünki onlar insan doğulub insan olmamaq kimi bir faciənin nə demək olduğundan xəbərsizdirlər. Və aidiyyətli dünyada məhz cansız aləm xoşbəxtliyi qeyri-ixtiyari olaraq yaşamaqdadir; çünki sözügedən mövcudluqda nəinki mənəvi , heç fiziki ağrının belə hər hansı təsirini duymaq potensialı yoxdur.

Bəhs etdiyimiz təbii yanaşma öz yerində, məlum fiziki (həm də elementar) qanunauyğunluğa görə, təsir əks təsirə bərabərdir. Deməli, biz özümüzü vahid orqanik kontekstdə-cümləmiz kimi əks etdirməyi bacarmalıyıq ki, üzümüz nəzərimizdə özgə, yad ünsür kimi əks olunmasın.Və ya əks etdirdiyimiz təsir əksimizə işləməsin. Hə, bir də təsirsizliyə xidmət edən bir anlayış da var(Əsl adı "laqeydlik" kimi də xarakterizə oluna bilər): bəşəriyyət mənafeyönlü yaşayışın təsiri ilə ona meyil etdikcə içimizdə başını itirmişlərin sayı artır. Başını itirənsə, təbii ki, ayağını qoyacaq yeri bilmir; qeyri-ixtiyari olaraq, ölünün də haqqına girir, dirinin də.

Sözügedən mövzu "kimyəvi reaksiyalar" mövzusunda da özünü doğruldur.Fikirimcə, reaksiya anlayışı daha çox bəşəri əhəmiyyət ilə şərtləndirilib, məhz qeyri-kimyəvi (ictimai-mədəni, idraki) faktor kimi dəyərləndirilməlidir. Madam ki bizim aid olduğumuz halda, vermədiyimiz və ya almadığımız reaksiyalar, o cümlədən aidiyyətsiz məcrada alıb-verdiyimiz qarşılıq elementəri bəzən bəsit həddi ilə orqanizmimizdə maddiləşib həyat üçün yetərincə təhükəli göstərici fonunda da

çıxış edə bilir. Bununla belə, aidiyyətli təsir və yanaşmaların müsbət xarakteri mövcud çarəsizliyin özünü bir çarə halına salmaqdan da yan keçmir.

Görünür, ədəbiyyat heç biologiya ilə də yola getmir (Yəni canlı aləmə belə sığa bilmir). Çünki mikroskopik ölçülü materiyanın estetik səciyyəsi kainatı fəth etmək niyyəti ilə bir gözqırpımının sürətini belə qabaqlaya bilər Məncə, sözügedən fəthin səciyyə timsalını sonsuzluğa kökləməklə qismən poetik nişanəyə çevirmək olar(1,səh.249)

Ədəbiyyat nəğmədirmi? Xeyr, bəs onda quru çöllərdəki bataqlıq gölməçəsinin axarsızlığından yağan pıçıltı nədir?! Ədəbiyyatı təsvirçiliklə də (5,səh.246) müqayisə edə bilmirəm. Çünki o, təsvirçiliklə məhdudlaşsa idi, gözümdə nəyisə şəkilləndirə bilməyən gecənin qaranlığına rəng deyə bilməzdim.

Deməli, ədəbiyyat insanlığın qeyri-məhdud, mənəvi coğrafiyasıdır, odur ki hüdudları özünü fəth etməklə ömrün hər saniyəsini bir doğuluşa çevirməkdən başlayır; davamı isə ölümsüzlüyü (insani yaşantının timsalı kimi) özündən sonrakılara miras qoymağa qədər uzanır.

Xəyallar aləmi ulduzları ovucumuza endirməsəydi, astronomiyanı elm kimi təsəvvür etmək olardı. Belə də heç cür... Bir Günəşi var, o da içimdədir; ürəyimin oduna elə alışıb ki , yuxuda belə gözümü qamaşdırmaq yadına düşmür.

Poetik gerçəkliyi(1,səh.248) hər hansı idman sahəsi ilə də müqayisə və ya əlaqələndirmək olmur. Çünki istənilən peşəkar idmançı uğuru yüngül hərəkətlənmədən start götürür.Məs., elə qaçmaqdan. Lakin ədəbiyyatın fikrinə görə, hansısa nöqtədən qaçmaq həmin nöqtəyə yaxınlaşmaqdan başqa bir şey deyil. Başqa sözlə, dünyanın harasına sapınsan, bir nöqtədə qalırsan. "Sərhəddim qədərsiz insanlıqdırsa, Vətənim sonsuzluq- kainatdır" nöqtəsində. Və bu nöqtənin özü də sonsuz nöqtələr çoxluğuna-bir kainata bərabərdir. Əlbəttə ki, sözügedən ünvanda fiziksəl olaraq nöqtədən-nöqtəyə məkan dəyişimi yox, mənəviyyat hadisəsi kimi, həm də durduğun nöqtədən özünü və ətrafını mənəvi mövqeyinə görə, görmək və dəyərləndirmək ləyaqəti var. Deməli, bir idmançı üçün qaçmaq hər hansı fiziki uğur yönündə müsbət irəliləyişdirsə; ədəbi mühit anlamında ya hərəkətsizlikdir, ya da bundan daha darıxdırıcı bir şey.

Yeri gəlmişkən, mövcud situasiyanın dahi alman filosofu Albert Enşteynin "Nisbilik nəzəriyyəsi" ilə də əlaqəsi var; çünki bir şəraitdə vaxtın dayanıqlığı, digər şəraitdə kosmik tələskənliyi söz sahibidir.

Zənnimcə, ədəbiyyat tarixin tarixi gerçəklikdən də artıq özünü doğrulda bilən səciyyəsidir. Hər halda tarix əhəmiyyətli hadisələr fonunda cəmiyyətin inkişafından bəhs edir və bu hadisələr xüsusən mütərəqqi kəşflər timsalında hər hansı cəmiyyəti (eləcə də bəşəriyyəti) formalaşdırır(3,səh.9). Əlbəttə ki, sözü gedən kəşflərin məişət həyatına sirayəti fonunda hər hansı sivilzasiya mərhələsi reallaşır: beləcə ierarxik ardıcıllıqla müəyyən elmi ixtiranın məişətimizdəki rolu bədii-estetik mədəniyyətin potensialını ifadə edir. Məs., kompüter və ya hər hansı texniki proqramın gerçəkliyə çevrilməsi elmi nailiyyətdir, lakin vacib olan həmin nəticənin gündəlik həyatımızın

estetik tərəqqi tapmasında nə dərəcədə əhəmiyyət kəsb etməsidir. Yəni əldə etdiyimiz innovativ hadisəyə cəmiyyət halında verdiyimiz dəyər və ya ondan istifadə mədəniyyətimiz, əsasən, bədii-estetik (qeyri-texniki)təfəkkürün əlaməti kimi sonrakı hadisələrin mənfi və ya müsbət məcraya yönəlikliyini şərtləndirir.Tarixlə paralel (yəni onu önəmsəməyim öz yerində), mən özümü də ədəbiyyat kimi hiss edirəm və ətrafda ədəbiyyata aid nə görürəmsə, ya diqqətimi cəlb etmir; ya da mənə olduqca darıxdırıcı təsir bağışlayır. Çünki məndən kənarda nöqtəsinə qədər ikinci mənin mövcudluğu mənim reallığımı mənə belə hiss etdirmək iqtidarına sahib çıxmır. Əlbəttə ki , mənim bu yanaşmam, əsasən, XX əsr dünya ədəbiyyatının ən parlaq simalarından biri olan Franz Kafkanın fikri ilə təzad təşkil edir. ("Ədəbiyyata aid olmayan hər şey məni iyrəndirir") Lakin nəzərə almaq olar ki, mən bu qənaətə orta-statistik bədii zövqü olan bir insan kimi gəlmişəm.

Ümumən qənaətə gəlmək olar ki, bütün dəqiq elmlər dəqiq elm kimi tanınmasına görə məhz bədii-estetik-mənəvi təfəkkürə borcludur(5,səh.250). Çünki istənilən elmi-texniki məhsulun ərsəyə gəlməsi ictimai faydalı -estetiktutumlu istəkdən qaynaqlanaraq dəyər daşıyıcısına-əsl həqiqətə çevrilə bilir və öz coğrafiyasını insanlığa gerçək xidməti fonunda genişləndirə bilir (Əks təqdirdə, qeyri-bədii nüfuz sahibi kimi mövqesizliyə sürüklənir). Bu o deməkdir ki, maddi-texniki(qeyri-bədii) təfəkkür fakt, əsl mədəniyyət isə həmin faktın qeyri-neqativ çalarlı, məhz müsbət təzahürüdür.

Və mənəvi (bədii-estetik, yəni qeyri-subyektivyönlü-ictimai faydalı) idraka, düşüncəyə məişət həyatını belə şərtləndirən təbii proses kimi baxmaq daha münasib yanaşmadır. Yəni zəruri, obyektiv (bu mənada bədii-incəçalarlı) həyat tərzi özü ən lətif poetik nümunə kimi, istənilən innovativ (texniki) hadisəni gündəlik yaşam tərzi fonunda təmsil etmək imkanına malikdir.

Deməli, poetik, bədiixislətli nümunə bir parça kağız üzərində yox, gündəlik yaşam tərzində gerçəkləşən dəyərdir(5,səh.252). Əslində, incəsənətin digər növləri də (qeyri-adi və.s imkanı, təsvirçilik potensialı və s. şərtləri ilə) məhz bu dəyərin daşıyıcısı kimi mövcuddur.

Dinşunaslığın özündə də müasir demokratik (bəşəri humanizmə malik, həqiqi insanpərvər) yanaşmalar mövcuddur. (xüsusən mövhumatdan uzaq əsl islami səciyyəsində(4,səh.68)). Lakin ayrı-ayrı şəxslərdə formalaşmış bədii-nəfisxislətli zövq və xarakterin qədərində, yəni ədəbiyyatın gücü çatdığı qədər. Məs., poetik düşüncəsi yerində olmayan adam insanlığa xidməti yalnız axirətin verəcəyi mükafat fonunda qiymətləndirə bilər(ən yaxşı halda).

Kübarbiçimli təfəkkür adamına gəldikdə isə, məncə, o düşünər ki, insanlığa xidmətin özündə cənnət həzzini duymaq daha ciddi mükafatdır və bu mükafatın qazanılmasında insanın özünün mümkün rolu olmalıdır.

Bədii düşüncə həm də layiqli mübarizə şəraitinə rəğmən, birbaşa ədalətə xatir kompramisə getmək, mütəffiqlik-mənəvi dostluq timsalıdır. Ayrı-ayrı tarixi-ictimai faydalı fikirlərə münasibət bildirmək də bu mənada əhəmiyyətsizliyi şərtləndirmir.

Dünya ədəbiyyatı tarixində dedektiv janrın əsas rəmsilçisi olan F.Dostoyevskiyə görə, sonda hamımız edib-etmədiyimiz, görüb-görmədiyimiz işlərin fonunda peşman olacağıq. Məncə, məşhur rus yazıçısının qənaəti qeyri-nikbindir. Çünki edib-etmədiklərimizə görə məmnun qalmaq şansımızda var. Sadəcə, "Təfəkkür və iradəmiz buna nə qədər imkan verib?" sualı nəzərə alınmaqla (Həmçinin real şəraitin imkanları fonunda "Sözügedən imkanı əldə etməyə nə qədər cəhd edib, əlimizdə olan reallıqları nə qədər dəyərləndirmişik?" sorğuları da diqqətdən qaçırılmamalıdır).

Adından bəhs etdiyimiz XX əsrin universal dühası A. Enşteynin fikrincə, həyat da velosiped sürmək kimidir, yəni müvazinəti qoruyub-saxlamağı tələb edir. Lakin həyatda müvazinətsizliyi seçməklə də müvazinəti qoruyub-saxlamaq olar. Yəni elə məqamlar var ki, sən onunla bərabər nəinki müvazinəti qorumağı, hətta ayaqüstə qalmağı seçməklə ətrafına zərər verənlərin sırasında olursan. Odur ki yıxılmağın fərdi mənada səni aşağılasa belə (daha doğrusu, ictimai məzmunlu seçim variantın səni cəmiyyətin nəzərindən salmış olsa da), mənəvi rahatlığın naminə məhz müvazinətsizliyi(yıxılmağı) seçirsən.

Klassik yunan fəlsəfəsinin(3,səh.38) məşhur hadisəsi olan Sokrata görə, nə qədər az şey istəyiriksə, o qədər tanrıya yaxın oluruq. Zənnimcə, Allaha yaxınlıq fərdi mənafedən kənar istəklərin qədərsizliyindən doğur. Və bu mənada keyfiyyəti ifadə edən kəmiyyət sonsuzluğu da elə keyfiyyət sonsuzluğudur.

Digər məşhur rus yazıçısı Lev Tolstoya qaldıqda, insanı olduğu deyil, diqqət göstərdiyi mövqeyə görə qiymətləndirmək olar. Məncə, insanın maraqlandığı mövqe onu olmaq istədiyi deyil, nifrət etdiyi mövqe də ola bilər. Və göstərilən diqqət qarşı tərəflə düzgün mübarizə üsullarını seçmək niyyətindən də qaynaqlanmış olur. Deməli, diqqətin mövqeyi nəzərə alınmalıdır ki, biz insanın olmaq istədiyi mövqeyə rəğmən ədalətli dəyərləndirilməsini apara bilək.

Məhşur fransız yazıçısı V. Hüqoya istinad etsək, "Kor qədər işığı sevən yoxdur" deməliyik.

Fikrimcə, işıq anlayışı fiziki (orqanik) hadisə kimi, götürülə-dəyərləndirilə bilməz. İşıq mənəvi gerçəklikdə hər bir insanın estetik təfəkkürünə rəğmən müxtəlif-ölçülü qədər məzmunu daşıyır . Bu mənada kor işığı sevən yox, qaranlıqdan doymayan tərəfdir.

Zənnimcə, ədəbiyyat nə istisna oxucuların qənaəti, nə böyük tənqidçilərin münasibəti, nə də böyük yazıçıların qələmə aldıqlarıdır. Əsl ədəbiyyat (əslində, bir cəmiyyətə məxsus bədii-estetik məişət həyatının özü) ən bəsit oxucunun, ən lüzumsuz tənqidçinin baxış bucağı ilə ən mükəmməl bədii reallığa verilən dəyər aspektidir. Çünki mükəmməl bədiilik öz mühitinin sərhədlərini aşmaq həddində olmur: nə vaxtsa yenidən və fərqli (yetərincə qüsursuz) şəkildə doğulma ehtimalı isə mövcud olduğu şəraitin hadisəsi kimi qiymətləndirilə bilməz.

Ümumiyyətlə, söz öz azadlığından doğur. Yəni istənilən cəmiyyət və fərdin (eləcə də bəşəriyyətin) müstəqiliyinin (azadlığının) sərhədləri onun əxlaqının hüdudları qədərdir. Yaşadıqca materiyanın müxtəlif detalları ilə (məs., elə tuncla

tanışlıq, həmçinin onun adekvat tərkibindən doğan məşğuliyyət imkanları və s.) tanış olan bəşəriyyət "mən" mədəniyyətinə, şüur-düşüncə etimadına sahibləndi. Lakin sözügedən mədəniyyətdən istifadə mexanizminin səriştəsizliyi (qabalığı) insanı qeyri-insani (ulu icma və qəbilə-timsallı) yaşantıdan daha dəyərsiz-quldar münasibətlər kontekstinə sürüklədi. Zaman-zaman insan etibarlı sərvət mənbəyi kimi özünün (əslində, mənəvi təfəkkürünün) əvəzolunmazlığını dərk etsə də, subyektivçalarlı, mənafeyönlü "müasir" həyat tərzi ilə hələ də quldar (feodal mütləqliyə sahib) şüursuzluğun diqtəsi altında sürünməkdədir. Burada da artıq bəhs etdiyimiz Franz Kafkanın digər bir fikrinə ("Mənim tənhalığım insanlarla doludur") əks mülahizə yaranır: insanlıqdan soyumuş cəmiyyət insanların çoxluğunu deyil, tənhalığın bolluğunu şərtləndirir.

Çoxluq demişkən, XII əsr Şərq dünyasının bədii söz incisi Nizami Gəncəviyə görə, su da artıq içiləndə dərd verir. Fikrimcə, həmçinin nəzərə almaq olar ki, gözəlliyə (müsbətxislətli fakta) sərhəd qoymamaq həm də zərərli olanı hiss etmək, artıqlıqdan qaçmaq məramını ifadə edir.

F.Dostoyevskinin digər fikrincə, sevdiyini əldə edə bilməyən əldə etdiyini sevə bilər. Yəqin ki, biz əlimizdə olanı sevməklə istədiyimiz hər şeyi əldə etmiş oluruq. Çünki insanlığın yeganə və daimi ehtiyacı sevgi və nəzakəti fonunda ətrafına hədiyyə olmaqdır.

Lev Tolstoy isə digər fikrində "Biz canavarların doyması ilə bərabər, qoyunların sağ qalmasını da istəyirik" şərti var. Ola bilsin ki, bu istəklərin hər ikisini reallaşdırmaq mümkün olur: canavarın yırtıcılığı, qoyunun isə acizliyinə yaxın düşməməyin özü ilə.

Nadir dünya dühası kimi tanınan F.Nitsşenin digər fikrinə görə, elə xəstəliklər var ki, onları müalicə etmək can yiyəsinin daha böyük faciəsinə-ölümünə səbəb ola bilər. Zənnimcə, istər bir toz dənəsi qədərində, istərsə də bir toz dənəsi qalmayana qədər çirkabı təmizləmək çirkabsızlığa xidmətdir. Yəni işiq sevgisi nə vaxtsa doğacaq Günəşin ümidi ilə yox, mövcud qaranlıqla barışmaq niyyətinə rəğmən ölmür. Və əlbəttə ki, daşı göyərdən, birinci növbədə, suyun həlimliyi, yəni təbiətidir; onun davamlı olaraq, daşı döyəcləməsi isə ikinci dərəcəli haldır.

E.ə.VI-V əsrlərdən yaşayıb-yaratmış çin mütəfəkkiri Konfutsi "Günəşin batdığı yerdə kiçik adamların kölgəsi belə böyük görünür" deyirdi. Düşünmək olar ki, Günəş (yəni həqiqət, insani dəyərlər anlamı, obyektivlik) heç vaxt batmır. Sadəcə, bizim görmə dərəcəmiz məhdud olduğu üçün qarşılaşdığı maneədən süzüb keçə bilmir. Başqa sözlə, ləyaqət öz bəşəri təmənnasızlığı ilə heç bir qarşılıq tanımır və bu mənəvi qürurun qarşısına çıxan hər bir əks mövqe (mənəvi baxışı yerində olan istənilən tərəf üçün)yalnız qürursuzluğun sadiq təmsilçisi kimi anlaşıla bilər. Digər müzakirə predmetli hikmət nümunələrimiz:

Üzümüz ya özümüzün, ya da keçmişimizin iç simasıdır; sadəcə, gözümüz bu gerçəkliyi görmək iqtidarında olmaya bilər.

Görmək ona görə dəyərlidir ki, işığın özündən də çox qaranlığa saldığı aydınlığı sevir.

İstənilən fərd və ya cəmiyyət ətrafı üçün xərcləndiyi qədər özünü qazanır. Və həmin qazanc müqabilində öz mövcudluğunu şərtləndirir; əlbəttə ki, bu şərtlənmə qədər öz ölməzliyinə vəsilə olub, qürurunu ayaqda saxlayır.

Bizi darıxdıran nə varsa, əslində, biz tərəfdən dəyər verilmədikcə bizi dəyərsizləşdirən faktlardır. Çünki həyatda əhəmiyyətsiz olanlar yox, əhəmiyyətinə görə qiymətləndirilməyənlər mövcud ola bilər.

Su xislətcə həlim olduğu üçün sərt və artıq təsiri ilə belə kobud və ya lazımsız iz buraxmaz. Məsələn: biz onun yaratdığı selə dağıntı deyə bilərik, gətirdiyi münbit qatın vermiş olacağı nəticəyə göz yummaqla. Çünki elə bərpaolunan dağıntılar var ki, onlar daimi yaşantını ayaqüstə saxlamaq məramından doğub.

Biz növbəti anı planlayanda bu anın haqqına girmiş oluruq. Çünki istənilən anın insan idrakının potensial imkanlarından daha artıq dəyər layiqliyi var.

Altından su daman qabın ağzının altından fərqləndirməzlər.

Sözsüz ki, öz təbii gerçəkliyi ilə Günəşin artan hərarətindən doğur yağışın arzusunda olduğumuz gətirəcəyi sərinlik. Biz isə hələ də bunu bilib-bilməyənlərimizlə bərabər, Günəşin bu əsasla artan hərarətinə ağız büzməkdə davam etməkdəyik.

Gecənin gecəliyinə yansaq, səhəri arzulamağa ehtiyac qalmaz.

Su kimi təmiz axmırıqsa, haradasa bir bulanıqlıq yaradırıq.

Kainat-mövcudiyyət məhz vəhdətin bütövlüyüdür, yəni tək halda olmadığı üçün irəli dartınan geri düşür, irəli çəkən isə önə çıxır.

Uşaq olanda elə bilirik ki, böyüklük böyüməkdədir. Böyüyüb görürük ki, qismətimizə düşən böyüklüyümüzü uşaqlığımızda qoymuşuq.

Allah cənnəti bizə etdiyimiz yaxşı əməllərdən həzz almaq hissini bəxş etməklə də verə bilərdi. Əgər belə olsaydı, insan da Allah qədər müqəddəs olardı və yəqin ki, onda Allah da Allah kimi xatırlanmazdı.

Bəşəriyyət mükəmməl (ideal) təfəkkür sahibi olmadığı üçün nəyi yaradırsa, mütləq ki bir ziyanlı tərəfi olur. Bu da təbiidir ki, zaman-zaman bu neqativləri xeyirli tərəf kimi anlamaqda davam edir.

İnsanın etdiklərinə görə nə qədər məsuliyyət daşıdığını deyə bilmərik; yəni bunlar qeyri-ixtiyari və ya məcburi seçim qarşısında qalmaqla da həyata keçə bilər. Lakin edə biləcəklərimiz olub, reallaşdırılmayanlar mütləq ki bir vicdan borcu, vicdan cavabdehliyidir.

Kütləvilik bioloji yaşayış təzahürüdür, istisnalıq isə mənəvi ölümsüzlük.

Hər şey (və ya hər kəs) ətrafı üçün nə qədər faydalıdırsa, o qədər həqiqidir; nə qədər xeyirsizdirsə (təbii ki, ətrafı üçün), o qədər yalandır.

Utandırmaq xətrinə bağışlamaq ən bağışlanmaz günahdır, çünki öldürücü təsiri daha böyükdür. Əsl bağışlamaqsa, elə bağışlamaq (yenə də etdiyin yaxşılıqdan məmnun olmaq) naminə bağışlamaqdır.

Yaxşı adam yaxşılıq edən adam deyil, kiminsə ona yaşatdığı pisliyi dəyərləndirməyən adamdır. Çünki pisliyi dəyərləndirməkdə ya dəyəri pislik səviyyəsinə endirmək var, ya da pisliyi dəyər səviyyəsinə qaldırmaq.

İnsan dünyaya gəldiyinə və ya gətirdiklərinə görə deyil; məhz ixtiyari olaraq, içindən və ya həyata keçirdiklərinə rəğmən mövcud və ya qeyri-mövcud halda ola bilər.

Ədəbiyyat:

1. Şəmil Sadiq. "Ədəbiyyat". Bakı, "Çaşıoğlu", 2009
2. Metodika və Pedaqogika. Kurikulum. Bakı, "Təhsil Nəşriyyat -Poliqrafiya", 2022
3. Anar İsayev. "Ümumi tarix". Bakı, "Şərq-Qərb", 2020
4. Anar İsayev. "Azərbaycan tarixi". Bakı, "Şərq-Qərb", 2020.
5. Elnur Manafov. "Azərbaycan dili". Bakı, "Güvən" ("Letterpress"), 2021.

Султанов Алиджан

ОБЩЕСТВЕННОЕ ЗНАЧЕНИЕ ТЕХНИЧЕСКОГО МЫШЛЕНИЯ ИЛИ ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКАЯ БЫТОВАЯ ЖИЗНЬ

Резюме

Распознание человеком себя и окружение, одновременно в случае подхода в самых объективных оттенках какого-либо фактора данной функции, является именно самой культурой художественного подхода. Так как логико-математическое или техническое проявление, в плане самовыражения, формируется по образу элементов бытового мышления, из которого происходят все известные лингвистике стили, а также становятся носителем общественного содержания и необходимости.

А характер поэтико-художественного языка, еще одно познавательное событие, являющееся результатом интеграции любого теоретико-инновационного условия в бытовую жизнь. Другими словами, язык зарождается, становится новым фактом на основе какой-либо общественной деятельности и, применяя своей существующий характер к данному факту-прогрессивному событию, полностью приобретает поэтически-изысканный оттенок. В результате он выступает как потенциальное лицо и представитель самой необходимой сущности и содержания, которое представляет общество как общество.

Фридрих Ницше, сыгравший незаменимую роль в истории мировой философии XIX века, приходит к выводу, что сильные стыдятся показывать свою силу слабым; так слабые побеждают сильных. Конечно, здесь мы можем оценить понятие «сила» в виде духовности, мышления, нравственности (одним

словом, литературы). Но и в этом смысле застенчивость - самый очевидный пример силы и урок человечности. Другими словами, духовность (на фоне использования каких-либо ее элементов) известна как духовность с ее существованием, которое может принести ценность сверх ее ценности (Если мы сможем прожить эту духовность на фоне наших бытовых потребностей).

Ключевые слова: бытовая эстетика, естественный вкус, изысканность, этический характер, цивилизованное общество, ситуативное влияние.

Sultanov Alijan

THE SOCIAL VALUE OF TECHNICAL THINKING OR ARTISTIC AESTHETIC WAY OF LIFE

Summary

The man's sollution of himself and the surrounding, at the same time any factor of this function are the the culture of artistic thinking itself in case we approach from the most objective point of view. Because any logico-mathematical or technical manifestation is formed in the example of the household thinking which all the styles related to the linguistics sourced from and becomes the carrier of the social content and necessity too at least from the point of self explanation.

However poetic artistic language character is more aesthetical perception fact that creates the result after theoretical innovative term's integration to the household life. In other word the language is formed, it becomes a new fact in the basis of any social activity and fits to a complete poetic fine tone by the application of its existing character to abovementioned fact-the progressive event. In conclusion it performs the role of potential image, representative of the most necessary importance and content which introduce a society as a society.

Friedrich Nietsche who has the unreplaceable place in the history of XIX century philosophy, thinks that the strong are shy to show their strength to the weak; so the weak win over the strong. Of course we can appreciate the concept "strength" in the example of the morality, thinking and ethics (in a word literature). Nevertheless in this sense undertaking the shyness is the most obvious example of the strength and the lesson of the humanity. In other word, the morality (in the basis of using its any element) is known as a morality with its existence which can bring value over its value. (if we can live morality in the basis of our household need)

Key words: household aesthetic, natural taste, elegance, ethical character, civil society, situational impact.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: professor Nadir Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR HÜSEYNOVA
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
aynur-huseynova-1977@mail.ru

SMOMPK TOPLUSUNUN AZƏRBAYCAN FOLKLORU TOPLAYICILARI: A.KALAŞEV

50 il müddətində dərc olunan, Azərbaycanın ədəbi-mədəni həyatında mühüm yeri olan SMOMPK məcmuəsi Azərbaycan folklorunun toplanması, tərcüməsi, nəşri tarixində mühüm işlərə vəsilə oldu. Məcmuənin Azərbaycan folkorunu toplayan azərbaycanlı ziyalıları – Mahmud bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Həsən bəy Bağırov və s. ilə yanaşı rus ziyalılarının – L.Q.Lopatinski, N.Kalaşev, P.Zelinski, P.Vostrikov, B.Veniaminov, A.Zaxarov, V.Yemelyanov və digərlərinin bu işdə böyük və əvəzsiz xidmətləri olub.

Azərbaycan folklor nümunələrini toplayıb SMOMPK məcmuəsində dərc etdirən rus ziyalılarından biri də Göyçay ikisinifli kənd məktəbinin müəllimi Aleksandr Kalaşev olmuşdur. A.Kalaşevin topladığı nümunələri folklorun demək olar ki, bütün janrlarına aid etmək olar. Toplayıcı A.Kalaşev bir çox mənbələrdə SMOMPK məcmuəsində dərc olunan erməni folklor nümunələrinin toplayıcısı kimi xatırlansa da, bu yazımızda onun topladığı Azərbaycan folklor nümunlərindən bəhs edəcəyik.

SMOMPK toplusunun 1889-cu il, VII buraxılışında A.Kalaşevin toplayıb "Tatar nağılları" başlığı ilə dərc etdirdiyi 5 nağıl yer alır.

Azərbaycan nağıllarının yaranma tarixi çox qədimlərə aid edilsə də, mətbu orqanlarda nəşr olunması XIX əsrin sonlarına təsadüf edilir. SMOMPK məcmuəsinin müxtəlif illərində dərc olunan buraxılışlarında çox sayda Azərbaycan nağılları toplanıb dərc olunmuşdur. SMOMPK məcmuəsində ilk Azərbaycan nağıllarının toplanıb nəşr olunması Qazax qəzasının kənd müəllimi B.Veniaminova aiddir. O, "Məlik Məhəmməd və Məlik Cümşüd", "Əvil Qasım və Əvil Məmməd", "Şah Rüstəm", "Şahzadə Qəmbər", "Şah İsmayıl", "Şərif" nağıllarını toplayıb, SMOMPK məcmuəsinin 1883-cü il III buraxılışında dərc etdirmişdir. Nağıllarımızı toplayıb rus dilinə tərcümə etdirərək SMOMPK məcmuəsində dərc etdirən ilk azərbaycanlı ziyalı isə Həsən bəy Bağırov olmuşdur.

A.Kalaşevin topladığı "Ovçu Pirim", "Oxxay", "Müdrik padşah", "Abut", "Şeydulla" nağılları "Tatar nağılları" başlığı ilə dərc olunub. Toplayıcı nağılları Bakı quberniyası Şamaxı qəzası Sagiyan kəndi sakinlərinin dilindən yazıya alındığını qeyd edib.

A.Kalaşevin topladığı nağıllar əsasən sehirli və məişət nağllarına aid edilir. Müxtəlif bölgələrdən toplanan daha sonrakı illərdə nəşr edilən bu nağılların variantlarında müəyyən dəyişikliklərə rast gəlinir. Məsələn, A.Kalaşevin topladığı

"Oxxay" nağılında baş qəhrəman Gülməmməd adlanır. Bildiyimiz kimi, nağılın bir çox variantlarında və eləcə də H.Seyidovun tərtib etdiyi "Azərbaycan nağılları" beşcildliyində yer alan "Oxxayla Əhməd" nağılında əsas qəhrəman Əhməd adlanır. M.Kazımoğlu "Folklorda obrazın ikiləşməsi" monoqrafiyasında "Azərbaycanı öyrənmə yolu" məcmuəsinin 1926-cı il II nömrəsində çap edilmiş digər variantdan da bəhs edir. Məlumatda qeyd olunur ki, nağılın əsas qəhrəmanı bu variantda Əhməd yox, Qouzdur. "Düşünürük ki, "Qouz" başqa bir şey yox, "Oğuz"dur və Gəncəbasardan toplanmış folklor nümunəsində bu adın işlənməsi təbiidir. Çünki bu bölgədə Oğuzla bağlı rəvayətlərin yayıldığı folklorşünaslığımıza çoxdan bəllidir. Həmin rəvayətlərdə oğuzlar boy-buxunca indiki adamlardan seçilən nəhəng adamlar kimi təqdim olunur. "Oxxay" nağılının göstərilən variantında müsbət qəhrəmanının "Qouz" (Oğuz) adlanması rəvayətlərdə oğuzların nəhəng adamlar kimi təqdim olunması ilə, söz yox ki, səsləşir. Məsələ burasındadır ki, xalq öz qəhrəmanını yenilməz görmək və sehirli nağılda bu yenilməzliyi ifadə etmək istəyir. Yenilməzlik üçün fiziki gücün yetərli olmadığını nəzərə alan xalq öz qəhrəmanını həm də sehirli aləmlə əlaqələndirmək istəyir və Oxxay əhvalatı bu istəkdən doğulur" (7.9).

SMOMPK variantında Oxxayın ölümündən sonra Gülməmməd şahzadə qızla evlənərək taxt-taca sahib olur, nağıl bitir. Digər variantda isə hadisələr davam edir.

Nağıllarımızın toplanaraq geniş yayılması ilə yanaşı ermənilərin Azərbaycan nağıllarını mənimsəməsi, Azərbaycan nağıllarının erməni nağılları adı altında nəşr olunması halları da artmağa başladı. Yuxarıda adını çəkdiyimiz "Oxxay"ın nağılı, "Yalançı çoban", "Hiyləgər qarı", "Tənbəlin nağılı", "Sənət qızılıdan üstündür" və digər onlarla nağıllarımız ermənilər tərəfindən özünküləşdirilib, ermənileşdirilmişdi. O illərdə də erməni oğurluğunun şahidi olan ziyalılarımız öz yazılarında bu hadisəyə münasibət bildirmiş, Azərbaycan cəmiyyətini daha diqqətli, daha məsuliyyətli olmağa çağırırdılar. F.Köçərli "Balalara hədiyyə" kitabına yazmış olduğu ön sözdə bu məsələyə toxunur, acı təəssüf hissi ilə ".....bu barədə qonşularımız daha da irəliyə gedirlər: türk milləti əsrlərcə yaradıb vücuda gətirdiyi nağıl, hekayələri və xoşlarına gəldiyi məsəlləri özlərinə məxsus edib "Erməni nağıl və məsəlləri" adı ilə ilam edirlər. Amma biz onların qədrini bilmirik və itib batmağına əsla itina etmirik" (6.4).

Hər bir folklor nümunəsi mənsub olduğu xalqın məişətini, həyat tərzini özündə əks etdirdiyi kimi, Azərbaycan nağılları da öz göstəriciləri, deyimləri, atalar sözu və məsəlləri ilə fərqlənir. Başqa xalq tərəfindən mənimsənilən folklor nümunəsi sözsüz ki, daxil edildiyi yeni mühitdə seçiləcək, oxucuda çaşbaşlıq yaradacaqdı. SMOMPK məcmuəsinin müəlliflərindən biri - A.Boqayavlenski məcmuənin 28-ci buraxılışının 2-ci hissəsində yazmış olduğu məqalədə bəzi erməni nağılların adını qeyd edərək öz göstəricilərinə görə seçildiyini, bu nağılların məhz Azərbaycan nağıllarından iqtibas edildiyini yazırdı.

A.Kalaşevin Şamaxı qəzasından topladığı və SMOMPK məcmuəsinin 1889-cu il, 7-ci buraxılış, II bölməsində "Erməni nağılları" başlığı ilə verdiyi nağıllar da bu

qismdəndir. Mətndəki adlar, obrazlar, sözlər nağılların Azərbaycan xalqına aid olduğunu göstərir. Hətta bəzi məqamlarda toplayıcı özü belə nağıllara yazdığı şərhlərdə bu nağılların Azərbaycan xalqına mənsub olduğunu yada salır. Məsələn, erməni nağılı kimi təqdim edilən "Şah İsmayıl" nağılında işlənən "lələ" sözünün mənasını izah edən, əlavə şərh verən toplayıcı, tatar dilində bu sözün əmi, dayı kimi işləndiyini qeyd edir. Folklorşünas alim Səhər Orucovanın da qeyd etdiyi kimi, "Bizə elə gəlir ki, A.Kalaşev bu nağılları sadəcə erməni söyləyicisinin dilindən, ağzından qələmə aldığından səhvən "Erməni nağılları" başlığını seçibdir. A.Kalaşev bilməmiş deyildi ki, Şah İsmayıl, Aslan Paşa, Qırat, Gülzar, Neymət bəy, Lalə, Pərişan, bayatı, dev, Ərəbzəngi, arşın, Allah, Hacı Osan (Həsən), Sambur tulası və s. obrazların, işlədilən sözlərin heç birinin erməni dilinə və erməni nağılına aid deyildir" (3.30).

SMOMPK məcmuəsinin 1894-cü il XVIII buraxılışında A.Kalaşevin "Vardavar" adlı yazısı da dərc olunub. Bu mətn erməni folklor nümunəsi kimi qeyd olunsa da, Azərbaycan folklor nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi açıq-aydın görünür. Toplayıcı qeyd edir ki, hər il avqustun 6-da Yunan Allahı Afroditanın şərəfinə bayram keçirilir. Çaykənddə məskunlaşan gənc erməni oğlan və qızlar gül toplayaraq dəstələrə bölünür, nəğmə oxuyur, şeir deyir, bir-biri ilə yarışırmışlar. "Vardavar" adlanan bu dini bayram, tərcümədə "Gül bayramı" anlamındadır. Kalaşev öz yazısında qeyd edir ki, oxunan nəğmələrin böyük hissəsi əsasən sinədən deyilir, tez-tez tatar dilində də nəğmələr də əlavə olunur. Erməni gənclərinin oxuduğu bu nəğmələrdə "Can, gülüm, can, can" mahnıları tərzində azərbaycan dilində bayatılar oxunur. Səhər Orucova bu barədə haqlı olaraq belə yazır: "Bu fakt onu sübut edir ki, Azərbaycan ərazisində köçürmə yolu ilə məskunlaşan ermənilərin müstəqil folkloru belə olmamış, onlar bütün məişət qaydalarını, hətta dini-mərasim nəğmələrini də azərbaycanlılardan mənimsəmişlər. Bu azmış kimi, ermənilər mərasimlərin quruluşunu da, orada oxunan bayatıları da bizdən götürmüş, azərbaycanca ifa etmişlər" (3.40).

Tərtibçilərdən biri olduğumuz "SMOMPK: Azərbaycan folkloru materialları" 4-cü cildinin ön söz hissəsində də bu məsələyə toxunulmuşdur: "Vardavar bayramının ermənicə oxunan mətnləri bayatı quruluşunda söylənilir və külli miqdarda türk sözlərindən ibarət olur. Kalaşevin ermənicə latın-kiril transliterasiyasında və rusca tərcümədə verdiyi nümunələrə nəzər salaq:

Kez min **koca** (qoca-tərt.) hep ones,
Kez min **qözel** (gözəl-tərt.) mer ones;
Arxayin (arxayın-tərt.) **gülüm** (gülüm-tərt.) asa

Nəğmədə bu cür nümunələrin sayı çoxdur. Əslində ermənilər özləri bu mətnlərin mənimsəmə olduğunu dolayı yolla təsdiqləyirlər. Belə ki, müəllifin qeydinə nəzər salaq: "Gülüm" (tatarca –gülüm mənim), yerli ermənilərin izahına görə, Vardavar günü şəninə mahnı oxunan həmin gülün tatarca adıdır, burada oxunan mahnılar da "gülüm adlanır" (6.12).

SMOMPK Toplusunun 1889-cu il VII buraxılışında A.Kalaşevin "İki müqəddəs tatar pirinin (yerinin) yaranması tarixindən" başlığı ilə digər bir yazısı da nəşr olunur. "Müqəddəs bardaq" və "Pirin" qəbri" mətnləri də 1888-ci ildə Şamaxı qəzasında yazıya alınmışdır. Hər iki mətndə hadisələr Şamaxıda baş verir.

Toplunun 1894-cü il, 18-ci buraxılışında A.Kalaşevin və A.İoakimovun birgə müəllifləri olduğu "Tatar mətnləri" adlı yazı dərc olundu. Sözügedən yazıda Azərbaycan folklorunun laylalar, tapmacalar, məsəllər, düzgülər, ağılar, şikəstələr, və. s. kiçik janrlarından örnəklər yer alıb. Qeyd etmək lazımdır ki, SMOMPK məcmuəsində dərc olunan bayatıların ilk toplanması və rus dilinə tərcüməsi məhz A.Kalaşevin adı ilə bağlıdır. O, bayatıları qruplaşdıraraq laylalar, ağılar, şikəstələr üzrə təsnif etmiş və onların hər birini nəğmə adlandırmışdır. Toplunun 18-ci buraxılışında Nuxa şəhər sakini Abdulla Əfəndiyevin dilindən toplanıb yazıya alınmış mətnlərdən 7-ni laylalar təşkil edir ki, bu laylalar ilk dəfə olaraq A.Kalaşev tərəfindən toplanıb, rus dilinə tərcümə edilmişdir. O, topladığı laylaları ruscaya tərcümə edərək, onları «Колыбельныя песни» adlandırmışdır.

Layla, balam, layla!
O kuş-kuş balam, layla!
Layla, diyim, yatasan,
Kızıl gülə batasan;
Kızıl qül mən oleydim,
Kölgəmdə sən yatasan (5.107).

Bu layla mətni toplanılan və rus dilinə çevrilib məcmuədə nəşr olunan ilk layla mətnidir. A.Kalaşev rus dilinə tərcümə edərkən ritmi saxlamağa çalışmış, layladakı milliliyi qorumuşdur.

Bildiyimiz kimi, laylalar heca vəznində, yeddilik ölçüdə olur. Bəzi layla mətnlərinə nəzər yetirdikdə görürük ki, qafiyə sistemi pozulub, bu da çox güman ki, laylaların müəyyən musiqi sədası ilə oxunmasından və ya övladına layla oxuyan ananın müəyyən hissə, duyğuya qapılaraq bədahətən söyləməsindən baş verir:

Balam kiçihdi, qoy böyük olsun.
Dört yanını güllər bürüsün.
Layla diyim, sən yatasan,
Qızılgüllərə batasan.
Layla, balam, layla! (5.107)

Lakin hər bir layla mətnində dəyişməyən funksiya ananın laylalar vasitəsilə öz övladına sevgisini, dualarını, arzularını ötürməsidir:

Sənə qurban ellərdən
Küləklərdən, yellərdən.
Allah balamı sağ iləsin,
Ağır aylardan, illərdən.
Layla, balam, layla (5.108).

Yuxarıda qeyd etdiyimiz kimi, A.Kalaşev topladığı bayatıları laylalar, ağılar, şikəstələr üzrə qruplaşdırmışdır. Qeyd etmək lazımdır ki, ağı nümunələri də ilk dəfə A.Kalaşev tərəfindən toplanılıb, tərcümə edilərək SMOMPK məcmuəsində dərc edilib. A.Kalaşev ağı mətnlərinin 14-ü Nuxa şəhər sakini Abdulla Əfəndiyevdən, 6-ı Cəbrayılın Xatunbulaq kəndinin sakini İrza Mirzəyevin dilindən toplamışdır. O, topladığı ağı nümunələrini də rus dilinə tərcümə edərək orijinalı ilə birlikdə SMOMPK toplusunun 1894-cü il 18-ci buraxılışında çap etdirib. O, «Песни по покойникъ» adlandırılmış folklor nümunələrinə belə bir şərh də yazıb: "Demək olar ki, bütün Zaqafqaziya tatarlarının adətinə görə, ailə üzvlərinin birinin ölümündən sonra mərhumun evində 10-15 gün ərzində hər gün onun bütün qohumları, qonşuları və ya tanışları yığılır və ölən adam üçün ağlayırlar. Burada göstərilən nəğmələr adətən məclisdə iştirak edən qadınlardan biri tərəfindən ifa olunur, digərləri isə uca səsli hönkürtü ilə onu müşaiyət edirlər" (5. 109)

Bayatı janrı xalqın ruhuna ən yaxın janr olduğundan daima xalqın sevincini, kədərini özündə əks etdirib. Elə bu səbəbdəndir ki, Azərbaycan xalqı daima öz hissini, həyəcanını hazır bayatı qəliblərinə salıb, ruhən bir-birinə yaxın olan folklor nümunələri yaratmışdır. Ağrı, dərd, kədər ehtiva edən bu folklor nümunələrinə nəzər saldıqca zaman kəsiyində müxtəlif dəyişikliklərə məruz qaldığının şahidi oluruq.

Məsələn, A.Kalaşevin topladığı bir ağı nümunəsinə diqqət yetirək:

Mixəng əkdim dəsinən,
Dərmədim həvəsinən,
Məni balamnan eliyənin,
Günü keçsin yasınan (5.115).

Müxtəlif illər ərzində toplanmış ağı nümunələrinə nəzər yetirdikdə eyni qəlib əsasında yaranıb, dəyişikliyə uğramış digər nümunələrə də rast gəldik:

Mixək əkdim tas ilə,
Biçirdim həvəs ilə,
Səni məndən edənin
Günü keçsin yas ilə.
Və yaxud:
Mixək əkdim tasıynan,
Yar sevdim həvəsiynən.
Bizi ayrı salanın,
Dolsun öyü yasıynan.

A.Kalaşev tərəfindən toplanılıb tərcümə edilərək SMOMPK toplusunun 1894-cü il XVIII buraxılışında dərc olunmuş folklor örnəklərindən biri də tapmacalardır. Azərbaycanın müxtəlif şəhər və kəndlərindən toplamış tapmacaları ruscaya tərcümə edən A.Kalaşev tapmacaları da «Татарские тексты» ümumi başlığı altında nəşr etdirmişdir. Bu tapmacalardan 35-i Nuxa şəhərindən, 8-i Cəbrayıl qəzasından, 6-ı isə Gəncə şəhər sakini Həsən Kərimovdan toplanmışdır. Müxtəlif mövzulara aid olan bu tapmacalar heç bir prinsiplə qruplaşdırılmamış, yalnız nömrə

ilə sıralanmış şəkildə nəşr olunmuşdur. Bildiyimiz kimi, tapmaca janrı ən az tədqiq edilən bir janr olub. Müxtəlif bölgələrdən müxtəlif illərdə toplanmış bu tapmacalara nəzər saldıqda eyni tapmacanın müxtəlif cavab variantlarına rast gəlirik. Məsələn, Nuxa şəhərindən A.Kalaşevin qələmə aldığı "Yol içində bir cam qatıq" (5.114) tapmacasının cavabı "ay" olduğu halda, V.Xuluflunun Qazax bölgəsindən yazıya aldığı "Yol içində bir cəm qatıq" (8.61) tapmacanın cavabı "mal peyini"dir. Və yaxud SMOMPK məcmuəsində dərc olunmuş "Yol içində yoğun qarı" (5.114) tapmacasının cavabı − Təndir, V.Xuluflunun Basqal kəndindən topladığı "Yol üsdə yoğun arvad" (8.61) tapmacasının cavabı isə − Qarışqadır.

Azərbaycan atalar sözləri və məsəllərinin də sistemli şəkildə toplanmasında SMOMPK məcmuəsinin rolu böyükdür. İlk dəfə olaraq S.P.Zelinski bu addımı atmış, 150 atalar sözü və məsəlləri toplayıb rus dilinə tərcümə edərək, SMOMPK toplusunun 1881-ci il 1-ci buraxılışında dərc etdirmişdir. P.Zelinskidən sonra A.Kalaşev atalar sözləri və məsəllərin toplanmasında xeyli iş görmüşdür. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, P.Zelinski, A.Kalaşev, N.D.Kalaşev, M.Mahmudbəyov, V.Devitski tərəfindən toplanıb rus dilinə tərcümə edilmiş 2869 Azərbaycan atalar sözü və məsəllər Azərbaycan folklorşünaslığında mühüm əhəmiyyət kəsb edir.

A.Kalaşev SMOMPK məcmuəsinin 1894-cü il 18-ci buraxılışında Nuxadan toplamış olduğu 69 atalar sözü və məsəlləri rus dilinə tərcümə edərək dərc etdirmişdir. Bu atalar sözü və məsəllər də tapmacalarda olduğu kimi heç bir təsnifata görə qruplaşdırılmayıb, sıra nömrəsi ilə nömrələnmişdir. Topluda dərc olunan atalar sözləri mövzu etibarı ilə ailə-məişət, ictimai-sosial mövzuları əhatə edir. Buraxılışda yer almış atalar sözləri də heç bir dəyişikliyə uğramadan toplandığı kimi də yazıya alınmışdır. Məsələn, "Qızıldan çarıq giisən, gənə adı çarıqdı"(6.114), "Xənçəl yarası sağalar, dil yarası sağalmaz"(4.114) və s. Folklorşünas alim Səhər Orucova bu barədə qeyd edir ki, "O, (yəni Kalaşev – A.H) «Татарские тексты. Песни, загадки, пословицы записаны А.Калашевымь и А.Иокимовымъ» adlı məqaləsində Azərbaycan mətnlərinin Nuxa dialektinə uyğun tərzi, ləfzi transkripsiyanı imkanları dərəcəsində qorumağa cəhd etmişdir. "Xənçəl" (xəncər), "türməy" (dürmək), "eşşəq" (eşşək), "karğa"qəbildən olan sözlərdəki fonetik əvəzlənmələr, səs dəyişmələri, dialekt mətnlərdə Nuxa camaatının deyim-danışıq tərzini nisbətən qoruya bilmişdir" (3.36).

SMOMPK toplusunun 1894-cü il, 18-ci buraxılışında A.Kalaşev və A.İoakimovun "Uşaq nəğmələri" başlığı ilə dərc etdirdiyi, A.Kalaşevin Cəbrayıl qəzasından topladığı "Üşüdüm ha, üşüdüm", A qza, qza Nərgizə", "A teşti, teşti" folklor nümunələri yer alır. Bildiyimiz kimi, uşaqların söz yaradıcılığının inkişaf etməsinə səbəb olan düzgülər uşaq folklorunun geniş yayılmış, özünəməxsus poetik sistemi olan janrıdır. Çox vaxt uşaq oyunları ilə birlikdə müşayiət olunan düzgülər heca vəzninin yeddilik ölçüsündə olub, əksər hallarda cüt-cüt, bəzən üç-üç

qafiyələnən düzgülərin mövzusunu əyləncəli əhvalatlar, bəzən bir-birilə əlaqəsi olmayan hadisələr, uşaq fantaziyasının təsiri altında yaranan obrazlar təşkil edir.

"Üşüdüm, ha üşüdüm", "A qıza, qıza, Nərgizə" və s. düzgülərin də sonralar müxtəlif illərdə toplanan variantlarının bir-birindən fərqləndiyini görürük. Bu çoxvariantlılığının səbəbi düzgülərin müxtəlif səbəblərdən dəyişilməsindən, uşaqların onları daha rahat şəklə salmaq istəklərindən və yaxud böyüklərin müdaxilələrindən irəli gəlmişdir.

Bəzi nəğmələr haqqında məlumat verilərkən onların necə oxunmasının təsviri də verilib. Məsələn, "A teşti, teşti" nəğməsindən öncə oyunun qaydası haqqında məlumat verilib: "Hər iki cinsdən olan uşaqlar daşlardan çəpər düzəldirlər, özləri isə onun işində dairə şəklində oturur və bu nəğməni oxuyurlar"(5.118). Folklor toplayıcıları tərəfindən müxtəlif illərdə toplanıb nəşr olunmuş digər folklor nümunələri kimi bu düzgünün də müxtəlif variantları mövcuddur. Bəzi rayonlarda bu oyun-nəğmə "Beşdi, beşdi, ha, beşdi" adlanır.

A.Kalaşevin topladığı folklor nümunələri arasında xalq mahnıları da yer alır. SMOMPK məcmuəsinin 1894-cü il 18-ci buraxılışında dərc olunan xalq mahnılarının bir qismi Cəbrayıl qəzası Mirzə Camallı kənd sakinin Salman Şərifbəyovun dilindən, digəri isə Ərəş qəzasının Ağcayazı kənd sakini Əhməd Məlikovdan toplanmış nəğmələrdir. Bu nəğmələr "Aşıq nəğmələri" (Şikəstələr) başlığı ilə məcmuədə yer alır. Bildiyimiz kimi, xalq yaradıcılığında şikəstələrin xüsusi yeri var. Əsasən bayatı və qoşma şeir şəkli üzərində yaranan şikəstələr həzin və yanıqlı olur, hüzn, həsrət, ayrılıq kimi mövzuları əhatə edir.

A.Kalaşevin Əhməd Məlikovdan topladığı nəğmədə də qəm-kədər, ağrı-acı, iztirab hiss olunur. A.Kalaşev nəğmə haqqında belə məlumat verir: "Bu nəğmə təqribən bütün Zaqafqaziya diyarının hər yerində müxtəlif variantlarında ifa edilir. Deyilənə görə, 1884-cü ildə Şuşa qəzasının Xoruzlu düzündə qaçaqlar tərəfindən öldürülən Urustanın bacısı tərəfindən qoşulmuşdur .

Gəlin gedək Xorızdının düzünə,
Ay! Güllə dəyif Urustanın dizinə.
Xəbər getsin Cavad xanın qızına, qızına!
Ay! Necə qıydın, Urustanı öldürdün?
Zalım oğlu, bedin oğlu, şam çırağı söndürdün!
Namuradı öldürdün!"(5.122).

Mahnı üç bənddən, hər bəndi 6 misradan ibarətdir.

A.Kalaşnikovun topladığı digər nəğmə mətnləri bayatı janrındadır. Bu bayatılarda da kədər, ayrılıq həsrət motivləri üstünlük təşkil edir. Mətnlərdən biri xalq mahnısı kimi bizə tanış olan mahnıdan bir bənddir:

Yarın bağında üzüm əsgəri,
Difar dibindən həzin səs gəlir.
"Sağ ol gəl, Var ol, gəl!
Həmişə mehman ol, gəl!" (5.121).

Beləliklə, sonda bir daha deyilənləri ümumiləşdirərək qeyd etmək istərdik ki, SMOMPK məcmuəsi Azərbaycan ədəbi-mədəni mühitində mühüm rol oynayaraq, Azərbaycan folkorunun toplanmasında, tərcümə və nəşr olunmasında böyük rolu oldu. Bu yazımızda SMOMPK məcmuəsində dərc olunan Azərbaycan folklor nümunələrinin toplanıb tərcümə olunmasında əməyi olan ziyalılardan birinin fəaliyyəti haqda qısa məlumat verdik.

ƏDƏBİYYAT

1. Bayatılar və manilər. Bakı, "Səda", 2005

2. Qafarlı, R. Uşaq folklorunun janr sistemi və poetikası, Bakı, "Elm və Təhsil", 2013

3.Səhər Hidayət qızı Orucova. Azərbaycan folklor materialların XIX əsrdə toplanılması, rus dilində tərcüməsi və nəşri problemləri (SMOMPK-un materialları əsasında), fil.üz.elm.dok.elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı-2013

4. SMOMPK: Azərbaycan folkloru materialları, I cild, Bakı, 2018

5.SMOMPK: Azərbaycan folkloru materialları, II cild, Bakı, 2019

6.SMOMPK: Azərbaycan folkloru materialları, IV cild, Bakı, 2021

7.Muxtar Kazımoğlu. Folklorda obrazın ikiləşməsi, Bakı, "Elm", 2011

8. V.Xuluflu. Tapmacalar. Bakı, "Nurlan", 2013

Aynur Hüseynova

SMOMPK TOPLUSUNUN AZƏRBAYCAN FOLKLORU TOPLAYICILARI: A.KALAŞEV

Xülasə

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan folklorunun toplanıb, tərcumə olunaraq nəşr olunması geniş vüsət aldı. Bir çox rusdilli məcmuə, jurnal və qəzetlərdə, mətbu orqanlarda Qafqaz xalqlarının adət-ənənələri, folklor nümunələri nəşr olunmağa başlandı. Onlardan biri də SMOMPK – "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" idi. 1881-ci ildə Tiflisdə çap olunan, 46 sayı işıq üzü görən SMOMPK məcmuəsi Azərbaycanın ədəbi-mədəni həyatında mühüm yer tutdu. SMOMPK məcmuəsi Azərbaycan folklorunun toplanması, tərcüməsi, nəşri tarixində mühüm işlərə səbəb oldu. Məcmuənin Azərbaycan folkorunu toplayan azərbaycanlı ziyalıları – Mahmud bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Həsən bəy Bağırov və digərlərinin gərgin zəhməti sayəsində Azərbaycan folklorunun geniş yayılmasına, təbliğ olunmasına şərait yarandı. SMOMPK toplusunda Azərbaycan folklorunun bütün növ və janrları öz əksini tapmışdır. Məcmuənin Azərbaycan toplayıcıları ilə yanaşı rus ziyalılarının – L.Q.Lopatinski, N.Kalaşev, P.Zelinski, P.Vostrikov, B.Veniaminov, A.Zaxarov, V.Yemelyanov, K.Nikitin, A.İoakimov və digərlərinin də bu işdə böyük və əvəzsiz xidmətləri olub.

Azərbaycan folklor nümunələrini toplayıb SMOMPK məcmuəsində dərc etdirən rus ziyalılarından biri də Göyçay ikisinifli kənd məktəbinin müəllimi Aleksandr Kalaşev olmuşdur. Toplayıcı A.Kalaşev bir çox mənbələrdə SMOMPK məcmuəsində dərc olunan erməni folklor nümunələrinin toplayıcısı kimi xatırlanır. Lakin bu yazımızda biz onun topladığı və SMOMPK məcmuəsində dərc etdirdyi Azərbaycan folklor nümunərindən bəhs edəcəyik. Aleksandr Kalaşevin topladığı nümunələri folklorun demək olar ki, bütün janrlarına aid etmək olar. Qeyd etmək lazımdır ki, SMOMPK məcmuəsində dərc olunan bayatıların ilk toplanması və rus dilinə tərcüməsi məhz A.Kalaşevin adı ilə bağlıdır. O, bayatıları qruplaşdıraraq laylalar, ağılar, şikəstələr üzrə təsnif etmiş və onların hər birini nəğmə adlandırmışdır. Elə ağı nümunələri də ilk dəfə A.Kalaşev tərəfindən toplanılıb, tərcümə edilərək SMOMPK məcmuəsində dərc edilib. A.Kalaşev topladığı folklor nümunələrini SMOMPK məcmuəsinin 1889-cu il VII buraxılışında və 1894-cü il 18-ci buraxılışında rus dilinə tərcümə edərək dərc etdirmişdir.

Açar sözlər: atalar sözləri, tapmacalar, folklor, uşaq nəğmələri, SMOMPK toplusu

Aynur Huseynova

FROM THE COLLECTORS OF THE SMOMPK COLLECTION OF AZERBAIJANI FOLKLORE: A.KALASHEV

Summary

Since the second half of the 19th century the collection, translation and publication of Azerbaijani folklore has become widespread. In many Russian-language collections, journals, newspapers and media the traditions and folklore samples of the peoples of the Caucasus began to be published. One of them was SMOMPK – "A collection of materials on the description of the territories and peoples of the Caucasus". Published in 1881 in Tbilisi and having 46 issues the collection SMOMPK took an important place in the literary and cultural life of Azerbaijan. The collection SMOMPK became the reason for important works in the history of the collection, translation and publication of Azerbaijani folklore. According to the hard work of the Azerbaijani intelligentsia, who collected the folklore of Azerbaijan, such as Mahmud bey Mahmudbeyov, Rashid bey Afandiyev, Firudin bey Kocharli and others, conditions were created for the wide dissemination and propaganda of Azerbaijan folklore. All types and genres of Azerbaijani folklore were reflected in the collection of SMOMPK. In addition to the Azerbaijani collectors of the collection, the Russian intelligentsia such as L.Q.Lopatinsky, N.Kalashev, P.Zelinsky, P.Vostrikov, B.Veniaminov, A.Zakharov, V.Yemelyanov, K.Nikitin, A.Ioakimov and others also had a great and invaluable contribution to it.

One of the Russian intellectuals who collected and published samples of Azerbaijani folklore in the collection SMOMPK was the teacher of the region

Goychay two-class village school Alexander Kalashev. Collector A.Kalashev is mentioned in many sources as a collector of Armenian folklore samples published in the collection SMOMPK. However, in this article it will be said about the example of Azerbaijani folklore collected by him and published in the collection SMOMPK. The samples collected by Alexander Kalashev can be attributed to almost all genres of folklore. It should be noted that the first collection of quatrains published in the collection SMOMPK and their translations into the Russian language was connected with the name of A.Kalashev. He grouped the quatrains according to the different genres such as lullabies, elegy, "shikasta" and called each of them as a song. So for the first time the samples of elegy were collected by A.Kalashev, translated and published in the collection SMOMPK. A.Kalashev translated his collected folklore samples into the Russian language and published them in two volumes such as in the 7th edition in 1889 and in the 18th edition in 1894.

Keywords: proverbs, riddles, folklore, child songs, SMOMPK collection

АЙНУР ГУСЕЙНОВА

СОБИРАТЕЛИ АЗЕРБАЙДЖАНСКОГО ФОЛЬКЛОРА СМОМПК-А: А. КАЛАШЕВ

РЕЗЮМЕ

Со второй половины XIX века широкое распространение получили сбор, перевод и публикация азербайджанского фольклора. Традиции и обычаи, образцы фольклора Кавказских народов стали публиковаться во многих русскоязычных журналах, газетах, органах печати. Одним из них был СМОМПК - Сборник материалов для описания местностей и племен Кавказа. СМОМПК, изданный в количестве 46 номеров, первый номер которого вышел в Тбилиси в 1881 году, занял важное место в литературной и культурной жизни Азербайджана. СМОМПК способствовал проведению важных работ в истории сбора, перевода и публикации азербайджанского фольклора. Благодаря кропотливому труду азербайджанских мыслителей того времени - Махмуд бека Махмудбекова, Рашид бека Эфендиева, Фирудин бека Кочарли, Сафарали бека Велибекова, Гасан бека Багирова и др., которые сотрудничали со сборником в области собирания азербайджанского фольклора, были созданы условия для широкого распространения и пропаганды азербайджанского фольклора. В СМОМПК-е отражены все виды и жанры азербайджанского фольклора. Помимо азербайджанских собирателей коллекции, русская интеллигенция - Л.Г.Лопатинский, Н.Калашев, П.Зелинский, П.Востриков, Б.Вениаминов, А.Захаров, В.Емельянов, К.Никитин, А.Иоакимов и др. также внесли неоценимый вклад в эту работу.

Одним из русских интеллигентов, собравших образцы азербайджанского фольклора и опубликовавших их в сборнике, был Александр Калашев, учитель Геокчайской двухклассной сельской школы. А.Калашев упоминается во

многих источниках как собиратель образцов армянского фольклора, опубликованных в СМОМПК-е. Однако в этой статье речь пойдет об образцах азербайджанского фольклора, которые он собрал и опубликовал в СМОМПК-е. Образцы, собранные Александром Калашевым, можно отнести практически ко всем жанрам фольклора. Следует отметить, что первые образцы баяты, изданные в сборнике и переведенные на русский язык, связаны с именем А. Калашева. Он сгруппировал баяты и классифицировал их на колыбельные, причитания и шикаста и назвал каждую из них песнями. Образцы причитаний также были впервые собраны А. Калашевым, переведены и опубликованы в СМОМПК-е. А. Калашев перевел собранные фольклорные образцы на русский язык и издал в VII выпуске 1889 г. и 18 выпуске 1894 г. СМОМПК-а.

Ключевые слова: пословицы, загадки, фольклор, детские песни, СМОМПК

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Rza Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA SEVİNC
Azərbaycan Dillər Universiteti
aytac2000@yandex.ru

GERHART HAUPTMANNIN "SİÇOVULLAR" ƏSƏRİNDƏ BERLİNİN İCTİMAI-SİYASİ MÜHİTİ

XÜLASƏ

Alman ədəbiyyat tarixinin görkəmli şəxsiyyəti Gerhart Hauptmann ədəbi bədii yaradıcılığına görə 1912-ci ildə Nobel mükafatına layiq görülüb. O, XIX əsrin sonlarında yaradıcılığa başlamış və orijinal əsərləri ilə ədəbiyyatşünasların diqqətini cəlb etmiş, maraqlı bədii əsərlər yaratmış və dünya ədəbiyyatı tarixində dramaturq kimi tanınmışdır. G.Hauptmann novator dramaturqdur, vətən, xalq, dialekt, sadə insanların həyatı onun ən yaxşı dramlarının materialı idi. O, yaradıcılığı boyu qırx iki dram, iyirmidən çox roman, komediya, hekayə, şeir və müxtəlif janrlarda xatirələr yazıb. Onun dramaturgiyası alman dramaturgiyasında naturalizmin inkişafı üçün yeni imkanlar açdı.

Siçovullar tragikkomediyasında real Berlin - ideya və idyalogiya, səfalətlərin, xəstəliklərin, sıxıntıların toplandığı bir mühit təsvir olunub. Sosial mühitdə baş verən hadisələri, uçuruma yuvarlnan taleyüklü iqtisadi və sosial məhdudiyyətlər burulğanını dramaturq "Siçovullar" əsərində göstərmişdi və yəqin ki, heç vaxt ədəbi ifadəsini və aktuallığını itirməyəcək. XIX əsrin sonlarında əhalinin sürətli artımı və sosial yoxsullaşma səbəbindən Berlin ciddi böhran yaşayırdı.

Yazıçı məşhur Siçovullar əsərində ailə dramı çərçivəsində eybəcər ictimai münasibətləri, meşşanlığın təhlükəli simasını ifşa etməyə çalışmışdır. Siçovullar insanların əksəriyyətində nifrət və ikrah hissi doğuran eqoist heyvanlardır, lakin onlar həm də ağıllıdırlar. Tamaşanın personajları tez-tez tozlu, baxımsız və qaranlıq çardaqda olurlar, çox güman ki, məhz belə yerlərdə bu cür heyvanları gözləmək olar. Bundan əlavə, demək olar ki, bütün insanlarda eqoist davranış izlənir. Ayrı-ayrı personajlar sosial cəmiyyətin müxtəlif aspektlərini göstərir, onların hər biri siçovul kimi funksiyasını yerinə yetirərək "yeyir", "parçalayır".

Açar sözlər: *naturalizm, sosial dram, mühit, tragikomediya, siçovul, qadın.*

Gerhart Hauptmannın "Siçovullar" ("Die Ratten") tragikomediyasında adından başlayaraq, ideya-məzmun kontekstinin imkan verdiyi bütün cəhətləri simvolik məna çaları ilə dövrün mənzərəsini, ilk dəfə şəhər həyatını daha doğrusu Berlinin müxtəlif sosial təbəqələri komik planda təsvir olunur.

Yazıçının qeydlərinə əsasən "Siçovullar" əsərini 1909-cu ilin yazında İtaliyada, Sestri və Portofinoda başlayıb. 1909-1910-cu illərdə əsər üzərində işini davam etdirir. Nəhayət Portofinoda başladığı əsəri 1910-cu ilin yayında

Agnetendorfda bitirir. Əsər 1911-ci il 14 yanvarda rejissor Otto Brahmın rəhbərliyi ilə Berlində Lessing teatrnda tamaşaya qoyulur. Mükəmməl aktyor heyətinə baxmayaraq, tamaşa xoş qarşılanmır. Tamaşadan qısa müddət sonra kitabın ilk nəşri də Berlində oldu. Birinci Dünya Müharibəsindən sonra əsər müxtəlif ölkələrdə müxtəlif dillərə tərcümə olunub.

Hadisələr Berlində tərk edilmiş, lakin ev kimi istifadə edilən keçmiş süvari kazarmasında cərəyan edir. G. Hauptmann özü Berlin haqqında verdiyi obrazı səciyyəvi şəkildə qeyd edib: "Bəlkə mən bu şəhəri verə bilərəm ən azı bir əsərdə, bir dəfə güzgüyə tutun. O, özünü mənim onu gördüyüm kimi [...] görməlidir: iblislərlə dolu, cəhənnəm" [5, s.303].

Dağıdıcı, məhv edən qüvvələr və cəmiyyətin davamlı mövcudluğu siçovullar obrazı ilə dram daxilində metaforik şəkildə təsvir edilmişdir [6, s.259] .

Bitkin, hərtərəfli işlənmiş obrazlar, ideya-məzmun, sənətkarlıq keyfiyyətlərinə görə "Siçovullar" əsəri yazıçının ən yaxşı əsərlərindən hesab olunur. Ədib Almaniyanın tragik aqibətini əvvəlcədən duyurmuş kimi hadisələrin fonunda bir-birini əvəz edən müxtəlif silkli, lakin eyni yerdə, həyatın dibində rastlaşmış insanların çarpazlaşmış talelərini "çürümüş, dağılmış" Berlin "səhnəsində" təsvir edir. Yazıçı, hadisələrin gedişini, dramatik hərəkətin inkişafını, digər dramlarında olduğu kimi konkret bir təbii məkanda deyil, teatr binasının mansarında, çardaqda təsvir edir və reallığın teatral imitasiyasını yaradır ki, problemin təyinatı üçün bu çox uğurlu üsul idi. Dramaturq Berlinin ən aşağı təbəqələrində bir-birilə üzləşmiş, sənət haqqında konservativ fikirli sabiq teatr direktorunun və aktyor olmaq naminə gələcək pastor karyerasını qurban verən müasir düşüncəli gənc tələbənin, kənd kilsəsinin pastorunun mübahisələrinin, söhbətlərinin vasitəsilə özünün çağdaş sənətə, dövrün siyasətinə, daim aktual olan həyat məsələlərinə, milli-mental dəyərlərə obyektiv münasibətini bildirmiş və hadisələrin gedişində reallığın həqiqi mənzərəsini yaratmağa çalışmışdır. Yazıçı heç kəsin öz yerində olmadığı bu cəmiyyətdə hər kəsin gərəksiz adama çevrildiyi, siçovul kimi ziyanverici, gəmirici olduğu qənaətindədir və onun fikrincə bu məsələdə məsuliyyət lüzumsuz qanunlarla idarə olunan sərişəsiz dövlətin siyasətinin boynuna düşür.

Süjetin əsasını əsərin baş qəhrəmanı Frau Johnun faciəvi taleyi təşkil edir və bu mərkəzdən hadisələrin inkişafı dramatik hərəkətin gərginliyini müəyyənləşdirir. Gerhard Friedrich Herring: "Mövcudluğu ilə qaranlıqda məskunlaşan, istirablarına sığınan Frau John ilə "Siçovullar" tragikomedyasında rastlaşdıq", "Angesiedelt im Zwielicht des Daseins, bestimmt zu einem Gefäß des Lebens, begegnet uns in der Tragikomödie "Ratten" Frau John" [2, s.40].

Əri Hamburqda daşyonan kimi çalışır. Frau John çox xeyirxah və zəhmətkeş qadındır. Xəstəhal, vəhşixislət qardaşının, ailəsinin, qonşuluqda yaşayan avara həyat tərzi keçirən qadının iki uşağının qayğısı onun üzərindədir. Frau John fəaliyyətini dayandırmış və çardağında çoxlu sayda rekvizit, dekor saxlanan teatrda xidmətçi işləyir. Oğlu körpə ikən xəstələnib öləndən sonra o heç cür ovuna bilmir, ona analıq

sevincini qaytara biləcək yeni körpə haqqında fikirləşir. Bu arada Polşadan şəhərə işləməyə gəlmiş yüngül xasiyyət gənc qulluqçu Paulina Piperkarcka nigahdan kənar doğulacaq uşağından can qurtarmaq üçün Frau Johna pul qarşılığında körpəsini verməyə razılaşır. Frau Johnun faciəsi elə buradan başlayır.

Dramaturq Berlinin ən aşağı təbəqələrində bir-birilə üzləşmiş, sənət haqqında konservativ fikirli sabiq teatr direktorunun və aktyor olmaq naminə gələcək pastor karyerasını qurban verən müasir düşüncəli gənc tələbənin, kənd kilsəsinin pastorunun mübahisələrinin, söhbətlərinin vasitəsilə özünün çağdaş sənətə, dövrün siyasətinə, daim aktual olan həyat məsələlərinə, milli-mental dəyərlərə obyektiv münasibətini bildirmiş və hadisələrin gedişində reallığın həqiqi mənzərəsini yaratmağa çalışmışdır. Yazıçı heç kəsin öz yerində olmadığı bu cəmiyyətdə hər kəsin gərəksiz adama çevrildiyi, siçovul kimi ziyanverici, gəmirici olduğu qənaətindədir və onun fikrincə bu məsələdə məsuliyyət lüzumsuz qanunlarla idarə olunan sərişləsiz dövlətin siyasətinin boynuna düşür.

G.Hauptmann bu məsələni Erich Şpittanın və keçmiş teatr direktoru Harro Hassenreuterin dili ilə çatdırır. Şpittanın "*Qanun qarşısında olan kimi incəsənətin qarşısında da bütün insanlar bərabərdir, cənab direktor" ("Vor der Kunst wie vor dem Gesetz sind alle Menschen gleich, Herr Direktor") cavabından əsəbləşən direktor: "Siz siçovulsunuz! Bəli siçovulsunuz! Belə siçovullar siyasətdə bizim ecazkar vahid Almaniya imperiyamızın ayaq altını eşir. Bu siçovular nə bəladır belə. Onlar bizi əməyimizin mukafatından məhrum edirlər. Alman incəsənətinin bağında isə onlar alman ideallarının möhtəşəm ağacının köklərini qırırlar. Bu kökləri çamurda tapdamaq istəyirlər. Toz kimi əzmək lazımdır sizi, toz kimi" ("Sie sind eine Ratte! Aber diese Ratten fangen auf dem Gebiete der Politik-Rattenplage! - unser herrliches neues gereinigtes Deutsches Reich zu unterminieren an. Sie betrügen uns um den Lohn unserer Mühe, und in Garten der deutschen Kunst-Rattenplage! – fressen sie die Wurzeln des Baumes des İdealismus ab: Sie wollen die Krone durchaus in den Dreck reißen,- in den Staub in den Staub mit euch"*) [1, s.487].

Teatr direktoru Hassenreuterlə bağlı epizodlar nə qədər cazibədar olsa da, yeri gəlmişkən, çox vaxt şairin öz gənclik təcrübələrindən qaynaqlanır, dramın qirişində gərginlik azalır. Faciənin yeni texnikası yaranır [3, s.443]. Dram boyu bütün qəhrəmanlar müəllifin remarkada Berlinin təsvirini verdiyi kimi "səs-küy" içindədir; ata Şpitta oğul Şpittayla, teatr direktoru qızı Valburqayla, Şpttayla, gənc aktyorlarla, John bütün ətrafıyla öcəşir, haqlı olduğunu sübut etmək üçün əsəbi mübahisələrə girişir və bu diskusiyalar elə təfərrüatlıdır ki, şahidlik edən seyrçi obyektiv olmaq istəsə, hər kəsin öz fikrində haqlı olduğu qənaətinə gələr.

O zamanlar iş tapmaq, uğurlu həyat qurmaq ümidilə kəndlərdən şəhərə axışıb gələn sadəlövh qızların tipik nümayəndəsi Paulina öz sevgisini yenidən qazanmaq, bacısından başqa hamının vahimə dolu ikrahla yanaşdığı Bruno insan olduğunu təsdiq etmək naminə mənasız və çılğın çabalar girdabındadır. Yəni, tamaşa boyu hamı hərəkətdədir, hamı danışır, amma heç kəs əməli, əhəmiyyətli bir işlə məşğul

deyildir. Bu kütlənin içərisində fəaliyyəti görünən, nə istədiyini dəqiq bilən yeganə adam Frau Johndur ki, çox çətinliklə öz arzusuna çatmış və onu həyata bağlayan yeganə səbəb uğrunda mübarizəyə hazırdır. Yəni həyatın bütün çətinliklərini adlamış bu qadın üçün ailəsi, ailəsinin nizamlı durumu hər şeydən önəmlidir. Ömrü boyu xoşbəxt görmək istədiyi həyat yoldaşı ən çətin anında ondan imtina edəndə bu qadın bəlkə də ilk dəfə bihudə yerə bu insana ömrünü, ağır əməyini sərf etdiyini başa düşür və çox acınacaqlı dərketmə anında həyatına son qoymağı qərara alır. Nəticədə, qayğı və sevgi ilə əhatə olunmuş bir körpənin uğurlu gələcəyi, xoşbəxtliyi əlindən alınır. Həqiqi ana məhəbbətindən məhrum, gerçəkliyin burulğanında boğulmağa məhkum olan yüzlərlə bədbəxt taleli insanlardan, nifrətindən həyatını gəmirməyə hazır olan "siçovul"lardan birinə çevrilmə "perspektiv"inə təhkim edilir. Yazıçı bu körpənin, eləcə də Frau Knobbenin balaca qardaşının ana kimi qayğısını çəkən səfil yaşayışlı qızı Selmanın simasında gələcək nəslin aqibətinə də işarə vurur.

Teatr direktoru obrazı və onun gənc Şpitta ilə diskussiyası vasitəsilə müəllif özünün teatr sənəti haqqında fikirlərini ifadə edir. Yeniliyi qəbul etmək istəməyən mühafizəkar ruhlu direktorun sarkastik mövqeyinə rəğmən G.Hauptmann onu bədii sənəti duymaq, nüfuzunu qorumaq imkanında olan bir incəsənət adamı kimi təsvir etmişdir. Bununla belə ədib yüksək pafoslu patetik monoloqları ilə yaddaşa həkk olunan bu teatr inzibatçısının fikirləri ilə II Vilhelm zamanının ədəbi-bədii mühitinin mənzərəsini yaradır və pyesdə geniş şəkildə mübahisələr fonunda incəsənət, dramatikliyin mahiyyəti, faciəviliyə müxtəlif münasibətləri önə çəkir. Pyesin strukturunu bir çox hallarda Hassenreuterlə aktyorluq həvəsi ilə onun truppasında fəaliyyət göstərən istedadlı Erix Şpittanın aktyorluq sənəti, faciə janrı haqqında mübahisələri müəyyənləşdirir. Hassenreuter klassisizmi, onun zahiri pafosunda ifadə olunan assosiativliyi müdafiə edir, Şpitta isə Götenin, Şillerin erkən yaradıcılığına istinad edərək sübut etmək istəyir ki, incəsənət silklər arasında fərq qoymadan həyatı tamlığı, reallığı ilə əhatə etməlidir və bu missiyası ilə bəşəri münasibətlər arasında körpü olacaq ən yaxşı vasitəyə çevrilməlidir.

Faciə silkindən asılı olmayaraq insanın gündəlik həyatının daxilində, bəlkə də əhəmiyyət vermədiyimiz olayların içərisində yaşanır və pyesin finalında Frau Johnun aqibəti gəncin fikirlərinin sübutu kimi özünü doğruldur. *Frau John: Paul!!- Nu soll et nich leben! Nu jerade! Nu ooch nich! Nu brauch et nich leben! Nu muss et mit mich mit unter de Erde komm* [1, s.544].

Berlinin siçovullar tragikomediyası tamamilə genişmiqyaslı aldadıcı manevr üzərində qurulub. Layiqli, namuslu bir sənətkar, həddindən artıq ana həvəsi ilə özünü bir kəniz uşağının anası kimi göstərir və beləliklə, təkcə özünü deyil, həm də onun əhatəsində olan insanları, dövrün mənzərəsi özünü faciəvi şəkildə büruzə verir. Bununla belə, hər kəs onun arzusuna mane olsa belə, Frau Johnun sadəcə olaraq ətraf mühitin qurbanı kimi qəbul etmək olmaz. "Sevgisi, dəlilik həddinə qədər çatır" tərəfindən törədilən cinayət əməllərinə görə o, "siçovul fiquru"na çevrilir və özü də

cəmiyyətdə “fırıldaqçılıq, eqoizm və hamının hamıya qarşı mübarizəsi” ilə nəticələnir.

Sənayeləşmə və bunun nəticəsində əhalinin sürətlə artması həyat şəraitinin pisləşməsinə səbəb oldu. İnfrastruktur əhali kütləsi üçün nəzərdə tutulmamışdı və onları yerləşdirmək üçün çoxlu kazarmalar tikilməli idi. G.Hauptmann bu əsərində proletar mühitin, Vilhelm dövlətindəki sinfi ziddiyyətləri, həyatlarını dəyişməyə çalışan kiçik insanların faciəsini bir daha naturalist boyalarla həqiqi mənzərəsini yaradıb.

Ədəbiyyat:

1. Gerhart Hauptmann Gesammelte Werke Anaconda Verlag GmbH, Köln 2017, 766 s.
2. Gerhart Hauptmann Die Ratten C.Bange Verlag-Hollfeld 1996, 78 s.
3. J.Gregor Gerhart Hauptmann : Das Werk und unsere Zeit. Amazon 1951, 443s.
4. Joachim Bark, Dietrich Steinbach, Hildegard Wittenberg Vom Naturalismus zum Experssionismus Literatur des Kaiserreichs Ernst Klett Schulbuchverlag 1997, 18
5. Peter Sprengel: Die Wirklichkeit der Mythen. Untersuchungen zum Werk Gerhart Hauptmanns aufgrund des handschriftlichen Nachlasses. Berlin: Schmidt, 1982. 418 s.
6. Rudolf Mittler: Theorie und Praxis des sozialen Dramas bei Gerhart Hauptmann. Hildesheim: Olms, 1985 (Germanistische Texte und Studien). 420 s.
7. https://www.studysmarter.de/schule/deutsch/drama/die-ratten/

SEVINJ MAMMADOVA

SOCIO-POLITICAL ENVIRONMENT OF BERLIN IN "RATS" BY GERHART HAUPTMANN.

SUMMARY

Gerhart Hauptmann, a prominent figure in the history of German literature, was awarded the Nobel Prize in 1912 for his literary and artistic creations. He started his work at the end of the 19th century and attracted the attention of literary critics with his original works, created interesting works of art and was recognized as a dramatist in the history of world literature. G. Hauptmann is an innovative dramatist, the homeland, the people, the dialect, the life of ordinary people were the material of his best dramas. During his career, he wrote forty-two dramas, more than twenty novels, comedies, stories, poems and memoirs in various genres. His drama opened up new opportunities for the development of naturalism in German drama.

In the tragicomedy of rats, the real Berlin is depicted - an environment where ideas and ideology, miseries, diseases and hardships gather. The dramatist showed the events in the social environment, the vortex of fateful economic and social restrictions rolling into the abyss in his work "Rats", and it will probably never lose its literary expression and relevance. At the end of the 19th century, Berlin was experiencing a serious crisis due to rapid population growth and social impoverishment.

In his famous drama Rats, the writer tried to expose the ugly social relations and the dangerous face of misogyny within the framework of the family drama. Rats are selfish animals that evoke revulsion and disgust in most people, but they are also intelligent. The characters of the play frequent a dusty, neglected and dark attic, where one would most likely expect such animals. In addition, one can pursue a selfish and self-centered behavior in almost all people. Individual characters represent different aspects of social society, each of them "eats", "destroys" by performing the function of a rat.

Key words: *naturalism, social drama, environment, tragicomedy, rat, woman*

СЕВИНДЖ МАМЕДОВА

СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКАЯ СРЕДА БЕРЛИНА В «КРЫСАХ» ГЕРХАРТА ГАУПТМАНА.

РЕЗЮМЕ

Герхарт Гауптман, выдающийся фигура в истории немецкой литературы, был удостоен Нобелевской премии в 1912 году за свои литературные и художественные произведения. Он начал свою деятельность в конце XIX века и привлек внимание литературоведов своими оригинальными произведениями, создал интересные произведения искусства и был признан драматургом в истории мировой литературы. Г. Гауптман — драматург-новатор, родина, народ, диалект, жизнь простых людей были материалом его лучших драм. За свою карьеру он написал сорок две драмы, более двадцати романов, комедий, рассказов, стихов и мемуаров в различных жанрах. Его драматургия открыла новые возможности для развития натурализма в немецкой драматургии.

В трагикомедии о крысах изображен настоящий Берлин - среда, где собираются идеи и идеология, невзгоды, болезни и невзгоды. События в социальной среде, катящийся в пропасть вихрь роковых экономических и социальных ограничений драматург показал в произведении «Крысы», и оно, наверное, никогда не потеряет своей литературной выразительности и актуальности. В конце 19 века Берлин переживал серьезный кризис из-за быстрого роста населения и социального обнищания.

В своем знаменитом произведении «Крысы» писатель попытался в рамках семейной драмы разоблачить уродливые общественные отношения и опасный

лик женоненавистничества. Крысы — эгоистичные животные, вызывающие отвращение и отвращение у большинства людей, но они также умны. Герои пьесы часто посещают пыльный, заброшенный и темный чердак, где, скорее всего, можно было бы ожидать таких животных. Кроме того, почти у всех людей можно преследовать эгоистичное и эгоцентричное поведение. Отдельные персонажи представляют разные стороны социального общества, каждый из них «съедает», «уничтожает», выполняя функцию крысы..

Ключевые слова: *натурализм, социальная драма, окружающая среда, трагикомедия, крыса, женщина*

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmlər doktoru, professor Sevinc Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

XƏLİLOVA QƏRİBƏ
müəllim
Gəncə Dövlət Universiteti

İNSANIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA CAVİD YARADICILIĞININ YERİ VƏ ROLU

Açar sözləri: azadlıq, məhəbbət, ədəbiyyat, dramaturgiya, təsir, xalq, gənclik, vətəndaş.

Ключевые слова: свобода, любовь, литература, драматургия, влияние, народ, молодежь, гражданин.

Key words: freedom, love, literature, dramaturgy, influence, people, youth, citizen.

XIX əsrdə ədəbiyyatımızda başlayan dəyişmə və yeni istiqamətli inkişaf XX əsrin əvvəllərində yüksək pilləyə çatdı. Bu mərhələ bir çox ədəbi janrların yaranması ilə yanaşı, ədəbiyyatımızda yaxın ideya-estetik görüşlü şair və yazıçıların yeni ədəbi cərəyanlar yaratması ilə də diqqəti cəlb edir. XX əsrin əvvəllərində realizm, romantizm, sentimentalizm və s. cərəyanların yaranması buna sübutdur. Romantizm və realizm dövrün əsas ədəbi cərəyanlarıdır. Bu bir həqiqətdir ki, XX əsr romantik ədəbiyyatımız - da iki böyük mütəfəkkir, iki böyük dahi, filosof-şair olmuşdur: Məhəmməd Hadi, Hüseyn Cavid. Sovet ideologiyası nə Azərbaycan romantizminin, nə də onun əsas təmsilçilərinin yaradıcılığını, ideya-məfkurəvi istiqamətini obyektiv şəkildə öyrənməyə imkan vermirdi. Cavid yaradıcılığı Azərbaycan romantizmi tarixində özünəməxsus bir yer tutur. İnsan ruhunun, onun gerçək aləmə münasibətinin öyrənilməsində çox böyük rola malik olan Cavid romantizminin tədqiqi, ideyalar aləminin müxtəlif aspektlərdən öyrənilməsi, tarixə və çağdaş zamana münasibətinin qabarıq şəkildə tədqiqata cəlb edilməsi, məfkurəsinin dərindən araşdırılması ədəbiyyatşünaslığımızın həmişə aktual problemlərindən olmuşdur. 20-ci illərdən bu tərəfə cavidşünaslıq uzun və çox çətin bir yol keçmişdir. Amma Cavidin bütün yaradıcılığına, o cümlədən dramlarına tədqiqatçılar tərəfindən eyni mövqedən yanaşılmamışdır. Bizim ideologiyamıza, şüurumuza özümüzü dərk etmək baxımından təsir edəcək fikirlərin açılmasının, Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası mövqedən yazılan əsərlərin üzə çıxarılmasının qarşısının alınmasının, tarixlərin gizlədilməsinin və ya təhrif edilməsinin zamanı keçmişdir. Faktlara obyektiv yanaşma, ideoloji yönləndirməni üstələməkdədir. Məhz belə bir şəraitdə Cavid kimi sənətkarların yaradıcılığının tədqiqi bir daha aktuallaşmaqdadır. Müasir ədəbiyyatşünaslığımızın bir çox problemlərinin həlli baxımından Cavid yaradıcılığına müxtəlif istiqamətlərdən müraciət etmək olar.

Azərbaycan ədəbiyyatı tarixində türkçülük məhəbbəti ilə yeni bir çığır açmış, həyatını xalqının azadlığı yolunda fəda etmiş, onun bədii - ictimai təfəkküründə əbədi yer tutmuş, dözülməz məşəqqət və mərhumiyyətlərə mərdliklə sinə gərməklə

mətanətlə tab gətirmiş Cavidin yaşadığı sağlam həyat tərzi, onun həmvətənlərinin, xüsusilə də gənclərin fiziki təkmilləşməsi üçün bir örnəkdir. Şairin zəngin yaradıcılıq yolunun ümumi pafosu göstərir ki, bu etiraf, bu müddəa tamamilə doğrudur. Son dərəcə mürəkkəb bir həyat və yaradıcılıq yolu keçən Cavidin ilham pərisi daim həqiqət eşqi ilə qanad çalmış, həqiqət eşqi ilə alovlanıb yanmışdır. Həqiqəti axtarıb tapmaq, ona qovuşmaq yollarında bəzən şübhələr, tərəddüdlər keçirən şairin ilham pərisi bəzən əngin səmalarda, tarixin dərinliklərində qanad çalsa da, o, heç bir vaxt öz idealından – həqiqətdən ayrılmamış, bütün yaradıcılığı boyu onu insanlara aşılamağa, həqiqətin çətin yollarını onlarla göstərməyə çalışmışdır. Bütün böyük sənətkarlar kimi, H.Cavid üçün də həqiqətin ancaq bircə mənası vardır ki, bu da öz doğma xalqını azad, xoşbəxt və mədəni görmək, ana Vətənə xidmət etmək arzusudur. Hələ gəncliyində dostlarından birinə göndərdiyi məktubda Cavid yazırdı: "... indi əsl məqsəd Vətənə xidmət, həm də layiqincə xidmət etməkdədir." Bu cəhət əsrimizin əvvəllərində təşəkkül tapıb müstəqil ədəbi məktəb kimi fəaliyyət göstərən mütərəqqi romantizmin nümayəndələrini, o cümlədən Hüseyn Cavidi tənqidi realizmə yaxınlaşdırırdı. O zaman Cavid, Hadi, Səhhət, Şaiq kimi romantiklər yaradıcılıqlarının əsas ruhu etibarilə tənqidi realistlərlə demək olar ki, bir cəbhədə dayanır, bir ideala xidmət edirdilər. Lakin bəzi tənqidçilər o dövrün ədəbi prosesini tədqiq edərkən bunu nəzərə almır, romantiklərin, o cümlədən Hüseyn Cavidin yaradıcılığını zamanın ümumi ədəbi axarı ilə bağlamayıb təcrid olunmuş şəkildə öyrənirlər. Bu kitaba daxil olan bəzi məqalələrdə də bu meyl hiss edilməkdədir. Əlbəttə, bu, elmi-metodoloji cəhətdən yanlış yoldur. Bu və ya digər sənətkarın yaradıcılığı haqqındakı tədqiqat o zaman tam təsir bağışlayır ki, dövrlə, zamanla, zamanın ümumi ədəbi inkişafı ilə sıx əlaqələndirilsin. Məlumdur ki, əsrimizin əvvəllərində tənqidi realistlərin və mütərəqqi romantiklərin yazıb yaratdığı dövr inqilablar dövrü idi. Çarizmin, kapitalist və mülkədar cəmiyyətinin siyasi, maddi-mənəvi buxovundan xilas olmaq uğrunda mübarizə də dövrün başlıca xüsusiyyəti idi. [1, 117]

Keşməkeşli və əzablı bir həyat yolu keçmiş H.Cavid əqlin qüdrəti, zəkanın hünəri ilə yanaşı, hətta uzaq Sibirin sərt iqliminə yalnız mətin xarakteri, dəmir iradəsi, sağlam vücudu və mənəvi dözümü ilə tab gətirə bilmişdir. Mərhum tənqidçi M.Əlioğlu haqlı olaraq göstərirdi ki, Hüseyn Cavidin sənəti, görüşləri və yaradıcılıq taleyi haqqında düşünərkən fikrmizin fövqündə çox əzəmətli və məğrur bir sima, incə, həssas, həm də son dərəcə qüdrətli bir istedad canlanır. Müasirlərin qeyd etdiyi kimi, şəxsi həyatında mütəhərrikliyə, fiziki məşğələlərə, bədən tərbiyəsi hərəkətlərinə, piyada gəzintiyə, habelə fiziki əməyə böyük həvəs göstərən ədib, bütün bunların sayəsində geniş qəlbli, sağlam vücudlu, möhkəm bədənli və olduqca təkidli bir şəxsiyyət kimi yaddaşlarda qərarlaşır. Təmiz havada piyada yerişlə gəzməyə daha çox diqqət yetirən, istər uşaqlıqda, istərsə yetkin yaşlarında fiziki işdən çəkinməyərk, bağ işləri və digər sahələrdə zəhmətlə qatlaşmağa üstünlük verən

Cavid, məhz bunların sayəsində uzaq Sibirdəki sərt iqlim, şiddətli şaxtaya dözə bilərdi.

Keçən əsrin əvvəllərində xalqımızın maariflənməsi yolunda misilsiz xidmətləri olmuş Cavid Naxçıvan, Tiflis, Bakı və s. kimi şəhərlərdə gənc nəslin təlim-tərbiyəsi işində müəllim kimi böyük fəaliyyət göstərmişdir. Cavid millətimizin gələcəyi olan övladlarımızın taleyi, bütövlükdə türk gəncliyi, çağdaş Turan dövlətinin möhtəşəmliyi və əzəmətini yüksəldərək cocuqların geniş ensiklopedik biliyə, dərin edudisiyaya və dünyagörüşünə malik olmaq arzusu ilə yanırdı.

Böyük maarifçi, humanist insan və alovlu vətəndaş Hüseyn Cavid millətinin cocuqlarına şənlik, fərəh və şadlıq gətirən fiziki inkişafı, fiziki möhkəmliyi, hər şeydən öncə, onların həyatının başlıca qayəsi kimi təsbit edirdi. O, insanı istər cismən, istərsə də ruhən sağlam, gümrah, nikbin həyata hazır çox qərəzli bir varlıq kimi görmək istəyirdi.

Vətənini, millətini alovlu, sonsuz məhəbbətlə sevməsi, Cavidi xalqının gələcəyi olan gənclərin sosial problemləri ilə yanaşı sağlamlıq, fiziki tərbiyə məsələləri də çox ciddi narahat edir və onu bu mövzuda bir sıra məqalələr yazmağa təsviq edir. Məktəblər, səhhəti ixlal etməyəcək dərəcədə havadar, uca yerlərdə yapılmalıdır. Pis, murdar, üfunətli yerlərdən uzaq olmlıdır. Xəstəxana, həbsxana, məzarıstan kimi yapı (bina)lara yaxınlaşmamalıdır. Xırıltı, gurultusu çox olan mövqelərə yanaşmamalıdır. Məktəb binası mümkün dərəcədə günəş yerlərdə vaqe olmalı, rütubəti çox olan yerlərdən həzər edilməlidir. Günəşə mane olacaq kölgələr ilə mühat olmalıdır. Çünki çox xəstəliklərin günəşsizlik və rütubət üzündən vücuda gəldiyi aydın bir həqiqətdir.

"Günəş girməyən yerə təbiblər girər" məsəli məşhuri-aləmdir. Buracıqda bir az haşiyə çıxmaq istərəm. "Rütubət" sözilə "tərbiyə" kəlməsini düşündükcə Naxçıvandakı "Məktəbi-tərbiyə" ilə onu istila edən müzürri-səhhət rütubəti xatırlamamaq bir dürlü əldən gəlməyir".

Böyük ədibin fikrincə, məktəb şəraitində sağlamlığa xidmət edən ümdə imkanlardan istifadə edilməsi həmin vəzifələrin yerinə yetirilməsinə bilavasitə zəmin yarada bilər. Xalqının gözəl gələcəyi olan, onun tarixini, mədəniyyətini, iqtisadi varlığını mənəvi dəyərlərini, Vətən, torpaq tənsibini, onun dövlət bütövlüyünü qoruya biləcək təpəli, qeyrətli övladların əqli və fiziki kamilləşməsindən narahat olan Cavid yazır: "Məktəbin dörd-beş arşın (rus arşını) enində geniş bir dəhlizi (koridoru) və tənəffüsxanəsi olmalıdır. Hər məktəbin mümkün dərəcədə özünəməxsus bir də gözəl bağçası olmalıdır ki, cocuqlar orada sərbəst gəzinə bilsin, saf, təmiz hava ala bilsin".[2, 142]

Səriştəli bir pedaqoq, müqtədir maarif xadimi olan H.Cavid insanın şəxsiyyət kimi formalaşmasında, onun hərtərəfli və ahəngdar inkişafında təlim və tərbiyənin əhəmiyyəti, məktəb və müəllimin rolu və s. vacib problemləri əks etdirən məqalələrinin birindəki "Həsbi-hal"da buna daha geniş izahat verir. Avropanın Kant, Spenser kimi dahi filosof və qabaqcıl pedaqoqların fikir və mülahizələrinə istinad

edən yazıçı, təhsilin təkmilləşməsində təlimin müstəsna rolunu xüsusi vurğulayaraq qeyd edir ki, "Elmi - həyat, məktəb şagirdlərinin yeyib-içmək, gəzib-oturmaq, zəif və qüvvətli olmaq kimi hallarından bəhs edir. Bədənin və bədəndə olan məşvü-nümanın hansı təsir ilə və nə səbəblə dəyişə biləcəyini göstərir".

H.Cavid təkrarən böyük ingilis filosofu və sosioloqu Herbert Spenserin ailədə uşaqların fiziki tərbiyəsinə və onların sağlamlığının qorunub saxlanılması işində yuxu, qida, hava, su, rejim və sair kimi təbii və gigiyenik amillərin roluna əməl olunması barədə onların mütərəqqi ideyalarını bəyənərək yazırdı: "Ailə tərbiyəsi və səhhəti - bədən vücud sağlamlığı həyati - bəşəriyyətin ən mühüm əsasını təşkil edir. Vücudun sağlam olmasının yeganə səbəbi və müəssiri isə ata - anadır".

H.Cavid məktəblilərin sağlamlıqların mühafizə olunmasında, onların mərd, mübariz və dəyanətli şəxslərtək böyükməsində hər bir müəllimin ustalığı, pedaqoji məharəti müqəddəm şərtlərdən hesab edir. Görkəmli pedaqoqa görə, təcrübəli müəllimin pedaqoji səriştəliliyi və taktı uşağın hərəki inkişafına, fiziki mütəhərrikliyinə, onun əqli yetkinliyinə, fikir çevikliyinə və geniş təxəyyülün mütabiq şəkildə müsbət təsirini göstərir: "... müəllimlər daima cocuqların sıra üzərində aldıqları vəziyyətə diqqət eyləməlidir. Fəna vəziyyətlər boyun, kürək, bel gəmiklərini əyir, gəmiklər əyildikdə əzayi-daxili də böyük zərərlər görmüş olar. Bu zərərlər bədənin xarici, daxili əzasından başqa, fikir üzərində də təsir edir. Fikrin müstərih və oyanıq olması üçün hər halda baş şaquli (dik) bir vəziyyət almalıdır. Öylə olmazsa təbii qan dimağ (beyin) də sərbəstcə cövlan edəməz. Beyin qanın cərəyani-sərbəstanəsindən mərhum olunca fikirlər, duyğular da məhdud və əqim qalmış olur. Çünki dimağ qan ilə, əfkar və ehtisasat da dimağ ilə ərzi - fəaliyyət edər".[3, 89]

Yaradıcılığında ilhamla yaratdığı və şəxsiyyətinə pərəstiş etdiyi türk dünyasının bəşəriyyətə fikir və qılınc bahadır kimi ərməğan bulduğu Əmir Teymurun öz müəllimləri olan sevgi və sayqısı sevgi ənənəsindən Cavidin də qanına, iliyinə sızamışdı. Təsadüfi deyil ki, qan atası qədər sevdiyi M.T.Sidqiyə, Qurbanəli Q.Şərifzadəyə, Abdulla Sura yazdığı məktublardan bir daha bəlli olur ki, Cavid təkcə yüksək pedaqoji ustalığa, dərin pedaqoji taxka, əxlaqa malik olmaqla bərabər, həm də öz ustadların rəğbəti duyulurdu.

H.Cavidin fikrincə, müəllimlər uşaq və gənclərin əqli və şüurunu təhsil və savadla təmin etməklə yanaşı, həm də onların fiziki sağlamlıqlarının yüksəlməsi və möhkəmləndirilməsinə diqqət yetirilməsini təqdirə layiq hesab edirdi. Bunlardan biri əgər fiziki hərəkətlər, idman məşğələləri və s. kimi tədbirlərdirsə, digəri isə onların sağlam həyat tərzinin təmin edilməsidir. Buraya uşaq və gənclərin spirtli içkilərdən, tütün və siqaretlərdən, narkotik maddələrdən çox zəruri məsələyə çevrilməlidir. Müəllif burada əcnəbi ölkələrin maarif sistemindəki bəzi naqis ənənələrdən nümunələrə də toxunur. O, yazır: "Müəllim nədir?

Yaponiyanın qəhrəman milləti Mikadonun şərəfinə deyil, Yaponiya müəllimlərinin şərəfinə idareyi-əqdah etdilər, həm də insanı sərsəm edən, əql və

şüurunu məhv edən şərab, rakı (vodka) içməyib, cənab-həqqin mən etmədiyi ən təmiz, saf və gözəl su içdilər. Onlarca Yaponiyanın tərəqqisi, oynaqlığı, maarifpərvərliyi həp, həp müəllimlər sayəsində olmuşdur". [4, 125]

Böyük dramaturqun "Məktublar"ı arasında 1902-ci ilin 14 haziran - iyulunda haqqında "Bir an, əvət bir an belə elm və və maarif günəşinə pərəstiş etməkdən geri durmazdı" deyən maarifçilik xidmətlərini, pedaqoji səriştəsini və insanlıq keyfiyyətini yüksək dəyərləndirdiyi dostu və sirdaşı Qurbanəliyə Şərifzadəyə yazdığı məktubda təlris ocaqlarımızda bədən tərbiyəsi və idmanın inkişafına lazımi diqqət yetirilməsinin əhəmiyyətini qeyd edir. H.Cavid göstərir ki, sağlam və gümrah nəslin təşəkkülündə fiziki tərbiyə mühüm amil kimi çıxış edir, bu işin müvəffəqiyyətli həllinə isə yalnız məktəblərdə nail olmaq mümkündür. Odur ki, hərtərəfli və harmoniyalı gənclərin tərbiyə olunmasında məktəblərin və təhsilin səviyyəsi ən zəruri məsələlərdəndir. Tərbiyeyi-mədəniyyəyə gəlincə... iranlıların və Qafqazın hənuz mədəniyyətə yaxlaşmamış tərəflərinin atisini iyirmi, otuz sənəyə qədər çox zəhmətli və qaranlıq görürəm. Neçin? - deyəcəksiniz... Çünki əsas yoxdur, əfəndim, əsas!? Əsası, kökü bərkitmək üçün yalnız "evolyusion-qanuni-təkamülə" ehtiyac vardır. Cüzi və səthi bir idman və mümarisə istər, yoxsa işdə əsas olmaz isə, inqilab heç bir fayda verməz. Fəqət məmafih mən Qafqazın istiqbalını - İrana nisbətlə - daha ziyadə parlaq görürəm... Bizə yalnız məktəb lazımdır, bütün inqilağati - mədəniyyə həp məktəb məhsuludur...[5, 214]

Əlbəttə, Hüseyn Cavidin yaradıcılığının müəyyən mərhələlərində yazıçının məlum ziddiyyətləri də olmuşdur. Lakin bunu ancaq Cavidin şəxsi ziddiyyətləri kimi izah etmək səhv olardı. Bu ziddiyyətləri konkret ictima-siyasi şəraitin mürəkkəbliyindən doğan bir hal kimi qiymətləndirmək lazımdır. H.Cavid mənalı həyat və yaradıcılıq yolu keçmiş, insanpərvərlik, həqiqət, ədalət, sədaqət, mərdlik, gözəllik kimi nəcib yüksək bəşəri keyfiyyətlər tərənnüm edən, istismar dünyasına, dini xurafata sonsuz nifrət bəsləyən görkəmli söz ustadıdır, ədəbiyyatımıza gözəl səhnə əsərləri, möhtəşəm faciələr bəxş edən böyük humanist sənətkardır. O, inqilabdan sonrakı illərdə marksizmleninizm ideologiyasının təsiri altında inkişaf edərək sovet yazıçısı olmuşdur. H.Cavid sosializm quruculuğunu alqışlayan, beynəlxalq imperializmi, faşizmi, istila məqsədi güdən müharibələri ifşa edən böyük şair və dramaturqdur. Azərbaycan ədəbiyyatı, Azərbaycan teatrı tarixində H.Cavidin özünəməxsus fəxri yeri vardır. Hüseyn Cavid artıq öz həqiqi qiymətini almışdır. Vaxtilə onun haqsız tənqid edilən əsərləri indi böyük tirajlarla nəşr edilib yayılır, biz onları maraqla oxuyur, böyük sənətkarı daha dərin, daha çoşğun məhəbbətlə sevirik.

Cavidi qeyriadi edən onu bir çoxlarından üstünlüyü də yalnız bu ağılla, dərrakə ilə, fəhmlə bağlı incəliklər, zərifliklər idi. H. Cavid, S. Vurğun, C. Cabbarlı, S. Hüseyn, M. Müşfiq və b. ədiblərimiz milləti qüvvətli olmağa, həyat mübarizəsində qalib gəlməyə, millətlər arasında dostluğa, qardaşlığa səsləyirdilər. Onların hər birinin, xüsusən də H. Cavidin məsləki, məzhəbi insana məhəbbət, qadına məhəbbət,

insanlar arasında məhəbbət, maarifə, mədəniyyətə can atma, mütərəqqi ideyalara meyl, bədxahlığa, iblisliyə ikrah hissi, insanlaşdırmağa çağırırdı.

Sosializmin "nailiyyətlər"indən mənasız əsərlər yazmağı öz qələminə rəva görməyən, dövrün məqam sahiblərini mədh etməkdən qətiyyətlə boyun qaçıran Hüseyn Cavidin buna görə qəzəbə gəlməsi, repressiyaya məruz qalıb Sibir buzlaqlarına, Maqadana sürgün edilməsi və 5 dekabr 1941-ci ildə - ömrünün yaradıcılıq üçün ən kamil dövründə kimsəsiz, pasibansız bir durumda vəfat etməsi ictimai fikir tariximizin nə qədər ağır sınaqlardan keçdiyini, bu tarixi yaratmış insanların nə qədər çətin şərtlərlə üz-üzə olduqlarını, amma bütün məşəqqətlərə rəğmən yenə də prinsiplərindən geri çəkilmədiklərini göstərir.

Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətənimizə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması, adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir. Bu gün də Hüseyn Cavid kimi şəxsiyyətlərimizin xatirəsinə göstərilən ehtiram, sevgi onların yarıda qırılmış talelərinin böyük təsəllisi, əbədiyyət ömrünün davamıdır.

Beləliklə, Azərbaycan ədəbiyyatının zənginləşməsi sahəsində misilsiz xidmətlərə malik, bütün dövrlərin böyük oğlu kimi sözü ilə əməli qırılmaz vəhdətdə olmuş Cavidin igidlik və qəhrəmanlıq motivləri ilə bağlı təbliğ və təşviqinə bu gün zamanın daha böyük ehtiyacı duyulur. Etiraf etməliyik ki, şanlı tarixinə, şöhrət və şərəf gətirən, bizləri zəfərə səsləyən Cavid harayına, onun Teymurunun nərəsinə, Teymurunun qılıncına, Ərtoğrul hayqırtısına, Orxanın, Afətin, Azərin yenilməzliyinə, bahadırlığına çox böyük ehtiyac vardır. Və çox ciddi məsələ kimi qəti həllinə ehtiyac duyulur.

Ədəbiyyat:

1. Abbas Zamanov. Böyük sənətkar. Bakı, 1976.
2. Firudinbəy Köçərli. Seçilmiş əsərləri. Bakı, 1963.
3. Kamal Talıbzadə. XX əsr Azərbaycan tənqidi. Bakı, 1966.
4. H.Cavid. «Ana». Azərbaycan Universiteti nəşriyyatı, Bakı, 1957
5. Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı, «Gənclik», 1976

Xülasə

müəl. Xəlilova Qəribə Y. q

Azərbaycan ədəbiyyatı tarixində türkçülük məhəbbəti ilə yeni bir çığır açmış, həyatını xalqının azadlığı yolunda fəda etmiş, onun bədii - ictimai təfəkküründə əbədi yer tutmuş, dözülməz məşəqqət və mərhumiyyətlərə mərdliklə sinə gərməklə mətanətlə tab gətirmiş Cavidin yaşadığı sağlam həyat tərzi, onun həmvətənlərinin, xüsusilə də gənclərin fiziki təkmilləşməsi üçün bir örnəkdir.

Keşməkeşli və əzablı bir həyat yolu keçmiş H.Cavid əqlin qüdrəti, zəkanın hünəri ilə yanaşı, hətta uzaq Sibirin sərt iqliminə yalnız mətin xarakteri, dəmir iradəsi, sağlam vücudu və mənəvi dözümü ilə tab gətirə bilmişdir. Mərhum tənqidçi M.Əlioğlu haqlı olaraq göstərirdi ki, Hüseyn Cavidin sənəti, görüşləri və yaradıcılıq taleyi haqqında düşünərkən fikrmizin fövqundə çox əzəmətli və məğrur bir sima, incə, həssas, həm də son dərəcə qüdrətli bir istedad canlanır.

Böyük maarifçi, humanist insan və alovlu vətəndaş Hüseyn Cavid millətinin cocuqlarına şənlik, fərəh və şadlıq gətirən fiziki inkişafı, fiziki möhkəmliyi, hər şeydən öncə, onların həyatının başlıca qayəsi kimi təsbit edirdi. O, insanı istər cismən, istərsə də ruhən sağlam, gümrah, nikbin həyata hazır çox qərəzli bir varlıq kimi görmək istəyirdi.

Резюме

Пр.Халилова Г.Я.

МЕСТО И РОЛЬ ТВОРЧЕСТВА ДЖАВИДА В ФОРМИРОВАНИИ ЧЕЛОВЕКА КАК ЛИЧНОСТИ

Здоровый образ жизни Джавида, который своей любовью к тюркизму открыл новую страницу в истории азербайджанской литературы, отдал жизнь за свободу своего народа, занял вечное место в его художественном и общественном мышлении, мужественно переносил невыносимые лишения и утраты, его соотечественников, особенно является примером физического совершенствования молодежи.

Г.Джавид, проживший бурную и мучительную жизнь, смог выдержать суровый климат далекой Сибири, наряду с силой ума и мастерством интеллекта, только своим стойким характером, железной волей, здоровым телом и духовным выносливость. Покойный критик М. Алиоглу справедливо отмечал, что когда мы думаем об искусстве, встречах и творческой судьбе Гусейна Джавида, в нашем сознании оживает очень величественное и гордое лицо, тонкий, чуткий и чрезвычайно сильный талант.

Гусейн Джавид, великий просветитель, гуманист и ярый гражданин, определял физическое развитие и физическую силу главным камнем своей жизни, который приносит детям его народа радость, радость и счастье. Он хотел видеть человека очень предвзятым существом, будь то физически или психически здоровым, жизнерадостным, готовым к оптимистичной жизни.

Summary

Tch. Khalilova.Q.Y.

THE PLACE AND ROLE OF JAVID'S CREATIVITY IN THE FORMATION OF A MAN AS A PERSONALITY

The healthy lifestyle of Javid, who broke new ground in the history of Azerbaijani literature with his love for Turkism, sacrificed his life for the freedom of his people, occupied an eternal place in his artistic and social thinking, bravely endured unbearable hardships and bereavements, his countrymen, especially is an example for the physical improvement of young people.

H.Javid, who had a turbulent and painful life, was able to withstand the harsh climate of distant Siberia, along with the power of the mind and the skill of the intellect, only with his steadfast character, iron will, healthy body and spiritual endurance. The late critic M. Alioglu rightly pointed out that when we think about Huseyn Javid's art, meetings, and creative destiny, a very majestic and proud face, a delicate, sensitive, and extremely powerful talent comes to life in our minds.

Huseyn Javid, a great educator, humanist person and ardent citizen, identified physical development and physical strength as the main rock of their life, which brings joy, joy and happiness to the children of his nation. He wanted to see a person as a very prejudiced being, whether physically or mentally healthy, cheerful, ready for an optimistic life.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: dos. Axundova Nəzmiyə
tərəfindən çapa tövsiyə olunmuşdur

HACIYEVA NAZƏNDƏ
Gəncə Dövlət Universiteti
Heydər Əliyev, 187

MİRZƏ FƏTƏLİ AXUNDOVUN MÜTƏRƏQQİ İDEYALARI

Açar sözlər: ədəbiyyat, dramaturgiya, nəsr, inkişaf, düşüncə, ictimai-siyasi, müasir, əsər
Ключевые слова: литература, драма, проза, развитие, мысль, общественно-политическое, современное, произведение.
Keywords: literature, drama, prose, development, thought, socio-political, modern, work

XVIII əsr Qərbi Avropa maarifçiləri və XIX əsrin 40-60-cı illərinin rus maarifçiləri kimi Axundov da feodal-mütləqiyyət üsul-idarəsini və qayda-qanunlanın insanın təbii meyllərinə, sağlam ağlın tələblərinə uyğun gəlməyən, ölkənin iqtisadi-mədəni tərəqqisinə və bir qrup hakim feodal təbəqələr istisna olmaq şərti ilə, bütün xalqın - tacirlərin, sənətkarların, kəndlilərin mənafeyinə zidd bir quruluş saymış, bu quruluşun əsaslarını - dövlət idarə sisteminə, mülki, inzibati, hüquqi qayda-qanunlarına qarşı çıxmışdır. «Kəmalüddövlə məktubları»nda o, milli mənsubiyyətindən, hansı ölkədə hökmranlıq etməsindən asılı olmayaraq ümumən feodal hakimlərnin fəaliyyətinin, xarakter və psixologiyasının səciyyəvi, tipik cəhətlərini müəyyənləşdirərək yazmışdı ki, despot külli ixtiyara malik olur, işində və əməllərində heç bir qanuna, prinsipə riayət etmir. Despotik hökmdar öz ölkəsinin iqtisadi-mədəni tərəqqisinə laqeyd münasibət bəsləyir, zəhmətkeş kütlələrə zülm edir, onların var-yoxunu çapıb talayır, günlərini eyş-işrətlə keçirir. İstibdad üsul-idarəsi mövcud olan hər bir ölkədə özbaşınalıq, qanunsuzluq, ədalətsizlik hökm sürür, həmin ölkə iqtisadi-mədəni iflasa uğrayır, onun xalqı ən adi insani hüquqlardan, sosial və mənəvi azadlıqdan məhrum olur, ağır və məşəqqətli həyat sürür.

M.F.Axundov «Kəmalüddövlə məktubları» fəlsəfi traktatında İran dövləti və xalqının müasir vəziyyətini təsvir edərək yazırdı: İran dərin iqtisadi-siyasi tənəzzülə uğramışdır: şəhər və kəndlər bərbad hala duşmüş, sənaye, sənətkarlıq, ticarət və əkinçilik ağır iflasa uğramış, xalq kütlələri ağır sosial və mənəvi məhrumiyyətlərə düçar olmuşdur. İranın bütün dövlət idarələrində, maliyyə işlərində, məhkəmələrdə, polis və ordu hissələrində hərcmərclik hökm sürür. Ölkədə «nə bir qanun», «nə bir nizam», «nə də ixtiyari-müəyyən vardır". M.F. Axundov açıq söyləyirdi ki, İran dövlətinin, İran xalqının belə bir ağır vəziyyətə düşməsinə başlıca səbəb feodal üsul-idarəsi və başda şah olmaqla İran ali hakim dairələridir.

M.F.Axundov belə hesab edir ki, padşah xalqın hamisi olmalı, bir ata kimi ona məhəbbət bəsləməli, onun qayğısına qalmalı, xoşbəxtliyi və səadəti uğrunda

çalışmalıdır. Millət də padşahı ata kimi sevməli, ona dərin hörmət və ehtiram göstərməli, onun dayağı olmalıdır.

...Hazırkı əsrin əvvəllərinə qədər, təxminən on min ilin ərzində bütün peyğəmbərlər, filosoflar və şairlər zülmün aradan qaldırılmasını istəyərək belə bir əqidədə olmuşlar ki, onu aradan qaldırmaq üçün zalıma moizə oxuyub, nəsihət vermək kifayətdir. Ona görə də uzun müddət ərzində onlardan hər biri öz bildikləri kimi əqidələrini imkan daxilində təbliğ etmişlər.

Nəhayət, bu əsrin əvvəllərinə yaxın Avropanın Volter, Russo, Monteskye, Mirabo və başqa filosofları, natiqləri anlamışlar ki, zülmü aradan qaldırmaq üçün heç də zalıma müraciət etmək lazım deyildir, bəlkə əksinə, məzluma demək lazımdır ki: «Ey nadan, sən ki, qüdrət, səy və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur!» [1, 123]

Bu yeni konsepsiya M.F.Axundovun 1875-ci ildə Mirzə Yusif xanın «Yek kəlmə» adlı siyasi traktatı haqqında yazdığı eyni adlı məqaləsində daha bariz və aydın ifadə olunmuşdur. Mirzə Yusif xan «Yek kəlmə» əsərində İranın ağır iqtisadi-siyasi və mənəvi böhranından xilas edilib tərəqqi yoluna salınması və ölkədə konstitusiyalı monarxiya bərqərar olması barədə görüşlərini şərh etmişdir. M.F.Axundov «Yek kəlmə» traktatını təqdir edib İran ictimai-siyasi fikir tarixində maraqlı bir hadisə saysa da, onu iki ümdə xüsusiyyətinə görə tənqid etmiş, təsirsiz bir əsər adlandırmışdı.

Ömrünün son illərində M.F.Axundovun bir maarifçi kimi dünyagörüşü və fəaliyyətində əsaslı bir dönüş baş vermişdir. Artıq o, feodal-despot idarə-üsulunu yenisi ilə dəyişdirməyin dinc yolla, dövlət nümayəndələrinin yuxarıdan islahatlar verməsi yolu ilə əldə ediləcəyi «xülyalarından» qəti surətdə əl çəkmiş, bu işin yalnız xalq üsyanı vasitəsilə mümkün olması əqidəsinə gəlib çıxmış və tam inqilabi demokratik bir istiqamət tutmuşdur.

İstər müsəlman Şərqi, istərsə də Avropa və başqa dünya ölkələrinin tarixi ilə tanışlıq aydın göstərir ki, orta əsrlərin müəyyən dövrlərində bu və ya digər ölkədə ali feodal hakimlər və ruhanilər dindən ideoloji bir silah kimi istifadə edərək, öz ölkələrində qüvvətli mərkəzləşdirilmiş dövlət yaratmış və bu dövrdə həmin ölkələr öz siyasi, iqtisadi, sosial və mədəni həyatlannda müəyyən nailiyyətlər əldə etmişdilər. Qərbi Avropa maarifçiləri də, M.F.Axundov da orta əsrlərin müəyyən bir dövründə dinin, ruhanilərin xalqın, dövlətin tarixində oynadıqları bu müsbət rolu düzgün müəyyənləşdirə bilməmişdilər.

M.F.Axundov təfəkkürün varlığa, şüurun təbiətə münasibəti məsələsini tam, ardıcıl materialist mövqedən şərh etmişdir. O, «Kəmalüddövlə məktubları»nda və başqa fəlsəfi əsərlərində idealist fəlsəfəyə, orta əsrlər ərəb-müsəlman ölkələrində geniş intişar tapmış sufizm, işraqiyyə və başqa dini cərəyan və təriqətlərə qarşı çıxmış və bir sıra Qərbi Avropa maarifçiləri kimi, M.F.Axundov da dinə münasibətdə tam ateist mövqe tutmuşdur. O, bütün dinləri «puç və əfsanə»

saymışdır. Axundov da belə hesab etmişdir ki, Allah və başqa fövqəltəbii qüvvələr haqqında təsəvvürlər insan xəyalının məhsuludur, Allah «zənn ilə süni surətdə yaradılmışdır». [2,89] Təbiət hadisələri, qüvvələri qarşısında aciz qalan avam, sadəlövh insanlar təbiətdən kənarda kainatı, insanları yaradan və idarə edən güclü ilahi bir qüvvə olması barədə xəyal yaratmış və bu xəyali varlığı «pərvərdigari-aləm və xaliqi-kainat» adlandırmış, ona yüksək, müdrik, əzəmətli, qüdrətli, qeyri-adi insani sifətləri şamil etmişlər. O, qəti olaraq belə bir əqidədə olubdur ki, Allah insanları deyil, insanlar Allahı (allahları) yaratmışlar.

Qərbi Avropa radikal maarifçiləri kimi Mirzə Fətəli də yanlış olaraq belə güman edirdi ki, bütün dinlər, o cümlədən islam dini bütün tarix boyu xalqın ictimai, siyasi və mədəni həyatına yalnız mənfi təsir göstərmişdir.

M.F.Axundov bir sıra sivilizasiyalı Qərbi Avropa ölkələrində olduğu kimi, dinin dövlətdən ayrı olması, din xadimlərinin hüquqlarının məhdudlaşdırılması, hüquq, məhkəmə, maarif, təhsil işlərinin mülki idarələrə həvalə olunması ideyalarını irəli sürmüşdür. O, dünyəvi, demokratik ölkələrdə olduğu kimi, dinin müasir dövr üçün müəyyən mənəvi, etik əhəmiyyət kəsb edən idealları, qanunları əsasında xalqın mənəvi-əxlaqi sifətlərinin təkmilləşdirilməsi və dini ayinlərin, mərasimlərin, məsələn, kəbin-talaq, ölülərin dəfni, namaz, oruc, pişnamazlıq kimi işlərin ruhanilərin öhdəsində qalmasının tərəfdarı olmuşdur. M.F.Axundovun bu fikirləri müsəlman Şərqi ölkələrinin tarixinin keçid mərhələsinin tələblərindən doğan və bilavasitə bu tələblərə xidmət göstərən olduqca aktual, zəruri mütərəqqi ideyalar idi. Belə ki, islam dininin müasir dövrün tələblərinə uyğun olaraq modernləşdirilməsi ideyası XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan və Şərq maarifçilik cərəyanı üçün də səciyyəvi olmuşdur.

M.F.Axundov Azərbaycanda ilk növbədə bədii ədəbiyyatın yeni bir növü-dramaturgiya sahəsində müstəsna xidmət göstərmiş, böyük şöhrət qazanmışdır. XIX əsrin ortalarında Azərbaycan, eləcə də İran və Türkiyənin siyasi, iqtisadi və sosial həyatında yaranmış müəyyən müsbət dəyişikliklər, kapitalist münasibətlərinin tədricən qüvvətlənməsi bu ölkələrin ictimai və mədəni fikrinin bütün sahələrini, o cümlədən bədii ədəbiyyatın da qarşısında yeni vəzifələr, tələblər qoymuş, sosial və ictimai həyatda yeni məzmun, yeni ədəbi-estetik prinsiplərin, yeni bədii növ və janrların təşəkkül tapmasını labüd etmişdir. Bu dövrdə Azərbaycanda və ümumən Yaxın Şərq müsəlman xalqları tarixində bədii ədəbiyyatın qarşısında duran bu vacib, yeni vəzifə və tələbləri ilk dəfə vaxtında və düzgün müəyyənləşdirmək bizim xalqımızın böyük nümayəndəsi M.F.Axundova nəsib olmuşdur. XIX əsrin 50-ci illərində bir-birinin ardınca yazdığı altı komediyası ilə o, Azərbaycan ədəbiyyatının orta əsrlər Şərq ədəbiyyatının yeni dövrün sosial-mənəvi tələblərinə cavab verməyən məhdud ideya-estetik norma və prinsipləri çərçivəsindən, görkəmli dramaturqumuz Cəfər Cabbarlının çox dəqiq göstərdiyi kimi, «qəzəl və qəsidə tilsimindən» xilas etmiş, milli ədəbiyyatımızda əsaslı, həqiqətən inqilabi bir dönüş yaratmış və müasir cəmiyyətdə, xalq həyatında yaranmaqda olan yeni məzmunu,

yeni ruh və ideyaları bariz ifadə edən yeni ədəbi janrın, yeni ədəbi-estetik prinsiplərin ilk, həm də çox kamil əsasını qoymuşdur. Məhz M.F.Axundovun sayəsində Azərbaycan ədəbiyyatı orta əsrlər klassik Şərq ədəbiyyatı konteksti çərçivəsindən çıxıb yeni dövr Avropa ədəbiyyatı prosesinə qoşulmuş və milli ədəbiyyatımız məhz bu istiqamətdə gur inkişaf tapmış, yeni ideya-bədii keyfiyyətlər əldə etmiş, böyük nailiyyətlər qazanmışdır.

M.F.Axundovun bir dramaturq kimi Azərbaycan ədəbiyyatında, ümumən müsəlman şərqi ədəbiyyatında böyük, müstəsna xidmətinin qiymətini verərkən bir mühüm məsələni də burada xüsusi olaraq qeyd etməyi lazım bilirik.

Bir çox dünya xalqlarının ədəbiyyat tarixi ilə tanışlıq aydın göstərir ki, onlarda dram janrında və ümumən başqa janrlarda orijinal, həqiqi sənət nümunələri birdən-birə yox, müəyyən bir dövr — hazırlıq, bir növ şagirdlik dövrü keçirdikdən sonra yaranmışdır. Bu xalqlar yüksək inkişaf yolu keçmiş, böyük nailiyyətlər əldə etmiş başqa xalqların dram əsərlərini öz ana dillərinə çevirib, nəşr etdirdikdən sonra, öz teatrlarında tamaşaya qoyduqdan və müəyyən bir müddətdə onlara təqlidən pyeslər yazdıqdan sonra sözün həqiqi mənasında orijinal milli dram əsərləri yaratmağa nail olublar. M.F.Axundovun komediyaları isə, Azərbaycan dramaturgiyası belə bir hazırlıq mərhələsi keçmədən, birdən-birə yaranmışdır. Onun dram əsərləri həm də Azərbaycan və ümumən Yaxın Şərq xalqları ədəbiyyatında ilk nümunələr olsa da, qətiyyən təqlid, adi bir şagird işi səciyyəsi daşımamışdır. Mirzə Fətəlinin komediyaları dünya komediyasının ən yaxşı nümunələri səviyyəsində yazılan və yüksək ideya-bədii məziyyətlərə malik olan orijinal, qiymətli milli dram əsərləri idi. [3,152]

M.F.Axundov « Hekayəti Molla İbrahimxəlil kimyagər» komediyasının süjetini XIX əsrin 30- cu illərində öz doğma vətəni Nuxa şəhərində həqiqətən baş vermiş real bir hadisədən götürmüşdür. Əsərin baş qəhrəmanı Molla İbrahimxəlil də real bir şəxsiyyətdir. Bu haqda M.F.Axundovun kiçik müasiri, maarifçi-dramaturq Rəşidbəy Əfəndiyevin (1863-1943) ədib haqqında yazdığı xatiratında və son illərdə əldə edilmiş sənədlərdə müfəssəl məlumat verilmişdir.

M.F.Axundovun ikinci dram əsəri - «Hekayəti Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadüküni-məşhur» komediyası da öz mövzusu, ictimai məzmunu, ideya istiqamətinə görə «Kimyagər»lə səsləşir. Lakin ikinci komediya həm həyat materiallarının hərtərəfli və dərindən verilməsi, həm xarakterlərin dolğunluğu, həm də bədii sənətkarlıq baxımından müəllifin ilk dram əsərindən fərqlənir.

Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra çar hökuməti ölkədə müstəmləkə siyasətini həyata tətbiq etmək istədikdə yerli xalq rus dilini bilmədiyi üçün, çətinliklərə rast gəlirdi. Məhkəmələrdə, notarial kantorlarda, müxtəlif şəhər, qəza və əyalət idarələrində bütün işlər rus dilində aparıldığından həm rus dilini, həm də yerli dili bilən məmur tərcüməçilərə böyük ehtiyac yaranmışdı. Bu ehtiyacı ödəmək üçün çar hökuməti yerli əhali içərisindən, başlıca olaraq yüksək

təbəqələrdən, «işgüzar və savadlı məmurlar» hazırlamaq məqsədilə Azərbaycanın müxtəlif əyalət şəhərlərində rus məktəbləri açmaq məcburiyyətində qalmışdı. Həmin məktəblərdə rus dilini öyrənən, dünyəvi təhsil alan, rus və Qərbi Avropa mədəniyyəti və ədəbiyyatı ilə tanış olan gənc azərbaycanlı ziyalılar qaranlıq aləmin sədlərini yıxmaq, öz təhsillərini Rusiya və ya Qərbi Avropanın mərkəzi şəhərlərində davam etdirmək və doğma xalqın maariflənməsi və tərəqqisi sahəsində çalışmaq arzusu ilə yaşayır, buna can atırdılar. Lakin köhnəpərəst qüvvələr bu gənc ziyalılara qarşı çıxır, onlara ciddi müqavimət göstərirdilər. Beləliklə, feodal-patriarxal cəmiyyət daxilində iki zidd qüvvə arasında kəskin mübarizə başlanır. Düzdür, həmin illərdə gənc ziyalılar hələ az idilər, bu mübarizədə əksər hallarda məğlubiyyətə uğrayır, köhnəliyə təslim olurdular. Şahbaz bəy obrazında məhz bu gəncliyin həyatı, taleyi əks olunmuşdur.

M.F.Axundovun üçüncü dram əsəri « Hekayəti Xırs quldurbasan» komediyasının bir-birindən ciddi fərqlənən iki variantı var. Əsərin ilk variantı «Kavkaz» qəzetində, ikinci variantı isə, müəllifin 1853-cü ildə rus dilində nəşr olunmuş komediyalar məcmuəsində və «Təmsilat»da dərc edilmişdir. Komediyanın variantları ideya məzmunu, satirik istiqaməti, qoyulmuş məsələlər baxımından əsasən eyni səciyyə daşıyır. Hər iki variantda dramaturq gerilik, ətalət, dini fanatizm, orta əsr qayda-qanunları əleyhinə çıxmış, çar məmurlarının eyiblərini tənqid etmiş, qadın azadlığını, elm və maarifi təbliğ etmişdir. Bu ümumi cəhətlərlə yanaşı variantlar arasında bəzi fərqlər də mövcuddur.

Birinci variantda ilk növbədə Molla Şaban surəti diqqəti cəlb edir. Bu surətdə M.F.Axundov Azərbaycan ruhanilərinin bir sıra tipik sifətlərini ümumiləşdirmişdir. Lakin əvvəlki komediyalarında olduğu kimi, «Xırs quldurbasan»da o, dinə ehtiyatla yanaşır, onun əsaslarına toxunmurdu.

Komediyanın hər iki variantında lirik məhəbbət xətti mühüm yer tutur. İki gənc kəndli - Bayramla Pərzad bir-birlərini sevirlər, lakin qızın əmisi və qəyyumu Məşədi Qurban onu öz oğlu Tarverdiyə almaq niyyətindədir. Komediyanın məhəbbət münaqişəsi Bayramla Tarverdi arasında cərəyan edir. M.F.Axundov bu münaqişə əsasında dövrün qabaqcıl adamlarını düşündürən, narahat edən aktual məsələlərə toxunurdu. Gənc Bayramla Pərzadın məhəbbət və arzulan ilə feodal-patriarxal aləmin qayda-qanunları, adət-ənənələri düz gəlmir; bu konflikti, ziddiyyətləri təsvir etməklə dramaturq Azərbaycan həyatındakı bir sıra ictimai qüsurları açıb göstərir, mühafizəkarlığın, zorakılığın əleyhinə çıxır, yeni ailə münasibətləri, qadın şəxsiyyətinə hörmət kimi mütərəqqi görüşlər təbliğ edir. [4,249]

M.F.Axundov « Hekayəti Vəziri-xani-Lənkəran» komediyasında Azərbaycan həyatının tam yeni bir sahəsinin real təsvirini vermiş, feodal üsul-idarəsinin bəzi ictimai ziddiyyətlərinə toxunmuş, ali feodal hakimlərinin dolğun satirik bədii obrazlarını yaratmışdır. Əsərin mövzusu Azərbaycan həyatının yaxın keçmişindən-xanlıqlar dövrü həyatından götürülmüşdür M.F.Axundovun beşinci dram əsəri «Hekayəti-mərdi-xəsis» və ya «Hacı Qara» komediyasıdır. O, 1852-ci ildə

yazılmışdır. Ədəbiyyatşünaslığımız yekdil olaraq «Hacı Qara»nı M.F.Axundovun dramaturgiyasının zirvəsi, Azərbaycan komediyanə-visliyinin ən gözəl nümunələrindən hesab edir. M.F.Axundov özü də «Hacı Qara»nı başqa komediyalarından üstün saymışdır. Həqiqətən, «Hacı Qara» xalq həyatının geniş və mükəmməl təsvir olunması, zamanın ictimai ziddiyyətlərinə dərindən nüfuz edilməsi, tipik obrazların tipik şəraitdə verilməsi və personajların dilinin səlisliyi, xəlqiliyi baxımından M.F.Axundovun bütün komediyalarından üstündür. «Hacı Qara»nın mövzusu olmuş əhvalatdan götürülmüşdür. M.F.Axundov 1852-ci ildə İrandan qaçaq mal gətirən quldurlara qarşı mübarizə aparmaq üçün sərhəd rayonlarına göndərilmiş çar məmuru podpolkovnik Meyyerin mütərcimi olmuş və bu zaman sərhəddə baş vərən bir sıra hadisələri bilavasitə müşahidə etmişdir. Yəqin ki, o, yeni komediyanın süjetinin əsasında müşahidə etdiyi hadisələrdən birini qoymuşdur.

M.F.Axundovun sonuncu dram əsəri «Mürafiə vəkilləri» komediyasıdır. 1855-ci ildə yazılmış bu komediya ideya-bədii strukturu baxımından müəllifin əvvəlki pyesləri ilə üzvi bağlı olsa da, onun özünəməxsus bir sıra orijinal xüsusiyyətləri vardır. Dramaturq son komediyasında müasir həyatın yeni bir sahəsini, yeni bir qatını üzə çıxarmış, yeni bir ictimai təbəqənin məişət və həyat tərzinə nüfuz etmiş, bu təbəqənin səciyyəvi sifətlərini özündə təmsil edən tipik məmur surətləri yaratmışdır. «Mürafiə vəkilləri»nin mövzusunu M.F.Axundov məhkəmə məmurlarının həyatından almış və onların ictimai nöqsanlarını ifşa etmişdir. Lakin əvvəlki dram əsərlərində olduğu kimi, bu pyesdə də gülüş dərin ictimai məna alıb yaramaz məmurların qol-qanad açmasına şərait yaradan feodal üsul-idarəsinə qarşı çevrilmişdir. Komediyada hadisələr Cənubi Azərbaycanda cərəyan edir. Bu komediyadan başlayaraq M.F.Axundov bir sıra əsərlərinin mövzusunu İran həyatından almağa başlayır. Bunun başlıca səbəbi çar senzorunun diqqətini yayındırmaq, müəllifin öz yaxasını çar hakimlərinin təqibindən qurtarmaq idi.

Ədəbiyyat:

1.F.Qasımzadə, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı 1981.
2.F.Köçərli, Azərbaycan ədəbiyyatı, 2 cilddə, Bakı 1981
3. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, IV cild, 2011
4.Y.Qarayev,XIX-XX yüzillər Azərbaycan ədəbiyyatı, Bakı, 2002
5.M.F.Axundzadə, Əsərləri, III cilddə, Bakı,2005

MİRZƏ FƏTƏLİ AXUNDOVUN MÜTƏRƏQQİ İDEYALARI

Azərbaycanda və ümumən Yaxın Şərq müsəlman xalqları tarixində bədii ədəbiyyatın qarşısında duran vacib, yeni vəzifə və tələbləri ilk dəfə vaxtında və düzgün müəyyənləşdirmək bizim xalqımızın böyük nümayəndəsi M.F.Axundova nəsib olmuşdur. XIX əsrin 50-ci illərində bir-birinin ardınca yazdığı altı komediyası

ilə o, Azərbaycan ədəbiyyatının orta əsrlər şərq ədəbiyyatının yeni dövrün sosial-mənəvi tələblərinə cavab verməyən məhdud ideya-estetik norma və prinsipləri çərçivəsindən, görkəmli dramaturqumuz Cəfər Cabbarlının çox dəqiq göstərdiyi kimi, «qəzəl və qəsidə tilsimindən» xilas etmiş, milli ədəbiyyatımızda əsaslı, həqiqətən inqilabi bir dönüş yaratmış və müasir cəmiyyətdə, xalq həyatında yaranmaqda olan yeni məzmunu, yeni ruh və ideyaları bariz ifadə edən yeni ədəbi janrın, yeni ədəbi-estetik prinsiplərin ilk, həm də çox kamil əsasını qoymuşdur. Məhz M.F.Axundovun sayəsində Azərbaycan ədəbiyyatı orta əsrlər klassik şərq ədəbiyyatı konteksti çərçivəsindən çıxıb yeni dövr Avropa ədəbiyyatı prosesinə qoşulmuş və milli ədəbiyyatımız məhz bu istiqamətdə gur inkişaf tapmış, yeni ideya-bədii keyfiyyətlər əldə etmiş, böyük nailiyyətlər qazanmışdır.

Summary

Doc.Hajieva N.S.

MIRZA FATALI AKHUNDOV'S PROGRESSIVE IDEAS

M.F.Akhundov, the great representative of our people, was lucky enough to define the important, new tasks and requirements facing fiction literature in Azerbaijan and in general in the history of the Muslim nations of the Middle East for the first time and correctly.

With the six comedies he wrote one after the other in the 1950s, he changed Azerbaijan's literature from the framework of the limited idea-aesthetic norms and principles of the medieval Eastern literature that did not meet the socio-spiritual requirements of the new era. and the spell of odes", created a fundamental, truly revolutionary turn in our national literature and laid the first and very perfect foundation of a new literary genre and new literary-aesthetic principles that clearly express the new content, new spirit and ideas emerging in modern society and people's life.

Has put Thanks to M.F.Akhundov, Azerbaijani literature left the context of classical oriental literature of the Middle Ages and joined the process of European literature of the new era, and our national literature developed rapidly in this direction, acquired new ideas and artistic qualities, and achieved great achievements.

Резюме

Доц.Гаджиева Н.С.

ПРОГРЕССИВНЫЕ ИДЕИ МИРЗЫ ФАТАЛИ АХУНДОВА

Великому представителю нашего народа М.Ф.Ахундову посчастливилось впервые и правильно определить важные, новые задачи и требования, стоящие перед художественной литературой в Азербайджане и вообще в истории мусульманских народов Ближнего Востока.

Шестью комедиями, написанными одна за другой в 1950-е годы, он вывел азербайджанскую литературу из рамок ограниченных идейно-эстетических норм и принципов средневековой восточной литературы, не отвечавшей социально-духовным требованиям новой эпохи. очарование од», произвел коренной, поистине революционный поворот в нашей национальной литературе и заложил первый и совершеннейший фундамент нового литературного жанра и новых литературно-эстетических принципов, ярко выражающих новое содержание, новый дух и идеи, возникающие в современной общества и жизни людей.

Благодаря М.Ф.Ахундову азербайджанская литература вышла из контекста классической восточной литературы средневековья и включилась в процесс европейской литературы новой эпохи, и наша национальная литература быстро развивалась в этом направлении, приобретала новые идеи и художественные качества, достигла больших успехов и достижений.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: dos.Axundova Nəzmiyə
tərəfindən çapa tövsiyə olunmuşdur

AYSEL HƏMİDOVA
Azərbaycan Universiteti
aysel.hamidova@au.edu.az

"HOMERIN QIZI" MODERNİZMDƏN POSTMODERNİZMƏ KEÇİD DÖVRÜNÜN ROMANI KİMİ

XÜLASƏ

Məqalədə Robert Qreyvsin "Homerin qızı" romanı modernizmdən postmodernizmə keçid dövrünün romanı kimi təhlilə cəlb olunur. Əsər 1955-ci ildə çap edilmişdir. Bu, əsərin iki "izm"in qovşağında yerləşdiriyinin göstəricisidir. Roman hər iki dövrün ədəbi-estetik xüsusiyyətlərini özündə ehtiva edir. Bütün keçid dövrlərinin özünəməxsus qanunauyğunluqları var. Yeniliklə köhnəliyin dialektik mübarizəsi keçid dövrünün xarakterik xüsusiyyətlərindən biri kimi çıxış edir. "Homerin qızı" romanında da bu dialektik mübarizə özünü göstərir. Sənətkar "köhnə hərflər"ə "yeni ruh" bəxş etmişdir.

"Köhnə hərflər" dedikdə yazıçının yaradıcılığının böyük bir qismini əhatə edən yunan, eləcə də digər dünya mifləri nəzərdə tutulur. Yeni ruh dedikdə isə qədim yunan miflərinin öz dövrünün gerçəkliyi baxımından yenidən dəyərləndirilməsi nəzərdə tutulur. Qədim yunan mifi rekonstruksiyaya məruz qalır. Əsərdə ironik elementlər özünü büruzə verir. Homerin əsərindəki obrazlar, məkan, baş verən hadisələr, təsvirlər inversiya edilmişdir.

Romanda intertekstuallıq da öz əksini tapır. Məqalədə kifayət qədər nümunələr əsasında modernizmə və postmodernizmə xas olan xüsusiyyətlərin üzə çıxarılmasına cəhd edilmişdir.

Açar sözlər: modernizm, postmodernizm, ironiya, intertekstuallıq, rekonstruksiya

Latın Amerikasında ədəbi modernizmin atası Ruben Dario yeni dövrün estetik özünəməxsusluğunu səciyyələndirərkən ədəbiyyatda "hərflərin yeni ruh" kəsb etdiyini söyləmişdir. Ümumiyyətlə, bir köklü bədii-estetik konsepsiyadan digərinə keçid nəzəri baxımdan son dərəcə maraqlı meyllər üçün meydan açır: köhnə hərf öz aparıcı mövqeyi uğrunda mübarizə aparır, öz yerini heç də asanlıqla "yeni ruha" təslim etmir. Bu yeniliklə köhnəliyin dialektik mübarizəsi keçid dövrünün əsas xarakteristikasını təşkil edir.

Bütün keçid dövrlərində bir qanunauyğunluq da özünü büruzə verir: həm "köhnə", həm "yeni" ruh özünü təsdiq etmək üçün bəşər bədii fikrinin ən gözəgəlimli nümunələrini səfərbər edir, öz yetərliliyini bütün ədəbi-bədii praktikanın timsalında sübuta yetirməyə çalışır. R.Qreyvsin yaradıcılığı da bu baxımdan diqqəti cəlb edir. Onun yaradıcılığına nəzər yetirdikdə, "köhnə hərflərə" "yeni ruh"un

təcəssümünün bir sıra qanunauyğunluqlarını üzə çıxara bilərik. “Köhnə hərflər” dedikdə, sənətkarın yaradıcılığının böyük qismini əhatə edən antik yunan mifləri, eləcə də digər dünya xalqlarının mifologiyasını nəzərdə tutmaq olar. Öz dövrünün gerçəkliyi baxımından mifologiyaya diqqəti yönəldən R.Qreyvs iki məqsədə nail olmaq istəyirdi. Birincisi, o sübut etmək istəyirdi ki, bəşər tarixi bütövdür; onun inkişafının bütün əsas istiqaməti və meylləri ilk öncədən miflərdə proqramlaşdırılmışlar və bəşər tarixi zaman-zaman açıqlanmaqla bu həqiqəti sübut edir. İkincisi, hər dövr mifin peyğəmbərliyini sübuta yetirməklə yanaşı, həm də onun inkarıdır, onda gözlənilməz cəhətlərin üzə çıxarılmasıdır. Yazıçının bu istiqamətdə yazılmış əsərlərindən biri 1953-54-cü illərdə ərsəyə gətirdiyi, 1955-ci ildə çap etdirdiyi “Homerin qızı” romanıdır. Modernizmdən postmodernizmə keçid dövrünün məhsulu olan əsər müasir dövr ingilis ədəbiyyatında yazılmış keçid dövrünün prinsiplərini əhatəli şəkildə özündə ehtiva edən ədəbi-bədii nümunələrdən hesab oluna bilər. Romanda modernizm və postmodernizm sərhədlərinin “görüşü”, delimitasiyası əsərin təhlili zamanı geniş üfüqlər açır, dolğun elmi tədqiqatın aparılmasına xidmət edir. Romanda müəllif Homerin əsərində Odisseyin öz ifadəsini tapmış, lakin potensiya şəklində mövcud olan ruhun postmodernist bədii “cərrahiyə” metodologiyasından çıxış edərək əvvəlcə dekonstruksiya etmiş, sonra bir növ bununla yunan qəhrəmanının mənəvi-ruhi həqiqətini bütünlüklə ehtiva edə bilmədiyini dərk edib onu “dədə-babadan qalmış” ənənəvi prinsiplər əsasında bütövləşdirmiş – rekonstruksiyaya məruz etmişdir.

R.Qreyvs “Odisseya” poemasının bir çox motiv və elementlərini romanda yenidən və fərqli şəkildə təqdim edir. Bu fikri əsərin məzmununa qısa nəzər salaraq əsaslandırmağa çalışaq. Navsikaya anası Areta, atası Alkinoy və üç qardaşı (Laodamas, Halius, Klitoneus) ilə uzaq Eliman krallığında yaşayırdı. Laodamas həyat yoldaşı Ktimenin (Yunan mifində Odisseyin balaca bacısı) kəhrəba boyunbağı istəyi səbəbindən onunla mübahisə edərək dənizə üz tutur və evə qayıtmır. Navsikaya və anasının geri dönməyən Laodamasın yerli düşmənləri tərəfindən öldürüldüyünü zənn etsələr də, atası hər şeyə rəğmən dənizə üz tutur və oğlunu axtarmağa gedir, Navsikayanın dayısı Mentoru Eliman krallığına nəzarətçi təyin edir. Əsəri oxuduqca, məlumatlı oxucu yazıçının əsərdə yaratdığı qarışıq məqamlardan dərhal hali olur. Yunan miflərinə nəzər salsaq, görərik ki, bu motiv “Odisseya” poemasında Telemaxla bağlı hissənin inversiyasıdır. Odissey oğlu anadan olan gündən Troya müharibəsinə yollanır və dostu Mentoru oğlunun üzərində nəzarətçi qoyur. Müdriklik ilahəsi Afina Odisseyin arvadı Penelopanın çoxsaylı elçilərinin gözünə görünməmək üçün Telemaxın qarşısına Mentor şəklində çıxır, gənc oğlana iddiaçılarla mübarizə aparmağı, İtakanı tərk etməyi və müharibədən hələ də qayıtmayan itkin düşmüş atasını axtarmağı məsləhət görür. Həddi-buluğa çatan Telemax dənizə yollanaraq atasını axtarmaq qərarına gəlir.

Romanda təhkiyənin dili sadə, satirik deyim tərzinə uyğundur. Efon Navsikayanı şux qaməti, uzun boyu, küləkdə dalğalanan saçlarının olduğunu

bildirmək məqsədilə "palma ağacına bənzəyirsən" söyləməsinə Navsikaya bədbin, bir az kobud və ironik cavab verir: *"You have visited Delos then? I asked, much amused, "Or is this a second-hand compliment borrowed from one of the Sons of Homer? No one ever compared me to a young palm tree; probably because I am neither tallnor slim, and my hair, though long, is by no means my best feature"* [4, s. 56]. *"Sən Delosu ziyarət etmisən? – ələ salaraq soruşdum. Yoxsa bu Homerin oğullarının birindən götürülmüş ikici əl iltifatdır. Heç kim məni bu günədək palma ağacı ilə müqayisə etməyib. Yəqin ona görə ki, mən nə hündür, nə də incə deyiləm, uzun saçlarım olsa da, bu mənim heç də ən yaxşı keyfiyyətim deyil."* Navsikaya ikinci əl iltifat dedikdə, Homerin poemasıdakı bənzətməni nəzərdə tutur və artıq bu iltifatı ondan əvvəl Odisseydən eşitdiyini ironiya ilə çatdırır, çünki poemada eyni bənzətməni Odissey Navsikayaya söyləyir: *"Sən öz gözəlliyinlə, mənə vaxtı ilə Delosda, allah Apollonun səcdəgahının yanında görüb heyran olduğum qamətli, qəşəng palmanı xatırlatdın*." [2, s. 428].

"Odisseya" poemasında baş verən hadisələr romanda coğrafi cəhətdən məhdudlaşdırılmış ucqar ərazidə və gerçək hadisə olaraq təqdim edilir. R.Qreyvs strateji cəhətdən mərkəz ərazi sayılan İtakada baş vermiş hadisələri Feakiya ərazisinin üzərinə köçürür, ucqar ərazi ilə mərkəzin yerini dəyişir. Bundan əlavə, Navsikaya poemada periferik obraz olaraq təqdim edildiyi halda romanda sərhədləri aradan qaldırır, onu periferiyadan mərkəzə gətirib protaqonist obraza çevirir. Romanda yazıçının istifadə etdiyi texnika postmodernizmin estetikasından qaynaqlanır. Ədəbi postmodernizmdə sərhədlər silinir, hər şey bir-birinə qarışır, sinkretikaya çevrilir. Yazıçının bu yolu seçməsinin əsasında postmodernizmin mövcudluq və inkişafın əsaslarından sayılan plüralizmi görmək mümkündür. Romanda Navsikaya özünü təqdim edərkən: *"...a princess of the Elymans, a mixed race living on and about Eryx, the great bee-haunted mountain, who pride themselves on being the remotest nation of the civilized world."(arıların təqib etdiyi böyük Eriks (Eryx) dağında və onun ətrafında yaşayan qarışıq bir irq, sivil dünyanın ən ucqar xalqı olmaqdan qürur duyan Eliman (Elyman) xalqının şahzadəsi (tərcümə – H.A.),* – söyləməklə həm marginal mövqeyini etiraf edir, həm də bu mövqeyi ilə qürur duyduğunu, heç də mərkəz mövqedən geri qalmadığı hissini ortaya qoyur. Postmodernizimin estetikasında plüralizm (hər kəs özü üçün haqlıdır) loqomərkəzçiliyin (söz mərkəzçilik) əksi olan və ədəbi-fəlsəfi estetik düşüncənin əsas prinsiplərindən olan binar münasibətləri, hər cür meyarlılıq prinsiplərinin əhəmiyyətsizləşdiyi anda gerçəkləşir. Gerçəkliyi binar münasibətlər çərçivəsində dərk etməyə çalışan dil heç vaxt obyektiv nəticə kimi çıxış edə bilməz. Buna görə də, obyektivlik subyektivliklə, vahidi sonsuz sayda yenidən istehsal etməklə, kəşf olunmuşun yenidən kəşf olunması ilə əvvəlki yaradılmışlarla oyuna girməklə əvəz olunur. Postmodernizm dünyanın hər hansı bir elmi, fəlsəfi, bədii mənzərəsinin əsasında duran, dünyagörüşün paradiqmalarını müəyyən edən "olmuş"lardan, "verilənlər"dən çox, dərk edilməyənlərlə, ifadə edilə bilməyənlərlə, müəyyən edilə

bilməyənlərlə maraqlanır. Bu mənada, yazıçının romanında plüralizm, sərhədlərin aradan qaldırılması kimi məqamlar postmodernizmin elementləri kimi özünü göstərir.

Romanda intertekstuallığa da rast gəlinir. Professor Qorxmaz Quliyev "Ədəbi cərəyanlar və istiqamətlər" monoqrafiyasında intertekstuallığı bu cür izah edir:*"İntertekstuallıq mətnin semiotik mədəni mühitlə qarşılıqlı əlaqələrini – xaricini daxililəşdirən fenomeni ifadə edən anlayışdır"* [5, s. 246]. İlk dəfə bu anlayışı M.Baxtinin "polifonik romanı" nəzəriyyəsini təhlil edərkən Yuliya Kristeva işlətmiş və intertekstuallığı müxtəlif yazı növlərinin – indinin və ya keçmişin mədəni kontekstinin ortaya qoyduğu yazının dialoqu kimi qələmə verir. Bartın təbirincə desək, *"mətnin əsasını onun digər mətnlərə, başqa kodlara, başqa işarələrə çıxışı təşkil edir"* [5, s. 246]. Nəticədə, bütün mətnlər intermətndir, çünki müxtəlif mətnlər bu və ya digər şəkildə mövcud mətndə müxtəlif cür özünü büruzə verə bilər. *"Köhnə mədəni kodların, düsturların, ritmik strukturların qırıqları, sosial idiomların və sairələrin parçaları – bütün bunlar onda qaynayıb qarışıblar, çünki həmişə mətnə qədər və onun dövrəsində dil mövcuddur"* [5, s. 247]. Romanda intertekstuallıq özünü Navsikayanın dayısı Mentor ilə Evmeyin daxmasına gedən yolda etdiyi söhbəti zamanı göstərir. Əsəri oxuyarkən aydın olur ki, Navsikayanın Mentor ilə söhbəti ərəfəsində ondan Homerin poemasında "Odisseyin evə qayıdışı" hissəsini bir daha nəql etməsini xahiş edir. Postmodernizmin estetikasından xəbərsiz oxucuda çaşqınlıq yaranacaq, əgər roman ilkin variant kimi təqdim olunursa, dayı poemadan necə xəbərdar ola bilər? Məlumatlı oxucu isə dərhal yazıçının əsər daxilində hansı priyoma əl atdığından hali olacaqdır. Oxşar məqam əsərin "Homerin qızı" adlı sonuncu bölməsində Navsikayanın ozan Femiusla söhbəti zamanı aşkar şəkildə özünü göstərir:*"Since you are a Son of Homer and your guild alone is priviliged to perform in the courts of Greece, I demand that you shall approve, sing and circulate an epic poem of my own composition on which I am already working and which, if Athene continues to inspire me, I shall finish within two or three years. It begins with the opening verses of The Return of Odysseus, as far as his visit to the Lotus-eaters. After that the story will be different. Probably it will include the adventures of Ulysses (whom some believe to have been Odysseus) and end with the massacre of Penelope's lovers. I have a fair notion now how Odysseus managed it singlehanded. The Iliad, which I admire, is devised by a man for men; this epic, The Odyssey, will be devised by a woman for women. Understand that I am Homer's latest born child, a daughter; and listen attentively. When I finished the poem, and written it out in cuttlefish ink on sheepskin, you must memorize it, and (if necessary) improve the language where it halls or flags. One day I shall send you back to Delos and you will carry my poem to all the courts of Asia. When prices and princesses – but especially princesses – praise it and heap gifts on you, asking: "Phemius, golden-mouthed minstrel, where did you learn that glorious story?" you must answer: "My ancestor's songs are highly esteemed by the Elymans, who live at the far western*

fringe of the civilized world; and it was the Elyman court that I learned this Odyssey." I shall be careful to include nothing that might betray the land of its origin, though immortalizing my own name and Aethon's and yours in the course of the story" [4, s. 278-279]. ("*Homerin oğlu olduğun üçün və Yunan məhkəmələrində çıxış etmək imtiyazına malik olduğuna görə səndən tələb edirəm ki, hal-hazırda mənim üzərində işlədiyim ilk epik poemanı təsdiqləyəsən, oxuyasan və yayasan. Əgər Afina məni ilhamlandırmaqda davam edərsə, bunu iki-üç ilə bitirəcəyəm. Əsər "Odisseyin qayıdışı" hissəsinin ilk misraları və Lotus-eaters (Lotusyeyənlər) qəbiləsi ilə rastlaşmasına qədərki hissədən başlayacaq. Bundan sonra hekayə fərqli olacaq. Yəqin ki, bu, Ulisin (bəzilərinin Odissey olduğuna inandığı) sərgüzəştlərini əhatə edəcək və Penelopanın sevgililərinin qətliamı ilə bitəcək. Odisseyin bunu təkbaşına necə etməsi haqqında artıq ədalətli təsəvvürüm var. Heyranı olduğum "İliada" bir kişi tərəfindən yazılmış və kişilər üçün, "Odisseya" isə bir qadın tərəfindən yazılmış və qadınlar üçün nəzərdə tutulmuşdur. Anla ki, mən Homerin ən son doğulan övladıyam – qızıyam və diqqətlə qulaq as. Mən poemanı bitirib onu qoyun dərisi üzərinə köçürəndən sonra sən onu əzbərləməlisən və (lazım gələrsə) onun saxlandığı yerdə dili təkmilləşdirməlisən. Bir gün səni Delosa geri göndərəcəyəm və sən mənim poemamı Asiyanın bütün məmləkətlərinə yayacaqsan. Bir gün şahzadələr onu tərifləsələr və buna görə səni hədiyyə yağışına tutsalar və soruşsalar: Femius, qızıldilli ozan, bu şanlı hekayəni haradan öyrənmisən? – belə cavab verərsən: Mənim əcdadımın nəğmələri sivil dünyanın ucqar qərbində yaşayan Elimanlar tərəfindən yüksək qiymətləndirilib və mən bu "Odisseya"nı Eliman məhkəməsində öyrənmişəm. Öz adımı, Efonun və sənin adını hekayə boyu ədəbiləşdirməyimə baxmayaraq, onun mənşəyinə xəyanət edə biləcək heç nə əlavə etməməkdə diqqətli olacağam* (tərcümə – H.A.).

Deyilənləri ümumiləşdirsək, "Homerin qızı" romanı modernizmdən postmodernizmə keçid dövründə qələm alındığı üçün hər iki ədəbi-estetik "izm"lərin bədii xüsusiyyətlərini, elementlərini özündə ehtiva edir.

Ədəbiyyat

1. https://www.azleks.az/online-dictionary/roman-antimif?s=1
2. Kun, N.A.Qədim Yunanıstan m ifləri və əfsanələri / N.Kun. Tərc. edən. O.Səmədov, Ə.İsmayılova, T.Teyyubqızı, J.İsmayılova, R.Abbaszadə və b. – Bakı: Kitab aləmi, – 2008. – s. 560.
3. Murnaghan, S. Homer's Daughter: Graves's Vera Historia // edit. by A.A.G. Gibson. Robert Graves and the Classical Tradition. – UK: Oxford University Press. – 2015. – p. 57-76.
4. Graves, R.V. Homer's Daughter / R.Graves. – Garden City, N.Y.: Doubleday, – 1955. – p. 292.
5. Quliyev, Q.H. Ədəbi cərəyanlar və istiqamətlər / Q.Quliyev. – Bakı: "OL" NPKT, – 2019. – 260 s.

6. Şərifova, S.Ş. Çağdaş Azərbaycan postmodern romanı / S.Şərifova. – Bakı: Elm və təhsil. – 2015. – 104 s.

“ДОЧЬ ГОМЕРА” КАК РОМАН ПЕРИОДА ПЕРЕХОДА ОТ МОДЕРНИЗМА К ПОСТМОДЕРНИЗМУ
РЕЗЮМЕ

В статье анализируется роман Роберта Грейвза «Дочь Гомера» как роман периода перехода от модернизма к постмодернизму. Работа была опубликована в 1955 году. Это указание на расположение произведения на стыке двух «измов». Роман содержит литературно-эстетические черты обоих периодов. Все переходные периоды имеют свои закономерности.

Диалектическая борьба старины с новизной выступает одной из характерных черт переходного периода. В романе «Дочь Гомера» проявляется и эта диалектическая борьба. Художник наделил «старые буквы » «новой душой». «Старые буквы» относятся к греческим и другим мировым мифам, которые охватывают большую часть творчества писателя. Новый дух относится к переоценке древнегреческих мифов с точки зрения реальности своего времени. Реконструируется древнегреческий миф.

Элементы иронии очевидны в произведении. Образы, пространство, события, образы у Гомера перевернуты. Интертекстуальность также отражена в романе. В статье на достаточном количестве примеров предпринята попытка выявить черты, характерные для модернизма и постмодернизма.

Ключевые слова: модернизм, постмодернизм, ирония, интертекстуальность, реконструкция

"HOMER'S DAUGHTER" AS A NOVEL OF THE PERIOD OF TRANSITION FROM MODERNISM TO POSTMODERNISM
SUMMARY

The article analyzes the features of Robert Graves' novel "Homer's Daughter" as a novel of the period of transition from modernism to postmodernism. The work was published in 1955. This is an indication of the location of the work at the junction of two "isms". The novel contains the literary-aesthetic features of both periods. All transition periods have their own patterns. The dialectical struggle of oldness with newness acts as one of the characteristic features of the transitional period. In the novel "Homer's daughter" this dialectical struggle is also manifested. The artist gave the "old letters" a "new soul". "Old letters" refers to Greek and other world myths that cover a large part of the writer's work. The new spirit refers to the

re-evaluation of the ancient Greek myths in terms of the reality of their time. The ancient Greek myth is being reconstructed. Ironic elements are evident in the work. Images, space, happenings, images in Homer's work are inverted. Intertextuality is also reflected in the novel. On the basis of sufficient examples, an attempt was made to reveal the features characteristic of modernism and postmodernism.

Key words: modernism, postmodernism, irony, intertextuality, reconstruction

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: fil.e.d., professor Qorxmaz Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur

SƏBİNƏ NOVRUZOVA
Mingəçevir Dövlət Universiteti
Heydər Əliyev küç. 54
sabina.novruzova83@gmail.com

İBTİDAİ SİNİFLƏRDƏ TAPMACALARIN TƏDRİSİ

Xülasə

Qədimdə hər hansı hadisə, əşya və s. haqqında adi danışıq kimi dolayı şəkildə, metoforik yollarla ifadə etməyə çalışmışlar. Tapmacalar bilməcə, tapışmaq, matal və s. adlarla bütün türkdilli xalqlar içərisində məşhurdur. Atalar sözlərində bitmiş, aydın fikir, dərin məna lakonik şəkildə ifadə olunduğu halda, tapmacalarda fikrin mənası üstüörtülüdür. Tapmacada iki tərəf olması əsasdır; mövzunun özü və cavabı. İki və daha artıq şəxs arasında fikir söyləmə tapmacanın əsasını təşkil edir. Ona görə də, tapmaca atalar sözlərinə, bayatıya, mahnıya nisbətən daha çox kollektivlik xüsusiyyətinə malikdir. Əgər bayatıda, atalar sözlərində bir nəfər iştirak edirsə, tapmacalarda iki nəfərin iştirakı vacibdir. Onlar min illər boyu məşhur əyləncə və zehni məşq formasıdır və dünyanın bir çox mədəniyyətlərində və dillərində tapıla bilər.

Tapmacalar yığcam olduğu üçün tez əzbərlənir və sevilir. İbtidai sinif şagirdlərinin təfəkkürünün və nitqinin inkişafına, onların dünyagörüşünün formalaşmasına güclü təkan verən, onları düşünməyə sövq edən, fakt və hadisələri tutuşdurmağa, fərqli və oxşar cəhətlərini aydınlaşdırmağa təhrik edən əsas vasitələrdən biri də tapmacalardır. Bu zaman nümunələrdə əlamətlərinə görə müəyyən bir əşyanın tapılması qarşıya məqsəd qoyulur. Eyni zamanda, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, düzgün tələffüz qaydalarının mənimsənilməsi, nitq bacarıqlarının formalaşdırılması üçün tapmacaların rolu önəmlidir.

İbtidai siniflərdə şagirdlərin nitqinin ifadəliliyi, obrazlılığı baxımından tapmacaların öyrədilməsi vacibdir və bu onlarda əşyaların keyfiyyəti, əlaməti, məzmunu haqqında dolğun təsəvvürlərin yaranmasına imkan yaradır. Bu zaman şagirdlərdə araşdırmaq, düşünmək bacarığı formalaşır. Onlar tapmacalardakı gizli fikri açmaq üçün əşyanın məzmununu araşdırmağa başlayırlar. Araşdırma apararkən şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalı və ona uyğun tapmacalar seçilməlidir. Belə ki, ibtidai sinif dərsliklərindəki tapmacalar öyrənənlərin yaş və tələblərinə uyğun olmalıdır.

Nəticədə, tapmacaların tədrisi şagirdlərin nitqini, oxu bacarıqlarını, lüğət ehtiyatını zənginləşdirməkdə, onların dünyagörüşünün formalaşmasında önəmli rol oynayır. Tapmacalar min illərcə bəşər mədəniyyətinin bir hissəsi olub, həm əyləncə forması, həm də şagirdlərin təfəkkürünün inkişafına xidmət edir. Onlar sadə söz tapmacalarından mürəkkəb məntiq problemlərinə qədər müxtəlif formalarda əsrlər boyu bütün dünya mədəniyyətləri tərəfindən istifadə olunur. Bu məqsədlə ibtidai

siniflərdə tapmacaların tədrisinə daim yer verilməli və onlar əyani vasitələrin köməyi ilə şagirdlərə öyrədilməlidir. Sonda belə bir nəticəyə gəlmək olar ki, tapmacalar hər zaman tədris olunmalı, zamanın tələblərinə cavab verməli, şagirdləri düşündürən, onları araşdırmağa sövq edən nümunələr verilməlidir
Açar sözlər: tapmaca, tədris, düşünmək, araşdırmaq, əlamət, folklor

Şifahi xalq ədəbiyyatı incilərini söyləyənlər həmişə öz zövqlərinə, istedadlarına görə hərəkət edir, həm də dincəliyicilərin səviyyəsini, bədii nümunənin icra olunduğu, deyildiyi yeri, vəziyyəti, məqamı, adamların sayını nəzərə alırdılar. Şifahi xalq ədəbiyyatının əsas xüsusiyyətlərindən biri onun xalqın tarixi, keçmişi ilə bağlı olmasıdır. Burada xalqın həyatında, məişətində baş verən ən mühüm hadisələr əks etdirilir. Şifahi xalq ədəbiyyatı xalqın arzu və diləklərinin ifadəsidir. Onlar insanlarda mərdlik, insanpərvərlik, əməksevərlik, vətənə məhəbbət və başqa nəcib əxlaqi sifətləri formalaşdırır, həyatdakı hadisələri daha düzgün anlamaqda, qiymətləndirməkdə, dost ilə düşməni seçə bilməkdə insanların ən yaxın köməkçilərindən biri olur. Xalqımızın zəngin həyat təcrübəsinin , mübarizə və axtarışlarının ifadəsi olan atalar sözləri, əfsanələr, tapmaca və başqa folklor nümunələri öz yığcamlığı, fikri dəqiq ifadə etmək keyfiyyəti ilə seçilir. Tapmacalar da bədii söz nümunələrindən biridir. Nağıllar, atalar sözləri kimi tapmacalar da xalq tərəfindən yaradılır.

Tapmacalarda sual və ya ifadəni təqdim etmək üçün ağıllı söz oyunundan istifadə edilir ki, bu da onu həll etmək üçün oxucu və ya dinləyicidən yaradıcı düşünməyi tələb edir. Məsələn, klassik tapmacalardan birində soruşulur: " Bir qapağı, min yarpağı? "[5,s 159] Cavab, təbii ki, kitabdır. . Bu cür söz oyunu bir çox tapmacaların ümumi xüsusiyyətidir və onları həll etmək şagird üçün çox əyləncəli olur.

Tarixinə nəzər salsaq görərik ki, tapmacalar heç də günümüzdəki kimi olmamışdır. Qədimdə hər hansı hadisə, əşya və s. haqqında adi danışıq kimi dolayı şəkildə, metoforik yollarla ifadə etməyə çalışmışlar. Tapmacalar bilməcə, tapışmaq, matal və s. adlarla bütün türkdilli xalqlar içərisində məşhurdur. Tapmacalar əsrlər boyu məşhur olmuşdur və onlar bir çox fərqli mədəniyyət və ənənələrdə rol oynamışdır. Qədim Yunanıstanda tapmacalardan ziyafətlərdə və digər ictimai məclislərdə əyləncə kimi istifadə olunurdu. Atalar sözlərində bitmiş, aydın fikir, dərin məna lakonik şəkildə ifadə olunduğu halda, tapmacalarda fikrin mənası üstüörtülüdür. Tapmacada iki tərəf olması əsasdır; mövzunun özü və cavabı. İki və daha artıq şəxs arasında fikir söyləmə tapmacanın əsasını təşkil edir. Ona görə də, tapmaca atalar sözlərinə, bayatıya, mahnıya nisbətən daha çox kollektivlik xüsusiyyətinə malikdir. Əgər bayatıda, atalar sözlərində bir nəfər iştirak edirsə, tapmacalarda iki nəfərin iştirakı vacibdir.

Tapmacalar yığcam olduğu üçün tez əzbərlənir və sevilir. İbtidai sinif şagirdlərinin təfəkkürünün və nitqinin inkişafına, onların dünyagörüşünün

formalaşmasına güclü təkan verən, onları düşünməyə sövq edən, fakt və hadisələri tutuşdurmağa, fərqli və oxşar cəhətlərini aydınlaşdırmağa təhrik edən əsas vasitələrdən biri də tapmacalardır. Bu zaman nümunələrdə əlamətlərinə görə müəyyən bir əşyanın tapılması qarşıya məqsəd qoyulur. Eyni zamanda, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, düzgün tələffüz qaydalarının mənimsənilməsi, nitq bacarıqlarının formalaşdırılması üçün tapmacaların rolu önəmlidir.

Tapmacalar məzmununun dərinliyinə, obyektin gizlilik dərəcəsinə və cavabın çətinliyinə görə sadə və mürəkkəb olur. Ona görə də, deyə bilərik ki, insanın hər yaş dövrünə uyğun tapmaca mətnləri var. Bunu F.Köçərlinin topladığı tapmacalar da aydın göstərir. Məsələn, " Bizdə bir kişi var, xor-xor yatışı var" sadə tapmacadır, cavabını tapmaq o qədər də çətin deyil. Onu deyən kimi balaca uşaq da bilir ki, söhbət pişikdən gedir. [1,s 101]

İbtidai siniflərdə şagirdlərin nitqinin ifadəliliyi, obrazlılığı baxımından tapmacaların öyrədilməsi vacibdir və bu onlarda əşyaların keyfiyyəti, əlaməti, məzmunu haqqında dolğun təsəvvürlərin yaranmasına imkan yaradır. Bu zaman şagirdlərdə araşdırmaq, düşünmək bacarığı formalaşır. Onlar tapmacalardakı gizli fikri açmaq üçün əşyanın məzmununu araşdırmağa başlayırlar. Araşdırma apararkən şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalı və ona uyğun tapmacalar seçilməlidir. Belə ki, ibtidai sinif dərsliklərindəki tapmacalar öyrənənlərin yaş və tələblərinə uyğun olmalıdır. Xüsusilə, I və II siniflərdə tapmacalar tədris olunarkən əyanilikdən daha çox istifadə olunmalıdır. III-IV siniflərdə isə mücərrədliyə daha çox yer verilir. Əşyaların əlamətlərini sadalamaq, onlar haqqında fikir söyləmək məhz əyanilikdən istifadə zamanı daha çox özünü göstərir. Müxtəlif meyvə, tərəvəz və digər əşyaların təsvirlərinin təqdim olunması tapmacaların tapılmasında əsas rol oynayır. Bəzən müəllimlər şagirdlərə özlərindən tapmaca hazırlamalarını istəyir, bu zaman onlar əşyaların rəngini, formasını, əlamətini və s. aid olan müxtəlif ifadələrdən istifadə etməklə başa salmağa çalışırlar. Bu cür tapmaca hazırlamağı mütəmadi deyil, bəzən verilməsi uşaqlarda marağa səbəb olur və dərs daha da maraqlı olur. Bu cür tapşırıqların verilməsi öyrənənin yaradıcılıq qabiliyyətini formalaşdırır.Tədris prosesində tapmacaların verilməsi zamanı müxtəlif didaktik oyunlardan istifadə olunaraq tapılması həm maraqlı həm də, əyləncəli olur. Bu zaman şagirdlərdə dərsə maraq oyatmış oluruq, eyni zamanda onların düşüncə tərzini, təfəkkürünü formalaşdırırıq. Oxu və nitq inkişafına xidmət edən tapmacaları müəllim əvvəlcədən seçib hazırlamalıdır. Tapmacaların seçilməsində aşağıdakı cəhətlər gözlənilməlidir:

-Tapmacanın məzmunu aydın, konkret və qısa olmalıdır.
-Tapmacada dilin sadəliyini və axıcılığını gözləmək lazımdır.
-Tapmacanın məzmunu əşyanın əlamətini, xüsusiyyətlərini aydınlaşdırmalıdır.
-Tapmacada işlənən söz və ifadələr uşaqlar üçün aydın olmalıdır.
-Tapmacadakı fikirlər uşaqlar üçün anlaşıla biləcək səviyyədə olmalıdır.
-Müəllim tapmacanın məzmununun dərk olunmasına ciddi fikir verməlidir. [3, s 334]

Bütün bu qaydalara əməl olunarkən mütləq şagirdin yaş və bilik səviyyəsi nəzərə alınmalıdır. Fikrimcə, keçirilən hər mövzuya uyğun tapmacaların araşdırılması şagirdlərin həm lüğət ehtiyyatını zənginləşdirmiş olar, həm də dünyagörüşünü formalaşdırar. İbtidai siniflərdə yeni nəşr olunmuş I və II sinif dərsliklərində tapmacalara rast gəlmək olar. I sinif dərsliyinin I hissəsində, mövzuya uyğun müxtəlif tapmacalar verilmişdir. Belə ki, üçüncü fəsildə B tapşırığında tapmacaların oxunub suallara cavab verilməsi istənilir:

Üç qardaş var bir qutuda,
Biri deyir: " Sən dayan dur".
Biri deyir: " Diqqətli ol".
Biri deyir: " İndi buyur". [2, s 34]

Tapşırıqda "Üç qardaş " dedikdə nə nəzərdə tutulur? Hansı qardaş " İndi buyur" deyir? Bəs qırmızı rəng nə deyir? tipli suallar qoyularaq şagirdlərdən cavablandırılması istənilir. Eyni zamanda sualların alt hissəsində işıqforun rəngləri, sağ tərəfdə isə işıqfor göstərilir. Öyrənənlər şəkillərə baxaraq qoyulan suallara uyğun cavablandırırlar. Şagird tapmacadakı cavabın işıqfor olduğunu və qoyulan sualların qırmızı, sarı, yaşıl olduğunu söyləyirlər. Beləliklə, şagirdlər tapmacanın vasitəsilə həm yol hərəkət qaydalarını, həm rəngləri öyrənmiş olurlar. Nəzərə alsaq ki, onlar I sinifdilər və rəng, əlamət,ad bildirən sözlər haqqında ilkin məlumatlar əldə etmiş olurlar.

I sinifdə " Göbələk" mövzusunun tədrisi zamanı verilən tapmaca da şagirdlər üçün maraqlıdır. Belə ki, burada A tapşırığında " Tapmacanın açması hansı şəkildə təsvir olunub?" sualı qoyulub və sağ tərəfdə günəbaxan, göbələk, çiçək, qarğıdalı kimi təsvirlər verilib. Tapmacada deyilir:

Meşədir, çəməndir oylağım mənim,
Özümdən yekədir papağım mənim.
Bəzən zəhərliyəm, bəzən yeməli,
Düz bircə dənədir ayağım mənim. [2, s80]

Sonda məlumatlardan hansının tapmacanın cavabının tapılmasında kömək olduğu sualı verilir. Təbii ki, cavablar müxtəlif olacaqdır. Bəzi şagirdlər papağının olmasını, bəziləri zəhərli olmasını və s. kimi cavablar verəcəklər.Bu tapmaca vasitəsilə şagirdlər göbələk haqqında yeni məlumat əldə etmiş olacaqlar. Təsvirlərin verilməsi I sinif şagirdi üçün daha çox önəmlidir. Onlar şəkillərə baxaraq cavabı tez tapmış olurlar. Şagird tapmacanı oxuyarkən yeni sözlərlə rastlaşır ki, buda onlarda söz ehtiyatını zənginləşdirmiş olur, təfəkkürlərini inkişaf etdirir. Növbəti səhifədə isə "Xeyirxah göbələk" mətnindəki obrazlara uyğun tapmacalar verilmişdir ki, burada da şagird tapmacanın vasitəsilə mətndəki obrazların xarakterini göstərmişdir. Mətnin məzmununda verilir ki, meşədə qəfil yağış başlayır. Qarışqa yağışdan qorunmaq üçün göbələyin altında gizlənir. Sonra kəpənək, sərçə və dovşan toplaşır

göbələyin altına və beləcə, yağışdan qorunurlar. Hətta mətnin sonluğunda "...sizcə göbələk niyə böyüdü?" sualı verilməklə tapmacaya oxşar sual verilir və şagirdləri düşünməyə sövq edir. Beləliklə, öyrənən həm yeni heyvan və quşları tanıyır, həm də onların xüsusiyyətlərini bu vasitə ilə öyrənmiş olur. Məsələn, "Cik-cik çağrılır adım ..." başlığını oxuyan şagird söhbətin sərçədən getdiyini öyrənmiş olur. Eləcə də, " Qonar gülə, çiçəyə,....Qanadı xallı, zər-zər,.." ifadələrini oxuyan şagird kəpənəyin olduğunu biləcək. "Qaçanda hoppanaram... Kələmlə xoşdur aram....." ifadələrini oxuduqda artıq dövşanı, " İşləmək olmuş peşəm...Çünki
mən zəhmətkeşəm.." (2,s 84) birləşmələrini oxuduqda isə qarışqanı tanımış olacaqlar.

II sinif Azərbaycan dili dərsliyində onuncu səhifədə tapmaca haqqınnda məlumat verilib.Baxmayaraq ki, şagirdlər artıq Isinifdə tapmaca haqqında ilkin məlumatlar əldə ediblər. Məlumatda tapmacada əşyanın əlamətinin üstüörtülü şəkildə verilməsi və əşyanın adının tapılması haqqında qısa tərif verilib. Tapşırıq D-də müxtəlif tapmacalar verilməklə öyrənənlərin daha yaxşı qavramasına kömək edir. Tapşırıqda verilir:

Həyətdə dağ, pambıqdan ağ.
Evə gələr, suya dönər. (Qar).(4; s10)

Eyni zamanda verilən mətnlə bağlı da tapmaca verilmişdir. " Sevimli güllər" mətninin məzmuna uyğun olaraq, tapşırıq D-də iki tapmaca verilmişdi və hansı tapmacanın mətnin məzmununa uyğun olduğu istənmişdir:

Balacayam, sarıyam,
Deməyin ki. darıyam.
Sizə çörək oluram,
Zəmilərin barıyam. (Buğda)

Ətirlidir, gözəldir,
Mat qoyur insanları.
Heyif ki, əlimizi,
Qanadır tikanları. (Qızılgül) (4; s11)

Verilən nümunələrdə qızılgül cavabı olan tapmaca mətnin məzmununa uyğun gəlir. Hekayədə iki dost evdə oynarkən bilmədən stolun üstündəki güldanı sındırırlar, qızılgüllər yerə dağılır. Anası evdə olmadığından gələndə onun məyus olacağını düşünən oğlan, qızılgül rəsmi çəkib güldanın yerinə qoyur, dostugil isə bir dəstə qızılgül alıb gətirir. Mətnin məzmunundan göründüyü kimi, cavab qızılgüldür. Mətni oxuyan öyrənənlər bu tapmacanı rahatlıqla tapa biləcəklər.

II sinif Azərbaycan dili dərsliyinin "Ümumiləşdirici təkrar" bölməsində çox maraqlı tapşırıq verilmişdir. Burada dörd müxtəlif tapmaca verilmişdir. " Yumru təkər, əllərdə gəzər ", " Yer altında sarı biz" və s. (4, s 56) kimi tapmacaların

cavabları təsvirlər vasitəsilə göstərilmişdir. Tədris zamanı şagirdlər cavabları tapdıqdan sonra, əlamət bildirən sözləri qruplaşdırmaq üçün cədvəl verilmişdir və orada tapmacanın cavabına uyğun olaraq, cavablar yazılır. Burada ölçü, forma, rəng, dad bildirən sözlərin tapılması istənilir. Cavablara görə şagird qruplaşdırıb tapır. Bununla da, öyrənənlər həm formanı, həm əlaməti, həm dadı və s. öyrənmiş olurlar. Demək tapmacaların tədrisi ibtidai siniflərdə öyrənmə baxımından daha çox əhəmiyyət kəsb edir.

I-II siniflərdə tapmacaların verilməsinə baxmıyaraq III sinif dərsliklərində buna rast gəlinmir. Fikrimcə bütün ibtidai siniflərdə tapmacaların verilməsi daha yaxşı olardı. Şagirdin öyrənmə və düşünmə baxımından tapmacaların verilməsi əsasdır. Zamanın tələbinə uyğun olaraq tapmacalar, xalqın həyat və məişət tərzinə uyğun verilir. Tədris prosesində də, bu məsələlərə önəm verilir. Bəzi sözlər olur ki, artıq dilimizdə işlənmir, arxaikləşir. Bu cür sözlərə aid olan tapmacalar da təbii ki, unudulur. Ona görə də, zamanla səsləşən tapmacalara tədris prosesində yer verilir. Çünki, mənası şagird üçün aydın olmayan sözlərə aid tapmaca verilərsə, təbii ki, bunu tapmaqda şagird çətinlik çəkəcək. Xüsusilə də, verilən tapmacaların mövzuyla bağlığı da əsasdır ki, biz dərsliklərə nəzər yetirdikdə bunu açıq şəkildə görürük.

Tapmacaların tədrisi eyni zamanda şagirdlərin lüğət ehtiyatını zənginləşdirməkdə, nitqin inkişafında və onların fonetik səs sisteminə yiyələnmələrində əsas rol oynayır. Ümumilikdə tapmacalar düşündürücü suallar əsasında qurulur. Şagird cavabı axtarılan hər sualda düşünür, yenilikləri öyrənir. Hər şagird müxtəlif cür yanaşır mövzuya və fərqli cavablar verir ki, bununla da şagirdlərin söz ehtiyatı zənginləşmiş olur. Müxtəlif bədii təsvir və ifadə vasitələrinin verilməsi tapmacalar üçün əsasdır. İbtidai siniflərdə isə verilən hər tapmaca onların anlama və yaş səviyyəsinə uyğun olmalıdır. Nəticədə, tapmacaların tədrisi şagirdlərin nitqini, oxu bacarıqlarını, lüğət ehtiyatını zənginləşdirməkdə, onların dünyagörüşünün formalaşmasında önəmli rol oynayır. Bu məqsədlə ibtidai siniflərdə tapmacaların tədrisinə daim yer verilməli və onlar əyani vasitələrin köməyi ilə şagirdlərə öyrədilməlidir. Sonda belə bir nəticəyə gəlmək olar ki, tapmacalar hər zaman tədris olunmalı, zamanın tələblərinə cavab verməli, şagirdləri düşündürən, onları araşdırmağa sövq edən nümunələr verilməlidir. Çünki, şagirdin həm də, tədqiqatçı olması zamanın tələbi kimi bu gün bizim qarşımızda qoyulan əsas məsələlərdəndir və bu bacarıqların formalaşmasında təbii ki, tapmacaların önəmi var. Bu gün də tapmacalar öz aktuallığını qorumaqda davam edir və hər yaşda olan insanlar tərəfindən istifadə olunur. Onlar kitablarda, onlayn və digər media formalarında tapılır və tənqidi düşünmə bacarıqlarını təkmilləşdirmək üçün əyləncəli oyun növü kimi istifadə edilir.

Nəticə olaraq, tapmacalar min illər boyu bütün dünyada insanların həzz aldıqları əyləncə və zehnlərini inkişaf etdirdikləri ağıllı söz oyunu kimi gələcək nəsillər üçün məhşur olmağa davam edəcəkdir.

Ədəbiyyat:
1. Azərbaycan Milli Elmlər Akademiyası. Xəbərlər №1, Bakı, Elm, 2013, s 114
2. Allahverdiyeva.N, Nurullayeva.Ü, Bayramova.İ, Xanalıyeva.A. Azərbaycan dili, dərslik, I sinif, I hissə, Bakı 2020, s 98
3.Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası, Dərslik, I hissə, Bakı 2016, s 403
4.İsmayılov.R, Nurullayeva.Ü, Zahidova. Ş, Bayramova. İ, Xanalıyeva.A. Azərbaycan dili, dərslik, II sinif, I hissə, Bakı2021, s105
5. Seyidov.N . Tapmacalar, Şərq-Qərb 2004, s 208.

S.NOVRUZOVA

SUMMARY

THE TEACHING OF RIDDLES IN PRIMARY CLASSES

In ancient times, any event, object, etc. they tried to express it indirectly, in metaphorical ways, like ordinary conversation. Riddles are famous among all Turkic-speaking peoples with the names of “bilməcə”, “tapışmaq”, “metal” etc. While in proverbs a complete, clear idea, deep meaning is expressed in a laconic way, in riddles the meaning of the idea is implicit. In a riddle, there must be two sides; the topic itself and the answer. The exchange of ideas between two or more people is the basis of the riddle. Therefore, riddles are more collective in nature compared to proverbs, “bayati”and songs. If only one person participates in proverbs and “bayati” , two people must participate in riddles.

Riddles are memorizes quickly and loved because they are concise. Riddles are one of the main tools that give a strong impetus to the development of the thinking and speech of primary school students, the formation of their worldview, encourage them to think, compare facts and events, and clarify their differences and similarities.In this case, the goal is to find a certain item in the samples according to its characteristics. At the same time, the role of riddles is important for enriching students' vocabulary, mastering correct pronunciation rules, and forming speech skills.

In primary classes, it is important to teach riddles in terms of the expressiveness and imagery of the students' speech, and this allows them to have full ideas about the quality, sign, and content of things. At this time, the ability to research and think is formed in the students. They begin to explore the contents of the object to reveal the hidden idea in the puzzles. When conducting research, the age characteristics of students should be taken into account and puzzles should be selected accordingly. So, the puzzles in the primary school textbooks should be suitable for the age and requirements of the learners.

As a result, the teaching of riddles plays an important role in enriching students' speech, reading skills, vocabulary, and forming their worldview. Therefore,

the teaching of riddles should always be given place in primary classes and they should be taught to students with the help of visual aids. In the end, we can come to the conclusion that riddles should always be taught, they should meet the requirements of the time, and examples should be given that make students think and encourage them to explore.

Keywords: riddle, teaching, thinking, research, characteristic, folk

С. НОВРУЗОВА

РЕЗЮМЕ
ОБУЧЕНИЕ ЗАГАДКАМ В НАЧАЛЬНЫХ КЛАССАХ

В древности любое событие, предмет и т. они пытались выразить это косвенно, метафорически, как обычный разговор. Загадки, головоломки, матал и т.д. имена известны среди всех тюркоязычных народов. Если в пословицах лаконично выражена законченная, ясная мысль, глубокий смысл, то в загадках смысл мысли имплицитен. Ключевым моментом является наличие двух сторон головоломки; сама тема и ответ. Обсуждение между двумя или более людьми является основой головоломки. Поэтому в загадки больше собирательности, чем в пословицах, старинных поговорках и песнях. Если в баятах, пословицах участвует один человек, то в загадках важны два человека.

Загадки быстро запоминаются и любимы, потому что они лаконичны. Загадки являются одним из основных средств, дающих сильный толчок развитию мышления и речи младших школьников, формированию их мировоззрения, побуждают их к размышлению, примирению фактов и событий, выяснению их различий и сходств. На этот раз цель состоит в том, чтобы найти в образцах определенный предмет по его характеристикам. При этом роль загадок важна для обогащения словарного запаса учащихся, усвоения правил правильного произношения, формирования речевых навыков.

В начальных классах важно обучать загадкам с точки зрения выразительности и образности речи учащихся, а это позволяет им иметь полные представления о качестве, признаке и содержании вещей. В это время у учащихся развиваются способности к исследованию и мышлению. Они начинают исследовать содержимое предмета, чтобы раскрыть скрытую в головоломках идею. При проведении исследования следует учитывать возрастные особенности учащихся и соответственно подбирать ребусы. Итак, ребусы в учебниках для начальных классов должны соответствовать возрасту и требованиям учащихся.

В результате разучивание загадок играет важную роль в обогащении речи учащихся, навыках чтения, словарном запасе, формировании их мировоззрения. Для этого в начальных классах всегда должно отводиться

разгадывание загадок и преподавание их учащимся с помощью наглядных пособий. В итоге можно прийти к выводу, что загадки нужно учить всегда, они должны отвечать требованиям времени, давать примеры, заставляющие учащихся думать и побуждающие их к исследованию.

Ключевые слова: загадка, учение, мышление, исследование, знак, фольклор.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Flologiya elmləri doktoru, dosent Flora Kamran qızı Namazova tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC QASIMOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutunun böyük elmiş işçisi
e-mail: sevinccqasimova@gmail.com

NAĞILLARDA QARAÇUXA OBRAZININ EPİK-MİFOLOJİ MƏNA XÜSUSİYYƏTLƏRİ
(Xülasə)

Azərbaycan epik folkloru mifoloji obrazlarla zəngindir. Onlardan biri Qaraçuxadır. Qaraçuxa haqqında inanclar Azərbaycan folklor mühitlərində geniş şəkildə yayılsa da, bu obraza folklorşünaslıqda az diqqət yetirilmişdir.

Azərbaycan folklorunda Qaraçuxa obrazına nağıllarda da rast gəlinir. Belə nağılları əfsanə və rəvayətlərin nağıllaşmış variantları da hesab etmək olar. Onlardan biri "Qaraçuxasını axtaran kasıb" nağılıdır.

Nağıl qəhrəmanının başına gələn acı aqibətin altında Azərbaycan xalqının "Səndən – hərəkət, məndən – bərəkət" atalar sözünün mənasının gizləndiyini görürük. Qaraçuxasını oyadan kişinin bununla öz işini bitmiş hesab etdiyi üzə çıxır. O düşünür ki, əgər mən Qaraçuxanı oyatmışamsa, demək, bütün işlərim öz-özünə düzələcək. Lakin kişi başa düşmür ki, Qaraçuxa bəxti açır, lakin həmin bəxtin insana qismət olması üçün çalışmaq, əziyyət çəkmək, zəhmətə qatlaşmaq lazımdır. Belə ki: "İşləməyən – dişləməz". İbrətamiz nəticənin yumoristik boya ilə təqdim olunduğu bu nağılda Qaraçuxa obrazı üçün xarakterik olan keyfiyyətlərin hamısı əks olunmuşdur. Mətndən aydın olur ki, Qaraçuxa bəxt, tale ilə bağlı mifik obrazdır. Hər bir insanın qaraçuxası vardır və insanın bəxti onun qaraçuxasının yatılı, yaxud oyaq olmasından asılıdır. Qaraçuxanın yatılı, yaxud oyaq olması insanın niyyətinə bağlıdır: Qaraçuxa çalışan, əziyyət çəkən insanın bəxtini açıq edir, onun var-dövlətini, xeyir-bərəkətini artırır, tənbəl adamlardan isə üz döndərərək yatır. İnsanın həyatında uğursuzluqların olması Qaraçuxanın yatmasına işarədir. Qaraçuxanı oyatmaq istəyən insan zəhməti, əməyi, halallığı sevməlidir: o, yalnız bu halda Qaraçuxanın himayəsini qazana bilər.

Açar sözlər: folklor, Azərbaycan folkloru, nağıl, əfsanə, rəvayət, mif, qaraçuxa, bəxt, ruh

G İ R İ Ş

Azərbaycan mifik inanclar sisteminin geniş yayılmış obrazlarından olan Qaraçuxaya daha çox əfsanə və rəvayət janrlarında rast gəlinir. Bunun iki səbəbi vardır:

Birincisi, Qaraçuxa bilavasitə mifik obrazdır. Miflər isə daha çox əfsanə janrı ilə əlaqədardır.

İkincisi, Qaraçuxaya insanlar gerçək varlıq kimi yanaşırlar, ona görə də Qaraçuxa haqqındakı mətnlərə bir çox hallarda rəvayət formasında da rast gəlinir.

Azərbaycan folklorunda Qaraçuxa obrazına nağıllarda da rast gəlinir. Belə nağılları əfsanə və rəvayətlərin nağıllaşmış variantları da hesab etmək olar. Onlardan biri "Qaraçuxasını axtaran kasıb" nağılıdır

T Ə D Q İ Q A T

Qaraçuxa – ümumən bəxt obrazıdır. Odur ki, o, gah Qaraçuxa gah da elə Bəxt adı altında keçir. Bu nağıllara diqqət yetirdiyimizdə görürük ki, onlarda Qaraçuxa obrazı üçün xarakterik olan cəhətlər daha geniş halda öz əksini tapmışdır.

"Qaraçuxasını axtaran kasıb" nağılında deyilir ki, bir nəfər varlı olur. Bunun da bir kasıb qonşusu olur. Bu varlı qonşu kasıb qonşunu bir səhər çağırıb ona deyir:

– Ə, bizim at doğacaqdı, axşamdan qalıb dərənin ayağında. Bu gecə də bir qoyun azarlamışdı, kəsmişik. Onu apar ver, evdə uşaqlar yesin, sən də get, o atı götür gəl.

Kişi deyir:

– Qoy gedim, arvada deyim, gəlim.

Gedir arvada deyir ki, aaz, filankəs deyir ki, bir qoyun kəsmişəm, apar onu uşaqlar yesin, get, atı gətir.

Arvad da deyir ki, ə, niyə gətirmirsən, gətirərdin də.

Kişi qayıdır gəlir. Görür ki, cəmdəyin yarısını aparıblar. Varlı qonşu deyir:

– Bəs niyə gəlmədin, ə? Uşaqlar ətin parasın aparıblar çöldə bişirməyə. Heyvan kəsiləndə genə sənə ət verəcəm, get, atı götür gəl.

Kişi deyir:

– Qoy gedim, arvada deyim.

Arvada deyir. Arvad deyir ki, ə, başına daş, nə verir, götür, gətir bəri.

Qayıdır gəlir, görür, o paranı da aparıblar, qarınla baş qalıb.

Varlı qonşu deyir:

– Ə, onu da aparıblar ey. Qarınla baş qalıb. Apar bunları evə.

Nə isə, aparır bunları evə [9, s. 188-189].

Nağılın bu giriş hissəsi bir neçə cəhəti ilə diqqəti cəlb edir:

Birincisi, bu nağıl digər nağıllar üçün xarakterik olan "Biri var idi, bir yox idi" formulu ilə başlamır. Halbuki həmin formul nağılların girişi üçün xarakterikdir. Məs.: "Biri var imiş, biri yox imiş, günlərin bir günündə belə deyirlər ki, bir vilayətdə Dəşgüvar adında bir padşah var imiş [1, s. 32]; "Belə rəvayət edirlər ki, keçmişdə bir padşah vardı" [2, s. 157]; "Günlərin bir günündə, əyyami-sabiqdə, biri var idi, biri yoxdu, bir padşah vardı" [3, s. 205]; "Biri varmış, biri yoxmuş, keçmiş əyyamda iki qardaş varıymış" [4, s. 68].

Yuxarıdakı nümunələri "inisial formul" kimi səciyyələndirən O.Əliyev göstərir ki, onlar kiçik dəyişikliklər nəzərə alınmaqla nağıllarımız üçün, əsasən, səciyyəvi olan inisial formulları əks etdirməkdədir. Bu nümunələrdə diqqəti cəlb

edən xüsusiyyətlərdən biri burada zamanın şərtiliyi, qeyri-konkretliyidir, inisial (başlanğıc) zamanın dəqiq tarix təqviminə bağlı olmamasıdır. Çox vaxt bu formullarda zaman "günlərin bir günü", "qədim əyyamda" və s. bu kimi söz birləşmələri ilə ifadə olunur. Bunlar nağıldakı hadisələrin tarixi zamandan kənarda, onun hüdudları xaricində mövcud olan naməlum bir zaman hüdudları daxilində baş verməsini göstərməkdədir. Bu inisial (başlanğıc) formullar haradasa söyləyicinin nağılda cərəyan edən hadisələrin reallığına, gerçəkdən də baş verməsinə şübhə ilə yanaşmasını da əks etdirə bilər [8, s. 161].

Müəllifin bu qeydindən aydın olur ki, "biri var idi, bir yox idi" inisial formulu nağıllarda baş verən hadisələrin nağıl poetikasına uyğunlaşdırılmasından ötrü vacib elementdir. Yəni hər bir janrın gerçəkliyi təqdim etmə modeli var. Nağıllar haqqında tədqiqatlara görə, bu janr üçün fantastik uydurma, yalan əsas poetik göstəricilərdəndir [13, s. 47; 11, s. 102; 12, s. 124-125; 7, s. 49; 10, s. 60-62].

Qaraçuxa haqqındakı nağılda "Biri var idi, biri yox" idi formulunun olmaması mətnin rəvayətlə məna əlaqəsinin qırılmamasını göstərir. Yəni Qaraçuxa xalq təsəvvüründə real varlıq, həqiqət kimi qəbul edildiyi üçün bu cəhət özünü nağılda da qorumuşdur.

İkincisi, Qaraçuxa/Bəxt ilə bağlı mətnlərin bir çoxu Qaraçuxanın yatması səbəbindən insanın uğursuzluğa düçar olması motivi ilə başlayır. Nağılda da görürük ki, varlı qonşu müəyyən bir işin müqabilində qoyunun ətini bütövlükdə kasıb qonşuya vermək istəsə də, bu ət ona qismət olmur. Kasıb hər dəfə cəhd eləsə də, nəticə uğursuz alınır və bu da süjet konfliktinin əsasını qoyur.

Nağılda daha sonra deyilir ki, kasıb qonşu varlı qonşunun atını gətirməyə gedir. Görür ki, at təzəcə doğub. Bir qara paltarlı adam qulunun (bala atın) ağzını aralayır, atın əmcəyini salır onun ağzına, qulun da əmir. Kişi yaxına gəlib deyir:

– Salam-əleyküm.

Qara paltarlı kişi də deyir:

– Əleykümsəlam.

Kasıb kişi deyir ki, bu at filankəsin deyil?

Qara paltarlı adam deyir ki, hə, onundur.

Deyir:

– Bəs sən nə edirsən burada?

O da cavab verir ki, mən onun qaraçuxasıyam, qulunu əmizdirirəm [9, s. 189].

Qəhrəmanın (kasıb kişinin) Qaraçuxa ilə qarşılaşması bu obrazla bağlı mətnlərdə geniş yayılmışdır. Nəzərdən keçirdiyimiz mətn nağıl janrına aid olduğu üçün burada Qaraçuxa ilə bağlı ayrı-ayrı əfsanə və rəvayətlərdə rast gəlinin müxtəlif epizodları bir arada (vahid süjet xəttində) birləşməsini, qovuşmasını görürük. Bu cəhətdən nağıl məna tutumu etibarilə əfsanə və rəvayətlərdən geniş həcmə malik olduğu üçün onları öz içinə almışdır.

Mətndə deyilir ki, Qaraçuxa ilə qarşılaşan kasıb kişi ondan öz dərdinə çarə istəyir. Ona deyir ki, görəsən, mənim qaraçuxam hanı? Mən yaxşı dolana bilmirəm.

Qaraçuxa da deyir ki, sənin qaraçuxan haradadırsa yatıbdır. Gərək, gedib durğuzasan [9, s. 189].

Mətnin bu hissəsində biz Qaraçuxa obrazının əsas mənası ilə qarşılaşırıq. Qara paltarlı qaraçuxanın sözündən məlum olur ki, insanın uğursuzluğu onun qaraçuxasının yatması ilə bağlıdır. İnsan gərək öz qaraçuxasını, bəxtini oyatsın.

Cəlal Bəydili (Məmmədov) Qaraçuxa obrazının mifik mənası haqqında yazır: "Qara Çuxa – Azərbaycan türkləri arasında yayılaraq gözə görünməzlərdən olduğuna inanılan, övliya adı ilə də bilinən demonoloji bir varlıq. Bəxt və tale anlayışları ilə əlaqələndirilir. Xalqın etiqadına görə, adamların arxasınca gəzib-dolanır, ona köməklik eləyir. "Qara Çuxa adamla gəzib dolanmırsa, o adamın baxtı yatıbdı" mənasında "filankəsin Qara Çuxası yatıb" – deyərlər. Yox, əgər adamın Qara Çuxası yatmayıbsa, onda deyərlər, filankəsin Qara Çuxası dik durub. İnanışa görə "Qara Çuxa övliyadır... evin astanasında durar, amma gözə görünməz. Evin astanasına çatdın, gərək Qara Çuxaya salam verəsən". Astana isə öz mifoloji semantikasına görə iki ayrı dünyanın sərhədi, marginal zona kimi yozulduğundan bu gözəgörünməz varlığın da eyni dərəcədə hər iki aləmlə bağlılığı var. Mifoloji mətnlərdən aydın olur ki, Azərbaycan türklərinin dərin etimadına görə, "Qara Çuxa mələkdir. Adamdan gərək üz döndərməyə. Yaxşı, düz adamın Qara Çuxası heç vaxt üz döndərməz. İşi həmişə xeyirliyə olar. Qara Çuxa üz döndərəndə işin əyilər. Allah-taala heç kəsin Qara Çuxasın yatırtmasın. Həmişə oyaq olsun. Bizimki də onun içində. Oyaq olsa Qara Çuxa həmişə xeyirliyə çalışar. Birinə alqış edildiyi zaman: "Allah sənin Qara Çuxanı uca eləsin" – deyilər. Salavat çevirəndə də "Qara Çuxanın üzünün nuruna salavat" deyirlər. Birinin başına qəza gələndə isə: "Qaraçuxası yatdı // Ömrü batdı" – söylərlər" [6, s. 215-216].

Müəllifin Qaraçuxa obrazının məna xüsusiyyətləri haqqında verdiyi bilgilərə biz bu nağılda da rast gəlirik. Mətndə deyilir ki, kişi atı gətirib varlı qonşusuna verir və ona söyləyir ki, sənin qaraçuxanı da gördüm. İndi sağlıqla qal, mən gedirəm öz qaraçuxamı axtarmağa [9, s. 189].

Bu epizoddan aydın olur ki, kasıb kişinin qonşusunun varlı-dövlətli olması onun qaraçuxasının oyaq olması ilə bağlı imiş. Qaraçuxa onu himayə edir, bəxtini açır, var-dövlətini qoruyur. Lakin varlı kişinin qaraçuxasının onu hansı səbəbdən qoruması nağılın sonundakı ibrətamiz sonluqdan aydın olur. Məlum olur ki, o, zəhmətkeş, əməksevər adam olduğu üçün qaraçuxası onu himayə edirmiş.

Nağılda deyilir ki, kiºi qaraçuxasını axtarmaq üçün yola düşür. Yolda rastına bir canavar çıxır. Canavar onun haraya getdiyini biləndən sonra Qaraçuxadan onun da dərdini soruşmağı xahiş edir.

Kişi daha sonra bir bağın kənarında bikef oturmuş bağbana rast gəlir. Bağban da ondan xahiş edir ki, Qaraçuxa onun dərdinin çarəsini desin.

Yoluna davam edən kişi daha sonra bir padşaha rast gəlir. Demə, bu padşah kişi paltarı geymiş qadın imiş. O da kişidən onun dərdinin çarəsinin nə olduğunu öyrənməyi xahiş edir.

Kişi yoluna davam edir. Görür ki, bir dağın döşündə qara çuxalı adamdır, başını bürüyüb yatır. Durğuzur bunu. Deyir ki, mənim qaraçuxam sənsən? O da deyir ki, hə. Deyir:

– Ə, xalxın qaraçuxası madyan doğuzdurur, qulun əmizdirir, sən də yıxılmısan bura. Bütöv cəmdəyi yeyə bilmədim, parasın yeyə bilmədim, bir poxlu qarına möhtac qaldım.

Qaraçuxa deyir ki, yatmışam xəbərim olmayıb, yoxsa, onu da yeyə bilməyəcəkdin. Məni durğuzmusan, daha getginən.

Kişi daha sonra Qaraçuxadan canavar, bağban və padşah haqqında soruşur. Deyir:

– Yaxşı gedirəm. Amma gələndə mənim qabağıma bir padşah çıxdı, mənə belə-belə söz dedi.

Qaraçuxa deyir:

– O padşah qızdı. Getsin sənin kimi bir oğlana. Özü getsin evdə-eşikdə qab-qaşığın yusun, səni də qoysun yerində padşah.

Deyir:

– Bəs bağban da belə-belə dedi.

Qaraçuxa deyir:

– O bağbanın da bağının kül olduğu yerdə yeddi küp qızıl var. Qazsın çıxarsın, ondan sora bağ bar verəcək.

Deyir:

– Bəs canavar?

Qaraçuxa deyir:

– Canavar da başı xarab adamın beynini yesin, qoturu onunla gedəcək.

Kişi qayıdıb-gəlib xanımı tapır. Deyir ki, vallah, o bir söz dedi, mən xəcalət çəkirəm sənə deməyə... Dedi ki, o, bir qızdı, bir oğlana getsin.

Xanım padşah deyir:

– Ə, bunu səndən başqa heç kəs bilmir. Bir sən bilirsən, bir də mən. Gəl çıx otur taxtda, evdə qabdan-qacaqdan yuyub-eləyim. Sənə yemək hazırlayım.

Deyir:

– Yox, mən qaraçuxamı durğuzmuşam, gedirəm.

Gəlir bağa. Bağbana da söhbəti nəql edir. O da qayıdır ki, ə, bunu səndən və məndən başqa heç kəs bilmir. Gəl qızıl küplərini çıxardaq, ikimiz bölək, yarısı sənin, yarısı mənim.

Kişi xanım padşaha dediyi kimi, bağbana da eyni cavabı verir: "Yox, mən qaraçuxamı durğuzmuşam, gedirəm" [9, s. 189-192].

Kişi ilə onun qaraçuxası, padşah və bağban arasındakı dialoqlar artıq nağıl xarakterlidir. Yəni biz burada süjetin nağıl üslubunda genişləndirildiyini, maraqlı, cəlbedici hadisə kimi təqdim olunduğunu görürük. Bu, nağıl janrının poetik xüsusiyyətindən irəli gəlir. Nağıllar, janr mahiyyəti baxımından, maraqlı hekayətlərdir və əyləndirici funksiya daşıyır. Əfsanələr və rəvayətlər isə bu

baxımdan nağıllardan fərqlənir. Onlar danışanların və dinləyənlərin həqiqiliyinə inandıqları izahedici məlumatlardır. Nəzərdən keçirdiyimiz nağılda süjetin zahiri izahediciliyinin altında, sadəcə, gülüş yaradan maraqlı əhvalat nəql olunur. Qaraçuxa padşahın və bağbanın dərdinin çarəsini deməklə, əslində, kişiyə yaxşı bəxt qismət etmək istəyir. Ancaq kişi öz axmaqlığı, yaxud nağılda deyildiyi kimi, "başıxarablığı" üzündən öz bəxtinə qovuşa bilmir.

Nağılda deyilir ki, kişi canavarın yanına gəlib ona dərdinin çarəsini deyir. Canavar deyir:

– Yaxşı, bəs niyə padşah olub orada qalmadın? Bağban sənə dedi ki, gəl qızılı bölək, niyə eləmədin?

Deyir:

– Neynirəm? Qaraçuxamı mən durğuzmuşam.

Canavar hoppanıb bunu yıxır yerə. Deyir:

– Ə, donuz oğlu, padşah olmadın, qızılı çıxartmadın, səndən başı xarab adamı mən haradan tapacam? – deyib onu yeyir [9, s. 192].

N Ə T İ C Ə

Kişinin başına gələn bu aqibətin altında Azərbaycan xalqının "Səndən – hərəkət, məndən – bərəkət" atalar sözünün mənasının gizləndiyini görürük. Qaraçuxasını oyadan kişinin bununla öz işini bitmiş hesab etdiyi üzə çıxır. O düşünür ki, əgər mən Qaraçuxanı oyatmışamsa, demək, bütün işlərim öz-özünə düzələcək. Lakin kişi başa düşmür ki, Qaraçuxa bəxti açır, lakin həmin bəxtin insana qismət olması üçün çalışmaq, əziyyət çəkmək, zəhmətə qatlaşmaq lazımdır. Belə ki: "İşləməyən – dişləməz".

İbrətamiz nəticənin yumorisitik boya ilə təqdim olunduğu bu nağılda Qaraçuxa obrazı üçün xarakterik olan keyfiyyətlərin hamısı əks olunmuşdur. Mətndən aydın olur ki, Qaraçuxa:

– bəxt, tale ilə bağlı mifik obrazdır;

– hər bir insanın qaraçuxası vardır;

– insanın bəxti onun qaraçuxasının yatılı, yaxud oyaq olmasından asılıdır;

– Qaraçuxanın yatılı, yaxud oyaq olması insanın niyyətinə bağlıdır: Qaraçuxa çalışan, əziyyət çəkən insanın bəxtini açıq edir, onun var-dövlətini, xeyir-bərəkətini artırır, tənbəl adamlardan isə üz döndərərək yatır.

– insanın həyatında uğursuzluqların olması Qaraçuxanın yatmasına işarədir;

– Qaraçuxanı oyatmaq istəyən insan zəhməti, əməyi, halallığı sevməlidir. O, yalnız bu halda Qaraçuxanın himayəsini qazana bilər.

Ə D Ə B İ Y Y A T

1. Azərbaycan nağılları. 5 cilddə, I c., /Tərtib edəni M.H.Təhmasib, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1960, 325 s.

2. Azərbaycan nağılları. 5 cilddə, II c., /Tərtib edəni Ə.Axundov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1961, 374 s.

3. Azərbaycan nağılları. 5 cilddə, III c., /Tərtib edəni Ə.Axundov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1962, 282 s.

4. Azərbaycan nağılları. 5 cilddə, IV c., /Tərtib edəni N.Seyidov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1963, 287 s.

5. Azərbaycan nağılları. 5 cilddə, V c., /Tərtib edəni Ə.Axundov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1964, 288 s.

6. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.

7. Çəmənzəminli Y.V. Əsərləri, 3 cilddə, III c., (məqalə, oçerk və xatirələr). Bakı: Elm, 1977, 318 s.

8. Əliyev, O. Azərbaycan nağıllarının poetikası: Fil. elm. dok. ...dissertasiya. Bakı: 2022, 292 s.

9. Qarabağ: folklor da bir tarixdir, I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Bakı: Elm və təhsil, 2012, 464 s.

10. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.

11. Аникин В.П. Сказки – Русское народное поэтическое творчество. Москва: Просвещение, 1971, с. 101-130

12. Гусев В.Е. Эстетика фольклора. Ленинград: Наука, 1967, 320 с.

13. Пропп В.Я. Проблемы комизма и смеха. Москва: Искусство, 1976, 183 с.

SUMMARY
EPICO - MYTHOLOGICAL FEATURES OF THE GARACHUKHA CHARACTER IN FAIRY TALES

Azerbaijan epic folklore is rich in mythological images. One of them is Garachukha. Although beliefs about Garachukha are widely spread in Azerbaijani folklore, little attention has been given to this image in folklore studies.

In Azerbaijani folklore, the image of Garachukha is also found in fairy tales. Such tales can also be considered fictional versions of legends and narratives. One of them is the tale " The poor man who is looking for his Garachukha".

Under the bitter fate of the hero of the fairy tale, we can see the hidden Azerbaijani proverb: " Action – from you, blessing – from me". The man who wakes his Garachukha thinks all his work is done. He thinks that if he "woke" his Garachukha, then all his problems would be solved themselves. He doesn't understand that Garachukha creates luck, but in order this luck to be one`s destiny,he needs to work and endure hard work. So "One, who doesn't work ,doesn't eat". In this tale where the instructive result is presented with a humorous color, all the qualities characteristic for Garachukha are reflected. It is clear from the text that Garachukha is a mythical image related to luck and fate. Every person has his

Garachukha and the luck depends on whether his Garachukha is “asleep” or “awaken”. Garachukha reveals the luck of a working person increases his wealth and blessings and sleeps turning his back to lazy people. The presense of failures in a person`s life is a sign that Garachukha is sleeping. The person who wants to awaken his Garachukha must love hard work and honesty. Only in this case he can win the patronage of Garachukha.

Key words: folklore, Azerbaijani folklore, fairy tale

РЕЗЮМЕ
ЭПИКО - МИФОЛОГИЧЕСКИЕ СМЫСЛОВЫЕ ОСОБЕННОСТИ ПЕРСОНАЖА ГАРАЧУХИ В СКАЗКАХ

Азербайджанский эпический фольклор богат мифологическими образами. Один из них - Гарачуха. Хотя представления о Гарачуха широко распространены в азербайджанском фольклоре, этому образу в фольклористике уделялось мало внимания. В азербайджанском фольклоре образ Гарачухи встречается и в сказках. Такие сказки также можно считать вымышленными версиями легенд и повествований. Один из них сказка “Бедный, искавший своё Гарачуха”. Под горькой судьбой героя скрывается азербайджанская пословица “От тебя действие, от меня – благо”. Мужчина, который будит своего Гарачуха думает, что все его проблемы решены. Он думает, что если он разбудил Гарачуху, то все его дела уладятся сами собой. Однако мужчина не понимает, что Гарачуха создаёт удачу, но чтобы это удача стала судьбой человека, нужно работать, трудиться, терпеть тяжкий труд. Так вот : “Кто не работает, тот не ест. В этой сказке, где поучительный итог представлен с юмористической окраской отражены все качества, характерные для персонажа Гарачуха. Из текста ясно, что Гарачуха - это мифический образ, связанный с удачей и судьбой. У каждого человека есть свое Гарачуха, и удача зависит от того , спит его Гарачуха или бодрствует. И это всё зависит от намерений человека. Гарачуха создаёт удачу для тех, кто трудится, увеличивает его богатство и благо, и спит, повернувшись спиной к ленивым людям. Наличие неудач в жизни человека признак того, что Гарачуха спит. Человек, желающий пробудить Гарачуху, должен любить труд и честность. Только в этом случае он сможет завоевать покровительство Гарачухи.

Ключевые слова: фольклор, азербайджанские фольклор, сказка.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmlər doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur

AYTƏN İSLAMLI
Milli Aviasiya Akademiyası
Bakı şəhəri, Mərdəkan prospekti 30
ayten071282@gmail.com

ALİ TƏHSİLİN BEYNƏLMİLƏLLƏŞMƏSİ

Açar sözlər: qlobal təhsil, ali təhsilin beynəlmiləlləşməsi, xaricdə təhsil, inteqrasiya
Key words: global education, the internationalization of higher education, education abroad, integration
Ключевые слова: глобальное образование, интернационализация высшего образования, образование за границей, интеграция

GİRİŞ

Azərbaycan dünyada qloballaşma yolu ilə irəliləyən və beynəlxalq rəqabətə sürətlə uyğunlaşan ölkələr siyahısındadır. Hal-hazırda beynəlxalq miqyasda istifadə olunan meyarların öyrənilməsinə və onların təhsil sahəsində sınaqdan keçirilməsinə ciddi şəkildə riayət edilir. Bu sahədə beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq, təcrübələrin mübadiləsi, konfrans və seminarların keçirilməsi geniş vüsət alır. Bu gün Azərbaycanın təhsil sistemində və dünya təcrübəsində tətbiq edilən təhsil texnologiyaları, beynəlxalq proqramlar və layihələr geniş şəkildə vüsət almışdır. Sevindirici haldır ki, son 5 onillik ərzində istər ölkə hüdudlarında, istərsə də ölkə hüdudlarından kənarda ali təhsilə maraq əhəmiyyətli dərəcədə artmışdır. Biz bunu dünyada baş verən iqtisadi, siyasi və mədəni sahələrdə daha aydın şəkildə görə bilərik.

Ali təhsildə qloballaşma və beynəlmiləşmə həm bir biri ilə qarşılıqlı əlaqədə, həm də eyni zamanda fərqli aspektlərdə xarakterizə olunur. Təhsilin beynəlmiləşməsi təcrübəsi immersiv və inklüziv akademik mühiti gücləndirir. Bu, yalnız beynəlxalq tələbə mədəniyyətini tanımaq yox, eyni zamanda müxtəlif mədəniyyətləri başa düşmək və təhsil təcrübəsinə inteqrasiya etməkdir .

Konsepsiya baxımından və strateji ardıcıllıq kimi beynəlmiləlləşmə ali təhsildə nisbətən yeni, geniş və rəngarəng hadisədir. Ötən yarım əsr ərzində beynəlmiləlləşmə kiçik və əhəmiyətsiz fəaliyyətdən islahat gündəliyinin əsas aspektinə çevrilmişdir. Beynəlmiləşmədən danışarkən beynimizdə bu kimi suallar yaranır: Beynəlmiləşmənin tarixi inkişafı necədir? Beynəlmiləşmə dedikdə nəyi nəzərdə tuturuq? Nəyə görə ali təhsildə beynəlmiləşmə bu qədər önəmlidir? Beynəlxalq ali təhsildə bu fenomenə təsir edən və ondan təsirlənən əsas amillər hansılardır? Ali təhsilin beynəlmiləlləşməsini artırmaq üçün hansı təşəbbüslər və siyasətlər hazırlanır? Xaricdə və ölkədə beynəlmiləlləşmənin gələcəyi üçün vacib olan əsas məlumatlar, tendensiyalar və problemlər hansılardır?

Qeyd etdiyimiz kimi konsepsiya və strateji ardıcıllıq kimi beynəlmiləlləşmə siyasi, iqtisadi, sosial-mədəni və akademik əsaslandırmaların və bir çox maraqlı

tərəflərin dinamik birləşməsi ilə idarə olunan ali təhsildə nisbətən yeni, geniş və rəngarəng bir hadisədir. Onun regionlara, ölkələrə və qurumlara olan təsiri onların xüsusi kontekstlərinə görə dəyişir (https://www.europarl. europa.eu/RegData/ etudes/STUD/2015/540370/IPOL_STU(2015)540370_EN.pdf)

Keçən əsrin son onilliyində iqtisadi vəziyyətin və cəmiyyətlərin artan qloballaşması və regionallaşması, iqtisadi biliyə olan tələbatlar və soyuq müharibənin başa çatması ali təhsildə beynəlmiləlləşmədə daha strateji yanaşmaya imkan verən kontekst yaratdı. Beynəlmiləlləşmə ilk növbədə, Avropada, Avropa İttifaqının (Aİ) və Boloniya prosesinin proqramlarında, daha sonra isə Avropa Komissiyası, İƏİT, YUNESKO və Dünya Bankı kimi beynəlxalq təşkilatlar, milli hökumətlər və eləcə də Beynəlxalq Universitetlər Assosiasiyası (IAU) və Avropa Universitetlər Assosiasiyası (EUA) kimi ali təhsil təşkilatları tərəfindən həyata keçirildi. Ali təhsildə beynəlmiləlləşmə nəinki yüksək gəlirli ölkələrdə, həm də orta və aşağı gəlirli cəmiyyətlər arasında əsas dəyişiklik aspekti kimi görünməyə başladı.

"Xaricdə beynəlmiləlləşmə" kimi tanınan mobillik beynəlmiləlləşmədə ən çox tanınan fəaliyyətdir və bir çox müxtəlif formanı özündə birləşdirir. Kurikulum və "evdə beynəlmiləlləşmə" kimi də adlandırılan qlobal peşəkarlıq və vətəndaşlığın inkişafı beynəlmiləlləşmənin digər əsas komponentidir. Bu forma daha cox diqqət tələb etsə də, hələ də mobillikdən aşağıdır ***(Jibeen, T. (2015, November 28) Internationalization of Higher Education: Potential Benefits and Costs. International Journal of Evaluation and Research in Education).***

Beynəlmiləlləşmə inkişaf etdikcə keçmiş prioritetlər zamanla başqaları ilə əvəz olunur, iqtisadi əsaslandırmalar daha çox üstünlük təşkil edir və beləliklə, mobilliyə daha çox diqqət yetirilir. Lakin qlobal cəmiyyətin üzləşdiyi ekstremal problemləri nəzərə alsaq, buna daha çox daxildə ehtiyac duyulur. Cəmiyyətin üzləşdiyi bu çətinliklər xüsusilə Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Məqsədləri Proqramı"nda (SDGs) daha aydın göstərilir. Bunları təhlil edərkən aşağıdakı məqamlara toxunmaq olar: Beynəlmiləlləşmənin tarixi inkişafı hansılardır? Beynəlmiləlləşmə dedikdə nəyi nəzərdə tuturuq? Beynəlxalq ali təhsildə bu fenomenə təsir edən və ondan təsirlənən əsas amillər hansılardır? Ali təhsilin beynəlmiləlləşməsini artırmaq üçün hansı mənəvi, milli, regional və qlobal təşəbbüslər və siyasətlər hazırlanır? Milliyyətçi-populist inkişaflar, iqlim dəyişikliyi, COVID-19 pandemiyası nəticəsində transformasiyanın kritik vaxtında xaricdə və ölkə daxilində ali təhsildə beynəlmiləlləşmənin gələcəyi üçün həlledici olan əsas məlumatlar, meyllər və problemlər hansılardır?

Biz iddia edə bilərik ki, ali təhsil öz təbiətinə görə hər zaman beynəlxalq xarakter daşıyıb. Lakin onu da qeyd etməliyik ki, onların milli xüsusiyyətlərinin olması da danılmaz faktdır. Milli və yerli, istərsə də beynəlxalq kontekstlərdə inteqrasiya ali təhsilin üstünlük təşki edən xüsusiyyətidir. Beynəlxalq universitetlərin qlobal xüsusiyyətləri üstünlük təşkil etsə də, onların daha çox XVIII-XIX əsrlərdə aydın şəkildə milli dəyərlər üzərində yarandığı faktını da söyləməliyik.

Qərb dünyasında qarşıya qoyulan əsas vəzifə təhsilin hökümətdən asılılığını minumum səviyyəyə endirmək, əsas idarəni təhsil mütəxəssislərinə və valideynlərə həvalə etməkdir. Bir çox ölkələrdə təəssüf ki, təhsil dövlət nəzarətindədir və hökümətin maraqlarına uyğunlaşdırılır. Əslində dövlət yalnız maliyyələşdirmədə iştirak etməli, təhsilin idarə olunmasında maraqlı olmamalıdır. Böyük Yapon filosofu D.İkeda bir çox ölkələrdə təhsilin dövlət nəzarətində olmasında, təhsilin hökumətin maraqlarının uyğunlaşdırılmasından təəssüf hissi ilə danışır **(S.Xəlilov "Təhsil, təlim, tərbiyə" Bakı 2005).** Müasir dünyada universitetlərdə və ali təhsil müəssisələrində təhsilin bəzi ümumi cəhətləri- yəni kommunikasiya məlumatı, kombinasiyalı yanaşma və beynəlmiləlləşmə və mədəniyyətlərarası dialoq vardır. Qloballaşma prosesi universitetin rol və vəzifələrini yeniləyir. Bunun nəticəsində universitetlər öz vəzifələrini yenidən nəzərdən keçirməlidirlər. Daha sonra müxtəlif təhsil və tədqiqat səviyyələrində praktik və mümkün proqramlardan istifadə edərək beynəlxalq elmi əməkdaşlığın beynəlmiləlləşməsindən uğurla keçməlidirlər. Əks halda qloballaşma prosesi kommunikativ və informatika texnologiyalarına xidmət etməklə universitetlər üçün problemlər yaradacaq.

Qərb təhsil sistemi təhsilin cəmiyyət içərisində əridilməsini, cəmiyyətin özünün insana omrü boyu müəllimlik etməsinə şərait yaradır. Cəmiyyətdə siyasi mədəniyyətin, iqtisadi təfəkkürün, hüquqi biliklərin yüksək səviyyəsi akademik təhsilin işini yüngülləşdirir. Lakin nəzərə alsaq ki, bir Qərbin keçmiş olduğu təhsil yolunu təqlid etsək, indiki səviyyəyə çatana qədər onlar çox irəli gedecəklə, biz isə həmişə geridə qalacağıq. ABŞ və Yaponiyadan alınmış ən yeni nəsil kompyuterlər ölkəmizdə tətbiq olunmağa başlayana qədər, həmin ölkələrdə yeni nəsil kompyuterlər istehsal olunmağa başlayacaq. **(US Department of Education (USDE), National Center for Education Statistics- 2012).** Biz isə yenə də köhnəlmiş texnika ilə işləməli oluruq. Bu isə bizim dünya təhsil sismeteminə inteqrasiya olunmağımızı ləngidir. İnformasiyanın artımı, texniki tərəqqi və ictimai inkişafın yüksək tempi ilə əlaqədar olaraq təhsil sistemimiz bir mənalı şəkildə dinamikləşməlidir (https://files.eric.ed.gov/fulltext/ED505713.pdf).

Avropanın böyük üçlüyü sayılan Fransa, Almaniya və Böyük Britaniya ali təhsilin beynəlmiləlləşdirilməsi, xüsusilə qəbul etdikləri beynəlxalq tələbələrin sayı və təhsilin hüdudsuz çatdırılması baxımından dünyada dominantdır.

Britaniya təhsil sisteminə nəzər salsaq, görərik ki, bu ölkənin təhsil sistemi yüksək keyfiyyəti və standartları ilə bütün dünyada tanınır. Bu ölkənin universitetlərindən bir çoxu dünya universitetləri arasında birinci yerdədirlər. Böyük Britaniya universitetlərindən müxtəlif sahələrdə qazandıqları nailiyyətlərə görə dünya şöhrəti qazanmış bir sıra görkəmli insanlar çıxmışdır. Böyük Britaniyanın paytaxtı London, təsadüfi deyil ki, dünyanın ali təhsil paytaxtı hesab olunur və Britaniya universitetləri akademik dərəcələrinə və ixtisas seçimlərinə görə dünya çapında ən keyfiyyətli, qabaqcıl universitetlərdən sayılır. Bu standart Oksford, Kembric kimi qədim tarixə malik olan universitetlərlə yaranıb və bu gün çoxsaylı

yeni universitetlər və kolleclərlə davam etdirilir. Nəticədə Britaniya təhsil müəssisələrinin diplomları qlobal səviyyədə tanınır. Böyük Britaniyada olan ali təhsil müəssisələri Bolonya Sisteminin və Avropa Yüksək Təhsil Sahəsinin yaradılmasından sonra qlobal əlaqələrini daha da genişləndirmişdir ***(Wit, H. D. (2002). Internationalization of higher education in the United States of America and Europe: A historical, comparative, and conceptual analysis. Westport, Conn.: Greenwood Press).***

Son illər ən çox eşitdiyimiz və işlətdiyimiz deyimlərdən biri də "Təhsil insanın əsas kapitalıdır" fikridir. Ələxsus qlobal iqtisadi və maliyyə böhranı şəraitində bu kəlimələrin anlamını xüsusilə hiss etməyə başlamışıq. Bu prosesin ən bariz təmsilçisi bugünkü Sinqapurdur. Ərazisini xaricdən gətirilmiş valyuta ilə genişləndirən kiçik şəhər-dövlətin "Cənub-Şərqi Asiyanın pələngləri" birliyində təmsil olunmasının ən başlıca səbəbi yarım əsr bundan əvvəl həyata keçirilmiş mükəmməl təhsil islahatlarıdır. Sinqapurun təhsil sistemi dünyada Çin, Cənubi Koreya, Yaponiyanın sistemləri ilə eyni sırada olmaqla çox sərt və tələbkar kimi qiymətləndirilir. 50 il əvvəl Sinqapurun təhsil sistemi yenidən qurularkən hökumət mövcud ictimai-siyasi, habelə iqtisadi amillərdən çıxış etməli oldu. Ölkənin hazırda mövcud olan təhsil modelində Britaniya təhsil ənənələrinin dərin izləri var və bu, tarixi-siyasi nöqteyi-nəzərdən anlaşılandır. Bu ərazi uzun müddət müstəmləkə olub. (https://www.adb.org/sites/ default/files/publication/ 156243/adbi-wp388.pdf) Universitetlərə daxil olmaq üçün natamam kollecləri bitirənlər qəbul imtahanları verməli, əlavə dərs və seksiyalarda iştiraklarını təsdiq edən sənədlər təqdim etməli, lazım gələrsə, xüsusi sınaqlardan-müsahibələrdən keçməlidirlər.

Texnikum məzunları O-Level attestatlarını və davamiyyət göstəricilərini təqdim etməli, müsahibə yolu ilə əlavə imtahan verməlidirlər.

Sinqapur universitetlərində bakalavr təhsili 3-4, magistr pilləsi 1-3 ili əhatə edir. Elmlər doktoru olmağa 2,5 il sərf olunur. Ölkədə 3 dövlət universiteti var: Nyanyanq şəhərinin Texnoloji Universiteti, Sinqapurun Milli Universiteti və Sinqapur Menecment Universiteti. Son zamanlar Qərb universitetlərinin filialları da fəaliyyət göstərməyə başlayıblar (https://link.springer.com/chapter/10.1007/978-981-16-9982-5_6) Özəl təhsilin inkişafı və tənzimlənməsi çərçivəsində Sinqapur təhsil sektorunun beynəlmiləlləşməsinə illərdir ki, hazırdır və Sinqapurun bu rəqabət qabiliyyətliliyi onu qlobal təhsil mərkəzi kimi dünyada təhsil üzrə üstün ölkələr sırasına daxil edir. Təbii ki, Singapuru təhlükəsiz və əlçatan edən onun coğrafi mühiti, təhsildə mükəmməllik və eyni zamanda canlı biznes mərkəzi olan institusional-sənaye əməkdaşlığıdır.

Sonda bele bir nəticəyə gəlirik ki, ali təhsildə beynəlmiləlləşmə yerli, milli, regional və qlobal mühitdəki dəyişikliklərə cavab olaraq inkişaf edən proses və dəyişikliklərdir. Əlbəttə ki, bu inkişafa dayanaraq təhsilin də inkişaf etməsi sevindirici bir haldır.

ƏDƏBIYYAT SIYAHISI

1. *Səlahəddin Xəlilov "Təhsil, təlim, tərbiyə" Bakı-2005*
2. *Abdulla Mehzabov, Akif Abbasov, Müdafiə Mahmudov "Təhsilin modernləşdirilməsinin aktual problemləri"-2013*
3. *US Department of Education (USDE), National Center for Education Statistics. (2012a). Education Attainment in the United States: 2009. The United States Census Bureau.*
4. *Ruby, A. (2010). The uncertain future for international higher education in the Asia- Pacific region. Washington, DC: NAFSA: Association of International Educators.*
5. *Wit, H. D. (2002). Internationalization of higher education in the United States of America and Europe: A historical, comparative, and conceptual analysis. Westport, Conn.: Greenwood Press.*
6. *The University of Tokyo. (2005). The University of Tokyo internationalization promotion plan 2005-2008. Retrieved Oct. 1, 2008*
7. *Jibeen, T. (2015, November 28) Internationalization of Higher Education: Potential Benefits and Costs. International Journal of Evaluation and Research in Education. Retrieved from https://files.eric.ed. gov/fulltext/EJ1091722.pdf*
8. *https://www.adb.org/sites/default/files/publication/156243/adbi-wp388.pdf*
9. *https://link.springer.com/chapter/10.1007/978-981-16-9982-5_6*

ISLAMLI AYTEN
NATIONAL AVIATION ACADEMY

THE INTERNATIONALIZATION OF HIGHER EDUCATION

SUMMARY

Since higher education institutions are the essential actors in creating well-balanced and constructive internationalization strategies, they must advocate for policy change at the governmental level if the policies are driving internationalization in directions that might not serve long-term academic purposes. In this regard, the most important and on-going task for all higher education stakeholders remains the continuous examination and evaluation of the effects of internationalization. It includes examining the impact of a more internationally open program, classroom, and institution on students and effects on creation of new knowledge influenced by exposure to scholars and researchers from other parts of the world. Internationalization empowers students, staff, and institutions with learnings from advanced institutions abroad. For now, in the midst of a pandemic, higher education institutions can still practice internationalization by providing students at home with access to education from advanced countries. İnternationalization molds

students who are free of any major cultural bias; are locally, globally, and socially conscious, and are active in doing their roles for their benefit and society's, whether at home or away.

İSLAMLI AYTƏN
Milli Aviasiya AkademiyasI

ALİ TƏHSİLİN BEYNƏLMİLLƏŞMƏSİ

XÜLASƏ

Ali təhsil müəssisələri yaxşı balanslaşdırılmış və konstruktiv beynəlmilləşmə strategiyalarının yaradılmasında mühüm vasitəçi rolunu oynayırlar, onlar hökumət səviyyəsində bu siyasi dəyişikliyi təbliğ etməli (müdafiə etməli) və bu siyasət uzun müddətli akademik məqsədlərə xidmət etməməlidir. Bu baxımdan, ali təhsildə maraqlı tərəflər üçün ən vacib və davamlı məsələ beynəlmiləlləşmənin təsirlərinin davamlı olaraq yoxlanılması və qiymətləndirilməsi olaraq qalır. Buraya daha geniş beynəlxalq səviyyədə olan proqramın, sinif otağının və müəssisənin tələbələrə təsiri və eyni zamanda dünyanın müxtəlif yerlərindən olan alim və tədqiqatçılar tərəfindən yaradılmış yeni biliklərin araşdırılması daxildir. Beynəlmilləşmə tələbələrə, təhsil müəssisələrinə və eyni zamanda bu müəssisədə çalışan şəxsi heyətə xaricdəki qabaqcıl və inkişaf etmiş qurumlardan öyrənmə imkanı verir. İndiki şəraitdə, pandemiyanın və hərbi münaqişələrin davam etdiyi bir zamanda, ali təhsil müəssisələri tələbələrə qabaqcıl ölkələrdən ev şəraitində təhsil almaq imkanı verməklə beynəlmiləlləşmə təcrübəsini davam etdirə bilərlər. Beynəlmiləlləşmə eyni zamanda hər hansı mədəni təfəkkürdən uzaq olan tələbələri formalaşdırır. Bu tələbələr yerli, qlobal və sosial şüurludurlar, istər evdə, istərsə də kənarda özlərinin və cəmiyyətin xeyrinə öz vəzifələrini yerinə yetirməkdə fəaldırlar.

ИСЛАМЛИ АЙТАН

Национальная Авиационная Академия

ИНТЕРНАЦИОНАЛИЗАЦИЯ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

Поскольку высшие учебные заведения являются важными участниками создания хорошо сбалансированных и конструктивных стратегий интернационализации, они должны выступать за изменение политики на правительственном уровне, если политика ведёт интернационализацию в направлениях, которые могут не служить долгосрочным академическим целям. В связи с этим самой важной и постоянной задачей для всех заинтересованных сторон высшего образования остаётся постоянное изучение и оценка

последствий интернационализации. Он включает в себя изучение влияния более открытой на международном уровне программы, класса и учебного заведения на студентов и влияние на создание новых знаний под влиянием учёных и исследователей из других частей мира. Интернационализация даёт студентам, сотрудникам и учреждениям возможность учиться в передовых зарубежных учебных заведениях. А пока, в разгар пандемии, высшие учебные заведения все ещё могут практиковать интернационализацию, предоставляя студентам дома доступ к образованию из передовых стран. Интернационализация формирует студентов, свободных от каких-либо серьёзных культурных предубеждений; сознательны на местном, глобальном и социальном уровне и активно выполняют свои роли на благо себе и обществу, дома или вдали.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: f.f.d., dosent Musayeva Mənsurə
tərəfindən çapa tövsiyə olunmuşdur

B.m.NÜŞABƏ ƏLİYEVA,
b.m., fil.ü.f.d.SEVDA NOVRUZƏLİYEVA
Azərbaycan Tibb Universiteti
Səməd Vurğun, 167

MİRZƏ İBRAHİMOVUN "BÖYÜK DAYAQ" ROMANINDA OBRAZLAR SİSTEMİ

Açar sözlər: Roman, Böyük dayaq, obrazlar, sistem, koloritlilik, ziddiyyətlər
Keywords: Novel, "Great support", images, system, colorfulness, contradictions
Ключевые слова: роман, великий, опора, образы, системы, колоритность, противоречия.

Mirzə İbrahimovun "Böyük dayaq" romanı keçən əsrin 50-ci illərində yazılmışdır. Həmin dövrdə Azərbaycan ədəbiyyatında İlyas Əfəndiyevin "Söyüdlü arx", "Atayevlər ailəsi", Mehdi Hüseynin "Abşeron", "Qara daşlar", İsmayıl Şıxlının "Ayrılan yollar" əsərləri artıq işıq üzü görmüşdü. Eyni proseslər təkcə nəsrdə deyil, poeziyada, dramaturgiyada da gedirdi. Sovet ədəbiyyatının əsas yaradıcılıq metodu olan "sosialist realizmi"nin diktəsi müəyyən mənada aradan qalxmışdı. Əlbəttə, tam şəkildə yox. Bədii əsərlərdə yalnız inqilabçı qəhrəmanların təsvir edildiyi dövr arxada qalmışdı. Fikrimizcə, Mirzə İbrahimovun "Böyük Dayaq" romanı sanki altımışıncıların nəsri, poeziyası, dramaturgiyası üçün keçid rolunu oynayırdı. "Roman çoxplanlı və çoxcəhətlidir. Digər tərəfdən "Böyük dayaq" romanında ailə-məişət problemlərinin olmadığını söyləmək də düzgün deyildir. Ancaq bir məsələ şəksizdir, şübhəsizdir. Ailə-məişət, sosial, iqtisadi problemlər, kəskin, ziddiyyətli, sərt mübarizələr müstəvisinə qaldırılmırdı, həll edilmirdi. Kəskin ziddiyyətlərin, problemlərin təsviri, mövcud ictimai quruluşdakı nöqsanlarla mübarizənin mümkün olmaması və bunun məntiqi nəticəsi kimi ədəbi qəhrəmanların tədricən özünlərinə qapanmaları 60-80-ci illərdə qələmə alınan əsərlərdə baş verəcəkdi" (1, s. 55). Ancaq, yuxarıda göstərdiyimiz kimi, Mirzə İbrahimovun "Böyük dayaq" romanı konfliktlərdən, ziddiyyətlərdən də xali deyildir. "Böyük dayaq" romanında çox zaman ziddiyyətlər "köhnəliklə yeniliyin mübarizəsi", "atalar və oğullar" problemi kimi təsvir və təqdim olunurdu. Əlbəttə, Mirzə İbrahimovun "Böyük dayaq" romanında təsvir olunan hadisələr ilk baxışdan ziddiyyətsizdir. Yazıçının sətiraltı, üstüörtülü cümlələrində, ifadələrində zəmanənin, dövrün həqiqətləri gizlənirdi. Bu mənada əsərin maraqlı, mürəkkəb, koloritli, zəngin obrazlar sistemi vardır... Başqa sözlə desək, Mirzə İbrahimov sosial və ictimai ziddiyyətləri obrazlar vasitəsilə təsvir edirdi. Bir növ obrazların arxasında "gizlənirdi". Tükü tükdən seçən "tələbkar" sensozları və əsərin yazıldığı 50-ci illəri unutmaq, nəzərə almamaq qətiyyən düzgün deyildir. Obrazlar həm də Mirzə İbrahimov kimi ustad sənətkar üçün "ezop dili"

rolunu oynayırdı. Məqalədə romanın obrazlar sisteminə əsas diqqətin verilməsi və təhlili nəzərdə tutulmuşdur. Mirzə İbrahimovun "Böyük dayaq" romanında əsas və aparıcı surətlərdən biri də kolxoz sədri Rüstəm kişidir. Yazıçı Rüstəm kişini bizlərə dərindən və hərtərəfli tanıtmağa nail olur. Fikrimizcə, Rüstəm kişi Azərbaycan ədəbiyyatında İsmayıl Şıxlının "Dəli Kür" romanındakı Cahandar ağa və Fərman Kərimzadənin "Qarlı aşırım" əsərindəki Kərbəlayı İsmayıl surətləri ilə müqayisə oluna bilər. Rüstəm kişi Sovet dövrünün Cahandar ağası və Kərbəlayı İsmayılıdır. Əlbəttə, bu fikir bir qədər mübahisəlidir, subyektiv səciyyə daşıyır. Məqalədə yuxarıda göstərilən fikirləri əsaslandırmağa, aydınlaşdırmağa çalışacağıq...

İlk növbədə belə bir faktı vurğulamaq yerinə düşər ki, Rüstəm kişi XX əsr Azərbaycan ədəbiyyatında kolxoz sədrlərinin ümumiləşdirilmiş obrazıdır. Rüstəm kişi böyük bir təsərrüfata-kolxoza rəhbərlik etməkdə təsadüfi adam deyildir. Həyatın hər üzünü görmüşdür. İndi ikinci dünya müharibəsi adlandırılan, hesab edilən Böyük Vətən müharibəsinin fəal iştirakçısı olmuş, orden, medallarla təltif olunmuşdur. Cəbhədə aldığı medallara əmək cəbhəsində qazandığı ordenlər, medallar əlavə olunmuşdur. Başqa sözlə desək, hər iki cəbhənin qəhrəmanıdır. Dilinə haram tikə vurmur, qeyrətli, namuslu ailə başçısıdır. Özünün dediyi kimi, "mənim ailəm bir yumruqdur, açsam tökülər." Doğurdan da, Mirzə İbrahimov "Böyük dayaq" romanında Rüstəmi ailədə, məişətdə, ictimai-siyasi həyatda, dostlarla münasibətdə təsvir etmişdir. Rüstəm kolxoz sədri seçildikdən sonra kolxozun inkişafında, məhsuldarlığın artmasında, əhalinin maddi vəziyyətinin yaxşılaşmasında xeyli irəliləyişlər baş vermişdir. Rüstəm kişinin fəaliyyəti, ailədə, ictimai həyatda özünü nümunəvi aparması, deyilənlərə ən yaxşı sübutdur. Rüstəm kişi sözünə sadiqdir, sözünün ağasıdır. Yalan danışmağı, gözdən pərdə asmağı bacarmır. Həmin illərdə, ümumiyyətlə, rəhbərlər arasında az da olsa Kələntər lələş kimilərinə rast gəlinirdi. Müxtəlif vasitələrlə və kimlərinsə köməyi, himayədarlığı ilə rayonda ikinci vəzifəyə yüksələn, yiyələnən, "yerli hökumətə" rəhbərlik edən Kələntər lələş oğruların, əliəyrilərin əsas himayədarıdır. Rüstəm kişinin rəhbərlik etdiyi "Yeni həyat" kolxozunda işləyən Yastı Salman, Yarməmməd Kələntər lələşə agentlik edir, kolxozda baş verən bütün hadisələrin "məzmununu" vaxtlı-vaxtında Kələntər lələşə çatdırırdılar. Kələntər lələş Yastı Salmanı Rüstəmin yerinə kolxoz sədrliyinə hazırlayırdı. Məqsədi kolxozda öz adamını yerləşdirmək, böyük bir təsərrüfatı dağıtmaq, talançılıq, rüşvətxorluq yuvasına çevirməkdən ibarət idi. Kələntər həyatını, ictimai fəaliyyətini yalançılıq, boş-boş sözlər, saxtakarlıq üzərində qurmuşdu. Sözdə yenilikdən, inkişafdan danışırdı. Əslində isə onu vəzifəsindən, şəxsi mənafeyindən savayı heç nə düşündürmürdü. Rüstəmi də doğruluğuna, düzlüyünə, ədalətli olmasına, müftəxorlarla, oğrularla, rüşvətxorlarla barışmaz, prinsipial mübarizəsinə görə sevmirdi. Hər addımda, fürsətdə onu sancır, nahaqdan əsəbiləşdirirdi, vaxtını alırdı, yerli-yersiz münaqişələrə, mənasız yoxlamalara çəkirdi. Əslində Kələntər lələşin Rüstəm kişini qəbul etməməsinin, nifrətinin pərdə arxası gizli səbəbləri vardı. Düzdür, bu fakt açıq-aşkar bildirilmirdi. Təsərrüfata, insanlara qayğı göstərmək

bəhanəsi, adı altında ört-basdır edilirdi. Kələntər bir vaxtlar oğurluğu, quldurluğu ilə ad çıxaran Hatəmi Rüstəmin kolxozunda ferma müdiri təyin etdirmək istəmişdi. Ancaq niyyəti baş tutmamışdı. Kələntərin təkidli sözlərinə, təkliflərinə, yalvarışlarına, bəzən də üstüörtülü hədələrinə rəğmən Hatəmi ferma müdirliyinə qəbul etməmişdi. Çünki, Rüstəm Hatəmi yaxşı tanıyırdı. Bir neçə kolxozda ferma müdiri işləmişdi. Elə məharətlə yeyib-yedirtmişdi ki, heç bir komissiya onun cinayətkar hərəkətlərindən, əməllərindən baş açа bilməmişdi. Nə qədər 40-50-ci illərdə mövcud olan sovet ictimai quruluşunu, mövcud münasibətləri tənqid etsələr də, demokratiyanın əlamətləri, işartıları qalmışdı. Kələntər lələş rəhbər vəzifə tutsa da, oğrunu, qulduru əmrlə kolxozda rəhbər, yağlı vəzifəyə təyin etdirə bilməmişdi. Kolxoz və kolxozçular bəzi hüquqlarını qoruyub saxlamışdılar. Fikrimizcə, kolxozun, kolxozçuların, ümumiyyətlə, əməkçi insanların tam hüquqsuzluğu XX əsrin 60-80-ci illərində baş verdi. Əks-təqdirdə bütün dünyaya meydan oxuyan sosializm quruluşu bir anın içərisində dağılmazdı... "Əlbəttə, Rüstəm kişi ilə Kələntər arasında bir neçə dəfə "xırda" toqquşmalar baş vermişdi. Başı təsərrüfat qayğılarına, problemlərinə qarışmış Rüstəm kişi bunları xırda məsələlər hesab edirdi. Digər tərəfdən isə baş verənləri Kələntərin başısoyuqluğu, təsərrüfatdan bixəbər olması ilə izah edirdi. Bilmirdi ki, Kələntərin hər bir xırda sözünün, hərəkətinin arxasında təhlükəli, məkrli planlar, zəhərli ilanlar gizlənmişdir. Rüstəmlə Kələntər arasında ikinci böyük toqquşma təsərrüfat ilinin yazında baş verdi. Kələntər Rüstəmdən yüksək öhdəlik götürməsini tələb etdi. Rüstəm indiyə qədər heç kimi aldatmamışdı, həmişə kişi kimi sözünün üstündə durmuşdu" (6, s.190). Kələntər Rüstəmə deyirdi ki, indi yüksək öhdəlik götür, yazaq verək yuxarılara, canımız qurtarsın. Payızda öhdəliyin yerinə yetirilməsi, yaxud yetirilməməsi Kələntəri qətiyyən maraqlandırmırdı. Əslində, rayonun ikinci rəhbəri, vəzifəli şəxs kimi məsuliyyəti məhz Kələntər daşımalıydı. Rüstəmin cavabı həqiqi rəhbərə layiq oldu. "Payızda verilən vədi yerinə yetirməsək, ölüm ondan yaxşıdı. Nə qədər əkmək, becərmək, öhdəlik götürmək kolxozun, kolxozçuların öz işidir" (7, s.300). Sual oluna bilər; bəs sonra nələr baş verdi?. Bu qədər vicdanlı, namuslu, xalq, el malını göz bəbəyi kimi qoruyan insanın həyatı nəyə görə faciəvi sonluqla nəticələndi? Fikrimizcə, mənəm-mənəmlik iddiası Rüstəmin gözünü örtdü. Dostu düşməndən seçə bilmədi. Əlbəttə, mənfi mənada, planda olan dəyişikliklər birdən-birə baş vermədi. Mirzə İbrahimov "Böyük Dayaq" romanında mənfi tiplərin bütöv bir silsiləsini yaratmışdır. Mənfi tiplərə rəhbərlik edən, onlara hər addımda havadarlıq, himayədarlıq funksiyasını yerinə yetirən Kələntərdir. Kələntər, necə deyərlər, rayon mərkəzində, şəhərdə fəaliyyət göstərir. Ancaq, kənddə yaşayıb, kolxozda rəhbər vəzifələrdə işləyənlərin-mühasib Yarməmmədin, sədr müavini Yastı Salmanın, briqadir Lal Hüseynin də günahları, cinayətləri az deyildir. Onlar qədim Azərbaycan məsəlində deyildiyi kimi "az aşın duzu deyillər." Yazıçı xüsusilə də Yarməmməd obrazını Sabirsayağı onun öz dili ilə özünü ifşa etmişdir. Fikrimizcə, Yarməmməd romanda ən hiyləgər, ən mənfi, ən qəddar, təhlükəli tipdir. Necə deyərlər, "pambıqla

baş kəsəndir". Mirzə İbrahimov Yarməmməd surəti vasitəsi ilə 37-ci ilin hadisələrinə qısa da olsa ekskurs etmiş, bəzi mətləblərə, məqamlara aydınlıq gətirməyə çalışmışdır. Bu baxımdan kolxoz partiya təşkilatının katibi, eyni zamanda traktorçu işləyən Şirzad obrazı yazıçının "Böyük dayaq" romanındakı uğurlarından biri kimi dəyərləndirilə, qiymətləndirilə bilər. Kolxoz sədri Rüstəm kişidən fərqli olaraq, Şirzad Yarməmmədə, Yastı Salmana, Lal Hüseynə inanmırdı, etibar etmirdi. Doğurdan da, Şirzad romanda həqiqət carçısı, prinsipial insan kimi təsvir olunur. Nöqsanlara qarşı barışmazdır, oğrulara, əyrilərə, kolxozu dağıtmağa çalışan fırıldaqçılara qarşı açıq mübarizədən çəkinmirdi. Yastı Salmanın təkidli xahişlərindən, qurduğu oyunlardan sonra Rüstəm kişinin böyük tərəddüdlərlə fermaya müdir təyin etdiyi Lal Hüseyndən şübhələnirdi. Ona görə də, qoyunçuluq fermasındakı vəziyyəti əks etdirən sənədləri tez-tez yoxlayırdı. Kolxoz sədrinə müavin keçən Yastı Salmanın yerinə mühasib vəzifəsinə təyin olunan Yarməmməd hər vasitə ilə sənədləri Şirzaddan gizlədirdi. Şirzad təkidlə, inadkarlıqla bütün sənədləri yoxladı, diqqətlə nəzərdən keçirdi. Şirzadın hərəkətlərinə mane ola bilməyən Yarməmməd son vasitəyə, üsula, xəbərdarlığa əl atdı. Şirzadın atasının da 37-ci illərdə bəzi sənədləri yoxladığını, həqiqəti söylədiyini vurğuladı. Məhz bu səbəbdən Şirzadın atası-vicdanlı, namuslu, el malını göz bəbəyi kimi qoruyan kommunist kimlərinsə fitvası, donosbazlığı nəticəsində həbs olunub güllələnmişdi. Yəqin ki, Şirzadın atası kimi günahsız insanların tutulub güllələnməsinə səbəb olanlardan biri hər an çalmağa hazır olan Yarməmməd adlı ilan idi. Yastı Salman, Lal Hüseyn, Yarməmməd birləşib "kolxoz içində kolxoz", "oğru, fırıldaqçılar qrupu" yaratmışdılar. Müəyyən vaxta qədər öz uğurlu fəaliyyətlərini davam etdirirdilər. Yuxarıda göstərdiyimiz kimi "ayrılmaz üçlüyün" ən təhlükəli, fəal nümayəndəsi Yarməmməd idi. O, imzasız, böhtanla dolu məktublar yazmağın mahir ustası idi. 37-ci ilin dəhşətli hadisələrindən başlayaraq yaşadığı dövrə qədər imzasız məktublar yazmaq, yuxarı təşkilatlara, lazımi yerlərə çatdırmaq onun şakəri, peşəsi idi. Xoşu gəlmədiyi namuslu, vicdanlı işçiləri ləkələyir, vəzifədən uzaqlaşdırır, gedər-gəlməzə göndərir, məqsədlərinə nail olurdu. Kolxozda sıravi pambıqçı işləyən Telli arvadın oğlu Kərəm ferma müdiri işləyirdi. Özünün dediyi kimi "dədə-babadan çoban olmuşdular", qoyunçuluq onların əsas peşəsi idi. Rayonun "ikinci şəxsi", Kərəm kimi işçiləri müdafiə etməli olan Kələntər lələşin sifarişi ilə Yarməmməd guya çoban Kərəmin fermanı dağıtdığını, ət, süd, yun planlarını doldurmadığı haqqında yuxarı təşkilatlara böhtanla dolu ərizələr yazırdı. Əlbəttə, imzasız...

Rüstəm kişi yavaş-yavaş oğruların, fırıldaqçıların təsirinə düşürdü. Həyat yoldaşı Səkinənin, oğlu Qaraşın, qızı Pərşanın dəfələrlə etdikləri xəbərdarlıqlara rəğmən...Artıq Rüstəm rəhbər kimi ədalətli olmaq hissini itirirdi. Yaltaqlardan savayı heç kimin məsləhətinə qulaq asmırdı. Çoban Kərəmi görəndə sanki "qutuda ilan görürdü." İllərdir ki, kolxozda təmiz ad qazanmış Kərəmi dinləmək belə istəmirdi. Kolxoz partiya təşkilatının katibi Şirzadın, komsomol təşkilatının katibi Nəcəfin, ümumən kollektivin xahişlərini, səylərini nəzərə almırdı. Nə qədər tənqid edilsə də,

40-50-ci illərdə sovet cəmiyyətində, təsərrüfat sistemində demokratiyanın əlamətləri qalmışdı. Kollektiv idarəçilik prinsiplərinə müəyyən mənada əməl olunurdu. Əks-təqdirdə ömrünü kolxoz quruluşuna həsr etmiş Rüstəmə kolxozun idarə heyəti "dünənki burnu çirkli uşaqların"-partkom Şirzadın, Nəcəf komsomolun təkidi ilə şəxsi işinə yazılmaqla şiddətli partiya töhməti verməzdilər. Bu ürəkdən inandığı, qanlı-qadalı müharibə illərində hər dəqiqəsi ölümlə nəticələnə biləcək döyüşdən əvvəl kommunist partiyasının sıralarına daxil olan partiyaçı, müharibə iştirakçısı Rüstəm üçün xüsusilə ağır idi. Rüstəm hələ də partiya töhmətinin nahaqdan verildiyinə əmin idi. Ona görə də bu yaxınlarda raykom katibi təyin olunmuş cəbhə dostu Şərəfin yanına getdi. İnsafla desək, raykom katibi Şərəf keçmiş cəbhə dostunu, bugünkü adlı-sanlı kolxoz sədrini ləyaqətlə qarşıladı. Həyat yoldaşını, övladlarını soruşdu. Əlbəttə, Şərəf Rüstəmin nə məqsədlə gəldiyini yaxşı bilirdi və əsas məsələdən, problemdən qətiyyən yayınmaq istəmirdi, fikrində deyildi. Ən başlıcası isə Şərəf Rüstəmin haqsız olduğunu yaxşı bilirdi. Ona görə də, dostunun - Rüstəmin özünün dediyi kimi bu ağır yükü şərəflə çəkməli olduğunu xatırlatdı. Əslində Şərəf demək istəyirdi ki, Rüstəm yanlış yoldadır. Xalqın, insanların etimadını itirməkdən dəhşətli heç nə yoxdur. Şərəf Rüstəmi ayıltmaq istəyirdi. Rüstəm Şərəfdən xahiş etdi ki, böhtanla dolu, adsız, imzasız kağızların müəllifini axtarıb tapmaqda ona kömək etsin. Rüstəm sözü üzə deyən Telli arvaddan, Kərəmdən, Şirzaddan, Nəcəfdən və digərlərindən şübhələnirdi. "Arxa dayaq" hesab etdiyi Yarməmmədlərdən, Lal Hüseynlərdən, Yastı Salmanlardan qətiyyən şübhələnmirdi... "Böyük dayaq" romanın ən təsirli, maraqlı, eyni zamanda ifşaedici məqamlarından biri Şərəfin kəndə gəlməsi və imzasız məktubları kimin yazmasını müəyyənləşdirməsidir. Fikrimizcə, əsərdə ziddiyyətlərin, düyünlərin açıldığını göstərən səhnələrdən biri Yarməmmədin insanların gözü qarşısında ifşa olunmasıdır. Yarməmməd uzun müddət həqiqi sifətini, tülkü xislətini gizlədə bilmişdi. Çoxlarının, o cümlədən, Rüstəmin gözündə dilsiz-ağızsız, sakit "mələyə" bənzəyirdi. Sanki ifşa olunacağını əvvəlcədən duymuşdu. Yuxarıda göstərdiyimiz kimi, Rüstəmi öncədən sevən, ümumi işin xətrinə nöqsanları deyən insanların söylədiklərini Yarməmməd xüsusi bir ustalıqla imzasız kağızlara köçürürdü. Bəzən imzasız məktubları oxuyan Rüstəm kişi ilk növbədə Telli arvaddan, Şirzaddan, Nəcəfdən, çoban Kərəmdən şübhələnirdi. Yarməmməd bir güllə ilə iki dovşan vururdu. Rüstəm kişini kəndin işlək, qabaqcıl insanlarından təcrid edirdi, onların arasına nifaq toxumu səpirdi. Digər tərəfdən isə bütün şübhələri özündən uzaqlaşdırırdı, "normal şəraitdə" işləməyə davam edirdi. Bu gün isə sanki daş qayaya rast gəlmişdi. Raykom katibi Şərəf inadla sorğu-sualı davam etdirir, "yazıq" günahkarın yaxasından əl çəkmirdi. İstəyirdi ki, ulu Sabirin həpəndləri kimi Yarməmməd özünü ifşa etsin, günahını boynuna alsın...

Yarməmməd suallara ikibaşlı cavab verir, özünü təmizə çıxarmaq istəyirdi. Vurğulayırdı ki, insanlar və raykom katibi Şərəf Rüstəmi hamıdan yaxşı tanıyırlar. Mahalda ondan təmiz rəhbər, adam yoxdur. Hətta öz əli ilə dəfələrlə yazdığı məktubları höccələyə-höccələyə oxumağa başladı, xətti pis olduğuna görə məktub

yazanı lənətlədi. Əlbəttə, Yarməmməd asanlıqla günahını boynuna alanlardan deyildi. Əks-təqdirdə o Yarməmməd olmazdı. Çoxlarının qanına nahaqdan bais olmuşdu. Vicdanını susduraraq rahat gəzib dolanmışdı. Ədalət gec də olsa qalib gəlir. Yarməmməd inadla müqavimət göstərir, günahını boynuna almaq istəmirdi. Raykom katibi Şərəfin "əgər günahını boynuna almasan, yazdığın ərizələri prokurora verərik, sənədlə, sübutla boynuna qoyarlar" sözlərindən sonra yalvarmağa başladı, günahını etiraf etdi, bağışlanması üçün demək olar, diz çökdü, alçaldı. Müəyyən mənada bu günə qədər etdiklərinin cəzasını çəkdi. Yarməmmədin "etirafları" ən çox Rüstəm üçün gözlənilməz oldu. İndiyə qədər çoban Kərəmi, Şirzadı, Telli arvadı və başqalarını demaqoq, yazılan anonim ərizələrin müəllifi hesab edən Rüstəmin gözləri açıldı. Həqiqi dostlarını və düşmənlərini yaxından tanıdı. Özünü saxlaya bilmədi. Az qaldı ki, Yarməmmədi boğub öldürsün. Raykom katibi Şərəfin müdrik sözləri, hərəkətləri onu dayandırdı. Raykom katibi vurğuladı ki, Yarməmməd ilandır. Ancaq, bundan daha təhlükəli ilanlar daş altında yatırlar. Şərəf Yarməmmədin tək olmadığını bilirdi. Cinayətin daha dərin köklərə işlədiyindən xəbərdar idi. "Daş altında yatan təhlükəli ilanlar" deyəndə Yastı Salmanı, Lal Hüseyni nəzərdə tuturdu. Rüstəm Yarməmmədin işdən qovulmasında, cinayət məsuliyyətinə cəlb olunmasında təkidli idi. Ancaq yuxarıda göstərdiyimiz kimi, raykom katibi bütün cəhətləri, məqamları nəzərə almışdı. Baş verən hadisələrin, törədilən cinayətlərin təsadüfi olmadığına əmin idi. Yarməmmədin havadarlarını, cinayət ortaqlarını aşkara çıxarmaq istəyirdi. Ona görə də, tərəddüd etmədən Yastı Salmana müraciət etdi:" Siz, Yarməmmədin vəzifədən çıxarılmamasına necə baxırsız?" Yastı Salman özü də bu cür "ədalətli" qərarın çıxarılmasını gözləmirdi. Məhz bu səbəbdən tərəddüd etmədən cavab verdi: "Heç bundan ədalətli qərar ola bilməz". Raykom katibi Şərəfin şübhələrinin doğru olduğunu çox gözləmək lazım gəlmədi. Ferma müdiri işləyən Lal Hüseyn yüz baş qoyunu Sarıqamışa satmaq üçün aparmışdı. Təsadüf nəticəsində Yarməmmədlə Lal Hüseynin söhbətinə qulaq asan və "Böyük dayaq" romanında xalq müdrikliyinin, düzgünlüyün, vicdanlılığın mücəssəməsi hesab edilən Qoca çoban eşitdikləri haqqında Rüstəmi xəbərdar etməyə tələsdi. Rüstəm qulaqlarına, eşitdiklərinə inana bilmirdi. Onun rəhbərlik etdiyi kolxozda böyük dağıntılar, yeyintilər, qanunsuzluqlar baş vermişdi. Həm də kimlər tərəfindən? Bir vaxtlar etibar etdiyi, çörək verdiyi insanlar tərəfindən... Mənəm-mənəmlik hisləri, başqalarının fikrinə qulaq asmamaq, həmişə özünü haqlı hesab etmək kimi xüsusiyyətlər, cəhətlər təmiz, vicdanlı, kolxoz malını göz bəbəyi kimi qoruyan təsərrüfat rəhbərinin, kommunistin gözünü bağlamışdı. Rüstəm kişi sanki yuxuda idi. Rüstəm ayıldı. Kolxoz idarəsinə yollandı. Demək olar ki, bütün kolxozçular orada idilər. Şirzadın, Nəcəfin rəhbərliyi altında komissiya yaradılmışdı. Komissiya yeni-yeni yeyinti faktlarını üzə çıxarmışdı. Yastı Salmanın rəhbərliyi altında tikilən mədəniyyət evinin tikintisinə əlavə olaraq on min manat pul xərclənmişdi. Həmin pullar saxta sənədlər əsasında Yastı Salman, Yarməmməd tərəfindən mənimsənilmişdi. Lal Hüseynin müdir olduğu fermada daha böyük əyintilərə yol verilmişdi. Yun, ət planı yerinə yetirilməmiş, kənardan yağ

alınmışdı. Doğurdan da, Yastı Salmanın, Lal Hüseynin, Yarməmmədin cinayətlərinin sayı-hesabı yox idi. Rüstəm kişi artıq hansı bağışlanılmaz səhvlərə yol verdiyini başa düşmüşdü. Bu mənada bir faktı vurğulamaq yerinə düşər ki, Mirzə İbrahimov "Böyük dayaq" romanında təkcə ictimai-siyasi, iqtisadi, təsərrüfat problemlərini təsvir etməklə kifayətlənməmişdir. Yazıçı romanda təsərrüfat problemlərini göstərməklə yanaşı, ailə-məişət mövzusuna da geniş yer vermişdir. Bu mənada Rüstəm kişinin ailədaxili münasibətlərə yanaşması əsərdə diqqət çəkən məqamlardan biridir. Rüstəm kişi tam olmasa da, müəyyən mənada təsərrüfat sahəsində etdiyi səhvləri ailədə də edir, təkrarlayır. Bu xüsusilə özünü gəlini Mayaya münasibətdə göstərir. Maya şəhərdə böyümüş qızdır. Muğan bölgəsi üçün hava-su kimi lazım olan suvarma mühəndisliyi ixtisasına yiyələnmişdi. Atası Böyük Vətən müharibəsində qəhrəmanlıqla vuruşmuş, həlak olmuşdur. Maya erkən yaşlarından anasını da itirmişdir. Uşaq evində böyüyüb, sonradan ali təhsil almışdır. Rüstəm kişinin oğlu Qaraşı ürəkdən sevdiyindən ona qoşulub gəlmişdir. Rüstəm ilk zamanlar yeganə oğlu Qaraşın özünün dediyi kimi "dədəsiz-nənəsiz qızla, elçilik etmədən" evlənməsinə qarşı çıxmışdı. Sonralar həyat yoldaşı Səkinənin, qızı Pərşanın işə qarışması nəticəsində Mayanı gəlini kimi qəbul etmişdir. Rüstəm eyni zamanda öyrənmişdi ki, Mayanın atası onun özü kimi müharibədə iştirak etmiş, igidliklə vuruşmuş, həlak olmuşdur. Eşitdiyi xəbər Rüstəmin ürəyindəki son etirazları susdurmuşdur. Odun, alovun içindən keçib evlərinə, ailəsinin, uşaqlarının yanına qayıdan Rüstəm cəbhə, döyüş yoldaşının yeganə yadigarını, ciyərparəsini qəbul etməli idi və etdi də. Əlbəttə, Maya ilə Qaraş arasında olan ailə münasibətləri Rüstəm və Səkinənin qarşılıqlı adət-ənənələrə əsaslanan, tətbiq edilən münasibətlərdən kəskin şəkildə fərqlənirdi. Başqa sözlə desək, "atalar və oğullar problemi" burada da özünü büruzə verirdi, göstərirdi. İlk zamanlar bu cəhət kəskin şəkildə hiss olunurdu. Mayanın bir neçə dəfə qayınatanın, qaynananın, baldızın gözü qarşısında Qaraşı buyurması köhnə adət-ənənələrin tərəfdarı və müdafiəçisi olan Rüstəmin xoşuna gəlməmişdi. Əlbəttə, burda ailə münasibətləri nəzərdə tutulurdu...Bir çox məqamlarda Mayanın şəhərdə böyüməsi, təhsil alması, yerli adət-ənənələri bilməməsi, insanları yaxından tanımaması, onlara inanması da özünü göstərirdi. Yastı Salman və partkom Şirzad Qaraşla Mayanın toy məclisində iştirak etmiş, parlaq nitq söyləmiş, yeni qurulan ailəyə xoşbəxtlik arzulamış, Səkinə xala ilə Rüstəm kişiyə gözaydınlığı vermişdilər. Şirzad toyda yanıqlı səslə mahnı oxumuş, alqışlara səbəb olmuşdur. Rüstəm kişi Şirzada xeyirə-şərə yaradığın görə xüsusi minnətdarlığını bildirmişdir. Şirzad səmimiliyi ilə ilk baxışdan gənclərin rəğbətini qazanmışdır. Nədənsə, Mayanın Yastı Salmandan xoşu gəlməmişdi. Maya düşüncələrini Qaraşla bölüşmüşdü. Salman isə məclisdə Yarməmmədlə pıçıldaşmağa davam etmiş, Mayanın necə gözəl olduğunu, Qaraşın "durnanı gözündən vurduğunu" paxıllıq hissi ilə dəfələrlə vurğulamışdı. Yastı Salman fürsət düşdükcə Mayanın hüsnü-rəğbətini qazanmağa çalışmış, Qaraşın necə xoşbəxt olduğuna, Maya kimi gözəl qadına sahibləndiyini demişdi. Guya Qaraş kobuddur, mədəniyyətsizdir, Mayaya layiq həyat yoldaşı deyildir...

Ümumiyyətlə, Mirzə İbrahimovun "Böyük dayaq" romanında təsvir olunan qadın surətləri sosialist cəmiyyətində, quruluşunda yaşamalarına rəğmən Azərbaycan, Türk, Müsəlman qadınlarının ən yaxşı xüsusiyyətlərini özündə cəmləşdirmişlər. Rüstəm kişinin kolxoz sədrliyinə məsləhət gördüyü Zeynəb Quliyeva da məhz belə qadınlardandır. Zeynəb Quliyevanın həyat yoldaşı Böyük Vətən müharibəsi cəbhəsində həlak olmuşdur. İki uşağı yetim qalmışdır. Gecə məktəbində oxuya-oxuya işləmiş, əmək cəbhəsində fərqlənmiş, ən yüksək Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. İndi adlı-sanlı, ordenli-medallı qadındır. Maddi cəhətdən tam təmin olunmuşdur. Ancaq, keçmişi, arxada qalmış əzab-əziyyətli günlərini bir an belə yadından çıxarmır. Doğurdan da, bir çox məqamlarda insan əməklə, əlinin zəhməti ilə ucalır, şan-şöhrətə çatır. Mirzə İbrahimovun "Böyük dayaq" romanındakı Zeynəb Quliyeva kimi... Doğrudan da Mirzə İbrahimovun "Böyük dayaq" romanında mənfi və müsbət obrazlar müəllif mövqeyinin aydınlaşdırılmasında, dəqiqləşdirilməsində əhəmiyyətli rol oynayırlar.

ƏDƏBİYYAT

1.Axundov İ. Tarix v ə roman. Bakı: "Yazıçı", 1998. 192 səh.
2.Alışanov Ş. Mirzə İbrahimov və XX əsr Azərbaycan ədəbi- nəzəri fikri. "Ədəbiyyat" qəzeti, 2011, 25 noyabr, № 43, s.1-3.
3.Babayev A. Mirzə İbrahimov şəxsiyyəti. "Ədəbiyyat" qəzeti, 2011, 4 noyabr, № 43, s.1-3.
4.Əhmədov T. Akademik Mirzə İbrahimov. Bakı: "Nurlan", 2015, 296 səh.
5.Əliyev T. Mirzə İbrahimov və xalq yaradıcılığı. Bakı: "Elm və təhsil", 2013, 163 səh.
6.Hacıyev A. Mirzə İbrahimov. Bakı: "Yazıçı", 1982, 207 səh.
7.İbrahimov M. Seçilmiş əsərləri. 10 cilddə I cild. Bakı: "Yazıçı", 2010, 450 səh.

Xülasə

MİRZƏ İBRAHİMOVUN BÖYÜK DAYAQ ROMANINDA OBRAZLAR SİSTEMİ

Görkəmli Azərbaycan yazıçısı Mirzə İbrahimovun Böyük dayaq romanı onun yaradıcılığında əhəmiyyətli yer tutur. Əsər XX əsrin 50-ci illərində yazılmışdır. Bu günə qədər oxucular arasında sevilir. Roman əsasında eyniadlı film də çəkilmişdir. Böyük dayaq romanında əsas diqqət obrazların təhlilini verilmişdir. Məsələn, kolxoz sədri Rüstəm kişi, onun həyat yoldaşı Səkinə, oğlu Qaraş, qızı Pərşan və digərləri. Əsərdə əsas hadisələr onların ətrafında cərəyan edir. Eyni zamanda digər surətlər də müəllif mövqeyinin aydınlaşdırılmasında, dəqiqləşdirilməsində vacib rol oynayır. Bütün surətlər koloritli, həqiqi və ziddiyyətlidir. Həqiqətən də böyük dayaq romanında təsvir olunan obrazlar Mirzə İbrahimovun digər əsərlərində təsvir olunan inqilabçılardan kəskin şəkildə fərqlənirlər. Başqa sözlə desək, yazıçı ideal qəhrəmanları ideal şəraitdə təsvir etməmişdir. Əslində obrazlarda həmin dövrün

sosial, iqtisadi və hardasa ideoloji ziddiyyətləri əks etdirilmişdir. Məqalədə yuxarıda göstərilən problemlər təhlil olunur.

Summary

SYSTEM OF IMAGES IN MIRZA IBRAHIMOV'S NOVEL "GREAT SUPPORT"

The famous Azerbaijani writer Mirza Ibrahimov's novel "Great Support"is in an important place in his work. The work was written in the 50s of the XX century. Nowdays, it is loved by readers. A film of the same name was also made based on the novel. The main focus of the novel is the analysis of characters. For example, the chairman of the collective farm Rustam, his wife Sakina, son Garash, daughter Parshan and others. The main events in the work take place around them. At the same time, other copies also play an important role in clarifying and precising the author's position. All images are colorful, authentic and contrasting. Indeed, the characters depicted in the "Great support" novel are sharply different from the revolutionaries depicted in Mirza Ibrahimov's other works. In other words, the writer did not describe ideal heroes in ideal circumstances. In fact, the social, economic and somewhere ideological contradictions of that period are reflected in the images. The above -mentioned problems are analyzed in the article.

РЕЗЮМЕ

ОБРАЗНЫЕ СИСТЕМЫ В РОМАНЕ МИРЗЫ ИБРАГИМОВА «ВЕЛИКАЯ ОПОРА»

Роман видного азербайджанского писателя Мирзы Ибрагимова «Великая опора» занимает важное место в его творчестве. Произведение написано в 50-е годы XX века. И до сих пор читается, пользуется огромным успехом. На основе романа был снят одноимённый фильм. Основное внимание в романе уделено различным образам. Например, председатель колхоза Рустам kиши, его жена Сакина, сын Гараш и дочь Паршан. Основные события происходит вокруг этой семьи. Но и другие образы играют важную роль в авторском замысле. Все они колоритные, правдивые и противоречивые. Действительно, эти образы коренным образом отличаются от других революционных образов Мирзы Ибрагимова. Писатель не изображал идеальных героев в идеальных ситуациях. Наоборот, в образах отражены социальные, экономические и где-то идеологические противоречия того общества. В статье анализируются вышеназванные проблемы.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: dos.D.Nağıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

AİDA QASIMOVA
Bakı Dövlət Universitetinin professoru
aidagasimova@bsu.edu.az

ŞİHƏB ƏD-DİN SUHRAVERDİ KÖHNƏ LİBASLI, QƏLƏNDƏRİ GÖRKƏMLİ FİLOSOF ŞAİR

XÜLASƏ

Bu məqalə Orta əsrlər İslam dünyasında dini-fəlsəfi fikrin görkəmli nümayəndəsi olan Şihəb əd-Din əs-Suhraverdinin şəxsiyyətinə, ədəbi və fəlsəfi yönümlü əsərlərinə həsr olunub. Amansızcasına qətlə yetirilməsi səbəbindən "əl-Məqtul" kimi tanınan əs-Suhraverdi dahi Nizaminin müasiri idi. Yaqut ər-Rumi *Mucəm əl-udəbə*də onun şafii fəqihi, şair, ədib və filosof olduğunu bildirir.

Məqalə ilk öncə Orta əsr ərəb mənbələrində əs-Suhraverdi barədə yer alan bioqrafik xəbərləri araşdırır. Burada onun öz müasirləri ilə münasibətinə xüsusi diqqət yetirilir. Məqalənin növbəti hissəsində əs-Suhraverdinin dini-fəlsəfi fikirləri öyrənilir və göstərilir ki, ilk vaxtlar İbn Sinanın və Fərabinin, dolayısı ilə Aristotelin təsiri altda olan Suhraverdi, getdikcə onlardan uzaqlaşıb Platon fəlsəfəsinə, pifaqorçuluq və neoplatonizmə yaxınlaşır ki, bu da onu işraqiyyə və təsəvvüf yoluna çıxarır. Bu hissədə əs-Suhraverdinin əsərləri barədə məlumat verilir, bəzi fəlsəfi traktatları öyrənilir. Onun ən məşhur əsəri olan *Hikmət əl-işraq* işraqiyyə (illumination) nəzəriyyəsini əks etdirir. Suhraverdiyə görə, varlığın əsasında ilahi Zatı bildirən transsendent *Nur əl-Ənvar* dayanır.

Məqalənin axırıncı hissəsi əs-Suhraverdinin dini-fəlsəfi ruhlu poeziyasını tədqiq edir. Burada göstərilir ki, əs-Suhraverdi həm də bir şair idi. Onun poeziyası *işraqiyyə* fəlsəfəsinin tərənnümünə və ilahi eşqə həsr olunub. Suhraverdinin poetik irsində onun Kəb ibn Zuheyrin "Bənət Suad" (Burdə) qəsidəsinə yazdığı *təxmis* xüsusi yer tutur.

Açar sözlər: Şihəb əd-Din Suhraverdi, işraqiyyə fəlsəfəsi, zərdüştlik, Nur əl-ənvar, panteizm, Səlah əd-Din Əyyubi, Hələb

Şihəb əd-Din Suhraverdi (1153-1191) ərəbdilli Sufi fəlsəfi fikrinin və ədəbiyyatının əslən Azərbaycandan olan nümayəndəsidir. Dahi mütəfəkkirin tam adı Şihəb əd-Din Yəhya ibn Həbəş ibn Əmirək Əbu l-Fətuh əs-Suhraverdidir. Digər sufi mütəfəkkiri, Suhraverdiyyə təriqətinin müəssisi Şihəb əd-Din Ömər Suhraverdidən (1145-1234) fərqləndirmək üçün onun adı əl-Məqtul (المقتول) və Şeyx əl-işraq (شيخ الاشراق) ləqəbləri ilə anılır.[1] Bəzən onun Ömər Suhraverdinin bacısı oğlu olduğu bildirilir (10, 5).

[1] Məs., İbn Əbi Useybiə onu səhvən Ömər Suhraverdi adlandırıb.

Onun şəxsiyyəti və yaradıcılığı İslam dünyasının korifeylərindən biri kimi əsrlər boyu alimlərin diqqətini cəlb etmişdir. Bir çox orta əsr mənbələrində onun barəsində məlumatlar hifz olunub. Qərb şərqşünaslığında Helmut Ritter, Luis Massinyon (Louis Massignon), Annemarie Schimmel, Henry Corbin, Seyyid Hossein Nasr kimi alimlər Suhraverdi yaradıcılığına maraq göstərmişlər. Şərqşünaslıq elminin korifeyləri sayılan bu almlər Şihəb əd-Din Suhraverdini birmənalı olaraq İran filosofu kimi təqdim etmişlər. Azərbaycanda professor Malik Mahmudov və AMEA-nın müxbir üzvləri Zakir Məmmədov və Səlahəddin Xəlilov Şihəb əd-Din Suhraverdinin fəlsəfi və ədəbi yaradıcılığı ilə maraqlanıb onu tədqiqata cəlb etmişlər. Malik Mahmudov onu "peşəkar filosof" adlandırır (4, 107)

Suhraverdi əl-Məqtul dahi Nizaminin müasiri olub. Yaqut ər-Rumi *Mucəm əl-udəbə*də onun şafii fəqihi, şair, ədib və filosof olduğunu bildirir (12, 2806-2809, oçerk 1223). O, Azərbaycanın Zəncan şəhərinin yaxınlığındakı Suhraverd adlı qəsəbədə dünyaya gəlmişdir. Təhsilini Marağada Şeyx Məcd əd-Din əl-Cilidən alıb fiqh və kəlamı öyrənib, bir müddət onun yanında yaşayıb dini elmlərə yiyələnib. Qəribədir ki, Şeyx Məcd əd-Dinin digər tələbəsi öz fikri, dünyagörüşü ilə fəlsəfəyə, xüsusilə onun sufi mistisizmi şəklində təzahürünə qarşı çıxan, yəni Suhraverdi əl-Məqtula tam əks mövqedə dayanan Fəxrəddin ər-Razi olub. Suhraverdinin qətlindən illər keçdikdən sonra Fəxr əd-Din ər-Raziyə keçmiş mədrəsə yoldaşının *ət-Təlvihat* التلويحاتkitabını bağışlayarkən o göz yaşlarını saxlaya bilməmiş, birgə keçirdiyi günləri xatırlayaraq ağlamışdır (6, 57).

Marağada təhsil alan Şihab əd-Din bir müddət sonra digər elm talibləri kimi səyahətlərə çıxır. O, Mardində Şeyx Fəxr əd-Din Mardininin (v. 1198) tələbəsi olub. Suhraverdi Şeyx Mardinini həmişə xoş sözlərlə xatırlamışdır. O, bir müddət İsfəhanda qalıb buranın alimlərini dinləyir. Burada olarkən ibn Sinanın *Risələt ət-tayr* əsərini fars dilinə tərcümə edir (bax 10).

O dövrün bir çox mütəfəkkirləri kimi biz Suhraverdini də həqiqət axtarışlarında görürük. O, *İşraqiyyə* fəlsəfəsinin müəssisi sayılır. *İşraqiyyə* Platon fəlsəfəsini, neoplatonizmə xas emanasiya nəzəriyyəsini və neopifaqorçuluğu qədim zərdüştlik düşüncəsi ilə sintez edən bir nəzəriyyədir. Bu cür sinkretik bir təlimin yaranması İslami düşüncənin özündə bir sıra yerli elementləri və qədim dini təlimləri birləşdirməsi ilə bağlı idi. Təsadüfi deyil ki, Marşall Hodgson İslamın yayıldığı ərazilərdə mədəniyyətin sinkretik xarakterini ifadə etmək üçün "islamic" deyil, "islamicate" terminini gündəmə gətirib işlətmişdir. *İşraqiyyə* bu sinkretizmin bariz nümunəsidir. H. Nasr *işraqiyyə* nəzəriyyəsini fəlsəfə ilə qnostisizm arasında aralıq mövqedə olan bir təlim sayır (6, 56).

Annemarie Schimmelin fikrincə, Şihəb əd-Din Suhraverdinin dünyagörüşünə və *işraqiyyə* fəlsəfəsini yaratmasına İmam Əbu Hamid əl-Ğəzalinin (v.1111) *Mişkət əl-ənvar* (مشكاة الانوار) əsəri böyük təsir göstərib. Qeyd etmək lazımdır ki, Suhraverdi həm də Həllac Mənsurun (v. 922) və ibn Ərəbinin (1165-1240) təsiri altında olub.

Suhraverdi səyahət etdiyi şəhərlərdə yalnız elm adamlarının deyil, həm də hökmdarların diqqətini cəlb edir. O, Yaxın Sərqin bir sıra əyalətlərini, elm və mədəniyyət mərkəzlərini dolaşır, nəhayət, Hələbdə qərar tutur. Sanki Azərbaycanın bütün azadfikirli insanlarının düşməni olan Hələb Suhraverdinin də son mənzili olur. Hələbin elmi-dini və ədəbi dairələrində tanınan Suhraverdi öz ağlı və dərrakəsi, dərin biliyi ilə insanların diqqətini cəlb edir. Bu zaman Hələbin hakimi Səlahəddin Əyyubinin oğlu Zahir Ğazi idi. Yeniyetmə bir gənc olan Zahir Suhraverdini sarayına dəvət edir, onun söhbətlərini həvəslə dinləyirdi. Bu hal qısqanc Hələb üləmasını narahat edirdi.

Orta əsrlərdə üləma bir kəsi məhv etmək istədikdə, əlinə yalnız bir silah alırdı; bu, kafirlikdə, bidətçilikdə ittiham idi. (Bir neçə əsr sonra Hələb üləması eyni silahla Nəsimini də məhv edəcək.) Yaqut ər-Rumi Şihəb əd-Din Suhraverdinin disput və münaqişələrdə məğlubedilməz olmasını bildirir. Hələb üləmasının ona nifrət etməsinin bir səbəbi də Suhraverdinin bu cür məntiqli hazırcavablığı olub. Zahirin ona hüsn-rəğbətini gördükdə, Hələb üləması Səlah əd-Din Əyyubiyə məktub yazıb Suhraverdinin Zahirin etiqadını məhv edəcəyini bildirirlər. Həmin vaxt səlibçiləri yenicə məğlub etmiş Səlahəddinin üləmanın dəstəyinə ehtiyacı var idi. Ola bilsin ki, Səlah əd-Din Əyyubinin Suhraverdiyə qarşı inandırılmasında bəzi siyasi motivlər də olmuşdur. Belə ki, Suhraverdi Əyyubilərin rəqibi olan Ərtaqi hakiminə bir əsər həsr etmişdir. Çox güman ki, Səlah əd-Din Əyyubi Suhraverdinin düşmənlərlə əlaqədə olmasından şübhələnmiışdir. Hər bir halda o, oğluna Suhraverdini edam etmək əmrini verir və çox keçmir ki, Suhraverdi həbs edilir.

Qeyd edək ki, Orta əsrlər müsəlman dünyasında bir kəsi bidətdə və kafirlikdə ittiham edib ölüm fərmanı vermək heç də tez başa gələn bir iş deyildi. Məhkəmə prosesi aylarla, hətta illərlə uzana bilərdi. Həllac Mənsurun illər boyu həbsxanada qalmasını, tərəfdarları ilə düşmənləri arasında onun edamı ilə bağlı uzun-uzadı mübahisələr olmasını xatırlayaq. Nəsiminin Hələbdəki məhkəməsində də fikir ayrılığı olması məlumdur. İspaniya ədibi Lisən əd-Din ibn Əl-Xətibin (1313-1374) məhkəməsində üləma arasında mübahisələr düşmüş, rəqibləri məhkəmə prosesinin uzanacağını görüb onu həbsxanada boğub öldürmüşlər. Eyni tale Şihəb əd-Din Suhraverdini də gözləyir. Yaqut göstərir ki, Suhraverdi Zahir Qaziyə öz edamı barədə belə bir təklif edir: "Məni ac susuz saxlayın, qoyun bu yolla ölüm". Yaqutun bu məlumatında Suhraverdinin gizli bir arzusunu da görürük. Görünür, o, bədəninin üzülməsi ilə bir fəna halı yaşayacağına, *Nur əl-Ənvar* adlandırdığı Mütləq Nura qovuşacağına inanırmış, amma, Yaquta görə, onun son diləyi də baş tutmamışdır; Suhraverdini gecəykən həbsxanada boğub öldürürlər. Bu səbəbdən o, tarixdə "əl-Məqtul" kimi tanınır. Yaqut göstərir ki, Zahir Ğazi Suhraverdinin faciəsindən üzülmüş, onun həbsi barədə fitva verən üləmadan intiqam almışdır (12, 2809). Şəhrəzuri isə bildirir ki, Zahir Qazi heç də Suhraverdini dərhal öldürmür. Səlahəddin Əyyubi oğluna ikinci dəfə xəbər göndərib əgər Suhraverdini öldürməzsə, Hələbi ondan alacağını deyir. Şəhrəzuri bildirir ki, Hələbdəki düşmənləri ona bir sıra

günahlar yazıb hətta Suhraverdinin guya peyğəmbərlik iddiasında olduğu barədə ittiham irəli sürmüşlər. Onun qətli barədə isə müxtəlif fikirlər var; bəziləri onun həbsxanada ac saxlandığını bildirir, bəzən də onun özünün aclıq etdiyini deyirdilər. Onun qılıncla vurulması, boğulması, qala qülləsindən atılması, sonra cəsədinin yandırılması kimi müxtəlif xəbərlər deyilir (1, 97-100). İbn Əbi Useybiə Suhraverdinin ölümü barədə yazır: *"Bəzi Hələb əhli mənə demişdir ki, Şihəb əd-Din Suhraverdi (rahaməhu Allah) (Hələbdə) vəfat etmiş və şəhər kənarında dəfn edilmişdir. Onun qəbri üstündə qədim bir şeir həkk olunmuşdur:*

Bu qəbrin sahibi Allahın şərəfli yaratdığı gizli bir cövhərdir.
Zəmanə onun qiymətini bilmədi. Onu qısqanıb sədəfə tərk etdi.

Bu yerdə Şihəb əd-Din Suhraverdi barədə bəzi mənbələrdə yer alan bir məsələyə toxunmaq istərdik. Ortodoks sünni məzhəbi öz rəqiblərinə qarşı çox amansız olub. Üləma məhv etdiyi bidətçilərin cismanı məhvi ilə kifayətlənməyib, onların şəxsiyyəti, əxlaq və davranışları barədə hər cürə ağlasığmaz iftiralar yayırdı. Biz bunu Nəsimi barədə yayılan iftiralarda da görmüşük (3, 148-180). Bəzi mənbələr Suhraverdini təmizliyinə fikir verməyən, yuyunmayan, üstü-başı çirkab içində olan bir şəxs kimi təsvir edib. Guya üzündə bitlər gəzərmiş, adamlar ona baxanda qorxub qaçarmış. Əlbəttə, bütün bunlar böyük filosofu gözdən salmaq məqsədi güdən bədxahların uydurmasıdır. Qeyd edək ki, Suhraverdi həm də dua janrında əsərlər yazıb. Bu əsərlərdən biri onun *əl-Əsmə əl-İdrisiyyə* əsəridir. Əsər əlyazma halında olsa da internetdə yerləşdirilmişdir. Əsərdə 40 dua yer alır. Suhraverdi hər duanın əvvəlində qeyd edir ki, bu duanı söyləməzdən əvvəl tər-təmiz yuyunmaq (*ğusul* və *vudu*), təmiz libaslar geyinmək lazımdır. Əsərdə Suhraverdi cümə günlərini yuyunmaq üçün münasib bilir, qalan günlərdə isə dəstəmaz almaq lazım olduğunu bildirilr. O, dəfələrlə dualaların müstəcəb olması üçün təmiz libas geyinməyin vacibliyini qeyd edir. Öz əsərlərində oxucuları təmizliyə səsləyən bir adam barədə deyilənlər, əlbəttə, iftiradır. Beləliklə, Suhraverdinin şəxsi gigiyenaya fikir verməməsi fikri özünü doğrultmur. Amma ibn Əbi Useybiə onun libaslarının köhnə olduğunu qeyd edirdi. Bu hal şeyx Suhraverdinin dünya malına göz dikməməsindən irəli gəlirdi:

Şeyx Şihab əd-Din Suhraverdinin libasları köhnə idi. O, geyiminə fikir vermir, fani dünya işlərinə çox da məhəl qoymurdu. Bir nəfər danışırdı ki, bir dəfə Şeyxlə Meyəfariqin məscidində idik. O, rəngi göyə çalan qısa bir cübbə geyinmişdi. Başında buruq-buruq olmuş bir örtük var idi. Uzunboğaz çəkmələri (də pis halda idi). Bir dostum məni görüb yaxınlaşdı və soruşdu ki, bu "eşşək otaran" adamla niyə gəzirsən? Ona dedim ki, sus! Bu, zəmanənin şeyxi Şihab əd-Din Suhraverdidir. Dostum mənim sözümə təəccüb edib hörmətlə kənara çəkildi.

Bu xəbər Şəhrəzurinin əsərində də yer alır. Şəhrəzuri Suhraverdinin İsa əl-Məsihə bənzədiyini (مسيحي الشكل), görkəmcə qələndəriləri xatırlatdığını (قلندري الصورة) bildirir. O,orta boylu, saqqallı, qırmızı üzlü idi. Şafii məzhəbli idi, fiqh və hədis elmində, eləcə də üsuliddində çox güclü idi. Şəhrəzuri bildirir ki, o, öz həyat tərzi ilə sufilərin yolunu tutub. Bəzən həftə boyu ac qalır, ancaq bir dəfə iftar açırdı. Nəfsini xəlvətə çəkilmə və pəhrizkarlıqla təmizləyib Həllacın, Bəyazid Bistaminin çatdığı məqama çatmışdı. Bununla belə, səma məclislərini və musiqini çox sevirdi (1, 95-100).

Suhraverdi az ömür sürsə də (38 yaş) o, 50-dən artıq əsərin müəllifidir. Ən məşhur əsərləri aşağıdakılardır:

حكمة الإشراق -- Suhraverdinin *İşraqiyyə* nəzəriyyəsi barədə əsas əsəri budur. Əsər Seyyid H. Nasr tərəfindən geniş təhlil edilib.

المطارحات Suhraverdi fəlsəfəsini əks etdirən əsas əsərlərdəndir. كتاب التلميحات eləcə də

الغربة الغريبة– Bu, ibn Sinanın və ibn Tufeylin "Hayy ibn Yaqzan" əsərlərinə yaxın mövzuda yazılmış bir əsərdir.

صفير سيمرغ -- Bu, alleqorik bir əsər olub üç fəsildən ibarətdir. Simurğ burada təsəvvüfün bütün məqamlarını adlayıb *fəna fillah* halına çatmış sufini--saliki təmsil edir.

رسالة الأسماء الإدريسية– Yuxarıda qeyd etdiyimiz kimi, bu, bir dua kitabıdır

مؤنس العشاق--onun gənclik illərində fars dilində yazdığı risalədir. Qur'anın Yusif surəsi əsasında qələmə alınmış alleqorik bir əsərdir.

لغة موران 12 fəsildən ibarət fəlsəfi risalədir. Müəllif burada mistik-fəlsəfi düşüncələrini rəmzi dillə ifadə edir. Doqquz fəsildə alleqorik tərzdə heyvanların və quşların dili ilə danışılır. Digər üç fəsildə hikmətamiz fikirlər yer alır.

هياكل النور Bu əsərdə cism, ruh, ruhun paklaşıb Nurlar aləminə qovuşması kimi məsələlər əks olunub. *Heykəl* (məbəd, şəkil) adlanan bəzi fəsillər dua ilə başlayır.

İlk vaxtlar İbn Sinanın və Fərabinin, dolayısı ilə Aristotelin təsiri altda olan Suhraverdi, getdikcə onlardan uzaqlaşıb Platon fəlsəfəsinə, pifaqorçuluq və neoplatonizmə yaxınlaşır ki, bu da onu Sufizm yoluna çıxarır. Onun ən məşhur əsəri olan *Hikmət əl-işraq* işraqiyyə (illumination) nəzəriyyəsini əks etdirir. Suhraverdiyə görə, varlığın əsasında ilahi Zatı bildirən *Nur əl-Ənvar* dayanır. Onun nuru bütün varlıqlarda təzahür edir, amma bu təzahür heç də bütün varlıqlarda eyni deyil. İlahi nurun varlıqlarda müxtəlif intensivliyi və fərqli dərəcələri vardır. Suhraverdiyə görə, işıq ierarxiyasının müxtəlif dərəcələri arasında Məhəbbət hökm sürür. *Nur əl-Ənvar*

ilahi Zatı bildirdiyindən transsendetdir. İnsan Onu görüb duya bilməsə də onun ruhu məhz nurani xarakterdədir. İnsan dünyaya gələrkən onun ruhu iki yerə parçalanır; bir hissəsi nurlar aləmində qalan ruh, digər hissəsi bədəndə həbs olunmuş ruhdur. İnsan bədənində həbs olunmuş ruh daim öz yarısına can atır. İnsan xeyirli əməl və düşüncə sahibi olduqda o öz nurlu yarısını -- işıq ruhunu asanlıqla tapır, fani dünyadan köçməsindən əzab duymur. Qəlbi, əməlləri qaranlıq insanların ruhu isə öz yarısını tapmayıb zülmətə yuvarlanır (6, 69-70).

Suhraverdinin ontologiyasında mələklərə xüsusi yer ayrılır. İşıq ierarxiyasında mələklər nurani varlıqlar kimi *Nur əl-Ənvar*a ən yaxın məxluqlardır. Onlar insanlarla *Nur əl-Ənvar* arasında aralıq mövqe tuturlar. Suhraverdinin əsərlərində mələk adları içərisində bir sıra fars adları da görürük. O, zərdüştlikdə baş mələk olan Bəhmanı *ən-Nur əl-Əzam* (Ən böyük nur) adlandırır. Bəhman Mütləq Nura – Allaha ən yaxın olan nuru təcəssüm edir. İerarxiyada növbəti nur Ordibehiştdir. Bu adlar Suhraverdinin Zərdüşt fəlsəfəsinə və mədəniyyətinə nə qədər bağlı olduğunu göstərir. O, Zərdüştün məşhur Yaxşı Əməl, Yaxşı Söz, Yaxşı Fikir konsepsiyasını İnsanın xilası sayır. İnsan həm dünya həyatında, həm də sonu çatarkən bu üç amilin bəhrəsi ilə üzləşir. İnsanın fəaliyyətində ağıl üstün olarsa o, bir mələklə yaxınlaşar, onun ünsiyyətindən bu dünyada zövq alır və həmin mələk onu Axirətdə işığa çatdırır. Əgər insan öz fəaliyyətində şəhvətə uyarsa, yolunu azarsa, o, Şeytanın hökmü altına düşər.

Suhraverdinin mistik-simvolik ruhlu bir sıra risalələri fars dilindədir. Bu əsərlər farsdilli bədii-fəlsəfi nəsrin ilkin nümunələri cərgəsində xüsusi yer tutur. Onun mələklərlə bağlı fikirləri sabiliklə səsləşir. Sabi düşüncəsində mələklər məhz göy cisimlərində qərar tutub Yer üzərindəki işləri idarə edirlər. Ayrı-ayrı səma cisimlərinə sitayiş edən sabilər əslində mələklərə sitayiş edirdilər. Suhraverdi fəlsəfəsində isə göy cisimləri mələklərin materiallaşmış formasıdır. (bax 2, 243-261) Göy cisimləri göyün ənginliklərində saysız olduğundan, mələklərin sayını da bilmək mümkün deyildir. Suhraverdinin qələm adı – ləqəb olaraq "Şihəb əd-Din" (Dinin meteoriti) sözünü seçməsi də mistik astrologiyadan xəbər verir.

Digər tərəfdən, Suhraverdi yaradıcılığında sonradan hürufilikdə inkişaf etdirilmiş bir sıra fikirlərin əks olunduğunu görürük. Məsələn, onun *Avaz-i pər-i Cəbrail* əsərini hürufi nəzəriyyəsinin ilkin qaynaqlarından saya bilərik. Bu əsər müridlə şeyxin söhbətini əks etdirən dialoq formasındadır. Burada mürid şeyxə bəzi suallar verir. Şeyxin cavabından bütün dünyanın Sözdən və onun əsasında dayanan Səsdən – Cəbrailin qanadının avazından yaranması məlum olur. İnsan özü də bir sözdür. Burada şeyx müridə cəfr elmi, hərf və rəqəm simvolikası barədə biliklər verir.

Qeyd edək ki, Suhraverdi öz dühasını dünyanın dərkində xüsusi mərhələ sayır. O, dünyanın dərkində xüsusi yeri olan bir çox müdrik filosofların elmini davam etdirdiyini bildirir. Bu filosoflar Hermes (İdris), Keyumərs, Firudin, Pifaqor, Platon, Bəyazid Bistami, Səhl Tustari və başqalarıdır. Suhraverdi, xüsusilə Hermesi üstün

tutub, həm zərdüştlik fəlsəfəsinin, həm də qədim yunan fəlsəfəsinin onun təlimindən qaynadlandığını bildirib. Hermesə önəm verməsi də onu sabiliklə yaxınlaşdırır.

Suhraverdinin *Həyəkil ən-nur əsəri* cism, nəfs və ruh məsələlərini, insan bədənində qərar tutmuş ruhun paklaşıb nurani ruha qovuşmasını əks etdirir. Suhraverdi *pəhrizkarlıq* və *sərh*lə (yuxusuzluq) ruhun paklaşıb Qüdsiyyət aləminə çatmasını, burada irfani biliklərə (*məarif*) yiyələnməsini bildirir. Suhraverdi *nubuvvəti* qəbul edib peyğəmbərlərin hekayətində həqiqətlərə işarə olduğunu bildirir, amma o da övliyalığı peyğəmbərlikdən üstün tutur. Məs. əsərdə *tənzil* (Qur'anın nazil olması, yəni nazil olan, İlahidən enən biliklər) və *təvil* (Qur'anın batini şərhi, irfanda intuitiv biliklə qalxan xətlə İlahi kəlamın ilkin mahiyyətinə varmaq) məsələlərinə münasibəti götürək. Suhraverdi bildirir ki, *tənzil* peyğəmbərlərə aiddir, *təvil* isə əl-Muzahhər əl-Əzamə. Rəmzlərə üstünlük verən Suhraverdinin bu adla kimi nəzərdə tutması bizə qaranlıq qalsa da, *təvilin* irfani və batini mahiyyətini nəzərə alıb Qütb sayılan övliyanı və ya şiə imamını düşündüyünü zənn edə bilərik (11, 43-44).

Suhraverdi fəlsəfəsində coğrafi rəmzlər sistemi də xüsusi yer tutur. *İşraqiyyə* fəlsəfəsinin əsasını qoyan mütəfəkkir filosof *işraq* sözünun kökündə (ş, r, q) işıqla yanaşı Sərq anlamının olmasına da xüsusi məna verir. Onun fəlsəfəsində Sərq işıq, xoşbəxtlik, ilahi nur və ruhlar dünyasını bildirir. Şərqi o rəmzi olaraq Yəmənlə ifadə edir. Burada Peyğəmbərdən söylənilən "Rəhmanın nəfəsi Yəməndən gəlir" ifadəsi də yerinə düşür. Qərb isə fani dünyanın rəmzi, ruhların bədəndə həbs olduğu yerdir. Fani dünya olan Qərbdə ruhlar İlahi Nurdan uzaqlaşıb qurbətə düşür. "Qərb" sözü "qurbət"lə eyni kökdəndir (ğ,r,b). Suhraverdinin bir sıra hikmətamiz fikirləri dillərdə gəzib (10, 12):

Fikirləşmədən danışma. Bir sözü (fikrində) dəfələrlə təkrar et, sonra de. Əgər danışdıqda saleh bəndələrdən sayılırsansa, susduqda Allahın muqarrabun mələkləri kimi olursan.

Həqiqət tək Günəş kimidir.Bürclərdə onun görünüşü çoxalsa da, o, təkliyində qalır. Necə ki, Mədinə birdir, ona aparan yollar isə çoxdur. (Burada biz "Bütün yollar Romaya aparır" məşhur deyiminin təsirini görürük.)

Qur'anı elə oxu ki, sanki o yalnız sənin üçün nazil olmuşdur.

Allaha Onu sevərək ibadət etmək, Ondan qorxaraq ibadət etməkdən daha yaxşıdır.

Şihəb əd-Din Suhraverdi yaradıcılığında duaların da xüsusi yeri var. Mənbələrdə onun əs-Simiyə (السيمياء) elmində mahir olması bildirilir. Bu elmin sehrdən fərqi ancaq müsbət, xeyirxahlıq yönümlü tilsim və dualarla əlaqəli olmasıdır.

Əl-Əsmə əl-İdrisiyyə əsərindəki duaların təsir gücünə onun özünün böyük inamı olub. Onun sufilərin səma məclislərində səslənən virdləri də olub.

Suhraverdi həm də bir şair idi. Onun poeziyasında *işraqiyyə* fəlsəfəsi ilahi eşq motivləri ilə vəhdətdə verilir:

Hər sübh açılanda, hər şəfəqin parıltısında mən müştaqınız olub Sizin üçün göz yaşı axıdıram.
Eşqin ilanı sanki ciyərimi çalmışdır. Nə bir təbib, nə də br tilsim bu (dərdə) əlac edə bilməz.
Şəfaətim ancaq sevgilidədir. O mənim həm tilsimim, həm də dərmanımdır .
Kölgə salan xəyallarda mən həqiqət axtaranlar üçün ən böyük ibrət gördüm. Görüntülər, kölgələr sürətlə keçib gedirlər. Onlar şəkilcə bir-birinə uyğun gəlmirlər.
Gah görsənir, gah da yox olurlar. Onlar oxuyur, qalanları isə hərəkət edirlər.

Suhraverdinin poetik irsində onun Kəb ibn Zuheyrin "Bənət Suad" qəsidəsinə yazdığı *təxmis* xüsusi yer tutur. Təxmis belə başlayır:

Eşq əsirinə təsəlli vermək mümkün deyil.
Bundan sonra mən qorxu nədir, bilmərəm. "
"Qəlbim obadan köçənlərlə birgə köç etdi,"- deyirəm.
Suad məni tərk etdi. Qəlbim sanki xəstə düşüb.
Qandallanmış bir eşq divanəsi kimi onun ardınca qalıb...

Beləcə, Suhraverdi məşhur "Burdə"nin hər beytinin əvvəlinə üç misra əlavə etməklə iri həcmli, mükəmməl bir əsər yaradır. "Burdə"nin şah beytinin təxmis bəndi belə səslənir:

Bətulun (Fatimənin) atası əbasını hər kəsə bağışlamaz.
Kafirlər onun gözəl xüsusiyyətləri barədə danışmaz.
Onun möcüzələrinə şükr etməmək olarmı?
Peyğəmbər parlaq bir qılınc kimidir. O, Allah-təalanın qınından sıyırıb çıxardığı iti hind qılıncına bənzəyir (10, 96).

Qeyd etdiyimiz kimi, Suhraverdi öz fəlsəfi fikirlərində və yaradıcılığında Həllac Mənsurdan bəhrələnmişdir. Aşağıdakı şeiri Həllacın "raiyyə"sinə nəzirə olaraq yazılıb:

Nurlar nurunun qəlbdə nurları var. Hər bir sirr sevgililərin sirri olarkən, dönüb əsrar olur.

Sürür üçün bir məclisə gələrkən, bizi Qeyb aləmindən saleh adamların (ruhu) əhatə etdi.

Mərifət kəsb etmək üçün bu müqəddəs dərgahda meyxanəçi badəni hərləyərək bizə şərab verirdi.

Ağıl sahibləri onun lütfi ilə məst oldu. Bizə bu sevinc məkanında sirrlər görsəndi.

Şeirdəki meyxanə, içki rəmzi məna daşıyıb İlahi eşqdən sərməstliyi ifadə edir. Şeirin əsas ideyası müridin ilahi kəşf halına çatmaq arzusu və bu halın yaşantılarının tərənnümüdür.

Sonda bir məsələyə də diqqət yetirmək istərdik. Sovet dövründə yazılan əsərlərdə sufi-irfani düşüncədə Allahın varlıqlarda təcəllisi nəzəriyyəsi XVII əsr alimi Benedikt (Baruch) Spinozanın panteizm fəlsəfəsi ilə eyniləşdirilirdi. Panteizmdə hər şey Tanrıdır, Tanrının bir parçasıdır. İslam mistisizmində isə biz fərqli bir mənzərə görürük. Burada Allah Zat, Mahiyyət etibarı ilə dərkedilməzdir, transsendentdir. Allah ad və atributları ilə varlıqlarda təcəlli edir və bu təcəlli də müxtəlif varlıqlarda fərqli xarakterdə, fərqli intensivlikdədir. Spinoza təlimində Allah transsendent deyil, hətta fövqəltəbii qüvvəyə belə bənzəmir. Şərq mistikləri ruhun paklaşması və qəlbin cilalanması ilə intuitiv şəkildə Allahın dərkinə, Allaha qovuşmağa can atıblar. Spinoza isə, rasionalist filosof olub. Şərq fəlsəfəsində okkultizm mühüm yer tutub ki, biz bunu da Spinozada görmürük. Suhraverdi fəlsəfəsində Nur əl-Ənvar İlahi Zatı bildirir. Spinozanın Tanrısı ilə transsendent Nur əl-Ənvar arasında böyük fərq vardır. Beləliklə, *İşraqiyyə* təlimini panteizm adlandırmaq, eləcə də sufizmə xas *hulul, ittihad, vəhdət-i vücud* kimi nəzəriyyələri kor-koranə panteist düşüncə kimi xarakterizə etmək Həllac Mənsur, ibn Ərəbi, Şihəb əd-Din Suhraverdi kimi filosofların dərin fəlsəfi tutumlu mistik düşüncələrini Spinozanın rasionalist təlimi ilə eyniləşdirməkdir.

Ədəbiyyat

1. **Al-Shahrazūrī Shams al-Dīn. *Nuẓhat al-arwāḥ*, Spies O. and Khatak S.K.. (ed.). Three *Treatises on Mysticism by Shihabuddin Suhrawardi Maqtul.* Stuttgart: W. Kohlhammer 1935.**
2. "The Sabians as one of the Religious Groups in pre-Islamic Arabia and Their Definition through the Qur'an and Medieval Arab Sources", *ARAM Periodical,* (Oxford University), (Issue 22, 2010) pp. 243-261.
3. Qasımova, A. "Hürufilərə qarşı iki inkvizisiya məhkəməsi", *Bir Əsrlik Nəsimi araşdırmaları toplusu*. Bakı, 2019, 148-180
4. Mahmudov, M. *Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər*. Bakı, Elm, 1983.

5. **Marcotte, R. "Suhrawardi",** ***The Stanford Encyclopedia of Philosophy*****, 2005.**
6. **Nasr, S. H.** ***Three Muslim Sages Avicenna—Suhrawardi--Ibn 'Arabi*****, New York, 1997.**
7. **Schimmel, A.** ***Mystical Dimensions of Islam*****, The University of North Carolina Press,2011.**
8. **ابن أبي أصبيعة، عيون الأنباء في طبقات الأطباء ، الصفحة ٦٤٢ Shia online library**
9. **ابن تغري بردي، *النجوم الزاهرة في ملوك مصر والقاهرة*، http://www.alwarraq.com/**
10. ***ديوان السهروردي المقتول*، تحقيق كامل مصطفى الشيبي، بغداد.**
11. **شهاب الدين السهروردي، هياكل النور، تحقيق محيي الدين صبري الكردي، مصر، مطبعة السعادة، 1335**
12. **ياقوت الحموي ، *معجم الأدباء إرشاد الأريب إلى معرفة الأديب* · المحقق: إحسان عباس، دار الغرب الإسلامي، 1993**

Aida Gasimova

ABSTRACT

SHIHAB AD-DIN AS-SUHRAWARDI—A PHILOSOPHER WITH SHABBY CLOTHES AND QALANDARI APPEARANCE

The paper deals with the personality and literary-philosophical works of Shihab ad-Din as-Suhrawardi – one of the great figures of the Medieval Islamicate religious-philosophical thought. He was brutally murdered for his courageous statements, therefore is known as al-Maqtul (he who was murdered). As-Suhrawardi was a contemporary poet of Nizami Ganjawi. Yaqut ar-Rumi in Mujam al-Udaba names him Shafii faqih, literator and philosopher.

First, the biographical accounts of the Medieval Arab sources on Shihab ad-Din as-Suhrawardi have been analyzed. The following passage has been devoted to his mystic-religious and philosophical thought. I argue that while as-Suhrawardi in his early life was inclined to the philosophy of Aristoteles through the works of Avicenna and al-Farabi, he eventually retreated from their philosophy in favor of the philosophy of Plato, Pythagoreanism and Neo-Platonism that resulted in his deeply engaging in mystic-sufi thought. This part of the article relied on the philosophical treatises of as-Suhrawardi. His most famous epistle Hikmat al-Ishraq reflects the philosophy of illumination. According to as-Suhrawardi the essence of all creation and universe is transcendent Nur al-anwar.

The last part of the article elaborates the poetry of as-Suhrawardi who combined in his poems the philosophy of illumination with the motif of divine love. The unique example of as-Suhrawardi's poetry is his *takhmis* on Kab ibn Zuhayr's famous poem Banat Suad.

Key words:
Shihab ad-Din as-Suhrawardi, the philosophy of illumination, Zoroastrianism, Nur al-Anwar, pantheism, Salah ad-Din Ayyubi, Aleppo

АИДА ГАСЫМОВА

РЕЗЮМЕ
ШИХАБ АД-ДИНА АС-СУХРАВАРДИ -- ФИЛОСОФ В ПОТРЕПАННОЙ ОДЕЖДЕ, С ВНЕШНОСТЬЮ КАЛАНДАРИЯ

Данная статья посвящена личности и литературно-философскому творчеству Шихаб ад-Дина ас-Сухраварди – одного из крупнейших деятелей средневековой исламской религиозно-философской мысли. Сначала были проанализированы биографические сведения средневековых арабских источников о Шихаб ад-Дине ас-Сухраварди. Он был жестоко убит за свои смелые заявления, поэтому известен как аль-Мактул (убитый). Ас-Сухраварди был поэтом-современником Низами Гянджеви. Якут ар-Руми в Муджам аль-Удаба называет его факихом, писателем и философом.

Следующий отрывок статьи посвящен его мистико-религиозной и философской мысли. Как следует из статьи, хотя ас-Сухраварди в молодости был склонен к философии Аристотеля через труды Авиценны и аль-Фараби, в конце концов он отступил от их философии в пользу философии Платона, пифагореизма и неоплатонизма. Эта часть статьи опирается на философские трактаты самого ас-Сухраверди. Его трактат «Хикмат аль-Ишрак» отражает философию Озарения. Согласно ас-Сухраварди, сущностью творения и вселенной является трансцендентный Нур аль-анвар.

Последняя часть статьи освещает философскую поэзию ас-Сухраварди, соединившего в своих стихах философию Озарения с мотивом божественной любви. Уникальным образцом поэзии ас-Сухраварди является его *тахмис* на знаменитую поэму Кааба ибн Зухайра «Банат Суад».

Ключевые слова:

Шихаб ад-Дин Сухраверди, философия ишракийя, зороастризм, Нур аль-Анвар, пантеизм, Салах ад-Дин Айюби, Алеппо

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: Filologiya elmləri doktoru Şəfəq Əlibəyli tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL ƏLİYEVA
AMEA Folklor İnstitutu
Mifologiya şöbəsinin böyük elmi işçisi
Konulqabilqizi@mail.ru

AZƏRBAYCAN FOLKLORUNDA İSGƏNDƏR OBRAZININ EPİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

G i r i ş

Azərbaycan folklorunda, əsasən də, əfsanə, rəvayət və nağıllarda geniş yayılmış İsgəndər Zülqərneyn obrazı özünün əlamətdar epik-semantik xüsusiyyətləri ilə diqqəti çəkir. Obrazın folklor-mifoloji semantikası ilə bağlı ardıcıl şəkildə apardığımız tədqiqatlardan məlum olduğu kimi, milli folklorumuzdakı İsgəndər obrazı epik-semantik strukturu baxımından mürəkkəb quruluşa malikdir və təqribən, aşağıdakı məna qatlarından təşkil olunmuşdur:

1. Obrazın tarixi semantikası;
2. Obrazın epik-mifoloji semantikası.

Təkcə Azərbaycan folklorunda deyil, ümumən Şərq folklorunda geniş şəkildə yayılmış İsgəndər Zülqərneyn (İkibuynuzlu İsgəndər) obrazının tarixi prototipinin Makedoniyalı İsgəndər olması barəsində heç bir mübahisə yoxdur. Lakin obrazın epik-mifoloji semantikasına gəlincə, burada da müxtəlif epik qaynaqların qovuşmasının şahidi oluruq. Bu cəhətdən, Azərbaycan folklorundakı İsgəndər obrazının epik-mifoloji layının üç əsas qaynağı vardır:

1. Ümumşərq epik-mifoloji qaynağı;
2. Azərbaycan-türk epik-mifoloji qaynağı;
3. Əbülqasim Firdovsi və Nizami Gəncəvi yaradıcılığı.

Bütün bu qaynaqlar bir-biri ilə qovuşaraq mürəkkəb məna elementlərindən təşkil olunmuş möhtəşəm sərkərdə, şah, müdrik, filosof, xilaskar obrazının yaranmasına gətirmişdir. Bu cəhətdən, "İsgəndər və loğman" nağılı epik-semantik xüsusiyyətləri baxımından diqqəti cəlb edir.

T ə d q i q a t

Şərq və Azərbaycan folklorundakı İsgərdər obrazlarının hamısının prototipi bizim eradan əvvəl 356-cı ildə Makedoniyanın Pella şəhərində doğulmuş, atası II Filippinin ölümündən iyirmi il sonra taxta oturmuş, 323-cü ildə isə vəfat etmiş, bütün tarix ərzində Makedoniyalı İsgəndər, III İskəndər, İskəndər Zülqərneyn, yaxud Böyük İskəndər adları ilə tanınmış Aleksandrdır. Bu adın mənası yunanca "qoruyan, müdafiə edən deməkdir ("alexo" – müdafiə etmək, kömək etmək, "ander" – adam).

Qədim dünyanın məğlubedilməz hökmdar və sərkərdələrindən olan İskəndər Asiya qitəsi və Şimal-Şərqi Afrikanın böyük bir hissəsini fəth etmişdir. Onu dünya xalqlarının gözündə qeyri-adi sərkərdəyə və varlığa çevirən amillərdən biri də İskəndərin böyük fəthlərini otuz yaşına qədər həyata keçirməsi idi. İnsanlar arasında onun qeyri-adi adam olduğuna, bu cür möhtəşəm qələbələri qeyri-adi güc hesabına həyata keçirməsi haqqında əfsanələr gəzib-dolaşaraq, İskəndərin adını və hərbi gücü haqqındakı əfsanələri hətta işğal etmədiyi ölkələrdə də məşhurlaşdırmışdı [bax: 18]. Bu cəhətdən, İsgəndər haqqında folklor qaynaqlarında mövcud olan bütün mətnlərdəki İsgəndər obrazlarının başlanğıc nöqtəsində mətnlərin janrından asılı olmayaraq Makedoniyalı Aleksandr durur.

Folklor mətnlərinə diqqət etdiyimizdə görürük ki, İsgəndər obrazını tarixi İsgəndərlə əksər hallarda, əsas etibarilə, obrazın adı və çox ümumi cizgilər əlaqələndirir. Yəni əfsanə, rəvayət, nağıl və s. epik mətnlərdəki İsgəndər obrazı ilə tarixi İsgəndər obrazı arasında birbaşa əlaqə yoxdur. Bunun səbəbi folklorun İsgəndər də daxil olmaqla tarixi şəxsiyyətləri özünəməxsus şəkildə obrazlaşdırması ilə əlaqədardır. Afət Haşiminin yazdığı kimi, folklor mətnlərində yaşayan tarixi hadisə və şəxsiyyətlər folklor obrazları kimi yox, birbaşa tarixin özü kimi qəbul olunarsa, onda tədqiqatçıları dolaşıqlıqlara salar [9, s. 11]. Bunun, əlbəttə, əsas səbəbi odur ki, folklor mətnlərindəki tarixi hadisə və şəxsiyyətlər bilavasitə tarixin özü yox, onun bədiiləşmiş, epikləşmiş, bədii təxəyyül süzgəcindən keçərək dəyişmiş obrazıdır.

Təbii ki, tarixi hadisə və şəxsiyyətlərlə bağlı folklor mətnlərinin tarixlə əlaqəsini tamamilə inkar etmək də olmaz. Məs., Füzuli Bayat təsdiq edir ki, tarix boyunca hər cür sosial, siyasi, iqtisadi və insani hadisələr sözlü şəkildə folklor məhsulu kimi yaşadılmış, bunlardan bəziləri rəsmi tarixin yazılmasına kömək etmişdir [2, s. 80].

Məsələyə bu cəhətdən yanaşdıqda bir çox alimlərin "Kitabi-Dədə Qorqud"un tarixi qaynaq kimi roluna böyük əhəmiyyət verdiyini görürük. Məs., dos. Əziz Ələkbərli "Dədə Qorqud kitabı"nı təkcə Azərbaycan folklorunun deyil, həm də Azərbaycan tarixnin nəhəng abidəsi hesab edir [4, s. 65].

"Kitabi-Dədə Qorqud" eposunun tarixlə bağlılığı inkarolunmazdır. Bu epos qədim oğuzların "Oğuznamə" dastanının ədəbi variantıdır. "Oğuznamə" dastanı isə bütün bədii məzmunundan asılı olmayaraq oğuzlar üçün müqəddəs tarix sayılırdı. K.V.Nərimanoğlu və F.Uğurlunun yazdıqları kimi:

"Oğuznamə – türk xalqının həyatını, mübarizəsini, mənəviyyatını əks etdirən ədəbi-tarixi qaynaqdır.

Oğuznamə – oğuz eposudur.

Oğuznamə – oğuz tarixidir.

Oğuznamə – oğuz mədəniyyətinin nəsildən-nəslə keçə-keçə yaşayan həyat kitabıdır" [14, s. 3].

Qeyd edək ki, "Oğunamə"nin və o cümlədən "Dədə Qorqud" oğuznamələrinin tarixlə bağlılığını prof. B.Ögel, F.Sümər, prof. V.M.Jirmunski, prof. X.Koroğlu, prof. T.Hacıyev, ak. N.Cəfərov, prof. R.Qafarlı, prof. F.Bayat, prof. Ə.Əsgər, kimi mütəxəssis alimlər təsdiq etmişlər [15, s. 1; 16, s. 345; 17, s. 522; 11, s. 27-37; 8, s. 10; 3, s. 147; 12, s. 567-568; 1, s. 255; 6, s. 24]. Ancaq bununla bərabər, "Kitabi-Dədə Qorqud" oğuzların onu öz şanlı tarixləri hesab etmələrinə baxmayaraq, bilavasitə real tarixin özü yox, onun bədii inikasıdır. Abidəni tarixi baxımdan sərf-nəzər etmiş dos. Dilavər Əzimlinin yazdığı kimi, dastanda olan hadisələrin çoxu tarixidir, amma burada ziddiyyətlər də vardır [7, s. 47]. Bunun belə olması isə tamamilə təbiidir. Çünki dastanı real tarix kimi qəbul etmək olmaz. Bu halda bir-birini inkar edən fikirlər ortaya çıxacaqdır. Ak. Muxtar Kazımoğlu bu baxımdan haqlı olaraq yazır ki, xalq ədəbiyyatı tarixi hadisələri necə, hansı formada əks etdirir və tarixi hadisələri əks etdirməkdə folklor janrları arasında fərqlər varmı" sualına heç də hamı eyni cavab vermir [10, s. 145].

Bütün bu deyilən fikirlər Azərbaycan folklorunda İsgəndər obrazının epik-semantik xüsusiyyətlərinin tədqiqi üçün əsaslı elmi-nəzəri baza verir. Bu cəhətdən, "İsgəndər və loğman" nağılı özünün səciyyəvi epik-semantik cəhətləri ilə diqqəti cəlb edir.

Nağılda deyilir ki, Loğman adında bir həkim varmış. Günlərin bir günü Loğman oğluna deyir:

– Oğul, gəl çıxaq səyahətə.

Ata, oğul üz qoyurlar yola. Gəzə-gəzə gəlib başqa bir padişahın məmləkətinə çatırlar. Loğman burada ev tutub başlayır həkimlik eləməyə [13, s. 25].

Əvvəlcə bu Loğman obrazının epik kimliyinə diqqət edək. Ensiklopedik qaynaqda göstərilir ki, Loğman – "Quran"da adı anılan iman və ehsan sahibi, müdrik və ya peyğəmbərdir. Ancaq ilahiyyatçıların əksəriyyətinə görə, Loğman peyğəmbər olmamışdır. "Quran"ın otuz birinci surəsi "Loğman" adlanır. Loğman Davud peyğəmbərin dövründə yaşamışdır. O, Davudla görüşərək onun tələbəsi olmuş və yolunu izləmişdir. Allah Loğmana digər insanlar üçün gizli olan elmindən ehsan etmişdir [5, s. 171].

Göründüyü kimi, Azərbaycan və Şərq folklorunun bu məşhur obrazı dini ənənə ilə sıx bağlıdır və bu obraza Azərbaycan epik folklor mətnlərində geniş şəkildə rast gəlinir .

Nağılda daha sonra deyilir ki, bir gün bu məmləkətin padşahı bərk naxoşlayır. Həkimlər gəlib dava-dərman eləyirlər, amma dərmanların heç birisinin faydası olmur. Gündən-günə padşahın azarı artır. Şəhərdə, kənddə olan həkimlərin hamısı gəlib padşahın naxoşluğunu yoxlayırlarsa da ancaq nə olduğunu tapa bilmirlər. Kim isə padşaha deyir ki, bəs Loğman adında deyirlər yaxşı bir həkim bu şəhərə gəlibdir. Onu da gətirin, görək o nə deyər. Padşah bu sözü eşidəndə əmr eləyir ki, adam gedib Loğman həkimi tapıb onun yanına gətirsin. Padşah Loğmandan soruşur:

– Həkim, mənim azarım nə azardır?

Loğman deyir:

– Padşah sizin boğazınızda xərçəng (rak) var. Bunun əlacını məndən başqa heç kəs bilməz. Əgər icazə versən səni yaxşı eləyərəm.

Padşah Loğmanın bu sözünə şad olub deyir:

– Həkim, əgər məni bu azardan qurtarsan sənə hər nə desən bağışlaram.

Loğman deyir:

– Padşah, səni yaxşı eləməyə eləyərəm. Amma bu dərdi yaxşı eləmək üçün bircə şey lazımdır. O da budur ki, bu dərdi səndən kənar etmək üçün oğlunu sənin gözünün qabağında öldürüb onun qanı ilə səni sağaldam.

Padişah Loğmandan bu sözü eşidəndə qaldı məəttəl və dedi:

– Ey həkim, gələsən bir gün mənə möhlət verəsən, ta ki, bir fikirləşim.

Vəzir-vüzəra hamısı Loğmanın dediklərini bəyənib padşaha məsləhət gördülər ki, Loğman necə istəyirsə qoy elə də eləsin. Padşah gördü ki, saray adamları Loğmanın dediklərini bəyənirlər. Öz-özünə dedi:

– İndi ki hamı məsləhət görür, qoy görək Loğman nə eləyəcəkdir.

O dəqiqə xəbər göndərib Loğmanı çağırtdırır. Loğman padşahın yanına gələn kimi padşah Loğmana dedi:

– Həkim, necə istəyirsən elə də elə. Ta ki məni bu azardan qurtar [13, s. 25-26].

Göründüyü kimi, padşah özünün sağalması naminə oğlunun ölümünə razı olur. Bu da onun xeyiri deyil, şəri təmsil etdiyini göstərir. Bu cəhətdən, Loğmanla padşahın münasibətləri Xeyir-Şər məna qarşıdurmasını özündə əks etdirir. Nağıla diqqət yetirdiyimizdə Xeyir-Şər məna qarşıdurmasının bilavasitə İsgəndər obrazının epik-semantik strukturu ilə bağlı olduğunu görürük. Kiçik həcmli bu nağılda İsgəndər süjetə axırda daxil olsa da, epik ideya bütövlükdə onun tərənnüm olunmasına xidmət edir. Yəni İsgəndər süjetin əvvəlində görünməsə də, bütün məna bağları, süjetin inkişaf dinamikası ona doğru aparır.

Nağılda daha sonra deyilir ki, Loğman padşahdan razılıq alandan sonra dedi:

– Padşah naxoş yatdığı otağın ortasından bir pərdə çəkin.

Saray adamlarından gəlib Loğmanın dediyi kimi, otağın ortasından bir pərdə çəkdilər. Sonra Loğman tapşırdı ki, bir teşt ilə iti bir bıçaq gətirsinlər. Qulluqçular bunları da gətirdilər. Ondan sonra Loğman orada olanlara dedi ki, padşahdan xəlvət pərdənin dalısına bir qoyun da gətirsinlər. Elə olsun ki, padşah qoyunun gətirilməsini bilməsin. Bəli, qoyunu da gətirdilər. Lap axırda Loğman dedi:

– İndi padşahın oğlunu atasının gözünün qabağından keçirdib onun yanına gətirsinlər.

Loğman padşahın oğlunu görən kimi yavaşca deyir:

– Şahzadə, sən qorxma, mən səni öldürməyəcəyəm. Amma sənin üstünə yalandan qışqıracağam ki, əlini yanına sal, başını aşağı tut.

Loğman bu sözləri deyəndən sonra başladı ucadan uşağın üstünə qışqırmağa:

– Əlini aşağı sal! Başını yana tut!

Loğman bu sözləri deyə-deyə əlindəki bıçaqları da şaqqa şaqq ilə bir-birinə çəkib bir dəqiqənin içində qoyunu xırıldada-xırıldada başını kəsib qanını tutdu teştin içinə.

Xırıltı səsini padşah eşidəndə yəqin elədi ki, Loğman oğlunun başını kəsdi. Ürəyi başladı daha bərk döyünməyə. Bu vaxt Loğman qoyunun qanından bir qab doldurub, qəflətən pərdənin yanını qaldırıb qanı padşahın üstünə atdı. Padşah oğlunun qanından diksinib, ürəyi getdi. Vəzir, vəkil yığılıb padşahı ayıltdılar. Padşah ayılan kimi Loğman ikinci dəfə camı qan ilə doldurub bir də padşahın üstünə atdı. Padşah yenə diksinib ürəyi getdi. Vəzir, vəkil bu dəfə yenə də yığışıb padşahı ayıltdılar. Amma padişah elə qorxmuşdu ki, ürəyi quş ürəyi kimi döyünürdü. Loğman fürsəti fövtə verməyib üçüncü dəfə qabı qan ilə doldurub qəflətən padşahın üstünə atanda, padşahın ürəyi bulanıb qusdu. Qusan kimi boğazının yolunda olan xərçənglər gəlib yerə töküldü. Loğman dava-dərman qayırıb padşaha verdi.

Bir neçə gündən sonra padşah bu azardan tamam yaxşı olub ayağa durdu.

Padşah tamam yaxşı olub ayağa durandan sonra Loğman onun oğlunu götürüb gəldi padşahın yanına. Padşah oğlunu sağ-salamat görüb çox sevindi. Üzünü Loğmana tutub dedi:

– Həkim, bəlkə ayrı bir adam da mənim kimi azarladı. Onu da yaxşı eləyərsənmi?

Loğman dedi:

– Can-baş ilə sağaldaram.

Loğmanın bu sözündən padşahın acığı tutub dedi:

– İndi ki mənim ilə başqalarında təfavüt qoymayacaqsan, mən də sənə tənbeh olmaq üçün cəza verdirəcəyəm.

O dəqiqə əmr etdi, yerin altında bir zindan qazıb Loğmanın oğlunu özü ilə aparıb o zindana salsınlar [13, s. 26-27].

Göründüyü kimi, nağılda padşahın şəri təmsil etməsi tamamilə təsdiq olunur. O, əvvəlcə özünün salamat qalmasından ötrü oğlunun ölümünə razı olur. Daha sonra məlum olur ki, o, ümumiyyətlə insanlığın düşməndir: Loğmanın ondan başqa heç kəsi sağalda bilməməsi üçün onu zindana saldırır. Bütün bu Xeyir-Şər qarşıdurmasının İsgəndər obrazı ilə bilavasitə bağlılığı vardır.

Mətndə daha sonra deyilir ki, Loğman oğlu ilə tamam qırx il bu zindanda qaldılar. Günlərin bir günü İsgəndər Zülqərni bu padşahın məmləkətinə hücum eləyir. Böyük bir davadan sonra bu şəhəri alır. Bir neçə nəfər götürüb Loğmanın saxlanıldığı zindanın yanına gəlir. Adam saldırıb, zindanın qapısını axtardıb açdırır. Yanındakı adamlardan zindanın içinə girəndə görürlər ki, zindanın ortasında bir qalaq insan sümüyü vardır. Sümükləri götürüb İsgəndərin yanına gətirirlər. İsgəndər sümüklərə baxıb deyir ki, zindanın içini bir az da gəzin.

İsgəndərin adamları ikinci dəfə girib zindanın içini gəzəndə görürlər ki, Loğman zindanın küncündə bir keçi dərisinin üstündə oturubdur. Amma tük bunu elə basıbdır ki, üzü görsənmir. Onun yanına yeriyib deyirlər.

– Həkim, İsgəndər Zülqərneyn padşah bu şəhərə gəlib. Səni görmək istəyir.

Loğman İsgəndərin adını eşidən kimi yerindən durub, onlar ilə eşiyə çıxıb, İsgəndərin yanına gəlir. İsgəndər Loğmanın sağ olduğuna şad olub sevinir. Onunla görüşür. Dərhal Loğmanı hamama göndərib dırnaqlarını, başını, saqqalını qırxdırıb, təmiz paltar geyindirtdirib yanına gətirdir. Keçmiş padşahın Loğmana elədiyi pisliyin əvəzində İsgəndər Loğmanı yanında saxlayıb ona hörmət eləyir [13, s. 27-28].

N ə t i c ə

Apardığımız təhlil bizə aşağıdakı qənaətlərə gəlməyə imkan verir:

1. "İsgəndər və Loğman" nağılında İsgəndər süjet fəallığı baxımından dinamik deyildir. O, nağılın sonunda süjetə daxil olur. Süjet, əsasən, Loğmanla bədxah, xain, zalım padşah arasındakı hadisələr üzərində qurulmuşdur. Ancaq təhlil göstərir ki, İsgəndər zahirən hadisələrin mərkəzində durmasa da, nağılın epik ideyası və poetik konsepsiyası bilavasitə onunla bağlıdır.

2. Nağılın epik məna strukturunun əsasında Xeyir-Şər qarşıdurma qoşalığı durur. Burada Xeyir tərəfini – Loğman və İsgəndər, Şər tərəfini – padşah təmsil edir. Loğman adı dini mətnlərdə keçən müqəddəs şəxs hesab olunur. İsgəndərin zalım padşahın şəhərini alandan sonra adamlar göndərərək Loğmanı zindandan çıxartdırması göstərir ki, o, bu şəhərə bilavasitə Loğmanı xilas etmək üçün gəlmişdir.

3. Nağılda İsgəndər obrazının epik-semantik strukturunun iki əsas layı görünür: tarixi-epik lay; epik-mifoloji lay.

Folklordakı İsgəndər obrazları bütün hallarda bu və ya digər şəkildə tarixi İsgəndərlə əlaqəlidir. Obrazın epik-mifoloji semantikasına gəlincə, burada biz mifik xilaskar arxetipinin izlərini görürük.

Ə D Ə B İ Y Y A T

1. Bayat F. Oğuznamə(lər) / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 255-274

2. Bayat, F. Sözlü ənənədə yaşayan yaxın tarix // "Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 79-85

3. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: AzAtaM, 2002, 600 s.

4. Ələkbərli Ə. "Dədə Qorqud kitabı": dastanda gizlənən tarix // "Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 64-70

5. Əlizadə A., Səmədov E. İslam: Tarix, Fəlsəfə və Hüquq. Ensikliopedik lüğət. Bakı: Bakı Mətbəəsi ASC, 308 s.

6. Əsgər Ə. Oğuznamələrdə müsəlman-oğuz və oğuznamələrin yaranması problemi / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXVI kitab. Bakı: Səda, 2007, s. 24-37

7. Əzimli D. “Kitabi-Dədə Qorqud” dastanı və tariximiz // “Folklor və tariximiz” mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 46-55

8. Hacıyev T. Dədə Qorqud: dilimiz və düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.

9. Haşimi A. Oğuznamə epik ənənəsi və tarixi // “Folklor və tariximiz” mövsunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 9-14

10. Kazımoğlu M. Eposda tarixilik // “Folklor və tariximiz” mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 145-153

11. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 244 s.

12. Qafarlı R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 2002, 758 s.

13. Nizami Gəncəvinin əsərlərinin el variantları. Tərtibçi, redaktor və izahların müəllifi Fərid Hüseyn. Bakı: “Zərdabi-Nəşr” MMC, 2021, 258 s.

14. Oğuznamələr. İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, 94 s.

15. Ögel B. Türk mitolojisi, II cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1995, 610 s.

16. Sümər F. Oğuzlar. Bakı: Yazıçı, 1992, 429 s.

17. Жирмунский В.М. Тюркский героический эпос. Ленинград: Наука, 1974, 727 с.

18. https://az.wikipedia.org/wiki/Makedoniyal

Könül ƏLİYEVA

AZƏRBAYCAN FOLKLORUNDA İSGƏNDƏR OBRAZININ EPİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ
(X ü l a s ə)

Təkcə Azərbaycan folklorunda deyil, ümumən Şərq folklorunda geniş şəkildə yayılmış İsgəndər Zülqərneyn (İkibuynuzlu İasgəndər) obrazının tarixi prototipinin Makedoniyalı İsgəndər olması barəsində heç bir mübahisə yoxdur. Lakin obrazın epik-mifoloji semantikasında müxtəlif epik qaynaqlar bir-birinə qovuşmuşdur. Bu cəhətdən, Azərbaycan folklorundakı İsgəndər obrazının epik-mifoloji layının üç əsas qaynağı vardır:

1. Ümumşərq epik-mifoloji qaynağı;
2. Azərbaycan-türk epik-mifoloji qaynağı;
3. Əbülqasim Firdovsi və Nizami Gəncəvi yaradıcılığı.

Bütün bu qaynaqlar bir-biri ilə qovuşaraq mürəkkəb məna elementlərindən təşkil olunmuş möhtəşəm sərkərdə, şah, müdrik, filosof, xilaskar obrazının yaranmasına gətirmişdir. Bu cəhətdən, “İsgəndər və loğman” nağılı epik-semantik xüsusiyyətləri baxımından diqqəti cəlb edir. Apardığımız təhlilə görə, nağılda

İsgəndər süjet fəallığı baxımından dinamik deyildir. O, nağılın sonunda süjetə daxil olur. Süjet, əsasən, Loğmanla bədxah, xain, zalım padşah arasındakı hadisələr üzərində qurulmuşdur. Ancaq təhlil göstərir ki, İsgəndər zahirən hadisələrin mərkəzində durmasa da, nağılın epik ideyası və poetik konsepsiyası bilavasitə onunla bağlıdır. Nağılın epik məna strukturunun əsasında Xeyir-Şər qarşıdurma qoşalığı durur. Burada Xeyir tərəfində – Loğman və İsgəndər, Şər tərəfində – padşah durur. Loğman adı dini mətnlərdə keçən müqəddəs şəxs hesab olunur. İsgəndərin zalım padşahın şəhərini alandan sonra dərhal adamlar göndərərək Loğmanı zindandan çıxartdırması göstərir ki, o, bu şəhərə bilavasitə Loğmanı xilas etmək üçün gəlmişdir. Nağılda İsgəndər obrazının epik-semantik strukturunu iki əsas layı görünür: tarixi-epik lay və epik-mifoloji lay. Folklordakı İsgəndər obrazları bütün hallarda bu və ya digər şəkildə tarixi İsgəndərlə əlaqəlidir. Obrazın epik-mifoloji semantikasına gəlincə, burada biz mifik xilaskar arxetipinin izlərini görürük.

Açar sözlər: İsgəndər Zülqərneyn, Makedoniyalı İsgəndər, Loğman, Xeyir, Şər, folklor, nağıl, Nizami, Firdovsi, “Kitabi-Dədə Qorqud”

Konul Aliyeva

THE EPIC-SEMANTIC FEATURES OF THE IMAGE OF ISKANDER IN AZERBAIJAN FOLKLORE-STUDY

Summary

There is no dispute that the historical prototype of the image of Iskandar Dhu al-Qarnayn (Two-Horned Iasgander), widely distributed not only in Azerbaijani folklore, but also in Eastern folklore in general, is Alexander the Great. However, in the epic-mythological semantics of the image the various epic sources are intertwined. From this point of view, there are three main sources of the epic-mythological layer of the image of Iskander in Azerbaijani folklore:

1. All-Eastern epic-mythological source;
2. Azerbaijani-Turkic epic-mythological source;
3. The activity of Abulgasim Firdovsi and Nizami Ganjavi.

All these sources connected with one another and formed the images such as the magnificent commander, king, wise man, philosopher, savior made up of complex elements of meaning. In this regard, the tale “Alexander and Loghman” attracts attention from the point of view of its epic-semantic features. According to our analysis, the image Alexander in the fairy tale is not dynamic in terms of plot activity. He enters the plot at the end of the tale. The plot is mainly based on the events between Loghman and the evil-doer, traitor and tyrant king. However, the analysis shows that the epic idea and poetic concept of the fairy tale are directly connected with it, although Alexander is apparently in the center of events. On the basis of the epic meaning structure of the fairy tale is the double of confrontation between good and evil. Here on the side of Good – Loghman and Alexander, on the

side of Evil – The King. The name of Loghman is considered a holy person whose name is mentioned in religious texts. The fact that Alexander, after taking the city of the tyrant king, immediately sent people to get Loghman out of prison shows that he came to this city directly to save Loghman. Two main layers of the epic-semantic structure of the image of Alexander appear in the fairy tale: the historical-epic layer and the epic-mythological layer. The images of Alexander in folklore in all cases are in one way or another connected with historical Alexander. According to the epic-mythological semantics of the image, here one can see traces of the mythical savior archetype.

Keywords: Iskandar Dhu al-Qarnayn, Alexander the Great, Logman, Good, Evil, folklore, fairy tale, Nizami, Firdowsi, "The Book of Dede Gorgud"

Конул Алиева

ЭПИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ОБРАЗА АЛЕКСАНДРА В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ
(Резюме)

Бесспорно, что историческим прототипом образа Искандера Зулкарнейна (Двурогого Ясгандра), широко распространенного не только в азербайджанском фольклоре, но и в восточном фольклоре в целом, является Александр Македонский. Однако в эпико-мифологической семантике образа сочетаются различные эпические источники. В связи с этим выделяют три основных источника эпико-мифологического пласта образа Александра в азербайджанском фольклоре:

1. Ближневосточный эпико-мифологический источник;
2. Азербайджано-тюркский эпико-мифологический источник;
3. Работы Абулгасима Фирдовси и Низами Гянджеви.

Все эти источники в сочетании друг с другом создавали образ великолепного полководца, царя, мудреца, философа, спасителя, составленный из сложных смысловых элементов. В этом отношении сказка «Искандер и Логман» привлекает внимание своими эпическо-семантическими особенностями. По нашему анализу, Александр в сказке не динамичен в плане сюжетной активности. Он входит в сюжет в конце сказки. Сюжет в основном основан на событиях между Логманом и злым, коварным, жестоким королем. Однако анализ показывает, что хотя Александр и не находится в центре событий, эпическая идея и поэтический замысел сказки имеют к нему непосредственное отношение. В основе эпической смысловой структуры Нагли лежит конфликт между Добром и Злом. Здесь на стороне Добра стоят Логман и Александр, а на стороне Зла - король. Имя Логмана считается святой личностью, упоминаемой в религиозных текстах. Тот факт, что Александр

сразу после взятия города у царя-тирана послал людей вызволить Логму из темницы, показывает, что он пришел в этот город непосредственно, чтобы спасти Логму. В сказке просматриваются два основных пласта эпическо-смысловой структуры образа Александра: историко-эпический и эпико-мифологический. Образы Александра в фольклоре почти всегда так или иначе связаны с историческим Александром. Что касается эпико-мифологической семантики образа, то здесь мы видим следы мифического архетипа спасителя.

Ключевые слова: Александр Македонский, Александр Македонский, Логман, Добро, Зло, фольклор, сказка, Низами, Фирдоуси, «Китаби-Даде Горгуд».

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur

HASILOVA GÜLSÜMXANIM
Filologiya üzrə fəlsəfə doktoru
Folklor İnstitutu
Qəsr3,
Gulsumxanim@rambler.ru

KAMRAN DADAŞOĞLUNUN (MƏMMƏDOV) NƏSRİNDƏ XALQ ƏDƏBİYYATINDAN BƏHRƏLƏNMƏ

ÖZƏT

Məqalədə Azərbaycan ədəbiyyatşünaslığında professor K.Məmmədovun bədii irsi folklorizm problemi əsasında təhlil olunmuşdur. O, alim, tədqiqatçı, ədəbiyyatşünas, filoloq, pedaqoq olmaqla yanaşı, həm də müasir Azərbaycan ədəbiyyatı tarixinə bir sıra bədii əsərlərin müəllifi kimi də daxil olmuşdur. K.Məmmədov bir çox əsərlərində müasir ədəbiyyata yazılı şəkildə folklor nümunələri gətirib. Şifahi xalq ədəbiyyatının janrları və nümunələrinə müraciət edən yazıçı bununla əsərlərinin bədii kamilliyini daha da zənginləşdirib. Beləliklə, onun əsərləri oxucular tərəfindən maraqla qarşılanmış, diqqətlə oxunmuşdur. Bu əsərlər barəsində mətbuatda təqdirəlayiq məqalələr çap olunmuşdur. Onun əsərlərində böyük ustalıqla qələmə aldığı qədim məsəllər, məişətimiz və adət-ənənələrimizlə bağlı nümunələr yazıçı təxəyülünün bənzətməsi deyil, yaşadığı mühitdə rastlaşdığı folklor incileridir. Bilirik ki, Kamran Məmmədov yorulmadan Azərbaycan ədəbiyyatını araşdırmış, bu istiqamətdə fəaliyyəti və zəhməti əvəzsizdir. Çünki Müasir Azərbaycan ədəbiyyatının inkişafına güclü təsir göstərən alim xeyirxahlığı ilə də yaddaşlara həkk olunmuşdur. O, həm elmi, həm də bədii yaradıcılığının bütün tərəfləri ilə xalq ədəbiyyatına bağlı idi. Bunların nəticəsidir ki, Kamran Məmmədovun yaradıclığında folklordan gələn söz və ifadələr yetərincədir. Bu isə alimin yaradıcılığına məzmun və fikir aydınlığı gətirmişdir. Nəticə olaraq, alim xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın vəhdətini yaratmağa nail olmuşdur.

Açar sözlər: K.Məmmədov, alim, yazıçı, pedaqoq, folklor, yazılı ədəbiyyat, folklorizm, xalq deyimləri, adət-ənənələr.

Gulsumxanim Hasilova

BENEFITING FROM FOLK LITERATURE IN THE PROSE OF KAMRAN DADASHOGLU (MAMMADOV)

SUMMARY

The literary heritage of professor K. Mammadov in Azerbaijani literary criticism was analyzed based on the problem of folklorism in the article. In addition to being a scientist, researcher, literary critic, philologist, pedagogue, he entered the history of modern Azerbaijani literature as the author of a number of artistic works. K. Mammadov has given written examples of folklore to modern literature In many of

his works. Turning to the genres and examples of oral folk literature, the writer thereby enriched the literary perfection of his works. Thus, his works were received with interest by readers and read carefully. Admirable articles have been published in the press about these works. The ancient idioms, examples of our everyday life and traditions, which he wrote with great mastery in his works, are not the similes of the writer's imagination, but the pearls of folklore that he encountered in his environment. We know that Kamran Mammadov studied Azerbaijani literature tirelessly and his activity and hardwork in this direction in this direction are invaluable. Because the scientist who had a strong influence on the development of modern Azerbaijani literature was also remembered for his kindness. He was connected to folk literature with all aspects of both his scientific and literary creativity. As a result of these, Kamran Mammadov's literary creativity contains words and phrases from folklore. This brought content and clarity of thought to the scientist's literary creativity. As a result, the scientist managed to create the unity of folk literature and written literature.

Keywords: K. Mammadov, a scientist, a writer, a pedagogue, folklore, written literature, folklorism, folk sayings, traditions.

Гульсумханим Гасилова

ОБОГАЩЕНИЕ НАРОДНОЙ ЛИТЕРАТУРОЙ В ПРОЗЕ КЯМРАНА ДАДАШ ОГЛЫ (МАМЕДОВА)

РЕЗЮМЕ

В статье рассказывается о том, как в Азербайджанском литературоведении, на основе проблем фольклоризма анализируется художественное наследие профессора К Мамедова. Он не только знаменит как ученый, исследователь, литературовед, филолог, педагог, он также известен своими трудами в истории современной Азербайджанской литературе как автор ряда художественных произведений. Многие произведения К. Мамедова насыщены фольклорными образцами этим самым обогатил и усовершенствовал художественное слово своих произведений. Таким образом, со стороны читателей его произведения получили высокую оценку, они читаемы и любимы народом. Об этих произведения печатают в газетах. К.Мамедов мастерски использовал образцы устного народного творчества в своих произведениях, и это не творческая фантазия писателя, а события прожитые самим мастером слова. Нам известен тот факт, что К.Мамедов неустанно исследовал Азербайджанскую литературу и на этом поприще нет ему равных. Ученый запомнился не только своими трудами по поводу развития Современной Азербайджанской литературы, но он остался в памяти как ученый, который всегда готов помочь молодому поколению ученых. Он был крепко связан с народной литературой и наукой, и всем своим художественным творчеством. Тому свидетельство то, что народная мудрость проходит красной

нитью по всему творчеству и тем самым обогащает его художественное слово. Таким образом, ученые достиг единства народной литературы с письменной литературой.

Ключевые слова: К.Мамедов, ученый, писатель, педагог, фольклор, письменная литература, фольклоризм, народные сказание, обычаи и традиции.

Filologiya elmləri doktoru, əməkdar elm xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, ədəbiyyatşünas, professor Kamran Məmmədov Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. Alim Azərbaycan ədəbiyyatı tarixi problemlərinin tədqiqində, xüsusilə XIX-XX əsrlər ədəbiyyatının öyrənilməsində yorulmadan çalışmışdır. Bu mövzularda "Əbdürrəhimbəy Haqverdiyev", "Qasımbəy Zakir", "Nəcəfbəy Vəzirov", "Yusif Vəzir Çəmənzəminli", "XIX əsr Azərbaycan şeirində satira", "XX əsrdə Azərbaycan gülüşü" monoqrafiyalarının, 200-dən artıq elmi məqalələr yazmışdır. Kamran Məmmədov həm də üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" fundamental tədqiqatın müəlliflərindən biridir. Görkəmli alim Azərbaycan və Türkiyə ensiklopediyalarının üzvüdür.

Elə insanlar var ki, onun keçdiyi ömür yolu milyonlar üçün bir örnəkdir. İnsan fərd kimi dünyaya gəlir, şəxsiyyət kimi formalaşır. Lakin hər insan dahi şəxsiyyətə çevrilmək, yaşadığı mənəvi ömür yolu ilə xalqın sevimlisi olmaq, öz fərdi bacarığı, savadı, xeyirxahlığı və nəcibliyi ilə çoxlarına nümunə olmaq şərəfinə nail olmur. Tanınmış alim, gözəl pedaqoq, istedadlı nasir, yüksək intellekt sahibi, səmimi və mehriban xüsusiyyətlərə sahib Kamran Məmmədov sadaladığımız yüksək keyfiyyətlərə malik bir insan idi. O, ziyalı, alim olmaqla bərabər, həm də bütöv şəxsiyyət, xeyir-xahlığı ilə fərqlənən bir insan, dogma elini-obasını, bölünməz Azərbaycanını sevən bir fədakar şəxs idi. Kamran Məmmədov böyük alim və tədqiqatçı olmasının digər əsas əlamətlərindən biri də onun maarifçilik, ziyalılıq istedadına malik olmasıdır, həmçinin yetişdirdiyi alim kadrları Azərbaycan elminə göstərdiyi misilsiz xidmətlərindəndir. Biz onu öz dəyərli məsləhətlərini, elmin çətin yollarında yeni addımlarını atan insanlar üçün öz mərhəmətini və köməyini əsirgəməyən bir şəxsiyyət kimi tanıdıq. Dəyərli alimimizin əziz xatirəsi onun əzizlərinin, onun yetirmələrinin, ədəbiyyat və folklor sahəsində calışan və tanıyanların qəlbində həmişə yaşayacaq. Kamran müəllim özündən sonra böyük irs qoyan alimlərdəndir.

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, ədəbiyyatşünas, professor Kamran Məmmədov Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. Qeyd edək ki, o, alim, tədqiqatçı, ədəbiyyatşünas, filoloq, pedaqoq olmaqla yanaşı, həm də müasir Azərbaycan ədəbiyyatı tarixinə bir sıra hekayələrin müəllifi kimi də daxil olmuşdur. O, "Kamran Dadaşoğlu" imzası ilə tanınmışdır. Kamran Məmmədov istər elmi araşdırmalarında, istərsə də müxtəlif mövzularda qələmə aldığı əsərlərdə həmişə xalq ənənələrinin, inam və düşüncələrinin, ən əsası şifahi yaradıcılığın qorunmasına xidmət etmişdir.

Professor Kamran Məmmədov 1949-cu ildə "Əbdürrəhimbəy Haqverdiyevin bədii irsi" mövzusunda namizədlik dissertasiyası, 1964-cı ildə isə "Nəcəfbəy Vəzirov" adlı dok-torluq dissertasiyasını müdafiə etmişdir. Belə ki, o, "Əbdürrəhimbəy Haqverdiyev","Qasımbəy Zakir", "Nəcəfbəy Vəzirov", "Yusif Vəzir Çəmənzəminli", "XIX əsr Azərbaycan şeirində satira", "XX əsr Azərbaycan gülüşü", həm də üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" fundamental tədqiqatın müəlliflərindən biridir.

Professor Kamran Məmmədov ədəbiyyatımızın fədakar araşdırıcısıdır. Kamran Məmmədov yaradıcılığında xalqımızın milli dəyərlərini qorumaqla bərabər, öz əsərlərində bu dəyərləri, folklor nümunələrini oxucularına çatdırmaqla müasir Azərbaycan ədəbiyyatında dərin izlər qoymuşdur. K.Məmmədovun "Əbdürrəhimbəy Haqverdiyev", "Qasımbəy Zakir", "Nəcəfbəy Vəzirov", "Yusif Vəzir Çəmənzəminli", "XIX əsr Azərbaycan şeirində satira", "XX əsr Azərbaycan gülüşü" və s. kitabları, monoqrafiyaları, elmi əsərləri alim kimi yüksəlişində, "Ömrün izi", "Dünyamız uşaq gözündə" adlı hekayələr kitabı, iki hissədən ibarət "Yuxusuz illər" xatirə povesti və s. bədii əsərləri yazıçılığında böyük rol oynamışdır. K.Məmmədov filoloq alim olmaqla yanaşı, həm də yazıçı idi.

Alim yorulmadan Azərbaycan ədəbiyyatını araşdırmış, bu mövzuda çoxsaylı yazılar yazmışdı. Kamran Məmmədov "Ömrün izi", "Dünyamız uşaq gözündə", "Yuxusuz illər" və s. əsərləri milli nəsrimizin zəngin nümunələrindən olmaqla, sosial və siyasi həyatın gerçəkliklərinə bağlıdır. Hekayələrində ədib folklor poetikasına isnad etmişdir. Xalq bədii təfəkkür və düşüncəsi K.Məmmədovun əsərlərinin əsasını təşkil edir. Onun əsərlərində xalq sənətinə istinadi isə müvafiq yazıçı-folklor münasibətlərinin mahiyyətinə bağlıdır.

Kamran Məmmədov əsərlərində folklor janrlarından istifadə, başlıca olaraq müəllif fikrinin xalq dili-sözü ilə qüvvətləndirilməsi, həm də konkret bədii-poetik obraz, düşüncəsindən qaynaqlanır. K.Məmmədov bir çox əsərlərində müasir ədəbiyyata yazılı şəkildə folklor nümunələri gətirib. Şifahi xalq ədəbiyyatının janrları və nümunələrinə müraciət edən yazıçı əsərlərinə canlı dil, romantik əhvalı-ruhiyyə, güclü xarakterlər gətirməklə onun bədii kamilliyini daha da zənginləşdirib.

Hekayələrində vətən sevgisi, ayrılıq, kədər, intizar, həsrət motivlərinə bağlı məqamlarında eyni mövzuda xalq ədəbiyyatı nümunələrinə də geniş yer verilmişdir. Kamran Məmmədovun əsərləri icərisində "Bağlı qapı", "Ömrün izi", "Kəndimizin alması", "Mən niyə xəstələndim", "Hekayə barədə hekayət", "Qarınotaran", "Cib saatı", "Ata", "Sarı köynək" və s. hekayələri folklorun ayrı-ayrı janrlarından geniş istifadə olması baxımından xüsusi yer tutur. Xalq mərasimləri içərisində öz funksionallığı, ritual və adət-ənənələri baxımından seçilən törənlərdən biri də toy mərasimləridir. Müxtəlif bölgələrə görə fərqlənən, xalq məişətində geniş yayılan toy adətlərinə də "Cib saatı" hekayəsində rast gəlinir. Hadisələrin geniş təfsilatı ilə verilməsi yazıçıya bu mərasimin ən incə, xırdalıqlarına qədər təsvirinə şərait

yaratmışdır. “Məclis kükrəyib, coşdu. Çırtıq çalıb oynayanların ahəngdar səs-küyü xanəndənin səsinə qarışmışdı:

Oğlan igid,qız qəşəng,
Hamı deyir ürəkdən,
Ay qız toyun mübarək,
Oğlan toyun mübarək!” (5, 61)

Müasir günümüzə qədər qorunub saxlanan toy adət-ənənələri bu hekayədə toy mərasimində öz əksini tapmışdır.

Kamran Məmmədovun hekayələrində bayatıların məzmun-simvolik təhki-yəyə qoşulması əsərlərə əlavə emosional poetik rəngarənglik gətirir. Məlumdur ki, xalq şeirinin ən zəngin janrları sırasına daxil olan bayatılar yaranması tarixi, eləcə də formalaşma xüsusiyyətləri baxımından daha çox səciyyəviliyə malikdir.

Kamran Məmmədovun “Bağlı qapı” hekayəsinin qəhrəmanı Qədirin yolunu gözləyən Qəmər ananın dilindən söylənilən bayatı, onun həsrət və kədərinin bədii ifadəsidir:

Mələ ceyranım, mələ,
Balanı vermə ələ.
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ (2, 7).

Qədirin son məktubda yazdığı sözlər:

Ömür bənzər yol keçənə
Ötən günlər qalar sənə.
Əziz dostun Qədirdən
Bu yadigar qalar sənə!(2, 72)

Burada Nərgiz nənə topçuyada bayatı qoşur:

Duman gəldi dağlara,
Yayıldı yaylaqlara,
Analar qurban olsun
Top atan barmaqlara(2, 140).
İyidin bir atıdır,
Bir də təmiz zatıdır.
Koroğluda qoçaqlıq
Onun ehtiyatıdır(2, 139).

Nərgiz nənənin darıxması, övladına ünvanladığı istəklərinin ardınca hər dəfə məktublara əlavə olunan bu bayatılar onun daxilindəki emosional çağırışın bədii ifadəsidir. K.Məmmədovun hekayələrində ayrılıq, kədər motivinə əsaslanan bayatılara rast gəlinir. Keçmişə, tarixə qayıdış və tarixiliyin bədiyyatda cəm-ləndirilərək nəqlinə hazırlığın bayatı əsasında aparılması daha inandırıcıdır.

Məlumdur ki, xalq şeirinin ən zəngin janrları sırasına daxil olan bayatılar yaranması tarixi, eləcə də formalaşma xüsusiyyətləri baxımından daha çox

səciyyəviliyə malikdir. Hekayələrdə bu bayatının yer alması, hər şeydən əvvəl bu yazılı nümunələrdə tarixiliyini acıqlanmasıdır.

Kamran Məmmədov Azərbaycanın xalq mahnılarından da öz əsərlərində məharətlə istifadə edir. Azərbaycan xalq ədəbiyyatının lirik növünə daxil olan xalq mahnıları geniş-mövzu dairəsinə malikdir. K.Məmmədovun "Sarı köynək" hekayəsi Azərbaycanın xalqmahnısı "Sarı köynək" mahnısına həsr edilmiş bir əsərdir: Xanəndə oxuduğu "Sarı köynək" mahnısı ilə sarı köynəkli gəlini təzə həyata, təzə məhəbbətə çağırırdı:

Ahular mələr gələr,
Dağları gələr gələr,
Bivəfa yar əlindən
Başıma nələr gələr?!

Mən aşiqəm sarı qız,
Sarı köynək, sarı qız,
Özüm ilə özünü
Zülfün ilə sarı qız (5, 106).

Azərbaycanın xalq mahnısı sırasından olan "Sarı köynək" xalq mahnısından kiçik bir epizoddur.

Kamran Məmmədov Azərbaycanın xalq mahnısı sırasından olan "Apardı sellər Saranı" xalq mahnısından "Narahat gecələr" xatirə povestində məharətlə istifadə edib. Burada Xan Şuşinski bu mahnını böyük ilhamla, qüdrətli səslə, xoş avazla oxuyur:

Sel Saraya oldu yağı,
Su bürüdü solu-sağı,
Yasa batdı toy otağı.

Gedin deyin Xançobana
Gəlməsin bu il Muğana,
Muğan batıb nahaq qana"(2, 156).

Xalq mahnıların ümumi təsnifatda tarixi mətnlərdə ayrılan bu nümunələr yazılı ədəbiyyatda yazıçının düşüncə və qayəsinin örtülü, simvolik ifadəsi kimi diqqəti cəlb edir. Xalq mahnılarının müəlliflərinin kim olduğu bəlli deyil. Yenə də bu halda xalq mahnılarının musiqisinin orijinal olması naməlum bəstəçinin varlığını reallığa çevirir. Azərbaycan xalq ədəbiyyatının ən çox yayılan janrı olan xalq mahnılarının bir başqa özəlliyi də məzmunca qürbət, həsrət, ayrılıq, vətən sevgisi, eşq və məhəbbət mövzularını əhatə edir.

Azərbaycan folklorunun janrları sırasında kiçik yaşlı uşaqların məşğuliyyəti, müəy-yən vərdişlərinin formalaşdırılması, əql, hafizələrinin inkişaf etdirilməsi istiqamətində xalq məişətində yaranan uşaqlarının oyunları K.Məmmədov bədii irsində etnoqrafik məlumatlara uyğun təsvirini tapır. K.Məmmədov "Dünyamız uşaq gözündə" hekayəsində uşaqlarının böyüməsi, onların körpəliliklərindən ayrılmasını müəllif kiçik bir ştrixlə övladlarının uşaqkən oynadığı oyunlardan ayrılması ilə nəzə-rə çarpdırır.

Kamran Məmmədov "Dünyamız uşaq gözündə" hekayəsində təbii ki, burada müəllif əlavə poetik axtarışlarına ehtiyac olmadan zaman dəyişmələrini folklor janrı, konkret şəkildə övladlarının Nicatın, Leylanın oyunları üzərində aparmışdır: "Leyla "İki uşaq və ayı" nağılını anasından, bibilərindən, qardaşından, atasından eşitmişdir. Kefi gələndə özüdə nağılı şirin dillə söyləyir, axırda da soruşurdu və nəticə çıxarırdı:

Uşaq niyə qaçıb ağaca çıxdı. Qorxaq idi? Bəs o biri uşaq niyə qaça bilmədi? Gonbul idi? Ayı uşağın qulağına nə dedi? Dedi ki, çox yeyib gonbul olma! Ayı uşağa dedi ki, sən Leyla kimi yaxşı uşaqsan. Ona görə sənin qulağını dişləmirəm. Mən də heç ayıdan qorxmuram. Ayı insanların dostudur" (3, 176). Ədibin müşahidələrinin nəticəsi idi.

Kamran Məmmədov yaradıcılığında uşaq folklorizmləri bir tərəfdən bədii mətndə etnoqrafizmin yaradılmasına, digər tərəfdən xarakterlərin canlı bədii təcəssümünə xidmət edi.

Məlumdur ki, tapmacalara şifahi ədəbiyyatın - uşaq folklorunun nümunəsi kimi təsnif olunur. Bu baxımdan tapmacalar bütovlükdə yazılı ədəbiyyatımızda olduğu kimi, K.Məmmədovun uşaq hekayəsində də müşahidə olunur. Nicatın valideynlərinə söylədiyi tapmacalar qısa da olsa, öz-özlüyündə ayrıca maraq doğururdu: "İndi siz mənə deyin görüm o nədir ki, buynuzu var qoç deyil, qanadlıdır, quş deyil?

Heç kəsin cavabı düz olmadıqda özü bərkdən söylədi:

Kəpənək. İkinci tapmacanı deyirəm: O nədir ki, ətini qoyar, sümüyünü yeyər?

Bilmədiniz. Bu da olsun diş qurdu"(3, 235).

Nəzərdən keçirilən folklor nümunələrinin heç biri uydurma, yaxud müəllifin fərqinə varmadan eşitdiyi şifahi ədəbiyyat örnəkləri deyildir. K.Məmmədov keçmiş xatirələrinə sadiq qalaraq, öz əsərlərində böyük məharətlə folklor nümunələrindən istifadə etmişdir.

Nasir uşaq folklorizmlərindən istifadə etməklə Azərbaycan milli xarakterini təkcə yaşlı nəslin nümunəsində deyil, böyüyən, dünyanı aramsızcasına seyr-müşahidə edən uşaqlarının nümunəsində də təcəssüm etdirir.

Yazılı ədəbiyyatın şifahi sənətdən qaynaqlandığı mühüm mənbələrdən biri də folklor dilimizdən istifadədir. Xalqın inam və təfəkküründə cilalanaraq bu günümüzə qədər gəlib çatan müxtəlif deyimlər-alqış, dua, qarğış, atalar sözləri, məsəllər və s. klassik dövrdən başlayaraq müasir ədəbiyyatımızın da başlıca dil elementinə çevrilmişdir. Xalq məişəti, həyatının dolğun, real təsvirində bu məişətə bağlı yaradıcı

sənətkar, uyğun dil faktı-folklor dilinə istinad edir. Bu baxımdan Kamran Məmmədov əsərlərinin dilində eyni mövqedən çıxış etmişdir. Kamran Məmmədov "Ömrün izi", "Bağlı qapı", "Hədiyyə", "Kəndimizin alması", "Meşə çaqqalsız olmaz" və "Qarınotaran" hekayələrində şifahi ədəbiyyata bağlı alqış, qarğış, andlar, deyimlər, atalar sözləri, məsəllərə geniş yer vermişdir.

Atalar sözləri və məsəllərindən istifadə xalqın keçmişinin bu günə gətirilməsi və xalqımızın milli dəyərlərinin qorunması deməkdir. Əsərlərində işlədilmiş xalq deyimi, atalar sözləri və məsəllər sübut edir ki, K.Məmmədov xalqımızın milli dəyərlərini müasir dövrümüzə müvəffəqiyyətlə gətirməyi bacarırmışdır. Atalar sözü və məsəllərin janr spesifikasına bağlı əsərlərdə bir çox nəsihətamiz fikirlər, tərbiyəvi sözlər bu xalq ədəbiyyatı nümunələri əsa-sında ümumiləşdirir. Əsərlərdə qoyulan çox istiqamətli əxlaq və tərbiyə məsələləri öz konseptiv nəticəsini eyni material üzərində möhkəmləndirməsi daha məqsədə uyğundur. Belə ki, "atalar sözü və məsəllər tərbiyənin həm folklor konsepsiyası baxımından, həm də folklor materiallarına tərbiyəvi əhəmiyyəti baxımından (yəni aksioloji nöqteyi-nəzərdən) misilsiz materiallardır. Təlim-tərbiyənin elə bir məsələsi, elə bir insani keyfiyyət yoxdur ki, o barədə onlarca atalar sözü və ya məsəl olmasın" (6, 28).

Kamran Məmmədovun "Bağlı qapı", "Omrün izi", "Kəndimizin alması", "Qarın-otaran", "Hədiyyə", "Meşə çaqqalsız olmaz" hekayələrində obraz seçkinliyi, xarakterlərin zəifliyi və s. üzərində qurulan bu deyimlər həm də zəngin surətlər qalereyasını tamamlayır. Bu və ya digər obrazın ayrı-ayrı surətlərlə, xüsusilə yazıçı düşüncəsində müsbət planda işlədilmiş obrazlarla müqayisəsi nasir tərəfindən yenə də uyğun atalar sözləri üzərində aparılır.

"Keçmə namərd körpüsündən qoy aparsın sel səni,
Yatma tülkü kölgəsində qoy yesin aslan səni"(5, 17).

"Ot kökü üstə bitər" (5, 35), "Ayağını yorğana görə uzat" (5, 52), "Karın könlündəki"(5, 58), "Sonrakı peşmançılıq fayda verməz"(5, 58)", "Yoldaş yoldaşa tən gərək" (5, 77), "Meşə çaqqalsız olmaz"(5, 90), "Nə tökərsən aşına, o çıxar qaşığına"(5, 93), "Qüsursuz gözəl olmaz"(2, 211) və s. kimi atalar sözləri vasitəsilə yazıçı tənbəl, nankor, lovğa, bədniyyət və s. mənəvi keyfiyyətlərdə verilən obrazların portretini tamamlayır.

Kamran Məmmədov xalq deyimləri vasitəsi ilə surətlərin təbiətini, vəziyyətini, istəklərini, xarakterini dolğun şəkildə canlandırır: "Xalqımız necə də gözəl deyib: Fərhad ölmüşsə də, külüngünün səsi gəlir (5, 36),"Ay bic, demə közü öz qabağını eşirmiş"(5, 70), "Bu zurnanın səsi, hələ çox gür çıxacaq"(5, 71), "Qırx arvadın ağlı, ya bir qara toyuğun ağlı, fərqi yoxdu"(5, 75), "İsti aşın üstünə soyuq su səpdi"(5, 80), "Üçdə alacağın yox, beşdə verəcəyin"(5, 90), "Üstümüzü unlu görüb adımızı dəyirmançı çağırmayın"(2, 140), "Məyər söz deyiləsi, dərd danışılası adamsınız?"(5, 90), "Kefimizə soğan doğradı"(5, 92), "Balam əziz, tərbiyəsi ondan da əziz!" (5, 94), "Oturduğun budağı kəsirsən"(5, 110), "Səndən qan iyi gəlir, evimizi yıxmaq qəsdində-sən?"(5, 110), "Deyirlər, ağac bar gətirdikcə, başını aşağı dikər.." (5, 113),

“Uşaqsız ev susuz dəyirmana oxşayır”(3, 251), “Lalın dilini anası bilər(3, 11), “Uman yerdən küsərlər”(2, 282) və s. kimi deyimləri müəllif oxucu üçün nitq dililə təqdim etmişdir. Buradan aydın görünür ki, K.Məmmədov deyim, atalar sözləri və məsəlləri böyük ustalıqla öz əsərlərində yaratdığı obrazların dilindən verməklə məharətlə istifadə etmişdir.

Xalq ədəbiyyatının əski və mifoloji ağırlıqlı qəlib ifadələrindən biri də alqış, dua və qarğışlardır. Xalq deyimləri, ifadələ-rinin böyük bir qismi də alqış və qarğışlara bağlıdır ki, bədii əsərlərdə obrazların mənşəyi, inam, düşüncəsi, mentaliteti bu və ya digər vasitələrlə yanaşı, eyni dil elementləri üzərində də müəyyənləşir. Folklorumuzdan da bəllidir ki, “arxaik düşüncənin formalaşdırdığı inam və etiqadların sistemli məhsullarından olmaqla andlar, dualar, alqışlar, qarğışlar insanların əsgi təsəvvür, baxış, görüşlərini, həmçinin deyim və sözə inam münasibətlərini semiotikləşdirir”(1, 3).

Alim səciyyəvi xüsusiyyətləri, uyğun formulları ilə fərqləndirilən alqış, dua və qarğışlar xalq dil etiketi kimi əsərdə obrazları fərqləndirməklə, onların bu etiketlə düşüncə, etiqad və emosionallıqlarını canlandırır. Kamran Məmmədovun hekayələri əhatə olunduğu mühit müsəlman Şərqi, onun məişəti dünyagörüşü, yaşayış, həyat tərzidir. Şərq təfəkküründə islami düşüncəyə bağlı etiqadsa eyni mifoloji obrazlılığında öz əksini tapır.“Ömrün izi”, “Bağlı qapı”, “Kəndimizin alması”, “Hədiyyə” hekayələrində obrazların alqışla bağlı nitq etiketlərində “Əhsən, atanın çörəyi sənə halal olsun!”(5, 18), “Sağ ol, əlin var olsun” (5, 41), “Atan Səfərin, vətənə, elə, ailəyə bağlı ruhu sizin evdən əskik olmasın, oğul”(5, 61), “Allah heç kəsi böyüksüz eləməsin. Başımızdan əskik eləməsin”(5, 66),“Bizim üçün də əziz olan üzüyü, sağlıqla saxlasın”(5, 67),“Üzün ağ olsun”(5, 71), “Oğul, allah heç kəsin qapısını bağlı qoymasın”(2, 128) və s. Qeyd olunan alqışlar xalq dilində çox işləklik qazanmış deyimlər olmaqla yazılı ədəbiyyata müəllifin heç bir əlavə rəng, estetik-bədii əlaveəsi olmadan gətirilmişdir.

“And, dua, alqış, qarğış bilavasitə danışıq etiket tipi olmaqla əslin də Arxaik mifoloji görüşlərlə bağlı olub sözün magik gücünə inamı, ona əski bağlılıq hissini əks etdirən mifoloji-magik strukturlu mətn tipidir. Sözlə onun (andın, həmçinin duanın, alqışın, qarğışın) bildirdiyi obyekt arasında köklü fərq qoymadan, bu baxımdan sözlə cismi bir sırada görən arxaik düşüncəni əks etdirir”(1, 3).

Alqışlardan fərqli olaraq, qarğışlar daha orijinal məzmun, formullara bağlıdır. Danışıq dilində çox işləklik qazanmış bu ifadələrə Kamran Məmmədovun “Ömrün izii”, “Bağlı qapı”, “Kəndimizin alması”, “Hədiyyə”, “Cib saatı” əsərlərində xalq dil elementi kimi daha çox rast gəlinir: “Cəhənnəmə başa düşsün, gora başa düşsün. Pis olar boşadaram”(5, 8), “Canınız yansın”(5, 8), “Qız-lar qələt eliyir”(5, 24), “Lənət şeytana, nə olacaq qoy olsun”(5, 40), “Abrın olsun, həyan olsun”(5, 44), “Bizi avara eləmə, qanacağın olsun, kişisən!”(5, 45), “Dərd elə, zəhrimar elə”(5, 45), “Uşağın bağrı çatladı, insafın olsun”(5, 50), “Sizi görüm papağınız boş qalsın!”(5, 77), “Heç sağ-salamat gedib çıxmayasınız”(5, 93), “Ölün ha, əcəb eliyirəm” (5, 94) və s.

nümunələrdə qeyd olunan "gora başa düşsün", "zəhrimar elə", "öləsən elə", "canınız yansın" kimi simvolik mənalandırmalar bilavasitə qarğışların mətndaxili funksional formaları - dil etiketindən, konkret bədii işarələnmə ilə dəyişən şəkli əlamətinin nəticəsidir.

Onun öz əsərlərində böyük ustalıqla qələmə aldığı xalq deyimləri, qədim məsəllər, atalar sözləri, məişətimiz və adət-ənənələrimizlə bağlı nümunələr yazıçı təxəyülünün bənzətməsi deyil, övladlarının, əzizlərinin və özünün yaşadığı mühitdə rastlaşdığı folklor inciləridir.

Beləliklə, onun yazıları oxucular tərəfindən maraqla qarşılanmış, diqqətlə oxun-muşdur. Bu yazılar barəsində mətbuatda təqdiredici məqalələr çap olunmuşdur. Zəngin yaradıcılığı - povest, hekayə, məqalə və monoqrafiyalar yazan Kamran Məmmədov, xalqımıza məxsus adət-ənənələrin qorunub gələcək nəsillərə çatdırılmasında da böyük rol oynamışdır. Qeyd etdiyimiz kimi, K. Məmmədov öz yozum təəssüratlarından çıxış etməyib, xalq inamının bütün proseslərə qoşulan görüntüsünü ən xırda detalları ilə tarixdən, zamandan qoparıb, yenə də xalqın özünə qaytarıb.

Qaynaqlar

1. Abdulla, B. Alqışlar...Qarğışlar. Bakı: Ozan. 2010, 220 s.
2. Dadaşoğlu K. Yuxusuz İllər. Bakı: Gənclik, 1980 (2019), 287 s.
3. Dadaşoğlu K. Dünyamız uşaq gözündə. Bakı: Gənclik, 1984, 255 s.
4. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı: Patronat, 1993, 28 s.
5. Məmmədov K. Ömrün izi (hekayələr). Bakı: Elm və təhsil, 2022, 133 s.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmləri doktoru, Leyla Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

SÜLEYMANOVA RUZANƏ
Gəncə Dövlət Universiteti
ƏLİZADƏ TAMELLA YUSİF QIZI
Azərbaycan Dövlət Aqrar Universiteti
müəllim

İNTİBAH DÖVRÜNÜN DAHİ SƏNƏTKARI

XÜLASƏ

1564-1616-cı illərdə yaşamış böyük ingilis yazıçısı Vilyam Şekspirin /William Shakespeare/ yaradıcılığı ümümbəşər əhəmiyyətinə malikdir. Yazıçı və İntibah aktyoru Şekspir tarixə teatr sənətinin inkişafına böyük təsir göstərən ən məşhur və əhəmiyyətli dramaturq kimi düşmüş, əsrin dörddə birində otuz yeddi pyes, iki poema və sonetlər yazmışdır. Teatrda nümayiş etdirilən başqa müəlliflərin pyeslərinin redaktoru, rejissoru olan Şekspir on beş il səhnədə oynamışdır. Yaradıcılığında bir çox poetik forma və obrazlar sistemindən sənətkarlıqla istifadə edən dramaturq öz sənətkarlıq məharətini dram əsərlərilə bərabər sonetlərində də göstərmişdir. Bu janr dramaturqun yaşadığı XVI yüzillikdən çox-çox qabaq bir şer forması kimi mövcud olsa da, Şekspir qələmi ilə əlçatmaz zirvədə durur. Tədqiqatçılar yazıçının dünya miqyasında tanınmasını onun yaradıcılığının realizmi və xalq xarakteri ilə əlaqələndirirlər. Vilyam Şekspirin əsərləri digər dramaturqların əsərlərindən üç dəfə çox səhnəyə qoyulur.

Vilyam Şekspirin əsas personajları A. Anikstin yazdığı kimi, titanik mənəvi güclərə malik qeyri-adi insanlar olub. Aldanırlar, yıxılırlar, ölümcül səhvlər edirlər və buna baxmayaraq, həmişə rəğbət oyatmırlarsa, maraq oyadırlar. Vilyam Şekspirin əsərləri psixoloji dərinliyi və bir çox ədəbi, tarixi və fəlsəfi eyhamları ilə misilsizdir.

Vilyam Şekspir ən çox istinad edilən yazıçı kimi tanınır. Onun ədəbi irsi bu günümüzədək populyar olaraq qalır, elmi araşdırmalarda siyasi və mədəni şərtlərə uyğun olaraq daim öyrənilir və yenidən düşünülür. Vilyam Şekspirin yaradıcı fikirləri hələ də yazıçılara ilham verir. Şekspirin pyesləri dünyanın əsas dillərinə tərcümə edilmişdir.

Açar sözlər: Vilyam Şekspir, İntibah dövrü ədəbiyyatı, pyes, tamaşa, teatr

Vilyam Şekspirin həyatı, təhsili, sosial dairəsi haqqında dəlillər çox deyl. Onun tərcümeyi-halı müasirləri tərəfindən tərtib edilməmişdi. O zaman yalnız padşahların tərcümeyi-halları yazılırdı. Şekspirin həyat yolu müxtəlif mənbələrdən alınan məlumatlardan toplanmışdır. Mütəxəssislər və onun istedadının pərəstişkarları üç əsrdir ki, böyük dramaturqun həyat şəraitini bərpa edirlər.

Məlumdur ki, o, 1564-cü il aprelin 25-də Stratford-on-Avonda anadan olub. Vilyam Şekspirin uşaqlıqda yerli ibtidai məktəb olan Stratford Grammar School-da

oxuduğu güman edilir. Əgər bu fərziyyə doğrudursa, orada latın və ingilis dillərini, tarixi və antik dövrün klassik ədəbiyyatını öyrənməklə məşğul idi. İngilis folklorunu və xalq dilinin zənginliyini Vilyam Şekspir yaşadığı əyalət şəhərində ünsiyyətdə mənimsəmişdi (1, s. 45). 18 yaşında Şekspir ailə qurdu, üç uşağı oldu, ancaq evlilik uzun sürmədi. Bir müddət müəllim işlədiyindən sonra, 1587-ci ildə Şekspir teatr və yazı karyerasına başladığı Londona köçdü.

Vilyam Şekspir London teatrında 1593-cü ildən aktyor, rejissor və dramaturq kimi çalışıb. Onun səhnə əsərləri böyük populyarlıq qazandığına baxmayaraq, Şekspirin adı çox da məşhurlaşmamışdı. Londonda olduğu müddətdə teatr üçün pyeslərinin çoxunu yazıb rejissorluq edirdi, məşhur olandan sonra, rifahı yaxşılaşdı.

1612-ci ildə yazıçı teatrı tərk edib Stratford-on-Avona qayıtdı. 23 aprel 1616-cı ildə 52 yaşında Vilyam Şekspir dünyasını dəyişdi və öz doğma şəhərində dəfn edildi.

Vilyam Şekspirin pyeslərinin 400 ildən çox yaşı olsa da, onlar bu günə qədər aktuallığını itirmir. Bəzi tənqidçilər bir insanın belə monumental əsərlər yarada biləcəyinə inanmırlar. Şekspirin həyatı haqqında məlumatların məhdud olması "Şekspir sualı"nın yaranmasına səbəb oldu.

C. Cəfərovun xəbər verdiyinə görə, "Bütün dünyada şöhrət tapmış Şekspirin şəxsiyyəti haqqında, təəssüf ki, çox az məlumat qalmışdır. Bu isə Şekspir adı ətrafında bir çox əfsanələrin yaranmasına, Şekspir adı arxasında başqa şəxsiyyətlərin gizlənmış olduğuna dair rəvayətlərin yayılmasına səbəb olmuşdur" (2, s. 5). Bunu ilk növbədə ona görə deyirlər ki, Şekspirin qeyri-kübar mənşəyi onun əsərlərinin keyfiyyəti və zənginliyi ilə uyğun gəlmir. Bu, həm də ona görə danışılır ki, onun həyat hadisələrini təsdiqləyən sənədli mənbələr olduqca azdır. Bununla belə Vilyam Şekspir dünyada ən çox öyrənilən yazıçılardan biri kimi tanınmışdır. C. Cəfərov yazır: "Dünyanın böyük sənətkarları içərisində, haqqında ən çox əsər yazılanlardan biri Şekspirdir" (2, s.22).

Şekspirin yaradıcılığı İntibah və İntibah dövrünün son mərhələlərinə təsadüf edir. XVI-cı əsr boyu İngiltərə mədəniyyətində humanizm ideyalarının yayılması ilə bağlı İntibah cərəyanlarının artan təsiri aydın görünür. Ölkədə qədim irsə söykənərək öz ictimai-siyasi fikrin və bədii ədəbiyyatın şah əsərlərini yaradan, mənəvi mədəniyyətin inkişafına böyük təsir göstərən humanist yazıçıların, savadlı filoloqların böyük və nüfuzlu qrupu fəal fəaliyyət göstərirdi. Ədəbi mühitdə həm dramaturq, həm lirik bir şair, həm mirasında müdrik filosof kimi xarakterizə olunan Vilyam Şekspir hər şeydən əvvəl dövrünün bütün ziddiyyətlərini, çətinliklərini özündə yaşadan, bu çətinliyə və gərgin həyat tərzinə sinə gərən həssas qəbli bir sənətkardır.

Tədqiqatçılar Vilyam Şekspirin yaradıcılıq yolunun üç hissədən ibarət olduğunu göstərirlər. Vilyam Şekspir irsinin çoxsaylı tətcümələri dramaturqun dühasına, onun sənətinə heyranlıq və dərin məhəbbətin təzahürü kimi qiymətləndirilməlidir. Bu dövrlərdə müəllifin yaradıcılığı (o cümlədən başqa

müəlliflərlə birgə yazılmış əsərlər) 38 pyes (17 komediya, 10 xronika, 11 tragediya), 154 sonet, antik əsatirlər mövzusunda yazılmış poemalar, ayrıca şeir və nəğmələrdən ibarətdir. Şekspirin əsərlərinin əksəriyyəti 1589-1613-cü illər arasında yazılmışdır.

Vilyam Şekspir yaradıcılığının birinci dövründə (1591-1601) "Venera və Adonis", "Lukresiya" poemalarını, sonetlər, tarixi-xronikalar və "Tit Andronik", "Romeo və Cülyetta", "Yuli Sezar" tragediyalarını yazmışdır.

Tarixi salnamələr Şekspirin ən erkən əsərlərinə daxildir. O zaman tarixi dram dəbdə idi. Şekspirin "Kral Con", "VIII Henrix", "VI Henrix", "III Riçard", "V Henrix" xronikaları İngiltərənin 300 illik tarixi hadisələrindən bəhs edir. Xronikalar haqqında C. Cəfərov yazmışdır: "Tarixi-xronikal pyeslər Şekspir yaradıcılığının birinci dövründə çox mühüm yer tutmaqla bərabər, onun gələcək inkişafı üçün də son dərəcə əhəmiyyətli idi. Faciələrdə qaldırılan bir çox problemlərin başlanğıcı və müəyyən mənada bədii həlli məhz xronikalardadır" (2, s. 38). Şekspirin siyasi mövzulara toxunan pyeslərinin iki xüsusiyyəti ilə seçilməsi əlamətdardır: "Onlar bir tərəfdən xalq fikrini bildirir, digər tərəfdən isə hakim siyasi doktrinaya birbaşa müxalifətə girmirdilər» (3, s. 20).

Komediya da Şekspir yaradıcılığının bu dövrün ən xarakterik janrı idi ("İnadkarın ram edilməsi", "Yayın bir yarısının xəyalı", "Venesiya taciri", "Vindsor cici-bacıları", "Heç nədən hay-küy", "Necə istəsəniz", "On ikinci kecə"). Şekspirşunas A.Anikst yazır: "XVI əsrin son illərində Şekspirin yazdığı komediyaların uğuru olduqca böyük idi. Bəli, bu təəccüblü deyil. Dünya tənqidçilərinin etirafına görə, "Heç nədən hay-küy", "Necə istəsəniz", "On ikinci kecə" – Şekspirin komediya yaradıcılığının zirvələridir" (3, s. 199).

Komediyalarda əks olunan həyatsevərlik və mübarizlik İntibah dövrünün xüsusiyyətlərindən irəli gəlirdi. Vilyam Şekpirin komediyalarını C.Cəfərov belə təsvir etmişdi: "İşıqlı və günəşli sonetlərdə də zamanın insan üzərindəki təzyiqi, antihumanist qüvvələrin nəfəsi duyulmaqdadır... Şekspirin komediyaları insanı, onun qüdrət, istedad və gözəlliyini qızğın bir ehtirasla təsvir və tərənnüm edən çox şairanə əsərlərdir" (2, s. 28-29).

Vilyam Şekspirin yaratdığı sənət inciləri içərisində sonetlər xüsusi yer tutur. Sonet janrının zirvəsi Şekspirin adı ilə bağlı olsa da, o, İngiltərədə sonet müəlliflərinin birincisi deyil idi. XVI əsrin axırlarında sonet İngilis poeziyazının aparıcı janrı sayılırdı. Şekspirin sonetləri "fəlsəfi dərinliyinə, lirik gücünə, dramatizm hisslərinə və musiqiliyinə görə, İntibah dövrü İngiltərə poeziyasının zirvəsi və dünya poeziya tarixinin mühüm mərhələsi olmuşdur" (3, s. 46).

Ş.Xəlilli "Vilyam Şekspir. Sonetlər" kitabının ön sözündə yazır: "V. Şekspir təxminən 154 sonetində dosta sədaqətinin, qadına mehr-ülfətinin, məhəbbətinin... gözəl, yadda qalan bədii lirik lövhələrini yaratmışdır... V. Şekspirin sonetləri ingilis ədəbiyyatı tarixində yeni səhifələr açdı" (4, s. 3-4). C. Cəfərov yazdığına görə, "154 sonetdən 126-sı şairin dostuna, qalanı isə sevgilisi "qarabəniz xanıma" həsr edilmişdir... Sonetlərdə süjet birliyi yoxdur... Şekspir sonetlərinin hamısı bizə gəlib

çatsaydı, bəlkə də onlarda təsvir olunan süjet münasibətləri daha aydın və tam bir şəkildə meydana çıxardı...” (2, s. 28).

Azərbaycanda sonetlərin tərcüməsi ilə ilk olaraq şair-mütərcim Tələt Əyyubov məşğul olmuşdur, Sabir Mustafa da ugurlu tərcümələr etmişdir.

“Romeo və Cülyetta”, “Venesiya taciri”, “Yuli Sezar” pyesləri Vilyam Şekspirin ikinci yaradıcılıq dövrünə keçid əsərləri kimi qəbul edilmişdir. Sonra yaradıcılığında, o cümlədən əsərlərində faciələr dövrü başladı.

Şekspir yaradıcılığının ikinci dövrü (1601-1608) İntibah dövrünün son mərhələsi ilə bağlıdır və əsasən faciə əsərlərini təşkil edir. “Hamlet”, “Otello”, “Kral Lir”, “Maqbet”, “Antoni və Kleopatra”, “Koriolan”, “Afinalı Timon” kimi faciələr böyük həyat qüvvəsinə, görünməmiş bədii təsirə malikdir. Faciələr Şekspir yaradıcılığının ən yüksək zirvəsini təşkil edir.

Bu əsərlər o zaman həyatda hökm sürən ziddiyyətlər, xalq arasında narazılıq, cəmiyyətdə böhran və sarsıntını özündə əks etdirmişdi. Ancaq müəllifin humanist ideyalarına sadiq qaldığından, insana etibarını itirmir və faciələrində bədbinlik və ümidsizlik kimi hisslərə qapılmır: “Şekspir faciənin kökünü humanist idealın antihumanist varlıqla toqquşmasında, antaqonik keyfiyyələrin barışmazlığında görür” (2, s. 45).

“Hamlet” faciəsi barəsində Ş.Xəlilli yazmışdır ki, o, “şair-dramaturg Şekspirin yaradıcılıgının, eləcə də ingilis intibahının şah əsəri kimi giymətləndirildi. Bir müddət “kölgə”də galan “Sonetlər” isə şairin zəngin ədəbi irsində öz ideya-estetik dəyərinə görə “Hamlet”dən sonra ikinci yeri qazandı” (4, s. 3). Maraqlıdır ki, tragediyanın elementləri, Hamlet obrazının əks-sədasına hələ sonetlərdə rast gəlmək olardı: “Dostluq, məhəbbət, vəfa, gənclik, yaradıcılıq ideyaları tərənnüm edən sonetlərdə xəyanət, riyakarlıq, ümidsizlik, hətta Hamlet obrazını, “Olum ya ölüm” monoloqunu xatırladan motivlər də vardır” (2, s. 29).

Tədqiqatçı N. İskəndərovanın yazdığına görə, Şekspirin “Otello” faciəsi dünya teatrlarının ən çox müraciət etdiyi klassik ədəbiyyatın azsaylı ən yaxşı nümunələrindən biridir. Bu da ondan irəli gəlir ki, bu əsərdə qaldırılan məsələlər irqindən, milliyyətindən, yaşından asılı olmayaraq bütün oxucuları düşündürür (5).

Yaradıcılığının ikinci dövründə Şekspir “Tədbirə qarşı tədbir”, “Yaxşı qurtaran hər bir şey yaxşıdır” komediyalarını da yaratmışdır. Lakin bunlarda “artıq əvvəlki komediyalara xas olan şənlik və həyatsevərlik yoxdur, janrın özündə də müəyyən dəyişiklik duyulur” (2, s. 42). Şekspirin “Troil və Kressida” tragikomediyası da bu dövrdə yazılmışdı və bu əsərdə satirik elementlər daha çox özünü biruzə verir.

XVI-cı əsrin əvvəllərindən 1608-ci ilə qədər əsasən faciələr yazan Vilyam Şekspirin yaradıcılığında qəflətən böyük dəyişiklik baş verir. A.Anikst vurğulayır: “Tragik janrda ustalıq zirvəsinə çatan... Şekspir özü üçün yeni yol seçir. Yalnız bir dahi belə bir təmtərağa yol verə bilər” (3, s. 291). Beləliklə, Vilyam Şekspir yaradıcılığının üçüncü dövründə (1608-1612) “Perikl”, “Simbelin”, “Qış nağılı” və

“Tufan” əsərləri işıq üzü görür, ki bunlarda fantastik elementlər və allegorizm özünü göstərmişdir. A.Anikstin yazdığına görə, ingilis yazıçısı Litton Streyçi Şekspirin axırıncı pyes əsərlərini təkrar oxuyarkən, onlarda bir çox yorğunluq əlamətləri, dünyaya qarşı peşmançılıq, ətrafda çox olan bütün alçaqlıqlara nifrət tapdı (3, s. 304).

Artıq sağlığında Şekspir əsərləri haqqında təqdirəlayiq rəylər aldı, ancaq həqiqətən yalnız XIX əsrdə məşhur oldu. Xüsusən də romantizm və Viktoriya nümayəndələri Şekspirə o qədər baş əyirdilər ki, Bernard Şou bunu ingilis dilində “bardo-pərəstiş” mənasını verən “bardolatry” adlandırırdı.

Ədəbiyyatşunas Elçin “Vilyam Şekspir. Pyeslər və sonetlər” kitabının ön sözündə yazır: “Şekspir yaradıcılığı ümumbəşər mənəvi sərvətində elə bir zirvədir ki, coğrafi sərhədlər, etnik müxtəlifliklər, milli psixologiyalar məhdudluğu tanımmır və zamana sinə gərir. Şekspir yaradıcılığı yalnız İngiltərə intibahının yox, bəşəri təfəkkürün nail olduğu bir sərvətdir” (6, s. 6).

Yüz ildən çox əvvəl türk xalqlarının Şekspir yaradıcılığı ilə tanışlıq başladı. Ölkəmizin görkəmli yazıcıları, şairləri və tərcücməçiləri Şekspirin əsərlərini Azərbaycan dilinə uğurla çevirməklə oxucunu dahi yazıçının yaradıcılığı ilə tanış etmişlər: Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Abdulla Şaiq, Əhməd Cavad, Hacıbaba Nəzərli, Mirzə İbrahimov, Əli Səbri, Tələt Əyyubov, Sabir Mustafayev, Əziz Şərif və başqarını göstərmək olar (6). Ana dilimizə tərcümə edilən dahi yazıcının əsərləri oxucular tərəfindən böyük sevgi ilə qarşılanır. Vilyam Şekspir irsinin çoxsaylı tərcümələri dramaturgun dühasına, onun sənətinə heyranlıq və dərin məhəbbətin təzahürü kimi qiymətləndirilməlidir. Vilyam Şekspir XIX-XX əsr Azərbaycan şair və yazıçılarının formalaşmasına da böyük təsir göstərmişdir (7).

Vilyam Şekspirin əsərləri gözəl metaforalarla doludur. Dramaturq sədaqət və xəyanətdən, hakimiyyətdə olanların və kasıbların taleyindən, siyasi intriqalardan, yaxın insanların hiyləsindən yazıb. Ancaq əsərlərində əsas yeri müxtəlif təzahürlərindəki sevgi tutur – ilk sevgi, fədakar valideyn, ehtiraslı və əbədi hiss. Parlaq Şekspirin ən yaxşı əsərlərini birmənalı adlandırmaq çətindir.

Tədqiqatçılar qeyd edirlər ki, Şekspirin əsərlərində onun şəxsi təcrübə və hissləri tərənnüm olunmur. Müəllifi yalnız xalqın taleyi ilə bağlı ümumbəşəri mövzular maraqlandırır (7, s. 75). Vilyam Şekspirin ən çox maraqlandığı şey, “zəngin və Ruhla dolu bir Pafos daşıyan” və yollarında hansı maneələrə rast gəlinməsindən asılı olmayaraq özlərinə sadiq qalan güclü və iradəli personajlardır. Dramaturqun insan hisslərini, cəmiyyətin problemlərini dəqiqliklə sezməsi onun əsərlərini təcrübə, tarix və həssaslıq xəzinəsinə çevirdi. “Şekspirin əsərləri həyat haqqında böyük cəsarət və fərəhlə söylənmiş bədii bir həqiqətdir. Buna görə Şekspir bitməz-tükənməzdir. Bütün xalqlar böyük minnətdarlıq hissi ilə onu daim yad edir, ondan öyrənir, zövq alırlar” (2, s. 3).

Vilyam Şekspirin pyesləri komediyaları, tarixi dramları və faciələri Yelizaveta dövrünün teatr ənənəsinin bir hissəsidir, lakin keyfiyyət və əhəmiyyətinə

görə digər müəlliflərin əsərlərindən fərqlənirlər. Onun əzəməti dildən yenilikçi istifadəsində, həm də yaratdığı personajların inandırıcı, sadəlövh və çox yönlü olmasındadır. “Dünya ədəbiyyatı tarixinin minilliklərində Şekspir kimi ikinci bir sənətkar tapmaq çox çətindir ki, kütləviliyi, yaradıcılığının təsir dairəsi bu qədər geniş, əhatəli və zəngin olsun” (6, s. 6).

Ədəbiyyat

1. Г.А. Аникин, Н.П. Михальская. История английской литературы. Москва: «Высшая школа», 1985. 431с.
2. C. Cəfərov. Vilyam Şekspir. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964.
3. А.А. Аникст. Шекспир. Москва: «Молодая гвардия», 1964.
4. Vilyam Şekspir. Sonetlər. Bakı: Azərnəşr, 1992. İngilis dilindən tərcümə edəni Sabir Mustafa. 176 s.
5. Н. Искендерова. «Отелло» В. Шекспира еа азербайджанском языке. Баку: Гартал, 1997.
6. Vilyam Şekspir. Pyeslər və sonetlər. Ön söz Elçinindir (s. 5-10). Bakı: Yazıçı, 1980. 445 s.
7. У.И. Бадалбейли. Шекспир в Азербайджане. Баку: Маариф, 1993

РУЗАНА СУЛЕЙМАНОВА
ТАМЕЛЛА АЛИЗАДЕ

ГЕНИАЛЬНЫЙ ХУДОЖНИК ЭПОХИ ВОЗРОЖДЕНИЯ

Резюме

Творчество великого английского писателя Уильяма Шекспира / William Shakespeare/ (1564-1616) имеет общечеловеческое значение. Писатель и актер эпохи Возрождения, Шекспир вошел в историю как самый известный и значимый драматург, оказавший огромное влияние на развитие театрального искусства. За четверть века он написал тридцать семь пьес, две поэмы и цикл сонетов. Он был редактором, постановщиком спектаклей других авторов, которые ставились в его театре, играл на сцене в течение пятнадцати лет. Искусно используя в своем творчестве многие поэтические формы и системы образов, Шекспир показал свое мастерство как в сонетах, так и в драматических произведениях. Хотя этот жанр существовал как форма стихотворения задолго до XVI века, в котором жил драматург, благодаря перу Шекспира он поднялся на недосягаемую вершину. Мировое признание писателя исследователи связывают с реализмом и народным характером его творчества. Произведения Уильяма Шекспира ставятся в три раза чаще, чем произведения других драматургов.

Главные герои Уильяма Шекспира были неординарными людьми с титаническими душевными силами, как писал шекспировед А. Аникст. Их обманывают, они совершают роковые ошибки, и все же, если даже они не вызывают сочувствие, они всегда вызывают интерес. Произведения Уильяма Шекспира не имеют себе равных по своей психологической глубине и многочисленным литературным, историческим и философским аллюзиям.

Уильям Шекспир известен как самый цитируемый писатель. Его литературное наследие остается популярным и по сей день, постоянно изучается и переосмысливается в научных исследованиях в соответствии с политическими и культурными условиями. Творческие идеи Уильяма Шекспира до сих пор вдохновляют писателей. Пьесы Шекспира переведены на основные языки мира.

Ключевые слова: Уильям Шекспир, литература эпохи Возрождения, спектакль, пьеса, театр.

RUZANA SULEYMANOVA
TAMELLA ALIZADEH

THE GENIUS ARTIST OF THE RENAISSANCE

Summary

The work of the great English writer William Shakespeare (1564-1616) has universal significance. A writer and actor of the Renaissance, Shakespeare went down in history as the most famous and significant playwright, who had a huge impact on the development of theatrical art. In a quarter of a century he wrote thirty-seven plays, two poems and a cycle of sonnets. He was the editor, director of performances by other authors, which were staged in his theater, played on stage for fifteen years. Skillfully using many poetic forms and systems of images in his work, Shakespeare showed his mastery both in sonnets and in dramatic works. Although this genre existed as a form of poetry long before the 16th century in which the playwright lived, thanks to the pen of Shakespeare it rose to an unattainable peak. Researchers associate the world recognition of the writer with realism and the folk character of his work. The works of William Shakespeare are performed three times more often than the works of other playwrights.

The main characters of William Shakespeare were extraordinary people with titanic mental powers, as Shakespeare scholar A. Anikst wrote. They are deceived, they make fatal mistakes, and yet, even if they do not arouse sympathy, they always arouse interest. The works of William Shakespeare have no equal in their psychological depth and numerous literary, historical and philosophical allusions.

William Shakespeare is known as the most quoted writer. His literary heritage remains popular to this day, is constantly being studied and reinterpreted in scientific

research in accordance with political and cultural conditions. William Shakespeare's creative ideas still inspire writers. Shakespeare's plays have been translated into the main languages of the world.

Key words: William Shakespeare, Renaissance literature, performance, play, theatre.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Leyli Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

FATİMƏ BAĞIROVA
AMEA Folklor İnstitutu
e-mail: bagirova_fatime@inbox.ru

ETNOQONİK MİFLƏR VƏ TARİX:NƏZƏRİ ASPEKT

Xülasə

Miflər bütövlükdə dünyanın, cəmiyyətin və zamanın necə yaranmasını izah edir. Mifin bütün tematik növləri, əslində, bizə "mifik tarixi" nəql edir. Bu növlər içərisində etnoqonik miflər bilavasitə xalqların, cəmiyyətlərin, dövlətlərin meydana çıxması baxımından "tarixə" daha yaxın hesab olunur.

Mifologiya, bir tərəfdən, qədim insanın düşüncə üsulu, şüur forması, o biri tərəfdən, həmin düşüncə və təsəvvürləri nəql edən hekayətlərdir. Dünya haqqındakı bütün bilgilər miflərdə bir hekayət, əhvalat kimi nəql olunur. Mifin nəql etdiyi tarix "müqəddəs tarix" hesab olunur. Ancaq mifin "tarix" anlayışı ilə müasir düşüncənin "tarix" anlayışının bir-birindən tamamilə fərqli olmasıdır. Müasir düşüncədə tarix adına həqiqətən baş vermiş hadisələr qəbul olunur. Miflərdə tarix adına real baş vermiş hadisələr yox, fantastik hadisələr nəql edilir. Məsələnin bütün mahiyyəti həmin uydurma hekayətlərin mifologiyada həqiqət kimi qəbul olunması ilə bağlıdır.

Kosmoqonik miflər, ümumiyyətlə, dünyanın yaranmasından, etnoqonik miflər insanların, cəmiyyətin, dövlətin və s. yaranmasından, təqvim mifləri isə zamanın, vaxtın, əlamətdar günlərin, bayramların və s. necə meydana çıxmasından bəhs edir. Bu mif növləri, əslində, bir-birindən ayrılmazdır və ümumən kosmoqonik mifin tərkib hissəsidir. Bu cəhətdən, etnoqonik miflər mifoloji düşüncədə cəmiyyətin tarixi ilə daha yaxından bağlı olan miflərdir.

Açar sözlər:mif, mifologiya, etnoqonik miflər, kosmoqonik miflər, təqvim mifləri, tarix, müqəddəs tarix, ilk əcdad

G i r i ş

Mifologiya bəşər mədəniyyətinin ilkin pilləsini təşkil edir. Çağdaş mədəniyyət bütünlüklə mifologiyadan yaranmış, minillər boyunca inkişaf edərək indiki halına gəlib çıxmışdır. Müasir düşüncənin, ictimai şüurun elə bir forması yoxdur ki, kökündə, mənşəyində, bünövrəsində mifologiya durmasın. Bu cəhətdən, müasir tarixi düşüncə də öz qaynağını mifik düşüncə ilə yaşamış ibtidai insanın "tarix" haqqındakı düşüncələrindən götürmüşdür. Ancaq müasir insanın "tarix" anlayışı ilə mifologiyanın "tarix" anlayışı arasında ciddi fərqlər vardır. Müasir tarixi düşüncə empirik faktlara əsaslandığı halda, mifoloji düşüncə metafizik mahiyyətə malikdir. Buna baxmayaraq, müasir düşünə ilə mifoloji düşüncə arasında bir əsas eyniyyət məqamı vardır: ibtidai insan özünün də daxil olduğu dünya haqqındakı bütün fantastik məzmunlu miflərə inanır, onları həqiqət kimi qəbul edirdi.

Miflər bütövlükdə dünyanın, cəmiyyətin və zamanın necə yaranmasını izah edir. Bu cəhətdən, mifin bütün tematik növləri, əslində, bizə "mifik tarixi" nəql edir. Bu növlər içərisində etnoqonik miflər "tarixilik" baxımından diqqəti xüsusi cəlb edir.

T ə d q i q a t

Miflər, mifologiya, ümumiyyətlə, fenomenal mahiyyətə malikdir, yəni onlar hələ tamamilə dərk edilməyib. Elm inkişaf etdikcə miflərin dərki sahəsində də yeni imkanlar açılır və bu mənada, onlar insanları özünün "dərkolunmaz dərinlikləri" baxımından təəccübləndirməkdə davam edir.

"Mif" və "mifologiya" anlayışları bir-biri ilə bağlı olmaqla yanaşı, həm də fərqli məzmuna malikdir. A.K.Bayburin "mif" terminin elmdə iki mənada işləndiyini göstərir:

1) sözlü təhkiyə mətni kimi;

2) dünya haqqında təsəvvürlər sistemi (dünya modeli) kimi.

"Mif" birinci halda sintaqmatik, ikinci halda paradiqmatik planda başa düşülür. "Mif" sintaqmatik vahid kimi (mədəniyyətin başqa mətnləri – ritual, sosial institutlar, maddi mədəniyyət elementləri və s. ilə bir sırada) mənaların paradiqması olan "mif"in gerçəkləşməsinin ayrıca halı kimi çıxış edir. "Mif"in birinci və ikinci mənaları arasında olan fərq "mif" ilə "mifologiya" arasında olan fərqlə eyni deyildir. Ona görə ki, "mifologiya" adı altında mifin bir sistem olması yox, (sintaqmatik) təhkiyə vahidləri olan miflərin sistemi başa düşülür [5, s. 75].

A.K.Bayburin "mifologiya" terminin isə üç mənada işləndiyini göstərir:

1. Bir mədəni-tarixi ənənəyə məxsus olan miflərin (söyləmələrin) toplusu.

2. Dünya qavrayışının xüsusi forması. "Mifologiya" bu mənasında paradiqmatik aspektdə götürülən "mif" anlayışına yaxın, hətta eyni mənadadır. Dünyanın mifoloji mənzərəsi miflərin toplusu olan "mifologiya" və mif-təhkiyə ilə məzmun planının ifadə planına münasibəti nisbətində əlaqələnir.

3. Mifləri və mifoloji sistemləri öyrənən elmi fənn [6, s. 80].

Elçin Qaliboğlu mif və mifologiya anlayışları haqqında yuxarıdakı məlumatları sadə şəkildə izah edərək yazır: "Beləliklə, "mif" iki mənada işlənilir: hekayət ("sözlü təhkiyə mətni kimi") və təsəvvürlər sistemi. "Mifologiya" üç mənada işlənilir: Mifik hekayətlərin toplusu, təsəvvürlər sistemi (dünya qavrayışının xüsusi forması) və mif haqqında elm" [4, s. 35-36].

Göründüyü kimi, mifologiya, bir tərəfdən, qədim insanın düşüncə üsulu, şüur forması, o biri tərəfdən, həmin düşüncə və təsəvvürləri nəql edən hekayətlərdir. Tədqiqatçılar miflərin hekayət, əhvalat, təhkiyə tərəfini xüsusi vurğulayırlar. Yəni məzmunundan asılı olmayaraq, bütün miflər, sadəcə, hekayətlərdən ibarətdir. Dünya haqqındakı bütün bilgilər miflərdə bir hekayət, əhvalat kimi nəql olunur.

Y.M.Meletinski yazır: "Mif" yunan sözü olub, hərfən "rəvayət, söyləmə" anlamını bildirir. Adətən, tanrılar, ruhlar, ilahiləşdirilmiş, yaxud öz mənşəyi etibarilə tanrılarla əlaqəli olan qəhrəmanlar, ilk zamanda fəaliyyət göstərmiş, dünyanın, onun

təbii və mədəni elementlərinin yaradılmasında birbaşa, yaxud dolayısı ilə iştirak etmiş ilk əcdadlar haqqında əhvalatlar nəzərdə tutulur. Mifologiya həm tanrılar və qəhrəmanlar haqqında belə əhvalatların məcmusu, həm də eyni zamanda dünya haqqında fantastik təsəvvürlərin sistemidir. Miflər haqqında elmi də mifologiya adlandırırlar [8, s. 634].

Bu fikirdən aşağıdakılar aydın olur:

– mif leksik mənası etibarilə söyləmə mənasındadır;

– miflərin məzmunu tanrılar, ruhlar, qəhrəmanlar, ilk əcdadlardan bəhs edir;

– miflər haqqında elm mifologiya adlanır.

Y.M.Meletinskinin mifə verdiyi bu izahda onun dünya haqqında ibtidai, primitiv tarixi olması haqqında məna da öz əksini tapmışdır. Çünki miflərdə tanrılar, ruhlar, qəhrəmanlar, ilk əcdadlar dünyanın yaradılışının başlanğıcını təşkil edirlər. Bu da öz növbəsində mifin tarix aspektini ortaya qoyur. Bu cəhətdən, M.Eliade mifləri məhz "müqəddəs" tarixi kimi səciyyələndirir:

"Mifin elə bir tərifini tapmaq mümkün deyildir ki, həm bütün alimlər tərəfindən qəbul edilsin, həm də mütəxəssis olmayanlar üçün də anlaşıqlı olsun. Bununla bərabər, bütün arxaik və ənənəvi cəmiyyətlərdəki bütün mifləri və onların bütün funksiyalarını əhatə edən universal tərifi tapmaq mümkündürmü? Mif mədəniyyətin fövqəladə dərəcədə mürəkkəb gerçəklərindən biridir. Onu ən çoxsaylı və bir-birini tamamlayan aspektlərdə öyrənmək və şərh etmək olar. Mənə elə gəlir ki, aşağıdakı tərif daha yatımlı olacaqdır. Ona görə ki, o, bizi maraqlandıran məsələni geniş şəkildə əhatə edir: mif müqəddəs tarixi bəyan edir, "bütün başlanğıcların başlanğıcı olan" yaddaşaqədərki zamanda baş vermiş hadisələr haqqında danışır. Mif nəql edir ki, reallıq hər şeyi bütünlükdə ehtiva edən dünya, kosmos şəklində, yaxud təkcə onun fraqmentləri (adalar, bitki aləmi, insan davranışı, yaxud dövlət təsisatı) şəklində olmasından asılı olmayaraq, fövqəladə varlıqların igidlikləri sayəsində öz təcəssümünü, gerçəkləşməsini necə tapmışdır. Bu, həmişə hansısa "yaradılış" haqqındakı hekayədir. Bizə xəbər verilir ki, nə necə baş verib və biz mifdə bu "nə isənin" mövcudluğunun qaynaqlarına yaxın oluruq. Mif baş verənlər haqqında həmişə həqiqəti danışır" [11, s. 33-34].

M.Eliadenin bu fikrində diqqəti cəlb edən ən mühüm nöqtə "mifin müqəddəs tarixi" bəyan etməsidir. Bu mənada aydın olur ki, mif məzmunundan asılı olmayaq, tarix, özü də müqəddəs tarix kimi qəbul olunur. Ancaq məsələnin bütün mahiyyəti mifin "tarix" anlayışı ilə müasir düşüncənin "tarix" anlayışının bir-birindən tamamilə fərqli olmasıdır. Müasir düşüncədə tarix adına həqiqətən baş vermiş hadisələr qəbul olunur, yəni tarix – olanlar, baş verənlərdir. Miflərdə də tarix adına "olanlardan" bəhs olunur, ancaq bu "olanlar" real baş vermiş hadisələr yox, fantastik hadisələrdir. Bu isə müasir düşüncə ilə mifoloji düşüncənin bir-birinə tamamilə əks mövqedə olduğunu göstərir. Təbii ki, müasir düşüncə fantastik hadisələri onun öz adı ilə, yəni "uydurma" kimi qəbul edir. Məsələnin bütün mahiyyəti həmin uydurma hekayətlərin

mifologiyada həqiqət kimi qəbul olunması ilə bağlıdır. Bu cəhətdən, aşağıdakı iki fikir əlamətdardır.

M.İ.Steblin-Kamenski yazır: "Mif nə dərəcədə qeyri-həqiqət olmasından asılı olmayaraq, yarandığı və yaşadığı yerdə həqiqət kimi qəbul olunan hekayədir" [9, s. 4].

Müəllifin bu fikrində iki əsas məqam öz əksini tapmışdır:

a) Miflər bizə, əslində, olmuş hadisələri və şəxsləri təqdim etmir, yəni uydurmadır.

b) Mifoloji düşüncə ilə yaşayan insanlar bizim bu gün uydurma hesab etdiyimiz həmin hekayələri həqiqət kimi qəbul edirlər.

Beləliklə, mifin mahiyyətini inam təşkil edir. K.Levi-Strosun yazdığı kimi: ""Mif nə qədər ki, mif kimi qavranılır, o, mif olaraq qalır" [7, s. 194]. Yəni bir uydurma xarakterli hekayətin həqiqiliyinə inanılırsa, o, artıq mifdir.

Təbii ki, empirik biliklərə əsaslanan elmin olmadığı həmin dövrdə insan dünyanı, gerçəkliyi, onda baş verən hadisələri bu uydurma əhvalatların vasitəsilə dərk etməyə, anlamağa çalışırdı.

F.Bayat mifi məhz bu mənada düşüncə üsulu kimi səciyyələndirir: "Mif dəyərlər paradiqmasında dünyanı dərketmə, şəkilləndirmə, simvollaşdırma, yəni həyatın və hadisələrin ümumiləşdirilmə modelidir. Mif məna paradiqmasında düşüncə tərzi, şüur, bilgi və şüur növüdür" [2, s. 194].

Alimlər mifləri müxtəlif şəkillərdə təsnif edirlər. Onların ən ümumi bölgüsü belədir:

1. Kosmoqonik miflər;
2. Etnoqonik miflər;
3. Təqvim mifləri [1, s. 14].

Kosmoqonik miflər, ümumiyyətlə, dünyanın yaranmasından, etnoqonik miflər insanların, cəmiyyətin, dövlətin və s. yaranmasından, təqvim mifləri isə zamanın, vaxtın, əlamətdar günlərin, bayramların və s. necə meydana çıxmasından bəhs edir. Bu mif növləri, əslində, bir-birindən ayrılmazdır və ümumən kosmoqonik mifin tərkib hissəsidir. V.N.Toporovun yazdığı kimi: ""Kosmoqonik miflər və kosmoloji təsəvvürlər mifopoetik dünyagörüşün başqa formaları arasında xüsusi yerə malikdir: ona görə ki, kainatın məkan-zaman ölçülərini, başqa sözlə, insanın mövcudluğunun baş verdiyi şəraiti təsvir edir və mif yaradıcılığının obyekti ola bilən hər şey ona yerləşdirilir" [10, s. 6].

C.Bəydili (Məmmədov) yazır ki, etnoqonik miflər kosmoqonik prosesin, kosmosun xaosdan ayrılması hadisəsinin axırıncı mərhələsi, yəni xalqların və sosial nizamın yaranması mərhələsini təsvir edir [3, s. 118]. Bu cəhətdən, etnoqonik miflər mifoloji düşüncədə cəmiyyətin tarixi ilə daha yaxından bağlı olan miflərdir. Bir səciyyəvi nümunəyə diqqət edək.

Mətnlərdən birində nəql olur ki, "Qaflankufdan bu yanə Azərbaycandı, o yanə Erandı. Qaflankufunan Arasın ərasında bir kişi şahımış, Azər adında. Arasınan Dərbəndin ərasında da bir övrat şahımış, Baniyə adında. Bıllar İsa ruhullahdan 800 il

qəbaxıdılar. Bıllar əvlənillər, topraxlarını da qatıllar bir-birinə. Sora bılların topraxına Azərbaniyə deyillər. Bı Azərbaniyə indiki Azərbaycan adlanır" [1, s. 45].

Göründüyü kimi, bu etnoqonik mif mətni Azərbaycan adının və dövlətinin necə yaranması tarixini nəql edir. Bu mətn onu yaradan və öz düşüncəsində gəzdirən insanlar üçün real tarixi hesab olunurdu. Çünki bizə bu gün adi bir hekayət təsirini bağışlayan bu mətn qədim insanlar üçün onların tarixi idi. Buradan aydın olur ki, mifin, o cümlədən etnoqonik miflərin mahiyyətini "tarix" təşkil edir. Lakin bu tarixi bizim indi başa düşdüyümüz "tarix"dən fərqli olaraq, uydurma məzmuna malik idi. İnsanların onu real tarix kimi qəbul etməsinin səbəbi həmin miflərdə olan hadisələri həqiqət kimi qəbul etmələri ilə bağlı idi. Həmin həqiqətin əsasında isə o hadisələrin ulu əcdadlarla, tanrılarla bağlı müqəddəsliyi dururdu.

N ə t i c ə

Miflər bütövlükdə dünyanın, cəmiyyətin və zamanın necə yaranmasını izah edir. Bu cəhətdən, mifin bütün tematik növləri, əslində, bizə "mifik tarixi" nəql edir. Bu növlər içərisində etnoqonik miflər bilavasitə xalqların, cəmiyyətlərin, dövlətlərin meydana çıxması baxımından "tarixə" daha yaxın hesab olunur.

Mifologiya, bir tərəfdən, qədim insanın düşüncə üsulu, şüur forması, o biri tərəfdən, həmin düşüncə və təsəvvürləri nəql edən hekayətlərdir. Dünya haqqındakı bütün bilgilər miflərdə bir hekayət, əhvalat kimi nəql olunur. Mifin nəql etdiyi tarix "müqəddəs tarix" hesab olunur. Ancaq mifin "tarix" anlayışı ilə müasir düşüncənin "tarix" anlayışının bir-birindən tamamilə fərqli olmasıdır. Müasir düşüncədə tarix adına həqiqətən baş vermiş hadisələr qəbul olunur. Miflərdə tarix adına real baş vermiş hadisələr yox, fantastik hadisələr nəql edilir. Məsələnin bütün mahiyyəti həmin uydurma hekayətlərin mifologiyada həqiqət kimi qəbul olunması ilə bağlıdır.

Kosmoqonik miflər, ümumiyyətlə, dünyanın yaranmasından, etnoqonik miflər insanların, cəmiyyətin, dövlətin və s. yaranmasından, təqvim mifləri isə zamanın, vaxtın, əlamətdar günlərin, bayramların və s. necə meydana çıxmasından bəhs edir. Bu mif növləri, əslində, bir-birindən ayrılmazdır və ümumən kosmoqonik mifin tərkib hissəsidir. Bu cəhətdən, etnoqonik miflər mifoloji düşüncədə cəmiyyətin tarixi ilə daha yaxından bağlı olan miflərdir.

Ə D Ə B İ Y Y A T

1. Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön söz və izahların müəllifi A.Acalov. Bakı: Elm, 1988, 196 s.

2. Bayat F. Mitolojiye Giriş. Çorum: Kara M, 2005, 150 s.

3. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.

4. Qaliboğlu E. Yaradılış mifləri və Azərbaycan əfsanələri. Bakı: Elm və təhsil, 2020, 180 s.

5. Байбурин А.К. Миф / Свод этнографических понятий и терминов, вып. 4. Москва: Наука, 1991, с. 75-78.

6. Байбурин А.К. Мифология / Свод этнографических понятий и терминов, вып. 4. Москва: Наука, с. 80-83

7. Леви-Строс К. Структурная антропология. Москва: Глав. Ред Вост. Лит., 1985, 536 с.

8. Мелетинский Е.М. Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. Москва: Советская энциклопедия, 1990, с. 634-640

9. Стеблин-Каменский М.И. Миф. Ленинград: Наука, 1976, 121 с.

10. Топоров В.Н. Космогонические мифы / Мифы народов мира. В 2-х томах. Том 2. Москва: Советская энциклопедия, 1982, с. 6-9

11. Элиаде М. Аспекты мифа. Москва: Академический проект, 2001. 240 с.

Багирова ФАТИМА

ЭТНОГРАФИЧЕСКИЕ МИФЫ И ИСТОРИЯ: ТЕОРЕТИЧЕСКИЙ АСПЕКТ

РЕЗЮМЕ

Мифы полностью объясняют порядок возникновения мира, общества и времени. По сути, все тематические типы мифа передают нам «мифическую историю». В рамках таких типов этногонические мифы рассматриваются ближе к «истории» с точки зрения непосредственного возникновения народов, обществ, государств.

С одной стороны мифология – это образ мышления древнего человека, форма сознания, а с другой стороны – это истории, передающие такие мысли и идеи. Вся информация о мире передается в мифе как история. История, переданная мифом, рассматривается как «священная история». Но понятие «истории» мифа и понимание «истории» современной мысли совершенно различны. В современном мышлении события, которые произошли на самом деле, принимаются как история. В мифе, событие, не произошедшее на самом деле, а фантастическое событие, передается во имя истории. Вся суть темы связана с принятием таких фантастических историй за реальность в мифологии.

Космогонические мифы, в целом, описывают возникновение мира, этногонические мифы описывают формирование людей, общества, государства и т.д., а календарные мифы описывают возникновение времени, периода, знаменательных дней, праздников и т.д. Такие типы мифов на самом деле неотделимы друг от друга, и в целом они рассматриваются как содержательная часть космогонического мифа. В связи с этим этногонические мифы - это те, которые тесно связаны с историей общества в мифологической мысли.

Ключевые слова: миф, мифология, этногонические мифы, космогонические мифы, календарные мифы, история, священная история, первый предок

Bagirova FATIMA

ETHNOGONIC MYTHS AND HISTORY: THEORETICAL ASPECT

SUMMARY

Myths completely explain the order of emergence of world, society and time. All thematic types of myth, in fact, convey to us "mythical history". Within such types, ethnogonic myths are considered closer to “history” in point of view of directly the emergence of peoples, societies, states.

Mythology, on the one hand, is the ancient man's way of thinking, form of consciousness, and on the other hand, stories that convey those thoughts and ideas. All information about world are conveyed in myth as a story. History conveyed by myth is considered as a “sacred history”. But the conception of “history” of myth with the conception of “history” of modern thought are completely different. In modern thought, events that actually happened are accepted as a history. In myth, not really happened event, but fantastic events are conveyed to the name of history. All essence of the topic is related with acceptance of such fiction stories as a reality in mythology.

Cosmogonic myths, in general, describe the emergence of the world, ethnogonic myths describe the formation of humans, society, state and etc and calendar myths describe the emergence of time, period, significant days, holidays and etc. Such typesof myths in fact are not separable and in general those are considered as content part of cosmogonic myth. Due to this, ethnogonic myths are ones which are closely related with the history of society in mythological thought.

Key words: myth, mythology, ethnogonic myths, cosmogonic myths, calendar myths, history, sacred history, first ancestor

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNLI NƏRMİN ELÇİN QIZI
Azərbaycan Dillər Universiteti,
Bakı ş.
Rəşid Bəhbudiv küç, 134
Nerminhuseynli@yahoo.com

SOL BELLOUNUN "HERSOQ" ROMANINDA EKZİSTENSİAL TƏNHALIQ PROBLEMİ

Xülasə

Məqalədə XX əsrin görkəmli Amerika yazıçısı Sol Bellounun "Hersoq" romaninda ekzistensial tənhaliq problemi araşdırılır. II dünya müharibəsindən sonra Amerikada məskunlaşan yəhudu əsilli yazıçı Sol Bellounun yaratdığı maraqlı və oxunaqlı əsərləri ilə tanınır. O əsərlərinə görə Nobel və bir çox mükafatlara layıq görülmüşdür. "Hesoq" romanı 1964-cü ilə yazılmışdır. Bu romana görə yazıçı Milli Kitab mükafatı və Beynəlxalq mükafata layiq görülmüşdür. Əsər o dövrdə ilin ən yaxşı kitabı seçilir.

Əsərdə avtobioqrafik elementlər əks olunur. Əsərin əsas qəhrəmanı 47 yaşlı professor Mozes Yelkana Hersoqdur. Romanda uğurluzluğa uğrayan ikinci nigahından sonra Hersoqun psixoloji vəziyyəti əks olunur. Baş qəhrəman yaşadığlarını təhlil edərək başına gələnlərdə səbəb və nəticənin yaradan amilləri araşdırır. Romanda cəmiyyətin insan həyatına olan təsirləri əks olunur. Cəmiyyəti yaradan insan faktoru yazıçşının əsər boyu diqqət mərkəzində yer alır. Əhatə olunduğu insanlardan sevgi və minnətdarlı gözləyən professor xəyanətlə rastlaşır. Hersoq tənhalığını sanki özünə unutdurmaq üçün şəxsən tanıdığı və tanımadığı insanlara məktublar yazır. Əsərin sonunda məktub yazmaqdn da əl çəkən Hersoq özünü uzun sürən sağalma prosesi kiçirən insana bəzədir.

Açar sözlər: Sol Bellou, "Hersoq", Mozes Hersoq, ABŞ ədəbiyyatı.

Azərbaycan Respublikasının dünyaya inteqrasıyasının vüsət aldığı bir zamanda dünya xalqları ilə iqtisadi, siyasi, sosial, ictimai, ədəbi-mədəni sahələrdə Azərbaycan xalqının dünya xalqları ilə qarşılıqlı anlaşması və əlaqələri aktual bir problemə çevrilmişdir. Belə ki, bu gün dünyamızın daha da çiçəklənməsi, insanların rahat, firavan və sülh içərisində ömür sürüb çalışması dünya xalqları arasında ünsiyyətdən, həyatın bütün sahələrində əməkdaşlığından və mədəniyyətlərarası bağlardan çox asılıdır. Bu baxımdan Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran təxirəsalınmaz vəzifələrdən biri də dünya ədəbiyyatının incilərini araşdırıb öyrənmək, dünya ədəbiyyatından bəhrələnmək və Azərbaycan ədəbiyyatının dünyada təbliğidir. Dünyamızın iqtisadi və siyasi baxımından nüfüzlu və bir çox millətlərin yaşadığı dövləti olan Amerikada yaranmış ədəbi irsdən bəhrələnmək dünya xalqlarının mədəni irsinə həmişə hörmətlə yanaşan multikultural vətənimizin gəncləri, ədəbiyyatşünasları və oxucuları üçün önəmlidir. İkinci Dünya müharibəsi

bir çox xalqların tarixində, ədəbiyyatında və eləcə də Amerika ədəbiyyatında dərin izlər qormuşdur. Belə ki, Amerikaya gələn imiqrantların sayəsində burada yəhudi-Amerikan ədəbiyyatı təşəkkül tapdı. Bu dövrdə yaranan Amerika ədəbiyyat xəzinəsinə yəhudi mühacir yazçıların xeyli tövhələri olmuşdur. Bu yazarlar sırasında Sol Bellounun özünəməxsus yeri var. XX əsr Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan yəhudi əsilli Sol Bellou yaratdığı maraq doğuran, oxunaqlı və dərin insan psixologiyasını əks etdirən əsərləri ilə tanınmışdır. Müasir Amerika ədəbiyyatının ən çox yaradıcılığı tədqiq olunan yazıçılarından olan modernizm ədəbi cərayanının nümayəndəsi Sol Bellou U. Şekspir, L. Tolstoy və F. Dostoyevski kimi yazarlarla bir cərgəni təmsil edən sənətkardır. Bir çox ədəbi mükafatların qalibi olan Sol Bellounun yaratdığı əsərlərdə insan psixologiyası, qəhrəmanların daxili aləmi, həyata baxışları, əsas qəhrəmanların öz mövcudluqlarını dərk etmə və insan mövcudluğunun mahiyyətinin səbəbləri əks olunur. Sol Bellonun romanlarında qəhrəmanların yaşadıqları cəmiyyətdəki yeri və bir şəxsiyyət kimi formalaşmasında rolu açıqlanır. Böyük Britaniya və ABŞ ədəbiyyatının yazıçı və jurnalisti olan Kristofer Hiçens dahi yazıçı haqqında deyirdi: "Sol Bellonun dahiliyi ondadır ki, o yüksəliklə aşağıda olanı, düşünənlə fəaliyyətdə olanı, fil sümüyündən olan qüllə ilə qettonu birləşdirə bilirdi" [1,s.1].

Sol Bellou 1964- cü ildə nəşr etdirdiyi "Hersoq" romanı yazıçının ən gözəl nailiyyətlərindən biri kimi dəyərləndirilir. Yazıldığı dövrün ən qeyri- adi ədəbiyyat nümunələrindən biri olan bu romanına görə müəllif Milli Kitab mükafatı və Beynəlxalq mükafata layiq görülmüşdür [2,s.1]. "Hersoq" romanı "Time" jurnalında ingilis dilindəki 100 ən yaxşı romanlar sırasında yer almışdı. Ədibin altıncı romanı olan "Hersoq" onun əsərləri arasında həcmcə ən böyük kitabıdır və bu roman yazıçını ictimai xadimə çevirmişdir [2, s.1]. Roman yaradıcı insanın problemlerinə, onun insan mövcudluğunun dərkinə, anlamına, insanı ekzistensial tənhalığa sürükləyən səbəblərə, cəmiyyətin insan həyatındakı roluna və fəaliyyətinə həsr olunmuşdur. Sol Bellounun yaradıcılığına diqqət etsək görərik ki, onun yaradıcılığında ekzistensial tənhalıq problemi mühüm yer tutur. Latın dilindəki "*exsistensia*" sözündən yaranan və "varlıq" mənasını verən ekzistensialim ədəbi cərəyanınn əsasını alman mütəfəkkiri Martin Haydegger qoymuş, fransız yazıçı və filosofu Jan Pol Sartr tərəfindən bu anlayış ədəbiyyata gətirilmişdir [3]. Ekzistensializm ədəbi cərəyanı XX əsrin 50-60-cı illərində J.P. Sartr və A.Kamünün əsərlərində yer alır. Tənhalıq anlayışının iki forması fərqləndirilir: gündəlik həyatda, məişətdə təzahür edən tənhalıq və ekzistensial tənhalıq. Şəxsiyyətlərarası səciyyə daşıyan gündəlik həyatda müşahidə olunan tənhalıq insanın digər insanlardan təcrid olunması, başqaları tərəfindən qəbul edilməmək, sevilməmək qorxusu ilə müşahidə olunur. Ekzistensial tənhalıq anlayışı daha dərin anlayış olub şəxsiyyətlər arasındakı dəf edilməz, keçilməz uçurum kimi təzahür edir. Bu tip tənhalığın mahiyyəti insanın həyata tək gəlib, həyatdan tək getməsi olmayıb, varlığın, şəxsiyyətin öz qanunları ilə yaratdığı öz dünyasında mövcudiyyətidir, insanın öz reallığını, təkrarsız dünyasını

yaratmasıdır. Ömrün gənc çağlarında deyil, ən çox yaşa dolarkən insanlarda müşahidə olunan ekzistensial tənhalıq təkcə insanın bioloji həyatının itirilməsi olmayıb, bütün dünyasının əldən getməsi deməkdir [4,s.1]. Bu cərəyanın əsas məğzi və mahiyyəti insanın özünü mühakimə etməsidir. Adı Ceymis Coysun "Ulis" romanından götürülmüş [5, s.73] "Hersoq" romanı birinci və üçüncü şəxs tərəfindən nəql edilir. Əsərin baş qəhramanı romanın adından da göründüyü kimi elmi işçi və eyni zamanda müəllimlik fəaliyyəti ilə məşğul olan 47 yaşlı professor Mozes Yelkana Hersoqdur. Hersoq obrazı ilə S. Bellou hərtərəfli, bilikli bir qəhrəmanın portretini canlandırmışdır. Bu qəhrəman mövcudluğun mürəkkəbliyi, çətinliyi və keşməkeşləri ilə mübarizə aparmalı olan və bu yolda bütün varlığı ilə xilas yolu axtaran bir insandır. "Həyatın mürəkkəb hadisələri, insanların mənəvi-psixoloji aləminin təhlilinin güclənməsini" [6, s.307] əks etdirən bütün romanlarda olduğu kimi S. Bellounun "Hersoq" romanının əsas mövzusu baş qəhrəmanın qadınlarla, dostları ilə, övladları ilə, qohumları ilə, yaşadığı cəmiyyətlə qarşılıqlı münasibəti və eyni zamanda özünə, öz şəxsiyyətinə olan münasibətidir. Romanın demək olar ki, xeyli hissəsini pratoqonistin öz düşüncələrini, mülahizələrini, fikirlərini, baş verən hadisələrdən və mövcud şəraitdən, özünün aqibətindən çıxardığı qənaətləri əks etdirən məktubları təşkil edir. O məktubları D. D. Eyzenhaurə, Fridrix Nitsşeyə, özünün intellektual opponentlərinə, ölmüş anasına, hətta Allaha belə gah kağız üzərində, gah da beynində, fikrən yazır. Baş qəhrəmaın məktubları hər kəsə, ailə üzvlərinə, tanıdığı və şəxsən tanımadığı, sağ olan və hətta həyatdan köçüb getmiş insanlara, dövlət xadimlərinə ünvanlansa da, bu məktublar heç vaxt ünvanlanan şəxsə göndərilmir, yalnız durğun, yeknəsək bir həyat sürən tənhalığa məhkum olunmuş, orta yaşlarında sevdiyi və uğrunda hər şeyini, akademik karyerasını, vardövlətini qurban verdiyi ikinci həyat yoldaşı tərəfindən rədd edilmə böhranı yaşayan bir şəxsin kağıza köçürdüyü düşüncələri olaraq qalır. S. Bellounun yaratdığı Hersoq obrazı müasir Amerika həyat tərzinin nümayəndəsidir. Əsər həyatda uğursuzluğa düçar olan biri olaraq, "Ağlımı itirəcəyəmsə, deməli, qismət beləymiş" [7,s.6] deyə düşünən bir insanın hekayəsidir. Həm uğursuz müəllif və müəllim, həm uğursuz ər, həm də uğursuz ata olan Mozes Hersoq özünü təyatında baş verən tələtümlərdən, şəxsi fəlakətlərdən və müasir dövrün məhvindən sağ çıxan biri kimi görür. Həm karyerası, həm elmi fəaliyyəti, həm də ailəsi ikinci arvadının qeyri-sağlam məsləhətləri nəticəsində gözlənilmədən dağılan, övladlarına yaxşı ata ola bilməyən Hersoq öz həyatını "uzun sürən xəstəliyə deyil, uzun sürəcək bir sağalmaya" bənzədirdi [7,s.11]. Hersoqun mövcudiyyət uğrunda çarpışması passiv olaraq qalır, o ancaq ölüm və uğursuzluq haqqında düşündüklərini heç vaxt heç kimə göndərmədiyi məktublara köçürür. Ölümdən qorxmayan, ancaq ölmək istəməyən, özünün ekzistensializmi uğrunda passivcəsinə çalışan, psixi pozğunluq həddinə qədər çatan Hersoq artıq xaos, anlaşılmazlıq və qarmaqarışıqlıqdan ibarət olan postmodernist bir həyat yaşayır. İkinci nigahının pozulması, gözlənilmədən ikinci arvadı Madlenin onu həyatından həmişəlik çıxarması, dostu Valentayn Gersbaxın

ona xəyanəti, hətta onunla yaxşı münasibətdə olan Madlenin anası Tinninin və xalası Zeldanın Madleni müdafiə etməsi, atasından miras qalan pulun Madlenin sayəsində əlindən çıxması onun fiziki və mənəvi sarsılmasına və hətta qatil ola biləcək bir vəziyyətə düşməsinə səbəb olur. İnsanın niyə mövcud olduğunu düşünən, tam olaraq tənəzzülə uğrayan Hersoq qardaşlarını, bacısı Heleni, birinci və ikinci nigahdan olan oğlu Markonu və qızı Cunu sevdiyini bildirir, ancaq bu sevgi real həyatda əsl ata məhəbbəti olaraq izlənilmir və görünmür. Qızı Cuna qarşı arvadı Madlenin və onun sevgilisi Valentayn Gersbaxın pis davranışını eşidən Hersoq onları öldürmək fikrinə düşsədə, kənardan onları müşahidə edərkən Cuna qarşı valentaynın qayğısını gördükdə daxilndəki humaniz onu cinayət etməkdən çəkindirir və hətta o, ona xəyanət edən, onu arvadı ilə aldadan dostuna belə haqq qazandırır. Hersoqu çulğalayan tənhalıq, birinci arvadı Deyziyə qarşı etdiyi ədalətsizlik, ikinci arvadının ona qarşı amansızlığı onu səbəb və nəticə haqqında düşünməyə məcbur edir. Hersoq romanında zaman anlayışının dəyşdiyinə, keçmişlə indiki zamanın təsvirinə olan bir məqam da diqqətimizi çəkir. Bu romanda hadisələrin ardıcıllığı pozulur. Hətta təhkiyəçi oxucuya romanı nəql etdiyi zaman keçmiş və indiki zaman arasında baş verən, cərəyan edən hadisələr, olaylar ardıcıllığından bəhs edir. Beləliklə, Hersoq romanında tez-tez hadisələr gah keçmiş zamanda, gah da indiki zamanda baş verir. Bunun səbəblərindən biri olaraq əsərin baş qəhrəmanı olan Mozes Hersoqun yazdığı məktubları da misal gətirmək olar. Hersoq daim öz daxili aləmində özü-özü ilə danışır, yaşadığı mühiti öz baxış bucağından təhlil edir, baş verən hadisələri götür-qoy edir, başına gələnlərdən gileylənir. Hadisələr reallıq və baş qəhrəmanın yazıb göndərmədiyi məktublarındakı xəyalları, arzuları və təbii ki, şikayətləri arasında cərəyan edir. Hersoq romanının baş qəhrəmanının xarakterində mənəviyyat baxımından bir insan kimi qorxaqlıq, acizlik, uzağı görməmə, yaxşı və pisi, səmimiyyəti və qeyri- səmimiliyi dəyərləndirə bilməmə, valideyn, ata kimi məsuliyyətsizlik daha çox müşahidə olunur. Ona sadiq və mehriban həyat yoldaşı olan Deyzini qiymətləndirməyən Hersoq oğluna yetərli ata ola bilmir, övladının ona ehtiyacı olan anlarda yalnız eqoistcəsinə öz problemlərini əsas gətirərək onunla görüşdən qaçır. Beləliklə o, ata-oğul münasibətlərinin yaranmasını, valideyn-övlad bağlarının möhkəmlənməsini özünün qətiyyətsiz zəif təbiəti ilə sarsıtmış olur. İkinci həyat yoldaşı olan Madlinin ona xəyanət etməsinə, onu uçuruma aparan qərarlar verməsinə, zəhmətlə yaratdığı karyerasına, elmi fəaliyyətinə etinasız yanaşaraq yalnız öz istəklərini və tələblərini ön plana qoymasına baxmayaraq onun hər bir istəklərinə itaətlə və qeyri-iradi əməl edən Hersoq onun yanında aciz bir zavallı obrazı sərgiləyir və sonda Madlinin hörmət və məhəbbətini qazanmaqdan məhrum olaraq hər şeyini itirir.

Başına gələn bütün bu uğursuzluqlara baxmayaraq baş qəhrəman olan 47 yaşlı Hersoq düşdüyü acınacaqlı vəziyyətdən özünü xilas etmiş kimi davranırdı. Öz xilasını o iki şəhəri- Nyu Yorkdan və Çikaqonu tərk edib getməkdə görürdü. Onun fikrincə Nyu Yorkdan və Çikaqodan Massaçusesə köçüb getməklə o şəxsi həyatının,

həmçinin həyatın onun çiyinlərinə yüklədiyi maddi və mənəvi qayğıları unudacağına böyük ümid edirdi. Əslində isə reallıq isə olduqca tam fəqli idi. Hersoqun başqa bir şəhərə köçərkən apardığı cəmiyyətdən atılmış, tənha bir adamın düşüncələri idi.

Sol Bellonun romanlarının ana xətti və eyni zamanda da qayəsi olan özünü tapma, qəhrəmanın öz kimliyinin axtarışı Hersoq romanında da açıq aydın əsərin baş qəhrəmanı olan Hersoqun obrazında əks olunur. Yaşadığı durğun həyatdan bezmiş, onu əhatə edən məişətdə, yaşadığı evdə belə ətalətin, passivliyin hökm sürdüyü mühitdə öz fikirləri ilə əlbəyaxa olub çabalayan, eyni zamanda da başına gələn olayların yaranma səbəbindən doğan suallarına cavab axtaran baş qəhrəmanla əsərin müəllifi olan Sol Bello arasında yaxın bir bənzərlik var. Belə ki, əsərdə bioqrafik elementlər öz əksini tapır, yəni "Hersoq" romanı özündə avtobioqrafiq elementlər ehtiva edən bir əsərdir. Hersoq da Sol Bellou kimi Rusiyadan, Sankt-Peterburq şəhərindən Kanadaya mühacirət etmiş Çikaqoda yaşayan yəhudidir. Hər ikisinin atası çəkməçi olmuşdur və hər ikisi də bir neçə dəfə evli olub boşanmışdır. Hersoqun ikinci arvadı Madlen və onun xəyanətkar dostu Valentayn Gersbax Sol Belounun ikinci həyat yoldaşı Sondra Şaxbasova və onun arvadı ilə münasibəti olan uzun müddət dostluq etdiyi Cek Ludvikin obrazlarıdır. Hersoqun sevgilisi Ramona isə Sol Belounun sevgilisi Fransız professor Rozet Lamontun obrazıdır [8,s.3]. Sol Bellouna görə bədii ədəbiyyat avtobioqrafiyanın daha yüksək formasıdır. Ədib Hersoqu yaratmaqla onun timsalında sanki öz obrazını yaratmış olur. Sözsüz ki, Sol Bellou və Hersoq arasında danılmaz fərq Bellonun həyatda uğurlu bir insan olmasıdır. Hər bir düşüncəsini insanlara danışmaqla deyil, kağız üzərinə köçürməklə keçinən Hersoq bununla sanki öz əsəblərini cilovlayır, sakitləşirdi. Belə ki, həmişə dostlarına, düşmənlərinə, dövlət xadimlərinə, məhşur insanlara, hətta ölmüş insanlara belə məktub yazan və onları göndərməyən Hersoq "məktubların özlərini tükəndirdiyinin etirafına doğru" [7, s.510] gedir və sonda məktub yazmağa da son qoyur və belə bir qənaətə gəlir: "İndilikdə onun heç kim üçün heç nəyi yoxdur. Heç nəyi. Bircə kəlməsi də" [7, s.510].

Sol Bellou "Hersoq" romanında həmçinin tarixi, mifolojı və həmçinin reallıq ünsürlərindən, elementlərindən müəllif ustalıqla, bacarıqla istifadə etmişdir. Ədib bu romanda ədəbi vasitə olan sinvollardan, rəmzlərdən də məharətlə istifadə edir. Məsələn, Hersoqun sevgilisi Ramonanın gül mağazası var və evləri də güllər əhatə edir. Mozes hersoqun bu çiçəklərdə gözəlliyi tapmaq bacarığı onun bu nizamsız dünyanın gözəlliyini başa düşmək bacarığının rəmzidir. Romanda ramonanın xalasının saatı da Hersoqa görə malik olmaq istədiyi stabilliyin və təşkilatın rəmzidir. Əsərdəki bir çox əşyalar kimi saat da zidd anlayışların, qədimliyin və müasirliyin rəmzidir. Hersoqun kənddəki təcrid olunmuş və orada əvvəllər yaşayanların xatirələri ilə yüklənən evi cəmiyyətdən və ailəsindən kənarlaşdırılaraq təcrid olunan tənha və dərdləri ilə yüklənmiş Hersoqun özünün rəmzidir [9].

Sol Bellou ən dahi nasirlərdən biri olub, roman janrının inkişafına əhəmiyyətli tövhələr vermişdir. Onun güclü dünyagörüşü və nadir üslubu əsasında

ərsəyə gələn romanları canlı həyatdan götürülmüşdür və həyatın fəal obrazı olan insanın psixoloji və mənəvi aləmini əks etdirir. Sol Bellounun yaradıcılığına nəzər saldığımız zaman onun əsərlərində monotonluq deyil, bunun tam əksi olaraq rəngarənglik müşahidə olunur. " Hersoq" romanı da özünün üslubi rəngarəngliyi ilə seçilir. Sol Bellounun romanlarının üslubu və dili qəliz olsa da, əsərləri oxucuların yaddaşında iz qoyur və sevilə- sevilə oxunulur.

İstifadə olunmuş ədəbiyyat:

1. Christopher Hitchens "The Great Assimilator". https://www.theatlantic.com/magazine/archive/2007/11/the-great-assimilator/306331/
2. Louis Menand."Young Saul". The subject of Bellow's fiction. https://www.newyorker.com/magazine/2015/05/11/young-saul
3. Nəcəfov E. "Ekzistensializm: Heç bir güc insandan üstün deyil". http://senet.az/hec-bir-guc-insandan-ustun-deyil/
4. Ялом И. Экзистенциальное одиночество. https://basileus.org/ekzistentsialnoe-odinochestvo
5. Rüstəmova Z.A. Sol Bellounun "Hersoq" Romaninin Bədii Xüsusiyyətləri. https://mutercim.az/wp-content/uploads/jurnal/Sbornik_2018-2.pdf
6. Hacıyev A. "Ədəbiyyatşünaslığın əsasları". Bakı,"ADU" nəşriyyatı, 2005.
7. Saul Bellou "Hersoq". Bakı,"Şərq- Qərb", 2013.
8. https://en.wikipedia.org/wiki/Herzog_(novel)
9. https://www.sparknotes.com/lit/herzog/symbols/

Huseynli N. E.

THE PROBLEM OF EXISTENTIAL LONELINESS IN SOL BELLOW'S NOVEL "HERZOG"

SUMMARY

The article studies the problem of existential loneliness in the novel " Herzog " by Sol Bellow, an outstanding American writer of the 20th century. Sol Bellow is a writer of Jewish origin who settled in America after World War II. He is known for his interesting and readable works. He was awarded the Nobel Prize and many other prizes for his works. The novel "Herzog" was written in 1964. For this novel, the writer was awarded with the National Book Award and the International Award. The work was selected as the best book of the year at that time. The autobiographical elements are reflected in the work. The main hero, the protagonist of the novel is 47-year-old professor Mozes Yelkana Herzog. The work reflects Herzog's psychological condition after his unsuccessful second marriage. The main character analyzes his experiences and investigates the factors that create cause and result in what happened to him. The novel reflects the effects of society on human life. The human factor that

creates society is in the focus of the writer throughout the work. The professor, who expects love and gratitude from the people he is surrounded, meets with betrayal. Herzog writes letters to people he knows personally and to people he doesn't know, as if to make himself forget his loneliness. Herzog, who stopped writing letters at the end of the work, describes himself as a person who undergoes the long process of recovery after a serious illness.
Key words: Saul Bellow, “Herzog”, Moses Herzog, USA literature.

ГУСЕЙНЛИ Н. Э.

ПРОБЛЕМА ЭКЗИСТЕНЦИАЛЬНОГО ОДИНОЧЕСТВА В РОМАНЕ СОУЛ БЕЛЛОУ «ГЕРЦОГ»

РЕЗЮМЕ

В статье исследуется проблема экзистенциального одиночества в романе «Герцог» выдающегося американского писателя XX века Соула Беллоу. Соул Беллоу, писатель еврейского происхождения, поселившийся в Америке после Второй мировой войны, известен своими интересными и читабельными произведениями. За свои работы он был удостоен Нобелевской премии и многих других премий. Роман «Герцог» был написан в 1964 году. За этот роман писатель был удостоен Национальной книжной премии и Международной премии. Произведение было выбрано лучшей книгой года того времени. В произведении отражены автобиографические элементы. Главный герой произведения – 47-летний профессор Мозес Елкана Герцог. Роман отражает психологическое состояние Герцога после его неудачного второго брака. Главный герой анализирует свой опыт и исследует факторы, создающие причину и результат того, что с ним произошло. В романе отражено влияние общества на жизнь человека. Человеческий фактор, создающий общество, находится в центре внимания писателя на протяжении всего произведения. Профессор, ожидающий любви и благодарности от окружающих его людей, сталкивается с предательством. Герцог пишет письма людям, которых знает лично, и людям, которых не знает, как будто для того, чтобы заставить себя забыть о своем одиночестве. Герцог, переставший писать письма в конце произведения, описывает себя как человека, проходящего длительный процесс выздоровления после тяжелой болезни.
Ключевые слова: Сол Беллоу, “Герцог”, Мозес Герцог, литература США.

Redaksiyaya daxil olma tarixi: 11.02.2022
Çapa qəbul olunma tarixi: 28.02.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru , dosent Nuranə Nuriyevə tərəfindən çapa tövsiyə olunmuşdur

İÇİNDƏKİLƏR:

SİMA QULİYEVA
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TEXNİKİ TERMİNLƏRİN İNKİŞAFINDATERMİNOLOJİ LÜĞƏTLƏRİN ROLU 3

NAMAZ MANAFOV,
CEYHUN HACIBƏYLİNİN ELMİ YARADICILIĞINDA QARABAĞ DİALEKTİ 9

ESMIRA ALLAHVERDI QIZI QULIYEVA,
DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA
"KİTABİ-DƏDƏ QORQUD"DA İŞLƏNƏN TƏYİNİ SÖZ BİRLƏŞMƏLƏRİ 18

B.M.ABIYEVA V.G.
M.SƏFİXANOVA A.H.
FRAZEOLOJİ BİRLƏŞMƏLƏR, ONLARIN İNGİLİS VƏ AZƏRBAYCAN DİLİNDƏ LEKSİK XÜSUSİYYƏTLƏRİ 24

ARİFƏ YUSİFOVA
SADƏ NƏQLİ CÜMLƏNİN KOMMUNIKATİV TƏBİƏTİ 30

MƏTANƏT HACIYEVA
AZƏRBAYCAN DİLİNDƏ İŞLƏDİLƏN RUS VƏ AVROPA MƏNŞƏLİ HÜQUQ TERMİNLƏRİ 35

АЛИЯ АБАСКУЛИЕВА
ПЛАНИРОВАНИЕ УРОКА ЧТЕНИЯ ПО НОВЫМ МЕТОДИКАМ ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ 41

РАМИЛЯ ТОФИК ГЫЗЫ ГАМИДОВА
ФРАЗЕОЛОГИЧЕСКАЯ КАРТИНА МИРА В НОВГОРОДСКИХ БЕРЕСТЯНЫХ ГРАМОТАХ 52

ARİFƏ YUSİFOVA
CƏLİL MƏMMƏDQULUZADƏNİN YARADICILIĞINDA ARXAİK SÖZLƏR VƏ TARİXİZMLƏR 59

ESMİRA ALLAHVERDİ QIZI QULİYEVA,
DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA
ÜMUMTÜRK AREALINDA TEONİM

ANLAYIŞLI PARALEL TOPONİMLƏR 66

MƏMMƏDZADƏ SEVİNC SƏLİM QIZI
DİL VƏ ONUN CƏMİYYƏTİN TƏFƏKKÜRÜNDƏ TƏZAHÜRÜ 73

ARİFƏ YUSİFOVA
AZƏRBAYCAN DİLİNDƏ VƏ DİLÇİLİK TARİXİNDƏ
FRAZEOLOGİZMLƏRİN ÖYRƏNİLMƏSİ ,TƏDQİQATI VƏ ONUN
LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 85

MAARİFƏ MANAFOVA
ÜMUMTÜRK DİLLƏRİ DİALEKT VƏ ŞİVƏLƏRİNİN
QARŞILIQLI İNTEQRASİYASI 90

QULİYEVA ƏNTİQƏ N
XIX ƏSR AZƏRBAYCAN DILÇILIYININ GÖRKƏMLI NÜMAYƏNDƏLƏRI:
MIRZƏ CƏFƏR TOPÇUBAŞOV VƏ MIRZƏ CƏFƏR RZAYEV 96

LƏMAN HƏSƏNOVA
TURİZM TERMİNOLOGİYASININ TƏRCÜMƏ ÜSULLARI 102

GÜLNAZ VÜQAR QIZI İBRAHİMLİ
FEİL DÜZƏLDƏN QOVUŞUQ QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR 109

MAHMUDAĞA SARIBALA OĞLU QASIMOV
CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ
SAİT VƏ HECA DÜŞÜMÜ 115

GÜLNAR MƏHƏRRƏMZADƏ
TÜRKOLOJİ DİLÇİLİKDƏ POLİSEMİYANIN TƏDQİQİ 120

HACIYEVA MƏTANƏT
AZƏRBAYCAN DİLİNİN ƏCNƏBİ DİL KİMİ TƏDRİSİNDƏ
QRAMMATİK MİNİMUMUN 127

AYTƏN QULUYEVA
ANTROPONİMİK SİSTEMDƏ TƏXƏLLÜS KATEQORİYASI 134

NƏRGİZ MƏDƏTOVA
İSPAN DİLİNDƏ QRAMMATİK BACARIQLARIN FORMALAŞMASINA
XİDMƏT EDƏN ÇALIŞMALAR SİSTEMİ 142

AFAQ CUMA QIZI HACIYEVA
AZƏRBAYCANDA REKLAM DİLİNƏ DAİR TƏLƏBLƏR 151

ABIYEVA VALİDƏ
SƏFİXANOVA AFƏT
İNGİLİS DİLİNDƏ "THERE + TO BE" VƏ ONUN CÜMLƏDƏ YERİ 161

GULNAR HUSEYNOVA
THE HISTORY OF ENGLISH 169

MƏSUMƏ RƏCƏBOVA
PEDAQOJİ ÜNSİYYƏTİN ÜSLUBLARININ MAHİYYƏTİ 176

MEHRİBAN MURADOVA ƏMRAH QIZI
DİL KONTAKTLARI VƏ İNTERFERENSİYANIN
TƏDQİQ TARİXİNƏ DAİR 182

DÜRDANƏ DADAŞOVA TAŞDELEN
MÜƏLLİM ŞAGİRD İDARƏÇİLİYİNDƏ
YENİ YANAŞMALARIN TƏHLİLİ 190

AYSU ASADOVA
THE SIGNIFICANT ROLES OF TRANSLATION
IN TRANSFERRING CULTURE 197

İLAHƏ ASLANOVA AĞABALA QIZI
DÜNYA DİLÇİLİYİNDƏ SÖYLƏMİN TƏDQİQİ 206

YƏHYAYEVA ELNARƏ
ŞAH İSMAYIL XƏTAİNİN DİLİNİN TƏDQİQİ 213

İRADƏ KƏRİMOVA
MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN LEKSİK NORMALARI
VƏ ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ BU NORMALARA RİAYƏT
OLUNMASI HAQQINDA 224

AYSU GÖZƏLOVA
KİÇİK HƏCMLİ FOLKLOR JANRLARINDA
LEKSİK-SEMANTİK SÖZ QRUPLARI 233

XƏDİCƏ ƏLİYEVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ LİNQVİSTİK
MATERİALLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİ YOLLARI 239

HÜSEYNOVA AYTƏN
TAHIROVA İRADƏ
İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ VƏ İDİOMATİK İFADƏLƏR 246

ƏKBƏROVA GÜLNAR
VAHİD ƏZİZ POEZİYASINDA BƏDİİ XİTAB 252

ƏDƏBİYYATŞÜNASLIQ

AİDA QASIMOVA
ULİYYƏ BİNT MEHDİ – DÖVRÜ, HƏYATI, ŞƏXSİYYƏTİ
VƏ POEZİYASI 261

Dos.QƏDİM İGİD oğlu RUFULLAYEV
SALMAN MÜMTAZIN ARAŞDIRMALARINDA
VAQİF VƏ ONUN ƏDƏBİ İRSİ 273

SULTANOV ƏLİCAN
TEXNİKİ TƏFƏKKÜRÜN İCTİMAİ DƏYƏRI VƏ YA
BƏDİİ-ESTETİK MƏİŞƏT HƏYATI 283

AYNUR HÜSEYNOVA
SMOMPK TOPLUSUNUN AZƏRBAYCAN FOLKLORU TOPLAYICILARI:
A.KALAŞEV 292

MƏMMƏDOVA SEVİNC
GERHART HAUPTMANNIN “SİÇOVULLAR” ƏSƏRİNDƏ BERLİNİN
İCTİMAI-SİYASİ MÜHİTİ 303

XƏLİLOVA QƏRİBƏ
İNSANIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA
CAVİD YARADICILIĞININ YERİ VƏ ROLU 310

HACIYEVA NAZƏNDƏ
MİRZƏ FƏTƏLİ AXUNDOVUN MÜTƏRƏQQİ İDEYALARI 318

AYSEL HƏMİDOVA
“HOMERIN QIZI” MODERNİZMDƏN POSTMODERNİZMƏ KEÇİD
DÖVRÜNÜN ROMANI KİMİ 326

SƏBİNƏ NOVRUZOVA
İBTİDAİ SİNİFLƏRDƏ TAPMACALARIN TƏDRİSİ 333

SEVİNC QASIMOVA
NAĞILLARDA QARAÇUXA OBRAZININ EPİK-MİFOLOJİ
MƏNA XÜSUSİYYƏTLƏRİ 342

AYTƏN İSLAMLI
ALİ TƏHSİLİN BEYNƏLMİLƏLLƏŞMƏSİ 350

NÜŞABƏ ƏLİYEVA,
SEVDA NOVRUZƏLİYEVA
MİRZƏ İBRAHİMOVUN "BÖYÜK DAYAQ"
ROMANINDA OBRAZLAR SİSTEMİ 357

AİDA QASIMOVA
ŞİHƏB ƏD-DİN SUHRAVERDİ
KÖHNƏ LİBASLI, QƏLƏNDƏRİ GÖRKƏMLİ FİLOSOF ŞAİR..... 366

KÖNÜL ƏLİYEVA
AZƏRBAYCAN FOLKLORUNDA İSGƏNDƏR OBRAZININ
EPİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 377

HASILOVA GÜLSÜMXANIM
KAMRAN DADAŞOĞLUNUN (MƏMMƏDOV) NƏSRİNDƏ XALQ
ƏDƏBİYYATINDAN BƏHRƏLƏNMƏ..... 387

SÜLEYMANOVA RUZANƏ
ƏLİZADƏ TAMELLA YUSİF QIZI
İNTİBAH DÖVRÜNÜN DAHİ SƏNƏTKARI..... 397

FATİMƏ BAĞIROVA
ETNOQONİK MİFLƏR VƏ TARİX:NƏZƏRİ ASPEKT 405

HÜSEYNLI NƏRMİN ELÇİN QIZI
SOL BELLOUNUN "HERSOQ" ROMANINDA EKZİSTENSİAL
TƏNHALIQ PROBLEMİ 412

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 28.02.2023
Şərti çap vərəqi 26,5. Sifariş № 28
Kağız formatı 60x84 1/8. Tiraj 500

Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4